www.kitabxana.net

**www.kitabxana.net**

**Milli Virtual Kitabxana**

**Təqdimatında**

# Fərman Kərimzadə

# Xudafərin körpüsü

Tarixi roman

**Elektron kitab N 5**

**Rəqəmsal e-nəşr**

**Redaktoru və e-nəşrə hazırlayanı hazırlayanı:**

**Aydın Xan (Əbilov), yazar-kulturoloq**

**YYSQ - Milli Virtual Kitabxana**

**BAKI- 2009**

www.kitabxana.net

© "Yazıçı" nəşriyyatı, 1982

© Q.Kərimzadə, 2002

*Bu mətni müəllifin razılıgı olmadan kommersiya məqsədi ilə istifadə etmək icazə verilmir.*

"Qarlı aşırım" əsəri ilə böyük ədəbiyyata gələn görkəmli yazıçı, tarixi romanlar ustası Fərman Kərimzadənin "Xudafərin körpüsü" romanında XV əsrin axırı, XVI əsrin əvvəllərində baş vermiş tarixi hadisələr, Şah İsmayıl Xətainin uşaqlıq və gənclik illəri, hakimiyyət uğrundakı mübarizəsi qələmə alınmışdır.

Romanda həmçinin Şah İsmayıl Xətainin bir şair, sərkərdə və dövlət xadimi kimi yetişib formalaşdığı tarixi şərait təsvir edilmiş, Uzun Həsən, Sara Xatun, Hüseyn Lələ bəy, Əbih Sultan kimi tarixi şəxsiyyətlərin yadda qalan obrazları yaradılmışdır.

# DƏMİR AĞACDAN ASILAN BEŞİK

## I hissə
## PROLOQ

Daşın uzü soyuq olur. Nə günəş şüası ilə qızır, nə insan hənirtisi ilə isinir. Bu soyuq, qara, üzü parıltılı daş bir deyildi, iki deyildi... Minlərlə daşı çaylaqlardan gö-türmüşdülər, karxanalarda yonmuşdular, qabar gücünə, taqətdən düşən diz hesabına dağın sıldırım yalına qaldırmışdılar. Burada yumurta sarısından yoğrulan palçıqla biri-birinə bənd etmişdilər. Bürclər ucaltmışdılar, tağlı darvazalar hörmüşdülər, işıqsız zindanlar qurmuşdular.

Buludlara ilişib onları yun əlçimi kimi parçalayan qaya da buz kimi soyuq idi. Quzey divarı çayın sahilindən qartal uçuşu hündürlüyünə qalxan qayanın zirvəsində bünövrə tutmuşdu. Oradan da iyirmi beş, otuz qulac qalxırdı. Ensiz, uzun pəncərəsi lap yuxarıdaydı. Divarı mamır basmışdı, pəncərədən az aralıda daşların arasından dağdağan kolu bitib aşağı sallanmışdı. Pəncərənin yoğun dəmir barmaqlığını pas basmış, pasın üstünü isə daş xınası örtmüşdü. Pəncərənin aşağısı nov kimi yarıq idi. Bu pəncərədən aşağıya baxmaq hər adamın işi deyildi. Aşağılarda səsi eşidilən çayı həmişə görmək mümkün deyildi. Duman dərəyə yüngül, ağ pərdə çəkirdi. Bə’zən də elə qalınlaşırdı ki, sanki o dərələr ağızbaağız qarla dolub.

Düz baxanda meşəli təpələr, dağlar görünürdü. Bu meşələrin üstündə isə bir zirvə ucalırdı. Başı kəllə qəndə oxşayırdı, aşağı getdikcə qarlı şırımlar açılırdı. Nəhəng ağ saqqallı bu zirvə Savalan dağı idi.

– Ana, Savalanın zirvəsinə çıxsan hara görünər?

– Sən ora çıxa bilməzsən, oğlum. Çox ucadı.

– De görüm hara görünər?

– Haranı görmək istəyirsən, oğlum?

– Bu yanda Təbrizi, o yanda Dəmir qapı Dərbəndi.

Aləmşahbəyim ağlayırdı. Ceyran gözlərindən – qarası mavi, ağı boynundakı “Emruzi bikr” incisi kimi ağ yaş axırdı. O incinin dənələrinə bənzəyən gilələr yuvarlanıb düşürdü. Amma yanaqlarında kədər əvəzinə şuxluq, alnında, çatma qaşları arasındakı düyündə ağrı əvəzinə qürur hissi vardı.

– Niyə ağlayırsan, ana? Qorxursan yıxılam?

– Yıxılmağından qorxmuram, oğul. Sənin Savalana çıxmağını gözlərimin qabağına gətirəndə sevindiyimdən ürəyim kövrəldi.

– Adam sevindiyindən də ağlayarmı, ana?

– Ağlayar, oğlum, ağlayar.

– Onda məni Savalana kimi apar, ətəyinə çatdır, özüm qalxacağam.

Aləmşahbəyimin ürəyi sıxıldı. Qızılgülün əyilmiş yarpağına oxşar dodağını inci parıltılı dişlərinin arasında sıxdı. Qəhər onu boğdu. Sonra bu qəhər əridi, suya çevrildi, ürəyinə axdı elə bil. Daha bu sevincdən deyildi. Özünü zorla ələ aldı. Oğlu onun əlini dartıb cavab istəyirdi.

– Gedərik, oğlum, gedərik.

Aləmşahbəyim qalxdı. Yeddi yaşına qədəm qoymuş oğlu İsmayılın yumşaq, kiçik barmaqlarını ovcuna aldı, kiçik hücrənin qapısına getdi. Hücrənin səkkiz küncü vardı. Hər küncdən tavanın dəbilqə içərisinə oxşayan səqfinə xət gedirdi. O xətlər birləşən yerdən bir qəndil asılmışdı. Qızıl suyu ilə suvarılmış qəndilin səkkiz şamlıq şamdanı vardı. Şamdanlar bir-biri ilə qızılgül yarpaqları və qönçələri ilə birləşmişdi. Bu güllər və yarpaqlar da çox zərifliklə tuncdan tökülmüşdü. Şamdanlardakı şamlar yarıya qədər yanmış, yanlarında üst-üstə qalaqlanmışdı.

Yerə zərif naxışları olan iri xalça salınmışdı. Amma hücrənin alaqaranlığı xalçanın rənglərini boğmuşdu. Xalçanın, qəndilin incəliyi yanında divarların biri-birinə geydirilmiş iri daşları kobud və köntöy görünürdü. O daşlardan soyuq şüalanırdı elə bil. Bu hücrə qalanın quzey

tərəfində olduğundan heç vaxt buraya gün düşməmişdi. Pəncərədən süzülən sanki aydınlıq gecənin ay işığı idi.

Ana-bala xalçanın üstündən keçib qapıya qədər getdilər və ayaqlarının səsi eşidilmədi. İsmayılın əynində güllü, xaraya oxşar Gəncə parçasından kaftan vardı. Kaftanda təkcə güllər deyil, əli oxlu, qılınclı, gül budaqlarının arasında görünən gənc döyüşçülər də təsvir edilmişdi. Belində gümüş kəmər parıldayırdı. Qırmızı atlasdan tikilən şalvarının qırışları tərpəndikcə qırmızı parıltı alınırdı. Ayağındakı məstlər isə qızıl saplarla işlənmişdi. Başında ağ çalma vardı.

Hücrənin palıd qapısı yağlanmış kimi parıldayırdı. Çərçivədən iki yerdən qapının eninə paslı, ox ucu şəklində bəndlər uzanırdı. Bu bəndlər yumruq boyda gülmıxla qapıya bərkidilmişdi. Adama elə gəlirdi ki, bu qapını pəhləvanlar var gücləri ilə dartsalar güclə açılar. Amma İsmayıl əlini atan kimi qapı səssizcə açıldı. İçəriyə gün işığı düşdü. Ananın da, oğlunun da gözləri qamaşdı, əllərini qaşlarının üstünə qoymalı oldular. Bu işıq günəşdən deyil, hücrənin qabağındakı daş hovuzdakı sudan əks eləyirdi. Onlar çıxan hücrə tək deyildi. Yan-yana neçəsi vardı. Hamısının da qapısı uzun bir daş eyvana açılırdı. Eyvanın üstü də tağ şəklində hörülmüşdü. Hər hücrənin qabağındakı sütunların arası çatma qaşlar kimi dartılmışdı. Sütunların arasındakı pillələr hovuz olan daş meydana enirdi. Bura kiçik bir karvansaraya da oxşayırdı. Meydanı hücrələr əhatə eləmişdi. Amma burada çox az adam yaşayırdı. Aləmşahbəyim, oğlanları Sultanəli, İbrahim və İsmayılla bura sığınmışdı. Bir də onların xidmətçisi Səkinə. Bu kiçik şəhər-karvansaray onların məhbəsi idi. Quş quşluğuyla buraya səkə bilməzdi. Onları ağızda dil, gözdə gilə kimi qoruyurdular. Amma neçə ilin içində onlar keşikçiləri görməmişdilər.

Hovuzun yanından bürclərin üstünə pillələr qalxırdı. Ana-bala həmin pillələri qalxdılar. Əvvəllər İsmayılın ayağı bir pillədən o birisinə çatmırdı. Anası qolundan dartıb çıxarırdı! On-on iki pilləni qalxıb bürcə çatdılar. Burada donmuş, qurumuş, daş geyinmiş döyüşçülərə oxşayan qala dişləri yan-yana dayanmışdı. Ana-bala onların yanından keçib gəzinməyə başladılar.

Günəş əyilmişdi. Aşağıdakı dərələri, vadiləri, dağları bənövşəyi rəngə çalan kölgə basmışdı. Təkcə qalanın bürclərini və Savalanı günəş işıqlandırırdı.

– Ana, mən darıxıram. Niyə burdan çıxıb getmirik?

– Hara, oğlum?

– Ərdəbilə, evimizə.

– Evimiz yadına gəlirmi?

– Gəlir. Bir ağ at gəlib həyətimizdə ayaqlarını yerə döyüb kişnəyirdi.

Bu sözdən sonra Aləmşahbəyim özünü saxlaya bilməyib hönkürdü. Artıq onun gözləri, qaşları arasındakı düyün də ağlayırdı. İsmayıl təəccüblə dönüb anasına baxdı.

– Sən niyə ağlayırsan? Atın ayağını yerə döyüb kişnəməsinə görə heç gör adam ağlayar? Mən uşağam, heç ağlamıram...

Ağlayan Aləmşahbəyim – Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı, ağlamayan uşaq isə Şeyx Heydərin oğlu İsmayıl idi.

## BABA UZUN HƏSƏN, NƏNƏ SARA XATUN, ATA HEYDƏR SƏFƏVİ...

Gün qüruba əyilmişdi. Kirs dağının üstünə toplaşan qara buludlar biri-biri ilə vuruşan əjdahalara oxşayırdı. Amma o əjdahalarda güc, taqət qalmamışdı. Tökülən qanları özlərini və səmanı qan rənginə boyamışdı. İndi daha yavaş-yavaş, halsız-halsız biri-birlərinə ağız atır, quyruqlarını, qanadlarını uzadıb çəkir, elə bil can verirdilər. Onların arxasında isə nəhəng bir kürədən çıxan, məcməyiyə oxşayan günəş elə bil bu qanlı döyüşdən qorxub Kirs dağının dalında gizlənib yaxasını qurtarmağa çalışırdı.

Uzun Həsən, Govur arxının yanındakı təpədə, çadırının yanında dayanıb bu "döyüşə" baxırdı. O qədər dərin fikrə getmişdi ki, anası Sara xatunun gəlib onun yanında dayan-masını bilməmişdi.

– Sabah yaxşıca yağış yağacaq, oğlum. Uzun Həsən dönüb dolu əndamlı, boy-buxunlu, yerişindən, duruşundan hökm və hikkə tökülən anasına baxdı. O, zərxaradan tuman geyinmişdi. Belində zümrüd qaşlı qızıl kəmər, əynində qanovuzdan köynək, onun üstündən pərəngli,

qollarının ağzı və ətəkləri daş-qaşla bəzənmiş güləçə vardı: Yaylığının altından şah tacına oxşar, ondan ensiz, alnını tutan dingə qoymuşdu. Belinə vurduqu sağ əlinin şana barmaqlarında çoxlu üzük parlayırdı. Biləyində isə almasları bərq vuran bilərzik üfüqün qırmızı işığını əks elətdirirdi.

Uzun Həsən anasının geyinib-bəzənməsinə təəccüb elədi. Son iki ildə onu belə körməmişdi.

– Xeyir ola, ana?

– Xeyirdi, ağrın ürəyimə.

Uzun Həsən başını döndərib yenə də buludlara baxdı. "Əjdahalar" artıq əriyir, bozarır, göyərirdilər. Təpədən aşağıda ordugahın çadırları cərgə ilə düzülmüşdü. Amma bu ordugah ona çox kiçik görünürdü, az görünürdü. Arazın o biri tayında dayanmış Teymurləng nəvəsi Sultan Əbu Səidin qoşunundan çox az idi. Meydan müharibəsinə girsə, uduzardı. Amma bu müharibə olmalı idi. Qaraqoyunlu sultanı Cahan şah Həqiqini məğlub eləyib Ağqoyunlulara ölkənin sultanlıq taxtına yol açdığından iki il keçsə də, hələ də kifayət qədər qüvvə toplayıb təzədən babasının tutduğu yerlərə göz tikən Sultan Əbu Səidə qalib gəlmək iqtidarında deyildi.

Babası Fəxrəddin Qara Yuluk Osman bəy Diyarbəkrdə hök-mranlıq edəndə Teymurləngə sədaqət göstərmiş, İldırımla Teymurun Anqara meydan döyüşündə onun tərəfində olmuşdur. İndi üstündən altmış altı il keçəndən sonra nəvələr düşmən kimi üz-üzə dayanmışlar.

– Ana, deyirsən sabah yağış yağacaq?

– Deyəsən, görmədin gün batanda buludlar necə qaralmışdı.

Neçə vaxt idi ki, Qarabağa yağış düşmürdü. Düzənlərin otu qurumuşdu, heyvanlar, atlar otlamağa bir şey tapmırdı. Anası yağışı yad etməklə oğlunun ürəyinə çökən qara fikirləri dağıtmaq, ona yaz yağışı kimi sərinlik gətirmək istəyirdi.

– Ana, belə bəzənib, geyinmək də yağışa görədi? Ya toy var, mən xəbər tutmamışam?

Sara xatun qürurunu pozmadı.

– Ay oğul, ana sənə qurban, nə qədər ki, sən varsan, mən elə toyda, bayramdayam. Nə oldu, elçilər qayıtdı?

– Qayıtdı.

– Nə deyib?

– Deyib ki, tanımıram Uzun Həsəni. Düşmənəm onunla.

– Ay hay... Fərhad ölüb, külüngünün səsi gəlmir. Mən özüm gedəcəm danışığa. İnanmıram sənin göndərdiyin adamlara.

Uzun Həsən anasına tərəf döndü. Anası nə qədər hündürboy olsa da, oğlunun çiyninə də çatmırdı boyu. Üstü tüklü əlləri anasının əllərindən də xeyli böyük idi. Qızıl dəstəkli əyri qılıncının üstünə qoyduğu sol əlinin adsız barmağındakı almas qaşlı üzük də onun barmaqlarını nəcibləndirə bilməmişdi.

– Mən boyda oğulun anası düşmənlə danışığa getsin?

– Bəs Trabzonda Fateh Sultan Məhəmmədlə niyə danışığa getmişdim?

– Onda qohumlarımız dar ayaqda idi. Rəhmətlik imperator dördüncü İohannın qardaşı Davusu xilas eləmək istəyirdik. Goruna lə'nət. Necə ki, oldu. Əlinə dönüm o Fateh Məhəmmədin, yeddi oğlunun özüylə bərabər başını vurdurdu.

Sara xatun oğluna e'tiraz etdi.

– Hər necə olsa qayınatanın qardaşı, arvadın Dəspinə xatunun əmisiydi.

– Arvadımın əmisi olsa da düşmənim Cahan şahın qayınatasıydı.

Sara xatun dolub hirslənmiş oğlunu sakitləşdirmək üçün dedi:

– Onu Fateh Məhəmməd öldürdü, yeznəsini də sən. Keçi öldü, qoturluğu kəsildi. İndi mən Sultan Əbu Səidin yanına gedəcəm. Mənim sözümü yerə salmaz. Yerə salsa da vaxt qazanarıq.

Anasının təklifi oğlunun ağlına batdı. Vaxt qazanmaq. İndi bu vaxt ona hər şeydən irəli idi.

– Hazırlaş, sabah gedirsən. Kimi özünlə götürəcəksən?

– Şeyx Heydəri, sonrasına da baxarıq.

Hava qaralmışdı. Amma göy üzü hələ də açıq idi. Havada uçuşan gecə quşları görünürdü. Uzun Həsən dönüb çadırına girdi. Çadır alaçıq şəklində dəyirmi qurulmuşdu, çox böyük idi. Baş tərəfdə taxt qoyulmuş, çubuqlardan hörülüb üstünə keçə çəkilmiş divarın dibinə döşəkçələr

düzülmüşdü. O, başını əyib içəri girsə də alaçığın qapısından asılan örtüyü salmamışdı. Şamların zəif işığı qapıda dayanan iki keşikçidən birinin sağ qoluna geydiyi qalxanın üstünə düşmüşdü. O birisinin silueti isə havanın fonunda aydın seçilirdi.

– Şeyx Heydəri yanıma çağırın.

Xidmətçilər Şeyx Heydərin dalınca gedəndə Sara xatun yanaşı qurulmuş üç çadırdan hansına girəcəyini fikirləşdi. Bu alaçıqlar gəlinlərinin çadırları idi. Birində Canbəyim xatun, ortadakı alaçıqda Səlcuqşahbəyim, üçüncüdə isə Dəspinə xatun yaşayırdı. Böyük gəlinin yanına getmədi. O, hərəmxananın böyük xatunu, şahzadə Uğurlu Məhəmmədin anası idi. Səlcuqşahbəyim xatun isə oğluna iki oğlan doğmuşdu. Sultan Xəlil və Sultan Yaqubu. Üçüncü gəlin Trabzon imperatorları olan Komnenoslardan IV İohannın qızı Feodara idi ki, bu ocağa gəlin gələndə adını dəyişib Dəspinə xatun qoymuşdular.

Sara xatun bir an ayaq saxladı.

“Dəspinə tərsa qızıdır. Onun yanına birinci getməyim yaxşı olar. Özü də qız anasıdır. Bu dünyaya e’tibar yoxdur, bilmək olmaz”.

Sara xatun alaçığa girəndə onu lətif bir ətir iyi vurdu. Yox, bu Şiraz ətri deyildi. Görünür onun Trabzondan qızlıq vaxtı gətirdiyi ətirlərdən idi. Bu axşam saçlarını onunla sirab eləyib ərini gözləyirdi. Amma qayınanasını gördü. Zəriflikdə, qızılı saçlarda, mavi gözlərdə özünə oxşayan qızı Aləmşahbəyimin başını dizinin üstündən götürdü və ayağa qalxdı. Aləmşahbəyim də ayağa durdu və irəli yeriyib nənəsinin əlindən öpdü. Nənəsi də onun alnından öpəndən sonra Bizans ipəyindən tikilmiş pərdənin arxasına keçdi. Sara xatun dayanıb Dəspinə xatuna baxdı. O, başdan ayağa ağ geyimdə idi. Döşləri səmərqənd kağızı kimi ağ tülün altından qızıl gül qönçələri kimi irəli çıxmışdı. Əyninə kip, Bizans üsulunda tikilən donu beldən nazilir, sonra yanlara qalxıb qövs cızaraq aşağıya xalçanın üstünə enirdi. Qulağının üstündən almaslar parıldaşan telbasanla qızılı saçlarını yığmış, o saçların bir hörüyü çiynindən sallanıb budlarına qədər uzanmışdı.

– Sara xatun heyranlıqla ona baxırdı.

– Allah təala sənin bu gözəlliyini mənim oğluma çox görməsin.

– Sağ ol, ana.

Sara xatun o birisi gəlinlər kimi Dəspinə xatunun onun əlindən öpməsinə icazə vermirdi. Bilirdi ki, o imperator qızıdır. O, heç kimə əyilməz. Özü də onu əymək istəməmişdi. Yaxınlaşıb onun da alnından öpdü. Yumşaq, ipək üzlü pərqu döşəkçənin üstündə oturdu.

– Əyləş, qızım. – dedi. Amma onun gözəlliyinə hələ də heyran-heyran baxmaqda idi. “O birisi gəlinlər oğlumdan narazı qalarlar da. Belə gözəldən kim ayrılar.”

Dəspinə xatun da oturdu.

– Sən imperator qızısan. İndi də olursan imperator zövcəsi. Amma qızım, hökmdar zövcəsi gərək hər bəd xəbərə dözümlü olsun.

– Nə olub?

– Heç nə olmayıb. Ola bilər.

– Nə?

– Biz həqiqətin gözünə dik baxmalıyıq. Sirr həmişə bizdə olmalıdır. Onu özgələri bilməyə də bilər. Taleyin hökmü sabah oxunacaq. Ya biz olacayıq, ya da... Teymur nəvəsi Sultan Əbu Səid ərini ölüm-dirimə çağırır. Allah kimə verə, verə. Güc onun tərəfindədir. Sabah oğlum döyüşdə uduzsa biz hamımız əsir oluruq.

– Yox, ana, mən əsir olan deyiləm.

– Sağ ol, qızım. Çingizlə Xərəzmşah Sultan Cəlaləddin vuruşanda, Cəlaləddin bundan da ağır bir gündəydi. Qarşısında Çingiz ordusu, arxasında da Hind çayının sıldırım sahilləri. Hərəmləri ələ düşməsin deyə hamısını özü çaya atdı. Özü da atla tullandı. Özünün əcəli çatmayıbmış, at üzüb çıxdı. Hərəmləri suya qərq oldu. Bura Qarabağdı, Hərami düzüdür. Burada çay Arazdı, o da bir az aralıdı.

Sara xatun barmağından bir üzük çıxarıb Dəspinə xatuna verdi.

– Qapı açılır. Görsək ki, düşmən güc gəlir, onda bu qaşın içindəki süleymaniyyə zəhəri köməyimizə çatar. Ölüm haqdı. Döyüşdə ər ölürsə, o qəhrəmandı. Arvadı da onunla bərabər ölürsə, o da namus qəhrəmanıdır.

Dəspinə xatun üzüyü aldı, qaşına baxdı.

– Ana, bu üzükləri çoxdan saxlayırsan?

– Çoxdan. Fateh Sultan Məhəmmədlə danışığa gedəndə də biri barmağımdaydı. Gəlinlərim artdıqca da düzəltdirmişəm.

– Gecən xeyrə qalsın, qızım. Deyir axşamın xeyrindən səhərin şəri yaxşıdır.

Sara xatun əlini yerə dayaq verib qalxana qədər çinar boylu Dəspinə xatun ayaq üstündə idi. Sara xatun əllərini göyə qaldırdı.

– Ey bu axşamın sahibi, oğlumu sənə tapşırıram. Sən onun ağlını qılıncı, qılıncını ağlı kimi iti, baxtını atı kimi yüyrək, taleyini göylər çırağı kimi işıqlı elə.

– Amin, - deyə Dəspinə xatun ona səs verdi. Amma bu “amin“də” duadakından daha böyük bir kədər, yalvarış və titrəyiş vardı.

Uzun Həsən anasının “Şeyx Heydərlə gedəcəyəm” deməyinin mə’nasını tez almışdı. O, xəbər tutmuşdu ki, Sultan Əbu Səid babası Teymur kimi Ərdəbildəki Şeyx Səfiyyəddin pirində ziyarət etmiş, oraya böyük nəzir-niyaz vermişdi. Hazırda həmin pirin şeyxi Şeyx Heydərdi. Heydərin atası Cüneyd də onların kürəkəni idi. Uzun Həsənin bacısı Xədicə Bəyimlə evlənmiş, onlardan Heydər dünyaya gəlmişdi. Cüneydi Şirvanşahlar öldürəndən sonra Heydəri dayısı Uzun Həsən böyütmüşdü.

Alaçığa ruhanilər kimi uzun əba geyib başına ağ çalma qoymuş Şeyx Heydər girdi. Dayısına tə’zim eləyib:

– Cəddim Museyi Kazım köməyində dursun, dayı, – dedi. – Sizin çağırışınızla gəlmişəm, dediyinizə müntəzirəm.

Heydər o zaman on dörd, on beş yaşında olardı, ya olmazdı. Bu ağsifət, zərif oğlan kamil təhsil almışdı. Dayısının əməl etdiyi sünni-hənəfi təriqətinin bütün incəliklərini öyrənsə də atası Cüneydin üzünü görməsə belə onun yolu ilə getmiş, şiəliyi, səfəvilərin batin elmini də öyrənmişdi.

– Gəl otur.

O, dayısının göstərdiyi yerdə bardaş qurub oturdu. İri ağıllı gözlərini dayısına dikdi.

– Eşidirəm.

– Məsələdən yəqin ki, xəbərdarsan?!

– Bəli.

– İndi bizə vaxt qazanmaq, Sultan Əbu Səidə nə vasitə ilə olur-olsun tə’sir köstərmək lazımdır. Sabah tezdən, Allah qoysa sübh namazından sonra nənən Sara xatunla Əbu Səidin ordugahına gedirsən. Sənin getməyin çox vacibdi. Əmir Teymur sizin ocağa bağlı olub. Əbu Səid sənə e’tinasızlıq göstərə bilməz. Ortada sülh yaratmaq vacibdir. Elə bilmə ki, dayın qorxur. Yox, bir gün yaranan, bir gün ölməlidir. Nuha, Süleymana, İldırıma, Teymura qalmayan dünya bizə də qalmayacaq. Ağılsızlıq ucundan ölənlər bu saydıqlarımın heç biri olmur. Biz Sultandan gücsüzük. Ondan bir qışı Qarabağda qalmağa rüsxət alsaq, Allah qoysa yazda qoşun toplayıb öhdəsindən gələrik. Elə belə də deyərsiniz. Deyərsiniz, qışı Qarabağda qalaq, yazda köçüb ata-baba yurdumuz Diyarbəkrə, Amidə gedərik. İndi tərpənsək, yolda mal-heyvanımız qırılar. Fikrim sənə aydın oldu, bacıoğlu?

– Bəli, gün kimi, hələ bir çox mətləblər var ki, onları da mən əşyayi-sübut kimi gətirib Sultanın fikrini döndərməyə çalışaram, inşallah.

Onlar söhbət elədikləri müddətdə Sara xatun böyük hərəm Canbəyim xatuna da üzüyü verib Səlcuqəşahbəyim xatunun çadırına girmişdi.

Səlcuqəşahbəyim xatun uzanıb yorğanı da başına çəkmişdi. Sara xatun gələndə kəniz onu oyatdı. O, qalxdı, saçları pırtlaşmışdı, çox yatdığından gözlərinin altı da şişmişdi.

“Ya oğlanlarına arxayındı, ya da oğlumdan əlini üzüb, onu gözləmir. Axşamnan yatıb heç nədən də xəbəri yoxdur”

Səlcuqəşahbəyim iri döşləri, ətli əndamı, ağbəniz çöhrəsi olan gəlin idi. Amma Sara xatun onu həmişə qaraqabaq görərdi. İndi də onunla heç bir zarafat eləmədi, xoş söz demədi.

Səlcuqəşahbəyim qalxıb gecə köynəyində qayınanasına yaxınlaşdı, onun əlindən öpdü. O, oturandan sonra özü də oturdu. Sara xatun dinməmiş özü başladı:

– Ana, bir şirin yuxu görürdüm. Görürdüm ki, göydə Günəşlə Ay yaxınlaşıb, bunlardan biri oğlum Xəlilə, o birisi Yaquba oxşayır. Bir də görmüşəm ki, rəmmal gəlib, buna rəml atdırıram. Deyir o Günəş ki var, tacdı...

Sara xatun əlini dodaqlarına qoydu.

– Sus! Hələ bu ölkənin günəşi batmayıb ki, burnu selikli oğlunun başına tac qoyasan.

– Mən elə demədim, yuxumu danışdım. Ay ana, vaxt keçəcək, ay keçib illər ötəcək, qərinə dəyişəcək, biz hamımız gedəcəyik, Allah eləməsin sahibimizin başından bir tük əskik olsun. Olur da, yə’ni mənim bu gül balalarımın başına...

– Ayıbdı, Səlcuqəşahbəyim. Mənim oğlumun düşməni elə onun evinin içindəymiş ki. Al bu üzüyü, qaşında zəhər var.

– Mənə zəhər verirsən? Bir səhvdi elədim, ağlım kəsmədi. Səlcuqəşahbəyim Sara xatuna tərəf dizin-dizin süründü.

– Sal, barmağında saxla, mən içəndə sən də içəcəksən.

Sara xatun hirslə dönüb ağır-ağır alaçıqdan çıxdı.

Torağaylar millənib göyün üzündə oxuyurdular. At belində oturan Sara xatun başını qaldırıb baxdısa da, onu görə bilmədi. Onunla yanaşı at sürən Şeyx Heydərə döndü:

– Bu torağay oxumağı xeyirliyədi, ya ziyanadır?

– Xeyirliyə olar, nənə.

Hava işıqlaşar-işıqlaşmaz yola düşmüşdülər. Qaradonlu yanında Arazı bərəylə keçmiş, Əbu Səidin Qızıltəpə yanında dayanan ordugahına yan almışdılar. Bir az da gedəndən sonra Əbu Səid döyüşçüləri onların qarşısına çıxdı.

– Kimsiniz, hara gedirsiniz?

– Elçiyik. Sultanın yanına gedirik.

Sara xatun qara çin xarasından çarşaf örtmüşdü. O, belə səfərə çıxanda mütləq çadra örtərdi. Özgə vaxt çadra nə olduğunu bilməzdi.

– Bu zənən xaylağı da elçidir? – Dəstə başçısının ki-nayəsinə Şeyx Heydər cavab verdi:

– O zənən Uzun Həsənin anasıdır. Ona baş əyməlisən, ağayi başçı.

Başçı əlini döşünə basıb tə’zim elədi. Sonra da başını qaldırıb qadına baxdı. Sara xatun barəsində çox eşitmişdi. Onunla Fateh Sultan Məhəmmədin danışıqlarından da xəbəri vardı. İndi elə bil çadralı qadına yox, atlı, çadralı, yanındakı çalmalı gənclə bərabər göydən enən məleykəyə baxırdı.

Sara xatunun da, Şeyx Heydərin də atları dayanmışdı. Çünki onların qabağını beş nəfərlik bir dəstə kəsmişdi. Hamısı da quruyub qalmışdı. Nə edəcəklərini bilmirdilər.

Sara xatun sifətini açıb onlara baxdı və dedi:

– Kişi qadının yolunu kəsməz. Mən Sultanla danışığa gedən hökmdar anasıyam.

Onlar tez yoldan çəkildilər və onları müşayiət eləməyə başladılar.

Uzaqdan Qızıltəpə görünəndə başçı onlardan yavaş-yavaş gəlməyi rica edib özü atını ordugaha çapdı.

Qızıltəpə ətrafı su dolu çuxurla əhatə olunmuş bir hündür, bir də alçaq təpədən ibarət idi ki, monqollar bu kiçik qalanı dağıdıb yerlə yeksan etmişdilər. Təpənin üstündə keşikçilər qaralırdı. Amma ordugah aşağıda salınmışdı və göz işlədikcə çadırlar düzülmüşdü. At kişnərtisi düzləri başına götürmüşdü. Hardansa qalxana dəyən qılınc səsi gəlirdi. Görünür məşq keçirdilər. Sara xatun görürdü ki, sultanın qoşunu oğlununkundan xeyli çoxdur.

Bir dəstə atlı ordugahdan çıxıb onlara tərəf çapırdı.

Yolun sağında onlardan az aralıda iri, nəhəng Hindistan fili dayanıb xortumunu yellədir, at kimi elə bil milçəyini qovurdu.

– Fili görürsənmi, ay nənə?

– Görmüşəm, ay bala. Teymur Anqaraya bunlardan düz otuz səkizini gətiribmiş. Rəhmətlik anam danışardı. Mən fili sonralar gördüm.

– İndi də Əbu Səid bizim üstümüzə fillə gəlib.

– Özünü qorxuzma. Allah kərimdi.

Dəstə çatdı, onları salamladılar. Özləri atdan düşdülər. Hökmdar sarayına bir ox mənzili qalmış atdan düşüb piyada getmək adət idi. Şeyx Heydər atdan düşüb nənəsinə də kömək eləmək istədi, amma geyim-kecimindən, bəzək-düzəyindən sarayın böyük adamına oxşayan razı olmadı.

– Sara xatun atdan düşməyəcək.

Sara xatunun atının yüyənindən tutub Sultan çadırının yanına qədər apardılar. Orada üzəngini basdılar, bu yaşlı, kök qadın çox yüngüllüklə atdan düşdü, çadrasını düzəltdi, bayaqkı adama baxdı.

– Buyurun, Sultan səni elə indi qəbul eləyir.

Ə’yan onlardan əvvəl çadıra girib diz çöküb tə’zim elədi, torpağı öpəndən sonra başını qaldırıb Sara xatunun gəldiyini xəbər verdi.

– Buyursun. Kişilər qorxularından gizlənib, arvadları qabağa veriblər... Bu sözü yavaş dedi ki, eşitməsinlər

Əyan qayıdıb onları içəri çağırdı. Şeyx Heydərə tapşırdı ki, əyilib torpağı öpsün. Heydər ona narazılıqla baxdı. Ə’yan bu baxışı gördü.

– Mən deyənə bax.

Heydər dinmədi.

Sara xatun başını əyib çadıra girdi. Bu çadır onun oğlunun alaçığına oxşayırdı. Dirəkləri də, tənəflərinin mıxları da qızıldan idi. Bu ağ çadırın çöldən görünən qübbəsi də məscid günbəzi kimi qızıldan idi. İçəri də çox zəngin idi. Sultanın səfər taxtına iki göz lazım idi tamaşa eləsin. Sultan Əbu Səid özü sadə geyinmişdi. Amma belə deyilmiş. O, altdan zireh qurşamış, üstündən xələt geymişdi. Xələti zirehin üstündən geyirdilər ki, günəş zirehi qızdırıb yayın istisində yeddi-səkkiz saatlıq vuruşmada onlara əziyyət verməsin.

Sara xatun çadırın ağzında dayanmışdı. Sultanın əynində zirehi görəndə azacıq başı gicəldi, sonra da yüngülcə ağrı başladı. Demək o artıq döyüşə hazırdır. Şəxsən özü qılınc çalmağa hazırdır. Amma yox, bu təkbətək onun oğlu Uzun Həsənlə döyüşsə çox dözə bilməz. Bunun qoşunu və var-dövləti çoxdur. Çox olar da! Teymur Hindistanın almasına, lə’l-cəvahiratına, qızılına, Osmanlıların neçə yüz il yığdıqları xəzinəsinə sahib olmadımı?

Sultan Əbu Səid Sara xatunun çadırın ağzında dayandığını görüb ixtiyarsız yerindən qalxdı. Yavaş-yavaş ona tərəf gəlməyə başladı. Sara xatun möhtəşəm qadın və ana heykəli kimi dayanmışdı. Örpəyinin altından çıxmış ağ birçəkləri onu daha da nuranıləşdirmişdir. Sultan Əbu Səid ilk dəfə qadın elçi ilə üz-üzə dayanmışdı. Nə edəcəyini bilmirdi. Kişi elçilər onun təbəələri kimi əyilib yeri, yaxud onun ətəyini öpməliydi. Bu isə qadındır, anadır...

– Xoş gəlmisən. Məni bir sirdən hali elə. Fateh Sultan Məhəmməd səni necə qarşılamışdı?

– Necə lazımdı. Anası kimi əlimdən öpdü. Özümə də “ana” dedi.

Sultan Əbu Səid Fateh Sultan Məhəmmədi kiçildən söz demək istədi. Amma sözlərini uddu.

– Xatunların elçi getməyi sizinlə başlayıb. O necə qarşılayıbsa biz də elə etməliyik. Çünki adət artıq yaranıb. O, Sara xatunun əlindən öpdü.

– Buyur əyləş, ana...

– Çox sağ olun. Siz də çox lütfkar hökmdarsınız.

Sara xatun sultanın taxtı yanında qoyulmuş kürsüdə oturmağa gedəndə Əbu Səid uşaq sifətli Şeyx Heydərə baxdı. Heydər ona yüngülcə baş əydi. Bu Əbu Səidi haldan çıxardı.

– Sizə deməyiblar ki, Xorasanın, Mavərənnəhrin, İranın yarısının hökmdarı qarşısında torpağı öpməlisiniz?

– Dedilər. Ancaq, ey hikmətli sultan, mənim dodaqlarım Qur’anı öpməyə öyrənib. Qurandan əvvəl və ya sonra torpaq öpmək günahdır. Heç siz də müzayidə eləməmisiniz ki, Qur’ani şərifə – əstağfürullah hörmətsizlik eləyək.

– Əstağfürullah! – deyən Sultan təəccüblə bu cavan şeyxə baxdı. – Sən hara şeyxisən?

– Ərdəbil.

Bu sözdən sonra deyəsən Sultan Əbu Səid bir az ağardı da. Onun qıyıq gözləri bir neçə dəfə qırpıldı.

– Ya şeyx, buyurun əyləşin. Mən istəyərdim ki, babam Teymurla, Allah onun gorunu nurla doldursun, baban Şeyx Əlinin arasındakı o möcüzəli əhvalatı danışasan.

– Allah hər ikisinə rəhmət eləsin, – deyə Şeyx Heydər onun səhvini düzəltdi və Sultan da onun dediklərini təkrar etdi.Bundan sonra taxtına tərəf getdi. O yeridikcə elə bil araba cırıldayırdı. Əynindəki zireh geyim sürtülür, dəmir səsi çıxırdı. Deyəsən bunu özü də hiss elədi. Əl çaldı, xidmətçilər hazır oldu.

– Çağırın bura bütün üləmaları, saray ə'yanlarını.

Bir azdan onlar çadırda, döşəkçələrin üstündə bardaş qurub oturmuşdular. Amma Sultan getmişdi. Bir azdan o da çadırın arxasındakı yoldan-qapıdan girdi. Hamı ayağa qalxdı. Sultan qırmızı qumaşdan yaxalığı, qollarının ağzı, ətəkləri işləməli bahalı əbasını geyinmişdi. Daha onun bədəni dəmir səsi vermirdi.

Sara xatun yanındakı Şeyx Heydərə baxıb gülümsədi. Bu o demək idi ki, artıq zirehli döyüş paltarını soyundurmuşuq. Bu böyük irəliləyişdi.

Əbu Səid əli ilə işarə verib oturanlara Şeyx Heydəri göstərdi. O, ayağa qalxdı.

– Şeyx Heydər Ərdəbildə ziyarət elədiyimiz Darül İrşad türbəsinin şeyxidir. Özü də Şeyx Səfiyəddinin nəvələrindəndir. Hamınız bilirsiniz ki, ulu babam, Əmir Teymur o türbədə namaz qılar, oruc tutardı. Özü də nəzir kimi o türbəyə on kənd bağışlayıb.

– Rəhmətlik anasının pulu ilə – deyə Şeyx Heydər düzəliş verdi.

– Bunun fərqi varmı?

– Var. Əmir Teymur, özü anasına məxsus olan pulla o kəndləri alıb ki, həmən pul halaldır.

Oturanlar heyrətlə ona baxır, ağ saqqallı üləmalar onu sanki gözləri ilə yemək istəyirdilər.

– Ya Şeyx,bayaq dediyim əhvalatı danış. Sizin kitablarda o daha səhih olar. Heydər söhbətə başladı.

– Əmir Teymur Darül İrşadı dağıtmaq üçün bə'zi üləmaların fitvası ilə Ərdəbilə gəlmişdi. Çünki mənim ulu babamın əqidəsi, təriqəti və məzhəbi onların xoşuna gəlmirdi. Amma Əmir Teymur, Allah onun ruhunu şad eləsin, Darül İrşada gələndə ürəyində üç niyyət tutmuşdu. Birinci niyyəti bu idi ki, Şeyx Əli məni qarşılamağa çıxmama-lıdır. Mə'lumdur ki, Şərqin hökmdarını qarşılamamaq mümkün olmayan işdi. İkinci niyyəti o idi ki, əmirə burada dağ keçisinin südündən aş bişirib verməlidilər. Nə üçün plov yox, südlü aş? Üçüncü niyyəti də bundan ibarət idi ki, Şeyx Əliyə bir cam şərbətin içində zəhər verilməlidir. Ölməsə Əmir Teymur bu türbəyə biyət eləyəcək, onu dağıtdırmayacaqdı.

Ziyarətgahın qapısında, Əmir Teymuru qarşılayanların arasında Şeyx Əlini görmür.

– Hanı Şeyx Əli?

– Ziyarətlə məşğuldur, – deyirlər.

Birinci niyyəti baş tutur. Xoca Əli gəlir, böyük hökm-darı türbənin hücrələrini gəzdirir, pəncərədən təpədəki dağ keçiləri görünürmüş. O pişxidmətlərə deyir:

– O keçiləri sağın, südündən Əmir Teymura südlü aş bişirin. Mə'lumdur ki, müqəddəsləri ziyarət eləyənlər ağ libas geyirlər. Xoca Əli də, Darül İrşaddakı bütün şeyxlər də ağ, kəfən rəngli xirqə geyirdilər. Əmir Teymur əmr edir ki, Xocaya şərbət gətirsinlər.

Şərbəti gətirirlər, şeyx başını qaldırıb göylərə baxır, ürəyində nəsə oxuyub zəhər qarışıq şərbəti içir. Bundan sonra hücrədə gəşt gedir. O qədər gedir ki, əynindəki ağ xirqə yamyaşıl olur. Deyir:

– Əmir Teymur, şərbətdəki zəhər də Allahın köməyi ilə tərlə gəlib çıxdı. İndi keçək imam övladını ziyarət eləyək.

– Bərəkallah – deyən səslər eşidildi. – Belə ocaqdan da belə şeyx çıxar.

Elə bil sultan Əbu Səid ayıldı.

– Ya şeyx, sən niyə Uzun Həsənin elçisi kimi gəlmisön?

– Deyəcəm. Əmir Teymur Anadoluya, İldırım Bayazidin üstündə gedəndə xeyir-duanı da mənim babalarım vermişdi. Onun silahı qalib gəldi. İndi bizim ocağımız Uzun Həsənin tərəfindədir. Uzun Həsən mənim dayımdır.

Əbu Səid bu sözlərdən sonra çıxılmaz vəziyyətdə qaldı. Onu bu vəziyyətdən çıxaran ağ saqqallı, batıqgözlü doxsan, yüz yaşını haqlamış üləma oldu.

– İndi sizdə o güc qalmayıb. Atan Şeyx Cüneyd, düzdür, Sara xatunun qızı ilə evlənib, sən də onun oğlusan. Amma o nəsil bununla üçüncü dəfə tərsa qızı ilə evlənir. Qan dəyişib. Buna nə deyirsən, şeyx?

– Tərsanı müsəlman eləmək böyük savabdı.

– Bəs imam övladının qanına tərsa qanı qatmaq necə?

– Mən cavabımı verdim.

Əbu Səid yüngülləşdi, əlini qaldırıb mübahisəni kəsdi.

Üzünü Sara xatuna tutdu:

– Ana, səni eşidirəm.

Sara xatun yerindən qalxmadı. Alçaq, lakin hamının eşidə biləcəyi bir səslə qətiyyətlə danışmağa başladı.

– Sultan, burada bir neçə dəfə Əmir Teymurun ruhuna rəhmət oxunub. Amma onun yoluna əməl olunmur. Niyə? Sözümü kəsməyin, mən bir-bir aydın eləyim. İranda Teymur qarşısına çıxan, onunla vuruşan, qaçan, Teymur çəkiləndə yenə gəlib həmin torpaqları tutan kim idi? Deyəcəksən Qaraqoyunlu Qara Yusif. Cahan şah kimdi? Qaraqoyunlu Qara Yusifin oğlu, Anadoluda, Diyarbəkrdə Teymurun dəstəsinə qoşulan, ona öz köməyini, sədaqətini əsirgəməyən kim idi? Qara Yuluk Osman. Uzun Həsən kimdi? Qara Yuluk Osmanın nəvəsi. Ağqoyunlu. Teymurun dostları onun düşmənlərinə qalib gəliblər. Teymurun nəvəsi isə babasının düşmənlərinə görə onun dostlarıyla cəng eləməyə gəlib. İndi dostluğu, düşmənliyi necə başa düşək.

Sara xatun yaranan vəziyyəti yaxşı başa düşürdü.

Şərqdə Teymurun əsasını qoyduğu imperiya Şahruxdan sonra parçalanmışdı. Əvvəlki əzəməti, qüdrəti saxlamaq üçün bundan əlverişli fürsət ola bilməzdi. Qaraqoyunlular əvvəllər onlardan asılı olsalar da, Cahanşahın vaxtında qüvvətlənmiş, o Sultan ləqəbi qəbul etmişdi. Ona daha Teymur oğullarının dişi batmırdı. Belə qüvvətli bir düşməni artıq Ağqoyunlular aradan qaldırıb. Ağqoyunluların isə qüvvətlənməsi üçün vaxt lazım gəlirdi. Əbu Səid buna imkan verə bilməzdi. Cahan şahın qanını alıb, onun yerinə başqa Qaraqoyunlu keçirməyi bəhanə gətirirdilər. Əsas qorxulu düşmən Uzun Həsən, onun Bayandur tayfası, bir sözlə Ağqoyunlular idi. Əgər o, aradan götürülsə Azərbaycan, Arran, İran, İraqi Ərəb, İraqi Əcəm Əbu Səidin əlinə keçəcəkdi.

Əbu Səid vəziri bayaqkı ə'yanla pıçıldaşdı. Bundan sonra Sultan qalın, uca səslə danışmağa başladı.

– Biz Yuluk Osmanın nəsilləri Bayandurlar, Ağqoyunlularla dost idik, onların ata-baba mülkü Diyarbəkrdə. Onlar bizə tərəf yaxınlaşanda, böyük bir ölkənin hökmdarını öldürəndə, bizim də sümüyümüz sancır. Ona görə də vuruşmağımız labüddür. Çıxın gedin Diyarbəkrə, siznən həmişə dost olarıq.

– Yaxşı dostluqdur, – deyə Sara xatun öz-özünə deyindi.

– Ana, bu yerlər heç vaxt Ağqoyunluların olmayıb. Qaraqoyunluların torpaqlarını niyə tutmaq istəyirsiniz?

– Bu il Diyarbəkrdə quraqlıq keçib, mal-heyvanımızı bu tərəfə qovmuşuq. Əgər İranın, İraqi Əcəmin, İraqi Ərəbin, Rey mülkünün qəhrini çəkirsinizsə, onlarda bizim gözümüz yoxdur.

– Bəs Azərbaycan?

– Öz yurdumuzdan da çıxaq?

– Azərbaycan əmim Miranşah Mirzənin mülküdür.

Sara xatun Əbu Səidə güzəşt etməyə gəlmişdi. O, Ağqoyunlu nəslini bu çətin anda xilas etməli, döyüşdən çəkindirməlijdi.

– Yaxşı, onda Sultan razılıq versə bu qışı Qarabağda qalar, yazda Diyarbəkrə qayıdarıq. Yəqin ki, buna e'tirazınız olmaz.

Əbu Səid çiynini çəkdi. Dejəsən bu fikirlə razılaşmağa hazır idi. Amma vəzir qalxıb yenə onun qulağına nəsə pıçıldadı. O, danışdıqca Əbu Səidin gözləri qıyılır, bir-birinə yaxınlaşan göz qapaqları arasında qonur göz bəbəkləri parıldayırdı. Qızıl, daş-qaşla bəzənmiş tac qoymuş başını tərpədib razılığını bildirdi. Sonra üzünü Sara xatuna döndərdi:

www.kitabxana.net

– Köhnə, babaların dostluğu naminə mən Həsənlə vuruşmaqdan vaz keçirəm. Ancaq baba ruhu əziz olur. Əmir Teymur həmişə qışı Qarabağda keçirərdi. Mən də bu qışı Qarabağda keçirmək istəyirəm. Hələ ki, yağışlar başlamayıb, çıxın kedin Diyarbəkrə. Sonra gec olar.

Sara xatun ürəyinin dərinliyində bu danışıqdan razı qaldı. Oğlu sağ-salamat idi. Gəlinləri üzüklərdən istifadə etməyəcəkdilər. Azacıq qoşunları da dağılışmayacaqdı. Demək heç olmasa fürsət gözləməyə ümid var. Ölümün pəncəsindən qurtarırdılar.

Sara xatun Sultandan icazə alıb getmək istədi.

– Bu saat sizi yola salarlar.

Sultan işarə verdi. Açıq qolları və əzələli çiyinləri yağlanmış kimi parıldayan qara həbəş əllərində üstünə zərxara örtük salınmış bir nimçə gətirdi. Sultanın qarşısında diz çökdü.

Sultan örtüyü qaldırdı. Qızıl nimçədə incilərlə dövrələnmiş, iri firuzə qaşlı nəfis bir qolbaq vardı. Sultan onu götürdü.

– Ana, bu hədiyyəni kişilərin işini boynuna kötürən Sara xatuna mənim anam göndərib. Bu ona görə qiymətlidir ki, onu Əmir Teymur özü Təbriz ustalarına düzəltdirib.

Sara xatun hədiyyəni kötürüb Sultana öz təşəkkürünü bildirdi.

İkinci qara qul ovcunda yanaşı tutduğu qılıncı Sultana uzatdı.

Bu qılınc da qızılla işlənmişdi. Qəbzəsində almaslar da parıldayırdı.

– Bu qılıncı isə biz dostlara bağışlarıq. Mənim hədiyyəm kimi Həsən bəyə verərsiniz.

O, "bəy" kəlməsini xüsusi bir vurğu ilə deyirdi. "Bəy" ləqəbi Sultandan sonra gələn altıncı-yeddinci dərəcəli titul idi.

Sultan Əbu Səid Şeyx Heydəri də yaddan çıxarmamışdı. Qabaqda cavan, saqqalından, əmmaməsindən və libasından ruhaniyə oxşayan şəxs qara örtüyə bürünmüş bir əşya gətirdi. Sultan Əbu Səid onu aldı, örtüyü açdı, qızıl qabda dəri cildli kitab vardı.

– Ya şeyx, yaxına gəl.

Heydər yaxına getdi. Sultan Əbu Səid dəri cildli kitabı dodaqlarına yaxınlaşdırandan sonra onu Şeyx Heydərə uzatdı.

– Qahirə Abbasi xəlifəsinin babama göndərdiyi Qurani şərifin bir mübarək nüsxəsidir. Bu nüsxə Darül İrşada nəzirdir, onu sənə verməklə özümü xoşbəxt bilirəm. Cəd-diniz köməyimizdə olsun.

Şeyx Heydər də, Quranı öpüb gözünə qoyandan sonra qızıl qabına saldı, qara örtüyə büküb götürdü.

Onlar mürəxxəs oldular.

Uzun Həsən anası və bacısı oğlu ilə bərabər alaçığında oturmuşdu. Sara xatun danışığın gedişini olduğu kimi danışdıqca oğlu əsəbiləşirdi. O, iri barmaqlarını dodaqlarına dayamışdı. Hirsləndikcə yumruğunu gürz kimi dizinə endirirdi.

Anası onu sakitləşdirirdi.

– Döz, oğlum. Hökmdarın birinci üstünlüyü onun səbridir. Səbrlə dünyanı tutmaq olar – səbrsizliklə ayağının altındakı bir qarış torpağı da uduzarsan. Biz ondan vaxt oğurladıq. Vuruş olmayacaq. Biz Qarabağdan çıxırıq. Bilmək olmaz beş gündən sonra nə baş verəcək. Bizi çox lütflə qarşılayıb, lütflə də yola saldı. Amma Şeyx Heydər, onun hədiyyələrindən ağlım bir şey kəsmədi.

– Mənim də.

– Sən nə fikirləşdin?

– O qolbaq ki, var, onu gərək açıq verəydilər, bağlı verdilər. Bu o deməkdi ki, siz mənim əlimdə bu qolbaq kimi mühasirədəsiniz. Mənə də nəzir verdiyi hədiyyə o demək idi ki, sən bu işlərə qarışma, get kitabını oxu. Bircə dayıma göndərdiyi qılıncı başa düşə bilmədim. Özü də deyir ki, bu qılıncı dosta bağışlayırıq.

Uzun Həsən qalxıb alaçığın dirəyindən asılmış qılıncı götürdü. Dəstəyi ovcunda itdi. Əlini qına atdı. Qılıncı siyirmək istədi. Amma tiyə qından çıxmadı. Bir də güc elədi, yenə çıxmadı. Bu qılıncın tiyəsi yox idi.

– Demək belə, mənə də demək istəyir ki, sənin qılıncının tiyəsi yoxdur. Qılıncın qında pas atacaq. Ana, mən onunla vuruşmaq istəyirəm.

– Oğul, cavansan, beynin hələ qandı. Hər şeyi ölçüb biçmək lazımdır. Çağır sərkərdələrini, yaxın adamlarını, ağsaqqalları məsləhətləşək. Sənin bu döyüşün diri gözlü ölümə getməkdir.

– Dayı, mənim də bir məsləhətimə qulaq asın da.

– Buyur, Şeyx. Cəddini köməyimizə çağır görək necə olacaq.

– Biz ona kələk gəlməliyik. Biz buradan çəkilək. Qoy Əbu Səid Arazı keçsin. O, Arazı keçib Qarabağa gəlsə işlər düzələcək. Onda biz Arazı o taya keçərik. Qarabağda bu qış ot yoxdu. Quraqlıq keçib, taxıl da yoxdu. Qırx-əlli minlik ordunu, bir o qədər atı, filləri, dəvələri saxlamaq mümkün deyil. Biz də Arazın o tayında yolları kəsərik. Əbu Səidin özü düşəcək o qolbağın arasına.

Uzun Həsənin fikri harasa getmişdi. Şeyx Heydərin dediklərinin yarısını eşidə bilməmişdi. Ona görə də xahiş elədi ki, təkrar danışsın. Təklif olunan ağlına batdı. Üzünü anasına çevirdi.

– Sən nə deyirsən?

– Çox ağıllı fikirdi. Əbu Səidi əzmək üçün bundan ağıllı yolumuz yoxdur.

– Arazın o tayına keçsək Ərdəbil də bizim olacaq. Qoşunu elə Darül İrşaddan gələn ehsanla saxlayarıq. Hər gün yüzlərlə mürid gəlir. Onları silahlandırıb qoşunun sayını artırarıq. Xorasandan gələn yolları kəsib qoşununun bütün ərzaq yolunu bağlayarıq.

Uzun Həsən gecənin bu vaxtı elə bildi günəş doğur. Onun düşdüyü zirzəmilər işıqlaşır, qapılar, pəncərələr taybatay açılır. O, bütün varının, dövlətinin hamısını bacısı oğluna bağışlayardı. Daha söhbəti də uzatmağı lazım bilmədi. Heç kimi də çağırmadı. Ayrı təkliflər olsa fikirlər haçalanacaqdı. Bu fikrin üçünün arasında qalacağını sözləşdilər. Sonradan Uzun Həsən özü hərəkət edəcəkdi.

– Gedin, yatın. Axşamın xeyrindən, səhərin şəri yaxşıdır.

Şeyx Heydər də, Sara xatun da öz çadırlarına getdilər. O, bir an fikirləşdi. Hansı xatunun yanına getsin? Müqayisə elədi, ölçdü, biçdi. Ürəyi onu Dəspinə xatunun yanına çəkib apardı. Xəbər göndərdi kn, hökmdar onun yanına gəlir.

Uzun Həsən başını əyib alaçıqdan girəndə yan-yana iki gözəl dayanmışdı. Biri Dəspinə xatun, o birisi də anasını təkrar eləyən qızı Aləmşahbəyim. Onun keyfi kök idi. Əvvəl qızının alnından öpdü. Əyildi, qızı başını onun çiyninə qoydu.

– Mənim gözəl qızım gözümə bikef dəyir.

– Yaqub saçımdan tutub dartıb. Deyir sənin saçların niyə qızılıdı?

– Deyəydin qızıldandı da, a qardaş. Eyb eləməz.

O qızının başını qaldırıb gözlərinə baxdı. Aləmşah-bəyim on beş yaşa keçmişdi. Birdən-birə ürəyinə bir niyyət gəldi. “Heydərin tədbiri baş tutsa, Aləmşahbəyimi ona verəcəyəm”.

Amma o bilmirdi ki, gənc Heydəri neçə vaxtdı elə buraya bağlayan Aləmşahbəyimdir.

Üç gün idi ki, yağış başlamışdı. Bütün göy üzü bulud idi. Amma o buludların səddi-sərhəddini ayırmaq mümkün deyildi. Boz buludlar lap aşağı enmişdi. Narın, kor yağış kəsmək bilmirdi. Yayın quraqlığından çat-çat olub ayrılmış muğan torpaqları sudan doymurdu. Su dənəvərlənmiş torpaqları elə isladırdı ki, yollar, çöllər keçilməz olmuşdu. Üçüncü gün Araz daşıb bərəni də götürüb aparmış, Qaradonlu kəndindən neçə çovustanı yumuşdu. Yağış isə kəsmirdi ki, kəsmirdi.

Uzun Həsənin alaçığı indi Qızıltəpənin yanında qurulmuşdu.

İş elə gətirmişdi ki, Sultan Əbu Səid Qarabağa keçmiş, Uzun Həsən isə Arazın sağ sahilinə adlamışdı. İşlər Şeyx Heydərin tökdüyü tədbir kimi gedirdi. Bu tərəfdən də yağış başlamışdı. Yağış da Uzun Həsənin köməyinə çatmışdı. Payızda Muğana, Milə yağış yağanda ot cücərir, göbələk də çıxırdı. Amma payızdan çox ötmüş, havalar soyumuşdu. Bundan sonra otun cücərməyinə ümid yox idi. Sultan Əbu Səid özünü çətin vəziyyətə salmışdı. Uzun Həsən alaçığında tək oturmuşdu. Xidmətçi onun qarşısında süfrə salmışdı. Çadırın yanında üstündə talvar qurduqları ocağın səngiyən közünü dağıdan xidmətçi şor motalına oxşayan dərini çıxartdı. Qoyunu doğrayıb duzlamış, ədviyyə vurub təzədən dəriyə doldurmuş, tikib odun içinə basdırmışdılar. İndi oddan çıxartdılar. Dərinin tükü tamam yanmışdı. Yanan yunun kəskin iyi ətrafa yayılmışdı. Artıq dəri ütülmüşdü. İki nəfər dərini götürüb iri məcməyiyə qoydu. Bıçaqla

motalı cırdılar, dəri açıldı. Qalxan buxar hər iki adamı görünməz etdi. Onları kəklikotu, zəncəfil, sarıkök iyi vurdu. Sonra yeməyi ayırıb bir məcməyiyə yığıb buğlana-buğlana alaçığa apardılar.

Uzun Həsənin kefi kök idi. Yeməyin ətri ona çox xoş gəldi.

– Bəh-bəh, – deyə aşbazları tə’riflədi.

Süfrəyə yumşaq ağ lavaş qatlanıb yığılmış, şüşə qabda nar, heyva, sinidə qarpız kəsilib düzülmüşdü.

O, çox vaxt yeməyi tək yeyərdi. Aşbazlar gedəndən sonra iri qara gözlü, kirpikləri əyilib sifətinə kölgə salan rumlu qız şüşə qabdan kasaya şərbət süzdü.

Hökmdar yeməyə girişdi. Bir azdan qoyundan yalnız sümüklər qalmışdı. Qız aftafa-ləyən gətirdi. Su tökdü, o əllərini yudu.

– Şükür sənə, ilahi – dedi – Qıza iri bardağı göstərdi. O, bardaqdan böyük çini parça su süzdü. Uzun Həsən suyu da içəndən sonra qalxıb alaçıqdan çıxdı. Rumlu kəniz süfrəni yığışdırmaqla məşğul oldu.

O, qapıda görünən kimi xidmətçilər, sərkərdələr, ə’yanlar onun ətrafına yığıldılar.

– Yağış kefinizi pozmayıb ki?

– Nur yağır, nur.

– Kimin üçün nurdu, kimin üçün cəhənnəm odu. Yaxşı, mənə at gətirəcəkdilər...

– Hazırdır, – deyə Əmiraxur dilləndi. Bir ilxı at sizin ixtiyarınızdadı, böyük hökmdar.

Atları yəhərləmişdilər. Yüyən vurmuşdular. Birinci atı gətirdilər. Bu uzun boyunlu, nazik ayaqlı, sivri sağrılı türkmən atı idi.

Uzun Həsən yüyəni yalın üstündən keçirdi, ayağını üzəngiyə qoymamış tullanıb yəhərdə oturdu. Amma yəhər yatdı, atın ayaqları qabağa sürüşdü, dal ayaqları çökdü. O, tullanıb yəhərdən yerə düşdü. Sara xatun da dayanıb oğlunun özünə at seçməsinə baxırdı. Atın beli oğlunun ağırlığına tab gətirməyib az qala qırılmışdı. Uzun Həsən günahkar-günahkar anasına baxdı.

– Ana, məni tutsa bu bədbəxt atların ahı tutacaq.

Atın gözləri irilmişdi. Əmiraxur yaxınlıqda dayanan əsgərin nizəsini alıb türkmən atının qabırğaları arasına sancdı. Atın başı yerə gəldi.

– Ay oğul, Allah o heyvanları belə yaradıb, sənin nə günahın.

Atın cəsədini sürüyüb apardılar.

Mehtərlər ikinci bir köhləni çəkib gətirdilər.

– Ərəb atıdır.

Ağ rəngli bu köhlənin ağ yalı, ağ quyruğu vardı. Uzun Həsən köhlənin duruşuna, gözəlliyinə baxıb heyran qaldı. Onun belinə qalxıb şikəst eləməyə heyfi gəldi.

– Bunun da beli sınar, heyifdi.

Əmiraxur güldü.

– Dünyanın bütün ilxıları sənə qurban olsun. Hökmdarımızın atı gərək onun adına layiq...Bütün cinslərdən gətirmişik. Harada bir adlı-sanlı at varsa onun balalarını tapmışıq, almışıq.

Uzun Həsən nə qədər ucaboy, ağır olsa, bir o qədər də yüngül, cəld idi. Ayağını üzəngiyə keçirib, yəhərə qalxmağı xoşlamazdı. Bir dəfəyə ayağını yerə vurmaqla qalxırdı. Ona görə də yəhərə ağırlıq birdən-birə düşür, atların çoxusu dözmür, beli qırılırdı.

O, ərəb atını da belə mindi. Yox, bunun beli sınmadı. Deyəsən onu yaxşı əhliləşdirməmişdilər. Dəlilik eləyirdi. Yüyəni dartanda şahə qalxır, süvarini belindən salmağa çalışırdı. Uzun Həsən atın yüyənini buraxdı. Kövşənlə ox kimi uçurdu. Düşərgədən çox uzaqlaşmadı. Aralıdan başını döndərdi, dövrə vurub gəldi. Amma birdən-birə köhlənin başı aşağı getdi, ayağı horraya dönmüş palçıqda siçan yuvasınamı, nəyəsə keçmişdi. Həsən atın boynundan uçub qabaqda yerə düşdü. Hələ göydə ikən özünü düzəltmişdi. Ayaq üstündə düşdü və topuğa qədər palçığa batdı.

Ə’yanlar ona tərəf qaçmaq istədilər, amma hökmdar qamətini düzəltdi, qırmızı məstlərinin topuqdan yuxarı palçığa batmağına fikir verməyib iri addımlarla onlara tərəf gəlməyə başladı.

Narın yağış onun qara, gödək saqqalına qırov kimi qonmuşdu. Börkü, libası da su içində idi. Bu yağış birdən-birə deyil, yavaş-yavaş isladırdı, həm də sümüyə, iliyə qədər keçirdi.

Amma nə hökmdar, nə də onun məiyyəti yağışa fikir vermirdilər. Köçərinin günü yağışda, qarda keçər. O, əyilib gözlərinin bulağından aşağı yaş axan ərəb atının başını sığalladı, üzünü döndərib yeridi.

Atın ki ayağı sındı, qurtardı, o sağalmaz. Belə heyvan ölməlidir. Əzabdan, əziyyətdən qurtarmaq üçün onu öldürürlər.

Əmiraxur yetirib qılıncını çəkdi, onun ürəyinə sancdı. Hökmdar ərəb atına çox lütfkarlıqla yanaşmışdı. Onu nizə ilə öldürmək istəmirdi.

Uzun Həsən ə'yanlarına, məiyyətinə özünün gücünü, ağırlığını göstərmək istəmirdi. Onu hələ neçə-neçə döyüşlər gözləyirdi. Döyüşdə ki, at sahibi kimi cəld olmadı, onu tez tutarlar. Əsir eləyərlər. Əsir düşən hökmdarın səltənəti dağılmasa da ömürlük ləkəli olur. Bir hökmdar həyatı üçün yüzlərlə ilxı qurban verirdilər, heç onu müqayisəyə də gətirmək olmaz. Həm də igid döyüşçünün, sərkərdənin altında adına layiq atı olmalıdır. O, bilirdi ki, Əbu Səidlə döyüşsüz qurtara bilməyəcəklər, ona görə də özünə təzə atlar seçməyi tapşırmışdı.

– Bu nədir, Əmiraxur, sənin gətirdiyin atların hamısı loş çıxır.

Əmiraxur qılıncını kətyan koluna silib qurtarandan sonra qınına salıb gəlirdi.

– Yaxşı atlarımız var, hökmdar.

– Gətirin görüm.

Əmiraxur göydəmir bir atı hökmdarın qarşısına çəkdi.

– Əsil Qarabağ atıdı. Özü də üçyaşar, cavandı. Yaxşı yorğası var.

Yorğa at yüksək qiymətləndirilirdi. Çünki hökmdarlar at üstündə ölkənin bu başından o biri başına dəfələrlə gedir. Təbrizdən Bağdada, Bağdaddan Qahirəyə, Qahirədən Şama, Şamnan Təbrizə, oradan Xorasana. Onun atı yorğa yerişli olmasa yorub əldən salar. Onsuz da mehtərlərin yüyənindən tutub saxladıqları atların hamısı yorğa yerişli idi.

Uzun Həsən əlini Qarabağ atının islaq yalına, sarğısına çəkib onun xasiyyətinə bələd olmaq istəyirdi. Bu vaxt onlara tərəf qızılı bir ayğır təşəxxüslü bir qaçışla yaxınlaşıb kişnəyir, ayaqlarını yerə döyürdü.

– Əmiraxur, o ayğırı tutun.

Bir işarə bəs idi. Hər tərəfdən ayğırı dövrəyə aldılar. Ayğır adamların arasından sıçrayıb çıxdı. Bir neçə mehtəri də qabaq ayaqları ilə əzdi, təpiyi də birini tutub palçığın içinə uzatdı. Amma Uzun Həsən ona tərəf gələn ayğırı əldən buraxmadı. Alaçığın yanındakı atın yəhərindən kəməndi götürmüşdü. Kəməndi atmaqla ayğırın başına keçməyi bir oldu. Ancaq ayğır şahə qalxıb kəmənddən qurtarmaq istədi. Bir şey çıxmadı. Sağ ayağını irəli verən Uzun Həsəni də öz dalınca dartdı. O, sol dizini qatlamış, sağ ayağını yerə vermişdi. Amma ayğırı saxlaya bilmirdi. Ayağı palçıqda sürüşüb gedir, ayğır onu dartıb aparırdı. Haradansa qabağına bir daş çıxdı. Ayağını dirədi. Ayğır nə qədər güc verdisə, qurtula bilmədi. Şahə qalxdığı yerdə yanı üstə çökdü.

– Boğun bu ayğırı!

Mehtərlər tökülüb ayğırın boğazına daha bir kəndir atdılar, üçü bir tərəfdən, üçü də bir tərəfdən kəndiri dartmağa başladılar. Ayğır qalxmışdı. Ona gücləri çatmırdı.

– Nə olub sizə, çörək yeməmisiniz? – deyə Uzun Həsən hayqırdı. İpdən yapışan mehtərlər çoxaldı. Kəndir sıxıldı, ayğır boğulurdu.Bir azdan o ayaq üstə dayana bilmədi. Gücü, qüvvəsi tükəndi. Ayaqları boşaldı, tir-tap yerə uzandı. Onun ağzından qan gəldi.

– Tez olun, başına yüyən vurun, belinə yəhər qoyun.

Hökmdarın tapşırıqlarını bir anda yerinə yetirdilər. O, tapqıra baxdı. Barmaqları tapqırın altına keçdi. Qayışı açıb bir ilgək də yuxarıdan bağladı. Yüyəni yalın üstünə keçirtdi.

Ayğır nəfəs almağa başlayan kimi ayağa qalxdı, Uzun Həsən də onun yəhərində. Bayaqkı qənşər, şux yerişindən əsər-əlamət qalmamışdı. Üstündə yük hiss eləyib şıllaqlamağa başladı. Bir şey çıxmadı. Artıq özünə gəlmişdi. Üstündəki yük onu elə bil ayıltmışdı. İndiyə qədər belə şey görməmişdi. Heç onun üstünə milçək də qona bilmirdi. Mozalan dişləyəndə ağız atırdı. Milçəkləri quyruğu ilə qovurdu. Amma indi belində ağır bir yük vardı. Ağzını atıb dişləmək

istəyirdi, cəhənglərini dartan dəmir yüyən onu başını döndərməyə qoymurdu. Ayğır şahə qalxdı, amma üstündəki onu öz ağırlığı, hərəkətləri ilə qabaq ayaqlarını torpağa endirdi. Böyürlərinə iki ağır şey dəydi. Ayğır bu vəziyyətdən xilas olmaq üçün baş götürüb qaçmaqdan özgə çarə görmədi. Götürüldü, yəhərdəki də elə bunu istəyirdi. Yaş, sürüşkən kövşən yerində dəli bir qaçış başladı. Ayğırın dırnaqlarından palçıq parça-parça göyə tullanır, amma onların üstünə düşmürdü. Bu dəli sür’ətə çata bilmirdi.

Uzun Həsən qırğı kimi ayğırın yalına yatmışdı. Artıq onu ipə-sapa yatırırdı. Bir azdan o, sür’əti bir az da artırdı. Həsənin ə’yan-əşrəfi də atlarına süvar olub ona çatmaq üçün çapır, amma yaxınlaşmaq əvəzinə daha da uzaqlaşırdılar. O, ayğırın başını buraxıb xeyli getmiş, ordugahdan uzaqlaşmışdı. Onun üzünü döndərib əks tərəfə dönmək üçün böyük bir qövs cızdı. Yenidən sür’ət artdı. Elə bil Uzun Həsəni ayğırla bərabər mancanaqdan buraxmışdılar. Ən güclü pəhləvanın atdığı ox kimi süzürdülər. Bu sür’ət həm Uzun Həsənə, həm də ayğırın özünə xoş gəlirdi. Daha yəhərdən, yüyəndən süvaridən xilas olmağı da bəlkə istəmirdi. Çünki onu bir bu qədər yol qovan da olmamışdı. İndi var gücü ilə qaçırdı.

Uzun Həsən başını qaldıranda qabaqda böyük bir dəstə gördü. Beynindən ildırım kimi bir fikir keçdi. “Əbu Səidə köməyə gələn qoşun olar”. Belinə əl atdı, amma qılınc bağlamamışdı. Əmudu, təpəri, təbərzini, nizəsi də yox idi. Ayğır isə özünü gələn dəstənin üstünə atırdı. O, yüyəni nə qədər dartdısa da, ayğırın sür’ əti azalmırdı.

Birdən bir səs eşitdi:

– Dayı!

Bu səs ayğırı da diksindirdi. O, şahə qalxdı. Uzun Həsən yüyəni yığışdırdı. Ayğır da sakitləşdi.

– Mənəm, dayı.

Bir atlı ona yanaşdı. Yağışdan qorunmaq üçün başına örtük salmış Şeyx Heydər idi.

– Gəldin?

– Gəldim dayı. Özümlə də on min mürid gətirmişəm.

– On min?

– Bəli. Yolda Əbu Səidə köməyə gələnlərlə də vuruşduq. Beş min əsir tutmuşuq. Bütün arabaları qənimət almışıq.

– Bərəkallah, bacıoğlu. Səni ordugahda gözləyirəm. O, atın başını döndərdi ordugaha tərəf, yüyəni buraxdı. Ayğır götürüldü. Yolda onun dalınca çapanların yanından keçib öz alaçığına çatdı, ayğırı saxladı. At bu dəfə də şahə qalxdı. Amma yorulub sakitləşmişdi. Ayaqlarını yerə qoydu, Həsən tullanıb yəhərdən düşdü. Nökər-naiblər atın cilovundan yapışdılar.

– Aparın gəzdirin, təri soyusun, – dedi.

Alaçığın qabağında on səkkiz, on doqquz yaşlı oğlu, boy-buxunda, sir-sifətdə atasına oxşayan Uğurlu Məhəmməd dayanmışdı. O, atasını görüb yaxın gəldi, əlini sinəsinə basıb baş əydi.

– Sənin işini mən görürəm də, oğlum, – deyə ona zarafat elədi. Amma zarafatı ciddi dedi.

– Atayi mehriban, sənin işini görmək dərəcəsinə yetişməyimə hələ çox var.

O əlini oğlunun çiyninə qoydu

– Sən mənə oxşayacaqsan. Buna gün kimi inanıram. Ora bax, deyə bir az yuxarı qalxmış buludları göstərdi, – görürsən, buludlar günəşin qabağını kəsib. Amma bulud nədi, heç nə. O əriyib gedəcək. Günəş isə elə günəşdi.

Birdən onun gözünə bir dəstə qaz göründü. Buludların arasında qanad çala-çala ordugaha yaxınlaşırdılar.

– Tez, yay-oxu, alaçıqdan bura gətir. Özününkünü də götür.

Uğurlu Məhəmməd alaçıqdan atasının və öz yay-oxlarını gətirdi.

– Oğul, o qazları görürsən də.

– Hə, üç qazdı. Qabaqdakını mən nişan alıram, arxadakını sən. Xeyli vaxtdı Bozağoğlundan dərs alırsan. Görüm necə atırsan.

Atası oğlunu həvəsləndirdi. Hər ikisi oxlarını hazırladılar. Qazlar uçub onların başı üstünə gələndə arxasında lələk olan oxlar yaylardan ayrıldı. Vıyıltı ilə yuxarı uçdu.

Ordugahdan heyrət nidaları qalxdı. Qazların ikisi də sinələrindəki oxlarla bərabər hərlənə-hərlənə gəlib yerə düşdü. Ata oğlunun qolundan tutub alaçığa apardı. Ata keçib taxtında oturmadı. Alaçağın ağzında palçıqlı məstlərini çıxartdı, naxışlı yun corabda xalçanın üstü ilə keçib döşəkçənin birinin üstündə bardaş qurdu. Oğlu da məstlərini çıxartdı. Ayaq üstündə qaldı.

– Gəl görüm, otur yanımda. Səninlə məsləhətləşmək istəyirəm.

– Eşidirəm, atayi mehriban.

– Şeyx Heydər on min müridlə bizim köməyimizə gəlir. Bizim qüvvəmiz artır. Əbu Səidin əli-ayağı bağlanır. Biz indi ona rahatlıq versək, özümüzə qəbir qazarıq. Səni bir minbaşı kimi səfərə göndərmək istəyirəm. Gecəylə hücuma keçib düşmənə ağır zərbə vurub qayıdacaqsan. Görüm sərkərdəlik qabiliyyətin də ox atmağın kimi olacaqmı?

– Baş üstə, atayi mehriban. Mən hazır.

– Yüzbaşıları özün seç.

Bununla da ata ilə oğulun söhbəti qurtardı. Uğurlu Məhəmməd qalxdı. Elə çıxdı ki, arxası atasına tərəf düşmədi.

Bir aya yaxın çəkən yağışlar bir gecə qara çevrildi. Səhər hər tərəf ağ bir örtüyə bürünmüşdü. Sultan Əbu Səid qalxıb soyuq çadırda gərnəşdi. Yorğanı üstündən atıb isti paltar geyindi. Yaxasına, ətəyinə, qollarına samur xəzi tikilmiş xorasan kürkünə bürünüb çadırdan çıxdı. Yanı ilə onu kölgə kimi izləyən adamlara əhəmiyyət vermədən yeriyirdi. Ordugahın arasında iri bir şeyin üstünə qar yatmışdı və nə olduğu bilinmirdi.

– Bu nədi belə?

– Fildi, Sultani əzəm. Ölüb.

– Fil ölüb?

– Bəli. O isti yerin heyvanıdır. Qarabağın soyuğuna dözmədi.

– Soyuğuna yox, aclığa. Bütün günahlar səndədir, vəzir. Məni bu tələyə salan sənsən. Qarabağı da vermirdik, babamın iyini almağa gəlirdim. İndi fil leşinin iyini alarıq. Səltənəti sən məhv elədin.

Sara xatunu Əbu Səidin çadırına gətirən, sonra sultanın qulağına pıçıldayan vəzirin bu sözdən sonra dişi-dişinə dəyirdi. Soyuq da tə’sirini göstərirdi. O Xorasanda belə soyuq görməmişdi. Üç gün dalbadal əsən külək birdən-birə qar gətirmişdi.

– Nə oldu elçilər?

– Elçilər əliboş qayıdıb.

– Necə? Qarabağı da, Azərbaycanı da, İraqi Əcəmi, İraqi Ərəbi, lap Reyi də veririk, Uzun Həsənin gözü doymur? O ki bizdən bir buranı istəyirdi.

– “Yox” deyib durub.

Ordugahdakı çadırlardan çıxan yox idi. Sultan elə bildi ki, qoşundan salamat qalanlar da onu tərk edib. Çadırlardan birinə girdi. Səsini çıxartmadı. Silahlı-əbləsəli oturub yuxuya gedənlərdən heç biri yerindən qımıldanmadı. Vəzir qışqırdı:

– Sultanı görmürsünüz?

Heç kimdən səs çıxmadı. Vəzir qapının yanında oturan əsgəri təpiyi ilə itələdi. Əsgər yıxıldı, başından dəbilqə, düşüb o biri əsgərin sinəsindəki qalxan şəkilli zirehə dəyib cingildədi. Amma nə yıxılan, nə onun toxunduğu qımıldanmadılar.

– Sultani əzəm, çıxın buradan. Vəba...

Sultan geri qayıtdı.

– Ölənlər də, xəstələr də yandırılsın!

– Baş üstə, – deyə əmirsipəhsalar dindi, amma sözünü dəyişdi.

– Odun yoxdu, Sultani əzəm.

Əbu Səid çadırına qayıtdı. Əmirsipəhsaları çağırıb qulağına nəsə pıçıldadı. O, çıxdı. Vəzir Sultanı danışdırmaq istədi, amma onun danışmağa həvəsi qalmamışdı. Bir azdan əmirsipəhsalar beş nəfər silahlı əsgərlə çadıra girdi. Vəzir deyəsən bütün bunların onun əleyhinə olduğunu görüb gah əmirsipəhsalara, gah da sultana baxdı. Özü qıc kimi olsa da, gözləri yerində oynayır, o tərəf bu tərəfə qaçırdı. Sultan üzünü əmirsipəhsalara çevirdi.

– Deyəsən vəzirimiz məşhur nəsildəndir.

– Bəli, Sultani əzəm, Barmakilərdəndir.

– Yalan desən də inanırıq. Barmakilərin kökü çoxdan kəsilib. Bir də onlar belə ağılsız məsləhət verməzdilər. Hər halda əsilzadəsən – Sultan bu sözdən sonra taxtının yanından asılmış yayını götürüb baxdı. Ucları ceyran buynuzundan düzəldilmişdi. Tutacağı qızıldan idi.

– Bu heyifdi. Bir yay gətirin, kirişi yoğun olsun. Vəzir Sultanın qabağında diz üstə çökdü, ona tərəf süründü.

– Sultani Əzəm, mən bütün Qaraqoyunlu mülkünü öz mülklərimizə qatmaq üçün belə məsləhət vermişəm. Mənə rəhminiz gəlsin. Mən sizə həmişə sədaqətlə qulluq eləmişəm. Şirvanşaha göndərdiyim elçilər qayıtsın, hər şey yaxşı olacaq. İnandırıram sizi.

– Şirvanşah?.. Nə vaxt göndərmisən?

– Bir həftədir. Bu gün gələcək.

Sultan çadırın açıq qapısından baxdı. Gördü ki, bir atlı çapa-çapa gəlir. Atdan buğ qalxır. Onun ata paxıllığı tutdu. Gör necə canı istidi ki, buğlanır. Mən bu qədər paltarın içində donuram. Atlı gəlib çadırın yanında yəhərdən aşırıldı.

– Gəldi, elçi, gəldi elçi. – İcazə verin içəri gəlsin.

– Gəlsin.

Elçini çağırdılar. O, içəri girib əlini döşünə qoyub baş əydi, belindəki əyri qılınc qalxıb çadıra toxundu.

– De görək nə xəbərlə gəlmisən?

– Bəd xəbərlə gəlmişəm, Sultani əzəm. Şirvanşah...

– Hanı məktubu?

– Məktubu yazmağı da lazım bilmədi. Dilcavabı buyurdu. Dedi ki, bəs mən Sultan Əbu Səid həzrətlərinə həmişə kömək eləmək istəyirdim. Babam da onun babasının sayəsində hökm sürmüşdü. Amma qorxuram. Uzun Həsən məktub yazıb. Yazıb ki, baban Şeyx İbrahim Teymurləngə hədiyyənin hamısını doqquz dənə aparmışdı, qulu səkkiz. Əmir Teymur soruşanda ki, qul niyə səkkizdi, demişdi, mən də doqquzuncu. İndi nə Əbu Səid Teymurləngdir, nə sən Şeyx İbrahim. Ona ərzaq göndərsən, qoşun versən, kömək eləsən, Şirvanı yerlə-yeksan eləyəcəm.

– Sən mürəxxəssən.

Elçi getdi. Vəzirin rəngi çadırın parçası kimi ağarmışdı. Bu vaxt yay dalınca gedən əsgər qayıtdı. Sultan əmirsipəhsalara işarə etdi.

– Mənim gözümün qabağında. Qədim adətimizlə yayın kirişiylə. Qoy bu satqın mənim ölümümü yox, mən onun ölümünü görüm. Əmirsipəhsalar əsgərlərə işarə elədi. İkisi vəzirin qollarını burdular. Əmirsipəhsalar arxa tərəfində dayanıb yayın kirişini onun hulğumuna söykədi, yayın əyri uclarından tutub var gücü ilə özünə tərəf dartdı. Vəzirin gözləri hədəqəsindən çıxıb çevrildi, bir neçə andan sonra onun qolları boşaldı, rəngi qaraldı.

– Hazırdı, Sultani əzəm.

– Görürəm. Sürüyün meyitini atın düzün ortasına. Canavarlar...

– Sultani əzəm, axı o əsilzadə nəslindəndi, müsəlmandı.

– Yaxşı, nə eləyirsiniz, eləyin. Qoy bu işi əsgərlərin görsün. Səni özgə yerə göndərəcəm.– Əsgərlərdən ikisi vəzirin meyitini büküb apardılar. O birilər də çıxdı.

Sultan gedib taxta oturdu, sifətini ovucları arasına aldı. Xeyli fikirləşdi, sonra fikirlərinə qarşı elə bil üsyan elədi. Ayağa qalxdı.

– Haradasan, ulu baba, haradasan? Ya bizi yaratmayaydın, ya da öz ağlından bizə də verəydin. Sən dünyanın ən böyük hökmdarlarını əlində oyuncağa döndərmişdin, indi mən, sənin nəvən bir tərəkəmə bəyinin əlində əsir-yesir qalmışam. Diril, başını qaldır, mənə bir yol göstər.

Əmirsipəhsalar quruyub qalmışdı. Sultanın acizliyi onun bütün ümidlərini qırmışdı. Amma bu dar macalda ona kömək eləmək istədi.

– Ya Sultani əzəm, bir çıxış yolu var.

– Hanı o çıxış yolu!

– Salamat qalan qoşunu yığaq, Xudafərin körpüsündən keçək.

– Yox, əmir. Mən bir bəyin qabağından qaçmağı qeyrətimə sığışdıra bilmirəm. Məni o Şeyx Heydərin cəddi bu kökə saldı. Babam onlara biət eləmişdi. Nəzir-niyaz verirdi. Mən bu keçisaqqala uyub onun sözünü yerə saldım. Mənə bu da azdır. Anamı bura çağırın.

Bir azdan sultanın anası onun çadırında idi. Qollarını qoynuna qoymuşdu. O, Sara xatundan yaşlı olardı, arıq, ucaboy, sifətində qırışlar yol salmış qadın idi. Sadə geyinmişdi, üstündə heç bir bəzək-düzək yox idi.

– Anamdan başqa hamı çıxsın.

Soyuq çadırda ana və oğul qaldı.

– Vəziyyətimizdən xəbərin var? Heç bir çıxış yolu yoxdu. Uzun Həsənin gücü mənim gücümdən xeyli çoxdur. İstəsə günü bu gün hamını qılıncdan keçirər. Bir heyfi yadından çıxarda bilmir. Mən onun anasını “yox” cavabı ilə yola salmışdım. Bilir ki, mənim də anam yanımdadır. Sən hazırlaş, Sara xatunun yanına get. De ki, mən kişilərlə yox, Sara xatunla görüşməyə gəlmişəm. İkiniz də anasınız. Danışın, o səni başa düşər. Alicənab qadındır. Sonra da Ərdəbil şeyxinin nəzirini apar. De ki, Teymurdan bəri neçə illərdi biz babanın türbəsinə nəzir verməmişik. Gətirmişəm. O nəsillə oyun oynamaq olmaz, mən oynadım. Bu da axırı.

Bizə yol versinlər, keçək gedək yurdumuza. Cəhənnəm olsun Qaraqoyunlu mülkündən gələcək xeyir... Mən bir də üzümü bu tərəflərə tutmaram. Dilini Sara xatun kimi şirin elə. De ki, köhnə dostluğu təzələyək. Qohum da olarıq. Uzun Həsənin gərək ki, qızı olmamış olmaz... Mən lap ağlımı itirirəm.

Anası oğlunun acizliyinə acıdı.

– Oğul, Teymur nəslindən bir xatun, düşmən qapısına gedib iltimas eləməyib.

– İndi ayrı zamandı, ana. Onlar göndərmişdi, mən də göndərirəm. Əvəz-əvəz. Uzun Həsən də daha bəy deyil. O sultanlıq qazandı. Sultan Uzun Həsən... İstəyirsən məktub da yazım.

– Oğul, bir ölümdən ötəri səltənətimizin şərəfini ayaq altına atmaq bizə yaraşmaz. Məktub yazma. Mən Sara xatundan özgə heç kimlə görüşən deyiləm.Bu sözləri də öz bildiyim kimi... Yenə sənin xətrinə...

Uzun Həsənə deyəndə ki, bir qadın elçilərlə onun yanına gəlir, əlini göylərə qaldırdı:

– Şükür sənə tanrı. Ulduzumuzun işığı varmış, o hələ sönəsi deyilmiş. Məni xəcalətdən də, dar ayaqdan da qurtardı.

Elçiləri alaçığa gətirdilər. Parança geymiş qadın ayaq üstündə qaldı. Onunla gələn əmirsipəhsalar tə’zim edib Uzun Həsənə dedi:

– Sultan Uzun Həsənə, Sultan Əbu Səiddən salamlar var. Anası möhtərəm ananız Sara xatunla görüşməyə gəlib.

Uzun Həsən artıq onun sultanlığını qəbul etmiş Əbu Səidin razılığını, təsdiqini bildirən bu xəbərdən xeyli məmnun oldu. Hələ, Təbriz taxtına çıxmamış, özünü sultan e’lan eləməmiş, adından sikkə kəsdirməmiş, xəlifənin onun adını xütbəsində yad etməmiş bu adı qazanmışdı. Göstəriş verdi.

– Ananı anamın çadırına aparın.

Sara xatun onu böyük ləyaqətlə qarşıladı. İkisi yanaşı oturdular. Söhbət qızışdı.

Əbu Səidin anası dedi:

– Yaxşı bilirsən ki, mən Teymur nəslindənəm. Məni öz ayağınıza gətirməyiniz o nəslə hörmətsizlikdən başqa bir şey deyil.

Sara xatun ağ birçəyini çənəsinin altında birləşən qızıl arpa zəncirin altına saldı.

– Əvvəla çağırmamışıq. Özün gəlmisənsə, xoş gəlmisən, gözümüz üstündə yerin var. Bir də ki, ay bacı, fələyin nərdivanı yaman şeydi, qaldırdığı kimi endirməyi də var. Heç kimdə borc, heç kimdə qisas qoymur. Mən keçən dəfə gələndə Teymur qapısına ehtiyacdan gəlməmişdim. Biz onda ölümə də hazır idik. Birdən-birə hər şey döndü. Oğlun otu qurumuş Qarabağı da bir qışlığa bizə qıymadı.

– O vəzirin fitvasıydı, o da öz cəzasına çatdı. İndi Qaraqoyunluların bütün mülklərini, taxtı-tacı ilə bərabər oğluna verir oğlum. İndi nə istəyir?

.– Yox, elə deyil. Teymurləng rəhmətlik sağ deyil ki, onun ağzıyla danışalar. O səltənəti oğlum alıb. Sultan Əbu Səid vermir. İmkanı olsa verməzdi də. Hər ikimiz anayıq. Sənə öz oğlun, mənə də öz oğlum əzizdir. Heç vaxt məsləhət görməzdim ki, oğluma səltənət bağışladığınızı deyəsiniz. Səltənəti oğlum qılınc ilə qazanıb. Bu torpaqlara da Xorasandan gəlib sahib çıxmaqdansa, Təbrizdə oturan tərəfindən idarə olunmağı daha düzgün yoldu. Buna mənim oğlumun haqqı, sənin oğlunun haqqından çoxdur.

– Teymur sağ olanda belə danışmırdınız. Şahruxun vaxtında da səsiniz çıxmırdı.

– Daha bəsdi də, nə qədər dözmək olar.

– Sizin nəsil ki, Teymurun xidmətində olub.

– Bəli, olub. Oğlun həmin dostluğu bizdən qabaq yaddan çıxarıb.

– İndi nə deyirsən? Qonağı belə qarşılayarlar. Mənim oğlum səni belə qarşılamamışdı axı.

– Düzdü. Ancaq deyilən sözün cavabını alırlar. Sultan Əbu Səid oğluma qılınc bağışlamışdı. Qınından çıxmayan qılınc. Demək istəyirdi ki, sənin qılıncın qında pas atmalıdı.

Anaların söhbəti baş tutmurdu. Sara xatun da yumşalmaq, ona yaxşı sözlər demək istəyirdi, amma heç nə alınmırdı.

Əmirsipəhsalar örtüyün arasından çıxardığı tacı aparıb Uzun Həsənə uzatdı və tə’zim edərək dedi:

– Bu sultanlıq tacını Sultani əzəm, Əbu Səid sənə göndərib.

Uzun Həsən tacı götürmədi:

– Hədiyyəni geri qaytarmaq adətdən kənardı. Amma mən Sultan Əbu Səidin bəylərbəyisi deyiləm ki, başıma tacı o qoysun. Mən o tacın ağırlığından artıq qurtarmışam,– dedi.

Elçiləri yola salandan sonra Uzun Həsən ə’yani-əşrəfini yığdı. Anası sağ tərəfində, Şeyx Heydər sol tərəfində oturmuşdu.

– Əbu Səid bizim əlimizdən heç yana qaçıb qurtara bilməyəcək. Mən hamının fikrini bilmək istəyirəm. Süleyman Bicanoğlu, söz sənindir.

Süleyman Bicanoğlu onun cavan sərkərdələrindən idi.

Bardaş qurub oturmuşdu. Hökmdarın sözündən sonra ayağa qalxdı.

– Düşməni basmışıq, kəsmək bir göz qırpımının işidi. İndi biz nə etməliyik? Əlimizi saxlamalıyıq, yoxsa?.. Elə bilirəm ki, Teymur övladına əl qaldırmaq günahdı. Onu hörmət-izzətlə yola salmaq yaxşı olardı.

Süleyman Bicanoğlu oturan kimi onun yanında, bığ yeri təzə tərləyən, amma boy-buxunda nataraz Əbih Sultan söz istədi. Onun da atası Diyarbəkr bəylərindən idi. Böyük bir dəstə ilə Uzun Həsənin xidmətinə gəlmişdi.

– Həsən bəy, biz Əbu Səidi əhli-əyati ilə Xorasana göndərsək, oradan üstümüzə yüz minlik ordu gələcək. Əgər tək başına göndərsək, onda ağlaşma səsiylə göz yaşından özgə heç nə eşitməyəcəyik.

Danışanlar çox oldu. Hamısı da bu iki fikirdən birinin tərəfini saxlayırdılar. Sara xatun oturduğu yerdən danışmağa başladı.

– Ey Ağqoyunlu övladları. Cahan şah basılanda hamınız sevinirdiniz. Sevindiniz ki, qədim qan düşmənindən intiqam aldınız. Hələ, heç biriniz Qaraqoyunlu səltənətinin dönüb ağqoyunlu səltənəti olduğuna inanmırdınız. Çünki Teymur nəvəsi Əbu Səid üstümüzə gəlirdi. Onu Şeyx Heydərin ağıllı, müdrik məsləhəti ilə bu günə saldınız. Ağqoyunlu sülaləsi vardı. Amma bu gün o sülalənin oğlu Uzun Həsənin qarşısında sultanlıq taxtı boşdur. Ağqoyunlular hələ belə yüksək məqama çatmamışdı. Burada oturan bəylərin hamısını böyük işlər gözləyir. Hər biriniz bir vilayətin hökmdarı olacaqsınız. Dərbənddən başlamış Bağdada, Diyarbəkrdən tutmuş Xorasana qədər olan bir ölkə sizin ixtiyarınızdadır. Onu əldə möhkəm saxlamaq igidliyinizdən, sədaqətinizdən çox asılı olacaq. Düşmən əlinizdədir. Bir hücumla ələ keçirə bilərsiniz və keçirməlisiniz. Düşməni əldən qaçırsanız sonra çox qan töküləcək. Mən deyirəm ki, Sultan Əbu Səid tutulub girov saxlanmalıdır. Onu Şeyx Heydərin müridləri Ərdəbildə saxlayar. Qoy ömrünü ibadətlə başa vursun.

Uzun Həsən anasının sözlərinə qüvvət verdi.

– Axırıncı döyüşü Şeyx Heydərə və onun qazi-müridlərinə tapşırıram. Bacım oğlunun mükafatı böyükdür. Ən böyük mükafat isə... – O bir an susdu. – Qızım Aləmşahbəyimlə Şeyx Heydərin toyu Əbu Səid tutulandan sonra başlayacaq.

Əbih Sultan yerində qurcuxdu. O, Aləmşahbəyimi görmüşdü və gözəlliyinə heyran qalmışdı. Həm də Uzun Həsənin damadı-kürəkəni olmaq ona daha geniş yollar aça bilərdi. Amma bu imkan əldən çıxdı.

Şeyx Heydər qızardı və başını aşağı dikdi. Sonra ayağa qalxıb dayısına baş əydi.

– Müridlərim hazırdı. Əbu Səid sənin qulluğunda qolubağlı qul kimi dayanacaq...

Bu qələbəni Şeyx Heydərlə Aləmşahbəyimin toyu ilə şənləndirdilər. Uzun Həsənin qızı əri ilə Ərdəbildə qaldı.

İki atlı dağlardan enib Ərdəbilə gedirdi. Onlardan biri Şeyx Heydər idi ki, xeyli yaşlaşmışdı. Toy günündən on ildən artıq bir vaxt keçirdi. Sifətini qara saqqal və bığ örtmüşdü. Sifətindəki uşaqlıq cizgiləri itmiş, o kişiləşmişdi. Qətiyyət indi onun çöhrəsinə daha çox yaraşırdı. Qiyafəsində də dəyişiklik vardı. Şeyxliyi təkcə çalmasından bilinirdi. O, daha çox pəhləvana və cəngavərə oxşayırdı. Çiyinləri enləşmiş, əlləri irilib kobudlaşmışdı. Qollarının əzələsi böyümüşdü.

Bu on ildə çox dəyişiklik olmuşdu. Sara xatundan sonra Ağqoyunlu dövlətini yaradıb və möhkəmləndirən, Avropada fütuhatla məşğul olan Fateh Sultan Məhəmmədlə belə iki dəfə böyük meydan müharibəsi aparan Uzun Həsən ölmüşdü. Taxta da oğlu Xəlil keçmişdi.

Şeyx Heydər elə bu barədə fikirləşirdi. Dayımın hər işdə bəxti gətirsə də övladda, ələlxüsus oğlanlarda bəxti gətirmədi. Böyüyü Uğurlu Məhəmməd əvvəllər atası ilə danışanda qız kimi pörtüb qızarırdı. Sonra onun sağ əli, sərkərdəsi oldu. Yaman yeyənin olsun, yaman deyənin olmasın. Acı, zəhərli ilan dillər onu yolundan çıxartdı. Atasının üzünə ağ oldu. Qaçıb Fateh Məhəmmədə sığındı. Onun qızı ilə evləndi. Uzun Həsənin ürəyi partlamasın, nə eləsin? Qırxı çıxmamış Səlcuqəşahbəyim oğlu Xəlili taxta çıxartdı. Rəhmətlik Sara xatun deyərdi ki, bu səltənəti Səlcuqəşahbəyim dağıdacaq. Budur, bu gün də müridləri Şeyx Heydərə xəbər gətirmişdilər ki, Səlcuqəşahbəyimin kiçik oğlu Yaqub qardaşı Xəlili öldürüb, onun yerinə keçib. Anası da bir gözü ilə şəhid olmuş oğluna ağlayır, bir gözü ilə isə kiçik oğlunun qurğusuna görə gülür. Yaqub Mirzə indi olub Sultan Yaqub.

Hələ cavanlıqda onunla Yaqubun söhbəti tutmamışdı. Dayısı oğluna əlifba öyrədir, təhsil verirdi. Heç vaxt da onun tapşırıqlarına əməl eləmirdi.

– Dayıoğlu, oxu, öyrən, lazım gələr.

– Mən sultan oğluyam. Əvvəl-axır, mən taxta çıxacağam. Şah, hökmdar oğlu doğulmayanlar dərd çəksin.

Heç vaxt onun sifətində özünə qarşı mehribanlıq görməmişdi. İndi o, qardaş qatili hakimiyyətə keçib. Bundan sonra bibisi oğluna da kəm baxacaq.

Şeyx Heydər isə öz işini bilən adam idi. O, gününü hücrələrdə keçirmirdi. Bilirdi ki, vaxt gələr, onu da atası Cüneyd kimi Ərdəbildən didərgin salarlar. Çünki bu nəslin hörməti çox vaxt hökmdarların hörmətindən üstün olub. Hökmdarlar onların ayağına gəlib, onların əllərini öpüb, onlardan xeyir-dua istəyib. Bə’zi hökmdarlar isə onları sevməyib, səltənət içində səltənətə öyrəşə bilməyib. Qaraqoyunlular Şeyx Cüneydi buradan didərgin salma-mışdılarmı? Məcbur olub Diyarbəkrə, oradan Qaramana, Zülqədər oğullarına getmişdi. Uzun Həsənin atası Cahangir bəy onunla ülfət bağlayıb qızını da ona vermişdi. Bu on ildə Şeyx Heydərin hörməti də, şöhrəti də xeyli artmışdı. Uzun Həsən Fateh Sultan Məhəmməddən sonra dünyanın ən böyük dövlətinin başçısı idi. Onunla qonşu ölkələrin hökmdarları qohum olmaq üçün hər şeydən keçərdilər. O isə qızını Ərdəbil şeyxinə vermişdi. Həm səltənət, həm də baba şöhrəti onun hörmətini, şanını-şöhrətini artırır, səfəviyyəyə qoşulan müridlərin sayı gündən günə artırdı. Darül İrşada yığılan nəzir-niyaz padşah xəzinəsinə yığılan gəlirlərə yaxınlaşırdı. Bu qədər əmlakı kasıblara, fəqir-füqəraya paylamaqla qurtarmaq mümkün deyildi. Şeyx Heydər həmin pulla çoxlu silah alıb yığırdı. Özünün nəhəng qurxanası vardı ki, onunla bir dəfəyə iyirmi min müridi silahlandıra bilərdi. İlxıları alıb artırırdı ki, süvarinin sayı çox olsun.

İndi də dağlardakı düşərgədən qayıdırdılar. Müridlər orada məşq keçir, silah oynadır, at çapır, ox atır, hərbin sirlərini öyrənirdilər.

Heydərlə yanaşı gedən adam onun dostu Hüseyn bəy idi. O da şeyx yaşda, ancaq ondan bir az arıq, dirigözlü, qırğıbaxışlı cavan idi. Şeyxin müridləri ordusunun əsas sərkərdələrindən idi.

Hüseyn bəy dilləndi:

– Nə fikrə getmisən, Şeyx.

– Dünya gözlərimdə beş qara axçadan da dəyərsiz görünür. Deyirəm, gör kimin yerinə kim gəlir. Ağac ağacdı, kəsirsən, pöhrə verib yenə elə həmin ağac olur. Meyvəsi, barı da həmin. Amma insan niyə belədi. Oddan kül törəyir. Uzun Həsənin oğlu Uğurlu Məhəmməd atasına, elinə-gününə satqın çıxır. Bir qardaş taxt üstündə o birisini öldürür.

– Şeyx, sən ki dünyanın gərdişini yaxşı bilirsən. Odur, Teymurun övladları da atalarına oxşaya bilmədilər.

– Bunun sirri nədədir?

– Qadında, – deyə Hüseyn bəy dilləndi. Kişi nə qədər kamil, güclü olsa da, o qadın zəifliyi ilə birləşir. Bu ikisinin birliyindən yaranan nə qədər ataya oxşayırsa, bir o qədər də anaya oxşayacaq.

– Sənin sözlərində də həqiqət var. Doğrudan da Səlcuqəşahbəyim Uzun Həsənin tayı deyildi. Yaqub Mirzə də, atasından çox anasına çəkib. Başlayacaq bizi burunlamağa. Darül İrşadın şöhrəti onu dəli eləyəcək. Onsuz da mənim atamın qatili Şirvanşahla qohumdur.

– Bəli, acıdı, ancaq həqiqətdi.

Şeyx Heydər yorulmuşdu, tezliklə evə qayıtmaq, Aləmşahbəyimin keyfini soruşmaq, oğlu Sultanəli ilə oynamaq, yorğunluğunu unutmaq istəyirdi. Amma bu xəbərdən sonra keyfi pozuldu. Atın başını çəkdi:

– Geri qayıdıb şəhərdən çıxaq – dedi.

Hüseyn Lələ bəy bir şey demədi. Onlar dar küçələrdən çıxıb gəldikləri yolla qayıtdılar, bir cığıra dönüb təpədəki qayanın üstündə bitən palıd ağacının yanına gəldilər. Atlardan düşdülər. Daha doğrusu Heydər nə edirdisə Hüseyn bəy də onun hərəkətlərini təkrarlayırdı. Heydər qalxıb palıdın altında, qayanın üstündə oturdu. Buradan Ərdəbil ovuc içi kimi görünürdü. Uzaqda Darül İrşadın kaşı günbəzində günəşin işığı bərq vururdu. Heydər bir az fikirləşib belindən xəncərini çıxardı. Baş barmağına çəkdi. Qan çıxdı.

– Kəs barmağını.

Hüseyn bəy də öz xəncəri ilə eynilə barmağını kəsdi. Qan axıb getdi.

Heydər saqqalından bir neçə tük çəkdi, Hüseyn bəy də. Sonra Heydər həmin tükləri bir-birinə düyünlədi. Hər ikisinin qanında islatdı. Qayanın yarığını gözləri ilə axtarıb tapdı və sözə başladı:

– İndiyə qədər biz əməl yoldaşıydıq. Bu gündən oluruq qardaş, dost. Qoy bizim dostluğumuz bu tüklərin düyünü açılana qədər, qanlarımız biri-birindən ayrılan günə kimi davam etsin.

– Amin.

– Hüseyn bəy, bu gündən səni oğlanlarıma lələ seçirəm. Onların tə'limini, tərbiyəsini sənə tapşırıram. Sultanəlinin, İbrahimin, İsmayılın.

Bu, dostluqda ən yüksək məqam idi. Hüseyn bəy qədim oğuzların andını təkrar elədi:

– Bu dostluğa dönük çıxsam qılıncıma doğranım, oxuma sancılım.

– İndi səni babam Şeyx Səfinin batini fikirləri ilə tanış eləyə bilərəm. O deyir ki, dünya nurdan yaranıb. Allah da nurdu, onun yaratdıqları da nurdu. Demək insan da nurdan ibarətdir.

Hüseyn Lələ bəy (artıq o ləqəb qəbul etmişdi) dostunun sifətinə baxıb orada sanki qəzəblə alovlanan nur, işıq görürdü.

– İnsan da nurdan ibarətdirsə, demək o, nurun, Allahın əksidir. Söz yox ki, insan – nur, əməli təmiz, qəlbi pak insanlardır. Onlar öz yaradıcıları ilə birləşirlər ki, bu da insanı bir-biri ilə bərabərləşdirir. İnsan da iki cürdür. Kamil və qeyri-kamil. Qeyri-kamillər nur parçası ola bilməz. Nur olması üçün o, əslən də, mə'nən də, daxilən də, xaricdən də pak olmalıdır. O nur-insanlar öz

tərəfdarlarını artırmaq üçün iş görməlidir. Bu, yalnız kökünü açdığım sirr batindir və onu bizim ocağa sənin kimi ən yaxın olan dostlara açıram. Bunu ilk eşidən də sən olmusan.

Hüseyn Lələ bəy onunla mübahisəyə girişmədi. Çünki indi Səfəviyyənin mə'nəvi başçısı odur, onun dediyi həqiqətdir və bu sirri dərk etmək üçün hələ çox düşünmək lazım gələcək.

– İndi biz tədbir görməliyik.Sultan Yaqub bizə güc gəlməmiş, öz işimizə başlamalıyıq. İşlər ki, belə gedir, Ağqoyunlu xanədanı dağılacaq. Onun çox ömür sürməsinə heç nə kömək edə bilməz. Xanədanın dağılması bədbəxtlik deyil. Ölkəni, xalqı xilas eləmək vacibdir.

– Mürşidimiz bizə o yolu göstərsin, biz canımız, qanımız bahasına həmin yolu axıra qədər getməyə hazırıq.

– Dərbənd qalası. Atam Şeyx Cüneyd də bu yolu tutmuşdu. Dərbənd qalası ölkənin qüzeyində ən möhkəm qaladır və oradan başlayıb bu ölkəni birləşdirmək olar. Şirvanşahlar qocaman xanədan olsa da, onları tabe eləmək çətin deyil. Başa düşdün məni?

–

Bəli.

– Müridlərə də elə buna görə tə'lim veririk. Din yolunda döyüşə hazırlayırıq.

Hüseyn Lələ bəyin dilinin ucunda bir sıra suallar vardı. Onlardan biri də elə bu "din uğrunda" sözünə aid idi. Axı şirvanlılar da müsəlman idi, dərbəndlilər də. Amma Şeyxin fikri açıq-aydın deyilmişdi. Görülən hər işə hamının qəbul edəcəyi bir don geydirməsən, o başa gəlməz.

Şeyx Heydər xidmətçinin açdığı darvazadan ağ atın üstündə geniş həyətə girəndə onu qızılgüllərin ətri vurdu. Həyətin hər tərəfində növbənöv, cürbəcür qızılgüllər açmışdı. O atdan düşdü. Xidmətçi atı çəkib apardı. O, hovuzun ətrafına dolandı və iplərlə dırmaşan səbagülü kolunun arxasında Aləmşahbəyimlə üz-üzə dayandı. Qaranlıq düşmüşdü. Göydə iri ulduzlar parıldayırdı. Amma o sevimli arvadının ətrindən onu tanımışdı. Bu qədər güllərin arasında onun öz ətri vardı ki, Heydər onu ayıra bilmişdi. Qarşısında dayandı. Əllərini əllərinin içinə aldı. Baxdı, baxdı. Amma onlar biri-birilərini güclə görürdülər. Amma baxışlarını, gözlərini, təbəssümlərini yaxşı seçirdilər. Heydər onu bağrına basdı. Dodaqları, onun gül qönçəsinə oxşayan dodaqlarını tapdı. Hər ikisi məst oldu.

Bu evdə əndərun yox idi. Şeyx Heydər and içmişdi ki, Aləmşahbəyimdən özgə bu dünyada onun ikinci arvadı olmayacaqdı. Aləmşahbəyim də öz taleyindən çox razı qalmışdı. Hər hansı bir şahzadəyə versəydilər o bir neçə ildən sonra yenə dul qalacaqdı. Çünki şahzadələr hələ hakimiyyətə keçməmiş qanlarına qəltan olurdular. Ya da hərəmxanadakı arvadlarına vaxt ayıranda belə onlardan hər birini bir həftədən tez görmürdülər. Bu evdə isə nə saray çəkişməsi vardı, nə hərəmxana qeybəti. Onun sevimli əri təpədən dırnağa qədər ona mənsub idi.

– Mənim gəldiyimi nədən bildin?

– Hər dəfə sən yaxınlaşanda Ülkər kişnəyir. Mənə muştuluq verir. Bəs sən mənim yerimi hardan bildin?

– Ətrindən.

– İnanmaram. Həyətdə bu qədər qızılgül var. Onların arasında...

Heydər barmağını onun dodaqlarının üstünə qoydu:

– Mənim ən böyük, ən ətirli qızılgülüm sənsən. Ətrinlə səni cənnət bağında taparam.

Aləmşahbəyim qollarını onun boynuna dolayıb yanaqlarını onun yumşaq saqqallı sifətinə söykədi.

– Gedək, mənim günüm-dirliyim. Gözümün nuru. Mənim nur parçam. Gedək uşaqların yanına. Onlardan ötəri bu gün elə darıxmışam ki.

Onlar evə girdilər. Sultanəli bardaş qurub qarşısındakı rəhildəki kitabı oxuyurdu. İbrahimlə İsmayıl yatmışdı. Sultanəli atasını görüb ayağa qalxdı. Qaça-qaça onun üstünə getdi. Şeyx Heydər onu qolları arasına aldı. Üzündən öpdü. Sinəsinə sıxdı.

– Sultanəli, sənə lələ tapmışam. Sənə də, İbrahimə də...

– Kimdi lələmiz, atacan?

– Hüseyn Lələ bəy. Bundan sonra o səninlə məşğul olacaq.

Sultanəlinin on iki yaşı tamam olmuşdu. Beş il idi ki, təhsilə başlamışdı.

Otaq fərşlə döşənmişdi. Divar dibində qotazlı mitəkkələr, iri balışlar, qalın döşəklər qoyulmuşdu. Divardakıləmədə mis, çini qablar düzülmüşdü.

Şeyx Heydər də əbasını soyundu, gəlib dizini qatlayıb oturdu. Kəniz Səkinə aftafa-ləyən gətirdi. O əllərini yudu.

– Var ol səni, Səkinə. Allah qoysa Gürcüstan tərəfə gedəndə səni də aparacam, qohum-qardaşlarını tapıb onlara qovuşduracam.

– Allah ömrünü uzun eləsin, ağa. Mən heç yerə getmək niyyətində deyiləm. Sənin kimi Allah adamının evinə düşmüşəm, elə bilirəm elə öz ata evimdəyəm.

– Yox, ay Səkinə, ata evi ayrıdı. Bəlkə də onları da köçürüb Ərdəbilə gətirdik, inşallah.

Səkinə ürəyində sevinə-sevinə aftafa-ləyəni apardı. Elə bil quş idi, ona qanad vermişdilər. Şeyx dediyini eləyər. Heç olmasa bircə dəfə atasını görəydi, onun oxuduğu “hurufatını” eşidəydi. Onda ölsə də dərdi qalmazdı.

Ərinin qarşısında süfrəni Aləmşahbəyim özü açdı. Heç bir hökmdar qızı hələ süfrə açmamışdı. Amma onun qəlbinin, ürəyinin hökmdarı o idi. Bu işi görəndə özünü xoşbəxt hesab eləyirdi.

Səkinə yeməyi gətirdi. Bağırbeyin bişirmişdilər. Şeyx Heydər Sultanəlini də çağırıb özü ilə süfrədə oturtdu. Aləmşahbəyim də oturdu. Lakin o hələ indiyə qədər ərinin yanında çörək yeməmişdi. Lakin oturub onun yeməyinə heyranlıqla baxırdı. Onun yeyib-içməyində atasını xatırladan cəhətlər vardı. Amma buna görə baxmırdı. Ona baxdıqca elə bil bütün dünyanı ona verirdilər. Əri də onun ürəyindən keçənləri oxuyur, özünü o yerə qoymur, onun doyunca baxmağına imkan yaradırdı.

Yemək yığışdırıldı. O, qısa bir dua oxudu. Qalxıb canamazını götürdü, yan otağa keçib namazını qıldı. Qayıdanda yataq otağına keçdi. Soyunub yerinə girdi. Aləmşahbəyim də şamı söndürəndən sonra paltarının xışıltısından hiss olunurdu ki, soyunur. İpək paltarı sürüşüb ayaqları altına düşdü. O, özünü sevimli ərinin qolları arasına atdı.

Gecədən xeyli keçmişdi. Amma onlar yatmamışdı.

– Gözümün nuru, qardaşın mənim üstümdən qələm çəkməyə hazırlaşır.

– Niyə?

– Qorxur. Taxtından qorxur. Fikirləşir ki, həmin taxta onun kimi sənin də haqqın çatır. Ona görə də Əbih Sultanın, Süleyman Bicanoğlunun fitvası ilə mənim qaramca danışır. Bir məclisdə də deyib ki, atam böyük səhv eləyib, bizim sümüyümüzü dərvişlərin sümüyünə calayıb. Onlarla qohum olduğumu fikirləşəndə xəcalət çəkirəm.

Bu sözlərdən sonra Şeyx Heydər Aləmşahbəyimin bədənində titrəyiş duydu:

– Nədən qorxursan? Qorxma, sənin ərin onlara can verənlərdən deyil. Mən istəyirəm bir müddət Ərdəbildən uzaqlaşım. Qoy görsün ki, mən onun yolunda duran əngəl deyiləm. Vaxt gəlsə mən ona daha çox kömək eləyərdim, nəinki onun ətrafındakılar.

– Mən sənin səhər gedib axşam gəlməyinə dözə bilmirəm. Üç-dörd ay getməyinə necə dözəcəyəm?!

– Bu lazımdı. Getməmişdən qabaq gərək sən qardaşından icazə alasan. Deyəsən ki, Şeyx Heydər qəzavata gedir. Dağıstanda müsəlmanlığı qəbul eləməyənlər var, gedir din yolunda vuruşmağa.

Aləmşahbəyim onu bərk-bərk qucaqlamışdı. Sanki əri elə indi yola düşür, o da tutub saxlamaq üçün bütün gücünü sərf eləyir.

– Yenə vuruşma, yenə Şirvan? Bu Şirvandan doymadınız?

Aləmşahbəyimin səsi titrədi. Deyəsən o ağlayırdı. O, ərinin atası Cüneydin Şirvanşah İbrahimxəlil tərəfindən öldürüldüyünə işarə vururdu. İndi isə hakimiyyətdə Fərrux Yasar idi. Cüneydin ölümünü onlar da yaddan çıxarmamışdılar.

– Getməsəm onda gərək burada Sultan Yaqubla kəllə-kəlləyə gəlim. Mən isə bunu istəmirəm...

Sultan Yaqubun icazəsini alandan sonra Şeyx Heydər yeddi min muridlə səfərə çıxdı. Kür çayını Ərəş mahalında, Mingəçevir kəndi yanından keçib Şirvanın dağ dibi yolları ilə Dərbəndə yol almışdılar.

Fərrux Yasar müridlərin hərəkətini hər gün izlətdirir, qoşunlarını döyüşə hazırlayırdı. Amma Şeyx Heydərin müridləri əkinlərə, kəndlərə, mal-qaraya toxunmur, lazım olan hər şeyi satın alırdılar. Ərdəbildən çıxdıqlarının iyirminci günü Samur çayı kənarındakı Quryan1 kəndinə çatdılar. Gün günorta yerində idi. Meşə yolundan çıxıb Samurun kənarına çıxdılar. Şeyx Heydər atını saxladı.

– Burada düşərgə salacağıq. Xəbər verin çadırları qursunlar.

Hüseyn Lələ bəy başını qaldırıb günəşə baxdı:

– Neçə gündür gecə-gündüz yol gəlirik. Dərbəndə az qalıb. Çayı keçib çadır qursaq necə olar? Əvvəla bu təhlükəlidi. Fərrux Yasar qoşun gətirsə, onlar yuxarıdan aşağı gələcək, biz pis vəziyyətdə qalarıq.

Şeyx Heydər bahar buludu kimi dolmuşdu. Hüseyn bəyin qolundan tutub özü ilə apardı.

– Şeyx Cüneydin qəbrini ziyarət eləməyək?

– Buradadı?

– Bəli. Burada, Quryan kəndindədir.

Onlar üstünə şax-şəvəl döşənmiş, çay daşı ilə hörülüb, palçıqla suvanmış, divarlarında mal təzəyindən yappalar olan meşə içindəki kəndə girdilər. Silahlarını qurşamış, yanları ilə müridlər də götürmüşdülər. Kəndin ortasında, divar dibində oturan qocalara salam verdilər.

Qocalar ayağa qalxıb onların salamını aldılar. Bir gümrah qoca qabağa çıxıb atın yüyənindən yapışdı:

– Qonağımız olmasanız, buraxmarıq. Düşün atdan, – dedi.

– Sağ ol, əmi, bir işimiz var elə kömək eləsəniz qonaqlıqdı.

– Buyurun, qonaq qardaş.

– Burada bir Şeyx Cüneyd qəbri var, onu bizə nişan verərsiniz?

– Niyə nişan vermirik. Buyurun. O bir igid insan idi.

Ərdəbildən gəlmişdi. Onda mən lap gümrahıydım. Bax o, aşağıda, çayın kənarında şah qoşunuyla vuruşdular. Deyəsən heç vuruşmağa da gəlməmişdi onlar. Hamısı qırıldı. Otuza qədər adam qalmışdı. Özü də yaz idi. Samurda da su çox idi. Hava da qaralırdı. Şeyx onmu, on beşmi adamnan çayı keçdi. Yaralılar bə-

------------------------

1. İndi Qusar rayonunun Həzrə kəndi.

ri tayda qaldı. Gedə bilmirdilər. Bu vaxt İbrahimxəlilin atlıları çatdı. Bu yaralıları qılıncla doğramağa başlayanda yaralılar qışqırdılar. İndiyə qədər qulaqlarımda səslənir:

– Mürşüdümüz, bizi atıb getmə!

Biz quzu otarırdıq, görürdük. Səsi eşidib bir də döndü. Atı da yox idi, deyəsən vurmuşdular. Bir qolundan da qan axırdı. Özünü vurdu suya, yanındakılar da qayıtdı, çayı bir də keçdilər. Onlar gələnə kimi burdakı yoldaşlarını doğramışdılar. Gəldi, gəldi. Qılıncı hərləməyi ilə bir atın ayaqlarını biçdi, atlı yerə gələndə, onu da. Yoldaşları da şir kimi vuruşurdu. Onlar az, atlılar çox. Aldılar araya. Bir azdan atlılar onların ciblərini, üst-başlarını axtardılar. Sonra deyəsən nəsə qiymətli şey tapmışdılar. Onun üstündə özləri bir-birilərini qılıncladılar. Orasını deyim ki, nə olduğunu nə gördük, nə eşitdik.

Şirvanşahın qoşunu gedəndən sonra mənim atam, Allah ölənlərinizə rəhmət eləsin, o, el ağsaqqalıydı, camaatı yığdı, gedib meyitlərin hamısını gətirdi, burada dəfn elədilər. Yaxşı ehsan da verdi, üstlərində quran da oxutdu.

İndi o şeyxin qəbri pir olub. Sonsuzlar, xəstələr şəfa tapmağa bura gəlirlər.

Qoz ağacının altında adam boyundan hündür qəbir daşı vardı. Arxa tərəfində qədim oğuz qaydası ilə günəş şəkli qazmışdılar. Aşağıda isə at üstündə ova çıxan kişi təsvir edilmişdi. O əlindəki nizə ilə əjdahanı öldürürdü.

Şeyx Heydər başdaşını qucaqlayıb, sifətini soyuq daşa söykədi. Qoca gəlib onun yanında dayanmışdı.

– Ay oğul, atan varmı?

– Vardı, əmi! Budur, bu daşın altında yatır atam.

Qoca elə bil yuxudan ayıldı. Gəlib onun çiyninə əli ilə vurdu:

– Oğul, belə ata üçün ağlamazlar. Gülərlər. O, əsl kişi, əsl qəhrəmandı. Onun qəhrəmanlığını bu gözlərim görüb.

Şeyx Heydər qocaya tərəf döndü:

– Amma mən atamı görməmişəm, o da məni görməyib.

– Torpağı sanı yaşayasan, elə özünə oxşamısan. Yadımdadı da. Uzağ vaxtın sözü deyil ki, yadımnan çıxa. Dünənin, sırağagünün söhbətidi.

Qəbrin yanında kiçik, oyuncaq yüyrük qurmuşdular. Qoz ağacının budaqlarına isə əlvan rəngli parça qırıqları bağlamışdılar.

Qoca Şeyx Heydərə dedi:

– Buranı pir eləyən də mənim atam olub. Övladı olmayanlara məsləhət gördü ki, buraya nəzir gətirsinlər. Övladınız olmasa heç, olsa da qoy yaralı-yaralı yoldaşlarını qurtarmağa qayıdıb özü də şəhid düşən igidə oxşasınlar. O vaxtdan da bu adət yarandı.

Şeyx Heydər qoyunlar kəsdirdi, qazanlar asdırdı, bütün kənd camaatını çağırdı. Məclisin yuxarısında da qocanı əyləşdirdi.

Sonra yüzbaşıları, minbaşıları yığıb qəbrin üstünə, vidalaşmağa gəldi.

– Ey ata, oğlun səninlə görüşməyə gəlib. Gəlib desin ki, babamızın başladığı iş yerdə qalmayıb, onu davam etdirəcəyik. Rahat yat, arxayın yat.

Sonra o, müridlərin gətirdiyi sandığı açdırdı. Orada dilim-dilim tikilmiş qırmızı papaqları götürüb onlara payladı. Birincisini özü başına qoydu, çalmasını sandığa atdı.

– Ta qədimdən bizim namusumuzun, qeyrətimizin rəmzi başımızdakı papaq olub. Onu özümüzdən yuxarıda saxlamışıq. Bizim seçdiyimiz yol, qandan-qadadan keçir. Qoy bu qırmızı börklər o qanın timsalı olsun. Bu gündən adımıza qoy “Qızılbaş” desinlər.

Bütün muridlər də qırmızı börk aldı və hamısı da Cüneydin qəbri üstündə öz əqidələrindən dönməyəcəklərinə and içdilər.

Şeyx Heydər müridləri Kürü keçəndən bir-iki gün sonra Fərrux Yasarın çaparı onun məktubunu Təbrizə bacısını verdiyi Sultan Yaquba gətirdi. Məktubu oxutdurub fikrə getdi. Otaqdan çıxıb anası Səlcuqəşahbəyimin yanına gəldi. Anası oğlunu pərişan görüb alındı.

– Səni tutqun görürəm, ay mənim sultan oğlum. Yenə kim sənin qanını qaraldıb?

– İstəkli kürəkənimiz.

– Yenə nə qələt qırıb o dərviş nəvəsi? – Səlcuqəşahbəyim xatunun da onunla arası yox idi. Uzun Həsənlə mehriban olandan onun gözünün düşməninə çevrilmişdi.

– Al oxu. Qayınatam Fərrux Yasar göndərib. Qoşunu Şirvanı alt-üst eləyir. Məni də bacım inandırıb ki, o qəzavata gedir. Deməyəsan atasının qanını almağa gedirmiş. Burdan-bura məni aldadır.

Səlcuqəşahbəyim xatun məktubu ondan aldı. Yaşıl, qumaş mitəkkənin üstünə atıb, əlini yerə dayaq verdi. Əvvəl iri, kök yanbızları qalxdı. Artıq qocalmışdı. Özü də ağır, tökmə arvad olmuşdu. Qızıllarını – qolbaq, zərnişan, bilərzik, sinəbənd, xalxallarını cingildədə-cingildədə ayağa durdu. Sultan Yaquba elə gəldi ki, anasının asan qalxmağına mane olan elə o qızıllardı. Anası əlini onun çiyninə qoydu.

– Sən sultansan, dərdin olsa da bildirmə. Bir də ki, hökmdarın nə dərdi ola bilər. Mən vəzirlə, qayınatan Süleyman Bicanoğluyla tədbir tökənə kimi keç abı otağa. Sultanbuddan gətirdiyim gözəl səni gözləməkdən sarı yarpağa dönüb. Yazıq qız əriyib ətini tökəndən sonra xoşuna gəlməyəcək, deyəcəksən anam bu xortdanı haradan tapıb gətirib?

Sultan Yaqub qayğılı idi. Bir fikrə gələ bilmirdi.

– Abı otağa sonra.

– İndi get. Dünyanın bir dərdini ürəyinə salma. Nə qədər ki, cavansan, kefini çək, heç nəyin fikrini eləmə. – O, ipək pərdəni qaldırıb qışqırdı:

– Xacə Mənsim!

Xacə Mənsim quş idi, cin idi, şəyatin idi, nədi, elə bil yerdən çıxdı, göydən düşdü.

– Bəli, həşəmətli məleykə.

– Yüz dəfə demişəm ki, mənə məleykə deyib çağırma.

– Baş üstə, həşəmətli məley...

– Əy başını...

Xacə Mənsim əyilib daz başını onun qarşısında yerə qoydu. Səlcuqəşahbəyim başmağının qırğı dimdiyinə oxşayan burnunu xacənin başının parıldayan ortasına vurdu.

– Bu başında birdəfəlik saxla ki, mən Səlcuqəşahbəyiməm. Yadında qaldı?

– Bəli, həşəmətli xatun bəyim...

– Sultanbud qızı hazırdımı?

– Bəli...

– Get, onun bəxti gətirdi. Hökmdar onu şan-şöhrətə çatdırır.

Sultan Yaqubun iki hərəmi vardı. Biri Süleyman Bican-oğlunun qızı, o biri isə Şirvanşah Fərrux Yasarın bacısı idi ki, bu yaxınlarda gəlin gətirmişdilər. Bunlardan əlavə əsirlər arasındakı gözəl cariyyələri, şahın adamlarının kəndlərdə və şəhərlərdə rast gəldikləri gözəlləri onun üçün bəsləyib saxlayırdılar. Onların heç birinin hərəm hüququ yox idi. Doğulan uşaqlar belə sultanın övladı hesab edilmirdi.

Sultanbud gözəli dedikləri qızı Səlcuqəşahbəyim özü Qarabağda görmüş, götürüb saraya gətirmişdi. O, cariyyələrə qoşulmur, həmişə çəkilib bir tərəfdə xısın-xısın ağlayırdı. Xacə Mənsim də hərdənbir Səlcuqəşahbəyimə deyirdi.

– Qarabağ gözəli ağlayır.

– Ağlasın, ağlasın. Bu tezlikdə mənim oğlum onun otağına ayaq bassa mənim oğlum olmaz.

Xacə Mənsim Süleyman Bicanoğlunun qızının yanına gedib iməkləyə-iməkləyə otağa girəndə Gövhərtac sevinirdi. Bir şeyə məəttəl qalmışdı ki, bu xacə nə üçün iməkləyə-iməkləyə gəlir. Bilmirdi ki, onu buna məcbur eləyən sultan özüdür. Ayaq üstündə girsə onun hərəmlərinin sifətini görə bilər. Belə girəndə isə xalçanın naxışlarından özgə bir şey görmür. Deyəndə ki, bu axşam sultan sənin qonağındır, Gövhərtac onun başına qızıl tökürdü. Elə bilirdi ki, sultanın gəlməyi xacə Mənsimdən asılıdır.

Sultanbud gözəlini hərəmxanadan kənar, cariyyələri Sultanın ağuşuna atdıqları Abı otağa gətirmişdilər. Xacə Mənsim də həmin otağa iməkləyə-iməkləyə girdi. Özü də fikirləşirdi: “Mənim bədbəxtliyimə bax da. Dünya ləzzətindən məhrum olduğum bəs deyil, qadınların qarşısına iməkləyə-iməkləyə göndərirlər. Mən kişiyəm ki, onları mənə qısqanırlar?”.

O, xeyli iməklədi, amma qadın ayaqları görmədi. Başını azacıq qaldırıb küncdə qısılıb oturan qızı görəndə tez gözlərini aşağı endirdi.

– Muştuluğumu ver, həşəmətlii məleykə, – yox, belə deməyə onun haqqı yox idi. Çünki bu sözlərlə Sultanın hərəmlərinə müraciət edirdi. “Eybi yoxdu. Bu sözlər onu daha da yumşaldar. – Bir azdan böyük Sultanımızın vücudunu görəcəksən. Məmləkətdə onun qamətinə çatan boy-buxun, igidliyinə çatan igidlik, ədalətinə çatan ədalət yoxdur. Bu gün Qarabağ böyük bir şərəfə nəsib olacaq. Sənə bu qoca bədbəxt bir sirr açsın. Sənin xeyrin üçün deyirəm. Bütün kişilər kimi şahlar, sultanlar da qadın qarşısında acizdirlər. Əgər onun istəyini yerinə yetirməyi bir az gecikdirsən, onda sənin bütün arzularına əməl edəcək”.

Amma Qarabağ gözəlindən səs çıxmırdı. Xacə isə sözlərini doğrayıb tökürdü.

– Əgər desən ki, Hindistan padşahının boynundakı lə’li mənə gətirməlisən, gətirər. Necə gətirər? Qoşun yığar, bütün xəzinəsini xərcləyər, minlərlə cavanı qurban verər, amma gətirər. Zəmanənin sahibləri niyə bu qədər torpaqları alır, ölkələri tutur? Niyə? Məleykələrin sözü yerə düşməsin deyə. Hər ölkənin də öz gözəlləri var. Hərəmxanalar da xəzinə kimidir. Orada ən qiymətli daşlara bərabər gözəllər saxlanır. Düzdür, səni heç vaxt hərəmxanaya qoymayacaqlar. Baxmayaraq ki, sən bir çox şah hərəmlərindən gözəlsən, amma əslin, nəcabətin yoxdu. Amma istəsən ki, hökmdar Qarabağı dünyanın cənnət dilbər guşəsinə çevirsin, bax, bunu eləyər. Qohumlarını, qardaşlarını ehtiyacdan qurtarar.Sultan əlində bu işlər nədi ki? Heç nə.

Qarabağ gözəlindən səs-ün çıxmırdı. Ancaq deyəsən çox ağlamışdı. İndi içini çəkirdi.

– Bu günahkar qocanın günahından keçin. Onu deyim ki, məleykənin ağlamasının səbəbini başa düşürəm. Sevincdən ağlamaq, gülməkdən daha gözəldir.

Bu vaxt nəsə ağır bir şey xacə Mənsimin başına dəyib xalçanın üstünə düşdü. Onun gözlərinin qabağı qaranlıq çaldı. Gözləri bir neçə an görmədisə də əlini sürtüb başına dəyib

www.kitabxana.net

düşən əşyanı axtardı. Ağrıdan dini-imanı yansa da, fikrindən gələn o oldu ki, bunun muştuluğu hamının verdiyi muştuluqdan qiymətlidir.

Xacə yerdəki "muştuluğu" tapıb götürdü. Bu, Qarabağ gözəlinin ona tulladığı bürünc şamdan idi...

Səlcuqəşahbəyim oğlunu Abı otağa yola salıb qotazlı mitəkkənin üstündəki uzunsov, Şirvanşah möhürlü, ətirli məktubu götürüb höccələyə-höccələyə oxudu. Şirvanşah Fərrux Yasar yazmışdı ki, Şeyx Heydər Şirvanı istila elədi. Mən Gülüstan qalasında gizlənmişəm. Əgər o, böyük hökmdarın tapşırığı ilə gəlibsə, onda bunu açıq deyəydiniz, mən qalaların, şəhərlərin açarlarını qızıl nimçədə göndərəydim. Onsuz da, Şirvan sizə xərac verməyə hazırdı: Şeyx Heydər sizdən xəbərsiz Şamaxını tutub.

Burada taxta çıxmaq niyyətindədirsə, bu ayrı məsələ, onda elə Təbrizin də taxtını ona vermək lazım gələcək. Bu tezliklə bu boyda səltənəti bir şeyxin fitnəsinə qurban vermək isə ağıllı iş olmazdı.

Səlcuqəşahbəyim bundan sonra kürəkəninin əlindən zəncir çeynəməyə başladı. O, oğlu taxta keçəndən Sara xatunun yerişini getmək istəyir, hər işə qarışırdı.

– Bütün günahlar bizim qızımızdadı. Arvad necə olsa ərinin fikrini bilər. Bilsə də bizə xəbər verməyib. Ərini qardaşlarının üstünə qaldırır. Uzun Həsənin əziyyətlə qurduğu səltənəti dərvişlərə sədəqə vermək istəyir. Şah arvadı olmaq arzusuna düşüb. Arzun gözündə qalar, inşallah. Yaxşı deyiblər də, özgədən adama övlad olmaz. Tərsa qızından olan gəlib bizə canmı yandıracaqdı?

Sultan Yaqub qızın adını anasından soruşub Abı otağa getmişdi. İçəri girdi. Onu görüb ayağa qalxan qız elə bil yerdə, torpaqda yaranmamışdı, göydən enmişdi. Tanrı özü onu mələklərin arasından arayıb-axtarıb tapmış, öz adına layiq olanını seçib göndərmişdi onun hüzuruna.

Sultan Yaqub hər iki əlini göyə qaldırdı.

– Ey ulu tanrı, səndən nə qədər razıyam. Cənnəti mənə bu dünyada bəxş elədin. O dünyada cəhənnəm oduna yandırsan da səndən razıyam.

İri, qara gözləri hürkək-hürkək baxırdı. Sifəti, döşlərinin ayrıldığı yerə qədər sinəsi, əlləri elə bil ağ süd rəngli mərmərdən yonulmuşdu. Mərmər nədi? Yox, onun mərmərə heç bir bənzəyişi yox idi. Onu fil sümüyündən yonmuşdular. Bu məxluqu bəşər övladı belə kamil, belə zərif yona bilməzdi. Tanrı bütün işlərini bir kənara qoyub özü onu xoş saatda yaratmışdı. Bir anda onun arvadlarının ikisi də gözündən düşdü. Gövhərtac balacaboy idi. Səsi kişi səsinə oxşayırdı. Şirvanşahın bacısı isə bunun yanında qarayanız göründü. Düzdü, əvvəllər nə Gövhərtacın səsinə və boyuna, nə də Şirvanşah bacısının yanağının qarayanız rənginə fikir verməmişdi.

O, gözələ yaxınlaşdı. Xeyli baxdı. Boğazı sürahi kimi qalxırdı, boynunun yanlarından saçları sallanıb döşlərinin qabarıqlığını daha da aydınlaşdırırdı. Əlini kisəyə salıb xeyli daş-qaş çıxarıb onun başına səpdi. Qız onların heç birinə fikir vermədi. Daş-qaş xalının üstündə bərq vurdu. O, tutaş kipriklərini tərpətmədi də. Sultan Yaqub əlini uzadıb ona toxundurdu.

– Sən bəşərsənmi?

O, yenə dinmədi.

Sultan əl atıb onun qızıl işləməli, yüngül donunu parçalamaq, onun bütün gözəlliyini aşkara çıxarmaq istədi. Amma qız kənara çəkildi. Hardansa bir qəmə çıxartdı.

– Yaxın gəlmə. Gəlsən özümü öldürəcəm.

O, quruyub qaldı.

– Necə?

– Mənə əl vurmayın, hökmdar.

Sultan Yaqub geri çəkildi. Dayanıb ona tamaşa eləməyə başladı. O, hələ də özünə gələ bilməmişdi. Geri çəkildi ki, birdən bu xəyal, bu əfsanə, bu nağıl yoxa çıxa bilər. Şirin yuxu kimi əriyib gedər. Amma hökmdarlıq qüruruna da toxundu. Hələ heç kəs onun qarşısında "yox" kəlməsini işlətməmişdi.

– Sultana təslim olmaq istəmirsən?

– Mən indiyə qədər azad bir quş olmuşam. Mən qızıl qəfəsə təslim olmaq istəmirəm.

Qızın səsindəki məlahət də onu əfsunladı.

– Sən həm də ağıllı gözəliymişsən.

– Tanrıdan bir narazılığım varsa o da baxtımın qara yazılmasıdır.

– Qara bəxt. Sultan sarayına, sultan ağuşuna düşmək ağ bəxtdir.

– Kimin üçün ağdısa, mənin üçün qaradı.

– Ey gözəl, mən səni başa düşdüm. Cariyyə kimi saraya gətirilən belə mələyin bəxtindən inciməyə haqqı var. Amma mən çox ədalətli hökmdaram. Sənin bəxtini ağartmaq da mənim əlimdədir. Sən yalnız Sultan hərəmxanasına layiqsən. Belə gözələ çalınan toyun səsi Çini-Maçinə getməlidir. Sənə elə bir toy çaldıracağam ki, bütün görənlər heyrətə gəlsin. Səni Ağqoyunlu tacının ən iri cəvahirinə çevirəcəyəm. Şərtlərini de.

Qarabağ gözəli dinmədi.

– Şərtlərini de.

– Mənim bir şərtim var.

– Buyur.

– Məni buraxın, öz elimizə qayıdım.

– Bu saraylar, bu səltənət, o xəzinə hamısı sənindir. Ondan özgə şərtin varsa buyur. Sən yalnız mənim kimi hökmdara layiqsən. Tanrı bizim kəbinimizi göylərdə kəsib. Toyunu Sultanbudda, öz elinin içində başlayıb, Təbrizdə qurtaracağam.

O, sözlərini deyib Abı otaqdan çıxdı. Uçmağa qanadları yox idi. Amma uçurdu, yerimirdi. Özünü anasına yetirdi. Onun əllərini tutub öpməyə başladı. Səlcuqəşahbəyim təəccüblə oğluna baxdı.

– Nə olub?

– Sən məleykələr padşahını göylərdən endirmisən.

Səlcuqəşahbəyim gördü ki, oğlu qıza necə vurulubsa özünü-sözünü bilmir.

– Sən hökmdarsan, bunu yadından heç vaxt çıxartma.

– Allah olsam, allahlığımı da unudardım.

– Ağlını başına yığ. O, kasıb bir ilxıçının qızıdır.

– Mən o ilxıçını vəzir, əmir, sipəhsalar eləyərəm. Bu qız mənim tacımın ən qiymətli daşına dönməlidir. Toya hazırlıq görülsün.

Hikkəsindən Səlcuqəşahbəyimin az qalırdı bağrı çatlasın.Ləngər vura-vura oğluna tərəf getdi. Qapını kəsib onu çıxmağa qoymadı.

– Sən çox vacib iş görməlisən. Şeyx Heydərin işi bitməlidir. Yoxsa...

– İstəyirsən bütün nəslini yer üzündən sildir, mən razı. Özün bilirsən. Mən indi dünyanın ən xoşbəxtiyəm. Məni elə boş-boş məsələlərə qoşma. Qoy yaşayım.

Sultan Yaqub bər-bəzək arasındakı anasının qırışmış, sümüklü sifətini ifritə, cin, şəyatin şəklində gördü. Gözlərindən elə bil od çıxırdı. Qarabağ gözəlinə baxandan sonra hər şey ona kobud, yöndəmsiz, kifir görünürdü. Amma anasının gözləri onu bir anlığa özünə qaytardı.

– Nə olub sənə?

– Nə olub, nə olub?! Şeyx Heydər qayınatan Fərrux Yasarın hökmdar olduğu Şirvanı tutub, qalıb Dərbənd qalası. Sabah qoşun yığıb sənin üstünə gələcək. Onda taxt-tac da çıxacaq əlindən, hələ deməyəsən ilxıçı qızı da.

– Verməərəm, verməərəm, onun öz başı bədənindən ayrılmalıdır.

– Otur oğlum.

Sultan Yaqub oturdu. “Verməərəm, verməərəm” deyəndə o Qarabağ gözəlini nəzərdə tutmuşdu. Taxt-taca sahib olanda fikirləşmişdi ki, xoşbəxtlik gəlib çıxdı. İndiyə qədər də belə bilirdi. Amma bu gün o gözəli görəndən sonra hiss eləmişdi ki, onunla xoşbəxtlik arasında zəmin-asiman fərq var. Xoşbəxtlik elə bu gözələ sahib olmaqdır. Belə bir anda o, hökmranlıq verərdi əldən?

Bir az fikirləşəndən sonra yenə hökmdarlıq taxtına qayıtdı. Yenə gözünün qabağına yastıbaşlı, qara, haçadilli ilanlar gəldi. Onlar dörd bir tərəfdən bu taxta tərəf başlarını qaldırıb

sürünürdülər. Amma taxta yaxınlaşanda hamısı qızıl ilan kimi quyruqları üstünə qalxdılar. Bir an da keçsə həmin ilanlar qızıl taxtın ayaqlarına dolaşacaqlar.

Fərrux Yasar onun qayınatası idi. Özü də hələ onun atasından da əvvəl taxta oturmuşdu. Siyasətin hər üzünü bilir. Onunla qohum olmaqda bir məqsəd güdmüşdü. Şirvan Dərbəndə qədər olan torpaqları tutub, əgər o tərəfdən qorxu olsa, qabaqda dayanacaq. Bir də Şirvanşahlar hələ heç kimin torpağına qoşun çıxarmayıblar. Həmişə öz başları öz işlərinə qarışıq olub.

Amma bu Şeyx Səfi nəsli öz işini biləndir. Bütün hökmdarların da sirləri onlardadır. Hər sarayda, hər bəylikdə, hər vilayətdə, bəlkə də hər evdə onların müridləri var. Bu müridlər gəlir və həmin sirləri də özləri ilə gətirirlər. Yaxşı ki, Ələmut ismayililəri kimi hərəkət eləmirlər. Onlar kimi başlasalar istədikləri hökmdarı oğurlayıb gətirərlər, xoşlarına gəlməyənlərin hamısını öldürərlər. İndi onlar Şirvan üstünə getdilər. Oranı tutsalar sakit duracaqlarmı? Yox. Onda Şirvan hər yerə əl-qol uzadacaq.

– Ana, qayınatam Süleyman Bicanoğlunu... Qoy bir qayınatam o birisinə köməyə getsin.

– Yaxşı fikir eləmisən, oğul. Bicanoğlu igid sərkərdədir, özünün də Şeyx Səfi nəslini görməyə gözü yoxdur.

O, qalxıb iri addımlarla otaqdan çıxdı. Taxt-tac salonuna getdi. Taxtda oturan kimi vəzirlə vəkil də onun yanında öz yerlərini tutdular.

– Tək vəzir qalsın. Özün də yaxına gəl.

Vəzir Zəkəriyyə Keçəçi hələ Uzun Həsənin vaxtından bu vəzifədə idi. Bir dəfə də olsun hökmdar onun məsləhətindən çıxmamış, yaxud onu cəzalandırmamışdı. Bu qoca, arıq vəzir sülalənin dirəklərindən biri idi. Uzun Həsən öləndə də vəsiyyət eləmişdi ki, onun oğlanları bu sədaqətli, ağıllı vəzirin sözünü eşitsin. Uzun Həsənin məşhur “Qanunnamə”sinin hazırlanmasında vəzir yaxından iştirak etmiş, onu bütün ölkədə tətbiq eləmişdi.

– Vəzir, Süleyman Bicanoğlu dörd-beş minlik qoşun götürüb Dərbənd qalasına getməlidir.

Vəzirin heç nədən xəbəri yox idi.

– Onda biz Şirvanşahla müqaviləni pozmuş olarıq.

– Özü tələb eləyir. Şeyx Heydər onunla vuruşmağa gedib.

Vəzir inanmadı.

– Sultani əzəm, Şeyx Heydər Çərkəzistana gedib. Fərrux Yasar onunla düşməndi. Bəlkə də Uzun Həsənin qohumları arasında narazılıq salmaq istəyir? Axı biz hər şeyin düzgünlüyünü öyrənməsək, belə addım atmağımız yerinə düşməz. Sonra gec olar, səhvimizi düzəldə bilmərik.

– Necə, Fərrux Yasar mənim qohumum deyil? Onun bacısı mənim əyalım deyil?

– Şeyx Heydər necə? O da bacınızın əridir. Həm də Ərdəbil ocağına düşmənçilik bizə xeyir gətirməz. Onların müridləri çoxdur.

– Bəlkə vəzir də onların mürididir?

Zəkəriyyə Keçəçi əlini döşünə qoydu.

– Sultani əzəm yaxşı bilir ki, mən şiyə deyil, sünniyəm, hənəfiyəm. Onlarla mənim heç bir əlaqəm yoxdur. Rəhmətlik Uzun Həsən deyərdi ki, bu ocağın gücü mənə bəllidir, ona görə də onlarla qohumluq telləri qurmuşam. Əbu Səidlə qarşılaşanda Şeyx Heydər, onun müridləri olmasa bu günkü Ağqoyunlu dövləti də olmazdı. Məni dar ağacına çəkdirsəniz də mən onun üstünə qoşun göndərməyin tərəfdarı deyiləm.

– Sən gördüyün dövranlar keçib, vəzir. Şeyx Heydər indi şahlıq, sultanlıq həvəsinə düşüb. Belə olmasa bu qədər qoşun yığıb onları silahlandırmazdı. Qocalmısan vəzir, ürəyin yumşalıb.

Vəzir yenə əlini döşünə qoyub baş əydi.

– Ola bilər. Qocalıq bədbəxtliyin başlanğıcıdı. Ancaq mən yenə öz fikrimdə qalıram. Həm də Şeyx Heydərin getməyinə icazə vermisən.

– Vəzir, get. Məsləhət qurtardı. Mən xacalət çəkirəm ki, bir dərvişə bacımızı vermişik. Onun hökmü verilib. Şeyx Heydər məhv olmalıdır. O baş nə qədər ki, sağdır onun içində nə qədər nəqşələr çəkiləcək.

Vəzir baş əydi, fikirli-fikirli çıxıb getdi. Cavan Sultanı öz fikrindən döndərə bilməmişdi.

Süleyman Bicanoğlunun gətirdiyi dörd minlik qoşun Fərrux Yasarın bundan da çox qoşunu ilə birləşdi. Oradan Dərbəndin üstünə getdilər. Neçə vaxtdan bəri Şeyx Heydərin müridləri

Dəmir qapı Dərbəndi mühasirəyə almışdılar. Mühasirə də o vaxt başlamışdı ki, müridləri keçib getməyə qoymamışdılar.

Qalanı almaq, bürcləri dağıtmaq üçün müridlərdə mancanaqlar, divar deşən alətlər yox idi. Qalanın müdafiəçilərini aclıqla təslim olmağa məcbur eləməkdən başqa elə bir yol yox idi. Dərbənddə hələ xeyli yemək və su vardı. Onlar tükənənə qədər kömək gəlib çıxa bilərdi.

Bu kömək Heydər gözlədiyindən gec gəldi. Qala təslim olmaq istədiyi gün bürclərdə uzaqdan toz qalxdığını gördülər. Qalada təslim olmaq istəməyənlərin sevinc nidaları müridlərin təəccübünə səbəb oldu. Onlar da toz dumanını gördülər.

Şeyx Heydər bir dəstə müridi qabağa göndərdi ki, görsün kimlərdi gələn. Onları Süleyman Bicanoğlunun yanına gətirdilər.

Qırx-qırx beş yaşlı bu sərkərdə atın üstündə oturub gələn elçiləri dinlədi. Sonra onların başındakı qırmızı börkləri göstərib:

– Məni bir başa salın görüm siz kimsiniz?

– Biz qızılbaşlarıq.

– Qızılbaş, – deyə Süleyman Bicanoğlu gülümsədi. Qızıl xəzinədə olar. Kəsilsin o qızıl başlar.

Bir anın içində beş nəfər elçinin qırmızı börklü başları nizələrə keçirildi.

Şeyx Heydər gördü ki, bu qoşunla vuruşmaqdan başqa çarə qalmayıb. Amma burada döyüşə girmək ona qələbə gətirə bilməzdi. Müridlərin hamısını Dərbəndin mühasirəsindən çıxardı. Dağlarla üzü Şamaxıya tərəf yol aldı. Elə bir yerdə o döyüşə girmək istəyirdi ki, üstünlük onun tərəfində olsun. Amma Süleyman Bicanoğlu da təcrübəli sərkərdə idi. Uzun Həsən Otluqbellidə Fateh Sultan Məhəmmədə qalib gəldiyi döyüşdə iştirak eləmiş, igidlik göstərmişdi. O, başa düşdü ki, Şeyx Heydər müridləri dağlara aparmaqda məqsədi döyüşdən qaçmaqdı. O, vaxt qazanır. Müridlər tə'qibdən qurtarsalar, sonra elə bir yer tapıb onlarla döyüşə girəcəkdir ki, orada Şirvanşahla Ağqoyunlu sərkərdəsinə heç nə kömək edə bilməyəcək. Şeyx Heydərin müridləri onların əsgərlərindən daha möhkəm, daha iradəli idi. Onu öldürə bilərsən, amma qaçmağa məcbur eləyə bilməzsən.

Gecə keçdi. Hər iki qoşun yatmadı. Hər ikisi yol gedirdi. Süleyman Bicanoğlu döyüş üçün yer seçmişdi. Onların yolu çayın sahilində yastanalara çıxdı. Hər tərəfi yarğandı. Özünün seçmə süvarilərini həmin yastanaya gətirdi. Sərrast oxatan Mosul atıcılarını da elə yerləşdirdi ki, ensiz yolla gələn müridlərə çoxlu tələfat versinlər.

Döyüş səhər işıqlaşanda başladı.

Müridlər düşməni qarşıda görəndə: "Qurban olduğum, sadağa olduğum pirim, mürşüdüm"- deyə onların üstünə atıldılar. Qılınclar qalxanları çeynəyib tökür, qollar, başlar üzülüb düşür, kiçik bir yastana döyüş üçün darısqallıq eləyir, çoxlu döyüşçü atla bərabər yarğanlara uçurdu. Süleyman Bicanoğlunun süvariləri əzilib geri çəkilməyə başladılar.

Şeyx Heydər atını bir dikin üstündə saxlayıb yeni-yeni dəstələri irəli göndərir, döyüşü idarə eləyirdi. Hüseyn Lələ bəy də onun yanında dayanmışdı. Birlikdə tədbir görürdülər.

– Aşağıdan gələnlərin qabağını saxlayıb qalan müridləri çayın kənarı ilə yuxarı aparmalıyıq. Yolu dəyişib, onları azdır.

Söz Şeyx Heydərin dodaqlarında qaldı. O, qabağa əyildi, kürəyindən qanlı oxun ucluğu göründü. Hüseyn Lələ bəy atını Ülkərə yaxınlaşdırdı. Özü də qışqırdı:

– Dədə bəy!

Dədə bəy atını çapa-çapa gəldi. Əlində siyirmə qılınc vardı. Qan onun əlinə, paltarına, atın yalına sıçramışdı.

– Dədə bəy, mən şeyxi bu meşəyə endirirəm. Müridləri o dağa tərəf apar.

– Qurban olum, ay Şeyx, nə oldu sənə?

– Heç, yüngülcə yaralanmışam. Möhkəm dayanın.

Dədə bəy onun kürəyindən ox çıxdığını görmədi.

Hüseyn Lələ bəy Şeyx Heydəri meşəyə gətirdi. Ağacların arasından keçən günəş şüaları gümüş xəncərlər kimi göy otluqlara sancılırdı. Burada "qurban olduğum, sadağa olduğum, pirim, mürşüdüm" nidaları eşidilmirdi. Meşəni quş səsi başına götürmüşdü. Dostunu yəhərdən endirdi.

Bir daşın üstündə oturtdu. Ox ucluğunu çıxarıb atdı. Sinəsindən lələklə qarışıq oxu tutub çəkib çıxartdı. Heybəsindən sarğı, məlhəm çıxartdı. Onu otlar üstündə uzandırdı.

Hardasa bülbül oxuyurdu.

Onun sulanmış gözləri qarşısında Aləmşahbəyim dayandı. Oğlanları əl-ələ verib elə bil ona baxırdılar.

– Vaxt itirmə, qulaq as.

– Yaranı sarıyım, sonra.

– Keçdi. Məni dəfn eləyəndən sonra müridləri burax. Hərəsi öz yerinə qayıtsın. Özün də Ərdəbilə qayıt. Oğlanlarımı, Aləmşahbəyimi sənə tapşırıram. Babamın batin kitablarının yerini bilirsən. Mənim işimi sən davam eləyəcəksən. Vaxt...

O, son sözlərini deyib qurtaranda Ülkər ayaqlarını yerə döyüb kişnəyirdi...

## KÖRPƏ DUSTAQLAR...

Qala divarının üstündəki daş yolla yaşlı bir qadın qaça-qaça gəldi. Uzun qara tumanının ətəkləri ayaqlarına dolaşırdı. Başına yaylıq örtmüş, başqa bir ləçəyi alnından çəpəki keçirib yaylıqla bərabər bağlamışdı. O, Aləmşahbəyimlə İsmayıla çatdı. Gördü ki, Aləmşahbəyim ağlayır, əllərini quru sinəsinə çırpdı.

– Atam-anam niyə ağlayırsan? Canım sənə fəda olsun, bu nə göz yaşlarıdı?

Aləmşahbəyim qala dişləri arasından gözlərini uzaqlara zilləyib, yanağından axan yaşı sildi. Cavab vermədi.

– Heç mən də bilmirəm, anam niyə ağlayır. İsmayıl kişi kimi xidmətçi qadın Səkinəyə baxdı. Aləmşahbəyim uca, sərv qamətini düzəltdi:

– Səkinə, get süfrəni hazırla, uşaqları da çağır, biz də gəlirik, – dedi.

O, öz dərdini özü çəkməyi öyrənmişdi. Qapılarında Ülkər ayaqlarını yerə döyüb kişnəyənə qədər dərdini deməyə sirdaşı vardı. Həmin gündən isə qol-budağı qırıldı, ümid evi yıxıldı.

Səkinə getmirdi. Aləmşahbəyimi ovutmağa çalışırdı.

– Atam-anam, canım sənə fəda, niyə ağlayırsan?

– Səkinə, sənin əslin hardandı?

Səkinə öz taleyindən çox danışmışdı. İndi də soruşur. Yə’ni yadından çıxıb. Çıxar, unudar. Bu qədər dərdin içində adam öz adını da yadından çıxarır.

– Borçalı çökəyi adlı bir gözəl məmləkət vardı. Gəncədən o yana, Tiflisdən bu yana. Orada böyümüşəm. Kim daş deşiyindən çıxır ki. Kənddən qırx qız yığılıb gəzməyə çıxanda hər daşın dalında bir oğlan gizlənib bizə baxırdı. Bir gün bir od gəldi, bir alov qaladı. Kəndimizi yandırdılar. Atam-anam necə oldu bilmədim. Biz qırx qızı zəncirə vurub bazarlarda satdılar. Gəlin olacaqdım, kəniz oldum. Daha qocalmışam, saçlarım da ağarıb. Yaxşı ki, sizin kimi insanların arasına düşdüm. Yoxsa heç bilməzdim günüm necə olacaq.

İsmayıl bu söhbəti ilk dəfə eşidirdi.

– Bəs niyə evinizə getmirsən, Səkinə xala?

– Yollar qıfıllıdı, qurbanın olum.

Aləmşahbəyim əllərini oğlunun çiyinlərinə qoydu. İsmayıl qartal dimdiyinə oxşayan burnunu qaldırıb, aydın gözlərini anasına dikəndə o Səkinəyə deyirdi:

– Səni əsir gətirdilər, eləmi?

– Bəli, qadan ürəyimə.

– Mən də şah qızıyam.. Qardaşım taxtda oturub, amma körpə balalarımla dustağam. Sənin mənə köməyin dəyə bilər?

Səkinə onun dərdini yüngülləşdirmək üçün canıyananlıq eləyirdi. İndi Aləmşahbəyim öz vəziyyətini ona başa salanda Səkinə də ona qoşuldu, sel kimi göz yaşı tökməyə başladı. Ağlaya-ağlaya da çıxıb getdi.

İsmayıl qaladişinə söykənib anasına baxdı:

– Ana, mən balacayam. Hələ çox şeyi bilmirəm. Sən də mənə demirsən. Sultanəli də, İbrahim də məndən hər şeyi gizlədirlər. Amma mən görürəm ki, nəsə olub. Nə olub, onu bilmirəm. Sən ağlayırsan, Səkinə ağlayır, niyə ağlayır?

Aləmşahbəyim əlini oğlunun başına çəkib dedi:

– Böyüyəndə hər şeyi bilərsən.

– Deyin, bilim, mən də tez böyüyüm.

Anası onu qucaqladı. İsmayıl isə dartınıb onun qolları arasından çıxdı. Divar üstündəki yolla qaçdı.

– Tut görüm.

Anası da onun dalınca qaçdı. İsmayıl özünü ciddi aparmaq istəyirdi. Amma uşaqlıq özünü göstərdi. Gülə-gülə qaçdı. Anası da onu qovmağa başladı. Amma çata bilmirdi. Onun cəmi-cümlətanı iyirmi səkkiz yaşı vardı. Gözəlliyi cilvələnib qızılgül kimi pardaxlanırdı. Bu yaşda o, al-əlvan geyinməliydi. Amma...

İsmayıl nəsə görüb dayandı. Heyrət içində gözlərini Savalana dikdi. Savalan nəhəng bir göz dağına dönmüşdü. Hər tərəf axşamın bənövşəyi göy rənginə bürünsə də, Savalan od tutub yanır. Günəşi elə bil özündə əks eləyirdi. İndi o, elə bil ikinci bir günəşə dönmüşdü. Zirvəsindəki buzlaqlar daha gözqamaşdırıcı idi, aşağı endikcə o, kürədəki polad rənginə düşürdü. İsmayıl bu mö’cüzə qarşısında mat-məəttəl qalmışdı.

– Ana, Savalan yanır?

– Yanır, bala, yanır. Sən onun üstünə çıxsaydın, gör nə olardı ey. Ona görə ağlıyırdım da.

– Yox, o məni yandırmaz.

– O yüksəkliyə qalxmaq istəyənlərin çoxu yanıb, oğul.

– Məni yandırmaz. Böyüyəndə çıxacam, görüm o niyə belə qırmızıdı.

Anası heyran-heyran oğluna baxdı. Yaxınlaşıb arxadan onu qucaqladı. Oğlunun saçları onun sinəsinə söykəndi, İsmayıl necə də böyümüşdü.

– Ana, Savalan yanırdı, artıq sönür. Mənə de görüm Savalana qədər belə gömgöy görünən o dağlar, dərələr, düzənlər ki, var, ora nədir?

– Ərdəbil mahalı.

– Yox.

– Bəs nədi?

– Vətən!

Ananın sinəsi alışdı. Oğlunu özündən araladı. Soyuq divara söykəndi. Amma döşlərinin arasında istilik gəzirdi. Bayaq oğlunun başını söykədiyi ürəyinə elə bil Savalanın közü düşmüşdü. Əri Heydərin sifətimi toxundu, onun təmasımı keçdi? Bədəni əsirdi, titrəyirdi. Qalanın dişini qucaqladı. Daşın üzü soyuq olar. Amma bu soyuqluq onun sinəsindəki közü söndürmək əvəzinə daha da istilətdi, alovunu külək kimi üfürüb artırdı, kül basmış közlərini qızartdı.

“İsmayıl bu yaşda atasına çəkib. Hələ onun qulağına babasının batin fikirləri pıçıldanmayıb. Atasının işlərindən ona heç kəs danışmayıb. Mən yalvarmışam. Sultanəliyə də, İbrahimə də demişəm ki, oğlanlarım, məni sevirsinizsə İsmayılı mənim əlimdən almayın. İkiniz atanızın yoluyla getsəniz bəsdir. İsmayılımı mənə verin. Sizin yolunuz qandır, qadadır, ölümdür. Mən yazığam, gözümü tikməyə bir qibləgahım olsun. Bu da hələ yeddi yaşı tamam olmamış körpəm”.

– Ana, bəs niyə biz bu qaladan çıxıb getmirik? Mən o meşələri, qızılgüllü həyətimizi, evimizi görmək istəyirəm.

– Gedərik, oğul, gedərik.

Ülkər qapıda ayaqlarını yerə döyüb kişnəyirdi, az sonra Sultan Yaqubun fərraşları qızılgüllü həyətə doldular. Əbih Sultan saraydan fərmanla gəlmişdi. O, atının yüyənini dartıb saxlayanda Aləmşahbəyim eyvanda idi. Yas paltarı onun ağ sifətini, yaşlı mavi gözlərini, örpəyin altından görünən qızıl saçlarını daha da işıqlı göstərirdi. Əbih Sultan onu görəndə bir müddət danışa bilmədi. Aləmşahbəyim yaslı-yaslı da gözəl idi. İndi o daha duldu. Qardaşı yəqin ki, bundan sonra heç bir hökmdara, şahzadəyə verməz. Onda onun oğlanları taxt-tac davasına

qalxmaq üçün imkan taparlar. Özündən çox aşağı bəylərə, əsilzadələrə, saray adamlarına verəcək. Yox, bu gözəldən heç keçmək olmaz. Şeyx Heydərdən qabaq onunla evlənə bilməmişdisə, ondan sonra evlənər.

Aləmşahbəyim səsini qaldırıb onun üstünə qışqırdı.

– Sənə kim icazə verib bu həyətə at üstündə girəsən? Şeyx Heydər yoxdusa da, Uzun Həsənin qızı hələ sağdır.

Əbih Sultan atdan endi.

– Hökmdar fərmanı gətirmişəm.

– O fərmanları çox görmüşük. Rəiyyət qapısına aparmamısan. Çıx həyətdən, fərmanı göndər.

Əbih Sultan atını həyətdən çıxarmalı oldu. Onun adamları evi mühasirəyə almışdı.

Fərmani-hümayunu göndərdi. Aləmşahbəyim onu alıb oxudu. Qardaşı ona başsağlığı verir və onun Təbrizə gəlməsini məsləhət bilirdi. Amma bu məsləhətdə bir hökm də vardı. Yazırdı ki, tə'ziyyə məclisi Nəsriyyə məscidində başlayıb. Şeyxin oğlanlarının və əyalının sarayda olmağı vacibdir.

Bu məktubdan sonra o yumşaldı. Ərinin təziyyə məclisinin Təbrizdə başlaması ona hörmət idi. Heydərdən sonra Ərdəbildə oturmağı da yaxşı düşməzdi. Elə fərman gələn gün o, oğlanlarını da götürüb Təbrizə yola düşdü.

"Səkkiz behişt" sarayında o qardaşı ilə üz-üzə gələndə kövrəldi. Gözləri doldu. Gözləyirdi ki, qardaşı ona başsağlığı verəcək, onun dərdini yüngülləşdirəcək. Amma Sultan Yaqub onun qara libasına kinayə ilə baxdı, gözlərinin dolmağı xoşuna gəlmədi. Qızıl kəmərindən asılan almas qaşlı xəncərini yarıya qədər çəkib təzədən sərt hərəkətlə qınına çırpdı.

– O dərviş övladından ötəri göz yaşı da tökürsən?

Bu sözdən sonra Aləmşahbəyim hər şeyi başa düşdü.

– Qardaş, bu sənin işindi? Heydəri sən öldürtdürmüsən?

– O, öz ölümünə tərəf atını dördnala çapırdı.

– Sən öldürtmüsən?

Sultan Yaqub bacısı ilə ikilikdə danışırdı.

– Sən mənim ana ayrı olsa da, ata bir bacımsan. Ər eldən gələr, övlad beldən gələr, bəs qardaş hardan gələr? Mən onun qanını ala bilərəm.Neçə yüz adam deyirsən boynunu vurdurum. Bütün ölkədə qırx gün tə'ziyyə məclisləri saxlatdırım, matəm e'lan eləyim. Amma qardaşını başa düş. Bu sufi-salik taxtıma göz dikmişdi. Qoşun yığırdı, tə'lim keçirdi. Əfşar, qacar, varsaq tayfalarını mənim üstümə qaldırırdı. Mən gec tərpənsəm, sən bir gün ərinlə mənim matəmimi saxlamaq barəsində danışacaqdın. Onda qardaşını oxşayıb ağlayacaqdın, indi ərinə ağlayırsan.

Aləmşahbəyim taqətdən düşdü. Çin ipəyindən tikilmiş üstü əjdahalı döşəyin üstünə çökdü. Bu, Sultan Yaqubun acığına gəldi.

– Sən hökmdar qardaşının yanında oturursan?

Aləmşahbəyimin ayaq üstündə dayanmağa taqəti qalmamışdı.

– Əvvəl məni öldürəydin.

– Sənə mə'lumdur ki, qız olanda ağzına yastıq qoymaq adəti də var. Bundan da heç kim kefini pozmayıb. Mənsə bacımı istəməsəydim, belə açıq-saçıq danışmazdım. Şeyx Səfi nəsli niyə sümüyünü gətirib bizim sümüyümüzə calayıb? Bir fikirləş. Nə üçün? Hökmdara yaxın olmaq, imkan düşən kimi onun başını bədənindən ayırıb, özü taxtı tutmaq üçün.

Aləmşahbəyim qardaşını eşidirdi. Amma öz ərini görürdü. Heydərin işıqlı aydın gözləri ona baxıb gülümsəyirdi. O, bu gözlərdə xəyanət axtardı. Tapa bilmədi. Yox, orada məhəbbətdən özgə heç nə yox idi.

Sultan Yaqub deyirdi:

– Mən tərpənməsəm, o qılıncını mənim boynuma endirə – cəkdi.

O isə ərinin iri əllərini gördü. Sağ əli ilə belindən açdığı qılıncı divardan asdı, sonra bu əl qartal kimi göydə uçdu və onun qızılı, ənbər qoxulu saçlarına endi. Elə sığalladı ki, bu əlin sığalından bir tük də incimədi.

S
ultan Yaqub danışırdı:

– Ərin məni öldürəndən sonra meyitimin üstündə dayanıb deyəcəkdi ki, gəl bacısı, qardaşını cəhənnəmə vasil eləmişəm. Yol saçlarını.

Amma Aləmşahbəyim yenə ərinin dodaqlarını gördü. Həmin dodaqlar onun saçlarından öpdü. Sonra aşağı sürüşdü, arvadının alnını, gözlərini öpüşlərə qərq elədi. Sonra pıçıldadı.

– Gözümün nuru, başımın tacı...

Qardaşı onu inandıra bilmədi. O, qalxdı. Başını qaldırıb düz qardaşının gözlərinin içinə baxdı.

– O, tac hərisi deyildi. Onun başının tacı vardı. Ölübsə də yenə tac onundu.

– Tac? Hanı onun tacı?

– Qarşında dayanıb. Yaxşı bil ki, onun tacı həmişə hündürdü. Heç vaxt ayaq altına düşməyəcək.

Sultan Yaqub ucaboy, gövdəli cavan oğlan idi. Yeriyəndə yer titrəyirdi. Ağılda, tədbirdə olmasa da boy-buxunda atasına çəkmişdi. Bu nəsildə kişilər qüvvətli, qollu-qabırğalı yaranırdı. Sara xatundan başqa isə bütün qızlar zərif, incə, ucaboy idi. Ucaboy, heybətli, qorxunc Sultan Yaqub zərif, gözəl bacısının başı üstündə dayandı.

– Mənim düşmənlərimə tac olan bacım. Bacı kimi gözümün işığısan. Amma sənin nə ərin olub, nə uşaqların.

Aləmşahbəyim yenə aşağı çökdü. Qardaşının ayaqlarını qucaqladı.

– Qardaş, qurbanın olum, çıxar xəncərini, doğra məni. Ancaq uşaqlarıma toxunma.

– Qurd balası qurd olar.

– Bəs mən. Onlar mənim də övladlarımdır. Məni öldür, o körpələrə qıyma. Bu dünyada hökm versən də, o birisi dünyada cavab verməli olacaqsan. Atalarını öldürdün bəs deyilmi? Körpələr sənə nə eləyib? Axı sən onların dayısısan. Atamız Uzun Həsən nə vaxt belə bir qəddarlıq eləmişdi?

Sultan Yaqub ayaqlarını bacısının əllərindən qurtarıb xeyli gəzindi və fikirləşdi: “Onların atalarının qətlinə mən fərman vermişəm. Onlar böyüyəndə atalarının düşmənini axtaracaq. Bacım övladları dayılarına qəddar kəsiləcəklər. Gəlini gərdəkdə, küçüyü... Bəs o dünyada necə? Bacım da düz deyir. Cavab vermək lazım gələcək. İndi istədiyimiz hökmü veririk, onun cavabını fikrimizə də gətirmirik. Onlar hələ körpədi. Qan üstündə qan eləmək də... Qoy hələ yaşasınlar. Bir-bir böyüyüb ərsəyə çatdıqca onları götürmək çətin deyil”.

– Deyirsən atamız qəddar deyildi. Bəs qardaşımız Uğurlu Məhəmmədi niyə asdırdı?

– O düşmənimizə sığınıb atamızın üzünə qabarmışdı. Bu işdə atamızda heç bir günah görmürəm. O, hansı körpəni öldürmüşdü. Yox, qardaş heç atamıza oxşamaq istəmirsən.

– Uşaqlarına toxunmasam, atama oxşayarammı?

– Oxşayarsan. Yalvarıram, mənim balalarımla işin olmasın.

O dayanıb bacısına baxdı. Onların gözləri bir-birinə sataşdı. Qardaşı gözlərini yayındırdı. “Demək günahkar olduğunu başa düşür. Gözlərimin içinə düz baxa bilmədi. Yumşalıb”.

– Bacı, ərinə görə də belə yalvarardınmı?

– Yox.

– Niyə? – Sultan Yaqub bacısının cavabından xoşlanıb qımışdı.

– O kişiydi və istəməzdi ki, onun arvadı ərinə görə doğma qardaşına da yalvarsın. Amma bala şirindi.

– Yaxşı. Sən deyən olsun. Hökmümü dəyişirəm. Nə qədər ki, mən taxtdayam, onlar həbsdə olacaqlar.

Aləmşahbəyimin ümidi artdı, ürəyi arxayınlaşdı.

– Qardaş, onların ən böyüyünün hələ heç on dörd yaşı da yoxdur. Onlardan niyə belə ehtiyat eləyirsən? Əlləri qılınc tutmur.

– On dörd yaş da bu nəslin övladları üçün bəsdir. Böyük, on dörd yaşlı oğlun Sultanəli artıq Şeyxdi. Müridlər hamısı ona biyət eləyir. Bu qorxu deyil? Tək sənin xətrinə zindana gedəcəklər.

– Mən də balalarımla bir yerdə çürüyəcəyəm.

Bir neçə gündən sonra Aləmşahbəyimi də oğlanları ilə bərabər indi salındıqları qalaya gətirdilər.

Artıq dörd il idi ki, həbsdə idilər. Bu qaladan heç yerə çıxmamışdılar. Qalanın qapıları onlara ərzaq gətiriləndə açılırdı. Ən geniş yerləri bürcün üstündəki yol idi, çıxıb gəzirdilər. Tağların arasındakı meydan, su dolu hovuz, bu idi uşaqların dünyası.

Ana-bala bürcün üstündəki yolla gələndə İsmayıl göydə quş səsi eşitdi. Dayanıb əlini gözünün üstünə qoyaraq göyə baxdı. Haça səflə uçan quşlar oxuyurdular.

– Ana, o quşların adı nədi?

– Durnadı, oğlum.

– Onlar uçub hara gedirlər?

– Bağdada.

– Yorulanda hara qonacaqlar?

– Hara xoşlarına gəlsə.

– Qonsunlar da, bura.

– Qaladan Allah da bezardı, bəndə də. Quşların qanadı var. Hara xoşlarına gəlirsə oraya da uçub gedirlər.

Durnalar uçub getdilər. Gözdən itməmiş səfləri pozuldu. Aramla oxunan durna nəğməsi bir-birinə qarışdı.

– Ana, onlara nə oldu?

– Oğul, kimsə yerdə daş çevirdi. Daşı döndərəndə durnalar yollarını itirir. Azırlar.

– Kim çevirdi daşı?

– Nə bilim, oğul. O qədər daş çevirənlər var. İndi fələyin çərxini çevirirlər. O da olsun durnanın nişan tutduğu daş ola.

İsmayıl canıyananlıqla durnalara baxır, onların səfinin düzəlməsini istəyirdi. Əlacı olsa, o çevrilən daşı düzəldər, durnanın qatarını səfə düzər, dəvə kimi ovsarlarından tutub aparardı. Lap Bağdada kimi. Çox eşitmişdi Bağdad barəsində. Gedib görərdi. Birdən durnaların mahnıları əvvəlki kimi aramla eşidilməyə başladı. Onlar da yollarına davam elədilər.

Hovuz olan meydana düşəndə İsmayıl yenə dayandı. Hovuzdan su axıb tökülür, harayasa axıb gedirdi. O, suyun səsinə qulaq asdı. Ona elə gəldi ki, bu səs durnalardan qalıb. Durna mahnısı qırılanda bir parçası bu bulağa düşüb. O, əllərini suyun altına tutdu. Bumbuz idi. Həm də o durna mahnısı kəsildi. Əlini çəkəndə mahnı yenə eşidildi. Gördü ki, bulaq suyu da durna qatarı kimidi. Səsi, mahnısı qalır, özü isə uçub, axıb gedir. İstədiyi yerə, istədiyi səmtə.

Səkinə onları səslədi:

– Atam-anam, süfrə hazırdı.

– Səkinə xala, nə bişirmisən?

– Atam-anam, vətəni yadıma saldınız, anamın xoşladığı bir xörək bişirmişəm, qurutdu xəngəl.

Sultanəli də, İbrahim də süfrə başında oturmuşdular. Analarını görüb qalxdılar. Onun əlindən öpdülər, anaları da onların üzündən öpdü. Oturdular. İsmayıl da məstlərini çıxartdı, gəlib süfrə başında bardaş qurdu.

Səkinə iri məcməyidə xəngəli gətirib süfrənin ortasına qoydu. Qalaylı mis parçda dağ olmuş yağı bir daha xəngəlin üstündə gəzdirdi. Hücrəni qovrulub qızarmış soğanın xoş ətri basmışdı. Onlar yeməyə başlayanda Səkinə çıxıb o birisi hücrəyə keçdi. Bir azdan oradan saz səsi eşidildi. Elə yanıqlı çalınırdı ki... Hamısı əl saxlayıb qulaq verdilər. İsmayıl əllərini silib qalxdı. Bu səs onu əfsunlamışdı. Bayaq gördüyü Savalan da, anasının ağlamağı, durna qatarı, pozulan durna mahnısı gəlib dayandı gözlərinin qabağında. Özü də bu işə heyran qaldı. O çalınan hava hər şeyi təzələyə bilmişdi.

Qapıdan içəri boylandı. Səkinə oturub cürə sazını basmışdı sinəsinə, çalırdı, nə çalırdı. Heç İsmayılın gəlməyindən xəbər tutmadı. Gözlərindən sel gedirdi. Bu yanıqlı hava elə bil o əsirliyə gələndə qırx qızı bir-birinə bağlayan paslı zəncirin cingiltisi, o qızların ah-naləsi idi, taledən şikayət eləyirdi. İsmayıl görürdü ki, Səkinə arvadın özündən, sözündən xəbəri yoxdur. Birdən-

birə o havanı dəyişdi. Elə bil qoşunlar löhrəm yerişlə keçib gedirlər. Səkinə arvad isə bu balaca sazla o yollara vurulan paslı kilidləri qırır, yolları açır. Zəncirdən qurtulan qırx qız da onunla bərabər qayıdır. Öz yurdlarına, gözəl Borçalı çökəyinə qayıdırlar. Hamı onları qarşılayır. Amma bu qırx qızı tanıyan yoxdur. Qırx qızın yerində qırx qarı dayanıb.

İsmayıl da bu musiqinin seyrindən divara söykənib heyranlıqla bu əsir, kəniz qadına baxırdı. Deməyəsən o xörək bişirməkdən, paltar yumaqdan, daş döşəmələri süpürməkdən başqa gözəl işlər də bacarırmış.

Havanı çalıb qurtardıqdan sonra başını cürə sazın üstünə qoyub hönkürdü. Sonra yavaş-yavaş özünə gəldi. Yaylığının ucu ilə gözlərini sildi, başını qaldıranda divara söykənən İsmayılı, qapıda Sultanəli ilə İbrahimi, onların başı üstündə Aləmşahbəyimi gördü. Onların hamısının gözlərində kədər vardı. O, ayağa qalxdı:

– Atam-anam, keç günahımdan. Bayaq dərdimi danışdım, sonra evimizdə gördüyüm xəngəldən bişirdim, özümü saxlaya bilmədim. Nə qədər ağlayırdımsa ürəyim boşalmırdı. Bircə dəfə bu sazı çalmaqnan elə bil evimizə-eşiyimizə getdim, atamı-anamı, qardaş-bacımı görüb geri qayıtdım.

– Bəs bizdən niyə gizlədibsən bu sirrini, Səkinə, – deyə Aləmşahbəyim soruşdu.

– Nə bilim, vallah, atam-anam. Birinin xoşuna gəlir, birinin xoşuna gəlmir. Mən nə karəyəm ki, deyəm, saz çalım. Bu dərdin, ələmin içində.

– Çal, həmişə çal, elə saz da bizim kimi dərdlidi.

O, cürəni bir tərəfə qoydu.

– Gedim süfrəni yığışdırım.

– Sonra. Bir hava da çal.

Səkinə utana-utana sazı sinəsinə götürdü. Təzanəni gəzdirib havanın kələfinin ucunu tapan kimi özü də dəyişildi. Elə bil heç kimin görmədiyi yerdə əlləri işləyib dünyanın ən iri düyünlərindən birini açmağa çalışır. Bu anda hər şey yaddan çıxır. Sazın simlərindən qopan hava gah adamı yandırıb-yaxır, gah qanadlandırır, gah mə’yus eləyirdi.

O, çalıb qurtarandan sonra İsmayıl soruşdu:

– Səkinə xala, bu havanın adı nədi?

– Ruhani.

– Niyə ruhanidi?

– Atam-anam, nə bilim. Rəhmətlik atam bu havanı çalıb qurtarandan sonra deyərdi Allah rəhmət eləsin. Deyərdik kimə? Deyərdi şairə. Öz qəzəllərinə, sözlərinə görə onun dərisini soyublar. O, hürufani olub. Aşıqlar da bu havanı onun mərdanəliyinə, igidliyinə qoşublar:

– Şair Seyyid İmadəddin Nəsimi, – deyə Sultanəli dilləndi.

– Nəsimi? O, kimdi? – deyə İsmayıl Sultanəliyə yazıq-yazıq baxdı.

– Sus! – Sultanəli barmağını mehribanlıqla onun dodaqlarına qoydu.

– Onun adını çəkənin dərisini dırnaqdan tutmuş təpəsinə qədər soyurlar.

– Niyə axı? Onun günahı nə olub?

– Sonra bilərsən. O, hürufi şairdi.

– Hürufi nədir? – İsmayıl qardaşının əlindən yapışıb buraxmır, öyrənməyə çalışırdı.

– Bir-iki kəlməylə başa düşmək olmaz. Gərək onun yazdıqlarının hamısını oxuyasan. Əvvəl özümüzü öyrən, sonra.

– Biz kimik?

– Sufi.

– Sufi nədir? – İsmayılın bu sualından sonra anası onun qolundan tutub qalxızdı, çənəsindən yuxarı qaldırdı.

– Nə görürsən?

– Səqf.

– Nədəndi o səqf?

– Daşdan. – İsmayıl təəccüblə anasına cavab verirdi.

– Necə daşdan?

– Kobud.

– Bura nədi?
– Qala.
– Bax, sufilik də budu. Zindandı, zəncirdi, ayaqlarda kündədi. Sufilər də, hürufilər də özlərinə bu dünyada da cəhənnəm qazanırlar, o dünyada da.
Söhbətləri burada bitdi.
Öz hücrələrinə keçdilər. Sultanəli şamları yandırdı. Amma anası görürdü ki, şamı yandıranda əlləri əsir. Amma heç nə soruşmadı. Bilirdi ki, bayaq İsmayıla dediyi söz onun xətrinə dəyib. Anası olduğuna görə cavab verməyib. İbrahim də tutulmuşdu. O, böyük qardaşından iki yaş kiçik idi. Amma hamıdan hirsli, əsəbiydi. Əsəbiliyinin də səbəbi dilinin tutulmağı idi. Danışmaq istədiyi yerdə, dilinə söz gəlmir, o qızarır, pörtür, dili-dodağı əsirdi.
Qapı döyüldü. Sultanəli getmək istədi, amma anası qoymadı. Qapını o özü açırdı. İstəmirdi ki, bəla birdən-birə onun oğlanlarına gəlsin, özünü qabağa verirdi. Keçən illərdə qapıda onu görən silahlı-əbləsəli bir fərraş özünü saxlaya bilməyib çöhrəsi açıq bu qadının gözəlliyinə görə bircə kəlmə demişdi:
– Fətəbərəkallah!
Onun bu kəlməsini eşidib saraya xəbər vermişdilər. Üstündən xeyli keçəndən sonra həmin fərraşı Ərdəbilin mərkəzi meydanında e'dam eləmişdilər. E'lan eləmişdilər ki, o əsilzadə ailələrindən birinin qadınının sifətinə baxıb.
Bu dəfə də özü getdi. Bilirdi ki, qardaşının fitvası ilə oğlanları böyüdükcə bir-bir gedəcək. Odur ki, gecələr də yuxusu ərşə çəkilir. Ərinin xəncərini başının altında saxlayırdı. Yad səsi eşidən kimi, Səkinə də oyanırdı.
İndi qapıda ucaboy, Sultan Yaquba bənzər, əyin-başından saray adamına oxşayan bir nəfər dayanmışdı. Aləmşahbəyim geri çəkildi.
– Sən kimsən?
– Bacı, qardaşını tanıya bilmədin? Aləmşahbəyim diqqətlə baxdı. Məsih Mirzə idi. Aləmşahbəyim onu sancdı.
– Günah bacıda deyil. Qardaş bacının dar günündə görünməyəndən sonra onu necə tanıyasan?
Məsih Mirzə içəri girdi.
– Bacımı, onun balalarını bu gündə görüncə gözlərim kor olaydı – deyib silahlarını çıxartdı. Sultanəlinin yanında dayanan qardaşları da onun kimi, indi sifətini gördükləri dayılarına kinli-kinli baxırdı. – Sizin yanınıza gəlmək olurmu bəyəm. Taxt-tac Yaqubun gözlərini tutub, heç nə görmür. Bura girmək üçün nə qədər vaxtdı əlləşirəm. Əbih Sultan olmasaydı, bura yol tapa bilməyəcəkdim.
Aləmşahbəyim qardaşının gəlişindən sevinsə də, həm də bərk narahat oldu. Aşkardır ki, o bacısını elə-belə görməyə gəlməyib. "Yox, yəqin ki, uşaqlarla işi yoxdur. Nəsə başqa məqsədi var. Əbih Sultanla birləşibsə, bu ayrı məsələdi."
O, bardaş qurub oturdu.
– Səndən nə yaxşı, qardaş?
– Gəlmişəm də. Dedim, görüm necəsiniz.
– Belə də, günümüz xoş, dövranımız çağ.
Məsih Mirzə hal-əhval tutandan sonra uşaqlara baxdı. Sonra da bacısına dedi:
– Səninlə ikilikdə sözüm var.
– Yaxşı, Sultanəli, keçin o birisi hücrəyə. – Onlar çox könülsüz getdilər. – Hə, eşidirəm, səni, – deyə qardaşının qılıncını kəmər qarışıq cingildədə-cingildədə aparıb pəncərənin qabağından asdı. Məsih Mirzə bardaş qurmuşdu, dizlərinin kündələri şam işığında qızarırdı. Qırmızı atlasdan şalvar geymişdi. Üstünə isə başı kölgə salmışdı. Əllərini də uzadıb dizlərinin üstünə qoymuşdu, iri barmaqları yerdən çıxarılan ağacın rişələri kimi görünürdü.
– Bacı, dərdini təzələsəm də deməliyəm ki, Şeyxin ölümünə fitva verən adamı tapmışam. Üləma Fəzlüllah ibn Rüzbahan Hünəci Yaqubu başdan-beyindən çıxarıb. O, Yaquba, bir də Osmanlı Sultanı Bəyazidə məktublar yazıb. Yazıb ki, Şeyx Cüneyd kimi Şeyx Heydər də ürfan və ruhaniyyət yolu ilə getmək əvəzinə, ölkə və vilayətlər ələ keçirmək istəyirlər. O, üsyanlar

başçısıdı, sufi nəsəbdi, xəyanətkardır. Qardaşımız da bu murdar fitnəkara inandı. Ağılsız tərpəndi. Tək sənin yox, həm də öz xətrinə belə iş görməməli idi. Çünki Şeyx Səfinin qurduğu binanı uçurmaq fikrinə düşən ağılsız adamdır. Onun ziyarətinə Hinddən, Çindən, Rumdan, Sərəndibdən1, Hicazdan, Dəməşqdən, Bağdaddan, Bəsrədən gəlirlər. Səfiyyəddinin oğlu Sədrəddinə Məlik Əşrəf Çobaninin gücü çatmadı. Cəlayirlər də ona heç nə edə bilmədilər. Belə adamlara arxalanıb səltənəti möhkəmlətmək əvəzinə, onlara qılınc qaldırdı. İndi ölkənin yarıdan çoxu ona lə’nət oxuyur.

– İndi məndən nə istəyirsən? – Aləmşahbəyim qardaşının bal-

---------------------

1. İndiki Şri-Lanka.

tanı hara çaldığını yaxşı başa düşürdü. Amma fikrini açıq söyləməyini istəyirdi.

– Düzü, səninlə tamam başqa bir işdən ötrü məsləhətləşməyə gəlmişəm.

– Buyur.

– Səni və balalarını bu müsibətdən qurtarmaq üçün bircə yol var. – Məsih Mirzə susdu. Bacısı da dinməyib onun təklifini gözləyirdi. Qardaşı da fikrini deməyə görünür çətinlik çəkirdi. Amma sözünü dedi. – Sən cavan vaxtında oturub qalmayacaqsan ha. Güclü, qüdrətli bir adama getməyə razılıq versən, o səni də, övladlarını da buradan çıxarar, qanadı altına alar.

– Demək mənə elçiliyə gəlmisən, qardaş?

– Elçiliyə yox. Fikrini aramağa. Görüm nə deyirsən?

– Qüdrətli adam da yəqin ki, Əbih Sultandı, elə deyilmi?

– Hardan bildin? Əbih Sultan doğrudan qüdrətlidir. Ölkənin dirəklərindən biridir.

– O dirək qardaşının laxlamış səltənətini saxlasın da. – Aləmşahbəyim elə hirslənmişdi ki, qardaşı olmasa, o divardakı qılıncı onun köksünə sancardı. Amma özünü ələ almaq üçün bütün iradəsini cəm eləmişdi. “İndi də bu taxt həvəsinə düşüb. Ona görə qardaşını da yay kirişi ilə boğmağa, bacısını da kiminsə ağuşuna atmağa hazırdı”.

– Laxlayan dişin çəkilməkdən özgə əlacı yoxdur.

– Demək sən də qardaşının başını yemək istəyirsən.

Söz Məsih Mirzəni tutdu. Fikrə getdi. Səsinə bir az da mehribanlıq verib dedi:

– Başını yemək niyə? Qardaşımız bacısını, bacısının uşaqlarını həbsdə saxlamaqla özünü tamam nüfuzdan salıb. Sən gərək mənə kömək əlini uzadasan.

Aləmşahbəyim yarpaq kimi əsirdi.

– Məni Əbih Sultana ərə verməyin xam xəyaldı, qardaş. Mən öldürülmüş ərimin namusunu dünyanın ən böyük hökmdarına da dəyişmərəm. O ki qaldı mənim sənə köməyimə, mən özüm qolu bağlı dustağam. Həm də bacıyam. Bir qardaşa xeyir-dua verib başqa qardaşın üstünə göndərmək hansı bacının ürəyindən olar?

Məsih Mirzə onun bu sözlərini də sakitliklə qarşıladı.

– Ərə getmək təklifinə bundan başqa bir cavab gözləmirdim. Sağ ol! Halal olsun! Ancaq Şeyxin müridləri mənim tərəfimə keçməsə işlər yaxşı getməyəcək.

– Mən şeyx deyiləm. Neçə ildir ki, bu qəfəsdəyəm. Heç nədən xəbər-ətərim yoxdur. Dur, yoldan gəlib yorulmusan.

– Qayıtmalıyam. Məni gözləyirlər.

“İlahi, axı mən sənin yanında nə günah işlətmişəm? Niyə məni belə bəlalara düçar eləyirsən? O biri qardaş bu körpələri bura salıb ki, qurbanlıq qoyun kimi, böyüyüb əmələ gəldikcə başlarına bıçaq çəkə. Bu da onu yıxsa yenə də onların başını sığallamayacaq”. Sussa da müsibət müsibət üstündən gələcək.

Sultanəli qapının dalında dayanıb onların söhbətini dinləyirdi. Dayısının “qayıtmalıyam” kəlməsindən sonra qapını itələyib içəri girdi. Bayaq salam da verməmişdi.

– Axşamın xeyir, dayı-dedi.

– Bu hansı igiddi, – deyə bacısından soruşdu.

– Böyüyüdü, Sultanəlidi, – deyə narahatlıqla dilləndi. O, istəmirdi ki, onları yaxından tanısınlar. Xüsusən Sultanəlini. Boy-buxunda atasına çəkmişdi. Özü də gecə-gündüz oxuyur, özünü həyata hazırlayırdı.

www.kitabxana.net

– Yox, mən Sultanəli deyiləm. Mən Şeyx Sultanəliyəm. Atamın ölümündən sonra Şeyxlik mənə çatıb.

– Maşallah, maşallah. – Dayısı qalxıb onunla görüşdü. Sonra onun iti gözlərinə baxdı və bundan sonra onun əlindən öpdü. Şeyx idi, bütün müridlərin mürşidi bu uşaq sayılırdı. Demək Məsih Mirzə bacısı ilə yox, Sultanəli ilə danışmalıydı.

– Deyir on iki imama yalvarınca, bir Allaha yalvar.

– Dayı, dediklərinin hamısını eşitmişəm. Əgər bizi zindandan qurtarmaqla Şeyx Səfi nəslini öz əlində silaha çevirmək istəyirsinizsə mən buna qəti ziddəm. Niyə, ona görə ki, müsəlman hökmdarların hamısı peyğəmbərin adından danışıb və öz bildiyini eləyib. Şeyx Heydərin övladlarının qeyrətləri varsa özləri-özlərinə əncam çəkəcəklər. Yoxdursa, onda heç.

Aləmşahbəyim oğluna gözlərini ağartdı ki, dinməsin. Amma o öz sözlərini demişdi. Məsih Mirzə də bacısı oğlunun dediklərini eşitmişdi. Amma hələ də inana bilmirdi ki, bu sözləri uşaq dilindən eşidib.

– Bacıoğlu, sizin gücünüzdən istifadə eləyib ölkəni möhkəmləndirmək istəyirlərsə buna sevinmək lazımdır. Amma o nəslin kökünü kəsmək istəyənlər də var.

Ana oğlunun belə odlu-odlu danışdığını eşitməmişdi. Həmişə o, hücrənin bir küncünə çəkilib dəri cildli kitabları vərəqləyirdi. Oxuyurdu, yazırdı, oxuduqlarını yadında saxlamaq üçün vird eləyirdi. Qardaşı İbrahimlə də məşğul olur, onu oxutdurur, yazdırırdı.

İndi birdən-birə beləcə partladı, üsyan elədi. Ana həm sevinirdi ki, oğlu belə cəsarətlidir, ağıllıdır. Həm də qorxurdu ki, dayıları onu tanıdılar.

Hökmdar üçün iki baş mövcud idi. Birinci baş həmişə sinəsinə əyilməli, "bəli, bəçeşm" deməlidir. Əgər bu baş dikəlirsə, ağılla beyindəki fikirləri söyləyirsə, öz fikrini izhar eləyib qarşıdakı hökmdarla razılaşmırsa, onda həmin baş mütləq kəsilib atılmalıdır. Kəsik baş isə danışmır. Hökmdara belə "danışmayan" baş daha xoş gəlir. Çünki o daha təhlükəsiz, daha qorxusuz və zərərsiz idi. Sultanəlinin bu danışığı hökmranlıq eşqiylə alışıb yanan dayısının qəlbində o ağıllı başı təhlükəsiz eləmək e'tiqadı doğura bilərdi.

İsmayıl da gümüş xəncərini belinə bağlayıb gəlib qapıdan baxırdı. Sultanəlinin bir sözü həmişəlik onun ağlında qalmışdı. Gecə yarısı qalxıb başqa otağa keçmək istəyəndə də gərək geyinəsən, yarağını qurşayasan, çünki təhlükə həmişə başımızın üstündədir. O, qapıya yaxınlaşıb baxdı və bayaq gördüyü dayısı onun gözündə nağıllardakı divlərə oxşadı. Bu divin kürəyi görünürdü. Anasının sifətində isə dərin bir narahatlıq vardı.

Məsih Mirzə bir tikə uşağın kamilliyinə heyran qalmışdı. Başa düşmüşdü ki, bacısı onun ərə getmək təklifinə razı olsaydı belə, gedə bilməzdi. Deməli atalarının yerində adam var. "Tanrı, məsləhət özünündür. Mən dediklərim sənə naxoş gəlməsin, bu nəsil nadir bəyəm. Birinin başını vurursan, yerinə ondan da hündürə bir pöhrə qalxır ki, mən buradayam. Bəlkə də bunlara elə bir ruh vermisən ki, ölənin nə'şindən uçub getmir, bu dünyadakı övladlarından birinin bətninə qayıdır. Qardaşım Sultan Yaqub bunu başa düşməyib. Tanrı bu nəslin tərəfindədirsə, onları qırıb qurtarmaq olmaz. Elə mənim kimi onlara arxalanmaq lazımdır. Özləri də çox möhkəm və qorxmazdırlar. Neçə il daş divarlar arasında çürüyən bu uşağı da ələ almaq müşkül işdir".

Məsih Mirzə dedi:

– Ya Şeyx, bəyəndim səni, sevdim səni. Sənə biyət eləyib-inam gətirirəm. Məni də özünə mürid saya bilərsən.

Qardaşının bu sözlərindən sonra Aləmşahbəyim sevindi, ürəyində bir işıq yandı, günəş boyda oldu, o qəlbin bütün şübhələrini, qorxularını əritdi. Oğlunun ipək kimi yumşaq əlindən tutub qardaşının ovcuna basdı.

– Barış, dayınla. Mehriban danış.

Məsih Mirzə dedi:

– Bərəkallah sənin dərrakənə. Dayının indiki vəziri sənin yanında boş bir qabaqdır. Mən taxta çıxan gün bacım oğlunu sağ tərəfimdə oturdacam.

– Ağqoyunlu səltənətinin vəziri?

– Bəli.

Sultanəli hind buddasını xatırladan, dizinin kündəsi qalxan ortasına oxşayan dayısının yanında ayaqlarını çarpazlayıb oturdu.

– Dayı, bizim nəsildən vəzir çıxmaz.

– Nə üçün. Elə hazır vəzirsən.

– Çünki vəzir tülkü kimi bic, ürəyində “yox” fikirləşib dilində “bəli” deyən adamlardan olur. Bizim ürəyimizlə dilimiz bir olub. Bu isə heç bir hökmdarın xoşuna gəlmir. Onlar yalanı, yaltaqlığı daha çox xoşlayır. Yaltaqlanmasan, fikrini düz desən, onda gərək boynunu qılınc altına verəsən.

Məsih Mirzə tutuldu. “Sultan Yaqub düz fikirləşib. Bunlar vəzirlik yox, hökmdarlıq fikrindədirlər”.

– Mənim vəzirim də, hökmdar fikirli olmalıdır. Amma bir şey də var da, bacıoğlu. Şeyx Səfi nəslinin qəlbində sirr olur, indiyə qədər bir adama açmayıblar. Bəs ürəyindəki həmin sirr niyə dilinizə gəlmir?

– Hə, o ayrı məsələdir. – Sultanəlinin əlində bıçaqla yonub naxışladığı bir çubuq vardı. Həmin çubuğu ortadan qırdı, sonra dayısına göstərdi. – Bir şey yoxdu ki?

– Nə olmalıdı ki?

– Heç nə. Ağacdı da, elə deyilmi?

– Bəli, – deyə Məsih Mirzənin gözləri gəzdi, o təəccüblə baxırdı. Sultanəlinin mö’cüzə göstərəcəyini gözləyirdi.

Sultanəli ağacın bir tərəfini şamın oduna tutdu. Ağac alışdı, çırthaçırtla yanmağa başladı. Məsih Mirzə heç nə başa düşmədi.

– Yanır?

– Yanır.

– Niyə yanır? Biz baxanda bunun ki, içərisində alov yox idi. Amma oda verən kimi alışdı və öz-özünə yanmağa başladı. Demək alovla aşinalıq onun bətnində idi. Nə qədər alova tutmasan o batin idi və yanmayacaqdı.

– Batindəki həmişə alova çevrilir? – Məsih Mirzə sınayıcı nəzərlə Sultanəliyə baxdı.

– O baxır batinə, oradakı sirrin xasiyyətinə. Bizdən həmişə şübhələnirlər. Qorxurlar ki, hökmdar olmaq fikrindəyik. Sən də indi bu barədə düşünürdün. Amma onu bilmirlər ki, biz hökmdarıq. Öz batini fikrimizin hökmdarı. Biz əbədi bir yolun yolçusuyuq, beş günlük şahlıq səviyyəsinə enmərik. Ona görə bizim sövdamız baş tuta bilməz. Anam sizə “yox” cavabı verdi. Mən ondan bundan artıq cavab gözləmirdim. Öz qardaşının qanına qəltan olunmasına fitva verib sizinlə razılığa gəlsəydi, mən öz doğma anamdan ömürlük inciyərdim.

Sultanəli bu sözləri deyib ayağa qalxdı. Bu o demək idi ki, mən səninlə söhbəti qurtardım.

Məsih Mirzə də özünü itirib onunla bərabər qalxdı və yenidən oturmaq istədi. Amma gec idi, özünü itirdiyi də hamıya aydın olmuşdu. Bu körpə uşaqla ağıl mübarizəsində məğlub olmuşdu. O, yerişini də itirdi. O, buraya hökmdar olmaq fikri ilə ayaq basmışdı, sanki tacqoyma mərasiminə gəlir, cəvahiratla bəzənən tacı onun başına bacısı qoymalı idi, amma həmin tacı bacısı oğlu onun başına çırpmışdı.

Keçib qılıncını götürdü. Hücrədən çıxmaq üçün qapıya getdi. Amma qapıya çatmamış dayanıb geriyə döndü və bacısına baxdı.

– Bacı, seçdiyim yolda sənə, sənin qohumlarına arxalanmaq istədim. Görünür qismət deyilmiş. Nə olar, özümə bu qılıncla yol açaram. Buna gücüm çatar. Amma bundan sonra məndən inciməyin.

– Yenə də qılınc, yenə də qan. Ey tanrı, sən bu ana-bacıları niyə yaradırdın? Onların nə günahı vardı?!

O vaxtdan xeyli keçmişdi. Nə Sultan Yaqubdan, nə də Məsih Mirzədən bir xəbər çıxmamışdı. Günlər isə bir-birindən üzücü gəlib keçirdi. Səkinə Aləmşahbəyimin qızılı saçları arasında ağ tüklər görmüşdü. Özünə deməmişdi. Bir kisə xınası vardı. İsladıb gətirmişdi.

– Atam-anam, saçlarına xına qoyum? Aləmşahbəyim hirslənməzdi, özündən çıxmazdı. Heç vaxt Səkinənin üstünə səsini qaldırmamışdı. Ona yazığı gəlirdi. Onun xına söhbətindən sonra özünü saxlaya bilmədi. İçində ilan zəhəri rəngində xına olan üstü yazılı mis camı alıb divara

www.kitabxana.net

çırpdı. Qab daşa dəyib cingildədi, xına divara yayıldı. Qab isə divar dibi ilə diyirlənib qapının yanında dayandı. Səkinə quruyub qaldı. Nə pis iş görmüşdü ki, onu belə təhqir eləmişdilər? Amma nə səsini çıxartdı, nə incidi, nə də gözünü qaldırıb ona baxdı. Gedib qabı götürdü, əski gətirib divardakı xınanı təmizlədi. Aləmşahbəyim də bu müddətdə peşman oldu.

– Səkinə, mənə xına yaraşır?

Səkinə onun hirsinin səbəbini indi başa düşdü. Onun qabağında çökdü. Əllərindən öpdü.

– Keç günahımdan, atam-anam. Gözəl-göyçəksən, məleykə kimisən, istəmirəm bu gözəlliyinə bir xal düşsün.

Aləmşahbəyim gedib barmaqlığın qabağındakı güzgünü götürdü. Xırdaca, qızıl çərçivəli güzkü idi. Bunu əri rum tacirlərindan bir at qiymətinə almışdı. Əsil Venedikt güzgüsü idi. Güzgüdə onun zənəxdanı, soluxmuş ağ qızılgül ləçəklərinin biri-birinə söykənməyinə oxşayan dodaqları, düz və xırda burnu, badamı gözləri, nazik çatma qaşının üstündəki xal görünüb ötdü. Qızılı saçlarının ayrıcına çatanda güzgünü bir yerdə saxladı. Orada bir neçə tük ağarmışdı.

– Heydər qayıtdı, Səkinə.

– Nə dedin, atam-anam?

– Heydər qayıtdı deyirəm.

– Necə qayıtdı?

– Saçımın ağıyla qayıtdı gəldi Heydər.

## SULTANBUDDA TOY

Payızın son ayında Xudafərin körpüsündən keçən Sultan Yaqubun qəflə-qatırı Araz qırağı yolla Beyləqan tərəfə yol almışdı. Qabaqda Sultanın seçmə mühafizə dəstəsinin geyimli-kecimli, bığıburma süvariləri gedirdi. Aralıqda Sultan Yaqub günün altında bərq vura-vura atını yorğa yerişlə sürürdü. Onlardan arxada Venedikt zər parçaları ilə bəzənən kəcavədə Qarabağ gözəlini oturtmuşdular. Səlcuqəşahbəyim xatun da ayrı bir kəcavədə gedirdi O, oğlunu nə qədər eləsə də bu toy fikrindən yayındıra bilməmişdi. Müxtəlif bəhanələrlə illər boyu toyu saxlasa da Sultan Yaqub öz dediyinin üstündə dayanmışdı.

Arxada müxtəlif yüklər daşıyan qırx dəvə zınqırovlarını səsləndirə-səsləndirə gəlirdi.

Haramı düzünə elatlar yaylaqdan təzə qayıtmışdılar. Yağışlardan sonra bu geniş düzəndə ot cücərmiş, xırda ağ çiçəklər də açmışdı. Alaçıqların yanında körpə qumral quzular oynaşır, göz işlədikcə uzanan düzdə sürülər otlayırdı.

Toyun günü ölkənin bütün əyalətlərinə xəbər verilmişdi. Hər yerdə şənliklər düzəltmək üçün mə’murlar qapı-qapı gəzib şallaq gücünə muştuluq vergisi yığırdılar.

Toyun olacağı Sultanbudda Gürcüstandan, Şirvan mahalından, qonşu ölkələrin çoxundan qonaqlar də’vət edilmişdi. Şirvanşah Fərrux Yasarın gəlməyinə ümid az olsa da, hər halda oğlanlarından birini böyük hədiyyələrlə göndərəcəkdi.

Qafilə Beyləqan şəhərinin xərabələrinə az qalmış düzdə dayandı. Fərraşlar əvvəl Sultanın qızıl qübbəli çadırını qurdular.

Qarabağ gözəli kəcavədən düşən kimi öz doğma düzlərini gördü. Yetirib yerdən bir ovuc yovşan qopardı. Burnuna yaxınlaşdırdı:

– Oxxay, bütün müşk-ənbərlərdən bu gözəldir, – dedi.

Sultan Yaqub dayanıb heyranlıqla ona baxırdı:

– Ey gözəllər gözəli, sənin vətəninə gəlmişik. İndi özünü necə hiss eləyirsən?

– Çox gözəl, hökmdar. İndi bir at verələr, yatam yalına, düşəm ceyranların dalınca, onda görərsiniz analar necə qızlar doğub.

– Ceyran? O ceyranın neçəsini desən mən ovlayıb gətirərəm. O, vəzirinə göstəriş verdi. Ova çıxacağını dedi. Bir anda onun atını, kəməndini, oxunu, silah və əbləsələrini hazır elədilər.

Sultan Yaqub sıçrayıb atın yəhərinə qalxmağı ilə götürülməyi bir oldu. Vəziri, əmirsipəhsaları da yanında idi. Süleyman Bicanoğlu da özünü xəstəliyə vurub gəlməmişdi. Yoxsa o da ovda iştirak eləyərdi.

Ceyranı çox gözləməli olmadılar. Təpəni aşan kimi bir sürü ceyran at ayaqlarının səsinə sıçrayıb qalxdı. Sultan Yaqub atını onların üstünə sürdü. Sürü dağıldı. O, bir ceyranın dalınca atını səyirtdi. Qaç-qov başladı. Onun əyanları xeyli arxada qalmışdılar. Sultan Yaqubun altındakı atın burun pərələri irilmişdi. O, atası Uzun Həsənin atının balalarından idi. Yorğa yerişli, qaçışda misilsiz, döyüşdə çevik və dözümlü idi. O, ceyrana çox yaxınlaşmışdı. Artıq kəməndini də hazırlamışdı. Bir az da yaxınlaşsa kəmənd gözləri irilmiş ceyrana çatacaqdı. Bir az da yaxınlaşdı. Dırnaqları parıldayan nazik ayaqlı, gözəl ceyran bayaq iri sıçrayışlarla tullanırdısa, artıq gücdən düşmüşdü. O, kəməndi əlində dəstələyib tullamaq istəyirdi ki, ilxının qabağı açıldı. Sultan Yaqubun atı ayaq saxladı. Ceyran uzaqlaşdı, ilxı onunla şikarının arasından keçirdi. Sultanın qanı sifətinə vurdu. Bu vaxt ə'yan-əşrəf də yaxınlaşdı. İlxı keçib gedəndən sonra arıq bir yabını çılpaq minən ilxıçını Sultan Yaqub yanına çağırdı.

– Mənim şikarımı niyə korladın?

İlxıçı paltarlarından, hökmlü danışmaqlarından böyük adamlar olduğunu görüb yabıdan aşırılıb düşdü.

– Ağa, bu dünyada şikarı korlamayan bir adam tapsan, bu yabını muştuluq verərəm, – dedi.

– Bu zırramanın cəzasını verin.

– Cəza nədi, ay başına dönüm. Mən nə biləydim sən burada ov eləyirsən, ilxını o tərəfdən sürəydim. Ovcumu iyləmişdim ki?!

Fərraşlar onu götürüb üz üstə yerə atdılar. Kişi isə qışqırdı.

– İlxı gedib itər, sonra Şükür bəyin əlindən qurtara bilməzsiniz ha. Mən cəhənnəm, özünüzə yazığınız gəlsin. Sultan Yaqub güldü.

– Şükür bəy belə zəhmli, zərli-zorlu adamdı?

İlxıçı qalxıb oturdu.

– Onun var-dövləti məndə olsa, elə mən də zərli-zorlu olaram da.

– Var-dövlətdən nəyi var?

– Sən soruş ki, nəyi yoxdu. Bir ilxısı budu, beş sürü qoyundu, nə qədər malı, çobanlarının elə mən bilən əlli iti var. Ay başına dönüm, de məni buraxsınlar, ilxı itər, Şükür bəy mənim dərimə saman təpər. Onda gərək mən də sizi axtarıb tapam heyfimi çıxam.

– Fərraş, buna əlli çubuq.

Fərraşlar onun bez köynəyini cırıb əynindən çıxartdılar. Biri ayaqlarının üstündə oturdu, ikisi qamçılarını qaldırıb onun kürəyini şallaqlamağa başladılar.

Vəzir Zəkəriyyə Keçəçi atını Sultan Yaqubun yanına sürdü. Pıçıltı ilə dedi:

– Sultani-əzəm, biz toya gəlmişik. Bu kişini döydürməyin xəbəri Qarabağa yayılsa yaxşı düşməyəcək.

Bu fikir onun da ağlına batdı. Şallaq dəydikcə, kişi qışqırır, deyirdi:

– Üstümü unlu görüb adımı dəyirmançı qoymusunuz. Vallah, elə adamlarım var ki, üstlərinə şikayətə getsəm, hamınızı zəncirə vurdurar. Vəzir işarə verdi, fərraşlar əl saxladılar.

– Kimdi, a kişi sənin adamların? Yə'ni burdakılardan da böyükdü?

Kişi kinayə ilə güldü.

– Buradakılara bax ey. Mənim adamlarım Təbrizdədi, lap o "səkkiz behişt" sarayında.

– Kimdi saraydakı qohumun? Qapıçıdı, qulamdı, aşbazdı, mehtərdi, nədi?

Kişi qalxdı, ayaqlarını fərraşın ayaqları altından çıxartdı. Onun üstünə çəmkirdi də.

– Üstümdə elə oturmusan ki, elə bil nənən salan döşəkdi. – Yenə üzünü vəzirə tutdu.

Mənim özümə baxmayın. Mən qulama, qapıçıya adam deməрəm. Sarayda bir kişi var, o da sultandı, padşahdı.

Sultan Yaqubun rəngi ağardı.

– Padşahı görmüsən? – deyə ondan soruşdu.

– Bəlkə də. Ancaq yadımda deyil. Mən Uzun Həsən Cənnət məkanı görmüşəm.

– Harda?

www.kitabxana.net

– Harda, harda. Yoldaşım, dostum, tayım-tuşum deyildi ha. Malatyada, osmanlılarnan vuruşmada. Uğurlu Məhəmməd də yadımdadı.

– Sən vuruşmusan da?

O, köynəyinin cındırlarını dartıb əynindən çıxardı. Sağ döşündə dərin çapıq yeri vardı.

– Bu da mənim şahidim. – O fərraşın üstünə qışqırdı.

– Görmürsən kişilərlə söhbət eləyirəm, o ilxı dağıldı. Qaç onları bəri qaytar. – Fərraş nə edəcəyini bilmədi. O yenə də vəzirə döndü. – Belə.

– Yaxşı, sən demədin ki, sənin qohumun sarayda kimdi?

– Sultan Yaqub.

– Necə?

– Bəli. İnanmazsınız.

– Necə qohumundu?

– Necə,necə. Sultanın qayınatasıyam.

Onların hamısı bir-birinin üzünə baxdılar. Sultan Yaqub atdan düşdü. Yer yarılsa o yerə girərdi. İndi bu ilxıçı kişidən üzürmü istəməliydi? Bilmirdi nə eləsin.

– Adın nədi?

– Cahangir.

– Cahangir bəy.

Kişini gülmək tutdu.

– Başına dönüm, məni ələ salmayın. Görürəm ki, alicənab adamlarsınız. Günah məndə oldu ki, sənin şikarını əlindən çıxartdım. Əvəzində də mənə bir-iki şallaq vurdular. Hər şey qurtardı getdi. Daha məni ələ niyə salırsan? Mən hara, bəy hara. İlxıçı babayam, o ilxıdan bir çöpüklü qulun itsə, gərək alaçığımı, palımı-paltarımı da satıb verəm. Amma yalan da demirəm, Sultan Yaqub mənim kürəkənimdi. Ancaq qapıma elçi göndərməyib, toy eləyib qızımı aparmayıb. Anasının xoşuna gəlib qız, götürüb aparıb. Bundan sonra yüz il yaşasam da nə mən qızımı görə bilərəm, nə də o məni. Kasıb kasıbdısa gərək arvadı da, qızı da kifir olsun, heç kimin də gözü düşməsin. Yoxsa bax beləcə götürüb gedirlər, qalırsan başına döyə-döyə. Bəynən bostan əkən kasıbın çiynində bitər o bostanın tağı.

– Mən düz deyirəm. Sən Cahangir bəysən, özün də ilxıçı deyil, əmiraxursan. Vəzir, Cahangir bəyin vəzifəsini ona başa salarsan. Cahangir bəyin libasını gətirin.

Cahankir kişi elə bil ayıldı.

– Ay başına dönüm, axı sən kimsən?

– Mən Ağqoyunlu hökmdarı Sultan Yaqub.

Cahangir kişi onun ayaqlarına düşdü.

– Başına dönüm, artıq-əskik danışmışam, keç günahımdan.

– Qalx ayağa. Hər şey keçib getdi. Gəlmişəm Sultanbudda sənin qızına elə toy çaldıram ki, səsi bütün ölkələrə düşsün.

Cahangir əllərini göyə qaldırdı. Allahına dua elədi. Amma birdən yadına nə düşdüsə dönüb ilxıya baxdı. İlxı uzaqlaşırdı, O, əlini dodaqlarına qoyub fit çaldı. Ayğır fiti eşidəndə ilxını döndərib onlara tərəf gətirdi. Sonra Sultan Yaqubun narazı baxışını görüb dedi:

– Başına dönüm, Şükür bəy pis adamdı. İlxısı itsə harda olsam, məndə heyif qoymaz.

– Şükür bəy oldu sənin kiçiyin. İstəyirsən elə eləyim, o gəlib sənin üzəngini tutan olsun. Başına nə oyun istə– yirsən gətir, bütün heyflərini ondan çıx.

Bir azdan fərraşlar libas gətirdilər. Cahangir kişini çəkib apardılar, kolların arxasında geydirib gətirdilər. Bayaqkı ilxıçı Cahangirdən əsər-əlamət qalmamışdı.

Onlar ceyran ovlamamış düşərgəyə qayıtdılar. Vəzir onu qızı olan ağ, qızıl qübbəli çadıra apardı. Bu həmin çadır idi ki, onun içində Əbu Səid Sara xatunla Şeyx Heydəri qəbul eləmişdi. Sonradan qənimət almışdılar. Cahangir kişi elə bil yuxu görürdü. Çadıra girəndə mavi paltarlı bir gözəl gördü. Geyimdən yox, gözlərindən tanıdı qızını.

– Ay mənim itkin balam.

– Dədə...

Ata-bala qucaqlaşdı. Neçə ilin həsrətliləri biri-birilərinə qovuşdular. Qız atasının əllərini öpürdü, o kobud əllər göz yaşlarından islanmışdı.

– Anam necədi?

– Yaxşıdı, qurbanın olum. Çox şükür, çox şükür, bizim də baxtımız varmış.

– Sən də şükür eləyirsən, dədə? Səni də yola gətirdilər.

– Sus. Eşidəllər, yaxşı düşməz.

– Eşitsinlər də. Comərd necədi?

– Kəs. Bunun Comərdinə bax. İtin başını qoydular xonçaya diyirlənib düşdü. Sən o boyda hökmdarın arvadı olacaqsan. Sənə belə təmtəraqla toy çaldırır, sən də atdan yıxılıb hüt-hütünü əldən qoymursan.

– Neynirəm ey o qızıl teşti, içinə qan qusam. Ömrümün axırına kimi nə səni görəcəm, nə anamı, nə də qardaş-bacılarımı.

Cahankir kişi əllərini qızıl işləməli, qan rəngli libasına çəkdi.

– Mən də sənin yanında olacam. İndi mən Cahangir bəyəm. Qoşunun əmiraxuru. Bütün at axurlarının böyüyü. Təbriz yanında da beş para kəndimiz olacaq.

Səlcuqəşahbəyim onların söhbətinə çadırın arxasından qulaq asırdı.

Comərd adını eşidəndə alt dodağının üstündəki xalı dişlərinin arasına alıb gəmirməyə başladı. “Yaxşı. Demək bu ilxıçı qızını hökmdara təslim olmağa qoymayan Comərddi. Mən onun tədbirini tökərəm”.

Sultanbudda toy mərasimi başlamışdı. O qədər qoyun kəsilmişdi ki, arxla bir qan axırdı. O qədər adam yığılmışdı ki, nə mağarlar tuturdu, nə düzənlik. Dikdirdə köşk düzəltmişdilər. Qarabağ gözəli də həmin köşkdə oturmuşdu. Pərdəni qaldırıb nəmli gözlərini adamların arasına zilləmişdi. O, Comərdi axtarırdı. Çoban Comərdi, elatda cavanların hamısının kürəyini yerə vuran, cıdırda hamıdan əvvəl gələn Comərdi. Aşağıda, məclisin başında Sultan Yaqub taxtında əyləşmişdi. Toy təbriklərini və hədiyyələri qəbul eləyirdi.

Gürcü knyazı hökmdarın qarşısında dayanıb deyirdi.

– Ey Sultani-əzəm, gürcü xalqı sənin toyuna mübarək deyir. Səni həmişə toy içində görmək arzusundadır. O, sandıqdakı qiymətli əşyalardan başqa sultanıma qulluq eləmək üçün qırx kəniz gətirmişəm.

Sultan Yaqub başını tərpədib öz razılığını bildirdi.

Knyaz sözünə davam elədi.

– İcazə versəniz toyu gürcü adəti ilə təbrik eləyərdim.

– Buyurun, ixtiyar sizindi. Toyda olar.

O dönüb öz adamlarına işarə elədi. İri bir buynuz gətirdilər.

– Sultani-əzəm, bu buynuz ki, var, onu Qarabağ bəyi göndərib. Camış buynuzudu. Dünyada bu buynuzdan böyük buynuz ola bilməz. Bu Qarabağ buynuzu bütün qədəhlərdən çox çaxır tutur, sənin sağlığına içirəm.

– İç, Dmitre, iç.

– Qatso, doldurun. – Gürcülərdən biri tuluğu açıb az qala yarısını buynuza boşaltdı. Knyaz onu yavaş-yavaş içdi, axırıncı qurtumda güclə nəfəs alıb buynuzu öz adamlarına tərəf tulladı.

– Gördün, içdim.

– Sağ ol.

O, artıq yerişini itirmişdi. Gürcü aznaurları onun qolundan tutub götürüb öz çadırlarına apardılar.

Şirvanşah Fərrux Yasar toya gəlməmişdi. Bacısının əri təzədən evlənirdi, onu da toya çağırmışdı. Oğlunu toy hədiyyələri ilə yola salmışdı.

Şirvan şahzadəsi Qazı bəy gəldi. Sultan Yaquba baş əyib dedi:

– Şirvanşah qocalıb, xəstədi. Toya gələ bilmədiyi üçün üzrxahlığını çatdırdı. Hədiyyələr vəzirə təhvil verilmişdir.

Sultan Yaqub gördü ki, onun bu evlənməyi Fərrux Yasarın ürəyindən deyil və bunu açıq-aşkar bildirir. O toya qanqaralıq gətirməmək üçün üstünü vurmadı. Bircə söz atdı:

– O qocadı, belə şeylərin ləzzətini yəqin ki, yaddan çıxarıb.

Şirvan şahzadəsi başını aşağı salıb çəkildi.

Sultan Yaqubun daha nümayəndələri qəbul eləmək həvəsi qalmadı. Bunu başqa vaxta saxladı.

– Qoy cıdır başlasın.

Cıdırı Səlcuqəşahbəyim xatun öz istədiyi kimi təşkil eləmişdi. Birinci də cıdıra Qarabağ gözəlinin tayfasındakı cavanlar çıxmalı idi. Bu həm onlara hörmət əlaməti idi, həm də Səlcuqəşahbəyim xatun adını eşitdiyi Comərdi görmək istəyirdi. Əgər Comərdlə qızın məhəbbətindən hamı xəbərdardırsa cıdırda hamı onu irəli buraxacaqdı. Bu cıdırın qalibinə hökmdarın özü xələt verəcəkdi. Bundan əlavə də Səlcuqəşahbəyim iki cam şərbət hazırlamışdı. Biri qızıl camda, biri də saxsı kasada. Saxsı kasadakı şərbəti Sultan Yaqub Comərdə verməli, özü qızıl kasada içməli idi. O, hər şeyi ölçüb biçmişdi. Comərd şərbəti içən kimi onu başları üstündə xüsusi ayrılmış çadıra aparacaq, orada zəhər öz işini görəcəkdi. Həmin kasanın içinə zəhəri Səlcuqəşahbəyim Sara xatunun ona verdiyi üzüyün qaşından tökmüşdü.

Cıdıra çıxan atlılar toy məclisindən xeyli aralıda düzülmüşdü. Comərd də onların arasında, xına rəngli köhlənində gəlmişdi. Nə toya gəlmək istəyirdi, nə də cıdıra çıxmaq. Onu Cahangir kişi razı salmışdı.

– Səni də özümlə Təbrizə aparacağam. Mən bu gün varam, sabah yox. Mənnən sonra keçərsən o vəzifəyə, bir də gördün ki, gəldin oldun bir mahalın bəyi. Nə vaxta kimi qoyun otaracaqsan? Sənsiz mən orada nə eləyə bilərəm.

Comərd fikirləşmişdi ki, heç olmasa uzaqdan qızın kəcavəsini görər. Gəlmişdi. Zurnaçılar çalmağa başlayanda atlar oynağa getdi. Cıdırın başlanğıcına işarə verdilər. Otuza qədər atlı irəli şığıdı. Bir azdan xına rəngli at hamını ötüb irəli çıxdı. Cıdır meydanının hər iki tərəfində dayanan adamlar qışqırırdı.

– Sağ ol!

– Comərd!

– Ədə, qoyma çatdı.

Qarabağ gözəli pərdəni aralayıb baxır, amma yaşın arasından heç nə seçə bilmirdi. Atlılar, bir də göyə qalxan tozdan başqa heç nə görmürdü. O, Comərdin gözlərini görmək, nəfəsini duymaq istəyirdi. Atlar yaxınlaşanda o Comərdi tanıdı. Qışqırmaq, onu cuşə gətirmək istəyirdi. Səsi çıxmadı, dişləri bir-birinə dəyirdi.

Cıdırı Comərd uddu. Fərraşlar onun atının cilovunu əlindən aldılar. Hökmdara yaxınlaşmağı tapşırdılar. O, yavaş, ağır addımlarla gəlirdi. O, hökmdara tərəf düşmən kimi gedirdi, onu nə döyərdi, çomaqla nə əzişdirərdi. Neyləsin, eləyər, özü o yana, bütün nəslini qılıncdan keçirərlər. Ta ki, Apağ sağ, xoşbəxt olsun. Tale, qismət beləymiş. O taxtın yanına çatıb dayandı. Fərraşlar ona dedilər ki, baş əysin. O, yüngülcə baş da əydi. Sultan Yaqub ayağa qalxdı. Əmr elədi ki, onun çiyninə bahalı xələt salsınlar. Sonra da yanına çağırdı. Görünməmiş bir mərasim başladı. Hökmdar cıdırı udan çobanla şərbət içmək istəyirdi. Yalnız Apağın xətrinə. O, piyalələrə baxdı. Qızıl piyaləni Comərdə uzatdı.

– Qızıl piyalədən şərbət içibsənmi?

– Yox, içməmişəm.

– İç, ləzzətini gör.

Özü isə saxsı piyaləni götürdü. Bir qurtum içmişdi ki, Səlcuqəşahbəyim xatun qıyya çəkdi.

– Onu yox, onu yox. İçmə!

Sultan Yaqub dayandı. Dizləri taqətdən düşən Səlcuqəşahbəyim xatun güclə özünü yetirdi, piyaləni oğlunun əlindən aldı.

– İçdin?

– İki qurtum.

– Evim yıxıldı, – deyib qalan şərbəti öz başına çəkdi. Toy əhli biri-birinə dəydi.

Təbrizdən Apağı Sultanbuda gətirən Kəcavədə Sultan Yaqubun meyitini aparırdılar. Kəcavə Beyləqan xərabələrini keçəndə alaçıqlardan yuxarıdakı dikdə dayanan Cahangir kişi elat qızları kimi geyinən Apağa qəfilə-qatırı göstərib dedi:

– Qızım, adamın bəxti necə bağlanırmış ey!

– Kimin bəxti, bizim, yoxsa Sultan Yaqubun?

Hamı yatmışdı. Aləmşahbəyim oğlu İsmayılı bağrına basıb uzansa da axşamdan bəri gözlərinə yuxu getməmişdi. Dar, ensiz pəncərədən Savalanın üstündə bir ulduz görünürdü. Elə parlaq, elə işıqlı ulduz idi ki.

Qapı döyüldü.

“Kim olar? Niyə gəliblər? Bu gecə vaxtı nə istəyirlər? Yoxsa yenə Məsih Mirzədir? Yox, o qapını ürəklə döyərdi. Bu kimdisə, aciz adama oxşayır.” O döşəyin altından ərinin bir yerə gedəndə ona verdiyi xəncəri götürdü. Səkinə də qalxıb oturdu, qorxa-qorxa baxdı. Heç kim dinməyə ürək eləmirdi. Qapı bir daha döyüləndə Sultanəli də qalxdı, O da xəncərini götürdü, qapıya tərəf gedəndə Aləmşahbəyim özünü ona çatdırdı, əlinin hərəkəti ilə kənara itələdi. O, heç vaxt oğlanlarına qapını açmağa icazə vermirdi. Qapı bu dəfə taqqıldayanda soruşdu:

– Kimdi?

– Xacə Bədrəddindir.

– Gecənin bu aləmi nə istəyirsən?

– Vacib söz var, çapar gəlmişdi.

– Səkinə.

– Burdayam.

– Qoy geyinim, aç görək bu qoca nə deyir. – O geyindi, başına örpək atdı.

– Hə, aç.

Qapını açanda qocanın əlində tutduğu tunc çırağın titrəyən alovunun işığı onların üzünə düşdü. Qocanın da sarı saqqalı, kağız kimi nazik dərisi, göy gözləri işıqlanmışdı.

– Nədi, nə olub?

– Xanım, bu fağır qocanı içəri buraxın.

– Söhbət uzundu?

– Bəli.

– Sabaha saxlaya bilməzdiniz?

– Olmaz, tapşırıq belədi.

Onun qabağını kəsən yox idi. Keçib içəridə, qapının ağzında çöməldi. Çırağı yerə qoydu. İşıq onun kölgəsini hücrənin səqfinə qədər uzatdı.

Qoca da qonşu hücrədə idi. Onlara kömək üçün göndərmişdilər. Amma bu xacənin köməyinə heç kəsin ehtiyacı yox idi. Özü ilə çoxlu kitab gətirmişdi. Əbdülsalam əl Qəzvinin yüz il qabaq üzü köçürülmüş Qur’anın üç yüz cildlik təfsirini oxumaqla məşğul idi. Kitabı rəhilə qoyub avazla oxuyur, səsi hücrənin səqfinə dəyib yayılırdı. Səkinə onun səsini eşidəndə deyirdi:

– Bayquş ulayır.

Bu qocanın da öz uğursuz taleyi vardı. Uşaq vaxtı yadında qalmışdı ki, onun ətrafındakılar ayrı dildə danışırdılar. Anasının göy gözləri, qızılı saçları yadına düşürdü. Bir də meyvəsiz meşələr, üstü küləş evlər gözləri qabağına gəlirdi. Bir dəfə bir ordu gəldi, süvarilərin yanar məş’əlləri vardı. Məş’əlləri onların komalarının damına tutur, evlər od alıb yanırdı. Onu isə götürüb apardılar. Uzun bir yol keçdilər. Görmədiyi yerlər gördü, eşitmədiyi dillər eşitdi! Bazarda satdılar. Onu alan adam uca hasarlı bir həyətə gətirdi. Ömrünün ən ağrılı, acılı günləri orada oldu.

Cəlladmı gəldi onun üstünə? Yox, cəllad qırmızı geyinir. O isə ağ paltar geymişdi. Əlində də qılınc yox, iti, parlaq ülgüc vardı. Onun ayaqlarını zəncirləmi, kəndirləmi bağlayıb yanlara çəkdilər. Qollarını da iki adam tutdu. Ağ adamı görəndə gözləri qabağında kəndlərindəki ağ qüllə gəlib dayandı. Həmin adam kobud barmaqlarını onun ayaqları arasına soxdu və ülgüc çəkdi. Ağ qüllədəki zənglər çalındı. O səs qulaqlarından uzun müddət getmədi. Ayılanda ağrıdan çox susuzluqdan əziyyət çəkirdi. Başının üstündə anasının göy gözlərini axtardı, görmədi. Sifətində onun qızılı saçlarının gəzməyini istədi. Eh, bunların heç biri yoxmuş.

O vaxtdan altmış ilə yaxın bir vaxt keçirdi. Amma o zəng səsi indi də hərdənbir qulaqlarında eşidilirdi.

Sağalandan sonra onu beli qurşaqlı, qırmızı saqqallı kişi bazara apardı. Bazarda şirniyyat satırdılar, qızıl bər-bəzək, xalçalar, atlar, qılınc-qalxanlar, küplər satırdılar. Onun ürəyi şirni

istəyirdi. Dilini bilmədiyi adama başa saldı, amma əvəzində sillə yedi. Sonra bir nəfər gəlib küp aldı. Sonra qurşaqlı adamla da danışdı. Kisəsindən pul sayıb verdi. Onu da aldı. O küpü də qucağına alıb apardı. Onu küplə bir :yerdə almışdılar. Sonra da başına min cür oyun gəlmişdi.

– Hə, nə olub?

– Deməyə dilim gəlmir.

– Sənin, – deyə Səkinə onu sancdı. – Hərəmxanalarda o qədər laqqırtı vurmusan ki, Molla Nəsrəddinin arvadından da naqqal olmusan. Sən çinədanını boşaltmasan, arxayın olmazsan.

– Hərəmxanada arvad olasan, xacə olmayasan. Kim istəyər qara günlərə qalsın.

– Çapardan danış. Nə vaxt gəlmişdi? Nə xəbər gətirmişdi?

– Bu gün gəlmişdi.

Yenə də susdu.

Sultanəli onun üstünə təpindi.

– Qoca, bu qadınları ələmi salmısan? Əgər qanın artıqlıq eləyirsə, adam göndər zəli gətirsinlər. Yoxsa Şeyx Səfi nəslinin qılıncı müqəddəsdir, hər həşəratın qanına bulanmaz.

Onun da bu qocadan zəhləsi gedirdi. Fikirləşirdi ki, onların söhbətlərinə qulaq asıb xəbər vermək üçün burada saxlayırlar.

Qoca əllərini yerə basıb Sultanəlinin qarşısında başını yerə əydi, alnını xalçaya toxundurmaq istədi. Sultanəlinin cingiltili səsi eşidildi.

– Qalx və sözünü de.

O qalxdı, dodaqaltı dua oxudu.

– Allah min rəhmət eləsin.

– Ürəyimizi üzmə, rəhmətə gedən kimdi?

– Sultan Yaqub ömrünü sizə bağışlayıb. Özü də düz bir il qabaq. Və toy əhvalatını olduğu kimi danışdı.

– İndi onun yerinə kim keçib?

– Müharibədə Məsih Mirzəni öldürən Sultan Yaqub oğlu Baysunqur.

– Allah, Allah, atamdan sonra üstümüzə gör necə bədbəxtlik birdən yağır. İki qardaş birdən getdi. – Aləmşahbəyim Səkinəni qucaqlayıb ağladı. Səkinə də ona qoşuldu.

Sultanəli ciddi bir ahənglə anasına dedi:

– Niyə ağlayırsan, kimə yas saxlayırsan?

Aləmşahbəyim bu dəfə oğlunu qucaqladı.

– Qorxuram, oğlum, qorxuram.

## UNUDULMAYAN AND

Meşələr saralırdı. Cır armud ağacları lalə kimi qızarmışdı. Həmərsinlər, zoğallar çılpaq ağaclardan mərcan dənələri kimi sallanıb qalmışdı. Suyu azalmış dağ çayı ilə xəzəl axırdı. Durğun yerlərdə xəzəllər suyun üzündə üst-üstə qalanmışdı. Havalar yaxşı keçdiyindən köçməyə tələsməyən quşların səsi meşəni başına götürmüşdü. Bu səsləri çayın yatağından sivri qalxan qaya daha da artırırdı. Qayanın sağ tərəfində itən yol aşağıda ağarırdı. Qayanın başında isə qalanın divarları bozarırdı.

Bu ağaran yol enib çayın üstündəki qırmızı kərpicdən hörülən iki tağlı körpünün yanında karvan yoluna qovuşurdu. Yollar qovuşan yerdə çaylar da qovuşurdu. Qala tərəfdən axan çay ensiz olsa da, gur idi. Büllur kimi şəffaf suyun yatağı qayanın davamı olan daş suvağı idi. Orada-burada sudan daş-qaya parçaları çıxmışdı.

Karvan yolunun üstündə, sağ tərəfdə xaraba dəyirman görünürdü. Yuxarıdan başlanıb gələn arx dəyirmanın çürüyüb tökülmüş novunda qurtarırdı. Bəlkə də bu dəyirman yüz il idi ki, un iyinə həsrət qalmışdı. Dəyirmanın yanındakı başqa bir tikilinin xarabalığında həmərsin, böyürtkən kolları bitmişdi. Böyürtkən salxımları qaralmış, çoxusu qurumuşdu. Qalaya qalxan yol bu xaraba binanın sağ tərəfindən keçirdi.

Karvan yolunun üstündə bir torba zoğal qoymuşdular. Torbanın ağzını səliqə ilə qatlamış, zoğalı təpə kimi qalamışdılar. Sanki xırdavatçı onu Ərdəbil bazarında açıb müştəri gözləyirdi.

Bu bir torba zoğal olmasa, bir də o qala görünməsə, elə bilmək olardı ki, bu yerlər quş və vəhşi heyvandan başqa heç nə görməyib, təbiətin bakirəliyini pozacaq heç nə yoxdur. Dəyirman, xaraba bina və körpü o qədər köhnəlmişdi ki, elə təbiətin özünə qarışmışdı.

Hardasa kollar şaqqıldadı, xəzəllər töküldü, paltarını indicə soyunan budaqlar arasında daha gözəl şaxəli budaqlar göründü. Maral buynuzları idi bu şaxələr. Cavan bir maral açıqlığa çıxdı, ot basmış karvan yolunu keçdi, çayın sahilində başını çevirib ətrafa baxdı və əyilib su içəndə hürküb başını qaldırdı. Onu hürküdən balıqlar quyruqlarını çalaraq çay yuxarı üzüb getdilər. Maral təhlükənin sovuşduğunu yəqinləşdirəndən sonra zərif dodaqlarını suya salıb içməyə başladı. Amma axıra qədər içə bilmədi. Diksinib yıxıldı, dal ayaqları üstünə çökdü, sonra bu ayaqlar onu irəli tulladı. Nal səsini eşitmişdi.

Bir azdan yolda şiş uclu polad dəbilqə parıldadı. Atın yanında uzun qılınc atılıb düşdü. Atlının polad qolçaqları işıldadı. Əynində dəmirdən toxunmuş köynək vardı.

Nal səsinə xaraba dəyirmandan cındırından cin hürkən bir məxluq çıxdı. Başı pırtlaşıq, ayaqları yalın, paltarı yamaqdan ibarət bu məxluq qaçıb zoğal torbasının yanında dayandı, üzünü atlıya tərəf tutub min bir oyun çıxarmağa başladı. At hürkdü, atlı bunu gözləmirdi. Özünü yığışdırana qədər gec oldu, yəhər çevrildi, o yerə gəldi, ayağının biri üzəngidən çıxmadı, atın dalınca süründü, qılıncı daşlara dəyib cingildədi, dəbilqəsi daşlara dəydi, diyirlənib çaya düşdü.

Cır-cındırlı məxluq özünü yetirdi, atın üzəngisini əlinə keçirmək istədi, amma heyvan daha da hürkdü və götürüldü. Atlının ayağı üzəngidən qopdu, o zərblə yuxarıdan atılan çul kimi yerə sərildi. At da maral gedən səmtə qaçdı.

Məxluq yetirib atlını qaldırmağa çalışdı. O, zarıyırdı. Qoltuqlarının altından yapışıb sürüyüb onu xaraba dəyirmana apardı. Dəyirmanın qurd yeyib deşik-deşik elədiyi palıd qapısı paslanıb yeyilmiş dəmirlərindən daha pis gündə idi. Qapını açıb atlını da ora sürüdü.

– Lələ, Lələ...

Unluğun dibindəki çürük taxtalar qalxdı. Oradan bir gözəl sima göründü. Bu Hüseyn Lələ bəyin sifəti idi.

– Salman, nədi bala, öldürmüsən?

– Yox, ay Lələ. Mən hələ heç toyuq da öldürməmişəm. Vəfalı dostu bunu bu günə saldı.

– Axtar ciblərini.

Salman zarıyan adamın ciblərini axtarmağa başladı. Ancaq qılıncı yaman mane olurdu. Əvvəl kəmərini açdı, qılıncı bir tərəfə qoyub, cibindən cingildəyən kisəsini tapıb çıxartdı. Qırmızı kisənin büzməsini açdı. Əlini salıb xeyli qurdalandı, axırda kisədəki pulları yerə tökdü. Kisəni də çevirdi.

– Heç nə yoxdur.

– Görürəm, – Hüseyn Lələ bəy arxayın olmaq üçün kisəyə özü də baxdı. Kisə təkqat parçadan tikilmişdi.

– Qoynunu-qoltuğunu gəz.

Axtardılar. Amma istədiklərini tapa bilmədilər. Hüseyn Lələ bəy əyilib qulağını onun sinəsinə qoydu.

– Ölənin nəfəsini güzgüylə öyrənirlər.

– Bu güzgüyə layiq deyil.

Bunu deyib Lələ cibindən xırda qızıl bir kuzəcik çıxartdı, ağzını açdı, onun lopa bığlarını aralayıb burnuna tutdu.

– Bığı bir putdu, ürəyi bir misqal.

Mayenin iyi dəyən kimi onun bədəni çimçəşdi. Üz-gözünü büzüşdürdü. İri gözlərini açdı. İlk gördüyü qabağına çıxıb atını hürküdən Salman oldu.

– Atasından xəbərsiz ləvənd. İndi sənin başını bədənindən ayırım gör ləzzətini. Əlini belinə atdı, amma əlinə qılınc əvəzinə dəyirmanda bitən gicitkan kolu keçdi. Əlini daladı. – Bismillah, deyəsən cin yığıncağına düşmüşəm.

Salman baş barmaqlarını qulaqlarına qoyub, əllərini oynatdı. Özü də atılıb düşdü.

– Ya Zəlixə, ya Məlixə.

Yekəbığın huşu yenə getdi. Lələ bəy Salmana tərəf döndü.

– Oyunbazlıq yeri deyil. Sən çıx yola, mən onu danışdıracağam.

Yenə də kuzəciyi onun burnuna tutdu. Bu dəfə o gözünü açanda başının üstündə gözəl bir sima gördü. Bığının yarısı enində olan qaşlarının altından biri-birinin üstünə minən kirpiklərini qırpdı. Dili topuq vura-vura soruşdu:

– Sən cinsən, ya Ələddinsən?

– Ələddinəm.

– Məndən nə istəyirsən?

Lələ təmkinlə dilləndi:

– İstədiyimi deməsən cin gələcək ha.

– Gəlməsin, gəlməsin, deyərəm.

– Hanı məktub?

Çapar əlini başına atdı. Ancaq əli polad dəbilqəyə deyil, təmiz, ülgüclə qırxılan daz başına dəydi. Barmaqları qana bulaşdı.

– Hanı dəbilqəm?

Lələ dönüb təmkinlə dedi:

– Bunun dəbilqəsini tapıb gətirin.

Salman çayın sahilinə qaçdı. Dəbilqəni tapa bilmədi. Çayaşağı qaçdı. Gördü ki, dəbilqənin şiş ucu suyun içindən çıxıb. Özünü çaya vurub onu götürdü. Çevirib içərisinə baxdı. Orada bir araqçın da varmış. Araqçını çıxartdı, dəbilqəyə içəridən dördqat bükülüb keçirilmiş kağızı götürdü. Açdı, amma bir kəlmə də oxumaq mümkün deyildi.

Kağızı gətirib Lələyə verdi, dəbilqəni isə lazımsız bir şey kimi dəyirmanın küncünə atdı.

Lələ kağıza peşman-peşman baxdı. Məzəmmət dolu baxışlarını Salmanın üzündə saxladı. Salman dedi:

– Bu heyvərə papağını başında saxlaya bilmir, buna mən nə eləyim?

Lələ kağızı sərib üzünü çapara çevirdi:

– Məktubda nə yazılmışdı?

– Bilmirəm.

– Hara aparırdın?

– Qalabəyinə.

– Məzmunundan xəbərin yox idi?

– Ağa, çapar eşşək kimi bir şeydi. Sə’di deməli, eşşək nə bilsin yükü kitabdı, ya odun.

Lələ dönüb baxışı ilə Salmanı yanına çağırdı. Salman çatanda onun ətəyindən tutub cırdı, çaparın gözlərini bağladı.

– Ələddin, axı sən ədalətlisən, məni öldürmə. Mən heç, uşaqlarım yazıqdı! Üç arvaddan iyirmi dörd uşağım var, onun iyirmi biri qızdı. Hamısı da körpə-körpə.

– Kimə qulluq eləyirsən?

– Ağqoyunlu padşahlarına.

– Haralısan?

– Təkəli tayfasındanam, qurbanın olum.

– Dinin? Suallarıma tez cavab ver.

– Müsəlmanam.

– Hansı məzhəbə qulluq eləyirsən? – Lələnin səsi çaparın qulağında mis səsi kimi cingildədi. Bu sual çaparı çaşdırdı.

– La ilahə, illəllah, Məhəmmədin rəsul illah.

– Sünnüsən, şiyəsən?

– Ağa, qurbanın olum, öldür məni, ancaq məzhəbimi soruşma. Sən hansınnansansa mən də onnanam.

Çaparın zar-zar ağlamasına bir sual da bəs eləyərdi.

– Məktubda nə yazılmışdı? – Lələ çox tə’kidlə soruşdu.

– Vallah bilmirəm, billah bilmirəm. Bizim çaparbaşı çaparlığa elə adamı götürür ki, əlifbeyi bilməsin.

Lələ görürdü ki, doğrudan çaparın məktubun məzmunundan xəbəri yoxdur. Bəs onda necə öyrənmək olardı? Məktubun məzmunu isə ona hava-su kimi lazım idi.

– Bəs sənə nə tapşırmışdılar?

– Demişdilər ki, aparıb məktubu verərsən, gecə qalıb dincələrsən, səhər cavabını alıb yola düşərsən. Mənə verərsən, hökmdara aparacam.

"Hökmdar" kəlməsini eşidən kimi Lələ onun üstünə əyildi. Əl atıb yaxasından yapışdı.

– Elə belə dedi?

– Qoy fikirləşim, onsuz da çaparbaşı məktubları hökmdara aparır da, dədəsinə-anasına aparmayacaq ha. Düzdü, bir-iki dəfə məni uzaq yerlərə göndərib. Məktub aparıb cavab gətirmişəm. Deyib hökmdar əmridi. Sonra görmüşəm yox, burada hökmdarlıq işi yoxdu. Özünə arvad gətirirmiş. Bəlkə indi də belə bir işdi?

– Sicilləmə oxuma mənə!

"Yaxşı, hələ günortadı. Az bir vaxta çapar çatacaqdı qalaya, oradan cavabı alıb gətirəcəkdi. Gecə yarısı, ya səhər özünü yetirəcəkdi Ərdəbilə. Niyə gecə qalada qalmalıydı? Ona yazıqlarımı gəlib? Yox, burada nəsə xoşa gəlməyən bir məsələ var. Məktubda yazılan hökm icra olunmalıymış. İşin icrası üçün qalada qalmağa icazə veriblərmiş. Yoxsa ayrı cür ola bilməz".

– Sən bu qalaya çoxmu gedib-gəlmisən?

– Beş, ya da altı dəfə.

– Nə var orada?

– Sirri mən sizə necə verim? Axı sonra məni dara çəkərlər. Heç siz də padşah çaparının satqın olmağına razılıq verməzsiniz.

Lələ qımışdı. Əlini onun şişmiş qarnına çırpdı.

– Bu piylə, bu peysərlə hamını aldatsan da, məni aldada bilməzsən. Sən satqınlığa həmişə hazır olmusan, çox sirləri də satmısan. Aldıqların səni belə piyləndirib. İidi də bildiklərini deyəcəksən. Belə deyil?

– Can şirin şeydi, Ələddin qardaş. Söz var, desəm öldürərlər, deməsəm ölləm. Hərə öz kefində, damağında, mənə nə gəlib. Dəvəni qatarla yeyirlər. O qədər əhli-əyalı saxlamaq elə bilirsən asandı? Səndən nə gizlədim, görürəm hal əhlisən. Vaxt olub məktubu bir dəfə oxumağa bir torba qızıl almışam. Nə olub ey, məktubdu da. Yemillər, içmillər. Oxuyurlar, qaytarıllar özümə, mən də qızılımı alıb balalarımı dolandırıram. İtin dişi, motalın dərisi, yırtsa nə yaxşı, yırtmasa nə yaxşı.

– Bu məktubu yolda bir adama oxutdurmusan?

– Yox, müştərisi olmayıb. Hər məktubun öz xiridarı olur. Bunun da xiridarı sizsiniz. Baxtınız yoxdu, neyləyək? Belə oldu da.

Çapar uzandığı yerdən tərpənmirdi. Yeri rahat, qısqısı güclü idi.

Lələ ayağa qalxıb gəzindi.

"Rəhmətlik Heydər düz deyirdi. Dağılır, tar-mar olur. Ağqoyunluların sonudur. Əgər bir ölkənin padşahından tutmuş çaparına qədər naqis işlərə qurşanıbsa, Allah özü də göydən ensə onu xilas eləyə bilməz".

– Hə, çapar, de görək bu qalada nə gizlədiblər ki, hökmdarın özündən də möhkəm qoruyurlar?

– Bilmirsən? Hardan biləcəksən? Goru nurla dolsun, Uzun Həsənin əlinə güclü xəzinələr keçmişdi. O xəzinələrin hər biri yetmiş dəvədən ibarət yeddi karvanla daşıyıb gətirmişdi bu qalaya. Həmin xəzinəni gizlətməyə yetmiş usta gətirdilər. Hardasa onları gizlətdilər, üstünü hörüb suvadılar. Sonra ustaları da, dəvəçiləri də, lap dəvələrin özlərini də qayadan atdılar ki, sir batsın. Xəzinənin yerini, şəklini, açarını gətirib verdilər hökmdara. Sirri bilən yeddi adam qalmışdı, onları da o söz. İndi ağqoyunluların nəyi varsa, oradadı.

Çapar danışdıqca Lələ qımışa-qımışa gəzişirdi. Onun danışdığı əfsanəyə gülürdü.

– Uzun Həsən də həmin sirri tək sənə danışdı, hə? Sən o qədər də səfeh deyilmişsən. Burada məni barmağına dolayırsan. Mənə düzünü danışmasan, başını hansı arvadına göndərək?

Ürəyi yananın yerini deyərsən, sənin bu boyda kəlləni qabağına qoyanda heç olmasa gözündən yaş gəlsin. Başını sənin kimi bığıburma bir kişi ilə göndərəcəm.

– Yox, başına dönüm. Atım istəkli arvadımı yaxşı tanıyır. Başını dünyanın o başından buraxsan, onun yanına gedir. – Birdən-birə dəyişdi. – Yox, yox. Mən sirrə görə baş verən kişilərdən deyiləm. Bir də ki, çapar bilməyən sirrə qurd düşər.

– Onda məktubu ver.

İsmayıl Səkinənin "Ruhani" havasını çaldığı vaxtdan fikirləşirdi. "Bəs niyə hava qoşublar, söz yoxdur. Havada o soyulan şairin dərdi, əziyyəti var. Ancaq elə bil dilini açıb bir kəlmə danışmaq istəməyib?" Bu sirri soruşub öyrənməyə məqam gözləyirdi. Amma hamı fikirli, hamı qayğılı, hamı dərdli idi. Uşaqlığı ilə o da başa düşürdü ki, bu qaladan kənarda qanlı-qadalı hadisələr baş verir, onların da hamısı bu hücrədəki üç qardaş, bir ana ilə bağlıdır. Onların öz dərdləri də elə "Ruhani" havasına oxşayırdı. Dərd, qəm, ələm vardı, amma onu uca səslə, hamının başa düşdüyü dildə deyən yox idi. Bəlkə də elə belə olmalıydı.

Aləmşahbəyim özünə paltar tikirdi. Əynindəki üzülmüşdü. Qara parçanı açıb biçəndə Sultanəli anasının üstünü kəsdi.

– Təzədən qara libasa bürünmək istəyirsən?

– Əynimdəki üzülüb, qadan alım.

– Sən o qatilə görə bu qaranı dəyişirsən? Atamıza görə geydiyin üzülüb düşdü, indi onun qatilinə yas saxlayırsan? Bir yası qurtarıb, o birisini başlayırsan?

Aləmşahbəyim əldə dayanmayıb sürüşən, su kimi axan qara ipəyi bir tərəfə atdı. Qalxıb oğlunu qucaqladı, aparıb pəncərənin qabağında, yanında oturtdu. Başını sığalladı.

– Başa düş, oğlum, mən qara libası heç vaxt soyunası deyiləm. Mənim əynimə biçilən baxtıma da biçilib. Köhnəldikcə təzəsini tikəcəm. Ürəkdəki dərd-kədər, yas köhnəlmir, ona dözməyən bu ipək parçadı.

Sultanəli anasının sözlərindan razı qalmadı. Qaş-qabağı yerlə gedirdi.

– Sən qara paltarı soyunmalısan!

– Niyə, ay oğul?

– Düşmənlərimizin gözü qabağında yaslı, dərdli ola bilmərik. Onsuz da mən də bilirəm, sən də bilirsən ki, taleyimiz tükdən asılıdır. Bizi dar ağacına aparanda da gərək onlara dağ çəkək, gözdağı verək. Atamın sözü yadındadı? Deyirdi bir il xırıldamaqdansa, bir göz qırpımında ölmək daha yaxşıdır.

İsmayıl da gəldi. Anası onu uzaqlaşdırmaq istədi.

Sultanəli qoymadı. Çəkib yanında oturtdu. Amma susdular.

İsmayıl pəncərədən baxırdı.

– Qardaş, pəncərədən düşüb qaça bilmərik?

– Yox, bu mümkün deyil.

Pəncərəyə bir əlvan kəpənək qondu. Ağ qanadların ortasında yumru narıncı xalın dövrəsinə qara haşiyə çəkilmişdi. O, paslı dəmirin üstünə qonsa da o tərəf – bu tərəfə aşırdı. Mehin qarşısında düz, dik dayanmağa gücü yox idi. Oradan uçub hücrəyə girdi. İsmayıl qaçıb onu tutdu. Ovcunu açanda əllərində gümüş tozuna oxşar toz vardı. O, barmaqları arasında elə bil qabığı soyulmuş iydə tutmuşdu.

– Öldürmə, – deyə Sultanəli kəpənəyə baxdı. – İnsan xoşladığı canlıları tumarlayır. Amma kəpənək tumardan ölə bilər.

– Öldürmərəm, saxlayacam.

– Onda sən də bizi buraya salanlar kimi insafsız olarsan.

– Kəpənəkdən də dustaq olar?

– Saxlasan olar.

İsmayıl pəncərəyə yaxınlaşdı, ovcunu açdı, bu kiçik əlin ortasından kəpənək qanadlarını qoşaladı, açıb-yumdu, titrədi və uçdu. Kəklikotu ətri gələn qalaya tərəf uçub getdi. Ovcunda tozu, yumşaqlığının təması və ürək kimi döyünən bədəninin istiliyi qaldı.

Salman qanlı köynəyi atın boynuna bağladı. Dəbilqəni xurcuna atdılar, suda islanıb pozulmuş məktubu da dəbilqənin içərisindəki yerinə qoydular.

– Bəs qılıncı nə eləyək? – deyə Salman Hüseyn Lələ bəydən soruşdu.

– Onu saxla, lazım olar.

Ata bir qamçı vurdu, at götürüldü.

– Lələ, bu köynəyi onun üç arvadından hansı götürəcək?

– Köynək böyük arvadındı. Onun üçün hamıdan artıq yanacaq. Dəbilqə ortancıl arvadındır. Hələ yaxşı tanımayıb. “İgid ərim, qəhrəman kişim vay” deyib ağlayacaq, gözünün qorasını sıxacaq. O ki qaldı ata, o da çatır kiçik arvada. Ağlayıb doyandan sonra gözləri ər axtaracaq. Ər də gərək atlı olsun. Atsız kişiyə də razı olar. Dul arvadın da atı yüyrək olar.

Salman zoğal torbasını götürüb cibinə qoydu.

– Heyif bu zoğaldan. Belə “igidin” qanından qat-qat qiymətliydi.

O, torbadakı zoğalı əzib çaparın köynəyini “qana” bulamışdı.

Hüseyn Lələ bəy çətinliklə də olsa öyrənmişdi ki, onun dostu Şeyx Heydərin uşaqlarını bu qalada saxlayırlar. Xaraba dəyirmanı içəridən düzəltdirmiş, gecə-gündüz burada keşik çəkirdi. Gəlib-gedənləri gözdən qoymur, onları xilas etmək üçün məqam gözləyirdi. Sultan Yaqubun yerinə oğlu Bəysunqur keçəndən sonra çaparların gətirib-apardıqları məktubları oxumağa, hökmdarın dustaqlar barəsindəki fikrini öyrənməyə çalışırdı. Qalaya hücum eləmək mümkün deyildi. Dustaqları e’dam eləyə bilərdilər. Neçə il idi ki, bu yerlərdən əl çəkmirdi, amma hələ elə bir iş görə bilməmişdi.

Çaparı çox sıxışdırmış, görmüşdü ki, o canını qurtarmaq üçün hər dəfə bir yalan uydurur. İnandı ki, o heç nə bilmir. Onun izini itirmək istədi. Atını yola saldılar. Özünə isə köhnə cır-cındır geyindirib qaladan aşağıdakı lağımın ağzına gətirdilər. Buraxsalar, o qayıdıb xaraba dəyirmanın sirrini aça bilərdi. Bundan əlavə də burada ayrı işlər görürdülər. Qaladan aşağı enən lağımın ağzını tapmışdılar. Onun çox hissəsi dolmuşdu, indi onu təmizləyib qalaya yol axtarırdılar.

Çaparı da həmin lağımın ağzına gətirdilər. Salman dedi:

– Bu təzə peşən də çaparlıq kimidi. Ancaq burada xəbəri sonra eşidəcəklər. Götür külüngü.

– Öldürürdünüz, elə işıqlı dünyada öldürəydiniz də.

– Çox danışma, iş görmək lazımdı. Lələ Salmana göstərişlərini verdi.

– Bunun dalınca bir neçə gündən sonra gələrlər. Hələ vaxt var. Amma yolu gözdən qoymayın. Lağımdakı işlərə də göz yetir. Mən də sabah qayıdacam. Hüseyn Lələ bəy başına əmmamə qoydu, əbasını dəyişdi, belinə yaşıl qurşaq sarıdı. Dəyirmanın arxasında, meşədə bağlayıb ağzını sarıdıqları yabını mindi. Salman yabının yüyənindən tutub dedi:

– Lələ, səni tək yola salmağa mənim haqqım yoxdu. Hər tərəf quldur-qaçaqdı. Allah göstərməmiş sənin başına bir iş gəlsə onda bizim başımıza nə gələcəyindən xəbərin varmı. Ya mən də gedirəm, ya da özün də qal.

– Salman, işimiz çoxdu. Qalaya gələn dəstə böyük də ola bilər. Onların öhdəsindən gəlmək lazımdı. Adamların da çoxu lağımda işləyir. Allahın izniylə mənə heç nə olmaz, inşallah. Yüyəni burax, vaxt keçir. Salamat qal.

Lələ boşalmış yüyəni onun boşalmış əllərindən çıxartdı, atını dabanları ilə məhmizlədi.

Dostu Heydərin uşaqlarının dustaq olmasında özünü də günahkar sayırdı. Heç ağlına gəlməzdi ki, onun ölümündən sonra qaynı Sultan Yaqub bacısı ilə uşaqlarına düşmən kimi baxar.

Şirvandan Ərdəbilə qayıdandan sonra şəhərin kənarında Ülkər onların əllərindən çıxmış, sahibini axtarırmış kimi özünü şəhərin dar küçələrinə atıb evə qədər gəlmiş, ayaqlarını yerə döyərək kişnəmişdi. O, çatanda görmüşdü ki, evin ətrafında hökmdarın fərraşları qaynaşır. İçəri keçə bilməmişdi. Söz yayılmışdı ki, Sultan Yaqub bacısını uşaqları ilə “səkkiz behişt” sarayına, öz yanına aparır.

Həmin günlərdə Heydərin müridlərini, onun yaxın dostlarını axtarır, tutur, gizlində öldürürdülər. Hüseyn Lələ bəy də gizlənməli, bir müddət gözdən yayınmalı olmuşdu. Sonra isə xəbər gəlmişdi. Xəbər gəlmişdi ki, onları saraya yox, həbsə salıblar. Üstündən nə qədər keçəndən sonra yerlərini də öyrənə bilmişdi.

Yavaş-yavaş o, adamlarını toplamış, qalanın yanında pusqu düzəltmişdi. Amma hələ heç bir iş görə bilməmişdi.

Onun ən yaxın dostu, Şirvanda şir kimi vuruşan Dədə bəy bu yaxınlıqda, obada olmalı idi. Hüseyn Lələ bəy onu görməyə gedirdi. Bu illər ərzində onu narahat eləməmiş, gördüyü işlərə qoşmamışdı. Çünki Dədə bəyin gizli işlə arası yox idi, onun dostluğu da, düşmənliyi də açıq-aşkar idi.

– Dayan!

Yolun üstünə əyilən budağın arasından eşidildi bu səs. Sonra da yarğanda bitib çaya tərəf əyilən ağacdan başı qırmızı çalmalı bir nəfər tullanıb yabının cilovundan yapışdı. Onun yoldaşı isə yuxarıda oturub əlindəki oxu hazır tutmuşdu.

Lələ başa düşdü ki, soyğunçuların əlinə düşüb. “Qəribə yerdə axşamladıq. Günah özümdədi, mən niyə silahlı, yaraqlı, erkək at belində gəlmirdim ki, belə bir işə də düşməyəydim”. O, oxunu sazlayıb onu nişan alana baxdı.

– Sənə əbam lazımdırsa, daha onu oxla niyə deşirsən?

Başı qırmızı çalmalı, rəngi yanıb paxır atmış misə dönən adam atın yüyənindən yapışmışdı və kəmərindəki qırmaqdan keçi buynuzundan sapı olan bıçağını çıxartmışdı. Bilmək olmurdu o atın yüyənini kəsmək istəyir, yoxsa atlını... Saqqal basmış, sir-sifəti pırtlaşmış, boyun-boğazı kir bağlamışdı.

– Düş atdan.

Lələ aşırılıb atdan düşdü:

– Bu qoca bir yabıdı. Onu bazarda uzunqulaq qiymətinə də almazlar.

– Mən sataram, – deyə yabının dodaqlarını aralayıb dişlərinə baxdı.

Lələ deyirdi:

– Heç kim almaz, xasiyyəti də pisdi.

– Xasiyyəti necədi? – Dişlərə baxandan sonra ağlı bir şey kəsmədi. Dişlərinin hamısı yeyilib qurtarmışdı..

– Seyid atı necə olar? Kimi görsə dayanır. Onu minib nə qovmaq olar, nə qaçmaq.

– Seyid atı? Sən seyidsən?

– Seyidəm, imam, peyğəmbər övladıyam.

– Mən isə Ağqoyunlu hökmdarıyam – deyə əlini xurcuna salıb nəsə çıxartdı, gördü çörəkdi, gəvələməyə başladı.

– Bir az qoyunum var, mən də onun hökmdarıyam. Seyid kimdi mənim yanımda?

Hüseyn Lələ bəy gördü ki, yox, lap nadanlara rast gəlib, bunlardan yaxa qurtarmaq müşkül işdi. Onları sorğu-suala tutmaq üçün əvvəl sifətlərinə baxdı (Ox tuşlayan da düşüb gəlmişdi). Öyrənmək istəyirdi ki, görsün, sifətdən hansı daha yaxşı adama oxşayır. Yenə də oxu oxqabına qoyan, yayı çiyninə keçirən yekəpər adamı gözü aldı.

– Müsəlmansınız?

– Müsəlman çörək yemir?

– Niyə yemir, yeyir.

– Onda nə soruşursan? – Qırmızı çalmalı çəmkirdi. – Sən Seyidsən. Peyğəmbər əlehsalamın əli sənin başının üstündədi, hər yerdən cəddinə nəzir gəlir. Tər tökməmiş, əziyyət çəkməmiş rahat çörək yeyirsən. Mənim babam peyğəmbərin qohumu olmayıb deyin, mən acından ölməliyəm?

Onun bu mülahizəsi Hüseyn Lələ bəyin xoşuna gəldi. Əl atıb qoltuğundakı cibindən pul kisəsini də çıxarıb onlara verdi.

– Götürün. Doğru sözə nə deyəsən? At da sizin, pul da sizin, sonra nə istəyirsiniz?

– Sonra, sonra da səni o dünyadakı qohumlarının yanına göndərərik ki, cəddini köməyə çağırıb bizim tikəmizi haram eləməyəsən.

Hüseyn Lələ bəy göz gəzdirdi gördü ki, boydan, candan onlarla bacara bilməyəcək. Silahı yox idi. Yenə yanında bir xəncər götürsə onları şil-küt eləyərdi. Yenə də səbr, yenə də təmkin lazım gəlirdi.

– Məni öldürməyin, sizə heç bir xeyri yoxdu. Hər şeyi sizə özüm bağışlayıram. Cəddimi də çağırıram ki, babam peyğəmbər sizin işinizin rəvac tapması üçün xəlluq aləmdən iltimas eləsin.

Yox, əgər məni öldürmək fikriniz varsa, onda aparın bu dağın o tərəfində bir oba var, ora. Tanıyırsınız?

– Tanıdıq, tanımadıq, bunun bir xeyri olacaq bizə?

– Olacaq. O obada bir bəy var. Sünnüdü. Seyidləri satın alır. Yaxşı pul verib alır, onların cəzasını özü verir.

Qırmızı çalmalı yoldaşına baxdı, o da razılıqla başını tərpətdi.

– Mən də eşitmişəm deyəsən. O, bir-iki Şeyx Heydər müridini də yaxşı pula alıb. Bir adama bir qoyun verib.

Qırmızı çalmalı soruşdu:

– Seyid bahadı, mürid?

– Seyid, – deyə Hüseyn Lələ bəy dilləndi. – Şeyx Heydər özü seyidiydi. Onun müridlərini alan, gör seyidə nə verər ey.

– Yaxşı, getdik.

## DƏDƏ BƏYİN QONAQLARI

Dağın quzeyi meşəlik idi. Güneyində isə otlaqlar başlayırdı. Gah bu dikdirdə, gah da o birində hündür tayalar vurulmuşdu. Bu döşlər dərələrlə doğranmışdı. O dərələr yuxarı qalxdıqca bir yerdə düyünlənirdi. Bu düyün isə dağın başındakı hündür qaya, qayanın ətrafında geniş çınqıllıq idi.

Qayanın dibindən bir neçə dəyirmanı işlədən bulaqlar qaynayırdı. Gur bulağın başından qalxan cığır yastanadakı alaçıqların yanına qalxırdı. Dörd alaçıq qara keçədən, iki alaçıq ağ keçədən qurulmuşdu. Ağ alaçığın qara naxışları, qara alaçığın ağ naxışları vardı. Böyük bir alaçıq isə onlardan yuxarıdakı yastananı tutmuşdu. Həm də keçədən deyil, xalça-palazdan idi. Uzaqdan bəzədilmiş gəlinə oxşayırdı. Qırmızı, abı, yaşıl naxışlar payız nəfəsi dəyən, otu quruyub bozaran, sarı rəngindən xəfif bir fona çevrilən təbiətin döşündə gecikmiş gül dəstəsini xatırladırdı.

Alaçığın qabağında sərilən iri xalçanın üstündə dirsəklənən Dədə bəy fikrə getmişdi. Aşağıdakı boş arxaclar dəvə yunu rəngindəydi. Yamacda isə qoyun sürüləri ağarırdı. Dərələrlə axan sular parıldayır, yerə düşən güzgü qırığı kimi işığı əks eləyirdi. İri qayanın yanına yığılan ilxının atları istidən başlarını yelləyir, mal-qara isə düzəndəki çəməndə otlayırdı.

Dədə bəyin yanında dörd-beş nəfər də dizlərini yerə vurub oturmuşdular. Dədə bəy dinib-danışmır, heç kim də bir söz deməyə cəsarət eləmirdi. Bu həmin Dədə bəy idi ki, Uzun Həsənin dar günündə Şeyx Heydərlə köməyə gəlmiş, igidliyinə körə Uzun Həsən fərman yazıb bu yaylağı, Araz qırağında Tək saqqız qışlağını ona vermişdi. Əbu Səidin xəzinəsini ələ keçirib gətirəndə hökmdar ona həmin xəzinədən çoxlu var-dövlət bağışlamışdı. Kasıb bir mürid dönüb var-dövlət sahibi, bəy olmuşdu. Dağıstana səfərlərdə də Şeyx Heydərin yaxın köməkçisinə dönmüşdü. Qızılı, var-dövləti verib ilxılar, sürülər, naxırlar almış, dağdan arana, arandan dağa köçməyə başlamışdı.

Oturanların arasındakı cavan, nazik qara bığları uzanıb yanaqlarındakı batıqlara çatan, nədənsə Dədə bəyə oxşayan oğlan dilləndi.

– Dədə, heç fikir eləmə. Alapaçanı da tapıb gətirəcəm, onu qaçıranın obasını da talıyacam. Dost, düşmən içində sən özünü sındırma.

Amma onun qaş-qabağı açılmadı. Əlli yaşını haqlasa da, yanaqlarından qan damırdı, iri bəbəkləri piyalə kimi dərin göz çökəyində qara quş gözləri kimi alışıb yanırdı. Bu var-dövləti toplayandan onun bir yetim quzusunu, naxırlarından bir əzvay danasını, ilxılarından bir çöpüklü qulununu nə oğru aparmış, nə qurd-quş dağıtmışdı.

– Deməli, qocalmışam. Deyərlər ki, qurd qocalanda burnunun ucuna kəpənək qonar.

– Sənin haran qocadı, ay Dədə bəy?

– Yox, belədir, mən hiss eləyirəm.

Dünən gözünün qabağında onun Alapaçasını aparmışdılar. Aparan da öz qonağıydı. Axşam gəlib yer istəmişdi. Kişinin çörəyini yemişdi, şirin-şirin söhbət eləmişdi. Gecə yarısı Dədə bəy alaçığın yanında hənirti eşidib qalxmışdı. Geyinib çıxana kimi görmüşdü ki, onun Alapaçasını kimsə minib dərəyə endirir... Həmişə Alapaçanı alaçığın yanında saxlayırdı. Gecələr obalara dəyər, ilxıçılara, çobanlara baş çəkərdi. "Sərvaxt olun" – deyərdi.

Alapaça dərəni keçib kişnəyə-kişnəyə obadan çıxanda özünü alaçıqlara çatdırıb görmüşdü ki, mıxa bir at bağlanıb. Açıb minmişdi, səslənmişdi ki, Alapaçanı apardılar. Bu obada Alapaçanın tozuna çatan at yox idi. Amma mindiyi madyanı döyə-döyə Alapaçanın izinə salmışdı. Ay işığında Alapaçanın nalı parıldayırdı.

– Namərd, gör sənə nə edəcəyəm!

Alapaça onun səsini eşitmişdi, başını döndərib kişnəmişdi. Amma yəhərdəki onu insafsız-insafsız qamçılayırdı.

– Ay namərd, adam o ata qamçı vurar?

Alapaça da Əbu Səidin düşdüyü Tək saqqız vuruşmasından yadigar idi. Sultanın atı onun əlinə keçmişdi. Əlindən almamışdılar. Alapaça da onun balası idi. Onun mindiyi madyan da pis getmirdi. Alapaçanı haqlamışdı. Amma burun pərələri o qədər şişmişdi ki, bir az da belə getsə çatlayardı. Alapaçanın bir xasiyyəti də vardı ki, arxadan at hənirtisi duydumu, yerlə-göylə əlləşib onları yaxına buraxmırdı. İndi də özünü yeyib-tökür, üstündəki adam onu qamçılayır, amma uzaqlaşa bilmirdi.

Dədə bəy başa düşmüşdü ki, tapqırlardan biri açılıb atın ayağına dolaşıb, qaçmağa qoymur.

Madyan Alapaçaya yaxınlaşdıqda Dədə bəyin ürəyi partlamaq dərəcəsinə gəlirdi ki, Alapaçaya bax ki, ona madyan da çatır. Onun yəhərində oğru oturub qaçırırdı. Dədə bəy onu tutub qaytarana bir ilxı bağışlayardı. Amma madyanla o cür şöhrətli ata çatmağı adına-sanına əskiklik sayırdı.

– Ay namərd, görmürsən tapqır ayağına dolaşıb? İnsafsız oğlu, insafsız!

Atın yəhərindəki xəncərini siyirib, tapqırı kəsib bir göz qırpımında uzaqlaşmışdı.

Dədə bəy həm sevindi, həm də qəmə batdı. Kor-peşman qayıdanda obanın kişilərinin atlanıb gəldiyini gördü. – Qayıdın, bu yabıların heç biri ona çata bilməz.

Səhərdən bəri ətraf obalara adamlar getmiş, heç biri xeyir xəbər kətirməmişdi. Axşamdan elə bil hamı yasa batmışdı. Qohum-qardaşı Dədə bəyə ürək-dirək verməyə yığılmışdı. Uşaqları alaçıqlardan bayıra buraxmırdılar. Oynayıb-güləndə Dədə bəyin xətrinə dəyə bilərdi. Atları sürüb ilxıya qatmışdılar. Biri atlı getsə onun yadına Alapaçanı salardı.

Dilavər oğlanların neçəsi yaraqlanıb-yasaqlanıb daha uzaq obalara sürmüşdülər. Amma onu Alapaçanın qaçırılmağı nə qədər incidirdisə, bunun sonrası bir o qədər düşündürürdü. Əvvəla, yaxşı igidin atını aparmaq onu el içində xar eləmək idi. Papağını aparmaq, arvadını qaçırmaq kimi bir məsələydi. Bu iş söz yox ki, oğru işindən çox, düşmən əməlinə oxşayırdı. Alapaçanın yalını, quyruğunu qırxıb kecənin birində gətirib obaya buraxsalar, onda gərək Dədə bəy xəncərini siyirib öz ürəyinin başına saplayaydı.

O, nə qədər fikirləşirdisə də bu daşın onun bostanına haradan atıldığını ağlına gətirə bilmirdi. Oturanlardan biri dedi:

– Dədə bəy, bir at nədi ki, ondan ötəri bu qədər dərd çəkirsən?

Bunu deyən Dədə bəyin qardaşı idi.

– Heç bilirsən nə danışırsan? Ad, san, namus, qeyrət bəyəm ilxıyla, var-dövlətlə ölçülür?

Kişi susdu. Bir azdan yenə o dilləndi:

– Adam da yıxılıb ölür. Bir at nədir ki, özünü üzürsən.

– O da düşmən işiydi. Oğru aparsa sevinərəm.

Onun iri, eşmə, təzə-təzə dən düşən bığları səyriyirdi.

– And olsun dədəmin üz qoyduğu torpağa, düşmənçiliklə aparsalar, o nəsildə bir adam qoymayacam.

Bu vaxt qarşı təpədə bir dəstə atlı göründü. Alaçıqların yanından qalxan iri çoban itləri gələnlərə tərəf götürüldülər. Dədə bəy qalxdı.

– Qonaq gəlir. Bənək, geri qayıt, – itlər dayandılar, şöngüyüb kəsik-kəsik hürdülər. Onun çox gur səsi vardı. Bərkdən danışanda aşağılarda qoyun otaran çobanlar eşidirdi. Uzaqdan gələnləri tanımasa da itlərin qalxmasından onların yad adam olduqlarını başa düşdü.

– Qalxın, qonaqları qarşılayın. Sürüdən qara şişəklər gətirin.

Dədə bəyin qardaşı deyindi:

– Alapaçanı elə qonaq aparmayıb?

– Bəsdi. O qonaq yox, düşmən olub. Tərpənin. Tez!

O, gələnləri saydı. Yeddi atlı idi. Amma səkkiz at vardı. O atlardan biri kişnədi. Dədə bəyin elə bil çiçəyi çırtladı.

– Alapaçadı. – Şübhəsini dağıtmaq üçün təkrar elədi.

– Alapaçadı. Bəli, obaya çatanda bu kişnəyən Alapaça idi. Atlılar çatıb onun yanında dayandılar. Ağ saqqalı sinəsinə tökülən, yüz yaşı haqlamış gümrah, yanaqları alma kimi qırmızı qoca dedi:

– Salamin əleyküm. Dədə bəy, Allah qonağı istəyirsən?

– Allaha da qurban, qonağına da.

Qoca da, yanında gələnlər də atdan düşdülər.

– Ay uşaq, o yüyəni mənə verin.

Alapaçanın yüyənini gətirib qocaya verdilər. Qoca da gətirib Dədə bəyə tapşırdı.

– Dədə bəy, bu at sənə yaraşandı. Onu səndən özgə heç kim minə bilməz.

O, heyrət içində qalmışdı. Bunlar kim idi, atı niyə qaçırmışdılar, niyə da qaytarıblar. Alapaçaya fikir verdi, sonra bir-bir adamlara baxdı. Heç birini tanıya bilmədi. Oğlunu çağırdı.

– Apar hörüklə.

“Yox, yalı da, quyruğu da yerindədir. Belə ata bir ilxı verərlər. Onu həmişə şah, vəzir, əmir, bəylərbəyi gözündən gizlətmişəm. Yoxsa müştəri düşəcəkdilər ki, bu elə hökmdara yaraşan atdı. Sözü yerə salsa gərək bu yerlərdən köçüb gedəydi”.

Üzünü qocaya çevirdi:

– Bu nə sirdi?

– Danışaram, darıxma.

O, qonaqları alaçığa çağırdı. Divar boyu buta güllü Şamaxı ipəyindən döşəkcələr düzülmüşdü. Hərəsinin də yanında iri, qotazlı bir mitəkkə qoyulmuşdu. Ağsaqqalı farmaşın üstündə yığılan yükün qabağına, məclisin başına, öz yanına keçirdi. Oturandan sonra söhbəti özü açdı. Artıq Dədə bəyin iri, qırmızı yanaqlarının yanında sərt cizgilər yox idi.

– Xoş gəlib, səfa gətirmisiniz. Amma tanımaq üçün gərək soruşaq da. Hansı tayfadansınız?

– Biz təkəli tayfasındanıq. Keçəldağ tərəfdə düşmüşük. Bizim ata yurdumuz qalıb Ağ dənizin kənarında, Qaramanda. Çox vaxt bazarlığa Hələbə gedərdik. Rəhmətlik Həsən padşahın vaxtında gəlib düşmüşük. İndi deyir, bir naxırın adını bir dana korlayar. Üzü qara olsun bizim üzümüzü sənin yanında qara eləyənin. Alapaçanı nə vaxtsa görübmüş. İstəyirmiş onun dölünü tutsun. Gəlib, şah kimi qarşılayıb çörək vermisən, gecə də durub sənə xain çıxıb, çörəyə xain çıxıb.

– Hanı özü?

– Özünün tənbehini eləmişik. Yorğan-döşəkdədi, bel-buxununa yaxı salıblar. Səhər gördüm bir at kişnəyir. Alaqaranlıqdan idi. Durdum gördüm gətirib. Dedim bu at hardandı? Məndən söz daldalaya bilməzlər. Danışdı, dedi döl tutub qaytaracam. Sonra da danışdı ki, necə tapqırı demisən, kəsib canını qurtarıb. Uşaqların hamısını yığdım. Namərdin cəzasını verdim. Onu salmışıq yorğan-döşəyə, demişəm sənin kimi kişinin o atın dölündən əmələ gələn kəhərə minməyinə hələ min il var, götürüb gəlmişik. Arada düşmənçilik olmasın. O ata da layiq bir yəhərimiz vardı, onu da gətirmişəm. Qaşı qızıldı, özü gümüş yəhərdi. Babamızdan qalıb. O, yəhərə layiq atımız olmayıb. At gəldi, yəhəri gətirdi.

Cavanlardan biri qalxıb, alaçığın qapısına qoyduqları bükülü yəhəri, yüyəni açdı. Gümüşü, qızılı bərq vurdu. Sədəf, mina işləmələr göz oxşadı.

Dədə bəy ona nə deyəcəyini, nə edəcəyini bilmirdi. Nazik bığlı oğlunu çağırıb qulağına nəsə pıçıldadı. Oğlu razılığını bildirib alaçıqdan çıxdı. O, üzünü qocaya tutub dedi:

– Mənim atımı qaytarıb gətirmisiniz, buna sevinmirəm, atı aparanın düşmən olmadığı da məni o qədər sevindirmir. Mənim ürəyimi dağ boyda eləyən ağsaqqalın müdrikliyidir. Məmləkətdə sənin kimi beş-on ağsaqqal olsa qurd qoyunla otlayar.

– Atalarımızdan belə görmüşük, övladlarımız da bizdən belə görməlidir. Mərdliyə gərək mərdliklə cavab verəsən. Onsuz da dünya özü namərd dünyadı.

Obada hamı ayağa qalxmışdı. Qoyunlar kəsilir, düyü seçilir, qazanlar asılırdı. Dədə bəyin oğlu ilxıdan yeddi at ayırıb gətirib qonaqların atlarının yanına bağladı. İşini qurtaranda başını qaldırıb gördü ki, obaya tərəf iki nəfər gəlir, yedəklərində də bir yabı, yabının da üstündə palaza bükülü bir şey var. Dədə bəyin oğlu Mustafa onların qabağına çıxdı.

Sifəti mis rənginə çalan, qırmızı çalmalı adam ondan soruşdu:

– Dədə bəyin obası buradı?

– Bəli. Düz gəlmisiniz.

– Dədə bəy qul alveri eləyir?

– Deyəsən artıq-əskik danışırsınız axı. Görmürsən, onun ilxılarının, sürülərinin, sənin kimi elə əlli-altmış çobanı var.

– Onda, heç! – deyə yekəpər dilləndi.

Mustafa bu sözdən şübhələndi.

– Bəs deyirlər o, seyidləri satın alır. – O biri yoldaşı dindi.

– Yaxşı, onda gözləyin. – Özü tez alaçığa girib atasının qulağına pıçıldadı. Dədə bəy üzr istəyib çıxdı. Yabının yükünə, iki yolkəsənə baxıb dedi:

– Seyid kimdi?

– Mənəm, – deyə səs eşidildi. Palazın arasından gəlirdi o səs.

– Kimdi?

Qırmızı çalmalı yabının üstündəki yükü götürüb yerə qoydu. Diyirləyib açdı. Oradan Hüseyn Lələ bəy çıxdı. Dədə bəy gözlərinə inanmadı.

– Ay Lələ, bu nə şəbihdi? – Sonra dönüb o iki nəfərin çiyinlərinə döydü. – Bərəkallah, fərasətli uşaqlarsınız.

Qırmızı çalmalı yoldaşının üzünə baxdı, göz vurdu.

– Malımızı satası olmadıq.

Dədə bəy heç nə başa düşmədi.

– Lələ, sənin nə zarafatcıl adamların var.

– Dədə bəy, məni doğrudan satmağa gətiriblər. Nə qədər verərsən?

Hüseyn Lələ bəyin qollarını da bədəninə sarımışdılar.

– Mən bu kişilərin əsiriyəm. Öldürmək istəyirdilər, dedim öldürməyin, satın, burada seyid alan var.

Dədə bəy işi indi başa düşdü. Əl atıb alaçığın yanındakı odun parçasını götürməyi ilə qırmızı çalmalının başına endirməyi bir oldu. İkinci zərbə oxunu kamana qoymaq istəyəni onun yanına sərdi. Onlar özlərinə gələnə qədər o Hüseyn Lələ bəyi sarıdıqları kəndiri açıb onları sarıdı.

– Ədə, yolkəsən sizsiniz? Çaqqaldan canavar olar? Mənim həndəvərimdə bunların gördükləri işə bax, özü də gör kimi tutublar.

O, Hüseyn Lələ bəyi qucaqladı. Xeyli vaxtdı görüşmürdülər.

– Ay e'tibarsız qardaş, sən hardasan? Nə səsin var, nə sorağın. Nə iş görürsən, bu nə qiyafədi?

– Belədi də. Başımıza çox işlər gəlib. Hərə bir tərəfə düşdü. Təzəcə sənin yerini öyrənmişəm.

– De görüm, Şeyx Heydərin uşaqlarından xəbərin varmı?

– Var, yerlərini öyrənmişəm, onlar da müsibətdədir.

– Gəl, gəl, ayaq üstündə dayanma.

Alaçığa girdilər. Dədə bəy onu ağsaqqala göstərdi.

– Qonaq qonaq gətirər. Ayağın çox yüngüldü. Neçə ildi xəbər tuta bilmədiyim dostum özü öz ayağıyla gəlib çıxıb. Gəlib deyəndə ki, quldurlar tutub gətiriblər ki, seyid satırıq.

Bayaqdan deyib-gülən ağsaqqal tutuldu.

– Seyid?

– Seyid olmağına seyid deyil. Bu libası geyib ki, yolda dəyib-dolaşan olmasın. Ağsaqqal soruşdu:

– Siz sünnüsünüz, ya şiəsiniz?

– Şiəyik.

Bunu eşidən ağsaqqal qalxdı, onun adamları da durdular.

– Ay ağsaqqal, bu nə hərəkətdi? Hara durursunuz? Siz mənim əziz qonaqlarımsınız.

– Yox, Dədə bəy, mən sizin şiə olmağınızı bilməmişəm.

Lələ də bu sözdən pərt oldu. Qızarıb pörtdü.

– Ağsaqqal, – deyə Dədə bəy ona baxdı. – Bunun oturub çörək yeməyimizə bir maneçiliyi var? Məni təhqir eləyirsiniz?

Amma onlar dayanmadı. Alaçıqdan çıxdılar. Atlarına tərəf gedəndə Dədə bəy onların qabağını kəsdi.

– Mən hərənizə bir at bağışlamışam.

Ağsaqqal bikef-bikef dedi:

– Yox, lazım deyil. Salamat qalın.

Onlar atlarına süvar olub tərpəndilər. Dədə bəy Lələnin üzünə baxdı.

– Gördün? Dilimiz bir, adətimiz bir, özləri də çox mərd adamlar. Amma şiə söhbətinə görə durub getdilər.

– Getsin də, vaxt gələr, qaytararıq.

– Necə?

– Dədə bəy, mətləblər var ki, onları sənə incələmək lazımdı. Bayaq üz-üzə oturduğun adamlar, səni şiə bilən kimi çörəyini kəsmədilər. Sənə təəccüblü gəlir bu iş. Elə deyilmi? Dilimiz də birdi, qanımız da, bircə dini əqidəmiz ayrıdı. Elə bu bəla üzündən Şirvan bir tərəfə çəkir, Qarabağ ayrı tərəfə, Qaradağ, Gilan, nə bilim fars, İraqi Əcəm, İraqi Ərəb ayrı yana. Neçə əsrlərdir ki, onlar bir səltənətə tabe olsalar da, hamısı əlbir deyil. Onları ayrı salan da bu dini təriqətlərdir. Osmanlı dövləti niyə birləşdi, möhkəmləndi? Ona görə ki, orada yaşayanların əksəriyyətinin təriqəti sünnü-hənəfi təriqətidir. Şiələri də var. Ancaq onlara baş qaldırmağa imkan vermirlər. Biz nə qədər ki, bir təriqətə qulluq eləmirik, birlik olmayacaq.

Dədə bəy onun bu sözlərinə diqqətlə qulaq assa da, dərinliyinə qədər başa düşə bilmədi.

– Məni başa sal görüm, Peyğəmbər sünnülərin tərəfindəydi, şiələrin?

– Heç birinin. Peyğəmbərin vaxtında bu məsələlər yox idi.

– Onda bəs niyə belə oldu?

– Bu uzun söhbətdi. İndi mən dediyim ayrı məsələdir. Bütün ölkənin əhalisi şiəliyi qəbul eləməsə, birlik olmayacaq. Bunu da həyata keçirən elə bir şəxs lazımdı ki, ölkə onun arxasınca gedə bilsin. Həmin şəxs də Şeyx Heydərin oğlanlarıdır ki, dayıları zindanda saxlayır.

– Zindanda?

– Bəli. Bu yaxınlarda qala var. Oradadırlar.

Dədə bəyin oğlu Mustafa içəri girdi.

– Mustafa, tez olun bizə yemək gətirin.

– Baş üstə. Yaxşı, o əl-ayaqlarını bağladığın quldurları nə eləyək? İşlərini bitirək?

Onun əvəzinə Hüseyn Lələ bəy cavab verdi.

– Yox lazım deyil. Aclıqdan, yoxsulluqdan yolkəsən olublar. Cəzalarını verib buraxın, çıxıb getsinlər.

– Nə cəza verək, – deyə Dədə bəy ondan soruşdu.

– Hərəsinə bir az unnan, dənnən verin. Yolda söhbətlərini eşitdim. Evdə uşaqlarının yeməyə heç nələri yoxdu.

– Başına o cür oyun açıblar, sənin ürəyin gəlmir onların cəzasını verəsən? Elə belə buraxsaq, gələn dəfə tutsalar, satmağa gətirməyəcəklər ha.

– Eybi yoxdu. Qoy əl-qollarını açıb içəri gətirsinlər.

– Gətir, Mustafa.

Mustafa çiyinlərini çəkib çölə çıxdı. Bir azdan başı qırmızı sarğılı və onun yekəpər yoldaşı alaçığa girib ayaq üstündə qaldılar. Hər ikisi də başını aşağı salmışdı.

– Hə, yol kəsirsiniz, adam soyursunuz, qul satırsınız.

Qırmızı çalmalı diz üstə çökdü, yalvarmağa başladı.

– Qurban olum, ay bəy, bizi öldürmə. Əlimizi kəs, dilimizi, qulağımızı, burnumuzu kəs, öldürmə. Mənim on üç uşağım var. Hamısı da ac-yalavac, qarnı açıq.

– Niyə, ay qurumsaq, sən boyda heyvərə o uşaqlara çörək qazana bilmir?

– Nəynən, başına dönüm, nəynən?

– Hardansan?

– Əkinçiyəm. Qarakollu kəndindənəm.

– Bəs bu heyvərə?

– O da. Qaynımdı. Diz üstə çök, – o qaynına pıçıldadı. O da diz üstə çökdü.

– İndiyə qədər neçə adam soymusunuz?

– Elə bir bu ağanı. Nə biləydik. Siftə eləmək istəyirdik. Siftəmiz qara gətirdi. Nə biləydik ki, yol kəsmək də belə çətin işiymiş.

Hüseyn Lələ bəy dilləndi:

– Sizi yol kəsməyə vadar eləyən nədi?

– Aclıq. Padşahın vergiyığanları qoyur ki, qazandığımızı yeyək? Malucahat, təfavüt, üşr, səranə, məvaşi, mərai, kopçur, xanə-şümar, alafa, ulafa, ulaq, ulam, yəmbərdar, qonalqa, şülən baha, süfrə baha, səd yek, səd dü, səd çahar, rüsm əs sədara, rüsm əs vüzara, darüğaki, rüsumi ümmal, eydi, novruzu, peşkəş, savəri, muştuluq, salamanə, nə bilim çərik, şikar, tamğa, bac, morq, qusfəid... Döydüyüm taxılın hər çanağını bu verginin birinə verəndə gərək xışı, vəli, yabanı, dırmağı yeyək. Göz görə-görə kəndə gəlib günün-günorta çağı bizi soyurlar. Gördük hamını soyub aparanda heç kim bir şey demir, dedim qayın, bir silah tap. Nə bilim dədəsindən-babasından qalan yay oxu götürdü, çıxdıq yola. Bizim balamızın boğazından kəsib aparıblar. Onları ac qoyublar. Namaz qılanda həmişə deyirəm: "Ey tanrı, sən ki, bu tifillərin yeməyini verməyəcəkdin, özlərini niyə verib məni dərdə salırsan?

– Ay qurumsaq, bu padşah səndən az bilir ki, nə qədər vergi qoymaq lazımdı? – Dədə bəy ona təpindi.

– Başına dönüm, bəy. Padşahnan bizim nə işimiz? Mən olanı deyirəm. Yalan deyirəmsə, dilimi kəsin.

Hüseyn Lələ ayağa qalxdı. Onlara yaxınlaşdı. Diz üstə çökənlərin hər ikisi bədənlərini qısdılar. Gözləyirdilər ki, onları öldürsə də, kəssə də o özü eləyəcək. Hüseyn Lələ bəy hərləndi, qırmızı çalmalının arxadan bağlanmış qollarını açdı. Qabağa keçib bu əllərin içinə baxdı. Bu əllər qabar-qabar, kötük kimi idi. O, yekəpərin də əllərinə baxdı. Sonra Dədə bəyə dedi:

– Əkinçidilər. Dağılır, Dədə bəy, uçur. Bir azdan o səltənətin xarabaları qalacaq. Bir məmləkətdə ki, əli qa-barlı əkinçi, balalarına çörək vermək üçün yol kəsməyə məcbur olacaqsa, o məmləkət can üstündədir.

Qırmızı çalmalı özünü yerə atıb Hüseyn Lələ bəyin ayaqlarını qucaqladı, öpməyə başladı.

– Əşi, əlim qurusun, sənin kimi adamı incitmişəm. Nə cəzamdısa ver, razıyam.

Mustafa qapı ağzında dayanmışdı. Hüseyn Lələ ona baxdı.

– Bunlara yemək ver, yazıqdılar.

Mustafa yeməyi gətirib baş tərəfdəki süfrəyə düzmüşdü.

– Baş üstə. Durun!

Onlar yalvara-yalvara, dua oxuya-oxuya qalxdılar. Hüseyn Lələ onlara dedi:

– Çörək yeyəndən sonra getməyin.

– Baş üstə.

O, gəlib Dədə bəyin yanında oturdu. Oturan kimi xidmətçi aftafa-ləyən gətirdi, o əllərini yudu. Məhrəba ilə qurulayandan sonra yeməyə başladı. Dədə bəy bütöv bişirdikləri qoyunun budunu götürüb iri, ağ sağlam dişlərinə çəkirdi. Hüseyn Lələ göy şirli nimçəsinə düyü çəkdi.

– İndi məni başa düşdün?

– Hansı? – Dədə bəyin fikri yeməyin yanında idi. Hüseyn Lələ susdu. Fikrindən keçdi ki, düzdür, o vaxt Şeyx Heydərə qoşulmuşdu. İndi üstündən xeyli keçib. Şeyx Heydər yoxdu qabaqda. Bəlkə də heç bu işə qoşulmayacaq. Varı, dövləti, ilxıları. Ağrımaz başına dəsmal bağlamaq istəməz. Bəlkə də bu sirri ona nahaq yerə dedi. Bu da Şirvana hücum deyildi ki, var-dövlət çoxlarını yoldan çıxarıb aparsın. Şeyx Heydərin uşaqlarının xilası qan tökmək, qurban vermək tələb eləyir. Onların sağ-salamat çıxmağı bir tərəfdən, dünənki körpə uşaqlar bu hərəkatı başa düşüb ona başçılıq edə biləcəklərmi? Bu qədər sualları olan bir məsələyə baş qoymaq hər adamın işi deyil.

– Hansı söhbəti deyirdin?

– Şeyxin övladları.

– O qalanı dağıdaq. – Dədə bəy elə dedi ki, guya məclisdəki düyü təpəsini dağıtmaqdan gedirdi söhbət.

– Mümkün deyil. Onlara hücum çəksək, uşaqları Allah eləməmişkən, elə ordaca.

– Onda tədbiri tök, məndən nə asılıdı, mən hazır. Rəhmətlik Şeyx Heydər bir dəfə bura gəlmişdi. Oturmuşduq alaçığın qabağında, gözəl də bir gün idi. Dedi Dədə bəy, ilxıları artır, lazım olacaq. Əlimi qaldırıb qoydum gözlərimin üstünə. O vaxtdan xeyli artıb.

Hüseyn Lələ bəy də yeməyə girişdi. Gördü ki, var-dövlət onun ürəyini hələ döndərə bilməyib.

– Dədə bəy, qalanı üzük qaşı kimi araya almalıyıq. Yoxsa, uşaqlar əldən çıxar. Onları xilas edə bilməsək bizim başladığımız iş heç bir nəticə verməyəcək.

Səkinə xalanın cürə sazı İsmayılı ovsunlamışdı. Tez-tez özünü onun yanına verir, çaldırır, qulaq asır, özü çalmaq öyrənirdi. Səkinə ona dastanlar danışır, bu dastanlar qurtarmaq bilmir, İsmayıl da elə hey qulaq asmaq istəyirdi. Amma səsi yox idi. Oxumurdu, çalırdı, sözlərini deyir, yenə çalırdı.

– Rəhmətlik atam sağ olaydı, oxuyaydı, onda bilərdin aşıq nədi, atam-anam.

– Səkinə xala, Ruhani çaldınız ha, sonra sözlərini niyə demədiniz?

– Çünki o şair batin əhli olub. Yanğısı da havada qalıb. Sözsüz də bəlli deyilmi?

– Elə bu havaların hamısı yanğılıdı.

Səkinə sazı döşünə basıb mizrabı cəsarətlə simlərə vurdu. Hücrəni qüdrətli bir musiqinin ahəngi doldurdu. İsmayıla elə gəldi ki, bəs daş divarlar da cingildədi, cana gəldi, səs verdi. İsmayıl otura bilmədi. Ayağa qalxdı. Elə bildi ki, boyu bir az da ucaldı, məğrurlaşdı. Bu hava onu heyran eləmişdi. Ürəyini dağa döndərmişdi.

Sultanəli də gəlib qardaşı ilə yanaşı dayandı. Balaca qardaş qeyri-ixtiyari sağ qolunu onun kürəyinə qoyub qucaqladı, sifətini onun qoluna söykəyərək iri, ağıllı gözlərini bu sehrli səslər verən saza dikdi.

Elə bil qabaqda bir atlı çapırdı. Yuxarı qaldırdığı qılıncından odlu şimşəklər çaxırdı. Günəşin zərrələri qılıncın iti tiyəsində doğram-doğram olub hər zəri bir tərəfə uçurdu. Ağ at elə bil qanad açmışdı. Yox, heç bir qartal belə hündürdə, belə həvəslə, can-dildən, ildırım kimi uça bilməz. O, qarşısına çıxan qayaları da yıxardı. At üstündəki adam bir anlığa başını geri qaytardı. Sifəti gün kimi alışıb yandı. Onun dodaqlarından nə’rə qopdu.

– Oğullarım, ürəkli olun, arxamca gəlin, açın bu yolları.

Amma atlı nə qədər çapırdısa onlardan uzaqlaşa bilmirdi. Çünki onların özləri də at belində idilər, irəli şığıyırdılar.

Qarşıdakı atlının yolu üstünə alova bürünmüş köz dağı çıxdı, Savalana oxşayırdı. Yolundan dönmədi, atı bu dağın üstünə sürdü. At dördnala dağın başına qalxdı. Nallarından qucaq-qucaq çınqı tökülürdü. Köhlən bu alovda yanmırdı, onun rənginə boyanmışdı, al rəngə düşmüşdü. Ancaq sür’əti azalırdı. O birdən-birə qabaq ayaqlarını yerə vurub dayandı. Zirvəyə

çatmışdı. Atlı əmud keçirdiyi qolunu qaldırıb əlini qaşlarının üstünə qoydu. Burdan hər yer görünürdü. Buradan yaşıl düzənlər, diş-diş dağlar, burulğanlı çaylar...

Musiqi kəsildi.

– Bu havaya deyirlər: “Misri”. Səkinə xalanın səsi onu ayıltdı.

– Çal, Səkinə xala, çal.

Saz yenə dilə gəldi.

Elə bil qayalardan, mamırların göz yaşından duru sular süzüldü, qotur, daş teştlərdən gur axınla tökülüb şəlalə oldular. Meşələr çiçək açdı. Quşlar min bir səslə oxumağa başladılar. Düzənlərdə yovşanlar yaşıl otlar arasında boz-bənövşəyi rəngə çaldılar. Onların dibindən bənövşələr qalxdı. Bənövşənin iyi yovşan iyinə qarışdı. Yovşanların üstündən ceyran sürüləri ox kimi süzüb keçdi, torağayları hürküdüb göylərə qaldırdılar. Torağayın nəğməsi zirvələrdə eşidildi. Firuzə rəngli dağların başında pambıqdan ağ buludlar topa-topa dayanmışdı. Torağay səsi o buludları firuzə dağların başından ayırdı. Buludlardan ağ yağışlar yağmağa başladı. Elə yağdı ki, o yağışla, meşələrin çiçəklərinin ləçəklərini şəlaləyə tökdü. Çaylarda çiçəklərin ləçəkləri axmağa başladı.

– Bu havaya “Dübeyti” deyirlər, atam-anam.

İsmayıl qardaşlarının qolundan tutdu.

– ”Misri”ni eşitdiniz də?

– Eşitdik.

– Onunla dağı yıxmaq olar?

– Olar.

– Bu qalanı necə? – Onlar Sultanəliyə elə baxdılar ki, sanki hər şey qardaşından asılı idi. İmkan versə “Misri” qalanın daşını daş üstə qoymazdı.

Oturdular. Səkinə xala da sakitcə çəkilib getdi. Araya dərin sükut çökdü. Bu sükutu hardansa gələn səslər pozdu. Sultanəli qulaq verdi. Sonra başını xalçanın üstünə qoyub diqqətlə qulaq asmağa başladı.

– Nə olub, – deyə sazın sehrli tə’sirindən qurtarmayan İsmayıl təəccüblə qardaşının hərəkətinə baxdı və yavaşcadan:

– Yerin altından səs gəlir. – dedi.

Doğrudan da səs yerin altından gəlirdi.

Bığlı qaya çapan külüngü var gücü ilə qayaya çırpırdı. Daş isə onun sözünə baxmırdı. O, qayanın yarısını birdəfəyə qoparmaq istəyirdi. Amma oradan xırda qəlpələr düşürdü.

Neçə vaxt idi ki, burada işləyirdilər. Ondan başqa da adamlar vardı. Heç biri də qayanı nə üçün deşdiklərini bilmirdilər. Əmr eləmişdilər, onlar da yerinə yetirirdilər. Amma çapar hamıdan çox can yandırırdı. Onun qulağına çatmışdı ki, ağqoyunluların bütün xəzinəsi burada gizlədilib. Onu tutanlar da quldurlar və həramilərdir. Lağım atıb xəzinəni aparmaq istəyirlər. Söz vermişdilər ki, kim xəzinəyə çatsa, öz ağırlığı qədər qızıl verib evinə buraxacaqdılar. Ona görə də hamıdan çox işləyirdi.

Bax indicə külüng daşı yarıb keçəcəkdi, qızıllar oradan başıma töküləcək. Xəzinədə qızıllar qum kimi oyulacaq, tökülüb əvvəl dizimə, sonra qurşağıma, döşümə, xirtdəyimə çıxacaq. Qoymaram. Oradan bir qızıl düşən kimi yerinə suvaq çəkib yolu çevirəcəm başqa səmtə. Sonra bunların əlindən qurtararam. Quldurun ömrü uzun olmaz. Onları ələ verən kimi qayıdıb buradakı qızılları siçovul kimi yavaş-yavaş daşıyaram.

Yaxşı bəs onları ələ verəndə açıb xəzinəyə atılan lağımı deməyəcəklər? Desələr hər şey əldən çıxar. Belə yerdə xəbərçilik mənə heç bir xeyir verməz. Onları bir-bir aradan götürərəm. Xəzinəni bir ilə, bir il nədi, lap bir aya yox, bir həftəyə daşıyıb gizlədərəm e’tibarlı yerdə. Ondan sonra ye də, nəsilbənəsil. Oğlanlarımı evləndirərəm, qızlarımı ərə verərəm. Arvadların sayını artıraram, düzəldərəm hərəmxana. Yaşa da şah kimi.

Bu vaxt külüng daşı deşib keçdi. O, sevindiyindən bir an dayandı. Bədənindən axan isti təri soyuq tər əvəz elədi. Tez o tərəf-bu tərəfə baxdı. Lap uzaqda, lağım əyilən yerdə məş’əl yanırdı. Yanında da heç kəs yox idi. O, külüngü çəkib çıxartdı. Gözünü lingin yerinə dikdi. Oradan şırıltı ilə çirkab axıb üz-gözünə töküldü. Çapar qalanın rahatxanasını vurub deşmişdi.

Dünya nədi hədərdi,
Ömür gəldi-gedərdi,
Ürək xırda, qəm böyük,
Hara yığım bu dərdi.

Köhnə börkünü boynunun ardına itələyən Cibo Səfər nazik, cır səslə oxuyurdu. Çarıqlarını boynundan asıb yalın ayaqlarını sallayıb mindiyi uzunqulağın yerişiylə yırğalayırdı. Bezdən tikilən şalvarın dizləri süzülmüşdü, dizinin gözü görünürdü. Qabaq dişləri salamat olsa da, arxa dişləri töküldüyündən ovurdları batmışdı. Köhnə köynəyinin yaxasından sinəsindəki ağ tüklər görünürdü. O, əlini torbasına atıb çörək çıxartmaq istədi, gördü ki, lavaşın qırın-qırtısı qalıb. Xırım-xırdanı ovcuna yığıb ağzına atdı. Uzunqulağı döyəclədi. Amma eşşəyi də özü gündə idi. Palanı cırıq, özü qoca. Qaşqasına da dəmrov düşüb tüklərini tökmüşdü.

Qalaya dönən yerdə, köhnə dəyirmanın yanına çatanda gördü ki, cinə-şəyatinə oxşayan bir məxluq dayanıb. Vecinə də almadı. Yanından keçib getmək üçün yalın dabanlarını uzunqulağın yanlarına vurdu. Amma gördü yox, cin-şayətin onun başı ilə oynayır, "toqquş" deyib uzunqulağı saxladı.

– Bura bax, sən cinsənsə, mən də şayətin kimi bir şeyəm. Biz bir-birimizin dilini bilərik. Əgər bu yazıq heyvanı hürkütmək istəyirsənsə, keç sol tərəfinə, çünki sağ gözü kordu.

Salmanı gülmək tutdu.

– Ay bəni adəm, haradan gəlib, hara gedirsən?

– Ey Məhəmməd hümməti, uzaqdan gəlib uzağa gedirəm.

– Hansı uzaqdan, hansı uzağa?

Cibo Səfər eşşəkdən düşüb çarıqlarını palanın üstünə atdı. Yaxınlaşıb onunla yanaşı dayandı. Elə özü də Salmana oxşayırdı. Geyimdə, boy-buxunda.

– Sənə adam dilində salam verim, ya cin-şayətin ləfsində?

– Hansında istəsən.

– Əssəlamün əleyküm. Cin dili bilmirəm.

– Əleyküm əssalam. Hardansan?

– Şamaxıdan gəlirəm, gedirəm Məkkə ziyarətinə. Gedim, getməyim?

Salman ona baxdı, eşşəyinə baxdı, üst-başına, yalın ayaqlarına baxdı.

– Ay adəm övladı, niyə ayaqyalınsan?

– Çarığı geysəm, qurban olduqlarımın ziyarətinə çatanda ayaqyalın qalaram. Ziyarətə gələn o qədər məxluqun içində deyirsən adam kimi çarıqlı-patavalı, adam şəklində olsam pis olar? – Cibo Səfər gəlib Salmanın yanında, daşın üstündə oturdu.

– Eşşəyin belində çarığın cırılacaq?

– Eh, ay qadan alım, bu eşşəyin bu gündən sabaha çıxmağa ümidi var ki? Mən naxoşlayanda o məni aparır, o naxoşlayanda mən onu.

Salman onun zarafatından ciddiləşdi.

– Dərdli adama oxşayırsan. – Cibo Səfər bu sözdən sonra onun sir-sifətinə baxdı. Gördü ki, əməllicə-başlıca adama oxşayır.

– Dərd? Bəxtəvərlikdən danışırsan. Dərd elə bir sərvətdir ki, o padşahlarda, var-dövlət əlindən üzülənlərdə olar. Mən lüt-üryanın biriyəm. Yeməyə çörəyim də yoxdur. Nəyin dərdini çəkəcəyəm.

Eşşək yolun soluna, çayın qırağına çıxıb otları, qurumuş, toz basmış qart yarpızları qırpırdı.

– Bir ora bax, özgə vaxt bəyənmirik. Suyu gör necə ustuplu içir. Deyirəm ay qardaş, Allah niyə məni də beləcə qanmaz bir heyvan yaratmayıb? O eşşək kimi işləyirik, yük çəkirik, döyülürük, söyülürük, yenə dözürük. Eh, insan olmaq da bir köpəkoğluluq deyilmiş.

– Elə demə. İnsan yer üzünün əşrəfidi. Ziyarətə gedirsən. O yuxarıdakı kişinin xoşuna gəlməz.

– Bu sözü elə yuxarıdakı kişi dedirdir də. Biz hamımız onun iradəsindən asılı deyilikmi?

Salman qalxıb xaraba dəyirmana getdi. Əlində bir bağlama ilə qayıtdı.

– Al, götür.

– Allah sənə uzun ömür əta eləsin.

Bu vaxt lağımın ağzından zəncirləri cingildəyən məxluq özünü çaya atdı. Elə bil meşənin min bir ətri çəkildi. Salman tez özünü çaya tərəf atdı. Bığlarından çapara oxşayan adam quduz it dəymiş kimi özünü ordakı daşlara, sel gətirmiş kötüklərə sürtürdü. Cibo Səfər iki barmağı ilə burnunu sıxıb Salmana dedi:

– Bu da yer üzünün əşrəfi insan. Boğazacan, yox lap təpəsinə kimi zibilin içindədi.

– O insandı bəyəm? Biz insandan danışdıq.

Cibo Səfər gördü ki, xaraba dəyirmandan da adamlar çıxır. Eşşəyini minib sürə-sürə Salmana dedi:

– Salamat qal.

Gün əyiləndə, axşam namazının vaxtı çatanda Cibo Səfər eşşəyi saxlayıb düşdü. Heyvanı otlamağa buraxdı, özü də canamazını çıxarıb açdı, palçıq möhürünü qara dəsmalın ortasına qoydu. Çayda dəstəmaz aldı, qayıdıb üzünü qibləyə tutdu, əllərini göyə qaldırdı.

Günortadan bəri Cibo Səfəri bir ac canavar izləyirdi. Cibo Səfərlə işi yox idi, tamahından qotur, kor uzunqulaq keçirdi. İndi əlinə girəvə düşmüşdü. İnsanın əyilib qalxdığını görüb kolluqdan çıxdı, uzunqulağa tərəf cumdu. Eşşək də canavarı görüb anqıra-anqıra ona tərəf götürüldü. Elə bil canavarı yox, çoxdan bu dünyadan köçmüş anasını görmüşdü. Canavarla uzunqulaq üz-üzə gəldilər və...

Cibo Səfər bunu hiss elədi. Amma namazını yarımçıq qoyub batin eləmək fikrinə düşmədi. Amma dili namazın duasını vird eləsə də ürəyində ayrı şey deyirdi: "Ey ulu tanrı, axı mən sənə nə pislik eləmişəm? Nə də eləyə bilərəm? Əlimdən nə gəlir ki. Bir yazıq adamam, var-dövlətdən vur-tut bir ulağım vardı. Dedim onun köməyilə müqəddəs yerlərə gedib çıxaram. Səni ziyarət eləyərəm. Geri qayıtmağa onsuz da ümidim yox idi. Ölüb qarışacaqdım qurban olduqlarımın torpağına. Axırıncı ümidimi-pənahımı da əlimdən aldın. O yırtıcı canavar sənə məndən əziz oldu? Kimə danışsam, deyəcəklər bəs tanrı səni imtahana çəkir, sınayır, görsün sən onun yolundan dönməyəcəksən? Dönüb neyləyəsiyəm, dönməyib neyləyəsiyəm. Tanrı bu dünyada mənə cənnəti də göstərib, cəhənnəmi də. Cənnəti beş gün görmüşəmsə, elə ömrümün hamısı cəhənnəmdə keçib. İkisinə də dözmüşəm. Hər ikisinə də mənim bu pis sifətim öyrəşib. Mən bu dünyada da, o dünyada da dəvəsi ölmüş ərəbəm".

Dədə bəy yoldan keçirdi. Canavarın uzunqulağı parçalamasını da, cır-cındırlı kişinin namazını batin elədiyini də görürdü. Alapaçanı saxlayıb tamaşa eləyirdi.

Cibo Səfər canamazını yığışdırıb qalxanda Alapaçanı onun yanına sürdü.

– Axşamın xeyir, müsəlman qardaş.

– Hər vaxtın xeyir.

– Bu nə işdi sənin başına gəldi?

Cibo Səfər altdan yuxarı padşah görkəmli adama baxdı. Ürəyindən keçirtdi: "Tanrı mənnən gizlənpaç oynayır. Bu gələn ya Əzrayıldı, ya Cəbrayıldı. Ayrısı ola bilməz. Ziyarət yerinə çatmağa heç bir ümid yoxdu. Ömrüm də eşşəyimin ömrü kimi burada tamammış. Elə yaxşı oldu, heç olmasa sözümü deyərəm".

– Bura bax; ağam məni barmağına dolayıb?

Dədə bəy onun sözünə təəccüb elədi.

– Ağan kimdi?

– Ağanı mən sənə tanıdacam? Mənnən çox zillət çəkən yox. Bu günnən onun ziyarətinə gedirəm. Xoşuna gəlmirəm, alsın canımı. Xoşuna gəlirəmsə, qoysun adam kimi gedim ziyarətimi eləyim. Mən onnan tay-tuş ola bilmərəm. Mənnən niyə gizlənpaç oynayır?

Dədə bəy onu indi başa düşdü.

– Şükür elə. Ağam bir yandan bağlayanda, bir yandan açır. Məni sənin köməyinə yetirib. Bəlkə də xeyir elə bundadı.

Cibo Səfər yəqin elədi ki, bu elə Əzrayılın özüdü. Üzünü qibləyə çevirdi.

www.kitabxana.net

– Əşədü la illəha illəllah, əşədü Məhəmmədin Rəsul illah, əşədü... hə, al canımı nə gözdüyürsən. Yoxsa öləndə də mənə əzab verəcəksən.

Dədə bəyi gülmək tutdu:

– A kişi, əstəğfürullah de. Mən Əzrayıl deyiləm. Qalx, gedək. Mənə qonaqsan.

O, altdan yuxarı baxdı, inanmadı ki, bu padşah görkəmli adam onu qonaq aparır.

“Sənin birliyinə inanmayan namərddi. Olubsan, varsan, olacaqsan”. – dedi. Canavarın uzunqulağı parçaladığı tərəfə getdi.

– Hara belə?

– Çarıqlarımı axtarıram. Canavar onları da yeməyibsə, götürüm. Qonağı ayaqyalın aparmayacaqsan ha.

Dədə bəy Alapaçanı sürüb onun qabağını kəsdi.

– Əlini bəri ver görüm.

– Cibo Səfərin əli Dədə bəyin iri əllərinin arasında yoxa çıxanda o artıq atın tərkindəydi.

– Məndən bərk yapış, qorxursansa gözlərini yum.

“Yox, bu nə Əzrayıldı, nə də Cəbrayıl. Dirilik suyunun sahibi Xızr peyğəmbərdi. O kişidi mənim kimi darda qalanların köməyi. O kişidi günahsızların pənahı”. Bu fikirləri deyəndə gözlərini yummuşdu və fikir onu aparmışdı. Həm yollar yorğunuydu, həm də öz-özünə danışmağın aşinası. Alapaçanın da yorğa yerişi onu yırğaladı. Fikrəmi getdi, yuxumu gördü, bir də eşitdi ki, “Xızr peyğəmbər” ona deyir:

– Çatdıq.

Gözlərini açdı. Bir güclü əl onu götürüb yerə qoydu. Gördü ki, ətrafında beş-altı qurdboğan, boynu xaltalı it var ki, hər biri bayaqkı canavarın beşini bir göz qırpımında parçalayar. Amma heç biri hürmür, ona toxunmur, bəlkə də bir az mehriban baxırlar.

– Çəkilin, – deyən kimi itlərin hərəsi çəkilib bir tərəfə getdi. Onun qabağında cavan, nazik bığlı bir oğlan dayandı.

– Dədə, bu kimdi?

– Qonaq. Allahın ən aziz bəndəsi. Paltar gətir, elə geyindir ki, bəy balası kimi.

Bayaqdı Mustafa Cibo Səfəri götürdü. Gözünü açanda özünü yaşıl əbanın içində gördü. Dəvə rəngli yun parçadan şalvar, qara məstlər. Özünə baxdı, gözünü yenə göylərə qaldırdı.

– Ey tanrı, sənə inanmayana min lə’nət.

Qaranlıq düşmüşdü. Dədə bəy Cibo Səfərlə alaçıqda üz-üzə oturmuşdular. Aralarında saxsı çıraq yanır, hərəsinin kölgəsini iki dəfə böyüdüb arxa tərəfə salırdı.

– Deyirsən Şamaxıdansan?

– Hə, başına dönüm. Olmusanmı?

Dədə bəy Şeyx Heydərlə Şamaxıya getmiş, şəhəri tutmuşdu da. Amma boynuna almadı.

– Görməmişəm. Deyillər gözəl şəhərdi. Yaxşı bazarı var.

– Kiminə cənnətdi, kiminə cəhənnəm.

– Nə iş görürdün?

– Sənətkaram. Bu çıraqlardan düzəldirdim. – O çırağı götürdü, baxdı. Barmağını çırağın altına sürtdü, – mənim çırağımdı. Mən düzəltmişəm.

– Yaxşı çıraqdı. Mən bunu Ərdəbildən almışam... Yaxşı, Səfər kişi, niyə bu kökdəsən?

– Eh, ay bəy, aləmi bəzər, özü lüt gəzər deyiblər. Şamaxı bazarında dükanım vardı. O qoca ulaqla gedib gil gətirirdim, çıraq düzəldirdim, ocaqda bişirirdim. Satırdım. Usta da çox idi, çıraq da. Qiyməti də bir şey deyil. Uşaqlarım da çox idi. On bir uşaq. Dükanımın yanında ev tikmişdim. Güc-bəla ilə dolandırırdım. Zəlzələ, bəy, zəlzələ Allahın elə bir bəlasıdı ki, ondan yaxa qurtarmaq da çətin işdi. On bir uşaq da, arvad da, sonsuz bacım da evin altında qaldılar. Bir gün qazdım, meyitlərini çıxartdım. Gecə yarısı zəlzələ başlamışdı. Mən çıraq bişirirdim. Ayaq üstəydim. Gördüm divarlar laxladı, özümü atdım çölə. Yer nənniyə dönmüşdü. Özümü evə çatdırana qədər neçə yerdə yıxıldım, durdum. Evi görmədim. Divarlar balalarımın üstünə yatmışdı. Dəli kimi oldum, havalandım. Səhərə qədər qazdım. Bütün şəhər yerlə-yeksan olmuşdu. Səhər baxdım ki, Gülüstan qalasına heç nə olmayıb. Dili qurtlu kimi dedim ki, bəs zəlzələ də varlıyla kasıbı ayırır. Onun bir daşı düşməyib, bizim bir daşımız daş üstündə

qalmayıb. Tez qaçıb şəhər rəisinin ovcuna qoydular. Balalarımı torpağa tapşırmamış, özümü zindana saldılar. Yalan demişəm, ay başına dönüm? Düz söz yerimir də. Başıma min oyun, müsibət açdılar.

– Şirvanşah Fərrux Yasar hələ durur?

– Ona nə olasıdı ki, zülmü də ərşi əladadı, Allahın yanında hörməti də ondan bir baş da hündürdədi. Bu Ərdəbildən Şeyx Heydər gəlmişdi. Camaat, yə'ni mənim kimi kasıb-kusub dedi ki, bu dəfə haqqına əncam çəkəllər. Qaçdı gizləndi qalada. Ona nə olacaqdı ki, yenə mənim kimi kasıb-kusub başını, qolunu, qıçını verdi.

Dədə bəy gördü ki, Səfər elə onlara lazım olan adamdı. Gələcəkdə işlər görə bilər. Öz yanında saxlamağa qərar verdi. Hələ Hüseyn Lələ bəyin deməyinə görə o tərəflərə yenə də səfərə gedəcəklər. Onda bu adamın onlara köməyi dəyə bilərdi.

– Qoçaq adamsan. Allah səndən üz döndərib, sən hələ də ondan üz döndərmirsən. Doğrudan da müsibətlər görmüsən.

– Bilirsən səni niyə götürdüm?

– Yox.

– Vur-tut bir eşşəyini canavar dağıdırdı, sən də namazını pozmurdun. Dedim gör Allahın necə sadiq bəndəsidi ey. Elə ona görə sənə yazığım gəldi. Götürüb gəldim. Bəs ziyarətə niyə tək gedirsən? Yolları tanımırsan, eşşəyin e'tibarsız, özün ac-susuz.

– Zəvvara qoşulanların hamısı atları kişmiş yeyən kişiləriydi. Məni oturub gözləməyəcəkdilər. Bir mənzil gəldik. Sonra mənə dedilər ki, sən yolda qalsan da, sənin əvəzindən də ziyarət eləyərik. Məni çölün düzündə tək qoyub çapıb getdilər. Mən də onların acığına qayıtmadım. Dedim mən bu əziyyətlə ki, gedirəm, mənim həccim sizinkindən müstəcəb olacaq. Belə.

– Gəl sənə Ərdəbildə bir dükan düzəldim, ev alım, evləndirim, otur işini gör. Çıraq düzəlt, sat.

– O borcun altından mən çıxa bilmərəm.

– Yavaş-yavaş verərsən.

– Bəlkə verə bilmədim.

– Onda ana südü kimi halal eləyərəm. İşləyərsən, qazanarsan, ziyarətə getməyə pul-para yığarsan. Bəlkə elə o vaxt mən də getdim. Bir yerdə gedərik ziyarətə.

Ağ atın qanadları yandı. Buludların arasından alovlana-alovlana düşdü. O düşdüyü kövşən də od aldı. Yerdən qara toz duman kimi qalxdı. Nə ağ at göründü, nə də qırmızı paltarlı süvari.

Aləmşahbəyim bayaq durna qatarından ayrılan tək durnanı seyr eləyirdi. Həmin tək durna dönüb ağ, qanadlı at oldu. Alışıb yananda, ayaqyalın, başıaçıq kövşənə tərəf qaçmağa başladı. Kövşənə çatmamış dəmirtikanlığa düşdü. Dəmirtikanlar yetişib torpaq denginə düşmüşdü, topuğu xal-xallı, xınalı ayaqlarını didib-dağıdırdı. Səmərqənd kağızı kimi ağ topuqlarını yaralayır, qanına qəltan eləyirdi. Qan narıncı, xoş rəngli xınanın da rəngini dəyişdi.

Amma o, ağrı hiss eləmirdi. Var kücü ilə qaçır, dəmirtikanlar ayağına daha dərindən batırdı. Bir azdan ayaqlarında dəmirtikandan başmaqlar vardı.

Göydən hərlənə-hərlənə ağ bir lələk düşürdü. Aləmşahbəyim onu yerə çatmağa qoymadı, göydə tutdu. Elə bildi ki, ağ atın yanan qanadından ayrılıb.

Yox, bu yaşıl, mavi, qırmızı rənglə parlayıb yanan durna lələyi idi. Başını qaldırıb gördü ki, durnaların səfi pozulub. Biri-birilərinə qarışıb, qarışıq səslər çıxardırlar. Şirin avazları da yadlarından çıxıb.

– Ay durnalar, bu lələyi göndərmisiniz dərdlərimi yazım? Qanadlarınızla dərdim yazılsa səfiniz heç vaxt düzəlməz. Ah-naləm sizə çatsa heç vaxt oxumazsınız. Göz yaşımdan o kağıza bir damcı düşsə bulaqlardan içməyə bir damcı şirin su da tapmazsınız. Lələyi tulladı, lələk uça-uça harasa getdi. O, yerdən qalxan qara burulğana tərəf yeridi.

Birdən səs eşitdi: "Ana"-dedilər. Döndü. Gördü ki, qayanın başında üç dar ağacı qurulub. Biri böyük, biri ortancıl, biri kiçik. Hara getsin, hara üz tutsun? Qabaqdakı burulğanamı, yoxsa arxadakı dar ağaclarınamı?

Bir də gördü ki, burulğandan bir adam çıxdı. Başdan ayağa ağ örtüyə bürünmüşdu. Sifəti də ağ örtüyün arxasında idi. Ona tərəf gəlirdi. Aləmşahbəyim quruyub qaldı. Ağ paltarlı onun yanından keçib qayalara özünü yetirdi. Ağ örtüyün altından bir ağ qılınc çıxartdı, dar ağaclarını doğradı. Sonra ağ libasın rəngi dəyişdi. O, qırmızı paltara büründü. Qollarını açıb Aləmşahbəyimə tərəf gəldi. Dəmirtikanlığa çatanda dayandı və qollarını ona tərəf uzatdı.

– Gəl!

– Məni sınayırsan? Səndən ötrü bu dəmirtikanlığı keçmişəm, uf da deməmişəm.

Qırmızı libaslı kişi özünü dəmirtnkanlığa vurdu. Və özünü Aləmşahbəyimə yetirdi. Onu bağrına basdı. Qara saqqalı və bığları kimi yumşaq dodaqları onun alnında, gözlərində, yanaqlarında gəzdi və qaymaq bağlamış dodaqlarında dayandı, onun sinəsi, vücudu titrəməyə başladı. Birdən-birə hər şey yoxa çıxdı. Aləmşahbəyim gözlərini açıb hücrənin səqfini gördü. Öləziyən şamın işığı səkkiz künclü səqfi güclə işıqlandırırdı. Pəncərəyə baxdı. Dan yeri sökülürdü. Əcayib bir heyvana oxşayan bulud parçası narıncı rəngə boyanırdı. Buluddan aşağıda quşlar uçuşurdu. Bu quş səfləri dəniz dalğası kimi sağa-sola çevrilirdi.

At kişnərtiləri, çöl qalanın keşikçilərinin səsləri eşidilirdi. Onlardan biri car çəkirmiş kimi hündür səsilə bağırırdı.

O, Səkinəni oyatdı. Birlikdə qala meydançasına, oradan divarın üstünə çıxdılar. Qarşı tərəfdə, qala ilə bərabər dayanan təpələrin üstündə tonqallar yanırdı. Çoxlu ilxı, qoyun sürüsü vardı. Alaçıqlar qalanı dövrəyə almışdı.

Qaladan qışqırırdılar.

– İlxılarınızı çəkin, alaçıqlarınızı sökün, yoxsa gəlib hamısına od vurarıq. – Təpə başındakı adamın gülüşünü eşitdilər. – Qala içində gizlənib hökm verən igid, qarşındakının gücünü bilsən, belə deməzsən.

Onların canına qorxu düşdü...

## GÖRÜŞ

Atlı təpədən enib çaya duşdü. Və atın yüyənini buraxdı. At dodaqlarını suya söykədi, amma içmədi. Başını geri atıb suyu ətrafına çiləyib fınxırdı. Atlı özünü yəhərdən yerə atıb çarığlı, patavalı suya girdi, ovuclarını qoşalaşdırıb içmək üçün üzünə qaldırdı. Buz kimi sərin su idi. Axşamdan bəri yol gəlirdi. Heç yerdə bulaq görməmişdi. Yol quruyub, yanmış təpələrin arası ilə keçirdi. Heç yerdə su görməmişdi. Həm özü, həm də atı susuzluqdan od tutub yanırdı. İndi ləzzətlə bu sərin sudan içib ürəyinin yanğısını söndürəcəkdi. Dodaqlarını ovcundakı suya söykəyib sümürdü və ağzında duzlu, acı bir tam duyub içdiyini də qaytardı. Çayda ilan zəhəri kimi, acı, motal şoru kimi duzlu su axırdı. Əl-üzünü yudu. Sonra yəhərə qalxıb tərpəndi. Buradan tez uzaqlaşmaq, bir kəndə, bir insan məskəninə çatmaq üçün tələsmək lazım idi. Yol təpəyə qalxdı. Oradan uzaqlar da görünürdü. Hər tərəf duz dağları idi. Duz kəllə qəndlər kimi ağarırdı. Üfüqdə o, ağac gördü. Ağac varsa demək su da var. Atı tərpətdi. Karvan yolunun torpağı qaysağ bağlamış, qaysağın üstünə isə elə bil narın duz səpilmişdi. Deməli, buradan çoxdan bəri keçən olmamışdı. Yoldan kənarda kola ilişib qalan iri bir ilan qabığı ağarırdı.

Murad iri qayalıqlara çatdı. Qayaların arasında əncir kolları bitmişdi. Meyvələri də saralmış iri yarpaqların arasında quruyub qalmışdı. Onları yığıb kişmiş kimi atı da yedirdə bilərdi, özü də yeyərdi. Çörəyi xurcunda quruyub daşa-kəsəyə dönmüşdü yəqin.

Qayalıqlar hamar deyildi. Elə bil qazanda yanıb qaralmış qənd parçalarını baltayla doğramışdılar. İri daşın üstündə yağış suyu yığılmaq üçün çökək vardı. O çökəyin yanında iri bir kərtənkələ-qayaqanan qaçmağa hazır bir vəziyyətdə dayanmışdı. Boğazının yanlarında tuluqlanmış yaşıl, qotur dəri tez-tez qalxıb enirdi.

O, atı sürdü, yolda-izdə işartı axtarırdı. Qayaların üstündən gözlərinə qovaq ağacı dəydi. Yüngül meh vurduqca ağacın yarpaqlarının arxası gümüş kimi parıldayırdı. Yəqin ki, bulaq o qovağın dibindədir. İri qaya parçalarını hərlənib keçdi. Bir dağ keçisi başını qaldırıb onu gördü və var gücü ilə tullanıb qaçdı. Deməli o da su içməyə gəlib.Amma bulağa yaxın düşmək

www.kitabxana.net

istəmirdi, qorxurdu. Bu vaxt bulağın başında çoxlu ilan ola bilərdi. Atdan düşdü, ehtiyatla yaxınlaşdı. Arxadan fışıltı eşitdi. Dönüb daşların üstündə quyruqları üstünə qalxıb biri-birinə dolaşan iki qızıl ilan gördü. Daş götürüb onlara tərəf tulladı:

– Çəkilin, ay Allahın heyvanları.

Onların dolaşığı açıldı, quyruqları ucunda ox kimi süzüb bir anda yoxa çıxdılar. O, bulağa yaxınlaşdı. Bulağın yuxarısında iri bir gürzə kürəşkələnmişdi, başını da ala-bəzək kürəşkənin ortasından çıxarmış, zəhmli ilan gözlərini harasa zilləmişdi. Bəlkə də onun qorxusundan dağ keçisi suya yaxın düşməmişdi. Yolçu iri bir daş götürüb bu kürəşkənin üstünə saldı. Daşın altından güclə sürünüb çıxan gürzə haça dilini göstərə-göstərə güclə sürünüb getmək istədi. Amma daş onun belini qırmışdı. Yolçu bir daşla da onun başını əzdi. Ətrafına baxdı. Burada çoxlu ilan qabığı, ilan izləri vardı. Bulağın aşağısında isə dağ keçisi ləpirləri, canavar, dovşan, tülkü izləri gördü. Tez atın yanına qayıtdı, xurcundakı cürdəyi çıxarıb doldurdu, xurcuna qoydu. Camı isə bir neçə dəfə doldurub içdi.

– Lə’nət yezidə, – deyib camı da cürdəyin yanından xurcuna qoydu. Atını da bulağın yanına çəkdi. At da başını əyib sısqa bulağın gölməçəsini qurutdu. Sonra yəhərə qalxıb rahatca yoluna davam elədi.

Qaçaq Murad kimi tanınan bu adam neçə illər idi ki, Çuxur Səddə, Diyarbəkrə, Şərura, İstanbula gedən karvan yolu üstündə qaçaqçılıq eləyirdi. Özünün də ən çox soyduğu divan mə’murları idi. Vergiləri yığıb qayıdanda yolda hamısını əllərindən alır, qaytarıb bir də həmin kəndlərdə paylayırdı. Karvanlardan isə bə’zisinin yükünü alıb buraxır, bə’zisindən isə pul alıb yola verirdi.

Bir gün ona demişdilər ki, Urmiyyətli bir tacirin evində bir mücrü qiymətli daş-qaş, lə’l cəvahirat var. Muradın dəstəsi neçə gün şəhərə girməyə imkan gözləmişdilər, hamıdan gizlənmişdilər. Axşam şəhərə girmiş, tacirin evinə ayaq qoyanda görmüşdülər ki, ziyafətdi. Süfrədə hər cür naz-ne’mət var. Kuzələrdən piyalələrə şərab süzüblər. Məclisin başında bardaş qurub oturan söz demək istəyirdi ki, Murad onun sözünü kəsdi.

– Qaçaq Murad sənin sözünü şəkərnən kəsir. Dediyini yadından çıxartma, biz işimizi qurtarıb gedəndən sonra danışarsan.

Qılıncın üzü soyuq olur. Qaçaqların əllərindəki yalın qılınclar elə bil hamının üstünə soyuq su çiləmişdi. Həm də qaçaq Muradın adını eşitmişdilər.

O yetirib yük yerindən, farmaşdan ipəyə bükülü mücrünü götürmüşdü. Gəlib tacirə demişdi:

– İndi sözünü deyə bilərsən.

Tacirin dili söz tutardı?! Murad qapıya qədər getmiş və dönüb:

– Halal elə, hörmətli tacirbaşı. Bundan sonra karvan yolları daha sənin üzünə açıqdı. Neçə dəfədi xərac verməmiş ötürdün, elə bilirdin Murad bunları yaddan çıxardır? – Amma birdən-birə o fikrini dəyişmiş, mücrünü qaytarıb yerinə qoymuşdu. Tacir bunu görüb ürək döyüntüləri azalmış, dili topuq vura-vura ondan soruşmuşdu:

– O mücrüyə görə gəlmişdinsə, niyə aparmadın?

– Mən sənin çörəyini yemişəm, çörəyə isə bizdə xəyanət olmaz.

– Mən sənnən nə vaxt duz-çörək kəsmişəm? O mücrünü apar, ancaq bu sözü demə. Bilərlər ki, mən qaçaq Muradla duz-çörək kəsirəm, hamı mənə düşmən olar. Elə biləcəklər onların karvanının qabağını kəsdirən mənəm. Mən tacir, sən qaçaq. Biz harda görüşmüşük ki, duz-çörək kəsək. De, qoy oturanlar da eşitsin.

Murad qapının ağzında oturub süfrədən plov dolu nimçəni qabağına çəkib şapalaqlayıb aşıran yoldaşını göstərmişdi.

– Budur, baxın. Mən olmayım, yoldaşım olsun. Nə fərqi. Qaçaq Murad hələ kəsdiyi duz-çörəyə xəyanət eləməyib. Bu bir tikə çörək məndən ötrü o mücrüdən qat-qat qiymətlidi. İndi halal elə, mən də sənin çörəyindən kəsim.

Tacirin rəngi-ruhu üstünə gəlmişdi.

– Ana südü kimi halal xoşun olsun. O, qalxıb mücrünü gətirib onun qabağında açdı.

– Sən ki, belə mərd adamsan, bunun hamısını sənə bağışlayıram.

– Yox, mən sözü bir dəfə deyirəm.

Murad süfrədən çörək, qızardılmış quzu budu götürüb çıxmışdı.

Yerdə oturub plovu şapalaqlayıb ötürən qaçaq Xalıq Muradın qabağında dil uzadıb demişdi ki, bir tikə çörək nədi ki, ondan ötəri sən bir mücrü cəvahirdən keçdin. Sən istəmirsən, onda mən gedib gətirərəm, sən payını götürmə.

– Sən bu işi tutsan, onda gərək düşmən olaq.

– Olaq da.

– Bir mücrü daş-qaşa görə?

– Azdı? İndiyə kimi yol kəsirik, özümüzü oda atırıq, ələ keçirdiyimizin hamısını da aparıb paylayırsan kasıb-kusuba. Bizimki də olub aldım qoz, satdım qoz, mənə qaldı şax-şaxı. Daha bəsdi. Özümüzə də bir gün ağlamaq vaxtı çatıb.

Murad yoldaşlarına baxmışdı.

– Kim Xalıq kimi fikirləşirsə, ayrılıb getsin.

Görmüşdü ki, elə hamısı onun kimi fikirləşirmiş.

Atını minib demişdi.

– Salamat qalın. Mən getdim.

Ona çox yalvarmışdılar, qalıb onlara yenə də başçılıq eləsin, qalmamışdı. Atını sürüb getmişdi. Ərdəbilə tərəf üz tutmuşdu. Çünki bu illər ərzində yollarda onun rast gəldiyi adamların çoxu müridlər idi, həqiqət axtarmaq ümidilə getdiklərini deyirdilər. O da baxtını sınamağı qərar vermişdi.

Əlincə qalasının qaranlıq, nəm zindanlarında bir məhbus vardı. Daş qəfəsə yerləşməyən bu cavan səbrsizlikdən daş divarları uçurub dağıtmağa can atırdı. Amma biləklərinə bilərzik kimi bərkidilmiş zəncirlər divara mıxlanmışdı. Ayağındakı paslı kündələr onun hərəkətlərini ağırlaşdırırdı. Onunla üz-üzə divara zəncirlənən qocanın bədəni tük gətirmişdi, ağ, nurani saqqalını his basmışdı. Qaşları uzanıb çuxurdakı gözlərini örtmüş, kipriklərinə qarışmışdı. Zəncirlərə də, kündələrə də sakit, mə’lul-mə’lul baxırdı. Onlara əyinə geyilən paltar kimi öyrəşmişdi.

– Dözümlü ol, ey cavan.

– Səbr elə, səbr elə. Mən buradan çıxacam, çıxandan sonra düşmənlərimin hamısını belə zəncirə vurub illərlə işıq üzünə həsrət qoyacağam.

Qocanın səsində də bu zindana ahəngli bir qəribəlik vardı. Elə bil o elə burada əlləri zəncirdə, ayaqları kündədə doğulmuşdu, buraya öyrəşmişdi.

– Cavanlıqda mən də sənin kimi deyirdim. İndi məni buraxsalar da getmərəm.

– Neçə ildi buradasan, qoca?

– Sayını itirmişəm. – Qolunu qaldırıb divardakı hansı yazınınsa üstünü təmizləyib oxumaq istədi. Qolu qalxmadı. Qolu əzələ qaldırar. Onda isə əzələ qalmamışdı. Cır-cındır arasından bir dəri, bir sümük, çöp kimi nazik qolu görünürdü. Onun zənciri qaldırmağa gücü qalmamışdı.

– İndi hansı padşahın vaxtıdı?

– Ağqoyunluların.

– Onlar kimnən sonra gəlib?

– Qaraqoyunlulardan.

– Əmir Teymurun oğlu Miranşah necə oldu?

– Əmir Teymura, Miranşaha bax ha! Onlar çoxdan o dünyadadır. Səni bura kim salıb?

– Çoxdan burdayam, lap çoxdan. Məni buraya Miranşah saldırıb, ömürlük.

– Bəs səni niyə buraxmırlar? – Cavan oğlan təəccüblə soruşdu.

– Mən hürufiyəm. Fəzlüllah Nəiminin cavan müridlərindən idim. O vaxt mənim on səkkiz, on doqquz yaşım vardı: Dedilər kamilliyin, hürufiliyin yeri zindandı.

– Hürufi. Qaraqoyunlular ki, onları tə’qib eləmirdi.

– Nə bilim. Bu altmış ildə neçə zindanban dəyişib?

– Mən səni azad edərəm.

Onlar divarda üz-üzə zəncirlənmişdilər. Özləri də samanın üstündə oturmuşdular. Qocanın əynindəki cır-cındırı saymasaq lüt-üryan idi. Cavanın əynində isə bahalı parçadan təzə libas

vardı. Bir neçə yerindən cırılmışdı. Tutulanda, əlbəyaxa olmuşdu. O, Uzun Həsənin qardaşı oğlu Rüstəm Mirzə idi. Əmisi oğlu Sultan Yaqubun oğlu Bəysunqurun taxtını təcavüzdən qorumaq üçün Süleyman Bican oğlu ilə Əbih Sultan onu Əlincədə zəncirləməyi ən təhlükəsiz yol bilmişdilər.

– Məni azad eləyərsən? Özün məndən də qara gündəsən, ay cavan. Məni azad eləyəcək bir məxluq var. Günlərin bir günü, elə bu yaxınlarda gələcək və azad eləyəcək – deyən qocanın dodağında xəfif bir təbəssüm gəzdi.

– Xəbər göndərib?

– Bəli.

– Doğrudan?

Rüstəm Mirzənin qocaya paxıllığı tutdu. Onu yox, gərək Rüstəm Mirzəni azad eləyələr.

– Buradan çıxmaq istəyirsən?

– Yox, istəmirəm.

– Əgər istəmirsənsə, onda qoy məni xilas eləsin. Sən qoca kişisən, heç bir iş görə bilməyəcəksən. Amma mən çıxan kimi taxt-tacı ələ keçirəcəm, səni çıxardıb sarayda pambıq içində saxlayaram. Nədi, razısan?

– Yox, cavan şahzadə. Mənim xilaskarım sənə kömək eləyə bilməz.

– Nə üçün eləmir? Onu dünya malından qəni eləyərəm. Özü ağırlığında qızıl verərəm. Mahal bağışlayaram.

Rüstəm Mirzə odlu-odlu danışır, qollarını atıb-tutmaq istəyir, amma zəncirlər o hərəkətləri yarımçıq saxlayırdı. Bundan da az qalırdı ürəyi partlasın. Bağlı olmasa qocanın saqqalını əlinə keçirib başını divara vurar, onu bu işə razı salardı. Amma indi ən kəskin silahı onun dili idi.

– O, hədiyyə götürmür. Ona qızıl-cəvahir lazım deyil.

– Bu dünyada elə adam olar ki, qızıla-cəvahirə e'tinasız baxsın? Əmir Teymur bütün ölkələrin xəzinəsini əlinə toplamışdı, yenə doymurdu. Gedirdi Çinin də var-dövlətini alsın.

– Öləndə neylədi o var-dövləti? Özüylə apardı?

– Yox. Aparıb neyləyəcəydi. Övladlarına qaldı.

– Görürəm, sən də hökmran olmaq istəyirsən. Amma nə üçün? Nəyə lazımdır o taxt-tac ki, hamı ona nifrət eləyir. Qan tökməyə, adamları öldürməyə, şəhərləri talamağa gedirsən?

– Onu gələcək göstərər. Sən mənə qurtuluş yolu göstər. Qoy sənin xilaskarın məni aparsın. – Rüstəm Mirzənin sözlərində hökm olsa da, danışığının ahəngində yalvarış vardı.

– Mən ona hökm edə bilmərəm.

– Kimdi axı səni xilas edəcək məxluq.

– Əzrayıl.

Rüstəm Mirzənin qolları boşaldı. Başını aşağı saldı. Yanağına milçəkmi, arımı, hansı böcəksəmi qonmuşdu, onu dalayırdı. Amma bayaqdan onu qovmağı da ağlına gətirmirdi. İndi onu qovmaq üçün sifətini qoluna sürtdü. Xeyli fikrə getdi. Amma darıxdı. Danışmayanda taleyi, dərdi tez yadına düşürdü.

– Düzdü, Əzrayıl səni xilas eləyə bilər, məni yox. Mən hələ buradan çıxacam. Əzrayıla o qədər iş tapacağam ki. Birinci onun cənginə sarayın ən sadiq köpəyi Əbih Sultanı verəcəm. Məni o gətirib bu zindana salıb. Yoxsa mənim bir tükümə toxunmağa da heç kimin ixtiyarı və gücü çatmazdı. Çıxan kimi yox, heç Əzrayıla da ümid olmayacağam. Əzrayıl xəbər tutana qədər onu öz qılıncımla özüm doğrayacam.

– Sənin əqidən odur ki, çıxan kimi kimisə öldürəsən, elə deyilmi, cavan şahzadə?

– Bəli! Bəs sənin əqidən nə olub? Bu qədər ki, onun yolunda əziyyətlər çəkmisən, yəqin ki, taleyinə lə'nət oxuyursan.

– Yox, cavan oğlan. Biz bütün insanları kamilliyə çatdırmaq istəyirdik– Mürşidimizin buna görə diri-diri dərisini soydular. O, uf demədi. Öz əqidəsinə qurban getmək kamillikdir. Mən də həmçinin. Amma sən heç nəyə qurban getmədən hökmdar taxtına çıxmaq, çıxan kimi də kimlərisə qurban vermək üçün indidən fikirləşib tədbir tökürsən.

Qoca başını divara söykəyib gözlərini yumdu. Titrək, quru dodaqları vird eləməyə başladı. Rüstəm Mirzə onun dediklərinə qulaq asırdı.

– Axır ki, mənə ən ağır cəzanı verdilər. Bu altmış ildə gördüklərim toy-bayram imiş. Nə böyük əzablar verirsən mənə, ulu tanrı. Əcəl, gəl çıx, Əzrayıl, gözümü yollarına dikmişəm.

Rüstəm Mirzə elə bildi ki, qoca onun halına acıyır. Ona görə özünə ölüm arzulayır ki, kənc şahzadənin əzablarını görməsin.

– Qoca, – deyə dilləndi. – Özünə ölüm arzulama, həyat şirindi. Bir dəfə gün işığına çıxsan, dünyanı görsən, axar sulara, dərin göylərə baxsan, ölüm fikrini özündən uzağa qovarsan. İnandırıram səni, tezliklə mənim zəncirlərim qırılacaq, onların yerinə hökmdar bazubəndi taxılacaq. Bax o vaxt səni azad eləyib saraya apararam. Mənə vəzirlik eləyərsən. Görürəm ki, savadlı, müdrik adamsan. Özün da adam görməmisən, fitnələrdən, fəsadlardan uzaqsan. Düz yol göstərərsən.

Qoca gözlərini açıb qarşısındakı qartalbaxışlı, daralınlı, yoğunbiləkli gənc şahzadəyə baxmaq istəmirdi. Onun əqidəsinə görə insan kamilləşdikcə qan-qadadan, dava-qırğından uzaq olmalıdır. Bu qan-qan deyən şahzadəni onunla üz-üzə qoymaq onun üçün ən böyük cəza idi.

– Sən məni xilas edə bilməzsən.

– Hökmdar istədiyini eləyə bilər.

– Yox, hökmdarlar belə zindanlar tikmək, insan zəkasını buxovlamaq üçün gəlir. Sən də elə buna çalışırsan. Onsuz da mən azadam. Cismani olaraq zindandayam, ruhən isə buludlar kimiyəm. Biz “ənəlhəq” demişik.

Rüstəm Mirzə istehza ilə güldü.

– Ənəlhəq! Haq, məndədi, əstəğfürullah, Allah mənəm. Bu xam xəyaldı. O şöhrətə, yə’ni Allah olmaq niyyətinə hələ heç kim çatmayıb və heç vaxt da çatmayacaq. Çingiz Xaqan da belə bir xəyala düşmüşdü. Nə oldu sonu? Fi’ron da özünü Allah sayırdı. Siçan kimi suda boğulub öldü. Əstəğfürullah, onların allahlığa qalxmaq iqtidarı daha çox idi. Çünki yer üzünün allahı idilər. Amma gücsüz, yaşının hamısını zindanda keçirmiş qocanın allahlıq iddiası gülünc deyilmi? Bax, bizi üz-üzə zəncirləyiblər. Birimiz allahlıq, o birimiz hökmdarlıq arzusundayıq. Görək kimin arzusu, niyyəti həqiqətdir? Sənin, ya mənim!

Onun qocanı ələ salmaq, gülünc vəziyyətdə qoymaq niyyəti öz tə’sirini göstərdi.

– Adi şeyləri qarışdırırsan. Allahlıq, kamillik insanın daxilindədir. Əgər o özünü hazırlayıb ruhən bu yüksəklikdə dayana bilirsə, yer üzündəki xeyir əməllər onun iradəsindən asılıdırsa, o haqdır!

Rüstəm Mirzə deyəsən onu yavaş-yavaş başa düşməyə çalışırdı. Amma qəbul edə bilmirdi.

– Tutaq ki, kamilsən, haqqa çatmısan. Biləklərin zəncirdə olarkən, onda sənin xeyirxah əməllərin kimə lazımdır? Səsin ki, heç yerə çatmır. Bu isə allahlıqdan çox uzaqdır. Sən acizsən. Bizim dövrümüzdə aciz insan nə qədər kamil olsa da güclülərin ayağı altında qalıb məhv olacaq.

– Söhbət tək məndən getmir. Dünyadakı insanların hamısını kamil görmək istəyirik. Hökmdardan tutmuş qula qədər.

Rüstəm Mirzə ürəkdən qaqqa çəkib güldü.

– Bax, bu əsl allahlıq iddiasıdır. Onların hamısını kamil eləmək ya Allahın ağlına gəlməyib, ya da ağlına gəlsə də bacarmayıb. Yox, mən hürufi olmaq istəməzdim. Bir şey mə’lumdur ki, hamı Allah ola bilməz. Hamı qul, yaxud hökmdar olmağa qadir deyildir. Yox, sizin əqidəniz bu dünya üçün deyil. O dünyada, orada da kamillərlə nadanları ayırıblar. Kamillər cənnətdə, cahillər cəhənnəmdə.

– Yox, kamillər cəhənnəmdə, cahillər cənnətdə.

Hava qaralmışdı. Qapının kilidi şaqqıldadı. Zindanban içəri girib hərəsinin yanına bir saxsı parçda su, onun da üstündə bir əl boyda arpa çörəyi qoydu. Heç bir söz demədən çıxdı və qapını bağladı. Qapı açılıb-örtüləndən sonra elə bil içəri qatı zülmət çökdü.

Sultan Yaqub öləndən sonra onun yerinə keçə biləcək övladı Şirvanşah Fərrux Yasarın bacısından olan oğlu Bəysunqur idi. Süleyman Bicanoğlunun qızından hələ dünyaya övlad gəlməmişdi. Lap bələkdə qızı da olsa onu Sultan taxtına çıxarardı. Çünki sarayın ən hörmətli, ən

qüdrətli adamı Süleyman Bicanoğlu olmuşdu. O, Şeyx Heydəri öldürəndən sonra Şirvanşahın da yaxın, e'tibarlı adamı olmuşdu. Sarayın ikinci məşhur şəxsiyyəti Əbih Sultan sayılırdı. O, Uzun Həsənin vaxtından hökmdarlarla qohum olmaq niyyətində olsa da baş tutmamışdı. Amma Diyarbəkrdəki qohum-əqrabalarının çoxluğu, onun qoşun toplamaq, sərkərdəlik bacarığı yüksək qiymətləndirilirdi. Rüstəm Mirzənin də qəsdinin üstünü o açmış, tərəfdarlarını qılıncdan keçirib özünü Əlincə qalasına saldırmışdı. Bundan sonra yerini daha isti, daha möhkəm hesab eləyirdi.

Bəysunqura atasının Bağdaddan gətirib oğluna xoca təyin etdiyi alim Müzəffərəddin yenə də dərs keçir, din tarixini, siyasət əsaslarını, riyaziyyatı, poeziyanı, coğrafiyanı və başqa elmləri tədris eləyirdi. Atasının ölümünə qədər müəlliminin yanına şagirdi gedirdisə, Sultan taxtına oturandan sonra müəllim onun yanına gəlir, baş əyir, əlini öpürdü. Bəysunqur müəlliminin onun qarşısında torpağı öpməyinə icazə vermirdi. Bu gün xoş bir hava idi və "Səkkiz behişt" sarayının Yaqut otağında Bəysunqur müəllimi ilə məsləhətləşirdi.

– Ayrı ölkələrdən Sultan sarayına gələn elçiləri nə ilə heyrətə salmaq olar, xoca Müzəffərəddin?

– Taxtın, tacın qiyməti, onların üstündəki daş-qaş. Sonra hökmdar sarayının taxtını qoruyan daş-qaşla bəzənmiş silah qurşayan qırx nəfər həbəş qul. Saray ə'yanlarının geyimləri, sarayın bəzək-düzəyi... Böyük vəzir Nizamül-mülk dövlətin qüdrətinin təcəssümünü bunda gerürdü. Bundan əlavə zəmanənin böyük şairi bu sarayda olarsa, onun hörməti daha da arta bilər, sultanım.

– Xoca Müzəffərəddin, hərəmxana da hökmdarın qüdrətini, zövqünü tə'yin edər. Ölkəmizdə millətlər də çoxdur. Onların qızları barəsində o ağıllı kitablarda nə yazılıb?

Sifətinə hələ tük gəlməmiş, taxta oturandan hələ heç bir iş görməyən bu on yaşlı uşaq dəbdəbə və hərəmxana rahatlığı barəsində düşünürdü. Xoca Müzəffərəddin onun bu fikrini uşaq marağı, erkən şöhrətpərəstlik, ya da böyük gələcəyi olan qüdrətli bir fatehin onun qəlbindəki ilk qığılcımları hesab etdi. Amma bu təzahürün hansına aid olduğunu dərk edə bilmədi. O, şagirdinin sualına mükəmməl cavab verməli idi.

– Böyük hökmdar, hind qızlarının beli incə, şəvə saçları uzun, əqlləri isə bir o qədər gödək olur. Məkkə qızlarının şəkər dili, zə'rif dəriləri, naz-qəmzələri və ağılları çox məşhurdur. Onlar qısqanclığın, bədxahlığın nə olduğunu bilməzlər.

– Türk qızları necə?

– Türk qızları gözəllik, zəriflik mücəssəməsidir. Onların gözlərindəki məlahət heç bir gözəldə tapılmaz. Onlar uşaq doğmaqda də fərasət əhlidilər. Uşaqları da özləri kimi gözəl olur.

– Yalnız tə'rif?!

– Bəli. Onların bir qüsuru var ki, bu qüsur hökmdar hərəmxanasında qəbahət sayılmaz.

– Nədir o qüsur?

– Bədxərclik.

– Bu qüsur deyil.

– Rum qızları sizə mə'lumdurmu, sultanım?

Bəysunqurun gözləri qabağında bir neçə dəfə gördüyü bibisi Aləmşahbəyim dayandı.

– Bəli. Danış.

– Onların saçları qızılı rəngə çalır. Həm də ipək kimi yumşaq olur. Onların dəniz kimi göy gözləri olur, ərinin bir sözündən çıxmır. Bədxərc deyillər və sədaqətdə əvəzsizdilər.

Bəysunqur son sözləri eşitmədi. Onun gözləri qarşısında qızıl saçlı, mavi gözlü bibisi Aləmşahbəyim dayanmışdı. Üç-dörd yaşında görmüşdü. Sonradan anası, Fərrux Yasarın bacısı onun ərini nə qədər pisləsə də, ilk təəssürat onun qəlbindən silinib getməmişdi. İndi o üç oğlu ilə bərabər zindandadır.

O, müəlliminin getməyinə icazə verdi. Süleyman Bicanoğlunu çağırtdırdı.

Beli azacıq donqarlaşan, ağ saçları çalmasının altından çıxan qaraşın, tökmə Süleyman Bicanoğlu gəldi. Çalmanı lap qaşlarının üstünə qədər endirmişdi. Alnındakı çapığı gizlətmək istəyirdi. Amma çapığın ucu onun qaşını da yarıb keçirdi. Sol qaşı ağ bir zolaqla iki yerə ayrılmışdı.

Süleyman Bicanoğlu əlini enli sinəsinə qoyub baş əydi. Düzəlib düz Bəysunqurun sifətinə baxdı. Bəysunqur onun atasına belə düz və dik baxdığını görməmişdi.

– Otur.

Süleyman Bicanoğlu taxtın yanındakı kürsüdə oturdu. Onun sir-sifətindən hiss olunurdu ki, o özünü bu sarayda Bəysunqurdan daha hüquqlu adam sayır. Onda laqeydlik vardı. Bilirdi ki, çağırıldığı hər hansı məsələdə Bəysunqurun yox, onun fikri yeriyəcək.

– Əmir Süleyman, bibim Aləmşahbəyim uşaqları ilə bərabər zindandan çıxarılıb saraya gətirilməlidir.

– Hökmdarım tez-tələsik fərman vermirmi? – deyə o taxtında oturan, qiymətli kəmər və xəncəri, parıltılı libasında zərgər əlindən çıxan bəzək əşyasına oxşayan Bəysunqura gülümsədi. – Səltənətin əmin-amanlığı qohumluq hissindən yuxarıda dayanmırmı?

– Bacısını, bibisini zindanda saxlayan hökmdarın ölkəsində nə hörməti ola bilər? Özünü xoşbəxt eləyə bilməyən sülalə başqalarına nə gün ağlaya bilər?

Süleyman Bicanoğlu onun hücumunun qabağını almaq üçün öz sübutunu gətirdi:

– Rüstəm Mirzə də bu sülalənin oğludur. Onda onu da Əlincədən gətirmək pis olmazdı.

– Yox, Rüstəm Mirzə mənim düşmənimdi. Bir də ki, o kişidi. Bibimə sözünüz nədi?

– Şeyx Heydərin uşaqları ondan da qorxuludu.

– O körpələrin nəyindən qorxursunuz?

– Mən allahımdan, hökmdarımdan başqa dünyada heç kimdən və heç nədən qorxmuram. Yox, qorxduğum bir şey var, indi yadıma düşdü. Çəkdiyin zəhmətin hədər getməsi. O uşaqların ataları Fərrux Yasarın qanına susamışdı. Mən olmasaydım indi Şirvan şahlığı da yox idi. İndi o zəhməti batıraq? Sultani əzəm, onları çıxarsanız,hökm verin məni onların yerinə zindana salsınlar.

Bəysunqur səltənətin dirəyi olan Süleyman Bicanoğlunun bu sözləri müqabilində təslim oldu. Dinib-danışmadı. Qoca sərkərdə də susdu.

Pişxidmət içəri girib Əbih Sultanın ona gətirdiyi atı göstərmək istədiyini dedi.

– Yaxşı, gəlirik.

Əbih Sultan eşidəndə Süleyman Bicanoğlu hirslə pişxidmətə baxdı. Bəysunqur bu baxışın arxasında nə gizləndiyini dərk eləyə bilmədi.

– Əmir Süleyman, ürəyi sözlü adama oxşayırsan?

– Heç, Sultanım.

Bəysunqur əl çəkmədi.

– Ürəyini hökmdardan gizlədən sərkərdə ordunu bada verər. – Öz dediyi sözdən də özünün xoşu gəldi.

– Nə haqqı var sərkərdə ürəyini gizlətsin.

– Onda düzünü de.

Əmir Süleyman məqamın yetişdiyini görüb fikrə getdi. Özünü ikili-üçlü saldı. Belədə indi deyəcəyi sözün yükü ağır olacaqdı.

"Əbih Sultan xeyli baş apardı. Hər yerdə özünü gözə soxdu. Ondan xəta əskik deyil. Bəysunqurun qılığına girsə sabah mənim də kəndirimi vuracaq. Onsuz da mən hökmdarın ögey anasının atasıyam. Onun anasının mənim qızımdan zəhləsi gedir. Oğlunu da mənim üstümə qaldıra bilər. Bu da ki, körpə uşaqdı, taxt da əlinə tez düşüb, nə hökm versə yerinə yetirirlər. O da şirnikir. Ağlına salsalar, mənim başımı elə indi vurdurar".

– Nə oldu, əmir Süleyman?

– Heç. Canfəşanlıq eləyən bə'zi adamlar var. Bə'zi sərkərdələr hökmdara ölkələr alıb-verir, əvəzində heç nə istəmir, bə'zisi də bir çöpüklü qulan verib əvəzində həmin ölkənin açarını istəyir.

O, fikrini açıq-aşkar demişdi, Bəysunqur taxta keçəndən sonra Süleyman Bicanoğlu İraqda onu tanımaq istəməyən Atabəyi məğlub etmiş, başını gətirib Bəysunqurun ayaqları altına atmışdı. Əvəzində də heç nə istəməmişdi.

– Əbih Sultan barəsindədi sözün?

– Dedim də sultanım. – O hirslənəndə alnındakı çapıq qanla dolub qızarırdı.

– O da Rüstəm Mirzənin sui-qəsdinin üstünü açıb.

– Necə, böyük hökmdar? O sui-qəsdi açan da özgəsidir. Onun xidməti o oldu ki, Rüstəm Mirzəni tutdu və adamlarının çoxunu qılıncdan keçirtdi. Hələ bəlkə də heç sui-qəsd yox imiş. Siz cavansınız, hökmdar. Bu əmirlər ki var, özlərini sədaqətli göstərmək üçün hər hiyləyə əl atırlar. Bilmək olmaz. Mən atanız mərhum Sultan Yaqubun qayınatası idim və onun səltənətinin möhkəmlənməsi yolunda özüm qocalsam da, qılıncım korşalmadı. Mənim üç il-beş il ömrüm qalıb, əgər alnıma öz əcəlimlə ölmək səadəti yazılıbsa, o da olmasa lap tez köçəcəyəm. Mənim dünyada heç nədə gözüm yoxdu. Sədaqətimi bundan sonra sübut eləməyə ehtiyac duymuram. Amma Əbih Sultanla bir az ehtiyatlı dolanmağı məsləhət görürəm. Ondan heç gözüm su içmir.

– Nə eləyə bilər ki? – Bəysunqur uşaq qorxaqlığı ilə soruşdu.

– Ehtiyatlı olsaq, heç nə. Olmasaq, çox şey. Əsli-nəcabəti olmaya-olmaya sarayda yüksəldilənlərin əlinə imkan düşən kimi səltənət yaratmaq həvəsinə düşməyi tariximizdə nadir hadisə deyil. Onda belə bir hərisliyi mən sezirəm. Bir də ki, o nə üçün özü gəlib sənin torpağını öpmür, pişxidmətlə sifariş göndərir. Bu hökmdara hörmətsizlikdən başqa nə ola bilər?!

Bəysunqurun ağlına batdı bu sözlər.

– Mənə babam Uzun Həsən kimi at seçmək istəyir. Möhlət alıb getmişdi, indi o atlara baxmalıyam mən.

– Hökmdara atmı qəhətdi?

– Yaxşı, Əbih Sultanın sədaqətinə şübhəmi var?

– Var! Onun cilovunu buraxanda çox iş görər. Əbih Sultanı hörükləmək, hörüyünü də qısa eləmək vacibdir.

Bu söhbətdən sonra Bəysunqur qoca sərkərdənin müşayiəti ilə saraydan çıxıb yaxınlıqdakı cıdır meydanına getdilər. Uzun Həsəndən sonra hökmdara at seçmək əsl mərasimə çevrilmişdi.

Hökmdarı görən kimi ağacların altında, xalça üstündə oturan müsiqiçilər ayağa qalxdılar, baş əydilər və çalmağa başladılar.

Əbih Sultan qabağa yeriyib baş əydi.

– Sultani əzəm, ölkənin hər yerindən atlar gətiriblər. Baxa bilərsən.

Bəysunqur babası kimi ata minib özü sınamaq niyyətində deyildi. Cıdır meydanının yanındakı köşkdə oturacaq, atları minib onun gözü qabağında səyirdəcək, sınayacaq, hansını bəyənsə öz ilxısına götürəcəkdi. Bəysunqur keçib öz yerini tutandan sonra atların nümayişi başladı.

– Bu təmiz qanlı Qarabağ cinsidi, – gözəl yəhər-yüyən vurulmuş atı təqdim eləyən üzünü hökmdara tərəf tutub bərkdən danışırdı. – Gözəldi, yaxşı qaçışı var. Cövkən oynunda əvəzi tapılmaz. Amma uzaq səfərlərdə-xüsusən susuz və quraqlıq yerlərdə dözümsüzdür. Onun yemi və suyu bol olmalıdır.

Əbih Sultan nə dedisə yüngül geyinmiş bir cavan atın belinə qalxdı və bir anda at yerindən götürüldü. Cıdır meydanı çox böyük deyildi. Burada cövkən oyunu üçün meydança da vardı, cıdır yolu da həmin meydanın ətrafına hərlənib qayıdırdı. Qarabağ atı gəlib dayandı. O yüngül töyşüsə də, amma tərləmişdi. Ayaqlarını götürüb qoyur, oynağa gedir, özünü irəli atmaq istəyirdi.

Bəysunqur əlindəki zərxara dəsmalı tərpətməklə bildirdi ki, Qarabağ atını bəyənib.

İkinci bir atı köşkün qabağına çəkdilər.

– Ərəb atıdır. Tə’rifə ehtiyacı yoxdur. Peyğəmbər əleyhsalam özü bu atlardan minib. Dəvə kimi susuzluğa və aclığa dözümlüdü.

Bəysunqurun əlindəki dəsmal yenə tərpəndi.

Köşkün qarşısına balacaboy, qara bir at gətirdilər.

– Sultani əzəm, bu üçyaşar ürgəni sənə Əbih Sultan bağışlayıb.

– Əbih Sultan, – deyə Süleyman Bicanoğlu onu Bəysunqurun yanına çağırdı. O gəldi və təzədən baş əydi. Başını qaldıranda Bəysunqurun qəzəbli gözlərini gördü.

– Mənə bu qatırı at adıyla bağışlayırsan?

– Bəli, Sultani əzəm. Bu, cıdır meydanına yığılan atların ən qiymətlisidir. Onu çox müsibətlə tapmışam.

– Çox gözəl iş görmüsən, onu da hökmdarın başına qax!

– Bir Allah şahiddi ki...

– Allahı şahid gətirib, Sultanı təhqir eləyirsən, ələ salırsan. Bunun gətirdiyi hədiyyəyə bax, bəxşişə fikir ver!

Əbih Sultan gördü ki, Bəysunqurun yanında artıq onun kəndirini vurublar. Arası düzələsi deyil. Bəlkə də elə buradan onu zindana apardılar. Özünə haqq qazandırmağa çalışdı.

– Sultani əzəm, bu monqol atıdı. Çingiz xan bunlarla dünyanı fəth eləməmişdirmi?

– Monqol atı... Atı minirdilər, südünü sağıb içirdilər, ac qalanda da ətini yeyirdilər. Olmaya sən də madyan tapıb gətirmisən?

– Bəli, hökmdar sağ olsun. Monqol atlarının madyanı daha qiymətlidir.

– Əmir Süleyman, eşitdin?

– Bəli, Sultani əzəm. Ağ elədi ha... Elə buradaca.

Əbih Sultan artıq vaxtın yetişdiyini görüb ayağını qaldırıb balaca atın belinə aşırdı.

– Qoy bir dövrə vursun, onda görərsiniz – o, monqol atını tərpətdi. Bu at elə bil ayaqlarının dördünü də birdən atır, qızıl ilan kimi şütüyüb gedirdi.

– Zindana salınsın, Əmir Süleyman, zindana. Sonra da boynu vurulsun.

Süleyman Bicanoğlu da elə bilirdi ki, o dövrə vurub qayıdacaq. Amma qayıtmadı. Cıdır meydanından çıxıb baş alıb getdi.

Qoca sərkərdənin gur səsi eşidildi.

– Əbih Sultanı tutun. Atlanın.

Fərraşlar atlara minənə qədər Əbih Sultanın mindiyi monqol atının ayağının altından qalxan toz da yatmışdı.

Muradın köhləni ayaq saxlayıb elə bil havanı iylədi, başını qaldırıb kişnədi. Qulaqlarını şəkləyib ayaqlarını yerə döydü, qayalığa tərəf dartındı. Amma o bu yerlərdən tezliklə uzaqlaşmaq, axşam qaranlığı düşməmiş şəhərə, kəndə çatmaq, karvansarada ayaqlarını yuyub yatmaq fikrindəydi. Bərk yorulmuşdu. Bu yollarda adam az idi. Amma onun da qabağına qaçaq-quldur çıxar. Düzdür, ömrü qaçaqlıqda keçən Murad özünün gücünə, fərasətinə bələd idi, özünə arxayın olmasa yollara çıxmazdı. Hər halda tanımadığı yerlərdi, kimsəsiz çöllərdi. Nə desən ola bilərdi.

At getmək istəmirdi. O baxdı, bir şey görmədi. Günortadan bəri gəldiyi yolun kənarı ilə uzanıb gələn qayalıqlar idi. Amma onun burnuna at tərinin türşumuş iyi dəydi.

Nə qədər sürdüsə at karvan yolu ilə getmək istəmədi. Onun özü də maraqlandı, silahını yoxladı, atının başını buraxdı. Heyvan yoldan çıxıb qayaların arasına getdi. Onun hər tərəfindən bədheybət heyvana oxşayan iki qara qaya ucalmışdı. Qabaqda genişlik, amma hər tərəfi bağlı bir yer idi. Balaca, qara bir madyanın yüyəni daşa bağlanmışdı. Zərbaftalı, bahalı libas geyən adam başını yəhərin üstünə qoyub yuxuya getmişdi. Onun ətrafında keçi qəzilindən toxunan bir sicim yerdə sanki dairə çəkmişdi. Belə qəzil sicimə heç bir ilan yaxın düşmür.

Muradın kəhəri madyanı görəndə başını geri atıb sağ qolunu qaldırıb yerə vurdu. Elə bil madyanı yanına çağırırdı. Madyan başını oynatdı, yalı daranmış saç kimi əfsəndi. Həvəslə fınxırdı, ayaq döydü, arxa ayaqları onlara tərəf düşdü. Təpiyini hazırladı. Yüyən başını qalxanının üstünə qoyub mürgüləyən Əbih Sultanın qolunda idi. Dartıb onu oyatdı. O, bir an key kimi oldu. Amma özünə gələn kimi qalxanı götürüb başına çəkdi.

– Axır ki, məni tapdınız Ancaq Əbih Sultan hər əbləhə can verən igidlərdən deyil!

Murad maddım-maddım ona baxırdı:

– Mən yol adamıyam. Sənnən işim yoxdu – dedi.

– Aldada bilməzsən, səni o qoca tülkü göndərib. – Onun səsi üstündə soyuq bir parıltı olan, quran ayələri dəyirmi cızılmış qalxanın altından gəlirdi. O elə bil göbələyin altında gizlənmişdi. Birdən-birə göbələk qalxdı, onun qından çıxardığı qılıncın əyri, soyuq tiyəsi parladı.

– Kimdi qoca tülkü? – Murad onun yatağan ilan kimi tullanıb qılınc çalmağına hazır vəziyyətdə idi. Özü də qılıncını çıxartmışdı. Həm də yəhərdə oturmuşdu.

– Sən tülkünü mənim üstümə göndərən.

Onun sözü Muradı hövsələdən çıxarda bilərdi. Amma hövsələsini basdı. Yad eldə, tanımadığı adamla səbəbsiz vuruşmağı özünə sığışdıra bilmirdi.

– Ağzını təmiz saxlamasan dilini itirərsən.

Əbih Sultan özünün vəziyyətini öyrənmək üçün xeyli geri çəkilmişdi və daha qalxanın üst tərəfindən baxırdı. Bu adamı tanımadı. Geyimi də heç saray adamlarının geyiminə oxşamırdı.

– Mənim dilimi kəsən heç anasının qarnında da deyil. – O meydandan aralanmışdı, amma madyan onu dartırdı. Belə vəziyyətdə o vuruşa bilməzdi. Madyanın yüyənini də biləyindən çıxarsa payi-piyada qalardı.

– Danışığınla madyan minməyin heç tutmur axı. Mən bura dönməmişəm. Kəhəri madyan çağırıb. – Murad ona lap öldürücü zərbəsini endirdi. Əbih Sultan sözə cavab tapa bilməyib pərt oldu.

– Aslanın erkəyi-dişisi olmaz.

– Atın madyanı olur amma. Bura bax, mən sənin düşmənin deyiləm, sən də mənim. Nahaq yerə acı-acı danışıb özünə düşmən qazanırsan. Vuruşmaq istəyirsənsə min atına, çıx meydana.

Əbih Sultan onun yumşaldığını gördü, amma fürsəti əldən vermədi. Cəld madyanı mindi. Amma onun üzünü bu iri, cüssəli adama tərəf döndərə bilmirdi. Madyan kişnəyib dönür, kəhəri sanki qızışdırmaq üçün ona təpik atmaq istəyir. Əbih Sultanın imkanı olsa bu an madyanı qılıncla parça-parça eləyərdi. Onu lap biabırçı vəziyyətdə qoymuşdu.

– Mən meydannan qorxan deyiləm. Çox meydanlarda çox özündən deyən igidlərin analarını ağlar qoymuşam. Sən bura mənim yanıma o qoca tülkü Süleyman Bicanoğlunun tapşırığıynan gəlmisən.

– O kimdi?

– Tanımırsan? Bəysunqur Mirzəni?

– Bəysunqur Mirzə kimdi?

– Nə dilbilməz adamsan? Bəysunqur Mirzə padşah.

– O padşah, mən rəiyyət. Onnan mənim nə alış-verişim.

Bığları qoç buynuzları kimi dayanan Muradın kəhəri qantarğanı çeynəyir, şahə qalxır, bu balaca madyanın üstünə cummaq üçün özünü yeyib tökürdü.

– Heç rəiyyətə oxşamırsan.

– Oxşadım, oxşamadım. Çuxur Səddən gəlirəm.

– Hara gedirsən?

– Ərdəbilə.

– Tacirsən? – Əbih Sultan onunla öz arasında qılınc məsafəsi saxlayıb sorğu-suala tutmuşdu, Murad isə ayaqları atın qarnından xeyli aşağı sallanan bu hikkəli şəxsin kimliyini öyrənməyə çalışırdı.

Əbih Sultan elə bil ulağı minmişdi. Onu gülünc görkəmə salan bu madyan olmasa onu hələ iki gün bundan qabaq Təbriz qapılarında asmışdılar, qara qarğalar da gözlərini deşirdi. Süleyman Bicanoğlunun adamları ovu bütün gün qovmuş, amma çata bilməmiş, səpələnib yollarda qalmışdılar. O, Diyarbəkrə qardaşının yanına gedə bilməmişdi. Çünki yəqin ki, yolları kəsmiş, Əbih Sultanın mülklərini talamağa dəstə göndərmişdilər. Hələlik ona sağ canı lazım idi. Sonra hər şey gəlib öz yerini almalıydı. Təqibdən qurtarandan sonra gecələr at sürür, gündüzlər dalda bir yerə çəkilib dincəlirdi. O artıq tədbirini tökmüşdü. Belə bir vaxtda onun arxasında dayana biləcək tək bir qüvvə vardı. O da Şeyx Heydərin müridləri idi. Onları tapsa, inandırsa onda Əbih Sultanın qarşısında nə Süleyman Bicanoğlu dayana biləcək, nə də Bəysunqur Mirzə. Amma o Şeyx Heydərin yaxın dostu Hüseyn Lələni tapa biləcəkmi? Axı neçə vaxtdır onu axtarıb tapmağı yaxın adamlarına tapşırıb. Heç bir şey çıxmır. İndi sevinirdi ki, yaxşı ki, Hüseyn Lələ bəy əlinə keçməyib. Yoxsa Bəysunqurun əli ilə öldürtdürəcəkdi. Bu dar ayaqda isə köməyinə heç kəs çatmayacaqdı.

Düzdür, Məsih Mirzə ilə aralarında söhbət olmuşdu ki, əgər Aləmşahbəyim ona arvad olmağa razılıq versə, onda Əbih Sultan Məsih Mirzəni taxta çıxarmağa çalışacaqdı. Amma Məsih Mirzənin niyyəti baş tutmadı. Əbih Sultan da oyundan çıxdı. Görünür onun bu işi

Bəysunqurun qulağına çatıb. Özünü onun gözündə qaldırmaq üçün Rüstəm Mirzənin tutulub Əlincəyə salınmasında böyük canfəşanlıq göstərdi. Yenə də qoca tülkü Süleyman Bicanoğlu onu gözdən saldı.

Əbih Sultan çox çətin vəziyyətdə idi. Onun beyni hər an bir tədbir tökür, elə işlər qururdu ki, nizənin ucu ona tərəf düşməsin. Xəta ondan yan keçsin. Kimə dəyir-dəysin, kimin günahı belə yoxdursa, qoy asılsın, başı kəsilsin, fikirlər onunla məşğul olsun. Əbih Sultan isə sudan quru çıxsın.

Onu əldən çıxardıqdan sonra Süleyman Bicanoğlunun kürkünə birə düşmüşdü. Bilirdi ki, nə qədər onun meyitini görməyibsə, öz başının salamat qalmağına ümid azdır. O, azan çaylar kimidir. Birdən-birə gözləmədikləri yerdən vurub çıxacaq və sel çox şeyi yıxıb dağıdacaqdır.

Əbih Sultan Muraddan yenə soruşdu:

– Tacirsən?

– Dedim ki, rəiyyətəm.

– Rəiyyətləri mənə tanıdırsan? Rəiyyətin çuxasının bir sapından tutub dartsan, lüt qalar. Öküzü də borc alır, xışı da, arvadının tumanını da. Sən lap saray adamına oxşayırsan. Çuxur Səddən gəlib Ərdəbilə niyə gedirsən?

Murad görürdü ki, bu çox həngaməli adamdı. Həmişə buyurub, cavab verməyib, cavab istəyib. İndi də onu öz itaətində saxlamağa çalışır.

– Məni nə sorğu-suala tutmusan? Sənə bir axça borcum varsa, de, ikisini qaytarım.

Əbih Sultan gördü ki, elə bu da onun kimi hökmlü-hikmətlidi, bir az səbrini basdı. Şirin dillə onun ürəyinə girmək istədi.

– Rast düşmüşük. İkimiz də qəribik, gərək bilək də, kimik, nəçiyik. İndi elə bir vaxtdır ki, heç kimə e’tibar eləmək olmur.

– Mən kimliyimi dedim. Bu tərəflərdə, – əlindəki qılıncı günbatana tərəf uzatdı, – karvan yollarının üstündə bir qaçaq Murad vardı. Eşitmisən?

Əbih Sultan maraqla ona baxdı.

– Eşitmişəm. Onun nəyisən?

– Qaçaq Muradın özü. Bəs sən kimsən?

– Mən! İndi tanıyacaqsan. Bir dəfə Trabzondan Qarabağa dəvə karvanı gedirdi. Onu sağ-salamat çatdırmağı mənə tapşırmışdılar. Sonra dedilər ki, burada ən qorxulu qaçaq Muradın dəstəsidir. Çox fikirləşdim, axırda bir dəvəyə alma yüklətdirdim.

Murad gülümsədi:

– Tanıdım. Əbih Sultan, sarayın ən hörmətli əmiri. Sənin tədbirin baş tutmadı. Bilməmişdin ki, hələ bir igid zəhərdən ölməyib. Almaları zəhərləmişdin, fikirləşmişdin qaçaq Murad nəfs əhlidir, qırmızı almalara tamah salacaq. Yox, yemədi. Sən bizi siçan bilib zəhərlə qırmaq istədin. Ancaq zəhər sarayda daha çox lazım olur.

Bu söhbətdən sonra Murad qılıncını qına qoydu. Əbih Sultan da onun kimi. Vaxtilə düşmən olsalar da indi artıq tanış çıxmışdılar. Biri-birilərini tanımışdılar. Ötüb-keçmiş məsələyə görə biri-birlərinə qılınc qaldırmayacaqdılar ki.

– Yaxşı, neynədin bir karvan ipəyi?

– Bir karvan niyə? Bir dəvə yükü. Sənin adamların qorxub qaçdı. Mən də tacirə dedim ki, sənin var-dövlətin bizə lazım deyil. Xarəzmdən yüz qızı satmağa aparırdılar. Onları qurtarmışdıq. Əyin-başları tökülüb, onları geyindirmək lazımdır. Tacir də gördü biz acgöz adam deyilik, dedi ki, almalar zəhərlidi. Bundan sonra karvanı Trabzona qədər yola saldıq.

– Ay köpək oğlu!

Murad yenə əlini qılınca atdı. Amma Əbih Sultan sözünü düzəltdi.

– Taciri deyirəm. Məni aldatdı, haqqımı vermədi. Dedi tamam soyublar. Heç nəyim qalmayıb.

– Deyər də. Onu qaçaqlara verəndən sonra hələ bir haqq da istəyirdin?

Əbih Sultan razılaşdı.

– Düz sözə nə deyəsən? Yaxşı, o yüz kənizi nə elədiniz?

– Onlar uzaq ellərdəniydi, geri qaytarmaq mümkün olan iş deyildi. Hansı qızın hansı igiddən xoşu gəldisə verdik ona. Hamısı da namuslu adamlara ərə getdi.

Əbih Sultan bunların hamısını eşitmişdi. Amma onu təzədən danışdırıb özündə yəqinlik hasil eləmək istəyirdi, görsün doğrudanmı o Muraddır, ya yox.

Murad soruşdu.

– Sən ki, sarayda məşhur adam idin, bu nə gündü düşmüsən?

– Sarayın vəfası bundan artıq olacaq?!

Əbih Sultan başına gələnləri danışdı. Dedi ki, onun kimi Ərdəbilə gedir. Onlar yola düşdülər. Axşama qədər getdilər. Gün əyilənə yaxın Murad geri dönüb narahat-narahat əlini qaşının üstünə qoydu.

– Böyük bir dəstə gəlir.

– Hanı? – Əbih Sultan da baxdı, bir şey görə bilmədi.

– Toz görürəm.

Quru təpələrin üfüqlə birləşdiyi yerdə toz qalxmışdı. Gün əyildiyindən o toz aydın görünmürdü, narıncı rəngə çalırdı.

Əbih Sultan əl-ayağa düşdü.

– Onlar məni axtarır. Mən gizlənim. – O fikrini dəyişdi. Sən də mənimlə bərabər gizlən. – Ağlına gəlmişdi ki, onu tutsalar birdən Əbih Sultanın yerini deyər. Murad dedi:

– Atı sür dalımca – Murad köhlənini boz yovşanlığa vurub, qayalıqlara tərəf uzaqlaşdı, Əbih Sultan da onun dalınca. Qayaların arasında Murad yəhərdən düşüb qayışla atın ağzını bağladı. – Sən də bağla, kişnəməsinlər. Özləri qayalardakı kolların arasından baxırdılar. Bir azdan dəstə göründü. Beş yüzə qədər atlı olardı. Qabaqdakı qara atlını Əbih Sultan tanıdı.

– O qabaqdakı Süleyman Bicanoğludur. Qanımı şüşəyə tutsa ürəyi soyumaz. Murad, onlar atların izini görəcək.

– Görməz. Sənin fikrin özündə deyildi. Mən qaçaq Muradam. Atları yoldan çıxarmışdım. Onlara iz verərəm?

– Mən heç buna fikir verməmişəm.

– Haradan fikir verəcəkdin. Həmişə hökmlü olmusan, yollar səninki olub. Mən də qaçaq düşüb atımı həmişə dağ-daşla sürmüşəm.

– Bu yana döndüyümüz yerə çatdılar. – Murad da baxdı. Amma dəstə ötüb keçdi. İzə fikir vermədilər. Dönüb Əbih Sultana baxdı. Onun ağarmış rəngi qara saqqalına görə daha da ağarmışdı. Alnında iri tər damlaları göründü. Elə bil onu sıxıb bu tər damcılarını zorla çıxarmışdılar.

– Heç ölməyə adam göndərmisən?

– Necə?

– Onların da anaları, bacıları var. Onların da ürəyində səndəki kimi qorxu olur, bunu bilirsən?

Əbih Sultan dinmədi. Murad ilgəyini biləyinə keçirdiyi toppuz yırğalana-yırğalana qayalıqda gəzişirdi.

– Bu tezlikdə yola çıxmaq qorxuludu. Qoy qaranlıq düşsün.

– Qaranlıq düşsün?

– Hə.

Bu "qaranlıq düşsün" kəlməsi Əbih Sultanın ürəyinə qaranlıq, qara bir şübhə saldı. "Məni öldürmək istəyir. Əynimdəki libasa, monqol atına, dəstəyi qaş-daşlı qılınca, xəncərə görə. Axı quldurun biridi. Bəlkə mən ondan qabaq tərpənim".

– Qaranlıq düşəndə niyə?

Murad onun qorxusunu başa düşdü.

– Yaxşı, mənə inanmırsansa, mən çıxıb gedirəm.

– Yox, heç yerə getmə.

Əbih Sultan fikirləşdi ki, o e'tibarlı olsa ona arxalanmaq lazımdı. İndi o belə igid, qorxu bilməz adamları tapmalıdır. Getsə bəlkə də elə. Süleyman Bicanoğluya onun yerini deyər. Qaçaq-quldurdan əl çəkibsə, üzə çıxmaq istəyəcək, üzə çıxmaq üçün də belə bir iş görməlidir.

www.kitabxana.net

Əbih Sultan cibindən pul kisəsini çıxartdı, mamırlı daşın üstünə qoydu, xəncərini da onun yanına.

– Varım, dövlətim çoxdu, amma yanımda olan budur. Götür. Özümdə qalır qılıncımın üstündəki daş-qaş, bir də bu at. Atın əvəzində sənə bir ilxı bağışlayaram. O daş-qaşın yerinə xəzinəmin yarısını bağışlayaram.

Murad yoğun barmaqları ilə bığlarını sığalladı. Onun qara bığları ağzının yanlarından qoç buynuzu kimi əyilmiş, çənəsinin bərabərində isə yuxarı qatlanmışdı. Ucları da xəncər kimi iti idi.

– Çörəyin var?

– Atın tərkində var – Əbih Sultan gedib xurcunu gətirdi. Çörək çıxartdı. Nəyi vardısa daşın üstünə düzmək istəyirdi. Murad onu saxladı.

– Gəl bir yerdə çörək kəsək, bu da olsun bizim biri-birimizə e'tibarımız.

Onlar adama bir tikə çörək kəsib duza batırdılar. Murad bu tikəni çeynəyə-çeynəyə dedi:

– Bu çörəyə and olsun ki, məndən sənə heç bir xətər toxunmayacaq.

– Mən də and içirəm. Səni həmişə özümə dost bilərəm. Mənə Əbih Sultan deyərlər, elə bir iş eləyəcəyəm ki, yaxın vaxtda yenə o saraya qayıdacağam. Onda məni tanıyarsan. Əgər arxamda dayanıb mənə bu işdə kömək eləsən sənə əmir rütbəsi verdirərəm. Bir el bağışlayaram, gedib yaşayarsan. Hələlik bunları götür.

Murad ona düşmən kimi baxdı.

– Sən elə bilirsən mən qulduram, soyğunçuyam. Andımızı içib, əhd-peymanımızı bağlamışıq. – Murad gəzinib gecələmək üçün münasib yer axtarırdı. Birdən gözü qayaya sataşdı. Orada nə vaxtsa mağara varmış. Amma mağaranın ağzını hörüb üstünü suvamışdılar. O, Əbih Sultanı çağırdı. O gəldi. – Ora bax, ağzını hörüblər.

Onlar qayanın dibinə gəldilər. Bu hörgü qədim hörgü idi. Üstünə elə suvaq çəkmişdilər ki qayadan heç seçilmirdi. Amma suvaq bir neçə yerdən uçub tökülmüş, hörgü üzə çıxmışdı.

– Bu xəzinəyə oxşayır, Murad. Özü də çox böyük xəzinəyə. Ya İsgəndər Zülqərneyinin Azərbaycanda basdırıb getdiyi xəzinədi, ya da Çingizxan nəvələrinin işidi. Əgər bu xəzinə rastımıza çıxıbsa, onda səltənətin yolu üzümüzə açıldı. Bəysunqurun xəzinəsində siçanlar oynayır, xəzinə boşdursa, qoşun da yoxdur. Murad, gəl and içək ki, bu xəzinə də bizim əhd-peymanımızı pozmayacaq.

Murad yenə tərs-tərs ona baxdı.

– Deyəsən sən sözübütöv adama oxşamırsan. Əhd-peyman belə ucuz şeydi ki, onu bir xəzinə poza bilsin?

Murad işə başladı. Suvağın qalanını da qılıncı ilə qoparıb tökdü. Daşları söküb çıxarmağa başladı. Əbih Sultan da ona kömək eləyirdi. Onlar mağaranın yolunu açdılar. İçəri girdilər və girdikləri yerdə donub qaldılar. Mağaranın yuxarısından düşən işıq içərini aydınlaşdırmışdı. Mağaranın hər tərəfindən onlara quru kəllələr baxırdı. İçəridə insan sümükləri üst-üstə qalaqlanmışdı. Divara söykənən skeletin əynindəki paltarın cır-cındırı da qalmışdı. Amma rəngi də bilinmirdi.

Mağaradan çıxdılar. Onlar çox ölümlər, ölüm vaxtı insan iztirabları görmüşdülər. Amma beləsinə rast gəlməmişdilər. Bəlkə də bir şəhərin əhalisini bura yığıb mağaranın ağzını hörmüş, acından öldürmüşdülər. Bu Çingizxan övladlarının dəst-xətlərinə oxşayırdı...

Bu dünyada bir mavi dəniz vardı. O dəniz üfüqdə mavi göylə qaynayıb qarışırdı. Sakit dənizin üstündə ağ qağayılar uçurdu. Həmin dənizin sahilindəki qara qayalar başında diş-diş qala hasarları olan bir şəhər o maviliyə qarışmışdı. Hər səhər bu şəhəri qızıl qübbəli mə'bədlərdə çalınan zəng səsləri oyadırdı.

O mavi dünyanı Aləmşahbəyim körpə vaxtı görmüşdü. Hə, yadında da o uzaq, sanki bu dünyadan köçmüş, yox olmuş şəhər mavi və qızılı rənglər şəklində qalmışdı. Özünün saçları və gözləri kimi.

Anası Dəspinə xatun həmişə o şəhərdən danışardı.

Bizans imperiyasının son qəlpəsi, ana yurdu Trabzondan söhbət açardı. Bir də o şəhərdə mavi və qızılı bir saray vardı. Deyərdilər ki, həmən sarayda İsgəndər Zülqərneynin ruhu yaşayır.

Süstləşən, qocalan, ağ dərisi altında göy damarları görünən imperator Dördüncü İohann bir gün qızı Feodaranı yanına çağırıb demişdi:

– Mən qocalmışam. Qoşunlarımız, bürclərimiz Osmanlı sultanı Fateh Məhəmmədin topları qabağında dayana bilməyəcək. İstanbul da əldən çıxdı. Avropa ilə əlaqə saxladığımız boğazlar əldən çıxdı. Daha arxanı-köməyi günbatanda yox, gündoğanda axtarmalıyıq. Yoxsa öz xidmətimiz də bata bilər. Ağqoyunluları özümə arxa bilirəm. Onlarla qohumluğumuzun tarixi çoxdan başlayır. Həmin qohumluğu təzələməyi lazım bilirəm. Osmanlı Sultanı üzünü Avropaya tutub Serbiyanı, Macarıstanı, Əflakı tutsa da, bir gün qayıdıb Azərbaycanı, Ərəmniyyəni, İraqı, Xorasanı almağa çalışacaqdır. Onların qabağında dayansa, tək Uzun Həsən dayana biləcək. Sənin xeyir-duanı verirəm. Get və Uzun Həsəni bizim imperator nəslimizə dost elə.

– Mən atamın əleyhinə getmirəm. Amma Uzun Həsən bu vilayətin bəyidir, mən isə imperator qızıyam.

– Elədi, amma yaddan çıxartma ki, onun torpaqları bizim imperiyamızdan dəfələrlə böyükdür.

Feodara ilə Uzun Həsənin toyundan sonra onun adını dəyişib Dəspinə xatun qoymuşdular.

Ər evində, Uzun Həsənin məmləkətində Trabzonun imperator sarayındakı süstlük, bədbinlik yox idi. Dəspinə xatun hiss eləmişdi ki, atası kimi onun imperiyası da qocalıb. Bu günlük, sabahlıqdır. Uzun Həsənin Amid bəyliyi isə bığ yeri tərləyən gəncə oxşayır, başdan ayağa əzələdir, sinirdir, hərəkətdir, qala divarlarını dağıdan mancanaq yayı kimidir.

Elə bil onun ayağı düşdü. Uzun Həsənin qılıncının kəsəri daha da artdı, gündən-günə şöhrətləndi, gündən-günə yurdunun hüdudları böyüdü. Elə bil Dəspinə xatunun getməyi ilə Trabzon imperatorluğunun taleyi, baxtı, xoşbəxtliyi də harayasa uçub getdi. Sarı şam kimi əridi. Osmanlı Sultanı Fateh Məhəmmədin qoşunları şəhərin divarları ilə üz-üzə ordugah saldı. Qüdrətli sərkərdənin qarşısında qoşun əvəzinə Uzun Həsənin anası Sara xatunun başçılıq etdiyi səfərətxanadan başqa heç nə dayana bilmədi. Düzdü, Fateh Məhəmməd Sara xatuna “ana”, Sara xatun ona “oğul” dedi. “Ana” – “oğul” birləşib mavi dəniz imperiyasını bərpa eləyə bilmədilər. Sara xatun gəlini Dəspinə xatunun imperiya taxtına varisliyini irəli sürdü, Məhəmməd də qəbul elədi. Ancaq nə Dəspinə xatun taxta çıxdı, nə də imperiya qaldı. Təkcə imperiyanın xəzinəsini onlarla yarı böldülər. Beləliklə də Dəspinə xatunun vətəni yoxa çıxdı, yuxuya, mavi və qızılı rəngli xəyala çevrildi.

Aləmşahbəyim dar barmaqlı pəncərənin qabağında oturmuşdu və bütün bunlar onun xəyalından gəlib keçirdi. Anası kiçik vətəndən böyük vətənə düşmüşdü, amma o özü atasının sarayından ərinin kiçik evinə, oradan da zindana gəlib çıxmışdı. Bu qala da o yuxuya bənzər mavi şəhərə bənzəyirdi. Sonuna az qalmışdı. İndi bu daş qəfəsdə oturub qızılı saplarla qara ipək üstündə o mavi ölkənin yadda qalan cizgilərini tikirdi. Dəniz idi, qayalıqlar üstündə qalalar idi, qalanın içindən qalxan qızıl qübbəli şiş binalar idi. Səkinə də oturub onun işinə baxırdı.

İsmayıl sevinə-sevinə gəldi.

– Ana, gör necə oxuyuram. Bax, bu əlifdi, bu beydi, bu nundu, bu zeydi, bu da teydi.

Anası oğlunun yazısına baxıb fərəhləndi.

– Elə bircə gündə öyrəndin?

– Bəs necə ana. Burada nə var ki?!

Səkinə sözə qarışdı.

– Çox qədim bir dastan var. Orda deyillər ki, xanın bir oğlu oldu. O qədər gözəl idi ki, ay onun sifətindən utanırdı. O bircə dəfə süd əmdi, qırx gündən sonra ova getdi, at mindi, ox atdı... Böyüyüb igid, bahadır oldu.

– Onda mən hələ gecikmişəm.

Onlar güldülər. İsmayıl anasının rəngli saplarla işlədiyi şəklə baxdı.

– Nə gözəldi. Ana, bura haradı?

– Bura? Bura nağıllarda bir ölkə vardı, oradı.

– Sən şəkli necə çəkirsən, mənə də öyrət. – İsmayıl yazdığı vərəqi bir tərəfə qoyub anasının dizinə söykəndi.

– Öyrədərsən?

– Öyrədərəm, oğul! İndi gör sənə nə göstərəcəyəm. O, bərbəzəkli, sədəf düzülmüş sandığına tərəf getdi. Dayanıb oğluna tərəf döndü.

– Yeddi dəniz arxasında bir şəhər var, oğlum. Dənizin içində evləri, sarayları dirəklər üstündə tikilib. Deyirlər o şəhər gözəlliyində dünyada ikinci şəhər yoxdur. Adına Venedikt deyirlər. Orada dünyanın ən məşhur rəssamı və nəqqaşları yaşayır.

– Evləri suyun içində tikilibsə küçələri necədi?

– Küçələri də sudu. Evdən-evə qayıqla üzürlər.

– Bunları sən hardan bilirsən, ana?

– Baban Uzun Həsənin sarayında bu şəhərin səfiri yaşayırdı, Cənabi Zenon. Həm də bizə qohum idi. Şəkil çəkməyi də mənə o öyrətmişdi. Onun Venediktdən gətirdiyi bir şəkli neçə illərdir ki, saxlayıram.

O, sandığın qapağını qaldırdı, oradan ipəyə bükülmüş bir şey çıxardı. Açdı, qızıl çərçivədə kiçik bir şəkil idi. İsmayıl heyran-heyran o şəklə baxmağa başladı. Şəkildə danışdığı şəhər təsvir edilmişdi. O yerlərin binaları bu yerlərdəkilərə bənzəmirdi. Küçələr, dəniz, eyvanlar nəfis şəbəkəli... Uzun, qara qayıqda isə qırmızı məxmər paltarlı adamlar oturmuşdu.

Qızıl çərçivəli kiçik şəkildə hər şey canlı idi. İsmayıl heç vaxt görmədiyi dənizin sanki səsini eşidirdi. Adamların hənirtisini duyurdu. Günəşin istisini hiss eləyirdi.

– Gör necə gözəldi.

– Bəli, gözəldi. İnsan əlindən hər iş gəlir.

Sultanəli hücrəyə girdi. Amma özündə deyildi. Körpə pələng kimi gəzişirdi. İsmayıl onu görüb sevinclə qışqırdı:

– Hələ bir bura bax!

Sultanəli baxdı, amma üzünü tez də çevirdi.

– Xoşuna gəlmədi?

– Yox. Bizim dinimiz insan şəkli çəkməyi qadağan eləyir.

– Nə üçün? – deyə İsmayıl soruşdu.

– Ona görə ki, insanın əksini çəkən şəxs, sonradan ona can, nəfəs vermək iddiasına düşə bilər. Bunun isə necə küfr olduğunu sən bilməlisən. Bütpərəstlər ağacdan, palçıqdan, daşdan insan düzəltdilər və ona sitayiş elədilər.

İsmayıl qardaşı ilə ürəyində razılaşmadı.

## DÜŞMƏNLƏR VƏ DOSTLAR

Yüklü dəvələr karvansarayın qabağında dayandı. Sarvan qabaqdakı dəvənin ovsarından yapışıb çubuqla dizinə vurdu, "hıx" deyən kimi qara, qoca nər ayaqlarını yığıb aşağı yatdı, o biri dəvələri də yatırtdılar. Ortayaşlı, qara saqqallı tacir işlərin gedişinə göz qoyub karvansarayın qapısında atdan düşdü. Daş döşəməyə dəvə qığı, at təsi tökülmüşdü, daşlardan turşumuş iy qalxırdı.

Karvansarayın qapısı açıldı, əli təsbehli, uzun əbalı, qırmızı saqqallı kişi çıxdı. Atdan düşən tacirlə görüşdü, əlini onun əlindən çəkəndən sonra dodağına aparıb öpdü.

– Yorulmayasan, Hacı Həşim, – dedi.

– Sağ ol, Kərbəlayi. Hə, nədi, gedirsən həccə? Qurban bayramına Məkkəyə çatarıq.

– Mənə niyyət düşmür, Hacı. İndi də böyük oğlum azarlayıb. Bir yönlük eləyim, görüm necə olacaq.

– Allah şəfa versin. Amma nə qədər ki, həccə gedib borcunnan çıxmamısan, xəlluqaləm hələ səni çox sınayacaq.

Onlar hal-əhval tutub həsb-hal eləyirdilər. Karvanın adamları dəvələrin cihazlarındakı yükləri yerbəyer eləyirdilər.

Karvansarayın darvazasından içəridə kiçik bir həyət vardı. Bu həyətdə səkkizkünclü daş hovuza daş novdan su tökülürdü. Cibo Səfər həmin novdan mis aftafanı doldurdu. Dəstəmaz alıb axşam namazına başlayacaqdı.

O, bu yaxın vaxtlarda karvansaraya düşmüşdü. Ona bazarda dükan almışdılar. Kürəsi vardı, palçıqdan çıraq düzəltməyə başlamışdı. İşləri də yaxşı gedirdi. İki gün əvvəl onun hücrəsiylə yanaşı hücrəyə iki müsafir düşmüşdü. Öyrənmişdi ki, ziyarətə gəliblər. Amma bu iki gündə hələlik Darül İrşada baş çəkməmişdilər. Elə bil nəyisə gözləyirdilər. Bığları qoç buynuzuna oxşayan adam həyət-bacada daha tez görünürdü, Cibo Səfərlə də bu iki gündə ülfət bağlamışdı. Səfəri bazara da göndərmişdi. Hücrələri də yanaşı idi.

İndi Cibo Səfər aftafasını doldurub aparanda onunla üz-üzə gəldi.

– Axşamın xeyir, – dedi.

– Hər vaxtın xeyir.

Bu Murad idi. Birdən-birə o başını qaldırdı, tacir karvansarayının həyətində, hovuzun kənarında dayanıb ona baxırdı. Murada bu sifət tanış gəldi. Paltarından tacir olduğunu gördü. Tacir diqqətlə baxırdı. Rəngi də əməlli-başlı ağarmışdı. Murad vaxt itirə bilməzdi. Karvan adamları gəlsə işlər korlana bilərdi.

Bir sıçrayışla özünü tacirə yetirdi.

– Tərpən!

O elə hökmlə dedi ki, tacir belindəki xəncərini də yadından çıxarıb, silahsız Muradın qabağına düşüb yeridi. Murad taciri öz hücrələrinə yox, Cibo Səfərin hücrəsinə apardı, Səfər hələ namaz qılmağa təzə hazırlaşırdı. Muradın yad adamla içəri girməsi onu duruxmağa məcbur elədi. Murad ona heç nə deməyib tacirin qolunu burdu, hücrənin küncündə yıxıb Cibo Səfərin yerə sərdiyi canamazı götürüb onun ağzına tıxadı, əllərini və ayaqlarını bağladı.

– Nə iş görürsən, a kişi?

– Bəri gəl. Qapını bağla, tez. Sonra bilərsən.

O, Cibo Səfərin qolundan tutub hücrədən çıxardı. Muradın iri barmaqları arasında onun nazik qolu çöp kimi idi və bərk sıxsa ovxarlanıb tökülərdi. Onlar qonşu hücrəyə girdilər. Xalçanın üstündə uzanıb əllərini başının altına qoyub sağ dizini qaldıran Əbih Sultan onlara baxırdı. Muradı təlaşlı görüb soruşdu.

– Nə var?

– Dedim karvansaraya düşməyək də. Düşmənlərimiz hamısı bura gələcək, görüb tanıyacaqlar.

Əbih Sultan yerindən qalxıb oturdu.

– Düşmənimiz budu?

– A başına dönüm, mən sizi heç tanımıram? Mən düşmən olsam sizə nə eləyəsiyəm?

Murad onun qolunu dartdı. Yə’ni “sən sus”: – Tacir gəlib. Məni də yaxşı tanıdı. Adamları da çoxdu. Tərpən, qan tökməmiş buradan çıxaq.

Onlar keçən gündə Şeyxin müridlərindən heç kimi tapa bilməmiş, əlləri Hüseyn Lələyə çatmamışdı. İndi də bu hoqqa çıxıb. Murad gec tərpənsə bəlkə də artıq karvansarayın həyətində qılınc qırğını başlamışdı.

– Hara gedək? – Əbih Sultan sanki öz-özündən soruşdu, amma bu kəlməni hündürdən dedi.

– Mən bilirəm, – Cibo Səfər qorxa-qorxa dilləndn

– Sən nəyi bilirsən? – Murad hələ də onun qolunu buraxmamışdı.

– Gizlənməyə yer. Allahdan başqa orada sizin xətrinizə bir kimsə toxuna bilməz.

Onlar silahlarını qurşadılar. Həyətə çıxanda karvan adamları yükləri yerbəyer eləyirdilər. Deyəsən hələ tacirin başına gələndən heç kimin xəbəri yox idi. Onu axtarmırdılar. Əbih Sultan üzünə qara niqab çəkmişdi, gözlərindən isə onu burada heç kim tanımayacaqdı. Murad isə sir-sifətini gizlətmək niyyətində deyildi.

– Uzaqdı, yaxındı?

– Yaxındı.

Onlar karvansaranın həyətindən çıxdılar. Atları götürmədilər. Bu, vaxt apardı və hər şey məhv olardı. Onlar tayları daşıyan karvan adamlarının yanından keçəndə tayın bir tərəfindən tutan kişi dayandı, tay əlindən yerə düşdü, əlinin dalı ilə alnının tərini sildi. Gözləri Muradda

qaldı. Murad da ona baxdı. Elə baxdı ki, onun əli-qolu boşaldı. Tayın o biri tərəfindən tutan adam bu baxışlara fikir verəndən sonra qışqırdı.

– Qaçaq Murad, Qaçaq Murad.

Amma heç biri onun üstünə gəlməyə cəsarət eləmədi. Hamısı yükü qoyub karvansarayın həyətinə, tacirin yanına qaçdılar. Tərini silib hələ də nə edəcəyini bilməyənin yaxasını əlinə keçirən Murad dar küçəyə, evlərin arasına çəkdi.

– Mənim dalımca gəlsəniz, salamat qurtaran deyilsiniz. Bu sözlərdən sonra o bir anda yığıldı, üz-gözü əyildi. Murad onun yaxasını buraxanda tir-tap yerə düşdü.

– Buna nə oldu?

– Heç, – deyə Əbih Sultan xəncəri qara əbasının altında qına saldı. – Tərpən. Murad heyfsilənsə də heç bir şey demədi. Onlar Cibo Səfərin dalınca dar küçələri keçib başqa bir küçəyə döndülər. Karvansara tərəfdən hay-küy eşidiləndə onları Cibo Səfər – artıq Darül İrşada, Şeyx Səfiyyəddin türbəsinə çatdırmışdı.

– Buyurun.

Onlar qapıda dayanıb başmaq cütləyən adamın yanında, ayaqqabılarını çıxarıb çəkələk geydilər və həyətə girdilər.

– Bizi hara gətirdin?

– Buradan yüz il çıxmasanız heç kim sizə barmaq toxundura bilməz. Hələ Əmir Teymur bu ibadətgaha on kənd alıb bağışlayanda belə bir qayda qoymuşdu ki, kim buraya pənah gətirsə onu oradan çıxarmağa heç bir hökmdarın ixtiyarı yoxdur.

Murad buranı ziyarət eləmişdi. İndi burada qalmağı ağlına sığışdırmadı. Ürəyi darıxacaqdı.

– Əbih Sultan, indi oturub burada gözləyək ki, gəlib bizim keşiyimizi çəksinlər.

Əbih Sultan Cibo Səfərə dedi.

– Sən bura deyəsən məhrəm adamsan?

– Bir az. Necə?

– Onda bizi Hüseyn Lələ bəyin yanına apar.

– Hüseyn Lələnin? Qoy öyrənim görüm burdadı? O, uzaqlaşdı, kaşılarla işlənmiş dəbilqə şəkilli qapıdan içəri girdi. Amma gəlib çıxmaq bilmirdi. Əbih Sultanla Murad tut ağacının saralıb tökülmüş xəzəllərinin üstündə gəzişdilər, darıxdılar, ancaq Cibo Səfər gəlmədi ki, gəlmədi.

– Bizi aldadıb tələyə saldılar, Murad.

– Yox, bu fağır adamdı, aldatmaz.

– Onda Hüseyn Lələ bəy buradadı. Burdadısa işlər düzəldi.

Bir azdan dörd nəfər qara paltarlı, qırmızı börkülü adam gəldi. Aralarındakı ən yaşlısı pəltəkləyə-pəltəkləyə soruşdu.

– Ziyarətə gəlib ağalar?

– Bəli, – deyə Əbih Sultan dilləndi.

– Onda silahları verin. Çıxanda qaytarallar. İmam övladının qəbri üstünə heç kim silah gətirməyib.

Əbih Sultan bu kəlmələrlə Cibo Səfər arasında bir əlaqə gördü. Geri çəkilmədi. Bu işin sonuna qədər getmək fikrinə gəldi. Belindən xəncərini, qılıncını açıb verdi.

Murad da qılıncını açdı.

– Qayıdanda bu silahları bizə verəcəklər?

– Bəli, ağa.

Onlardan biri silahları götürdü. Pəltək qabağa düşdü, iki nəfər arxada onları müşayiət elədi. Səfər girdiyi qapıdan içəri girdilər, sağa döndülər. Qaranlıq bir dəhlizə ayaq qoyan kimi Muradın da, Əbih Sultanın da başına qara örtük atdılar. Hərəni bir neçə adam sarıdı və götürüb harayasa apardılar.

Karvanın adamları karvansarayın həyətində nə qədər axtardılarsa tacir Hacı Həşimi tapa bilmədilər. Karvansaray sahibi də məəttəl qalmışdı.

– Nökərlər hücrəni təmizləyirdi. Bu necə ola bilər.

– Ağanı öldürdülər. Qaçaq Muradı mən özüm gördüm,– deyə bayaq qışqıran nökər ağlayırdı.

– Kim öldürəcək?

– Qaçaq Murad.

– O kimdi? Qaçağın, quldurun mənim karvansarayımda nə ölümü var?

– Öz gözlərimnən gördüm, ağa. Belə iri bığları var.

Kərbəlayi qabağa düşüb hücrələrə baxmağa başladı.

– Yekə bığlı... Elə hamı yekə bığlıdı da. Hə, dediyin Hacı Nəsib ağadı. İki nəfərdilər, bu hücrəyə düşmüşdülər. Ziyarətə gəliblər.

Kərbəlayi qapını itələyib açdı. Qaranlıq hücrədə heç nə görmədi.

– Şam gətirin, – deyə səsləndi. Şamı gətirdilər. Hücrədə qalxan, əmud vardı, bir küncdə iki qiymətli yəhər görünürdü.

– Yoxdular.

Bu vaxt karvan adamlarından biri başılovlu gəldi.

– Öldürüblər.

– Kimi?

– Xəncəri lap ürəyinə soxublar.

– Kimin?

– Nökər Niyazın.

– Cəhənnəmə soxsunlar. Ürəyim düşmüşdü, dedim bəs Hacı Həşim ağanı deyirsən. – O, hücrədən çıxdı. Cəftəsi keçirilən hücrəni göstərib dedi:

– Burada da bir çıraxçı olur. Şamaxılı Səfər. O da sakit adamdı. Heç sərçə də öldürə bilməz. İndi yəqin namaz qılmağa gedib.

– Aç hücrəni.

Kərbəlayı cəftəni qaldırıb qapını açdı. İçəridə səs eşitdi. İniltiyə bənzəyirdi. Çırağı başının üstünə qaldıranda qolu-qıçı bağlı bir adam gördü. Qorxub çəkildi.

– Balam bu nə müsibətdi. Görün kimdi.

Nökərlər içəri girib tacir Hacı Həşim ağanın ağzından canamazı çıxartdılar. Canamazı onun dodaqları arasına möhürqarışıq tıxamışdılar. Əl-qolunu açıb ayağa durğuzdular.

– Ay uşaq, kişiyə bir qurtum su verin, qorxub. Şükür, sağ-salamatdı.

Karvansaray sahibi şəhər valisinin yanına getdi. Əhvalatı danışdı. Öyrəndi ki, elə bu gün Süleyman Bicanoğlu qoşunla Ərdəbilə gəlib. Onunla bərabər şəhər valisi karvansaraya gəldi, taciri danışdırdılar, şahidləri dindirdilər, Muradla Əbih Sultanın əşyalarını da, yəhərləri, atları apardılar. Onları axtarmaq üçün şəhərə adamlar saldılar. Şəhər valisi qiymətli yəhəri Muradın atının belinə qoymuşdu, monqol madyanını isə yəhərsiz gətirtdirmişdi. İmkan tapan kimi öz ilxılarının içinə göndərmək fikrindəydi. Süleyman Bicanoğlu monqol atını görüb elə bil axtardığını tapdı.

– Bu madyanın sahibi hanı?

– Yoxa çıxıb, ya əmir.

– Yerin altından olsa çıxart gətir mənim yanıma. Dirisini. Qoşun sənin ixtiyarında, nə qədər istəyirsən, götür.

Qoşundan ayırıb şəhərin ətrafında gözətçilər qoydular. Gəlib-gedənləri saxlayır, sorğu-suala tuturdular. Amma səhər işığına qədər bir nəticə hasil olmamışdı.

Əbih Sultanın başından qara örtüyü götürəndə onun rəngi boğulmuş, nəfəsi qıncıxmışdı. Gözləri işığa öyrəşəndə çıraq hisinin iyini duydu və nəm divarlar arasında olduğunu gördü. Sifətini qara bir kölgə kimi gördüyü adam deyirdi:

– Əbih Sultan, sən bizim qan düşmənimizsən. Cəzanı özün de. Asaq, kəsək, ya...

– Kimdi məni danışdıran? Mənim bu dünyada düşmənim çoxdu. Hansıdı məni İmam övladının ziyarətində yaxalayan?

– Şeyx Heydərin yaxın dostları. Dərbənd yanında sən də vardın. Sənin də əlin Şeyxin qanına bulanıb. Cəzanı özün kəs.

– Düzdü. Mən günahkaram. Ancaq ziyarətə gələn düşməndən heyf almazlar. Mən onun babasının qəbrinə pənah gətirmişdim. İmam övladı məni kölgəsində saxlaya bilmədi?

– Ziyarətlə sənin günahın bağışlanası günah deyil.

Səsin sərtliyindən, Əbih Sultan başa düşdü ki, onun sonu çatıb. Amma ümid işığı görürdü. O özü elə bu adamları axtarırdı. Tapıb...

– Mən günahımı yuyaram

– Nəylə?

– Şeyxin övladlarını verərəm.

– Aldada bilməzsən. Sənin özünü Süleyman Bicanoğlu axtarır. Daha əlində ixtiyarın qalmayıb.

Əbih Sultanın başını açsalar da, onun qolları bədəninə sarınmışdı. Kötük kimi yanı üstə yıxmışdılar. Onsuz da indi ona qolları lazım deyildi. Qolları açıq olsa, əlində qılınc olsa belə buradan özünü xilas eləyə bilməyəcəkdi. Ona dil lazım idi. Dilini də işə salmışdı.

– Mən kimnən danışıram? Hüseyn Lələ bəylə?

– Tutaq ki, Şeyx Heydərin uşaqlarını bizə necə verərsən?

– Mənə kömək eləsən, adam versən, onların xilası əlimdə olacaq.

– Necə?

– Rüstəm Mirzə Əlincədədi. Onu qurtarıb taxta çıxarmaq lazımdı.

– Tutaq ki, onu qurtardıq, taxta çıxartdıq. Sonra uşaqları bizə verməsə necə?

– Verər. Onun gücü yoxdu. Onu taxta sənin adamların çıxarandan sonra hər şeyə razı olar. Bu fikir Hüseyn Lələnin ağlına batdı.

– Sözlərinə inana bilmirik.

– Siyasətin nə olduğunu bilməmiş deyilsən. Dünən qanını içdiyin adama bu gün qurban getməyə razı olursan. Ağqoyunlu sarayı üçün nələr eləmişəm, bunu bütün məmləkət bilir. İndi heç bir günahım olmasa da həyatım bir tükdən asılıdır. Rüstəm Mirzəni taxta çıxarmaq üçün səni görməyə gəlmişəm. Əslində mən Şeyxin övladlarından çox, özümü fikirləşirəm. Əbih Sultan elə-belə, səssiz-küysüz, rüsvayçılıqla həyatdan gedə bilməz. Əvvəlki mərtəbəyə qayıtmağım üçün hökmdar dəyişməlidir. Qurana əl basıb söz verirəm ki, Rüstəm Mirzə taxta çıxan kimi Sultanəli Ərdəbil padşahı olacaq.

– Onda şərtlərimizi yazaq, möhür basaq.

Əbih Sultan fikrə getdi.

Bəlkə onlar bu yazını alandan sonra Bəysunqurla əlaqə yaradacaqlar, şeyxin övladları üçün onu verəcəklər. Yox. Bəysunqur bu alış-verişə getməz. Onsuz da Əbih Sultan artıq onun üçün yoxdur.

– Yaman fikrə getdin Əmir İbrahim? – Əbih Sultanın bir adı da Əmir İbrahim idi.

– Yox, mən razı. Yazaq.

Onlar şərtlərini yazdılar. Bundan sonra hər ikisi barmaqlarındakı üzükləri çıxardılar. Müridin gətirdiyi davada batırıb kağıza basdılar.

## ƏLİNCƏ QALASINDA

Əlincənin qapıları açıldı. Əbih Sultap dönüb Hüseyn Lələyə baxdı. Deməк burada hələ də onun hökmü işləyir. Əvvəl o atını sürdü. Bu onun Bəysunqura hədiyyə apardığı qara monqol madyanı deyildi. Dədə bəy ilxılarını yəhərlətdirmiş, müridlər atlara süvar olub Əlincəyə gəlmişdilər. Dədə bəy özü də burada idi. Hər əmri o verməli idi. Əgər Əbih Sultanda satqınlıq görsələr, özü qılıncı onun başına endirəcəkdi.

Atın ayaqları daş döşənmiş qala meydanında çaqqıltı salaraq yeridi. Dədə bəy də onun yanında. Qalabəyi onları qarşılayırdı. Yeriyib Əbih Sultana baş əydi:

– Ya əmir, müntəzirəm hökmünə.

Qalabəyi yaşlı, ağ saçları dəbilqəsinin altından çıxan cəngavər idi. Qara sifəti vardı, iri, çevrilmiş dodaqları sifətindən də qara idi, O, Əbih Sultanın hökmünə, hikkəsinə çoxdan bələd olmuşdu. İndi uzatdığı möhürlü fərmanı açıb baxmadı.

– Rüstəm Mirzəni aparmağa gəlmişəm. Bu da fərmani hümayun.

– Atlardan düşün, ya əmirül-ümara, yol gəlib yorulmusunuz.

– Qayıtmalıyam. Bir qurtum su içməyə də vaxt yoxdu.

O, Əlincə qalasına qalxmağa ürək eləməmişdi. Qaladan adam çıxmasını gözləmişdilər. Təbrizə gedən atlını saxlayıb sorğu-suala tutmuş, atdan salıb əl-qolunu bağlamış, öyrənmişdilər ki, Əbih Sultan barəsində Təbrizdən hələlik heç bir xəbər gəlməyib. Görünür nə Bəysunqur, nə Süleyman Bicanoğlunun ağlına gəlməmişdi ki, Əbih Sultan Əlincəyə gələ bilər. Ona görə də onun şah qəzəbinə gəlməsi barədə heç bir fərman, sərəncam gəlməmişdi. Əbih Sultanın da qorxduğu bir bu idi. Əgər Əlincə qalabəyisi bilsə, o qalaya girə bilməyəcək, Rüstəm Mirzəni də xilas etmək mümkün olmayacaqdı. Belə olduqda başqa bir tədbir fikirləşmişdi. Üç min nəfərlik mürid qoşunu Təbrizin üstünə yeriyib Bəysunquru tutmalı, e’dam etməli idi. Amma bu fikrini nə Dədə bəyə, nə də Hüseyn Lələ bəyə demişdi. Desə, bəlkə də razı olmayacaqdılar. Onda Əbih Sultanın boynu qılınc ağzında olacaqdı.

– Tez olun, əlli tərpənin.

Onlar burada olan müddətdə Təbrizdən çapar gəlsə, yenə də hər şey alt-üst ola bilərdi.

Rüstəm Mirzəni gətirdilər. Qollarında zəncir, ayaqlarında kündə vardı. Kündələr o addım atdıqca, daş üstündə sürünür, ət ürpədən səs çıxarırdı. Qollarını qaldırıb qaşlarının üstünə qoydu. Günəş işığından az qalmışdı kor olsun.

– Asmağa aparırsan? – Rüstəm Mirzə kinayə ilə soruşdu.

– Mən buyruq quluyam. Hökmdar istəyib, mən də aparıram. Fərman belədir ki, Təbrizə qədər başından bir tük əskik olmasın.

– Təbrizdə hər tükümdən intiqam alacaqlar, eləmi?

– Onu Sultan bilər, sən bilərsən. – Açın əllərini, ayaqlarını, ata mindirin.

Əbih Sultanın əmrini yerinə yetirdilər. Murad Rüstəm Mirzənin mindiyi atın yüyənini öz əlinə aldı.

– Bağlayın gözlərimi! – Günəş işığına baxandan sonra elə bil gözlərinə qum dolmuşdu. – Sonra da əlavə elədi:– Lazım deyil, bağlamayın. Bəlkə də Təbrizdə gözlərimdən birdəfəlik məhrum oldum, heç olmasa yollara axırıncı dəfə baxaram. Nə görsəm qənimətdi.

– Narahat olma, Rüstəm Mirzə.

Bu səsdən sonra Rüstəm Mirzə susdu. Elə bil qaranlıq mağaraya düşmüşdü. Göz-gözü görməyən yerdə əllərini sürtüb özünə kömək axtaranda əlləri yumşaq bir bədənə toxunmuşdu. Soyuq və yumşaq bu bədənin ilan olduğunu birdən-birə bilmişdi.

– Məni kim aparır?

– Əbih Sultandı, – deyə o səsinə mülayimlik verdi ki, Rüstəm Mirzə e’tirazını bildirməsin. Rüstəm Mirzə sürüşüb yəhərdən düşdü.

– Getmirəm. Qoy məni gəlib buradan Bəysunqurun cəlladı aparsın. Ona razıyam. Əbih Sultan aparmasın. Əbih Sultan, yadında saxla, mən taxta çıxacam. Başıma tac qoyduğum birinci gün sənin ananı mən ağlar qoyacam.

Dədə bəy təəccüblə Hüseyn Lələnin üzünə baxdı. Onun razılığını istəyirdi. Rüstəm Mirzəni götürüb aradan çıxarmaq üçün onun gözləri ilə razılığını bildirmək bəs edərdi. Lələ qılıncının qəbzəsini bərk-bərk sıxıb dayanmışdı. Him-cimlə Dədə bəyə başa saldı ki, özünü ələ alsın.

Əbih Sultan əhvalatın gedişinin belə dönməsini gözləmirdisə bir anlığa özünü itirdi. Qalabəyinin yanında ona öz fikrini başa sala bilməzdi. Üstünə hirslənmək, ona kobudluq da göstərmək istəmirdi. Onsuz da onun yanında günahı çox idi. Sabah taxta çıxarsa ixtiyar Rüstəm Mirzənin əlində olacaq. Hökmdar nəsli də dəvə kimi kinli olur. Barmağının onunu da şama çevirsən belə yaxşılığı yadlarında saxlamırlar.

Rüstəm Mirzə qalanın meydançasında dayanıb var kücü ilə bağırırdı.

– Qaytar məni zindana, çal köpəkoğlu. Rüstəm Mirzənin ölüm hökmü gəlməyinə baxma, taxta çıxacam. Onda sənin də o ağ saçlarını qana bulamaq mənə borc olsun. Hələ gözlərimə mil çəkməyiblər, hələ boğazıma kəndir salıb dar ağacına qaldırmayıblar. Qaytar məni zindana.

Rüstəm Mirzə son iki gündə zəncirləndiyi divarda qarşısındakı hürufi ilə çox danışırdı. Elə özü deyir, özü də eşidirdi. Pirani qoca isə ona cavab vermək istəmir, bir kəlmə də cavab qaytarmırdı. Dünən keşikçi içəri girəndə görmüşdü ki, qocanın son nəfəsidir. Zəncirdən azad eləyib samanın üstündə uzatmışdı. Qocanın saqqalının və bığlarının arasında görünən dodaqları tərpənib son sözlərini pıçıldamışdı:

– Mən hələ çox yaşayacaqdım. Bu nadanın sözləri məni öldürdü.

Rüstəm Mirzə yenidən zindana qayıtmışdı. Qalabəyi isə sual dolu baxışlarını Əbih Sultana dikmişdi, yə’ni nə eləyək? Əbih Sultan da ona baxdı, işarə verdi ki, gətirsinlər. Qalabəyi baş əyib dedi: – Ya əmir, səni başa düşdüm – deyib içəriyə getdi.

Birdən onun fikrindən nə keçdisə qalabəyinin dalınca zindana qaçdı. Qapıları bir-bir itələdi. Heç biri açılmadı. Pillələrlə aşağı endi. Burada da qapılar bağlı idi. “Necə fürsəti əldən verirəm. Allahın mənə göndərdiyi bu imkan əldən çıxsa, get qəbrini qaz, Əbih Sultan. Amma o qəbirdə basdırılmağa sənin bir sağ tikən də tapılmayaçaq”

O, zirzəminin dar dəhlizində o tərəf, bu tərəfə qaçıb qalabəyini səsləyirdi. Bu vaxt qapılardan biri açıldı. Qoca qalabəyi qan-tərin içində, gülümsəyə-gülümsəyə çıxdı.

– Hazırdı.

– Nə hazırdı?

– Rüstəm Mirzəni deyirəm.

– Getməyə razılıq verdi?

– Verdi.

Əbih Sultan gördü ki, qalabəyi özündə deyil. Onun yaxasından yapışdı. Sövqi-təbii hiss eləmişdi ki, nəsə bir əhvalat baş verib. Həmin əhvalat isə onun ümidlərini alt-üst eləyib.

– Nə iş tutmusan?

– Heç nə. Boğdum Rüstəm Mirzəni.

– Neynədin? Boğdun?

O, qalabəyini divara necə vurdusa başı daşa dəydi, gözləri süzüldü, dizləri qatlandı, tir-tap döşəməyə uzandı. Əbih Sultan içəri girdi. Əvvəl Rüstəm Mirzənin məstlərinin altını gördü. Əynindəki paltar parça-parça olmuşdu, sir-sifəti dırnaq yerlərində qanlı xətlərlə örtülmüşdü. Əyilib qulağını onun ürəyinə qoydu, nəbzini tutdu. Onun bədəni hələ soyumamışdı. O dəhlizə qaçıb qışqırdı:

– Su gətirin.

Onun səsinə qalabəyi gözlərini açdı. Amma nə baş verdiyini dərk eləyə bilmədi, təəccüb dolu baxışlarını Əbih Sultana dikib qışqırıqdan bir şey anlamağa çalışdı. Fərraş əlində bir cürdək qaça-qaça gəldi. O suyu qalabəyinin sifətinə çiləyəndə, Əbih Sultan cürdəyi aldı, Rüstəm Mirzənin yanına qayıtdı. Suyu ovcuna töküb onun sifətinə çilədi, yanaqlarına vurub çağırmağa başladı:

– Rüstəm Mirzə, Rüstəm Mirzə.

Sonra qollarını qaldırıb qatladı. Ona ümid verən bu idi ki, hələ onun bədəni nə qurumuş, nə də soyumuşdu. O ayağa qalxanda qalabəyini.yanında gördü.

– Bilirsən öz başına nə müsibət açmısan? Əmr eləmişdilər Rüstəm Mirzəni sağ-salamat aparaq.

– Mən də padşahımızı tanıyıram. Onun başını aparsan daha yaxşıdır. – Belindəki xəncəri çıxarıb dizini yerə vurdu. Rüstəm Mirzənin çənəsini qaldırdı ki, xəncəri rahatca onun hulqumuna çəksin.

Əbih Sultan onun biləyindən tutub burdu, xəncəri aldı.

– Ağzımda bir quranlıq söz danışıram, sən də öz bildiyini eləyirsən. Sənə kim deyib onu öldürəsən?

– Him-cim elədin, mən də səni belə başa düşdüm. Diri getmək istəməyənin başını aparırlar, bu olur salamatlıq.

– Axı sən nə bilirsən onu e’dam eləməyə aparırlar? Bəlkə bir məmləkət bağışlayacaqlar.

– Bəysunqur ona bir kor pişik də peşkəş eləməz.

Əbih Sultana xəncər vursan bir damcı qanı düşməzdi. Bədənindən vic-vicələr keçirdi. Xoşbəxtliyə çatdığı yerdə gör necə bədbəxtliyə rast gəlmişdi. Birdən-birə o dəli kimi qışqırdı:

– Salamatdı.

Doğrudan da Rüstəm Mirzə tərpəndi. Əlini gətirib boğazına sürtdü. Zarıdı. Əbih Sultan onun üzünə su çiləyəndən sonra soruşdu!

– Mən haradayam?

Əbih Sultan qalabəyinə dedi:

– Anan namaz üstəymiş, ölməyib.

Qalabəyi uzun, qara dırnaqlarının arasına çirk dolmuş barmaqlarına baxdı.

– Demək qocalmışam. Bu barmaqlar məngənə kimiydi. Hələ onlardan bir adamın boğazı salamat qurtarmayıb.

Əbih Sultan Rüstəm Mirzənin qoluna girib qaldırdı. Qapıya tərəf apardı. Daha getməyinə də e’tiraz eləmirdi. Dayçaları beləcə boğandan sonra belinə yəhər qoyub minirlər.

Arazı keçib xeyli gedəndən sonra yoldan çıxdılar. Qayaların arasına gəldilər. Bura əsl ordugaha oxşayırdı. Bir neçə min silahlı adam vardı. Rüstəm Mirzə bu məsələdən heç nə başa düşmədi.

Onu görəndə adamların heyrət nidalarını eşitdi. Amma Rüstəm Mirzə başını qaldırıb heç kimə baxmırdı. Bilirdi ki, onu Bəysənqurun yanına e’dama gətiriblər. Bu heyrət də elə ona görədir. Ordugahdan keçib başda qurulan çadırın qabağına qədər gəlib atdan düşdülər və onu da düşürdülər.

– Çadıra buyurun, Rüstəm Mirzə.

Əbih Sultanın bu təklifinə Rüstəm Mirzə əhəmiyyət vermədi. Dayandığı yerdən tərpənmədi, ona bir daha yol göstərəndə dedi:

– Mən Bəysunqurun ayağına getmirəm.

– Bəysunqur yoxdu.

– Necə yoxdu. Bəs mənim e’damıma baxmaq istəmir o südəmər küçük? Qoy çıxsın görsün ki, kişi kimi necə ölürlər. Qanımı qaba tutub verin, ac köpək kimi yalasın.

– Hər şey tərsinə olacaq, keçin çadıra, hər şeyi sənə danışacağam.

Rüstəm Mirzə heç nə başa düşmürdü. Bu sözlərdən sonra çadıra girdi. İçəridə heç kim yox idi: Əbih Sultanla bərabər Hüseyn Lələ bəy və Dədə bəy də çadıra girdilər. Əbih Sultan ona başda yer göstərdi. O, biləklərindəki zəncir yerlərini ovuşdura-ovuşdura oturdu. Əbih Sultan dedi:

– Məni Əlincə qalasına Bəysunqur göndərməmişdi. Mən özüm də onun qəzəbinə gəlmişəm. O, dayısı Fərrux Yasarın çaldığını oynayır. Məsləhətçisi də qoca tülkü Süleyman Bicanoğludur. Səni onun yerinə Təbrizə taxta çıxartmaq üçün xilas eləmişik. Uzun Həsənin taxtında oturmağa layiq olan bir şəxs varsa, o da Rüstəm Mirzədi.

Rüstəm Mirzə elə bil ayıldı. Əlincə qalasından buraya qədər fikrindən keçən bu idi ki, qılıncı onun boynuna endirəcəklər. Həmin qılınc da Əbih Sultanın əlindədir. İndi o əl enir, o əldəki qılınc deyil, tacdır.

– Bu şəxsləri mən tanımıram, – deyə Hüseyn Lələ ilə Dədə bəyi göstərdi.

– Hüseyn Lələ rəhmətlik Şeyx Heydərin dostudur. Dədə bəy də həmçinin.

– Şeyx Heydərin?

– Bəli, Şeyx Heydərin, – deyə Hüseyn Lələ bəy təkrar elədi.

– Başa düşmürəm. – Rüstəm Mirzə Əbih Sultana baxdı.

– Bəysunqur hələlik Təbrizdə taxtda oturub. Qoşunları Ərdəbil tərəfdədi. Səni Əlincədən çıxarıb taxta oturtmaq istəyən bu qoşun Şeyx Heydərin müridləridir.

– Onlar ki, bizim səltənətimizə həmişə düşmən olublar.

– Düşmənliyimiz bu hərəkətimizdən görünürmü?

Rüstəm Mirzə Lələ bəyin sözündə acılığı elə bil istiot kimi yeyib dilinin üstündə hiss elədi.

– Nə şərt qoyubsan?

– Bir şərtimiz var. Şeyx Heydərin övladlarını zindandan çıxarıb verin bizə.

Rüstəm Mirzə qarşısında şərt qoyulmasını narazılıqla qarşıladı.

– O uşaqları sənə verməsək onda necə?

– Onda başqa daha asan yol var, biz də həmin yolnan gedərik. – Hüseyn Lələ bəy kükrəyib özündən çıxmağa hazır olan Dədə bəyin dizini basdı.

– Hansıdı o yol?

– Rüstəm Mirzəni də, Əbih Sultanı da Bəysunqura verib əvəzində uşaqları alarıq. Çünki bu iki düşmən ondan ötəri, Şeyxin uşaqlarından daha qorxulu düşməndi. Müridləri Təbrizə yeridib qan tökməkdən də canımız azad olar.

Əbih Sultan Hüseyn Lələ bəyin bu fikrinin daha inandırıcı olduğunu görüb onu bu fikirdən daşındırmaq üçün əl-ayağa düşdü. Əl atıb cibindən Hüseyn Lələ bəy ilə yazıb möhürlədikləri müqavilənaməni çıxartdı. Əvvəl onu Hüseyn Lələ bəyə göstərmək, verdiyi sözü yadına salmaq istəyirdi. Amma fikrindən tez daşınıb Rüstəm Mirzəyə göstərdi.

– Bu mənim Hüseyn Lələ bəy ilə bağladığım əhd-peymandı. Burada yazılıb ki, Rüstəm Mirzəni taxta çıxarandan sonra o, Şeyxin uşaqlarını azad eləyəcək.

Rüstəm Mirzə hirsləndi:

– Mən səni vəkil eləmişdim?

– Yox.

– Bəs bu nə işdi mənim adımdan danışırsan?

Əbih Sultan da pərt oldu, kağızı qatlayıb cibinə qoydu.

Hüseyn Lələ bəyə baxıb çiyinlərini çəkdi. Yə’ni daha mənim heç bir sözüm yoxdur.

– Belə olan yerdə bizim müqaviləmiz pozulur. – Hüseyn Lələ bəy cəld Əbih Sultanın belindəki qılıncı çəkib çıxartdı. Dədə bəy onu sarıdı.

Rüstəm Mirzə isə şah kimi oturmuşdu. Yerindən tərpənmirdi. Əbih Sultanın silahının alınıb qollarının bədəninə sarınması onun vəziyyətini ona başa saldı.

– Əhdinizi nə tez pozdunuz, – deyə lovğa-lovğa dilləndi.

– Bu tək əhd pozmaq deyil, Bəysunqurun təzədən Ərdəbil müridləri üstünə yeriməyidi. Köhnə düşmənçilik təzələnir, Şeyxin övladlarını da ölüm gözləyir.

– Bəs məni niyə sarımırsan?

– Səni sarımaq çox asan işdi. Onsuz da buradan heç yana qaça bilməzsən.

Dədə bəyin gur səsi eşidildi:

– Rüstəm Mirzə, yaxşı-yaxşı fikirləş, ya onlar deyənə qulaq asmalısan, ya da Bəysunqurun cəlladlarının qabağında dayanacaqsan.

– Mən şərti elə qəbul eləyə bilmərəm. Şeyx Heydərin uşaqları müridlərdən yeddi köynək mənə yaxındı. Taxta çıxan kimi onları zindandan birbaşa saraya gətirəcəm.

Əbih Sultan rahat nəfəs aldı.

– O saraydan onlar heç bir xeyir görməyiblər. Bizim şərtimiz qətidir. Ərdəbil neçə qərinədi ki, Şeyx Səfiyyəddin övladlarının mülküdür. O mülk qayıtmalı, Şeyx Sultanəli Ərdəbildə oturmalıdır.

Əbih Sultan da Rüstəm Mirzəni sakitləşdirməyə çalışırdı.

– Rüstəm Mirzə, Bəysunqur gedəndən sonra Şirvanşah sənə düşmən kəsiləcək. Onun da qabağında Sultanəli dayana bilər. Çünki qan düşmənidilər. Hüseyn Lələ bəyin şərti sənə də xeyirdi.

– Demək Sultanəli belə böyüyüb?

– İndi o, həddi-büluğa çatmış oğlandı. Darül İrşadın işləriylə məşğul olacaq. Onu sarayda saxlamaq istəsən də, qalmaz. – Hüseyn Lələ cavab verdi.

Rüstəm Mirzə dəlillərin qarşısında təslim oldu.

– Yaxşı, mən razı.

– Onda müqavilənamə təzədən yazılmalıdır, – deyə Hüseyn Lələ fikrini bildirdi.

– Müqavilənamə?! Mən sözümün ağasıyam. Həm də hökmdar hökmdarla müqavilənamə bağlayar?!

– Hələ hökmdarlığa var.

Rüstəm Mirzə tələsirdi. Elə bilirdi ki, artıq taxta oturub. Amma söhbətlər onu indiki vəziyyətinə qaytarırdı.

Hüseyn Lələ bəy qələm-davat istədi. Gətirdilar. Oturub yazdı. Hər bəndi Rüstəm Mirzə ilə razılaşdırdı. Sonra onlar möhür basdılar. Rüstəm Mirzənin möhürü yox idi. Barmağını basdı. Bundan sonra Rüstəm Mirzəyə hökmdara layiq libas, silah gətirdilər. Özləri çıxdı, o geyindi.

Əbih Sultan çadıra girəndə gördü ki, Rüstəm Mirzə iki balışı üst-üstə qoyub, dizinin kündəsi balışları basıb aşağı. Artıq qızıldan olmasa da, qaz tükündən özünə taxt düzəldib. Hamıdan heç olmasa bir barmaq yuxarıda oturmaq istəyir.

– Əmir İbrahim, – deyə Əbih Sultana müraciət elədi. – Anan namaz üstəymiş. Mənim köməyimə çatmasaydın, özüm taxta çıxanda and içmişdim birinci səni Təbriz qalasından asdırım.

Əbih Sultan onun bu xam xəyalına ürəyində güldü. Həm də sevindi. Sevindi ki, Rüstəm Mirzə çox yola yaxın adamdı. Sarayda, o hökmdarın ən yaxın adamı olacaq, kəsdiyi başların sorğu-sualı olmayacaq.

Dədə bəy Hüseyn Lələnin yanına gəlib onunla xısın-xısın danışmağa başladı.

– Tədbirimiz baş tutub. Cibo Səfər qayıdıb.

– Necə?

– Bəysunqur artıq Arazı keçib Şirvana gedib. Təbriz yolu açıqdır.

– Bir yandan bağlayan tanrı o biri yandan açır. Hüseyn Lələ bəy Şirvandan gələn çaparı tutdurmuş, onun paltarını geydirib məktubunu da təzədən yazdırandan sonra Təbrizə göndərmişdi. Fərrux Yasarın adından yazılan bu məktubda bildirilirdi ki, qoca Şirvanşah ölüm yatağındadır, halallaşmaq üçün nəvəsi Bəysunquru yanına çağırır. Tək ona deyiləsi sözləri, sirləri var. Cibo Səfəri göndərməkdə məqsədləri vardı. Səfər şamaxılı idi, danışığı, ləhcəsi şübhə doğura bilməzdi. İndi bu tədbir öz işini görmüşdü. Bəysunqur Suleyman Bicanoğlu ilə bərabər Şamaxıya yola düşmüşdü. Taxt şəhəri Təbriz onların üzünə açıq idi. Təbriz camaatı Rüstəm Mirzənin tərəfindəydi. Onun atası Maqsud Mirzə Təbrizi bir dəfə xilas eləmişdi. Ona görə də təbrizlilər Şirvanşahın qohumu Bəysunqurdan çox Rüstəm Mirzəyə məhəbbət bəsləyirdilər. Şəhərdəki qoşun nə qədər olsa da, Rüstəm Mirzənin adını eşidən kimi silahlarını töküb onun tərəfinə keçəcəkdi. Bəlkə də...

## SONUNCU GÜN

Əkil bəkil quş idi,
Divara qonmuş idi.
Getdim onu tutmağa,
O məni tutmuş idi.
Meydanın ağacları,
Bar gətirib ucları.

İsmayıl Səkinənin oxuduğu şe’rin qurtarmağını gözləyib dedi:

– Səkinə xala, niyə mən uşağam?

– Sənin ağıllı canına qurban olsun Səkinə xalan. Atam-anam, bəs, necə şe’r istəyirsən? Boyat tayfasının şe’rlərindən deyim?

– Hə, de.

Bu dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burada bir qərib ölmüş,
Göy kişnər, bulud ağlar.

www.kitabxana.net

Göylər kişnəmirdi. Qara buludlar yox idi. Payızın günəşi hər tərəfi soyuq bir işığa qərq eləmişdi. Amma Səkinə elə deyirdi ki, elə bil ildırım da çaxırdı, bütün dünya qara libas geymişdi.

Kasa dolmaz,
Mərd əli kasad olmaz
Yüz namərdin çörəyini
Doğrasan, kasa dolmaz.

İsmayıl qonşu hücrədəki qocanın avazla qur’an oxumağını çox eşitmişdi. O avazda ağır, üzüntülü uzaq bir nida vardı. Dərd və ələm vardı. Amma onun oxuduqlarını başa düşmək mümkün deyildi. Səkinənin oxuduqlarında nə isə dərd-kədərlə bərabər aydınlıq da vardı.

Çay axdı, ada saldı.
Coşdu sel, səda saldı.
Allah bizi unutdu
Əzrayıl yada saldı.

– Bunları kim qoşub, Səkinə xala?

– Nə bilim, atam-anam. El-elat, çoban-çoluq. Dərd kimdə olar? Hərə öz dərdini deyib olub bayatı.

Sultanəli hücrəyə girdi. Kəsik-kəsik nəfəs alırdı. Rəngi ağarmışdı. Çox həyəcanlı idi. Divara söykənib İsmayılla Səkinəyə baxan anasına dedi:

– Gəlirlər.

– Kim gəlir? – Aləmşahbəyimin ağzında dili tikan-tikan oldu. Bütün bədənindən taqətsizlik adlı bir gizilti keçdi.

– Qalaya çox böyük dəstə qalxdı. Yəqin bizi aparmağa gəlirlər.

İsmayıl qalxıb qardaşından soruşdu:

– Hara? Evimizə?

Sultanəli onunla açıq danışmaq istədi. Onun qarşısında çöməldi.

– Evimizə yox, mənim balaca qardaşım. Bu sonuncu günə oxşayır. Kişi kimi mərd mərdanə dayan, ölüm ayağında özünü sındırmamaq nəslimizin adətidir. Onlara yalvarmaq yox, üzlərinə tüpürmək lazımdır.

Aləmşahbəyim quruyub qalmışdı. Dili söz tutar-tutmaz Səkinəyə dedi:

– Səkinə, mənim zümrüd qaşlı üzüyümü mücrüdən çıxar ver. – Sultanəli tərs-tərs anasına baxdı. Özünü saxlaya bilmədi.

– Ölüm ayağında neynirsən bər-bəzəyi?

Aləmşahbəyim oğlunun sözünə fikir vermədi. Sultanəli də anasının fikrini başa düşüb dinmədi. Səkinə qorxu içində, titrəyə-titrəyə gedib mücrüdən zümrüd qaşlı üzüyü gətirdi. O üzüyü barmağına keçirtdi, sonra necə elədisə üzüyün qaşı qalxdı.

– Bunu nənəm Sara xatun bağışlayıb. Dar ağacından, qılıncdan irəlidir. Səkinə, o birisiləri də gətir. Amma Səkinə yerindən tərpənmək istəmirdi.

– Səkinə, – deyə yenə ona baxdı.

– Əlim gəlmir, atam-anam.

– Yerini de, özüm götürüm.

– Sazın içindədi.

Səkinə cürə sazı divardan götürdü. Simləri dartan aşıqlardan birini çıxartdı. Aşığın içindən Səmərqənd kağızına bükülən kiçik həbləri götürdü. Aləmşahbəyim bu həblərdən birini ağzına atmaq istəyən Səkinənin biləyindən tutub saxladı.

– Neynirsən?

– Bu günü görmək istəmirəm, atam-anam.

– Sənin günahın nədi, Səkinə. – Aləmşahbəyim onu qucaqladı. – Əlbət mənim axırıncı xahişimi eşidəcəklər. Onda deyəcəyəm səni öz ellərinə göndərsinlər.

– Bundan sonra bu dünyada yaşamaq istəmirəm, atam-anam.

İsmayıl mat-mat onlara baxır, sözlərinə qulaq asır, amma işin məğzini başa düşə bilmirdi. Sultanəlidən soruşdu:

– Nə olub?

Sultanəli onun qolundan tutub apardı.

– İsmayıl, biz kişiyik, axıra qədər də özümüzü kişi kimi aparmalıyıq. Atamızın düşmənləri bizi aparmağa gəlib. Onlar yəqin ki, bizi e’dam edəcəklər. O düşmənlərə əyilməməliyik. Onların üzlərinə tüpürək, ağır sözlər deyək. Atamız da belə kişi olub. Bu həbi qoy cibinə. Zəhərdi. Gördün ki, cəllad öz işini görməyə hazırlaşır, onda bu həbi udarsan. – Sultanəli üzünü döndərib arxasını çevirdi ki, kiçik qardaşı onun gözlərindəki yaşı görməsin. Sultanəli qorxmurdu. Özünü belə bir gün üçün hazırlamışdı. Amma çox istədiyi kiçik qardaşına zəhərli həb verəndə özünü saxlaya bilmədi. Gözünün yaşını siləndən sonra qardaşının aydın, qorxu-hürküdən uzaq sifətinə baxdı. Onu qucaqlayıb bağrına basdı.

– Sultanəli, atamız o gələn adamlardan qorxurdu?

– Yox!

– Onda biz niyə qorxaq ki?

– Əhsən, qardaşım!

Aləmşahbəyim oğlanlarının söhbətinə qulaq asanda özünü saxlaya bilmədi, qəşş eləyib yıxıldı. Səkinə qalxıb su gətirib onun sifətinə çilədi. Gözlərini açanda başının üstündə Sultanəlinin sifətini gördü.

– Sənə nə oldu, ana?

– Heç.

– Düşmənlərimiz bizi belə görsə sevinər axı.

Aşağı qala ilə onların arasındakı qapının kilidinin səsi eşidildi. Sultanəlinin gözləri içəri girən adamlarda idi. Bu ucaboy, sifəti çox tanış gələn kişinin başında dilim-dilim qırmızı çalma vardı.

– Ana, qızılbaşlar!

– Hüseyn Lələ?!

Aləmşahbəyim sevincindən qışqırdı, səsi batdı. Bəli, gələn Hüseyn Lələ idi. Yetirən kimi o, Sultanəlini bağrına basdı. İsmayıl yeriyib onu itələdi. Qışqırdı:

– Burax qardaşımı, cəllad.

Hüseyn Lələ bəy dönüb ona baxdı. Onu qucağına götürüb başı üstünə qaldırdı.

– İsmayıl, gözümün işığı, maşallah, necə də böyümüsən.

– Sən bizi öldürməyə aparırsan?

Hüseyn Lələ onu sifətinə sıxdı və gözlərinin yaşını gizlətməyə çalışdı. Sultanəli dedi:

– İsmayıl, Hüseyn Lələ atamızın dostu, bizim lələmizdir. O, bizi xilas etməyə gəlib.

Hüseyn Lələ bəy İsmayılı yerə qoyub Aləmşahbəyimə baş əydi.

– Bacı, bu günə çox şükür.

Aləmşahbəyim yaşmaq çəkdi, başını aşağı əydi və soruşdu:

– Bizi bir hali elə görək işimiz necə oldu?

– Hər şey yaxşıdı. Bəysunqur Şamaxıdadı. Qızılbaşlar Rüstəm Mirzəni taxta çıxartdılar. O da fərman verib sizi azad elədi. İndi gəlmişik. Təbrizə gedirik.

– Təbrizə niyə? Ərdəbilə getsək salamatlıq olar.

– Rüstəm Mirzə uşaqları orada təntənə ilə qarşılamaq istəyir. Oradan da Ərdəbilə qayıdacağıq.

– Əmim oğlu Rüstəm qardaşımdan da zalimdi. Birdən bir şey olar?

– Heç nə olmaz. O özü qızılbaşların əlindədir.

## TƏBRİZDƏ

Şeyx Heydərin övladlarını böyük mürid dəstəsi əhatə eləmişdi ki, bu dəstəyə Hüseyn Lələ bəy rəhbərlik eləmişdi.

Sultanəli ata minmiş, başına qızılbaş çalması qoymuşdu. Bu çalmanı neçə illərdi Hüseyn Lələ bəy saxlayırdı. Dostu Heydərin çalması idi, oğlu üçün qoruyub saxlamışdı. İsmayıl isə Hüseyn Lələ bəyin atının tərkində oturmuşdu. Dayanıb düşərgə salanda İsmayıl qaçmaq, dağlara dırmaşmaq, ağaclara çıxmaq, düzənlərdə yüyürmək istəyirdi. Amma Lələ ondan bir addım da ayrılmırdı. O da bilirdi ki, uşaqlığını dar divarlar arasında keçirən İsmayıl indi azadlığı dadmaq istəyirdi. Amma onların həsrətini çox çəkmişdilər, indi onları gözdən qoymaq fikrində deyildilər.

Düşərgələrin birində Sultanəli Hüseyn Lələ bəyə dedi:

– Lələ, mən Rüstəm Mirzəylə görüşmək istəmirəm.

– Niyə?

– Səbəbini özün bilirsən. Mən babam Həsən padşahdan başqa heç bir Ağqoyunlu hökmdarına hörmət eləmirəm. Onlar hamısı mənim qan qohumum olmaqla bərabər, həm də qan düşmənlərimdir.

Lələ əlini onun çiyninə qoydu.

– Sən böyük və ağıllı oğlansan. Atandan sonra Səfəviyyə təriqətinin başçısısan. Bu gündən düşmənlə də dost kimi danışmağı bacarmalısan.

– Axı mən hələ təriqət başçısı olmağa hazır deyiləm.

– Sən Ərdəbilə qayıdandan sonra müridlər hər yerdən axışıb gələcək. İndi Təbrizə də qohum kimi yox, təriqət başçısı kimi gedirsən. Orada öz şərtlərini irəli sür.

– Hansı şərtləri?

– Ən əsas şərt odur ki, sən Ərdəbilin Ağqoyunlu paytaxtından asılılığına son qoymalısan.

– Mənim şərtimə razı olacaqmı?

– Olacaq. Müqavilənaməni imzalamışıq.

– Ərdəbil Azərbaycandan ayrılsın? – deyə Sultanəli təəccüblə soruşdu.

– Bəli. Ölkə qan içindədir. Gündə minlərlə günah işlənir. Təriqətimiz özünün pak, təmiz başçısını və paytaxtını əldə eləməsə, yenə də Ağqoyunlulardan asılı qalsa, onda öz işlərimizi davam etdirə bilməyəcəyik.

– Lələ, sən atamızın dostusan. Ən çətin gündə köməyimizə gəlmisən. Sənin hər məsləhətin də bizim üçün qanundur, Qur’an ayəsi kimi müqəddəsdir.

Onlar Təbrizin gündoğan qapısına çatanda bütün şəhər əhli pişvaza çıxmışdı. Yolların kənarı, qala divarlarının üstü adamla dolu idi.

İsmayıl təəccüblə soruşdu.

– Lələ, bu qədər adam olar?

– Olurmuş, qardaşoğlu...

– Lələ, o adamlar niyə elə sallanıblar? Şəbeh çıxardıllar?

Qala qapısından bir neçə cəsəd asılmışdı və havada yellənirdi.

– Onlar yox, onları bu günə salanlar şəbeh çıxardır.

“Bu Əbih Sultanın işidi. Xoşuna gəlməyənləri asdırır. İndiyə qədər cəsədləri də götürməyib. Yoxsa bizi qorxutmaq istəyir. Şeyx Heydər övladlarını belə qarşılayarlar? İndidən bizə buynuz göstərir. Nə olar, biz də işimizi bilərik”.

İsmayıl sualı sual dalınca yağdırırdı:

– Onun başına quş niyə qonub? Padşah seçirlər?

Hüseyn Lələ bəy cavab tapmadı.

– Lələ, padşah seçəndə quş onun çiyninə qonmalıdı. Bunun da çiyni uzanıb. Belə də çiyin olar? Bəs o itlər niyə aşağıda boğuşur?

Lələ gördü ki, nə Rüstəm Mirzə, nə də Əbih Sultan onları qarşılamağa çıxmayıb. Ona görə də fikrini dəyişdi. Birdən ağlına gəldi ki, Dədə bəyin başında iş var. Heç o da görünmür. Bəlkə. Nə desən onlardan gözləmək olar.

– Dayanın!

Lələnin əmrindən sonra hamısı dayandı.

– Döndərin o birisi darvazaya.

.Onlar yollarını dəyişdilər. Bürclər, divarlar İsmayıla Təbrizi görməyə mane olurdu.

– Lələ, Təbrizə niyə girmirik?

– İsmayıl, səni padşah qarşılamalıdı. Görünür o birisi qapıda gözləyir.

O birisi darvazada da camaat çox idi. Darvazalardan, aqaclardan burada da cəsədlər asılmışdı. Burada da saraydan onları qarşılamağa çıxan yox idi. Hüseyn Lələ pərt olmuşdu.

– Burada təpənin üstündə çadır qurun. Qalan müridlər silahlarına qurşanıb təpəni dövrəyə alsın. Şeyx Heydərin uşaqları Rüstəm Mirzənin ayağına getməyəcək.

Təpənin üstündə ağ çadır qurdular. Aləmşahbəyim Səkinə ilə çadırda oturmuşdu. Sultanəli, İbrahim, İsmayıl, Lələnin yanında dayanıb Təbrizə baxırdılar. Buradan baxanda şəhərin içərisində uca minarəli məscid görünürdü. Onun kaşıları firuzə rəngindəydi və bir neçə yerində güzgü kimi günəş işığını əks eləyirdi.

– Lələ, o hansı məsciddi?

– Nəsriyyə məscidi. Təbrizin ən böyük məscididir. Baban Həsən padşah tikdirib. Yanındakı ölkənin ən böyük mədrəsəsidir.

– Bəs o göy bina nədi?

– O da "Səkkiz behişt" sarayıdı. Sultan Yaqub tikdirib.

– Lə'nətulla, – deyə İsmayıl dilləndi. Lələ ona baxıb gülümsədi. İbrahim də gülümsəyirdi. Amma söz deyə bilmirdi.

– Təbriz çox böyükdü, Lələ?

– Çox böyükdü. Karvan yollarının hamısı buradan keçir. Bir yol buradan gedir Diyarbəkrə, oradan Mərdinə, Mərdinnən Qeysəriyyəyə, Qeysəriyyədən Ankaraya, oradan da Bursaya. Başqa bir yol ilə Təbriz, Ərzurum, Ərzincan, Toqqat, Amasiya, Ankara yolu ilə yenə Bursaya gedib çıxmaq olar. Buradan oraya, oradan buraya tacirlər gedib-gəlir. Venediktdən, Napoldan, dünyanın bir çox başqa şəhərlərindən malları gətirib Təbrizdə satırlar. Bir yol da gündoğana, hind ölkəsinə, biri də Çinə gedir. Düzdü, gediş-gəliş azalıb. Təbrizdə toxunan parçalar, zərbaftalar dünyanın hər yerinə daşınır. Azərbaycan ipəyinin heç yerdə misli yoxdur.

Lələnin göndərdiyi atlı "Səkkiz behişt" sarayına xəbər apardı ki, Şeyxin uşaqları Təbriz yaxınlığında düşərgə salıb.

Rüstəm Mirzə onların ayağına getmək istəmirdi. Özünü hökmdar kimi aparmağı vacib sayırdı. Amma Əbih Sultan onu fikrindən döndərdi. Sən taxta təzə oturmusan. Hamının gözü səndədir. Onu bil ki, Şeyx Heydəri, onun fikirlərini, övladlarını çox istəyirlər. Sən də məhəbbətini bildirsən, adamların məhəbbətinin bir parçası da sənin payına düşər. Deyərlər ki, Rüstəm Mirzə qohumlarını çox istəyir. Onları təkcə zindandan çıxarmadı, həm də pişvazlarına çıxdı. Bunlar hamısı öz yerində. Siyasətdə də qazanırıq, hələ ki, bizim gücümüz yoxdu. Ordu toplayana kimi müridlər bizi qoruyur. Şeyx Heydərin övladlarına məhəbbətini əskik eləsən müridlər hamısı bizdən üz döndərər.

Əbih Sultanın fikirləri Rüstəm Mirzənin xoşuna gəldi. Ürəyində dedi: "Ağıllı adamdı, məmləkətin dirəyidi". Atlanıb Aləmşahbəyimin və övladlarının pişvazına gəldilər. Atlarını yanaşı sürürdülər. Yollardakı ağaclardan asılanları Rüstəm Mirzə görüb Əbih Sultandan soruşdu.

– Bu kimdi?

– Süleyman Bicanoğlunun böyük oğludu, o birilər də onun qohumları.

– Meyitləri niyə götürməyiblər?

– Hökmdar sağ olsun, bu Səfəviyyə təriqətinin tərəfdarlarına xəbərdarlıqdar. Qoy sənin qəzəbnak olmağından xəbər tutsunlar.

Rüstəm Mirzə onun bu fikrini də bəyəndi.

Atlarını sürüb çadırların yanına gəldilər. Atının yüyənin tutdular. Aşırılıb düşdü. Yeriyib çadıra girdi. Başını qaldırıb əmisi qızının sifətini gördü. Aləmşahbəyim sərv kimi ucaboylu, zərif idi. Qızılı saçları, mavi gözləri vardı. Əmisi oğlu onu lap çoxdan görməmişdi. İndi müqayisə elədi və gördü ki, o xeyli dəyişib. Üzüntü onu sıxıb. Əlini sinəsinə qoyub baş əydi. Hər iki tərəfində özü kimi gözəl, qədd qamətli oğlanları dayanmışdı. Bu görüş üçün tikilmiş paltarlar

Sultanəliyə, İbrahimə və İsmayıla çox yaraşırdı. Analarının qızılı saçları, onların qaşları, çalmataclarındakı qırmızı dilimlər... Bu rənglər sevinc, bayram ahəngi yaratmışdı.

– Əmim oğlu rəhmətlik Sultan Yaqubun səhvini düzəltməyimə çox şadam.

Aləmşahbəyim ona minnətdarlıq eləmək istədi. Amma gözü Rüstəm Mirzənin başındakı ağ ipəkdən hörülən, sağ tərəfində daş-qaşla bəzənən, çalmaya yapışdırılan hökmdarlıq nişanəsinə, çalmadan hündürdə dayanan dingədə sıralanan iri əmruzi-bikr incilərinə sataşanda ürəyi sıxıldı. Bu tacı hərdənbir uzaq ölkələrdən qonaqlar gələndə, bayram günlərində Uzun Həsən başına qoyub taxta otururdu. Bu görməmiş isə tacı başına qoyub şəhərdən kənara çıxır. Onun düşəcəyindən qorxur. Aləmşahbəyim özünü ələ almaq üçün uzun kipriklərini endirdi və lalə yarpaq dodağını dişlərinin arasında didişdirdi.

Rüstəm Mirzə sözünü deyib dayanmışdı. Aləmşahbəyim özünü ələ aldı. Oğlanlarını irəli verdi:

– Gedin, dayınızla görüşün.

Sultanəli Hüseyn Lələ bəyə baxdı. Gözləri ilə razılığını alandan sonra irəli yeriyib dayısı ilə görüşdü.

– Çox sağ ol, dayı. Bizi xilas elədiyinə görə. İbrahim və İsmayıl da onun kimi hərəkət elədi.

– Əmiqızı, Ağqoyunlu səltənətini quran atan Uzun Həsənin paytaxtı Təbriz gəlişinizdən çox şad olub.

Aləmşahbəyim özünü saxlaya bilmədi.

– Düzdü. Camaatın sevincini gördüm. Heç meyitlər də özlərini saxlaya bilməyib pişvaza gəliblər.

– Hansı meyitlər?

– Ağaclardan asılan.

– Onlar düşmənlərin meyitləridir. Onları belə görmək xoş deyilmi? Bir də gərək şəhərə əvvəldən çapar gələydi, qohumlarımı şəhərin iki-üç mənzilliyində qarşılamaq borcum idi.

– Çox sağ ol, əmioğlu.

– “Səkkiz behişt” sarayı sizi gözləyir.

“Səkkiz behişt” eşidəndə Aləmşahbəyim bitmiş söhbəti yenidən başlamağı lazım bildi. Bu sarayı Sultan Yaqub tikdirmişdi.

– Əvvəlcə Nəsriyyə məscidinə gedirik. Nənəm Sara xatunu, atam Uzun Həsən, anam Dəspinə xatunu ziyarət eləyəcəyik. “Səkkiz behişt” sarayına ayaq basan deyiləm. Bizim bədbəxtliyimizin nəqşəsi orada çəkilib.

Rüstəm Mirzə daha heç bir söz demədi.

Qala qapılarından içəri girəndən sonra Təbriz camaatı evlərin damından, divarların üstündən Aləmşahbəyimi və onun övladlarını aparan kəcavənin üstünə ilin, bu vaxtına qədər haradasa qoruyub saxladıqları qızıl güllər səpirdi. Kəcavə irəlilədikcə adamlar evlərdən çıxardıqları Təbriz xalılarını da daş döşəmələrin üstünə salırdı. İsmayıla elə gəlirdi ki, onlar payızın bu günəşli günündə gülün, çiçəyin, təbiətin görmədiyi, yarada bilmədiyi bir çəmənliklə gedirlər. O istəyirdi ki, bu yol uzansın, bu çəmənlik qurtarmasın.

Təbriz əhlinin bu məhəbbətinin əsası vardı. Uzun Həsən padşahın vaxtında Təbrizin tərəqqisi, tikilib qurulması hələ heç kimin yadından çıxmamışdı. Onlar Aləmşahbəyimin şəxsində elə bil ayağa qalxmış Sara xatunu qarşılayırdılar O, sifətinə zərif Venedikt tülündən rübənd tutmuşdu və gözlərindən axan yaşlar da görünürdü. O, Təbrizi yaxşı-yaxşı görmək üçün belə eləmişdi.

Bütün Təbriz əhli onun oğlanları ilə bərabər əvvəl hara gedəcəyini gözləyirdi. Kəcavənin dalınca minlərlə adam biri-birini tapdalaya-tapdalaya gəlirdi.

Kəcavə Nəsriyyə məscidinin qabağında dayananda camaatın “Mərhəba! “Əhsən!” nidaları şəhərin hər tərəfində eşidildi. Aləmşahbəyim uşaqları ilə bərabər düşüb məscidə girəndə İsmayıl anasının əlindən tutdu ki, yıxılmasın. Çünki başını yuxarı qaldırıb məscidin səqflərinə, qübbəsinə baxırdı. Elə bil o qaranlıq gecədə qalanın bürcündən göyə baxıb ulduzları gördü. Amma o ulduzlar xırda idi, nöqtələrə oxşayırdı. Ancaq bu səmada ulduzlar daha iri, daha parlaq,

biri-birinə daha yaxın, dərin və sirli idi. Onu insan əlimi yaratmışdı? Yadına anasının ipək düyünçədən çıxardığı, Venediktdən gətirilmiş şəkil düşdü. Onları müqayisə elədi. Oradakı mənzərəni şəhərə getsən görərsən. Bunu isə heç yerdə görmək mümkün deyil. Belə gözəlliyi yalnız insan qəlbində tapmaq olar. Səkinə xalanın çaldığı saz havaları, oxuduğu bayatılar bu gözəlliyə necə də uyğun gəlirdi.

Üləmalar namaza dayanmışdılar. Amma onların hamısı Sultanəlidən sonra bir cərgəyə düzülmüşdü. Onlar hərdənbir əllərini o gözəl göyə qaldırıb “Allahu Əkbər” – deyir, oradan iki-üç “Allahü əkbər” nidası geri qayıdırdı. Elə bil insan əlinin yaratdığı bu ulduzlu göy, əsl səmadan fərqli olaraq adamları eşidir, ona cavab qaytarırdı. Amma qalada anası əlini nə qədər göylərə qaldırıb yalvarırdısa bir şey çıxmırdı.

Namaz qurtardı. Məsciddə Rüstəm Mirzə, Aləmşahbəyim və övladlarından başqa heç kim qalmadı. İsmayıl anasına fikir verirdi. O, əvvəlcə gözəl naxışlar, daş-qaşlara, naxışa bənzər yazılarla bəzənmiş qəbrə yaxınlaşdı.

– Övladlarım, bu ulu nənəniz Sara xatunun qəbridir. Səsi titrədi. Əyilib qəbir daşından öpdü. Oğlanları da onun kimi. – Bu da babanız Həsən padşahın məzarıdır. Böyük bir ölkəyə sığışmayan atam gör kiçik qəbrdə necə rahat uzanıb! Qalx ey mənim qeyrətli, mərd atam. Gör övladların səndən sonra biri-birini qurd kimi necə də parçalayır. Qoy sənin ruhun bizə nicat versin.

Rüstəm Mirzə bu sözləri eşidib qəbrin qarşısında diz çökdü.

– Baba, sənin ruhuna, ədalət naminə çaldığın qılıncına and olsun ki, tez bir zamanda əmin-amanlığı bərpa edəcək, əvvəlki adımızı, şan-şöhrətimizi nəslimizə qaytaracağam.

İsmayıl bər-bəzəklərdən doymamış sənduqənin uzunluğunu öyrənmək istədi. Addım ata-ata bu addımları saydı.

“Bu daş da babam kimi uzundursa, gör onda necə də hündür imiş babam. Mən atın üstündə otursam, o yerdə ayaq üstündə dayansa məndən hündür olardı. Yox, mən dəvənin üstündə”

Aləmşahbəyim atasının qəbrindən anasının qəbrinə keçdi. Heç nə deməyə taqəti yox idi. Ürəyindən də, kipriklərindən də yaşlar axırdı. Bir anlığa nəfəsi də tutuldu. Udmağa hava çatmadı. Diz üstündə çökdü. Sifəti qəbir daşının üstünə söykəndi. Daşın soyuğu onun yanağına keçdi. “Sənin istinə gəlmişdim. Elə bildim, qızdıracaqsan bu üşüyən ürəyimi. Amma necə də bumbuzsan, ana”.

Sultanəli özünü kişi kimi aparır, ürəyindəkiləri sifətində büruzə verməməyə çalışırdı. Təkcə gicgahlarında əmələ gələn düyün gözə çarpırdı. Bu düyün əsəb kələfi idi. Nə qədər möhkəm olsa onun vücuduna bir o qədər hakim kəsilirdi.

Aləmşahbəyim qalxdı. İsmayıl anasının mina boylu olmasını sanki indi gördü. Fikrindən keçdi ki, babama oxşayıb. Gəlib onunla yanaşı dayandı, onun uzun, ağ və taqətsiz barmaqlarından tutdu.

– Əmioğlu, mənim oğlanlarımın taleyi necə olacaq? – Aləmşahbəyim birdən-birə dönüb Rüstəm Mirzədən soruşdu.

– Təbrizin hansı sarayını istəsən, götür, yaşa.

– Saray bizim ürəyimizi şad eləməyib.

– Öz ata yurdumuza qayıdacağıq, dayı, Ərdəbilə, – Sultanəli qətiyyətlə dilləndi.

– Mənə arxa-kömək olmaq istəmirsən? – Rüstəm Mirzə bu sözü elə dedi ki, sanki Ərdəbilə gedən kimi dönüb ona düşmən olacaqdılar.

– Atam məni öz işinin davamçısı tə’yin eləyib.

– Hansı işin? – Rüstəm Mirzə sanki bu sualla onu karıxdırıb ürəyindəkiləri açıb tökdürmək istəyirdi.

– Şeyxlik. Səfəviyyə təriqətinin başçısı.

– Ərdəbil mülkü sənindi. O şeyxliyə mən də pay kimi Ərdəbil padşahlığını verirəm. Xəzinəsi, taxt-tacı, qanunu ilə. Bir şərtim var!

– Dayımızın şərti nədir? – Sultanəli taxt-tac, xəzinə sözlərini eşidib sevindi.

– O xəzinə Ağqoyunlu ziyanına xərclənməsin, o taxtda Rüstəm Mirzənin əleyhinə hökmlər verilməsin, qoşun qılıncını bizə qarşı qından çıxarmasın.

– Mənim atam heç vaxt Ağqoyunlu taxtına qarşı çıxmayıb. Onun oğlu babası Uzun Həsənin qəbri önündə and içir ki, dayısına heç vaxt xəyanət eləməyəcək.

Aləmşahbəyimin ürəyindən qara qanlar axırdı. O, övladlarını dünya işlərindən oğurlayıb öz aləminə aparmaq istəyirdi. Ana ürəyi adlı məmləkətdə onlara bütün dünyanın sevincini bağışlayardı. Orada onların başından bir tük də əskik olmazdı. Amma buna gücü çatmayacaq. Oğullar böyüdükcə atalarına çəkirlər. Rüstəm Mirzənin təklifi Sultanəlini yerindən oynatdı. 15 yaşı yenicə tamam olan Sultanəlini padşah taxtına çıxarır. Bunun qarşısında dayanmaq çətindir. Heç bir ana məhəbbəti çəpəri onun qarşısını saxlaya bilməzdi.

Rüstəm Mirzə də belə. Atamın qəbri qarşısında and içir. Andın axırıncı sözü ağzından qurtarmamış ölkəni bölür, paylayır, öz başını salamat saxlamaq xatirinə. Ərdəbili ayırdı verdi oğluma. Ayrılıq ayrılıqdı. Nə qədər əhd-peyman bağlasalar da, ona özgə ad vermək olmaz.

Danışmaq, bu fikrə e'tiraz eləmək istədi. Amma övladlarının xətrinə danışmadı. Rüstəm Mirzənin qoltuğunda yaşasalar başlarına min bir müsibət gələr. Orada özləri olacaq. Atalarının müridləri onları kiprik gözü qoruyan kimi qoruyacaqlar.

Bu fikirdən sonra atasının qəbrinə baxdı və tez də gözlərini yayındırdı. Ürəyində dedi: “Bir anda mən də xəyanət elədim, ata...”

Əbih Sultan Ərdəbildə Hüseyn Lələ bəyin əlinə keçəndə o Muradı danışdırmış, Əbih Sultana harada rast gəldiyini öyrənməyə çalışmış, ona inansa da Əbih Sultanın qaçaqlıqla məşğul olan bir adamla dostluq eləməyinə inanmamışdı. Təbrizdə dayandıqları ilk gecə o Muradı təzədən danışdırmaq fikrinə düşdü. Səfəri onu tapmağa göndərdi. Səfər də çox çətinliklə Muradı tapıb Hüseyn Lələ bəyin yanına gətirdi.

Onlar ikilikdə söhbət eləyirdilər.

– Gərək ki, Rumlu elindənsən, eləmi?

– Bəli, – deyə Murad əlini qoç buynuzuna bənzər bığlarına çəkdi. Ciddi bir işə, söhbətə başlamamışdan əvvəl əlini bığına çəkmək onun adəti idi.

– Rumlu tayfasının tarixini bilməmiş olmazsan.

– Bilirəm. Babam danışardı ki, onları Əmir Teymur əsir aparırmış. Ərdəbildə Xoca Əli alıb geri qaytarıb. O yaxşılığı tayfamız yadından çıxartmayıb. Mən də Allahımdan çox razıyam ki, belə bir gündə mən də Xoca Əlinin nəvələrinin karına gəlmişəm. Düzdü, elə bir iş görməmişəm, vaxt gələr, əcəl imkan verər, mən də kimliyimi bildirərəm.

– O vaxt gəlib.

Hüseyn Lələ bəy bu sözü dedi, amma qorxdu ki, artıq ehtiyatı əldən verib. Qayıdıb söhbətlərini Əbih Sultana danışsa, sirr açıla bilər.

– Eşidirəm. Mən bu yolda hazır.

– Əbih Sultanı yaxşı tanıyırsanmı?

– Elə belə.

– Qohumluğun var?

– Yoxdu. Ərdəbildə danışdım da. Onnan yolda duz-çörək kəsmişəm. Çörəyi də ayaqlayan adam deyiləm. Görürəm, yox, məndən başqa duz-çörəyin qədrini bilən yoxdu, O, şahnan oturub-duran, mən də rəiyyət, yoldan ötənin biri. Heç yadına da düşmürəm. İstəyirəm, çıxam gedəm öz ellərimizə.

Hüseyn Lələ bəy gördü zənnində yanılmayıb. Xurcunu yanına çəkdi. Həmişə xurcunda gəzdirdiyi Quranı çıxartmaq istədi. Amma Quranın yanında nə vaxtdan qalmış quru, boyat çörək vardı. Çörək bükülən dəsmalı açdı. Çıxartdı, ortalığa qoydu, əlini çörəyin üstünə qoydu:

– Səni and verirəm bu çörəyə, söhtbətimiz öz aramızda qalsın.

Murad da əlini toxundurdu.

– Mən andımı içdim.

– Əbih Sultan çox qorxulu adamdı. Bəysunquru yıxdımı? Yıxdı. O, Bəysunqurla çörək nədi, Bəysunqurun çörəyini yemişdi. Bəysunqur ona böyük bir vilayət bağışlamışdı. Əgər Rüstəm Mirzə da onun üzünə pis baxsa onun da başını yeyəcək. Səninlə kəsdiyi çörək elə orada da yadından çıxıb.

Söz Muradı tutdu.

www.kitabxana.net

– Mən nə Bəysunqur deyiləm, nə də Rüstəm Mirzə. Mən qaçaq Muradam. Murad hələ ömründə çörəkdən özgə bir şeyə, bir adama baş əyməyib. Xəyanət eləyə, başını sərçə boğazı kimi üzüb ataram.

– O da boğaz üzdürən deyil. Ən çətin yerlərdən çıxıb.– Hüseyn Lələ bəy bu sözlə Əbih Sultanı bir pillə də qaldırdı.

Murad əsl mətlə6i gözləyirdi, amma getdikcə, bəlkə də o mətləbdən uzaqlaşırdılar.

– Sünnü məzhəbindənsən, ya şiə?

– Ərdəbildə Rumlu tayfası şiəliyə keçib. Bunun da üstündə başlarına min oyun açırlar. Axı sözünün canını demədin.

– Demək başlarına oyun açırlar. Vaxt gələr, hörmət qoyarlar. Bunun üçün sənin də, mənim də köməyim lazımdı.

– Məndən nə iş aşırsa, eləyim. – O, bu sözü ürəkdən dedi.

– Bundan ötrü təriqəti möhkəmlətmək lazımdı. Onun başçısını qorumasaq, Şeyx Heydərdən sonrakı illərdəki müsibətlər gələr başımıza. Sultanəli şeyxlikdən əlavə, həm də Ərdəbil padşahı e'lan edilir.

Murad yenə əlini bığına çəkdi. Onun hər barmağı bir uşaq biləyi yoğunluğunda idi. Yumruğu gürzdən böyük olardı, balaca olmazdı.

– Ərdəbil qoşununun bir qolunu tapşırın mənə. Onda görün analar necə oğullar doğub.

– Hələlik heç kimlə davamız yoxdu. Bizim ən qorxulu düşmənimiz Əbih Sultandı. Bizə onun fikrini bilmək şərtdi. O, Rüstəm Mirzəni gündə min təbə salacaq.

Murad fikrə getdi. Hüseyn Lələ bəy iri, ağıllı gözlərini onun sifətinə dikib cavabını gözləyirdi.

Onun gec cavab verdiyini görüb əlavə elədi:

– Bu iş bir qoşunun işinə bərabərdi. Onun beyni qaynar qazandı. Hər an bir hiylə qurur. Hörümçəkdi, tor hörür. O qazandan, o tordan xəbərimiz olmasa, başımıza min oyun açar.

Murad dedi:

– Mən sənin dediklərini yaxşı anşırıram. Yaxşılığa yaxşılıq hər kişinin işidi. Rumlu tayfasına olunan yaxşılığın əvəzini çıxmaq üçün özümü də qurban verərəm. Ancaq Əbih Sultanın fikrini öyrənmək, onu xəbər vermək mənim kişiliyimə, qeyrətimə yaraşan iş deyil. Əgər mən onun fikrini bilsəm, onun divanını özüm eləyərəm, daha niyə xəbər göndərirəm ki? Deməyindən belə çıxır ki, Əbih Sultan tülküdü. Tülkünün fikrini bilsə-bilsə çaqqal bilər. Ancaq anam məni şir doğub.

Hüseyn Lələ bəy əlini ona uzatdı: – Ver əlini, Murad bəy rumlu. Bu gündən olduq qardaş.

Hüseyn bəyin əli onun ovcunda itdi. Lələ inandı ki, o qəhrəmanlıq üçün yaranıb, döyüşdə özünü düşmən qoşununa vursa yara-yara aparar. Xəbərçiliyə isə yaramaz. Onun bir sifəti var.

– Qardaş olaq. Mən qalıram Təbrizdə. Əgər Əbih Sultan istəsə onun qulluğuna girərəm. Amma məndən xəbər gözləməyin. Nə qədər onun yanında olsam, Sultanəlinin qarasınca danışa bilməz.

– Özünü güdaza verərsən. Şirləri elə tülkülər tələyə salıb. Amma elə cavan Sultanəlini şirlər qorumalıdı. Onun taleyini, baxtını tülkülərə ümid ola bilərikmi? Şirvandan, Xorasandan, Bağdaddan, nə bilim hiylə toru haraya toxunursa xəbərimiz olmalıdır. Əbih Sultan səndən başqa yəqin ki, heç kimə bel bağlamayacaq. Çünki o belə hesab eləyir ki, səni qaçaqlıqdan gətirib, üzə çıxarıb. Sənə iş tapşıracaq. O bir tikə çörəyin səbəbinə səninlə işlər görməyə çalışacaq. Sən hələ saray adamlarını tanımırsan. Sarayda isə Əbih Sultan kimiləri az deyil. İnsan ki, heç bir şeydə müqəddəslik görmürsə, onun ürəyində kin-küdurətdən özgə heç nə ola bilməz.

Murad onun sözlərindəki həqiqətləri dərk eləyir, ürəyində onların hamısı ilə razılaşırdı.

– Hüseyn Lələ bəy, Rumlu tayfasına sifariş göndərəcəm ki, yollar açılıb. Gəlsinlər ziyarətə.

– Göndər, mən dediklərimi də yaddan çıxarma.

Murad Cibo Səfərlə birgə bazar içindəki kiçik aşxanada oturub piti yeyirdilər. Kiçik saxsı qablardakı pitidən qalxan ədviyyat ətri içərini doldurmuşdu. Onlar palazın üstündə bardaş qurub üzü şirli, yazılı, şəkilli saxsı kasada pitinin suyuna təndir çörəyi doğrayırdılar. Balaca

pəncərədən at ayaqları göründü. Sonra geyimindən saray fərraşına oxşayan adam başını içəri uzatdı. Qayıtmaq istəyirdi ki, Muradı gördü və bir az da irəli gəldi.

– Murad bəy, ağa səni gözləyir.

Murad iri bir tikə götürmüşdü. Barmaqlarından zəfəranlı yağ axırdı. Tikəni ağzına qoyub iştahla çeynədi, udub dedi:

– Ağan kimdi sənin?

– Əbih Sultan.

– Getməsəm nə eləyərsən?

Xidmətçi pərt oldu. Doğrudan da nə edəcəyini bilmirdi, bu barədə ona heç bir tapşırıq verməmişdilər. Bir an fikirləşdi. Muradın zəfəranlı, yağlı barmaqlarına baxıb udqundu.

– Getməsən? Ağa dedi ki, Murad bəyi tap gətir.

– Elə belə dedi?

– Bəli, bəy.

Cibo Səfər onun dizinə toxunub dedi:

– Ağa, Murad bəyi harada gözləyir?

– “Səkkiz behişt” sarayında.

Bu sözdən sonra piti yeyən adamlar da əllərini, tikə çeynəyən çənələrini saxladılar, piştaxtanın sahibi qırmızısaqqal kişinin rəngi ağardı. “Gör necə böyük adam gəlib mənim dükanıma çıxıb. Bilsəm belədi, hörməti ayrı cür eləyərdim. Bir şey xoşuna gəlməyibsə, vay mənim halıma”-deyə fikirləşdi.

Cibo Səfər Muradın qulağına nə pıçıldadısa, sonra üzünü Əbih Sultanın xidmətçisinə çevirib dedi:

– Sən get, Murad bəy gələr.

Xidmətçi bu sözdən sonra onun qabağında diz üstə çökdü:

– Qurbanın olum, ay bəy. Mənə yazığın gəlsin.

– Qalx, – deyə Murad ona təpindi. O insan yalvarışına dözə bilmirdi. – Get, gözlə, çıxaram.

Murad Səfəri də özü ilə bərabər gətirdi. Ona ürəyi yatmışdı. Neçə gün idi bir yerdə gəzib-dolanır, dərdləşirdilər.

İçəri girəndə Murada elə gəldi ki, Əbih Sultan təzə qalxan günəş kimi parıldayır. Libası, silahları, məstlərinin naxışları, saqqalı və bığları, Murada uzanan əlləri lap işıq böcəyinə dönmüşdü. Heç monqol atına minən Əbih Sultana oxşamırdı.

– Hə, mənə görə qulluq.

– Qul sahibi olasan, qulluq nədi? Səni şana-şöhrətə çatdırmaq niyyətindəyəm. Sən də deyirsən qulluq.

– Nə bilim – Murad çiyinlərini çəkdi. – Nə bilim, deyir dəvəni toya çağırdılar bikef oldu. Soruşdular bu nə hikmətdi? Cavab verdi ki, oynamağa çağırmırlar ha, ya duza göndərəcəklər, ya suya, ya oduna.

Cibo Səfər göy gözlərini qıyıb bic-bic onların söhbətlərinə qulaq asırdı. Nazik dodaqları da qaçmışdı, çürük, xırda dişləri görünürdü.

– Oduna, suya, duza göndərməyə dəvələrimiz var. Onların ovsarını tapşırdığımız adamlar da mə’lumdur. Bir qalır o sarvanların hamısının ovsarını tapşırmağa igid lazımdı, o da sən. Axır günümdə mənə kömək durmusam, arxamda dayanmısan, indi o haqqı-sayı və boynumda saxlaya bilmərəm.

Murad sakitcə qulaq asır. Əbih Sultanın qatladığı dizinin kündəsində gərilib hamarlanan zoğalı ipək parçanın parıltısına baxıb fikirləşirdi. “İndi karvanların sarvanlarını mənə ümid eləyir. Əlinə fürsət düşən kimi o dizini boğazıma qoymaz ki? Hələlik karvanların ovsarını mənə verib, məni ovsarlayıb yedəyində aparmaq fikrindədir. Yaşayaq, hər şeyi görərik”.

Səfər Muradın bu hərəkətlərindən hiss eləyirdi ki, o Əbih Sultanın bu təklifini bəyənib, onunla razıdır. Amma hələlik nədənsə tərəddüd göstərir. Bayaqdan qılıncının qəbzəsinə döyüb, Əbih Sultanın qarasınca danışırdı. Amma indi birdən-birə yumşaldı. Bu işdə ona haq da qazandırdı. Axı Murad bundan sonra öz elinə-obasına qayıdan deyildi. Bu yerlərdə yurd-yuva

salmalı, ev-eşik sahibi olmalı idi. Bu işdən ötəri də ona hər cür imkan açılırdı. Bəs birdən-birə o qızılbaşların tərəfini versə necə?

Bu vaxt Əbih Sultan Səfəri göstərdi.

– Bu kimdi?

– Şirvanlıdı. Duz-çörək kəsmişik, – deyə Murad ehtiramla cavab verdi və açıq-aşkar bilindi ki, bu ehtiram Əbih Sultana yox, Səfərə aid idi. "Duz-çörək kəsmişik" kəlməsindən sonra Əbih Sultanın dodağı qaçdı. Amma bunu heç kim görmədi. Çünki qızılı, qəhvəyi rənglərə çalan yumşaq bığları onun dodaqlarını örtmüşdü.

"Duz-çörək" bunun üçün Allahdan da irəlidi, peyğəmbərdən də, lap padşahdan da. Qanlı düşməni ilə bilmədən bir süfrəyə otursa intiqam almağı unudar. Bir tikə çörəyə hər şeyi qurban eləyər".

– Murad bəy, səni elə yüksək bir mərtəbəyə qaldırıram ki, orada gərək padşah süfrəsindəki duz-çörəkdən özgə heç bir duz-çörək görünməsin. Bir hökmdarın bir vəziri vardı, hər dəfə süfrə açılanda padşah ondan xörəyin dadını soruşardı. Deyərdi:

– Vəzir dolma necə bişib?

Deyərdi: – Gözəl.

Padşah yeyib görərdi ki, dadı-duzu yoxdu, deyərdi, pis dolmadı. Vəzir də deyərdi bəli, dolma pisdi. Axırda bir gün padşah cana gəldi, dedi: – Ay vəzir, axı elə mən nə deyirəmsə, onu tutuquşu kimi təkrar eləyirsən. Bu necə olan işdir?

Vəzir dedi:

– Padşah sağ olsun, mən dolmaya yox, padşaha qulluq eləyirəm. Bir dolmaya görə sənin sözünü qaytarsam, onda gərək, boğazım keçə ilgəyə. Bildin də, mən nə deyirəm. Sən olursan saray adamı. Çörək yediyin süfrə də, saray süfrəsi olacaq. Ona görə də bir duz-çörəyə bir ölkənin sirri-sözü əldən getməməlidir.

Muradı söz tutdu, amma təmkinini pozmadı:

– Mən duz-çörək kəsdiyim adama ürəyimi verərəm. O ürəyin ona dəxli olmayan sözünü isə vermək hələ mənim kiminin qeyrətinə yazılmayıb.

– Bu yaxşı, bu oldu çox pakizə. – O, Səfərə baxdı. – Sənin bu dostundan heç gözüm su içmir. Gözləri göy, dişləri seyrəkdi. – O sözünə ara vermədən əlavə elədi. – Belə adam bizə hava kimi, su kimi lazımdı. Götürərsən öz yanına. Nə deyirsən?

Əbih Sultan elə danışırdı, sanki Ərdəbildə Səfəri görməmişdi. Onu çox yaxşı tanıyırdı, amma üzə vurmur, onu istədiyi yerlərdə sınaqdan keçirmək istəyirdi.

– Yox, Əmir sağ olsun. Mən Təbrizdə qala bilmərəm. Mənim Ərdəbildə dükanım var.

– Harada? Ərdəbildə?

– Bəli, ağa.

– O dükanı Təbrizdə açarsan, olmaz?

– Niyə olmur, ağa, ancaq mənim Ərdəbildə əhli-əyalım var. Mən gətirsəm də, qayınatam qoymaz.

– Özün Ərdəbildənsən?

– Yox, Şirvanlıyam, Şamaxıdan.

– Bəs Şamaxı sünnüsü Ərdəbil qızılbaşlarının arasında necə baş çıxarır?

Səfər tez cavab verdi:

– Elə özüm də qızılbaşam.

– Bəs nə tez məzhəbini dəyişdilər?

– Özüm dəyişdim.

– Qoçaq adamsan.

Murad Əbih Sultanın danışığındakı təhqiramiz kinayəni başa düşürdü, ona görə də araya söz qatmaq istədi.

– O mənim dostumdu. Hər işinə mən cavabdehəm.

– Çox yaxşı. – Əbih Sultan tezcə razılaşdı. Amma Səfərin Ərdəbil pirində onların başına qara örtük saldırıb məşhər ayağına çəkdirdiyi yadından çıxmamışdı. Amma gözünü dolandırıb

ona elə iti, xəncər baxışlarını sancdı ki, sanki onun ürəyini görmək, onun sünnülü, şiəli ürəyi olduğunu bilmək istəyirdi.

– İnsan əqidəsini dəyişə bilər. Bu qəbahət deyil. O vaxt ki, onun doğrudan da görür ki, ürəyi daha sözünə baxmır. Belə deyilmi, Murad bəy?

– Düzdü, Səfər öz ürəyinə qulaq asıb.

Səfər nədənsə elə bil onun əfsununa düşmüşdü. Rüstəm padşahın sağ əli olan Əbih Sultanın qarşısında, “Səkkiz behişt” sarayının otaqlarının birində oturub söhbət eləmək onu dəyişdirmişdi. Bütün başına gələnlərn açıb söyləmək istəyirdi.

– Ya Əmir, dostlarım mənim müflis olduğumu körüb hamısı məndən üz döndərmişdi. Baş götürüb Şirvan elindən çıxdım. Ulağımı canavar yedi, qızılbaşlar əvəzində mənə at verdilər, bez paltarım əynimdən tökülürdü, yerinə atlas paltar geydirdilər.

Əbih Sultan güldü.

– Demək qızılbaş olan kimi libasın atlas, eşşəyin at oldu.

– Bəli.

– Minik, paltar dəyişmisən. Əqidə bir az dərində olur. O əl atıb yanındakı üstü sədəf naxışlı sandığı açdı. Oradan qırmızı ipək torba çıxarıb Səfərin xalçanın üstünə qoşa basdığı dizlərinin qabağına atdı. Torba yerə dəyəndə pul cingildədi və bu səsdən Murad bildi ki, oradakı mis, gümüş sikkə deyil, xalis qızıldı. Əbih Sultan dedi:

– Götür, get libasını da, atını da dəyiş, sonra yanıma gələrsən.

Səfər pulu götürmək istəmədi.

– Onu mənə niyə verirsən, ya əmir?

– Götür, saraya gələn ya cəza alar, ya ən’am. Get, günorta namazından sonra yanıma gələrsən. Rüstəm padşahın yanına aparacam. Mən səni yaxşı tanıyıram. Bizim bu işimizdəki xidmətlərini də bilirəm. Onun ən’amı hələ sonra olacaq.

Səfər torbanı götürüb cibinə qoydu, əlini döşünə basıb baş əydi, dalı-dalı qapıya getdi. Gözləri Muradın gözlərinə sataşanda dayandı.

– Səni gözləyim?

Onun yerinə Əmir İbrahim cavab verdi.

– O burada olacaq. İşini qurtar, gəl saraya.

– Baş üstə.

Səfər gedəndən sonra Əmir İbrahim üzünü Murada çevirdi. Amma onun iri, qəzəbli gözlərinə baxa bilmədi. Baxışını yayındırıb bir nöqtədə cəm eləmək istədi, nəhayət, süfrədəki çörək qırıntılarında qaldı gözləri.

– Sənin barəndə padşaha danışmışam, xoşuna gəlmisən. Sən gərək bundan sonra öz yerini biləsən. Mindiyi eşşəklə bərabər əqidəsini, məzhəbini dəyişən adamlarnan oturub-duran vaxtın getdi. Sənin boyuna biçilən bir iş tapmışıq.

– O nə işdi elə?

– Olursan Səltənətin sahib xəbəri.

– O necə iş-gücdü, elə?

– Belədi də, var səltənətin sahibi, var qoşunun sahibi, var xəzinənin sahibi, bir də var ölkənin hər tərəfindən axıb gələn, padşah hüzuruna çatmalı olan xəbərlərin sahibi. Hansı məmləkətdə nə var, onu səndən əvvəl heç kim bilməyəcək. Səltənətin bir tərəfi Xorasandı, o tərəfi Şirazdı, aşağısı İraqdı, günbatanı da Diyarbəkrdi. Yüyrək atla ölkənin bu başından o biri başına yalançılar sözü olmasın, iki aylıq yoldur. Hər rustaqda, hər keçiddə sənin çaparxanaların olacaq. Hökmdar fərmanlarını, xəbərlərini çaparların aparacaq rustaqlara, qonşu ölkələrə, oradan xəbərləri, namələri gətirəcəklər sənə. Özünə də Rüstəm Mirzə böyük bir syürqal bağışlayır. Nəsilbənəsil bəsindi.

Əbih Sultan əlini əlinə vurdu. Fərraş qapını açıb içəri girdi. Amma Murad onun sifətini yox, başındakı papağın üstünü gördü. Baş aşağı enmişdi.

– Apar Murad bəyə dəftərxanasını göstər. Murad iri əllərini palıd kötüyündəki hura oxşar dizinin kündəsinə basıb ayağa qalxanda dedi:

– Axı mən əlif-beyi tanımıram.

Əbih Sultan

– Çox gözəl, çox pakizə, – dedi.

Bu şəxsin nahaq yerə üç adı yoxdu. Əybə Sultan, Əbih Sultan və Əmir İbrahim. Bayaq fərraşın papağının üstünü o da görmüşdü və onun ürəyini də oxumuşdu. İnsanın fikrini gözlərindən yox, boynunun dalından oxumağı bacarırdı. Həmişə otu itə, əti ata verib hər ikisini özünə möhtac qoyar, əlində möhkəm saxlayardı.

Murad oxuyub-yazmaq bilsəydi, ona sahibxəbərliyi yox, əmiraxurluğunu verərdi. İndi isə ölkənin hər yerindən gələn xəbərlərdən Muradın yox, onun özü xəbərdar olacaqdı. Otaqda tək qalanda o Səfər barəsində fikirləşirdi: "Ərdəbildə də, Hüseyn Lələ bəyin yanında da adamımız var artıq".

## SİRR AÇILIR

Ərdəbil bayram eləyirdi. Bu şəhər hələ belə pişvaz görməmişdi. Əmir Teymur da şəhərə girəndə onu belə təmtəraqla, ən başlıcası isə sevinclə qarşılamamışdılar.

Şəhər küçələrinin divarları görünmürdü. Hər iki tərəf adamlardı, onların sifətindəki sevinc idi, xoşbəxtlik idi. Elə bil divarı sevincdən tikmişdilər. Evlərin damı, hasarların üstü, ağacların budaqları, məscidlərin minarə və günbəzləri elə bil adam gətirmişdi.

Küçələrin yanlarındakı arxlarla qan axırdı. Qurbanlıq qoyunların qanı. Hər tərəfdən çalanların, oxuyub oynayanların xoş nidaları eşidilirdi.

Qabaqdakı ağ atın üstündə ağ libasda, başına on iki dilimli qırmızı tac-çalma qoyan Sultanəli gedirdi. Ancaq o tək gedə bilməzdi. Atının ayaqlarını qucaqlayan, qabağında qurban kimi başını gətirib yerə qoyan adamların əlindən keçib getməyi çətin idi. Amma bir dəstə ona yol açırdı. Ondan arxada Hüseyn Lələ bəy atını sürürdü. Kəcavədə isə Aləmşahbəyim oğulları İsmayıl və İbrahimlə oturmuşdu. Dədə bəyin süvariləri, yolların toz-torpağına batmış qara geyimli, yorğun və xoşbəxt müridlər yeriyirdi. Onlardan sonra gələnlərin ardı-arası kəsilmirdi. Birdə gördülər ki, gələnlər şəhərin öz camaatından da çoxdur. Təbrizdən Ərdəbilə qədər bütün şəhərlərin, kəndlərin, qəsəbələrin başıpapaqlıları da onlara qoşulmuşdu.

Zindanda qaldıqları müddətdə onlara olan məhəbbət ölməyibmiş, əksinə, daha da coşub-daşıbmış.

Sultanəli şəhər meydanında atını saxladı, əlini yuxarı qaldırdı. Hamı susdu.

– Salam olsun, ey camaat.

– Salam olsun! – Elə bir gurultu qopdu ki, göydə uçan quşlar da hürkdü.

– Heydəri Kərarın özünə çəkib!

– Gün parçasına bənzəyir maşallah!

– Şeyxin özünə oxşayır da!

– İgidlikdə də ona oxşasın!

Sultanəli ağ atı dikdirə çıxartdı ki, hamı onu görsün. Yenə əlini yuxarı qaldırdı.

– Ey camaat! Şeyx Heydər övladlarının kökünü kəsə bilmədi düşmənlər. Çünki Allah həmişə başımızın üstündə olub. Ulu babamız Həzrət Əlinin övladları kimi, babam Cüneyd, atam Heydər də bu müqəddəs yolda şəhid oldular. Lazım gəlsə onun övladları da şəhid olacaq, ancaq atalarının yolundan geri dönməyəcəklər.

Minlərlə mürid bir ağızdan qışqırdı.

– Qurban olduğum, sadağa olduğum, pirim, mürşidim, Sultanəli!

İsmayıl anasına baxırdı. Gözləri gülən Aləmşahbəyimin gözlərindən yaş axırdı.

– Ana, bu qədər adam bilirdi biz zindandayıq?

– Bəli, oğlum, bilirdilər.

– Bəs niyə gəlib bizi qurtarmırdılar?

– Gücləri çatmırdı.

Bunlar lap o qalanı götürüb bura gələrdi.

– Bu qədər adamın gücü o keşikçilərə çatmırdı? Çatardı!

www.kitabxana.net

Anası əlini onun çiyninə qoyub özünə tərəf sıxdı.
– Onda hamı bizim dərdimizi çəkirdi.
– İndi niyə belə qışqırırlar?
– Sevinirlər, ona görə. Axı biz azad olmuşuq.
İsmayıl suallarına ara vermirdi.
– Bu qədər adamın hamısı Sultanəlini tanıyır?
– Tanıyır, oğlum, tanıyır.
– Məni də tanıyırlar?
– Bəli, səni də tanıyırlar.
– Harada görüblər məni?
Anası söz tapmadı.
– Yuxuda.
– Yox, ana. Onlar atamızı tanıyırmış. Bizi də atamıza görə tanıyırlar.
Anasının gül yarpağı rəngli dodaqları onun alnına toxundu.
– Ağıllı balamsan. Siz də atanızın adını həmişə uca tutun.

Ərdəbil Sultanəlinin paytaxtı olandan sonra hər tərəfdən yenə də səfəviyyə müridləri axışıb buraya gəlirdi. Şəhər, Şeyx Səfiyyəddin türbəsi beş il əvvəlki gur geyimli-kecimli həyatını yaşayırdı. Amma iş təkcə bu müridlərin sayının çoxalması, onların arasında şiə məzhəbinin yayılması ilə bitmirdi.

Sultanəlinin, Hüseyn Lələ bəyin bir məqsədləri vardı. O məqsədi həyata keçirmədən rahat nəfəs ala bilməyəcəkdilər. Şeyx Cüneyd də, oğlu Şeyx Heydər də Şirvanşahlar tərəfindən öldürülmüşdü. Sultanəlinin Ərdəbil padşahlığını yaratması Şirvanşahlar sarayında təşviş əmələ gətirmişdi. Əgər bu padşahlıq güclənsə onların oxunun birinci hədəfi Şirvan olacaqdı. Otuz ilə yaxın Şirvan taxtında oturan Fərrux Yasar hər vasitə ilə Şeyx Heydər oğlanlarını aradan qaldırmaq üçün vasitələr axtaracaqdı. Təzə yaradılan padşahlığın isə Şirvana heç vaxt gücü çata bilməzdi. Amma hər gün, hər saat o gücü, qüvvəni toplamağa çalışırdılar. Məsciddə oxunan xütbələr Fərrux Yasarın adı Yazid və Müaviyyə ilə yanaşı çəkilir. Adamlar biri-birini söyəndə "Yasar oğlu Yasar" deyirdilər.

Hər gün axışıb gələn müridləri toplayır, onların döyüşə yararlı olanlarına məşq keçir, kəmənd tullamağı, ox atmağı, at çapmağı öyrədirdilər. Hüseyn Lələ bəy padşahlığın ordusunu yaratmaq hazırlığı görürdü. Amma ən böyük bir çətinlikləri vardı. Xəzinə boş idi. Ordunu silahlandırmaq üçün qurxana yaratmaq lazım gəlirdi. Vaxtilə Şeyx Heydərin belə bir qurxanası vardı və bir dəfəyə iyirmi min qoşunu silahlandırırdı. Tək Şeyxin pirində yığılan nəzir-niyazla ordu yaratmaq mümkün deyildi. Onsuz da Ağqoyunluların soyub var-yoxdan çıxardığı Ərdəbil əhalisindən çoxlu vergi almaq onları tez bir vaxtda dilə gətirə bilərdi. Şeyx Heydər belə vaxtlarda hərbi səfərlərə çıxır, ələ keçirdiyi qənimətlə ordunu saxlayırdı. İndi isə belə bir qəniməti əldə eləmək üçün nə ordu, nə də imkan vardı. Hüseyn Lələ bəyə görə ən birinci səfər edəcəkləri bir yer vardısa, o da Şirvan olmalı idi. Bütün kin-küdurətin hamısı Fərrux Yasara doğru yönəlmişdi. Həm də belə bir səfər üçün Rüstəm Mirzə də onlara kömək göstərərdi. Çünki Bəysunqur Mirzə Şamaxıdaydı. Təbriz taxtından qaçıb belə bir siyasətçi, qocaman hökmdarın yanında oturmuş keçmiş hökmdar ən böyük təhlükə idi. Hər vaxt böyük qoşun düzəldib Bəysunqur Mirzənin başçılığı ilə Kürü keçib taxt-tac üstündə müharibəyə başlaya bilərdi. Rüstəm Mirzə məğlub edilsə, onda Ərdəbillə haqq-hesab çəkmək onlar üçün lap asan olacaqdı. Bütün bu incəlikləri duyan Hüseyn Lələ bəy gecə-gündüz fikirləşir, çıxış yolu axtarırdı.

Bir gün o, Sultanəli ilə oturub məsləhətləşirdi.

– Ya Şeyx, – deyə o, Sultanəliyə müraciət elədi. – Səni təriqətimizin yalnız bu mərtəbəyə çatan adamlarına agah olmalı sirləri ilə hali etməyin vaxtı artıq yetişib. Atanız həmin sirləri mənə açmışdı ki, sizin üçün qoruyub saxlayım.

Sultanəli dikəldi. Ona elə göründü ki, çoxdan gözlədiyi saat yetişib. Lələsi qoşunu silahlandırmaq üçün gizlətdikləri xəzinənin yerini deyəcək.

– Xəzinənin yerini deyəcəksən, Lələ?

www.kitabxana.net

– Bəli, xəzinənin. Bu elə bir xəzinədir ki, onun cəvahiratının qiyməti heç bir xəzinədə yoxdur.

– Haradadır?

Bu sualdan sonra Hüseyn Lələ bəy onun fikrini dürüst anladı. Bir an tutuldu. Düzdür, o Sultanəlidən də çox bu fikri çəkirdi. Amma əsl sirr xəzinəsini o hər şeydən üstün hesab eləyirdi.

– Səni dünya varı düşündürməsin, Şeyx. Mən açacağım sirrə vaqif olan hökmdar, o biri xəzinələrin açarını daha tez tapar.

Sultanəli çox ciddi bir görkəm aldı. Yumruğunu təzəcə tərləyən çənəsinə söykədi.

– Eşidirəm.

– Mən elə sözlər deyəcəyəm ki, onların hamısına üsyan eləyə bilərsən. Amma səbrin olsun. Axıra qədər qulaq as. Hər sözün əsl mahiyyətinə get. Əvvəla nəsabnamə məsələsindən danışaq. Hamı bilir ki, nəslinizin kökü gedib imam Museyi Kazıma yetişir.

– Bəli, düzdür.

– Eşit məni, Şeyx. Bu, Şeyx Səfiyyəddinin müəyyən məqsəd üçün düzəltdiyi təcərrəyə görə düzdür, amma əslində belə deyil.

Sultanəli az qaldı ki, əlini qılıncına atsın, amma özünü saxladı. Yanaqlarında və gicgahlarında qanın necə sür'ətlə vurduğunu hiss elədi. Ucaboy, qarasaqqal, iri alınlı Lələ bəy onun gözündə dəyişməyə başladı. İnsan şəkli itdi, o şeytan cildində göründü.

Sultanəli özünü güclə saxlayıb sərt səslə dedi:

– Sonra?

– İnanmırsan. Bu mənə aydındır. Belə də olmalıdır. Amma bu barədə məndə Şeyx Səfi həzrətlərinin yalnız nəslində Şeyxliyə çatan adamların görə biləcəyi kitabı var. Nəsəbi peyğəmbərə çatmayan bir ailədən çıxan şəxslərin ali mərtəbələrə yetişməyinin necə müşgül iş olduğunu yəqin ki, bilirsən. Şeyx Səfi də bunu nəzərdə tutub. Bu bir. İkinci bir tərəfdən Şeyx Səfi həzrətləri əvvəllər təriqət cəhətdən sünnülüyə qail olsalar da, sonradan şiəliyi seçib. Şiəməzhəblər sayca az olsalar da, Peyğəmbər əleyhisalama qohumdurlar, daha yaxındırlar. Bütün bunların isə çox böyük və mühüm bir səbəbi var.

Bilirik ki, İranda, Azərbaycanda, Arranda, Xorasanda yaşayan şiələrin bir tərəfdən gündoğan türk xaqanlığı, bir yandan da osmanlı türk sultanlığı araya alıb ki, onların gücləri bizimkindən yüz qat çox olmaqla yanaşı, özləri sünnü məzhəbdirlər. Belə olanda biz qalırıq iki məngənə arasında. Əgər bu iki qüvvənin arasında başı salamat yaşamaq istəsən onda gərək biz də sünnü məzhəbinə keçməliyik. Amma Şeyx Səfiyyəddin tərsinə eləyib. Mən bu hərəkətini böyük babamızın səhvi yox, uzaqgörənliyi, böyüklüyü kimi qiymətləndirirəm. Bildiyimiz kimi şiəlik müsəlmanlığın ən qatı, dönməz, barışmaz məzhəbidir. Şeyx Səfi də bundan faydalanıb İran və Azərbaycanda onu təbliğ eləyib yaymaqla bizi sıxan məngənəni kənara atmaq, ölkəni sərbəstliyə çıxarmaq fikrini irəli sürüb. Belə böyük məqsəd üçün bə'zən yalan deməyin özü də çox vacib və bəlkə də lazımdır. O vaxt bu torpaqda qüdrətli, güclü dövlət yaratmaq mümkün olar.

Atanız Şeyx Heydərin ətrafına toplaşan müridlər onu görəndə namazlarını, oruclarını, ibadətlərini də yaddan çıxarardılar. O, müridləri arasında Babəkin ehkamlarını təbliğ edərdi. Buna mən özüm şahidəm. Özünü onların heç birindən ayırmaz, onlarla bir qabdan xörək yeyər, su içərdi. Bəlkə də elə bu işlərinə görə onu çox istəyirdilər.

Söz bu yerə çatanda Sultanəli əlini qılıncının qəbzəsinə qoyub hövlnak yerindən qalxdı.

– Bu da həqiqətdi?

– Bəli. Mən rəhmətlik Şeyx Heydərin siğə qardaşıyam. Şeyx Səfinin dostu və qayınatası Tacəddin Gilaninin nəslindənəm. Atanızın vəsiyyətlərini də sənə olduğu kimi çatdırmalıyam. Hövsələli ol və sözümü kəsmə.

Aylarla əzab-əziyyətli yol keçib Məkkəyə ziyarətə gedənlərin heç birisi orada müridə çevrilmir, qayıdıb öz yerinə-yurduna gəlir. Bəs nə üçün Şeyx Səfiyyəddin türbəsinə gələnlərin əksəriyyəti müridə çevrilir? Çünki bu pirin şeyxləri insanları arzularına tərəf, həyati istəklərinə doğru aparıblar. Bu yer tək ziyarətgah deyil, həm də insanların sabahı üçün inam məkanıdır. Belə yolun zəvvarının arxasınca isə minlərlə adam gəlir.

Atan Şeyx Heydər belə adam idi. Dərdini də, sevincini də onların hamısı ilə bərabər bölürdü. Bəs Babəkin ehkamı nə idi? Mən onun dinsizliyindən danışmıram. Babək hamını bərabər görmək istəyirdi. Görmək ayrı şeydi, onu həyata keçirmək, adamları bərabər eləmək ayrıdır. Babəkin də, atanın da ətrafında həmişə iyirmi-otuz min özünü ölümə atan adam olub.

Bərabərlik deyirik. Şeyx Səfiyyəddinin bir əqidəsi var həmin bərabərlik barəsində. O nədir? Baban yazır ki, dünya zərrələrdən yaranıb. Günəş də, torpaq da, ağac da, insan da, sünbül də eyni zərrədəndir. Nurdan. Günəş nuru olmasaydı, dünya da olmazdı. Həmin nur insanı da yaradıb. Əgər o Günəşlə eyni zərrədirsə, o niyə də bərabər olmamalıdır.

– Bəs o bərabərliyi necə həyata keçirmək olardı?

– Şeyx Heydər onu öz əlləriylə yaratmaq fikrindəydi. Bunun üçün şərait, vaxt və məkan lazım idi. O, bu iş üçün Şirvan torpağını seçmişdi. Çünki bir tərəfi dəmir qapı Dərbəndə söykənən bu torpaqda Şirvanşahlar heç vaxt güclü qoşun toplaya bilməyiblər. Teymura xərac verməklə özlərini qoruyub saxlaya biliblər. Oranı ələ keçirməyə baban da, atan da cəhd elədilər.

– Burada o bərabərliyi qurmaq olmazdı?

– Yox. Yol əlverişsizdi. Hər tərəfdən qoşunların üzünə açıqdı. Bir neçə dövlətin üzünə açıqdı.

Hüseyn Lələ bəy susdu. Sultanəli də fikrə getdi və birdən– birə dilləndi:

– Biz də Şirvanşah Fərrux Yasarı özümüzə düşmən bilirik.

– Bəli. O bizim qan düşmənimizdir. Belə düşmənçilik isə yaddan çıxmır. Sənin sözünün mə’nasını da izah edim. Bayaq dedim ki, bərabərlik, nurdan yaranmış, nurlu bir ölkə yaratmaq ümidi ilə getmişdi atan. Oranı zülmətə çevirib, xarabazara çevirmək üçün getsəydi, onda mən sənin kimi düşünərdim. Nur gətirənin çırağını söndürmək isə ən böyük cinayətdir. Həm də ki, orada əhali ilə hökmdarlar arasında uçurum var. Camaat türkdü, hökmdarlar isə kəsrani-fars. Neçə qərinələrdir ki, bu belə davam eləyir. O hiyləgər hökmdarlar olmasa Şirvan şahlığı çoxdan məhv olardı.

Onu da deyim ki, qurbanlarımız bu gün və sabah üçün bir ordunun əvəzidir. Çünki Şeyx Heydərə görə hər mürid bir şirə çevriləcək. Yadında saxla, kiçik bir torpaqda oturub böyük arzularla yaşamaq olmaz. Belə ölkənin dərdi də, düşməni də, fəlakəti də böyük olur. Sərhədlər genişlənməsə, xəzinə dolmasa, qüvvələr artmasa, heç nəyə arxalanmaq olmaz. Dayın Rüstəm Mirzəyə sən hələ lazımsan. O da çox müddətə görə yox. Onun da qüdrəti artan kimi Ərdəbil padşahlığını tanımayacaq və onu öz taxtının ayağı altına çəkməyə çalışacaq. Belə vaxtda hər addımımızı ölçüb-biçməli, hər tədbirimizi məqsədimizə tabe eləməliyik. Açığı budur ki, azadlığa çıxsaq da taleyimiz hələ də tükdən asılıdır.

Bayaq ona cin, şəyatin cildində görünən Hüseyn Lələ bəy el bil gözəlləşdi, özündən də gözəl oldu. Sultanəli onun şəxsində ən yaxın məsləhətçisini, ata kimi e’tibarlı, qayğıkeş adamını gördü. O, bayaq danışdığı nura çevrildi.

– Şirvana yürüşü nə vaxt məsləhət görürsən?

– Hələ tezdi. Bəysunqur mütləq qoşun yığıb Kürü keçəcək. Rüstəm Mirzə ilə onun arasında toqquşma olmalıdır. İndi sən bizim vəziyyətimizə bir bax, əgər Rüstəm Mirzənin tərəfində olub Bəysunquru darmadağın eləsək, onda düşmənimiz Rüstəm Mirzə olur, yox, Rüstəm Mirzə məğlub olsa, onda düşmən bütün qüvvəsini Ərdəbilə yeridəcək. Amma bizim əsas məqsədimiz bu olmalıdır ki, Bəysunqur məğlub olsun, hətta bu döyüş nə qədər uzansa, bir o qədər bizim xeyrimizə olar. Uzun müddət silahlı qoşun saxlamaq çox çətindi, xəzinəyə süpürgə çəkilir. Arada gərginlik olsa, qoşunları hazır saxlasalar hər iki xəzinə boşalar. Birdən fikirləşərsən ki, Lələ gör necə də hamının pisliyini istəyir. Yox, həmişə xeyirxah olmuşam. Amma dünya mənə çox dərslər verib. Yaxşını pisdən, ağı qaradan, acını şirindən seçmək üçün hər incəliyə baş vurmaq lazım gəlir.

Sultanəli alnına enən qızılı saçını ağ zərif barmaqları ilə çalmanın altına yığdı.

– İndi hansı tədbirləri görməliyik?

– Tədbirimiz çoxdur. Ən birinci tədbir tayfa başçıları ilə əlaqə yaratmaqdı. Vaysaqları, qacarları, əfşarları, ustaclıları öz tərəfimizə çəkməliyik. Çəksək, onda qüvvələrimiz birləşər, bundan əlavə Azərbaycan da bir olar. Yarımköçəri tayfalar bizim tərəfimizdə dayansa, onda əsas

məqsədlərimizə çatmaq üçün çox iş görmüş oluruq. Əvvəl tayfalar gələcəkdə birləşib bir xalq olar, bu xalq isə hər bir düşmənə qarşı dayana bilər. Bizə ən yaxın belə tayfa başçısı Dədə bəydi. Sizi xilas etmək üçün əziyyətin çoxunu öz boynuna götürüb. Köçəri elləri arasında nüfuz sahibidi. Onu özünə sərkərdə götürsən, xeyrimizə olar.

Bu axırıncı təklif Sultanəlini o qədər də açmadı, fikrini də açıq dedi:

– Həmişə qoşuna atamın özü sərkərdəlik eləyərdi.

– Düzdür. Səninlə atan arasında bir fərq var. O yalnız Şeyx idi. Sən isə həm də padşahsan. Padşahın isə sərkərdələri olmalıdır. Onsuz da bütün səfəri humayunlarda o böyük məram sənin üzərinə düşəcək.

Həyətdə at kişnədi və ayaqlarını yerə döydü. Hüseyn Lələ bəy pəncərəyə yaxınlaşıb, şəbəkə arasından baxdı. Sultanəli də yaxınlaşıb baxdı. Çünki bu həyətdə ayağını yerə döyüb kişnəyən at bu evə faciə xəbəri gətirmişdi. Hüseyn Lələ bəy atı tanıdı. Dədə bəyin Alapaçasıydı. Lələ onun oğurlanması əhvalatını müxtəsərcə Sultanəliyə danışdı. Sultanəli də Dədə bəyi qarşılamaq üçün qapıya getmək istəyəndə Lələ ona mane oldu.

– Sən padşahsan və hamı sənin ayağına gəlməlidi.

Sultanəli mə’nalı-mə’nalı ona baxdı. Lələ də kipriklərini endirməklə fikrini təsdiq etdi və ona “bəli” dedi.

– Dədə bəy xilaskarımız, mənim də dostum olsa da, ağsaqqallığına baxmayıb onun qarşısında ayağa qalxmaq lazım deyil. Sarayda hamı öz həddini, yerini bilməsə sabah hökmdarın da üstünə ayaq alarlar. Burada söhbət Dədə bəydən getmir. Hər işin öz yolu, yolağası var. Hökmranlıq şirin şeydi. Hələ ondan heç kim öz xoşu ilə əl çəkməyib. Ayağını sarayın qapısından içəri basanların da çoxusunun niyyətində taxta oturmaq arzusu olub. Bunu yadında yaxşı saxla. İnsan xilqəti çox mürəkkəbdi.

Dədə bəy içəri girdi, irəli yeriyib tə’zim etdi, yerə qədər əyildi. Bundan sonra Sultanəli ayağa qalxdı, irəli yeriyib ona əl uzatdı. Dədə bəy onun ağ əlini tutdu və böyük minnətdarlıqla öpdü.

Dədə bəyin saçları gümüşü rəngdə idi və on iki dilimli qızılbaş çalmasının altından çıxmışdı. Cavan hökmdarın isə əynindəki libası bu saçlar kimi gümüşü rəngə çalırdı. Gümüş saplarla toxunan parçadan tikilən zərzibalı kaftan Sultanəliyə çox yaxşı yaraşır, anası kimi mavi gözləri, qızılı saçları, qırmızı yanaqları ilə birləşib qəribə bir rəng ahəngdarlığı yaradırdı.

– Ya hökmdar, ya Şeyx, hüzuruna minnətə gəlmişəm.

– Buyur, Dədə bəy. Bu sarayda sənin sözünü hamı eşitməyə hazırdı.

Dədə bəy əllərini göylərə qaldırdı:

– Şükür tanrının birliyinə, istəyimizə çatdıq. Pirimizin, mürşüdümüzün övladlarını zindanlardan xilas eləyib taxta çıxartdıq. Bundan belə asudəlik vaxtı çatıb. Rüsxət versəydin, qayıdardım elatın içinə. Soyuqlar düşür, elatı qışlağa köçürməyin vaxtı yetişir. Oğul-uşağı pis öyrətmişəm, mən deməsəm, qar da yağsa aşağılara enməyəcəklər.

Sultanəli şəhadət barmağını qatlayıb təzəcə bilinən bığlarının üstünə qoyub, gözlərini ona dikmişdi. Dədə bəy də gördü o dərin fikrə gedib, sözlü adama oxşayır dedi:

– Mən dediyim iş-küc ki var, tərəkəmə elatının işidi. Bəlkə də cavan padşahın yanında belə danışmaq qəbahətdi. Əgər günah işlətmişəmsə, keçin günahımdan. Mən dağda-daşda böyümüş adamam, heç vaxt sarayda, hökmdar yanında olmamışam.

– Yox, elə deyil, Dədə bəy, eşit gör Lələ bəy nə deyir.

– Buyursun, eşidirəm.

– Dədə bəy, hələ yorulmamısan? – deyə Lələ bəy qəribə bir sual verdi.

– Yorulmaq nədir? Bu işdən sonra elə bilirəm dağı, götürüb o birisinin üstünə qoyaram. Şükür, hələ ki, əllərim əsmir, altımdakı at büdrəmir, gözlərim beş ağaclıqdan hər şeyi seçir, hələ qolumun qüvvəsindən şikayətim olmayıb. Nəyə görə belə soruşursan, Hüseyn bəy?

– Allaha çox şükür. Sənin vuran qolun, görən gözün, yüyrək atın bizə çox lazımdır. Bu cavan Ərdəbil padşahlığını taleyin hökmünə tapşırıb sürü, naxır dalınca getməyi bizə heç kəs bağışlamaz. Özün bilirsən ki, hər tərəf düşməndi, hər tərəfdən üstümüzə qorxu gələ bilər. Ona görə də öz qoşunumuz olmalıdı. Belə qoşuna bir nəfər sərkərdə ola bilərsə, o da Dədə bəydi.

Padşahımızın, şeyximizin iradəsi belədir. Tinglərimiz pöhrədir havadan da çovğun gözləmək olar. O tingləri küləyin qabağında qoymaqmı olar? Sənin elatlar içində hörmətin böyükdür. Ordunu da sən toplaya bilərsən.

Sultanəli söhbətə qoşuldu.

– Tək bir-iki elatla iş aşmaz. Qacar tayfasının başbiləni Qara Piri bəyə, İlyas bəyə, Təkəli elinə, Boyat elinə, Ustaclı elindən Ustaclı Məhəmməd bəyə çaparlar göndərin, yığılıb gəlsinlər.

Balaca İsmayıl taxtın arxa tərəfində dayanıb bu söhbətlərə qulaq asırdı. O görürdü ki, Dədə bəy sərkərdə olmaq təklifindən məmnun qaldı. Sultanəli də bundan sonra divardan asılmış qılınc-qalxanı gətirib Dədə bəyə verdi. Dedi ki, bu atamın qılınclarından biridir və Ərdəbil torpağını qoruyan, bizim gələcək əməllərimizin həyata keçməsinə çalışan Dədə bəy həmin qılıncla vuruşmalıdır. Qılınc Sultanəlinin əlində nə qədər ağır görünürdüsə Dədə bəy götürəndə xeyli yüngülləşdi.

Onların "qan-qada", "düşmən", "vuruş" sözlərindən sonra İsmayıl taxtın arxasından çəkilib açıq qapıdan o birisi otaqlara keçdi, axtarıb anasını tapmadı. Səkinəni gördü.

– Səkinə xala, xəbərin var, yenə dava olacaq ey.

– Bilmirəm, atam-anam. Dünya dava-şava üstündə qurulmayıbmı, qadan ürəyimə. Onu sənə kim dedi?

– Dedilər də. Dava olmalıdı. Özü də yaxşı dava. Atamın qanını alacağıq.

## SEVİNC VƏ KƏDƏR

Aləmşahbəyim qəlbindəki sevincin nurundan daha da gözəlləşmişdi. O, Sultanəliyə qız bəyənmişdi. Oğlunun bərabəri, onun gözəlliyi üstünə gözəllik gətirən bir qız tapmışdı. Belə qızın məhəbbəti Sultanəlini daha da məğrurlaşdıracaq, onu bir az da cəsarətləndirəcəkdi.

Sevincinin bir səbəbi də vardı. Gör neçə illər idi ki, qan-qadanın içindəydi. Nəslin ağsaqqalları gedəndən sonra cavanları biri-birlərinin qanını qəltan eləmişdilər. Ocağa şad xəbər, muştuluq əvəzinə qanlı köynəklər, yəhərləri qarınlarının altına çevrilən dəli kişnərtili atlar gəlmişdi. Deyəsən artıq tənəzzülün tərəqqisi başlayırdı. Oğlu yenə də şahlıq taxtına çıxmışdı. Özünə qayıtmış səadəti bu toydan yaxşı heç nə təmsil eləyə bilməzdi. Qoy bütün Ərdəbil torpağı silkinib yasdan çıxsın. Qoy hamı toya yığılsın.

O, daş-qaşla işlənmiş, neçə illərdən bəri əyninə almadığı paltarlarından birini geyib oğlunun yanına gəlirdi. Anası Dəspinə xatun kimi yeriyirdi. Bu yeriş onun yadında qalmışdı, özü də bu yerişin məğrurluğundan xoşhallanırdı. Onun yanına Şeyx Heydərlə evlənmək xəbərini verməyə anası belə gəlmişdi. İndi o Heydər oğlu Sultanəlinin yanına belə gedirdi. Onun ürəyindən keçdi ki, bu yerişdə nənəsi Sara xatunun hansısa bir oxşar cəhəti vardır.

Amma Sultanəlini otağında geyimli, əbləsəli gördü. Anası onun qarşısına çıxdı və əllərindən tutub öpdü.

Aləmşahbəyim onu bağrına basdı.

– Oğul, ananın sevincinə şərik olsan, bütün camaatımız da sevinəcək.

– Biz anamızın sevincini görmək üçün özümüzü də qurban verməyə hazırıq. Nədir o sevincin səbəbi?

– Səni evləndirmək fikrinə düşmüşəm. Elə bir qız seçmişəm ki, tayı, bərabəri nə Rumda, nə Hinddə, nə də Misirdə. Gəlmişəm, razılığını alım.

Sultanəlinin sifətini qayğı qara bulud kimi aldı. Onunla bərabər anasının çöhrəsinə də qəm çökdü.

– Olmaya öz istəklin var?

– Yox, ana.

– Bəs onda niyə mənim istəyimə, sevincimə şərik olmadın? Şeyx Heydərin qan çilənmiş ocağına şadlıq gələn gündür, oğul. – Aləmşahbəyimin gözlərində nəm göründü.

– Düz deyirsən, ana. Toy-büsatın vaxtı yetişir. Amma mənim evlənməyim hələ tezdir. Mən atamın intiqamını Fərrux Yasardan almasam toy çaldırmağa özümdə oğul kimi haqq görmürəm. Əhdimə əməl eləməsəm, toy da, şənlik də mənə haram olar.

Sultanəlinin bu fikri qarşısında anasının qolları yenə boşaldı. Oğluna da haqq qazandırdı, özünə də. Bir şeyə haqq qazandıra bilmədi. Oğlu da atası kimi qan-qadaya tərəf gedir.

– Bəs mən nə qədər gözləyim, oğul?

– Az. Mən səfər üstəyəm.

– Hara belə, ay oğul?

Sultanəli heç nə demək istəmədi, amma anasını da nigaran qoymaq fikrində olmadı.

– İsfahan hökmdarı Kosa Hacı Bayandur Rüstəm Mirzənii itaətindən çıxıb, Bəysunqurun adına xütbə oxutdurub. Bu tərəfdən də Bəysunqur Yezid oğlu Yasarla birləşib üstümüzə gəlir.

– Rüstəm Mirzə vuruşsun da, sənə nə düşüb?

– Gücü çatmaz. O iqtidarda deyil. Mən Qara Piri bəy Qacarı İsfahana göndərmişəm. Özüm də Bəysunqurla vuruşmağa gedirəm. Mənə xeyir-dua ver. Özünüz də hazırlaşın mənim yanımda olmalısınız.

Dövrün müharibəsinin adətlərindən biri bu idi ki, hökmdar döyüşə gedəndə xəzinəsini, hərəmxanasını, ana və bacılarını, kiçik qardaşını da özü ilə götürürdü. Bunun da iki səbəbi vardı. Biri o idi ki, ailəni şəhərdə başlı-başına buraxıb getmək olmazdı. Çünki düşmən qoşununun bir hissəsi yollarını dəyişib onları əsir ala bilərdi. İkinci səbəb də bundan ibarət idi ki, döyüş meydanında hökmdar çadırı bir növ bayrağa dönürdü, namus-qeyrət bayrağına. Arvad-uşağı əsir vermək ölümdən betər olduğuna görə heç kim öz canının hayına qalmırdı.

Aləmşahbəyim bundan sonra nə desin. Ağlamasın, nə eləsin. Döyüş necə qurtaracaqdı. Onlar qalib gələ biləcəkmi? Ondan sonra toy olacaqdımı?

Bir müddət əvvəl də Bəysunqur Şirvan qoşunu ilə Kürün sahilinə gəlmişdi. Onda da döyüşə qoşunu Sultanəli aparmışdı. Amma Bəysunqur o tayda, Sultanəlinin qoşunu bu tayda dayanmışdı. Səsi gur adamlar o tərəfdən bu tərəfə, bu tərəfdən o tərəfə söyüşlər göndərmiş, Bəysunqur çayı keçməyə cəsarət etmədiyinə görə geri qayıtmışdı. İndi isə İsfahan qiyamı ilə onun bu yürüşü bir vaxta düşmüşdü. Hər iki döyüşə də ərdəbillilər gedirdi.

Əhərlə Mişkin arasındakı genişlikdə döyüş qurtarmışdı. Təpənin başında qurulan ağ çadırın yanında üç-nəfər-Sultanəli, Hüseyn Lələ bəy, bir də Əbih Sultan dayanıb aşağılara baxırdılar. Səhər yamyaşıl görünən düzənlikdə çiçək-çiçəyi çağırırdı. Amma indi orada diyirlənib düşmüş dəbilqələr, göydə qalmış at ayağındakı nallar, dəmir köynəklər, qalxanlar parıldaşırdı. Şirvan qoşunundan parıltılar bunlar idi. Yollar, təpələr, çəmənlik insan və at meyitləri ilə dolu idi. Bir köhlənin yəhəri sürüşüb düşmüşdü, cilovu yerlə sürünürdü, amma kişnəyə-kişnəyə döyüş meydanında hərlənir, elə bil sahibini axtarırdı. Üst-üstə qalanmış meyitlərin arasında kimi tapmaq olardı. Görünür ki, hələ sahibi ölməyib, yaralıdır. Bir-iki döyüşçü onun dalınca qaçdı, tuta bilmədilər. Biri isə saz bir təpik yeyib yerdə qalandan sonra qara, səkilayaqlı köhləndən əl çəkdilər.

Bəysunqurun rəhbərliyi ilə gələn ordu bu dəfə Kürü də, Arazı da keçmiş, Əhər-Mişkin yoluna çıxmışdı. Burada onun qabağını bir tərəfdən Sultanəli, o biri tərəfdən də Əbih Sultan kəsmişdi. Bir neçə saatın içində Şirvan qoşunu qılıncdan keçirilmişdi.

Çapa-çapa gəlib toz qaldıran atlı çadırın yanına çatan kimi sıçrayıb yəhərdən düşdü. Onu hər üçü də görsə belə, əvvəlcə Lələ bəy tanıdı. Bu Cibo Səfər idi. Zirehin içində itmişdi. Elə bil o zirehi geyməmişdi, zireh yuvaydı, o isə o yuvada gizlənib burnunu çıxarmışdı.

– Muştuluğumu verin, hökmdar.

– Nə muştuluq?

O, atın tərkindəki xurcundan bir insan başı çıxarıb əvvəl əlində saxladı, sonra onun ayağının altına atdı. Dəbilqəsi də çıxarılmamış baş əzilmiş lalələrin, çobanyastıqlarının üstünə düşdü. Diyirləndi, xınalı daşa dəyib dayandı. Hədəqəsindən çıxan iki göz onlara baxırdı. Sifət saralıb saman rənginə düşmüşdü.

Sultanəli başı görən kimi tez üzünü çevirmişdi, ona görə də tanıya bilmirdi. Əbih Sultan isə cibindən bir torba pul çıxarıb Səfərə atdı. Səfər qana batmış əlini üstünə silib torbanı cibinə

qoydu. O, bu döyüşdə bir dəfə də olsun qılınc çalmamışdı. Hökmdarla döyüşən dəstələr arasında xəbər aparıb gətirmişdi. Əbih Sultan soruşdu:

– Onun başını kim kəsib! Həmin şəxsə böyük ənam düşür.

– Dədə bəyin qardaşı oğlu bununla vuruşurdu. O da bunun kimi cavandı, təzəcə əlinə qılınc götürüb. Bəy dedi ki, heç kim mane olmasın, görək hansı üstün gələcək. Elat cavanı çox cəld idi, bir az hərlədi, qılıncı necə çaldısa, baş yerə düşdü, amma dəbilqədən çıxmadı.

– O igid bəyzadəni tap gətir, ən’amını verək, – deyə Əbih Sultan Səfərə tapşırıq verdi, sonra yaxınlaşıb ayağını kəsik başın üstünə qoydu və başa müraciətlə dedi:

– Hə, necəsən? Məni monqol atına görə didərgin salırdın? Başımı bədənimdən ayırırdın, nə oldu? Öz saydığını neyləyirsən? Fələyin də saydıqlarından xəbərin olsun.

Sultanəli indi başa düşdü ki, bu dayısı oğlu Bəysunqurun kəsilmiş başıdır. Bir də ki, dayısı oğlunu hardan tanıya bilərdi? Bəysunquru heç vaxt görməmişdi.

– Əbih Sultan, meyitin heç bir günahı yoxdur, müsəlman meyidini də təhqir eləmək müsəlmançılığa yaraşan iş deyil.

Əbih Sultan ona tərəf döndü, nəzakətsiz şəkildə, bir az da kobud dedi:

– Düşmənimin başını ayağımın altında görəndə ləzzət alıram.

Sultanəli hirsləndi:

– Öz ovu ilə oynamaq bəşər övladına yaraşan iş deyil.

– Üzünü Lələ bəyə çevirdi. – Lələ, tapşır Bəysunqurun dəfnini təşkil eləsinlər. Orada, yıxılmış çadırın yerində.

Əbih Sultan bu sözlərdən sonra qaraldı, dişlərini bir-birinə sıxdı, canından üşütmə keçdi.

O danışmaq istədi, Sultanəli əlini qaldırıb onu dayandırdı.

– Hər şey hazır olanda, mənə deyərlər, cənazə namazını özüm qılacam.

Əbih Sultan nədənsə bir az sakitləşdi. Bircə onu deyə bildi ki, Bəysunqurun başı ərmağan kimi Rüstəm Mirzəyə aparılmalıdır.

– Yox, – deyə Sultanəli ona qəti rədd cavabı verdi. - Bəysunqur sağlığında hamımızın düşmənimiz idi, ölüb, müsəlmandır. Özü də mənim dayım oğludur, mən onun meyidinin təhqir olunmasına heç kimə icazə vermirəm. Lələ, elə dəfn edin ki, anam bilməsin.

Amma Aləmşahbəyim qardaşı oğlunun ölümündən xəbər tutmuşdu. O, ağ çadırdan qara paltarda çıxdı. Elə bil sevincin içindən dərd kimi siyrilib çıxdı. Onun dalınca əlləri göydə qalan Səkinə, Heydər ocağının başqa xatunları əlləri döşlərində, başlarında hövlnak gəldilər və Bəysunqurun kəsik başını dövrəyə aldılar.

– Mənim e’tibarsız qardaşıma oxşayan yanmış ciyərim, Bəysunqurum vay!

Səkinənin səsi isə aləmi başına götürmüşdü.

Aləmşahbəyim çadırdan çıxanda Əbih Sultan onu təzədən gördü. Onun qızlıq dövrü gəlib düşdü yadına. Elə bu gözələ görə Şeyx Heydərlə qanlı düşmən olmuşdu. Oğullarını da ataları kimi özünün ən qorxulu düşmənləri sayırdı. O, Aləmşahbəyimdən gözlərini çəkə bilmirdi. Qara rəngin arasında ağ sifətə, qabarıq döşlərinə, təravətli qız bədəninə bənzər əndamına çox hərisliklə baxırdı. Ehtiras və hərisliklə dolu qızarmış gözlərini ondan ayırmırdı.

Hüseyn Lələ bəy bunu hiss elədi və onun qoluna girib apardı.

– Əbih Sultan, hər kim olursan ol, bağırsaqların boğazına dolanar, başın da Bəysunqurun başının yanına düşər, üstündə də heç kim şivən qoparmaz. Namusun, qeyrətin olsun.

– Mənə nə hədə-qorxu gəlirsən, Hüseyn bəy! Sözünə sərhəd qoy. Mən onu başa düşə bilmirəm ki, Bəysunqurun başını aparmamaq bir yana, hələ onun üstündə göz yaşı da axıdırlar. Rüstəm Mirzə bunu bilsə qəlbinə toxunmazmı?

– Daha Rüstəm Mirzənin taxtına göz tikən yoxdur, bu bəs deyil?

Onların arasında mübahisə daha da qızışacaqdı. Amma bu vaxt uzaq yolların toz-torpağından atının, paltarının rəngi bilinməyən bir çapar özünü yetirdi. Atdan elə düşdü ki, elə bil yüz ilin yorğunudur. Yerə qədər əyilib tə’zim elədi.

– Padşahımız sağ olsun, mən Qara Piri bəyin çaparıyam.

Sultanəli həyəcandan ayağa qalxdı.

– Hə, de görüm nə xəbərlə gəlmisən?

– Allahın köməyi ilə düşmən basıldı. Qara Piri bəyin özü Kosa Hacı Bayanduru qətlə yetirdi. İsfahan Ərdəbil qoşunlarının ixtiyarındadır. Fərmanına müntəzirdi.

Əbih Sultan beli qırılmış ilan kimi qıvrıldı. Cavan padşahı aldatmasa, fikrindən çaşdırmasa, bir neçə gündən sonra Təbriz taxtında otura bilər. Bu iki qələbədən sonra Rüstəm Mirzə heç nədir, qoşunsuz, xəzinəsiz, gücsüz və taqətsiz bir büt. İndi əsl hökmdar Sultanəlidir. Ölkənin yarısı onun müridlərinin əlindədir. Bircə cəhd kifayətdir ki, Rüstəm Mirzənin taxtını başına çevirsinlər. Əbih Sultan da Sultanəlini o taxta çıxartsın. Bəlkə elə belə eləsin?

O, sevinə-sevinə aşağıdakı bulağa enib dəstəmaz aldı, qayıdıb canamazını çıxarıb yerə sərdi, möhürü qoydu, üzünü qibləyə çevirib namaza dayandı. Yox, o namaz qılmırdı. Tədbir tökürdü. Belə çətin, həlledici anlarda yadına həmişə namaz düşürdü və bu onun çox köməyinə çatırdı. Heç kim ona mane olmurdu. Özü-özü ilə danışırdı, ölçürdü, biçirdi. Bu tədbiri sonradan həyata keçirmək üçün köməyi Allahdan diləyirdi. İndi də belə bir "namaza" – başladı. "Rüstəm Mirzəni devirmək bir içimlik sudur. Bəlkə elə belə eləyim. Axı, Ağqoyunlulardan mən bir xeyir görməmişəm. Biri yaxşı olubsa, o birisi qanıma susayıb. Şeyx Heydərdən zəndeyi-zəhləm getsə də oğlanlarına yaxşılıq etmişəm. Onlar mənim qədrimi bilər". Bu sözləri ürəyində deyəndə alnını gətirib möhürə söykəmişdi. Bunu da xoş bir əlamət bildi. Amma başını qaldıranda təpənin üstündə ucaboy, qara geyimli bir adam gördü. Bu, Hüseyn Lələ bəyin qaraltısı idi.

"Bəs o? Mənə imkan verərmi ki, bildiyimi eləyim. Yox! Şeyx Heydərin dostları çoxdur. Hamısı da elmli, ağıllı adamlardı. Mən onların arasında baş çıxara bilmərəm. Aləmşahbəyimə baxmaqla az qala bağırsaqlarımı boğazıma dolaşdırmışdılar. Əgər Aləmşahbəyim mənim olardısa onlara kömək eləyərdim.

Sultanəli cavan olsa da, dərrakəlidi, ağıllı, biliklidir. Rüstəm Mirzə isə nadan və kütbeyindi. Ətrafında da məndən başqa heç kimi yoxdur. Mən onun noxtasından tutub hansı tərəfə dartsam, o tərəfə də gedəsidir. Burada isə öz ovsarımı onların əlinə verməliyəm.

Yox, lə'nət şeytana. Mən Rüstəm Mirzənin tərəfindəyəm. Amma bu ocaq nə qədər yaşasa, bizə dinclik yoxdur. Birinci növbədə onların başı əkilməlidir. Ərdəbil padşahlığının qısa ömrü qurtarmalıdır.

Ey ilahi, ey tanrı, mənə ağıl göndər. Onların başını əkmək üçün mənə tədbir!".

Əlləri göydə xeyli fikirləşdi, nəhayət, çıxış yolunu tapdı. Bundan sonra azacıq boşalmış qollarını daha da şax tutub bərkdən dedi:

– Şükür sənin məsləhətinə! O, Sultanəliyə yaxınlaşdı.

– Allah sənə yüz il ömür versin, hökmdar ömrü. İgidliyin, tədbirin sayəsində Təbriz taxtı birdən-birə iki düşməndən xilas oldu. Yəqin ki, axırda Təbriz camaatı başına gül-çiçək səpmək üçün səbirsizliklə yolunu gözləyir.

Bu gənc hökmdarı anası, qardaşları ilə bərabər Təbrizə apara bilsə, orada təzədən dustaq eləyər, ən asanı isə qablarına zəhər töküb birdəfəlik aradan götürməyə nə var ki. Yəqin ki, bu qələbə xəbərini eşidənlər hər tərəfdən axışıb Ərdəbilə gələcək və onların gücü daha da artacaq. Belə bir iş görsələr, o müridlərin də əlləri birdəfəlik boşa çıxar.

Sultanəli ona cavab vermədi, o bir dəfə də tə'zim eləyib soruşdu:

– Təbrizə qələbə xəbəri aparan oldumu?

– Yox. Biz Ərdəbildən gəlmişdik, hələlik muştuluğu da oraya göndərdik. Təbrizə isə muştuluğu sən göndərməlisən.

Bu dəfə o yenə də əlini sinəsinə basıb hiyləgər bir təbəssümlə baş endirdi:

– Bu işdə məni məzrur tutun. Çünki qələbə sənindir. Mən özümü haqqım olmaya-olmaya əvvələ sala bilmərəm. Mən bir iş görə bilərəm. Rüstəm Mirzəyə çapar göndərərəm ki, böyük qələbəni qazanan gənc sərkərdə, Ərdəbil padşahı, Şeyx Sultanəli Təbrizə varid olur.

Sultanəli Təbrizə getmək istəyirdi. Birinci dəfəki səfərdən sonrakı bu gəliş, bu pişvaz təbrizlilərə sübut etməkdi ki, onlar barəsində dayıları həmişə haqsızlıq eləyiblər. Qoy görsünlər və tanısınlar.

– Mən Təbrizə getmək istəyirəm.

Sevindiyindən Əbih Sultan sayıqlığını da itirdi.

– Padşah sağ olsun, Bəysunqurun başını gətirən adamı versəniz çapar kimi göndərərdim.

– Əmirin öz çaparları yoxdumu?

– Var, amma o başı gətirən adamın mükafatı çox böyük olacaq. Həm də özü Rüstəm Mirzəyə şahid kimi bu əhvalatı danışacaq.

Sultanəli bilirdi ki, Əbih Sultan Cibo Səfərə bir torba qızıl verib və onu öz çuğuluna döndərməyə çalışıb. Amma Səfər hər şeyi olduğu kimi Hüseyn Lələ bəyə danışmışdı. O, Lələ bəyi çağırdı.

– Bəysunqurun başını gətirmiş müridi verin Əbih Sultanın sərancamına. Təbrizə muştuluq aparacaq.

Lələ çox usta adam idi. Bu sözdən sonra Əbih Sultanın ürəyindən nələr keçdiyini sezdi. Özünü o yerə qoymadı. Cibo Səfəri çağırtdırmaq üçün adam göndərdi. Sonra o Sultanəli ilə gənc hökmdarın çadırına getdi. Sultanəli qanovuzdan tikilən zər naxışları, qızılı saplardan qotazı olan mitəkkəyə söykəndi. Lələ də ona yaxın yerdə bardaş qurdu. Sultanəli başladı:

– Lələ, Təbrizə gedirik.

– Nədən ötəri?

– Qoy Təbriz əhli bizim gücümüzü görsün.

Lələ başını buladı:

– Mən razı deyiləm. Onsuz da Təbriz əhli hər şeyi eşidəcək. “Təbrizlilər belə qələbələri, bundan betər məğlubiyyətləri çox görüb”-demək istədi, amma özünü saxladı. Cavan hökmdarın qüruruna toxunmaq istəmədi. Çünki bu onun həyatdakı ilk qələbəsi idi. Hökmdar belə qələbələr qazanmasa, özünə inamı artmır. O inamsız isə hökmdar heç nəyə dəyməz. Dönüb qorxaq olar. Qorxaqlıq da öz gücünə həddən artıq güvənməkdən betər bəladır.

Qələbəyə sevinmək gözəl keyfiyyətdir. Amma bunun üçün hər ehtiyatı yaddan çıxarıb paxıllığından ürəyi partlayan Rüstəm Mirzənin yanına getmək uşaqlıqdır. Bəli, Sultanəlidə hələ o uşaqlığın əlamətləri var. Bu da hökmdar üçün böyük bəladır. Gərək onu bu yoldan çəkindirəm.

– Niyə razı deyilsən? – Bu səsdə Lələ həddindən quru və özünə müştəbehlik gördü.

– Ona görə razı deyiləm ki, sən özün də padşahsan və Rüstəm Mirzəyə heç bir tabeçiliyin yoxdur. İkincisi onun üstünə gedən ordunu o yox, sən məğlub eləmisən, buna görə də sən onun yox, o sənin ayağına gəlməlidir. Bilirsən ki, indi sən ondan çox güclüsən? Odur ki, o həddən artıq səndən qorxur və çəkinir. Ondan, bu Əbih Sultandan nə qədər naqislik desən gözləmək olar.

Sultanəli onunla razılaşmadı.

– Lələ, Rüstəm Mirzə bizi zindandan qurtarıb.

– Ondan qabaq biz onu zindandan qurtarmışıq. – deyən Hüseyn Lələ bəyin rəngi alındı. – Söz vermişdi ki, dostunun oğlanlarının qayğısına qalacaq, onların istəkləri əleyhinə getməyəcək. İndi hər şey alt-üst olur. Sultanəli onun sözünə baxmır. Onun hələ təzəcə gördüyü işıqlı dünyadan xəbəri yoxdur. Zindanda yaşayanda onun ən böyük düşməni dayısı Sultan Yaqub olub. Elə bilib ki, qalan adamlar hamısı onun dostları və müridləridir. – Əziz hökmdarım, biz Rüstəm Mirzəni Əlincə qalasından xilas edəndə onunla müqavilə bağlamasaydıq, o da sizi bizə verən deyildi. Hakimiyyət şirin şeydi. Çox şirindi. Taxt-tac üstündə ata oğulun, oğul atanın gözlərinn çıxarıb. Sarayda qohumluq hissi yoxdur. Əgər adi insani hisslər orada da olsaydı, onda saraylar bir-biri ilə hər hansı razılığa gələndə müqavilə bağlamazdılar. Yaxşı-yaxşı fikirləşsək, görərik ki, onun özü sənin əlindədir. Təbrizə girib taxta da çıxa bilərsən. Əgər mənim məsləhətimə baxsan...

– Bizim müqaviləmiz və mərdanə sözümüz var. Ağqoyunlu taxtını düşmənlərin əlindən almışıq ki, özümüz məhv eləyək? Mən belə tərbiyə görməmişəm axı.

– Düzdür, sən Heydər oğlusan və namərdlik xilqətinizə yaddır. Amma imkan insan əlinə bir dəfə düşür, sonra yüz illərlə düşmür.

– Lələ, bu da bir tarixdi. Söz vermişik pozmayaq.

– Nə deyirəm ki. Məsləhət özünündür. – Amma Hüseyn Lələ bəy belə bir fürsətin əldən getməyinə elə heyfsilənirdi ki, Sultanəlini indi hakimiyyətə çıxarsalar, o ölkəni möhkəmləndirənə qədər, qonşuluqda yəqin ki, sakitlik olacaq. Amma tək bir təhlükə var. Uzun Həsənin oğlu Uğurlu Məhəmməd atasına xəyanət eləyib İstanbula sığınanda, Sultan öz qızını ona vermişdi və həmin qızdan bir oğlu var. Çox, qüdrətli Osmanlı sultanlığı Sultanəlinin taxta

çıxmasına dözməz və Uğurlu Məhəmmədin oğlu Əhmədi Təbriz taxtına çıxarmaq üçün hər cəhdə əl atar. Ona görə də Lələ bəy çox tə'kid etmədi.

– Təbrizə də gedəcəyik.

– Məsləhət sənindi, mənim hökmdarım!

Təbriz çox qaliblər görmüşdü. Uzun Həsənin otluqbellidə Osmanlı sultanın qoşunları üzərindəki qələbəsi hələ də unudulmamışdı. İndi isə Sultanəli qalib kimi bu qədim şəhərin küçələrindən keçirdi. Atların ayaqları altına Təbrizin ən gözəl xalıları döşənmişdi. Xalı-xalçaların naxışlarını məşhur, ən ətirli Təbriz qızılgüllərinin ətrindən seçmək qeyri-mümkün idi. Çox yerdə güllər xalçaları görünməz etmişdi. Damlardan, gələnlərin başlarına gül-çiçək yağışı, tabaq-tabaq şirniyyat yağdırırdılar.

Ancaq Sultanəli adamların gözlərində, üzlərində sevinc görmürdü. Elə-belə qarşılayırdılar. Xalçaları vardı, yerə sərmişdilər, gülləri vardı yağdırırdılar. Şahın fərmanından kim çıxa bilərdi? Amma şah fərmanı ilə gözlərdə sevinc, ürəklərdə məhəbbət yaratmaq olmaz. Onları zindandan çıxarıb gətirəndəki məhəbbətli gözlər, ürəkdən deyilən "mərhaba" nidaları yox idi.

Bunun səbəbini Sultanəli birdən-birə dərk elədi. Axı o nə qələbə çalmışdı ki? Ölkəni yadellilərdən xilas eləməmişdilər. Bir əmioğulunun taxtda rahat oturması üçün o birisi əmoğlunun başını kəsmişdilər. Bibioğlu dayıoğlunu məğlub eləmişdi. Buna görə gül səpirdilər. Bir az qabaq qələbədən aldığı zövq Sultanəlinin qəlbində xəcalətə çevrildi. Onu xəcalət təri basdı. Bu xəcalət elə bil onu məngənəyə salıb sıxırdı. Bu məngənə isə təbrizlilərin laqeyd baxışları, heyrətsiz qışqırıqları idi. Elə bil hamı bir-birinə onu göstərib pıçıldayırdı:

"Heyif ona olan məhəbbətimizə". Bundan da bir şey çıxmayacaq. O da o birisilərin tayıdır. Küçə uzandıqca bu sıxıntı da artır, uzanır, onun qızılı saçları tərdən islanıb alnına yapışır, kürəklərinin arasından soyuq, bədənini üşüdən tər axırdı.

Axırda dözmədi, atını yanaşı sürən Hüseyn Lələ bəyə dedi.

– Sən haqlıydın. Çox nahaq yerə gəldik. Nə böyük qəhrəmanlıq eləmişik ki. Həm də mənim təbrizlilərdən xoşum gəldi. Qardaş qatilini sevmirlər. Düzdür, onları məcbur eləyirlər ki, öz sevinclərini büruzə versinlər, camaatı gör nəyə öyrətmək istəyirlər. Həm də dəfələrlə bunu onlara məcbur eləyiblər, amma onlar öyrənməyiblər. Yox, Lələ, bu hökmdar həyatı da bir həyat deyilmiş.

Lələ bəy ürəyində onun bu fikirlərinə sevindi. Amma dinmədi. Dedi qoy özü bu fikirlərə gəlsin, onda heç vaxt belə addımlar atmaz.

Onlar Təbrizə yeddi yüz atlı müridin əhatəsində gəlmişdilər. Bu azacıq qüvvə ilə burada qalmaq təhlükəli idi və tez bir vaxtda şəhərdən çıxıb getməliydilər.

Rüstəm Mirzə "Səkkiz behişt" sarayında onları təntənə ilə qarşıladı. Onlara böyük ən'amlar verdi. Ziyafətlər düzəltdi, amma Sultanəlinin də, Hüseyn Lələ bəyin də ürəyi açılmırdı.

Əbih Sultanın da iş-gücü çox idi. Əvvəl o, bu yeddi yüz atlını biri-birindən ayırıb parçalamaq, xırda dəstələrə bölüb ayrı-ayrı yerlərdə saxlamaq istədi. Bunun üçün çox hiylələrə əl atdı. Amma Hüseyn Lələ bəy razılıq vermədi.

Dədə bəy "Səkkiz behişt" sarayından azacıq aralı çadırlar qurdurdu. Bütün müridlər bir yerdə qaldı və hər birinə çadırda belə silahdan ayrılmamağı, beş addım belə uzağa getməmək tapşırılmışdı. Sultanəlini yüz nəfərə qədər ən igid mürid müşayiət edirdi.

İşi belə görən Əbih Sultan Rüstəm Mirzə ilə görüşüb söhbət eləyirdi. Qapıda gözləyən Murad birdən onun danışığına fikir verməli oldu. Əbih Sultan deyirdi:

– Bu dərviş nəslinin kökünü kəsməliyik. Artıq heç bir düşmənim yoxdur, onlardan başqa. Bəlkə belə bir iş görək.

– Buyur görüm?

– Sən yenə də onları zindana saldır.

– Belə bir bəhanə gətirmək olar ki, Bəysunquru nə üçün öldürüblər? Mən dünya qarşısında biabır olmaq istəmirdim. Onun qollarını bağlayıb zindana, Əlincəyə saldırmaqdan özgə fikrim yox idi. Amma Sultanəli onu öldürüb. Həm qonşu hökmdarların yanında hörmətin artar, həm də düşmənlərindən bir dəfəlik xilas olarsan. Orada onları bir-bir əkmək asandı. Bilirsən bu Sultanəli nə ağıllı, dərrakəli düşməndi. Vaxtında ondan canını qurtar.

Bir azdan Rüstəm Mirzənin səsi eşidildi:
– Bəs buna Təbriz camaatı necə baxar? Axı sarayın yanında, belə bir gündə...
– Onda belə bir fikir də var.
– O nə fikirdi?
– Şəhərdən çıxsınlar, yola salaq, sonra dallarınca böyük bir dəstəylə gedib yolda işlərini bitirək.

Murad özünü saxlaya bilmirdi. Az qalırdı ki, içəri girib onların hər ikisini də doğrasın. Amma sonra onun sözünə kim inanacaq. O, necə də gəlib iyrənc, çirkin bir mühitə düşmüşdü. Murad Əbih Sultanı gözləməyib çıxdı, atının belinə sıçrayıb qızılbaşların düşərgəsinə tərəf çapdı. Lələ bəyi tapıb ona ikicə kəlmə dedi:
– Burada vaxt itirməyib tərpənin.
– Nəyə görə?
– Sözdü deyirəm. Elə indi! – Sözlərini deyib atını döndərib çapıb getdi.

## ŞƏMASƏ MÜSİBƏTİ

Ərdəbilə bir mənzillik yol qalmışdı. Yeddi yüz atlı yortma yerişlə keçib gedirdi. Birdən Sultanəli dedi:
– Dayanın!

Hamı atlarını saxladı. Gül çiçəkli dağın döşündə qəribə bir kənd vardı. Palçıq evləri elə bil qaranquşlar bir-bir dimdiklərində daşıyıb tikmişdilər. Evlərin də hamısı bir-birinə yapışmışdı. Arı pətəyinə oxşayırdı. Şırıltı ilə axan dağ çayı göyün yerə düşən bir parçasına oxşayan gölə tökülürdü. Göl o qədər duru idi ki, dağ da, kənd də onda əks eləyirdi. Elə bil burada biri-birinin eyni olan iki dağ və iki kənd var.

Sultanəli bu gözəlliyin qarşısında özünü saxlaya bilməyib atının cilovunu çəkmişdi.
– Bu hansı kənddir?

Lələ bəy dedi:
– Şəmasə kəndidir. Qurban olduğum pirin sürcalıdır. Onu Teymurləng anasının pulları ilə alıb pirə bağışlayıb. Bu dünya gözəlliyinin bütün ne’mətləri müridlərinizə, pirə pənah gətirən əlsiz-ayaqsızlara xərc olunur.
– Bəlkə bir az dincələk?
– Atlardan düşün, – deyə Lələ bəy əmr verdi. Onlar atlardan düşdülər. Təbrizdən çıxandan heç yerdə dayanmayıb at sürmüşdülər. Ona görə də hamı yorulmuşdu. Belə gözəl bir yerdə bir az dincəlmək pis olmazdı.

Sultanəli gölün sahilinə gəldi. Dumduru suyun dibində rəngbərəng daşlar görünürdü. Balıqlar tənbəl-tənbəl üzüb gedirdilər. Gül-çiçəyin, yarpızların ətri aləmi başına götürmüşdü. Quşlar elə həvəslə oxuyurdular, arılar elə arxayınlıqla vızıldaşırdılar ki... Bu təbiətə baxanda Sultanəli Təbrizdə onlara hörülən toru belə yaddan çıxartdı. Nə olaydı insanlar da belə təbiətin gözəlliyinə, duruluğuna, şirinliyinə oxşayaydılar.

Gölün qırağında çiçəklərin, otların arasından qara torpaq yumşalmışdı, oradan sısqa axınla su axırdı. Sultanəli qızıl kəmərinə keçirdiyi üstündə zümrüd qaşları olan qızıl işləməli qılıncını açıb yerə qoydu, əyilib torpağı təmizlədi. Su azacıq bulandı, durulanda gözünü təmizlədiyi bulaqdan dumduru su axmağa başladı. O, bulaq açmışdı. Əllərini yudu, bulağın qabağına xırda daşlar düzdü, su şişdi. Bundan sonra dizini torpağa qoyub əyildi, dodaqlarını söykəyib o sudan içdi.
– Sultanəli bulağı!

Bu səs Lələnin səsiydi.

O başını qaldırıb ona baxdı və gülümsədi. Bu gülüşdə bulaq kimi duru və sərin bir uşaq sadəlövhlüyü, təmizliyi vardı.

– Lələ, deyəsən bir yaxşı iş gördüm axı. Bir bulaq gözü açmaq, bir ağlayan uşağı kiritmək, ovundurmaq qədər savab işdi.

– Həm də hökmdarın öz əliylə açdığı bulaq. Bunu bilənlərin hamısı o kiçik bulaqdan su içəcək, bir də görəcəksən ki, bulaq böyüdü, genişləndi, gurlaşdı.

Sultanəli qalxıb kəmərini götürüb belinə qurşadı. Təbiətə heyranlıqla tamaşa eləməyə başladı.

– Lələ, buranın harası cənnət bağından əskikdi? Demək ulu tanrı o dünya yox, elə bu dünyada da cənnət yaradırmış.

– Bəli. Bunun da hamısı nurdandı. Bax, əsl nur elə budur, elə deyilmi?

– Nurdu, nur. – Sultanəli bura elə vurulmuşdu ki, qollarını geniş açmışdı. Uçmaqmı istəyirdi, ya bu gözəlliyi özü iləmi aparmaq istəyirdi, ya nədi, bir an gözünü buradan çəkmirdi. – Lələ, bu torpaqlar babamın türbəsinin soyurğalıdı, ona görə də burada yaşamaq üçün yaylaq evi tikdirmək olar.

– Baş üstə!

– Bilirsənmi harada?

– Harada?

– Bax, o qayanın üstündə. Oradan gölə pillələrlə enərik, göl kənarında cığırla gəlib bu bulaqdan su içərik. Bu çiçəklik, bu çəmənlik toxunulmaz qalar. O, qanadları qanovuz kəpənəklərin də xətrinə heç kim toxunmaz.

Hüseyn Lələ bəyin də xoşuna gəldi bu təklif. Qayalar buradan uzaqlaşırdı. Təbriz yolu onların dibi ilə dolanıb gedirdi. Amma qayalar çılpaq deyildi. Göldən ayrılıb axan çay palıdların, fısdıqların arasından keçib axırdı. Suyun kənarında hündür baldırğan kolları bitmişdi. Daşların, qayaların üstü, ağacların kötüklərini qalın mamır basmışdı. Bu yaşıl yarğanda xırda, ulduz-ulduz çiçəklər bitmişdi. Yol bu çəmənliyə, gölün kənarına qalxmırdı, aşağıdan keçib gedirdi. Qarşı tərəfdəki meşəli dağların üstündən qar şırımları nəhəng saqqala oxşayan Savalan gözə dəyirdi. Onun zirvəsi yenə də görünmürdü. Zirvənin taleyi belədir də, oradan heç vaxt duman əskik olmur. Haraya bir dərd-ələm, qayğı varsa bulud şəklində gəlib onun ətrafında yığılır.

Aşağıda, Təbriz yolundakı keşikçinin fit səsi eşidildi. Hamı gərginləşdi elə bil.

– Atları tutun. – deyə Dədə bəyin səsi eşidildi.

Bu vaxt bir atlı çapa-çapa gəlib Sultanəlinin yanına çatanda at yıxıldı, atlı isə yəhərdən tullanıb düşdü. At əvədidi, dal ayaqları göydə quruyub qaldı. Çapar isə nəfəsini güclə dərib udqundu. Lələ onu indi tanıdı. Bu Ağqoyunlu sarayının sahibi xəbəri Murad bəy idi. Lələ soruşdu:

– De görək nə olub?

– Əbih Sultanla Hüseyn bəy Əlixani beş min atlı ilə dalınızca gəlir. Bu yerə bir azdan çatacaqlar. Mən özümü güclə yetirdim, tədbir görün.

Sultanəli Dədə bəyi, tuncdan tökülən, cəng atan qədim heykələ oxşar kobud Qara Piri bəyi, qədd-qamətli İlyas bəyi yanına çağırdı.

– Fikrinizi deyin. Əbih Sultan beş min atlı ilə üstümüzə gəlir. Nə eləyək?

Lələ fikrini dedi:

– Mənə elə gəlir ki, Ərdəbilə girib qapıları bağlayaq, ondan sonra onlarla vuruşmaq daha əlverişli olar.

– Lələ, qələbə ilə qayıdırıq. Ərdəbil bizi şadlıqla qarşılayacaq. Belə bir vaxtda əgər düşmən əlindən qaçıb şəhərə girib qapıları bağlasaq, camaat yanında hörmətimiz qalarmı? Mən belə başa düşürəm ki, qalmaz. Həm də qabağımıza çıxan camaata deyəcəyik siz dayanın, biz gizlənək?

Lələ bəy onun bu sözləri qarşısında dinmədi. Düzgün fikir idi. Amma beş min atlının qabağında yeddi yüz nəfər nə eləyə bilərdi? Onları sərçə kimi qırıb tökərdilər.

Dədə bəy dedi:

– Mən belə başa düşürəm ki, Lələ bəyin sözündə də həqiqət var, gənc hökmdarımız da doğru deyir. Amma bəxtimizi burada sınasaq, yaxşı olar. İşdi olmadı belə, oldu elə. Onda Ərdəbil Əbih Sultanın qarşısında aciz qalır. Bir tərəfdən də hökmdarımızın anası, qardaşları

www.kitabxana.net

Ərdəbildədir, onların qayğısına qalmaq lazımdır. Məni eşitsəniz, Lələ bəy hökmdarla Ərdəbilə qayıdar, biz bacardığımız qədər onların qabağını saxlayarıq. Tez bir vaxtda şəhər camaatı silah götürər, əgər biz onların qabağını saxlaya bilməsək, orada hazır olarlar. Həm də Ərdəbil qalasına da e'tibar yoxdur, qalanın neçə bürcü uçub.

Bu təkliflə Qara Piri bəy də, İlyas bəy də razılaşdılar. Amma bir məsələ ilə Sultanəli razılaşmadı.

– Lələ bəy getməlidi. Bu çox vacibdi. Amma mən heç yerə getməyəcəm. Bu yeddi yüz atlı mənim getdiyimi görsə qolları boşalacaq, deyəcəklər hökmdarımız bizi düşmən qarşısında qoyub qaçdı.

Ona nə qədər yalvardılarsa, yenə də bir şey çıxmadı. Axırda Sultanəli qətiyyətlə dedi:

– Qulaq asın. Hökmdar fərmanından çıxan buradaca e'dam olunacaq. Məni fikrimdən heç nə döndərə bilməz.

Bundan sonra onlar döyüşə hazırlaşdılar. Atları meşəyə baldırğanlığın arasına çəkdilər. Dədə bəy düz deyirdi ki, onların atları susuzdur və bu göldən suvaracaqlar. Atlar su içəndə qəfildən onlara həmlə eləmək lazımdır. Onda üstünlük qazana bilərlər. Yoxsa açıq meydan döyüşündə uduzarlar.

Hüseyn Lələ bəy əlacsız qalıb, Allahdan onlara uğur diləyib Salmanı da götürərək Ərdəbilə tərəf çapdı. Dədə bəy göstəriş verdi, atların ağzını bağladılar, baldırğanlığı keçib meşəyə çəkildilər. Bütün göstərişləri Dədə bəy verməliydi.

Bir müddətdən sonra Əbih Sultanın qoşunu göründü. Sultanəli ürəyində deyirdi ki, kaş gölün yanına dönsünlər. Dönməsələr, dönüb Ərdəbil yoluna düşsələr işlər pozulacaq. Onda gərək arxadan onları izləsinlər. Söz yox ki, bir azdan qaranlıq düşəcək. Gecə düşərgə salanda onları haqlayıb qılıncdan keçirmək olardı.

Amma... Elə onlar istədiyi oldu. Əbih Sultan atını gölə tərəf döndərdi, bir an dayanıb baxdı, quşların səsinə qulaq asdı. Qəribədir bu dünya... Onu hamı sevir. Onun gözəlliyindən boynu vurulmaq üçün kötüyün yanına gətirilən, insanların xoşbəxtliyi naminə qurban gedən də, insanları ümidsiz qoyub qılıncı başa endirən də. Kəpənəklərin uçuşu, arıların vızıltısı, suyun şırıltısı Əbih Sultanın da xoşuna gəlirdi.

– Burada dincliyinizi alın. Ətrafa keşikçilər qoyun. Bir adamı Ərdəbilə tərəf buraxmayın. Belə gözəl yeri o dərviş nəvələrinə verməkmi olar!

Bu sözləri Sultanəli eşidirdi və yalnız indi Hüseyn Lələ bəyin sözündən çıxdığına görə özünü qınayırdı. O, doğrudan da zindandan kənarda yaşayan tanımadığı adamları mələk bilmişdi, özünü onların yanına atmaq istəmişdi. Amma gör bu adamların arasında necələri var? Əbih Sultan kimilər. Bir adamda neçə sifət, neçə ürək, neçə beyin olarmış.Axı nərd zərləri altı üzlüdür, amma hər üzün öz qiyməti var. Hər vaxt o qiymət artıb-azalmır. Əbih Sultan isə nifrət elədiyi adama məhəbbətini də izhar eləməyi bacarır. Sonra da o nifrəti elə yerdə üzə çıxarır ki, qarşıdakı hələ onun məhəbbətindən soyumayıb, düşmənini tanımağa belə macal tapmayıb.

"Səhv elədim, böyük, bağışlanmaz səhv. Lələnin sözünə baxıb gərək onları zindana göndərib torpağımızı böyüdəydim. Onda daha belə çətin vəziyyətə düşməz, ikiüzlülüyü görməzdim." Ərdəbil padşahını izləyən beş min süvari atlardan endi, onları cidarlayıb arıların bayaq bal əmdiyi çəmənliyə buraxdılar. Ayğırlar madyanlara qarışdı, at kişnərtisi hər tərəfi başına götürdü. Nallı dırnaqlar təbiətin bakirəliyini viran qoydu. Əzdi, tapdaladı, torpağa qarışdı.

Döyüşçülərin demək olar ki, hamısı silahlarını çıxarmış, ayaqlarını soyunmuş, dəbilqələrini yerə qoymuşdular. Yolun yorğunluğunu və tozunu hələ insan ayağı dəyməmiş bu duruluq mücəssəməsi olan gölün sularına tökürdülər. Artıq məqam yetişmişdi. Qızılbaşlar at belində oturub diqqətlə onları izləyirdilər. Hamı Sultanəlinin işarəsini gözləyirdi. Birdən o əllərini göylərə qaldırıb dua elədi. Hamı gərgin vəziyyət aldı. Duadan sonra onun işarəsi olmalıydı.

– Başlayın!

Yeddi yüz atlı bir anda pusqudan çıxdı. Hamısı bir ağızdan qışqırırdı:

– Qurban olduğum, sadağa olduğum, pirim, mürşidim!

www.kitabxana.net

Elə bir hay-küy qopdu ki, çəmənlikdəki atlar hürkdü, qabaqlarına çıxan sahiblərini ayaqları altına aldılar. Atlarla göldə yuyunan döyüşçülər arasında boşluq yarandı və qızılbaş seli bu boşluqda rahatca, sür'ətlə çıpıb suyun üstündən qalxanları qılıncla doğrayıb nizə ilə dəlik-deşik edib gölün kənarına yıxırdı. Yüzlərlə adam qorxudan özünü gölə atdı və o dumduru sulara batıb boğuldu.

Əbih Sultan ilk nidaları eşidəndə heç bir çıxış yolu görməyib aşağı yolda dayanan, silahlarını hələ də yerə qoymayan dəstəyə tərəf qaçdı. Onu çəməndəki at ilxısı ayaqları altına salıb döyəclədi, amma onun bəxtindən qabaqdakı ayğırın gözünəmi, başınamı yaxından atılan ox sancıldı, o vəhşi bir kişnərti ilə şahə qalxdı və beləliklə ilxının axınını döndərdi. Əbih Sultan çəmənlikdən aşağıdakı dərəyə enən enişdə özünü saxlaya bilməyib sürüşdü və gəlib yolun içində dayandı. Yoldakı keşik çəkən atlılar hələ nə olduğunu ayıra bilməmişdilər və bir neçə an Əbih Sultan da onlara heç bir şey başa sala bilmədi. Gücü ona çatdı ki, birini dartıb atdan saldı, özü yəhərə qalxdı, qılıncını siyirib hələ özü də bilmədiyi bir məqsədin dalınca atını çapdı. Bu vaxt aşağıdakı süvarilərin üstünə ox yağış kimi yağmağa başladı. Atından salınmış süvari Əbih Sultanın dalınca əl-qolunu ölçüb-biçirdi. Bu vaxt əli göydə qaldı, bir an sanki havadan asıldı. O üzü üstə yerə gələndə kürəyindən dəyib ürəyinin yanından çıxan oxun ucu daşa dəyib xırçıldadı.

Əbih Sultan bircə onu bacara bildi ki, qışqırıb sağ qalanları dalınca səsləyə bildi.

– Dalımca gəlin, dalımca!

Atlarını tuta bilənlər, çəmənlikdə yox, aşağıda dayananlar və bir də qılınc əlindən canını qurtarmaq üçün əllərini dəbilqənin üstünə qoyub, dabanları yumşaq yerinə dəyə-dəyə qaçanlar Təbriz yoluna üz qoydular.

Qısa bir müddətdə beş minlik qoşunun çox hissəsi qılıncdan, nizədən keçirildi, oxa sancıldı. Dədə bəy böyük bir dəstə ilə əllərini dəbilqələrinə qoyub qaçanları, öz atlarına minə bilməyənləri doğradı. Əbih Sultan böyük bir dəstə ilə qayaların arasında yoxa çıxdı.

Dədə bəy daha onları izləmədi. Qüvvələri az idi, hamısı bir yerdə olmalıydı. Ona görə də geri qayıtdı. Sultanəli at üstündə oturub dik bir yerdən bütün bu mənzərəyə baxırdı.

– Əlimizdən bu dəfə qaçıb qurtardı. Gələn dəfə haqq-hesabını çəkərik, – dedi.

– Əzəmətli padşahımız və Şeyxül əzəmimiz, bir həftədə qazandığın ikinci qələbə ilə səni təbrik eləyirəm. Hələ müharibələr tarixində görünməmiş bir iş idi. Yeddi yüz nəfər beş min nəfəri darmadağın elədi.

– Sağ olsun sərkərdələrimiz, igid müridlərimiz. Əbih Sultan da gücümüzə bələd oldu, daha bu tərəflərə üz tutmaz.

Müridlər atları tutur, gəbərmiş atların yəhərlərini, yüyənlərini çıxarır, silahları toplayır, özlərini saxlaya bilməyib ölənlərin əyinlərindən paltarları, ayaqlarından məstləri, ciblərindən pul kisələrini çıxarırdılar.

Şeyx Heydərdən sonra onlar iki yürüşə çıxmışdılar. Hər ikisində də qənimətlər bol olmuşdu. Neçə illərdi ki, döyüşə getməyən, qənimət ələ keçirməyən müridlər yoxsullaşmış, müflisləşmişdi. Belə bir fürsəti isə əldən qaçırmaq istəmirdilər. Sultanəli əvvəl onları bu işdən çəkindirmək fikrinə düşdüsə də, həmin fikrindən vaz keçdi. "Can qoyublar, qanlarını töküblər. Mən isə hələ onlara heç nə verməmişəm. Çünki verməyə bir şey də yoxdu. Düşməndən alınan qənimət onlarındır, qoy götürsünlər"

Əbih Sultanın atının yüyəni birinin, tapqırı o birisinin əlinə keçmişdi. Çünki bu yüyən də, yəhər də qiymətli idi. Yəhər sədəflə işlənmişdi. Tapqırın üstündə, üzəngidə qızıl, gümüş bəzəklər vardı.

Yüyəndən tutan dedi:

– Burax, atı mən tutmuşam.

– Yəhərdən də mən yapışmışam. Sən əlini çək, yoxsa sənə qan qusdurub, ananı ağlar qoyaram.

– Sən məni qorxudursan? Mən bu saat heç əzrayıldan da qorxmuram!

Cibo Səfər onların bu mübahisələrinə qarışmaq istədi:

– Gör nədən ötəri qızılbaş adını korlamaq istəyirsiz. Dünyada qalacaq dünya malından ötəri. Yəhərdən tutan qışqırdı:

– Sən də get ağlına dua yazdır. Mən can qoymuşam. Qoşunun ən qorxulu yerinə mən idim özümü vuran.

Cibo Səfər susub geri çəkildi. Bu vaxt qışqırıq eşitdi. Mübahisə eləyənlərin hər ikisi qılınclarını bir-birinin çiyninə endirmişdilər. Biri ölmüşdü, o birisi hələ can verirdi, gözləri irilib hədəqəsindən çıxmışdı və onlardan yaş axırdı.

– Bədbəxtlər, – deyən Cibo Səfər yaxınlaşdı, yüyəni ölənin indi-indi soyuyan barmaqlarının arasından çıxarıb atı çəkib apardı.

Bir talan, bir qarət başlamışdı ki... Heç kəs heç kəsi tanımırdı. Qardaş-qardaşa güzəştə getmirdi. Soyduqları paltarları, tapdıqları əşyaları tutduqları atlara yükləyirdilər. Elə adam vardı, beş at tutmuşdu, eləsi vardı heç birini də tutmamışdı və öz atı da talan olunanlara qoşulmuşdu, tapdıqlarını şələ kimi bağlayır, qışqırırdı:

– Atımı verməsəniz, hökmdara deyəcəm. Gözlər elə qızmışdı ki, indi heç hökmdarı da saymazdılar.

Müridlərdən biri yerdəki yaralının ayağından məstinin bir tayını çıxartmışdı. O birisi tayını dartıb çıxara bilmirdi. Yaralının ayağı şişmişdi, məstin içinə qan dolmuşdu. Qırmızı rəngli məst isə müridin çox xoşuna gəlmişdi, necə olursa-olsun, onu çıxarmaq istəyirdi.

Yaralı isə ona yalvarırdı.

– Qurban olum, ay müsəlman qardaş, səni and verirəm Allahın birliyinə, arxalığımı götür, papağımı götür, məstə dəymə, qonşudan əlborcu almışam.

– Sənin qonşunun... – Yeddi mərtəbə söyüş yağdırdı. Bu dəfə də əlinə tüpürdü, əl atıb məsti dartanda yaralı qışqırdı.

– Öldüm axı, ay insafsız!

– Hələ ölməmisən. O xəncərini çəkib onun sinəsinə sancdı. Bədbəxt bircə dəfə çimçəşdi və canını tapşırdı. Mürid bir dəfə də məstə əl atanda onun başına bir qılınc endi. Dönüb baxa da bilmədi. Polad tiyə baş qapağını parçalayıb beyinə işləmişdi. Qılıncı vuran Dədə bəy idi. Bu əhvalatı bayaqdan izləyirdi və adını mürid qoyan vəhşinin insafsızlığına dözməmişdi. O, gur səslə müridləri intizama çağırır, heç kimin qulağı eşitmirdi.

Əbih Sultan dünyanın bütün naqis işlərindən xəbərdar idi.O, dünyanın ən bic tülküsünü toyuq hininə salıb, oradan ac çıxarırdı. Müharibələri də çox görmüşdü. Qalibiyyət də dadmışdı, məğlubiyyət də. Qaliblərin bir zəif cəhətini hamıdan yaxşı bilirdi. Döyüşdən sonra qənimət toplamağı. Ona görə də qaçıb oradan çıxandan sonra uzağa getmədi. Nə qədər qüvvəsi vardısa bir yerə yığdı, onları sakitləşdirdi, dilə tutub geri qaytardı. Aralıdan mənzərəni görürdü və qızılbaşlara lap yaxınlaşmışdı. Çünki artıq onların keşikçiləri də yox idi. Keşikçi boş-boşuna dayanacaq, o biriləri yüklərini tutacaqdılar? Ay dayandı ha.

Qızılbaşlara lap yaxınlaşdılar və birdən-birə dördnala çaparaq, silahını ağır yük bilib atan, soxa yığışdıran müridləri biçməyə başladılar. Bayaqkı Qızılbaş uğuru tərsinə çevrilmişdi.

Dədə bəy bir neçə adamla onların bir cinahının qabağını saxlamışdı. Qara Piri bəy şir kimi vuruşur, hər dəfə qılıncını çalanda yerə baş, qol, ayaq düşürdü.

Əbih Sultan onların heç birini görmürdü. Onun qırmızı gözləri Sultanəlini axtarırdı. Sultanəli isə hələ hər şeydən xəbərsiz idi. Gölün o birisi başında, qayanın üstündə dayanıb gözlərini suya zilləmişdi, arxayın-arxayın üzən qızıl balıqlara baxırdı. Əbih Sultanın ona tərəf çapdığını görən Murad atını onun qabağına sürdü. Əbih Sultan təəccüblə ondan soruşdu:

– Sahib xəbər,sən də burdasan?

– Bəli, vicdan sahibi, bütün dünyanın əclaf işlərinin mayası, mən buradayam. Al gəldi. – Əbih Sultan qalxanını onun qılıncının qabağına verdi, qılınc qalxana dəyib sürüşdü və yana getdi. Murad özünü itirmədi. Onun yanındakılarla vuruşmağa başladı, birinin çiyin qarışıq sol qolunu qopartdı, qılıncı o birisinin qarnına soxub yəhərdən saldı, üçüncüsünün atının boynuna endirdi, qılıncı və həmin adam atla bərabər yerə gəldi.

Əbih Sultanı Muraddan da çox Sultanəli maraqlandırırdı. Ona görə özünü Sultanəliyə tərəf atdı. Murad qışqırdı.

– Hökmdar, özünü gözlə.

www.kitabxana.net

Səs deyəsən Sultanəliyə çatdı. Amma Murad vuruşa-vuruşa gözünün ucu ilə gördü ki, Sultanəli qıvrılır. Hirsindən qabağındakıları ağına-bozuna baxmadan doğrayıb tökdü, dönəndə gördü ki, artıq Sultanəli yoxdur və gölün üzündə halqalar yayılır.

O, işi belə görəndən sonra atın başını buraxdı. Bu bakirə, təmiz, duru gölün üzündəki halqavari dalğalar durulanda su altında yatmış şahzadə göründü. O, arxası üstə uzanmışdı, başından dəbilqəsi düşmüşdü. Qızılı saçları su yosunları kimi axarda da dalğalanırdı. Ağ libasının sinəsində, kürəyinə sancılan oxun ucunda isə elə bil məxməri Təbriz qızılgülü açmışdı. Qızıl xallı balıqlar onun qızıl kəmərinin, qızıl düymələrinin üstündən arxayın-arxayın o tərəf, bu tərəfə üzürdülər.

## SARA XATUNUN YADİGARI

Qızılbaşların üzünə gülümsəyən günəş təzədən qara buludlara girdi. Bundan sonra o buludlar seyrələcəkdimi? Günəş görünəcəkdimi? İndi bu barədə düşünməyin də yeri deyildi. Sultanəlinin uşaq tərsliyi başladıqları işi və onların öz taleyini də ölüm təhlükəsi altında qoymuşdu. O bilirdi ki, nə Sultanəli, nə də Dədə bəyin ağlı o yeddi yüz nəfəri xilas edə bilməyəcək. Lələ onlardan ayılmağına xəcalət çəksə də, onun çox mühüm bir məqsədi də vardı. Həmin məqsəd olmasa hamıdan qabaq döyüşə girər və birinci cərgədə həlak olardı. Amma onun bu tezlikdə həlak olmağa, bilə-bilə ölümə getməyə haqqı yox idi. Həmin böyük məqsəd üçün yaşamalıydı. Onun ömrü Şeyx Heydərə verdiyi sözə həsr edilmişdi. Buna görə də o hər şeydən keçmişdi. Nə ev tikmişdi, nə ailə qurmuşdu. Özünü bütün qayğılardan xilas etməklə əsas bir fikrə qulluq eləmişdi. Bundan sonra da həmin məqsədə doğru gedəcəkdi. “Təkcə İsmayılı xilas eləsəm bəsimizdir. Bundan sonra ümidimiz onadır. Vəliəhd İsmayıldır, uşaq olsa da belə ağılda, simada təkdir. Onu tez tapıb buradan çıxarmaq lazımdır.

Ərdəbilin müdafiəsini təşkil etmək də artıq heç nəyə kömək eləməyəcəkdi. Bircə yol qalırdı. İsmayılı anasından da oğurlayıb saxlamaq. Anası Uzun Həsənin qızıdır, o gizlənməyi özünə ar biləcək. Məşhər ayağına çəksələr, dözüb dayanacaq, ismətini, abırını oğluna dəyişməyəcək. Biz isə şeyxin sınanmış dostlarıyıq. İsmayılı ələ verməərik. Boynumuzu qılınca verərik, amma onun yerini deməərik”.

Səhərə yaxın Ərdəbilə girdilər. Amma heç kimin gözünə görünmədilər. Çünki şəhərdə hay-küy düşə bilərdi. Salmanla bərabər onlar qara rübənd saldılar ki, heç kim tanımasın. O, hesablamışdı ki, ən tezi Əbih Sultan Ərdəbilə axşam, qaranlıq düşəndə gəlib yetişə bilər. Bu müddətdə o işini görməlidir. Aləmşahbəyimin heç nədən xəbəri yox idi. Axşama qədər bir neçə yerə dəydi, bir neçə adamla görüşdü, nəhayət, qaranlıq düşəndə Şeyx Heydərin evinə yan aldı. Müridə yaxınlaşıb dedi:

– Mən Hüseyn Lələ bəyəm. Şahidim tək sənsən, bir də göydəki tanrımdır. Düşmən Ərdəbilin qarşısındadır. Səs-küy salma. İsmayılı mən aparıram. Əgər bu barədə bir adam bilsə şərtimizin müqəddəs qanunları ilə yox ediləcəksən.

Mürid onun sınanılmış adamlarından idi. Qabağa düşüb dinməz, söyləməz onu İsmayılın otağına apardı. Qızılbaşların yeddi yaşlı ümidlərini qara örtüyə büküb götürdülər. Bir azdan həmin mürid də Lələ bəyə qoşulub Ərdəbil küçələrinin qaranlığında yoxa çıxdı.

Sonra o biri müridləri də müxtəlif bəhanələrlə müxtəlif yerlərə göndərib, atını Ərdəbil qazısı Əhməd Kakulinin həyətinə sürdü. Çax-çaxı vurdu. Nökər qapıya gəldi.

– Məni içəri burax, qapını da bağla, qazını çağır, iş var.

Bir azdan əlindəki şamın titrək işığını bir-birinə sıxılmış titrək barmaqları ilə küləkdən qoruyan, şamın sarı işığı ağ saqqalını işıqlandıran qazı Əhməd qapıya gəldi.

– Kimdi bu Allah qonağı?

– Sufi nəsəbdi, ya qazı. Mən indi batin əhliyəm. Ona görə çöhrəmi tək sən görə bilərsən.

Qazı nökərə işarə verdi. O, harasa çəkilib getdi, darvazanı özü açdı. At üstündə qara niqablı, rübəndli, qucağında nəsə olan adamı səsindən tanımışdı.

– Günəş də batin olarmı, Lələ bəy.

– Günəş sabah doğacaq. Hər çağın da öz hökmü var. Səni and verirəm inandığımız nura, bu sirr batin qalsın.

– And içirəm. Amma məni bir bu sirdən agah elə görüm.

Lələ atdan düşdü, çəkib həyatdəki dirəyə bağladı. Yuxudan hələ də oyanmamış İsmayılı örtüyə bürünmüş vəziyyətdə evə apardı, yerdəki döşəyin üstündə uzadıb üstünü örtəndən sonra qazı Əhməd əyilib işığı İsmayılın sifətinə salan kimi onu tanıdı.

– Şükür sənin məsləhətinə. Bu ki, nur Heydərin nur parçasıdır.

– Bəli, Ərdəbil yenə də Ağqoyunlular əlinə keçdi. Heydərin böyük oğlu Sultanəlini də itirdik. İndi ümidimiz tək İsmayıladır.

Qazı Əhmədin əlindəki şam söndü. Onun gözlərindən tökülən yaşlar alovu söndürmüşdü. Hücrədə işıq sönən kimi qazı hönkür-hönkür ağladı. Elə bil mərsiyyə oxuyurdular.

– Toxta, qazı Əhməd. Hələlik yenə də işığımız söndü. Biz deyirik ki, bütün varlıq nurdan yaranıb. Odların arasında zülmətdən yarananlar var ki, nuru belə zülmətə çevirirlər. Bu körpə bizim gələcək nurumuz və günəşimizdi. Hələlik onun taleyini sənə tapşırıram, imkan olsa savadı, tərbiyəni səndən alacaq.

Qazı Əhməd yenə də ağladı. Onun ağlamağında qəribəlik vardı. Bu qəribəlik ondan ibarət idi ki, o artıq gücünü itirmişdi. Bu zəmanədə isə qol gücü ağıl gücündən üstündür, onun isə ağlından başqa heç nəyə gümanı gəlmir.

– Lələ bəy, belə dar ayaqda ümid yeri bildiyinə görə məni təriqətimizin də, vicdanımızın da, Allahımızın da yanında yüz pillə ucaltmısan.

Bu sözlərdən sonra Lələ bəy xudahafizləşib çıxdı. Onun dayanmağa bir an vaxtı yox idi. Təriqətin xəzinəsini yerbəyer eləməli, sağ qalanları bir tərəfə çıxarmalıydı.

Əbih Sultan Rüstəm Mirzədən belə bir tapşırıq almışdı, daha doğrusu Rüstəm Mirzəni bu fikrə o salmışdı: Şeyx Səfi nəslindən istər başıpapaqlı, istər başı örpəkli bir nəfər sağ qalmamalıdır.

Ağqoyunlu qoşunu Ərdəbilə girəndə qıyya çəkə-çəkə qabaqlarına çıxanı doğrayır, Əbih Sultan lap ərdəbillilərin də kökünü kəsməyə çalışırdı. Onun başlıca bir məqsədi vardı: İsmayılı tapıb başını kəsmək, qızıl məcməjidə “Səkkiz behişt” sarayına aparmaq. Çünki Sultanəli simadan anasına bənzəyirdi və Əbih Sultanın bəlkə də ona az çox ürəyi yanardı, bir zərbə ilə işini bitirərdi. Amma İsmayıl atasına oxşayırdı; qara, çatma qaşları, enli alnı, sivri, onu qartala bənzədən burnu vardı. Elə biləcəkdi, Heydərin özündən intiqam alıb.

O, hər şeyi ölçüb-biçmişdi. Tək bir şeyə gücü çatmayacaqdı. Əgər Aləmşahbəyim və oğulları, qohumları Şeyx Səfi türbəsində gizlənsə, ora girməyə ürək eləməyəcəkdi. Çünki, hələ Şərqin heybətli sərkərdəsi Əmir Teymurun qoyduğu yasaq yaşayırdı və heç nəyi nəzərə almayan Əbih Sultan da onu pozub oraya ayaq basmağı fikrinə gətirməmişdi. İkinci tərəfdən də o, qatı dindar idi, pirin mö’cüzəsinə inanırdı ona qəsd eləyə bilməmişdi. Hüseyn Lələ bəy isə, bunu nəzərə ala bilməmişdi. Fikirləşmişdi ki, Əbih Sultan üçün dünyada müqəddəs bir hiss və duyğu yoxdur. İsmayılı orada da tapıb qətlə yetirə bilər.

Qıyya çəkənlər Şeyx Heydərin evinə çatdılar, Əbih Sultan əlində yalın qılınc keşikçiləri, xidmətçiləri, nökər və qaravaşları doğraya-doğraya otaqları açıb baxa-baxa irəliləyirdi. Burada isə heç kimin heç nədən xəbəri yox idi. Nə Ərdəbil qoşununun məğlubiyyətindən, nə Sultanəlinin ölümündən, nə də İsmayılın aparılmağından.

Səkinə qıyya, qara-qışqırıq səsi eşidib Aləmşahbəyimi oyatdı. O qalxıb hələ geyinmədən səslərə qulaq verdi və heç nə başa düşə bilmədi. Şamın işığı Səmərqənd kağızı kimi ağ çiyinlərinə, yumru döşlərinə və gözəl sinəsinə düşmüşdü. Deyəsən qonşu otaqların qapıları açılıb çırpıldı, addım səsi eşidildi. Yüyrək yerişli adam kimdisə dayandı, sonra zarıltı eşitdi. Onun qulağına bir səs gəldi.

– A-n-a.

Əbih Sultan qonşu otağa girmişdi. O yataqda bir uşaq gördü, qılıncın ucu ilə yorğanı qaldırdı. Yox, bu İsmayıl deyildi, qardaşı İbrahim idi. Bu vaxt uşaq gözlərini açıb baxdı. Əbih Sultan gözlərini çevirdi ki, onun gözlərinə sataşmasın, çünki özünün də bu yaşda oğlu vardı. Qılıncı vıyıltı ilə endirdi və bir səs eşitdi:

– A-n-a!

Amma o, ana sözünü axıra qədər deyə bilmədi. Əbih Sultan tez otaqdan çıxdı. Qonşu qapını açdı və şamın işıqlandırdığı gözəl qadın bədəni gördü. Elə hərisliklə baxdı ki, onun qulaqları artıq qadınların fəryad və qışqırıqlarını eşitmədi. Gördüyü eşitdiyindən qat-qat gözəl, şirin idi. Qapını arxasınca örtdü ki, özündən başqa bu gözəlliyi görən olmasın.

Aləmşahbəyim yorğanı üstünə çəkib yaşındı. Səkinə da qalxıb arada dayandı, bununla da onu naməhrəm baxışından gizlətməyə çalışdı. Özünü saxlaya bilməyib qışqırdı:

– Çıx, quldur.

Əbih Sultan bir neçə addım da irəli gəldi.

– Fərraş, – deyə Aləmşahbəyim qışqırdı, amma səsi çıxmadı.

– Sənin fərraşın mənə nə eləyəcək?! Onların hamısı doğranıb. Artıq sən mənim əsirimsən. Allahın bu gününə şükür. İyirmi ilə yaxındı sənin dalınca süründüm, axır ki, ulu tanrı məni öz arzuma çatdırdı.

– Sən kimsən axı?

– Tanımırsan? Mən Əbih Sultanam. Qızlıq vaxtında da məndən zəhlən gedirdi. Nə olar, mənim qəbulumdu. Artıq nə Uzun Həsən var, nə Şeyx Heydər, nə Sultanəli, nə İbrahim. Tək sən qalmısan. Özün də mənim əlimdə. Müsəlman adətinə görə sənin açıq, gül bədənini görmüşəmsə, sən mənimsən.

Bu sözlərin hələ heç biri Aləmşahbəyimin beyninə yerləşmirdi. Yavaş-yavaş deyəsən hər şeyi dərk eləyirdi. Amma belə dəhşətli anda saçlarını yolub yelə vermək əvəzinə, ismətini gözləyir, yorğanla hər yerini bürüyürdü ki, onu görməsinlər. Çünki qan və namus düşməni başının üstündə dayanmışdı.

Əbih Sultan qapını aralayıb qışqırdı:

– İsmayılı tapdınız?

– Xeyr, heç yerdə yoxdur, – deyə uzaqdan ona cavab verdilər.

Bunu eşidəndən sonra ananın ürəyi az da olsa sakitləşdi. Deməк İsmayıl təhlükəsiz yerdədir. Ya da qaçıb küncdə-bucaqda, yük arxasında gizlənib. Axırıncı fikir onun ürəyinin başına od saldı.

– Hanı İsmayıl? – O, Aləmşahbəyimə tərəf yeridi.

– Çıx geyinim, sonra onun yerini deyərəm.

– Yox geyinməyəcəksən. İsmayılın yerini mənə elə indi deyəcəksən.

Səkinə irəli cumub Əbih Sultanın döşündən itələyib çölə çıxarmaq üçün əllərini onun sinəsinə söykədi. Barmaqları altında dəmir tor hiss elədi. O, heç yerindən də tərpənmədi. Əl atıb Səkinənin saçlarını əlinə doladı, üzünə baxmadan yerlə sürüdü, dönüb qapıdan çölə qışqırdı:

– Ey, biriniz bura gəlin.

Adamlardan biri silahını, zirehini cingildədə-cingildədə içəri girmək istədi. Əbih Sultan Səkinəni ona tərəf itələdi.

– Al, bu sənin, nə eləyirsən elə. – Qapının cəftəsini burdu.

Səkinənin saçları bu dəfə onun barmaqlarına keçdi. Yerlə sürüyə-sürüyə apardı.

Aləmşahbəyim işin necə qurtaracağını ağlına sığışdıra bilmirdi.

– Əbih Sultan, atam indi olmasa da, mən Uzun Həsənin qızıyam. Sən nə qədər dartınsan da, sənin mənə əlin çatmaz.

– Bilirəm. O vaxt atan səni mənə vermədi. Amma üstündən neçə illər keçəndən sonra Mişkin yanındakı təpədə görəndə əvvəlki istək qayıtdı. Sən heç dəyişməmisən. Taleyimdən də çox razıyam.

– Mən Şeyx Heydərin arvadıyam.

– Ondan intiqam almaq istəyirdim. Əlimə imkan indi düşüb. Həm də sənə görə o intiqamı almalıydım. Əvvəla, İsmayılın yerini de, o atasına daha çox oxşayır. Onun yerini deməsən...

– Eşit və yadında saxla, mən namusumu, qeyrətimi oğuldan da yüksək tutmuşam, ərdən də. Sənin qeyrətin olsaydı İsmayılın yerini də deyərdim, gözlərinin qabağında onu öz əllərimlə boğardım, təki ismətimə toxunmayaydılar.

Ona indi agah oldu ki, Aləmşahbəyim doğrudan da oğlunun yerini bilmir. Deməli, İsmayıl yoxdur. Onu Lələ bəy aradan çıxarıb. Həmin Lələ bəy ki, onun bir baxışına görə bağırsaqlarını boğazına dolamaq istəyirdi. Belə vəziyyətdə görsə nə eləyər. Yox, belə görə bilməz. Çünki, artıq bunun tərəfindədir. Bu məqam, fürsət bir daha ələ düşməyəcək. Ona görə də onu əldən vermək olmaz. Qılıncını bir tərəfə tulladı. Dəmir köynəyini soyundu, dəbilqəsini başından götürdü, kəlləsinin ortasında qalan tərliyi də çıxartdı. Hər ikisini hara gəldisə atdı. Dəbilqə danqıldaya-danqıldaya xeyli dığırlandı. Nəfəsi təngiyə-təngiyə... Yanaqları od tutub yanırdı.

Aləmşahbəyim üçün bu məşhər ayağı idi və çıxış yolu axtarırdı. O, yumruqlarını elə sıxmışdı ki, sol əlindəki üzük onun adsız barmağını incitdi. Birdən-birə çıxış yolunu tapdı. İri qaşlı üzüyü ona anası Dəspinə xatun bağışlayıb demişdi:

– Nənən Sara xatunun yadigarıdı, dar günün gərəyidi. Sənin ərin də qanlı-qanlı yolun yolçusudu, onu barmağından heç vaxt çıxartma. Bu üzük səni dar ayaqda rüsvayçılıqdan qurtarar.

Aləmşahbəyim başını qaldırıb Əbih Sultanın qalın qaşları altındakı iri qırmızı, qanlı canavar gözlərində vəhşi ehtirasın alovlarını gördü.

– Bir an əl saxla. Beş addım geri çəkil, üzünü çevirib ona qədər say-sonra sən deyən olsun.

– Mənim olacaqsan?

– Yəqin ki...

– Öz xoşunla?

– Bilmirəm. Çəkil!

Əbih Sultan özgə qadın olsa onun xoşluqla təslim olmasını gözləməzdi. Canavar ovunu parçalayan kimi, o da öz qurbanını, özü dediyi kimi qismətini vəhşiliklə özünə tabe eləyərdi. Amma həmişə həsrətində yaşadığı bu gözəli soldurmaq istəmirdi. Geri çəkildi, amma üzünü çevirmədi. Gözlərini yumdu. Hiss elədi ki, ürəyi ağır-ağır döyünür. Elə bil sinəsində zindana gürz vururdular. Adi say saymadı, ürəyinin döyüntülərini saydı və ona qəribə gəldi ki, o ürəyində döyüntünü ilk dəfə eşidir. On tamam olan kimi kirpiklərini qaldırdı. Nə gördüsə zindana dəyən gürzün səsi də kəsildi. O, gözlərinə inanmadı.

Yataqda o ağ, mərmər, səmərqənd kağızı rəngdə gözəlin əvəzinə, qapqara, kösövə oxşar bir meyit uzanmışdı. Əbih Sultan qorxusundan bir-iki addım geri çəkildi. Aləmşahbəyimin xalçanın üstünə düşən sol əlindəki üzüyün qaşı açıq qalmışdı. Bu, Sara xatunun qadın ismətini qorumaq üçün hədiyyəsi və vəsiyyəti idi.

– Hanı İsmayıl?

Ərdəbilin şəhər meydanında carçının səsi minarədəki müəzzin "Allahu əkbər, Allahu əkbər!" nidasına üstün gəldi. Adamlar qulaq asıb carçının dediyini eşitmək istəyirdilər. Müəzzin namazın vaxtını onların yadına salıb "Allahu əkbər", "Allah böyükdür" deməklə onları uzaq bir qorxu ilə hədələyirdisə, carçı gur səslə hamını meydandakı dar ağacının yanına səsləyirdi. Hər gün meydandakı yeddi dar ağacından yeddi meyit düşürüb, kəndirləri bir daha sabunlamadan (kifayət eləyirdi) yeddi müridin boğazına keçirib, ayaqları altındakı kürsünü çəkirdilər.

Amma cəllad yeddi adamın yox, tək bir nəfərin adını çəkdi.

– Öz evində lə'nətullah Şeyx Heydərin oğlu İsmayılı gizlədib saxladığına görə Ərdəbilin keçmiş qazısı Əhməd Kakuli asılacaq. Yüksək Ağqoyunlu səltənətinə xəyanət eləyən mə'lunun ölümünə sevinmək istəyənlər meydana tələssinlər. E'dam günorta namazından sonra icraata çevriləcək.

Lələ bəyin adamları bu xəbəri ona çatdıranda donub qaldı. Demək qazı ilə bərabər onun, Səfəviyyənin son ümidi də ələ keçib. Bəs onda niyə demirlər ki, İsmayıl e'dam olunacaq? Bəlkə onu Təbrizə ərməğan aparacaqlar? Müridlər günorta namazını qılıb qazı Əhmədi Allahın mərhəmətinə tapşırandan az sonra, meydana axışan camaata qoşuldular. Lələ isə gizləndiyi yerdən çıxmadı.

Əbih Sultanın atlıları adamları bazardan, küçələrdən qamçılaya-qamçılaya meydana qovurdular.

Qala divarının yanında meydanın bir tərəfində uca bir kürsü qurulub xalçalarla bəzənmişdi. Kürsü ilə dar ağaclarının arası uzaq deyildi və dar ağacına qaldırılanla kürsüdəki Əbih Sultan bir-birini yaxşı eşidə bilərdilər.

Əvvəlcə kəfən geydirdikləri qazını gətirdilər. Cəllad çürük kötüyə oxşayan, üzü üzlər, gözü gözlər görmüş bir adam idi. Qazıya deyirdi:

– Ya qazı Əhməd, bir-birimizi tanıyırıq. Mənə yaxşılığın da çox keçib. İndi mən əlimdən gələnn eləyirəm. Bu dar ağacının kəndirindən çox adam asmışam. İstədim ki, sənin mübarək boğazın da o kəndirə toxunsun. Sən çox pak adamsan. Kəndiri dəyişmişəm. İndi kəndirə sabunu çox da vura bilərəm, az da. Onu da deyim ki ha, sabunu mənə cirəynən verirlər. Çox tapılan şey deyil. Ona görə. Mən o birisi kəndirlərin payından götürüb bu kəndiri yaxşı sabunlaya bilərəm. Sabun belə şeydi ki, onu vuranda kəndir yaxşı sürüşür, adam tez boğulur. Yox, əgər sabun az olsa, aha. İndi özün de, necə eləyim? Sabunu çox olsun, ya az? Sənin yanında, şucüzümmə olmayım, aha. Mənim də axirət günüm var.

Qazı Əhməd cəlladın çərənləməsinə çox dözə bilmədi:

– Sabunun artıqdırsa, bir dəfə də heç olmasa öz əllərini yu.

– Aha, bu da mənim yaxşılığım.

Qazı Əhməd çox hökmlər çaxartmışdı. Bu cəllad isə icra eləmişdi. Oğurluq üstündə şəriətə görə barmaq da kəsdirmişdi, əl də. Adam öldürmək üstündə ölüm cəzası da vermişdi. Ədalətli, ürəyiyumşaq olduğuna görə çox məsələlərdə güzəştə də getmişdi. Cəllad da ondan çox istifadə eləmişdi və qazı Əhmədə görə özünə çoxlu var-dövlət yığmışdı. İndi qazını asmaqla öz gəlirini kəsirdi. Həm də o günlərin, var-dövlətin əvəzində ona yaxşılıq eləmək istəyirdi.

– Ya qazı, sən qızıl adamıydın...

– Adamıydım niyə? Elə adamam da.

– Aha, adam ki, gəlib dayanır bu kəndirin altında o daha adamlıqdan çıxır. Onun qalır bax bir belə ömrü - o, baş və şəhadət barmaqlarını bir-birinə yaxınlaşdırdı.

– Orada daha nə yaxşılığı bilinər, nə pisliyi. Sən ki, qazılıq eləyirdin, onda mərhəmətin dağ boydaydı. Amma bu Əbih Sultandı, əbləh şeytandı, nədi, elə kimi tutursa, deyir as. Köpək oğlu, heç fikirləşmir ki, bu sabun yerdən çıxmır ey. Qiyməti ceyran belindədi.

Qazı Əhməd yalın ayaqlarını daşların üstünə möhkəm basmışdı və indi o ürəyində yalvarırdı: “Ey ulu tanrı, ey bütün canlıların dayağı olan nuri vəhdət, məni düşmənlərimin qabağında xəcalətli eləmə. Yıxılıb ölsəm, ölümdən betər olar”

Xalça ilə bəzənən kürsüdə Əbih Sultan göründü. Hüseyn bəy Əlixani də onun yanında oturmuşdu. O, saqqalının bir çənkə tükünü barmağına dolayıb dartır, didişdirirdi. Hiss olunurdu ki, əsəbləri sözünə baxmır. Birdən onun səsi eşidildi:

– Qazı Əhməd, ölməyin də, sağ qalmağın da öz əlindədi. Lə’nətulla, Heydər oğlu İsmayılın yerini de.

Onun “lə’nətulla” deməyinə cavab olaraq, meydanda neçə yerdən “əstəğfürullah” nidaları eşidildi. Əbih Sultan bu nidalara dönsə də əhəmiyyət vermədi.

Meydanda Lələ bəyin göndərdiyi üç mürid vardı: – Sinəsi qarnından xeyli qabaqda dayanan enlikürək, iyirmi dörd, iyirmi beş yaşlı Rüstəm Qaramanlı, ondan bir qarış hündür, irigözlü, iriağızlı Məhəmməd bəy Türkman və özü kimi boylu-buxunlu, on səkkiz, on doqquz yaşlı Əhməd bəy Türkman.

Əbih Sultanın İsmayılın yerini de” kəlmələrindən sonra onlar bir-birilərinə baxıb göz vurdular və sevinclərini zorla gizlətdilər. Deməli, İsmayıl sağdır. Bəs onda hardadır?

Qazı Əhməd cavab verdi:

– İsmayılı mən görməmişəm.

– Görməmisən, yerini də bilmirsən? Onda Qur’ana əl basıb and içə bilərsənmi? – Əbih Sultanın bu sözü onu hövsələdən çıxartdı.

– Qur’ani Kərimə inanan adam bu qədər nahaq qan tökməz. Peyğəmbər övladını yezid kimi şəhid eləməz. Utanmayıb o müqəddəs kitabın adını dilinə gətirirsən?

Əbih Sultan əlini qaldırdı ki, onun asılmağına işarə versin. Amma əlini göydə saxladı. Barmağındakı firuzə qaşlı üzük parıldadı.

– Başını qaldır, o kəndirə bax. Ömrünə çox az qalıb. İsmayılın yerini de.

– İsmayılın yerini soruşursan?

– Bəli.

Bütün meydandakı adamlar nəfəslərini dayandırıb qazı Əhmədin səsini dinlədi. Hamı gözləyirdi ki, qoca yaşında ölümdən qorxub birdən deyər. Düzdür, bura yığışıb gizli-gizli göz yaşı axıdan ərdəbillilər onun yerini bilmək istəyirdilər. Amma ta ki, onu Əbih Sultan bilməsin, Ağqoyunlular bilməsin.

– İsmayılın yerini indicə sənə deyərəm.

– Buna görə səni böyük ənam, yenə də Ərdəbil qazılığı gözləyir.

– Çox yaxşı: Ey Ərdəbil əhli, İsmayılın yerini desəm, məni özünüzə qazı götürərsiniz? Mənim ədalətimə, düzlüyümə, təmizliyimə inanarsınız?

Meydandan səs çıxmadı. O, üzünü Əbih Sultana çevirdi.

– Gördün, onlar "yox" deməkdən qorxub, hə də demədilər. Əbih Sultan, Mehti sahibi zaman eşitmisən?

– Bəs necə? Eşitmişəm. Qeyb olmuş imamdı, nə vaxtsa gələcək.

– Bəli, düz dedin. Amma o nə vaxt gələcək? Məsələ bundadır. Dünya qarışanda, insan qanı su kimi axanda gələcək. İsmayıl da sahibi zaman kimi qeybə çəkilib. Onu sən yox, heç Rüstəm Mirzə də tapa bilməz. Vaxt olar, özü gələr, bütün bu işlərinə görə səndən cavab istəyər. Sən indi onu nahaq yerə axtarırsan, o, vaxtında özü gəlib səni tapacaq. Elə bir cəza verəcək ki, sənə cəhənnəm əzabları onun yanında muştuluq olsun. Mən dediklərimi yadında saxla. O cəzanı verəndə məni nahaq yerə asdığını yadına salıb peşman olacaq, arvad kimi ağlayacaqsan. Çünki sənin kimi əzazil cəlladlar dünyanın ən qorxaq, ən aciz adamlarıdır.

Əbih Sultanın əli qə'ti bir hərəkətlə endi, kəndir qazı Əhmədin saqqalını sığallayıb damarları bilinən boğazına keçdi və dartındı. Onun yalın ayaqları göydən asıla qaldı.

Bu e'damdan sonra düşmənlər də, dostlar da bir sual qarşısında qaldılar: "Bəs İsmayıl hardadır?".

Həmin gün şəhər bazarında bir şəhərli tərəkəmədən motal pendiri alırdı. O, motalın tüklü tərəfini çevirmişdi, iri, yağlı tikələr görünürdü. Əvvəl qiymət söhbəti getdi. Şəhərli dedi:

– Pendir yağdan baha olub?

– Ay qadan alım, yağlı motal pendiridi, dayna.

– Bu yağlıdı, yağ döyül axı.

– Düzdü, yağ döyül, pendirdi, qiyməti də budu.

– Qorxmursan?

Birdən tərəkəmənin yadına nə düşdüsə dedi:

– Ağrın aleym, düz deyellərmi, o Şeyx Heydərin oğlu qeybə çəkilib. Dünya pisləşəndə gələcək?

– Bəli.

– Dünyanın nəyi pisdi ki, ağrın aleym? Qoyun var, inək sağılır, quzu məliyer.

– Eh, – deyə görünür hər şeydən baş çıxaran şəhərli dilləndi. – Sənin üçün yaxşı olar da. Pendiri yağdan baha, şoru yağ qiymətində satanda kefin kök olar. Axı, bəs bizim günahımız nədi? Bir belə qırğın gedir, Ərdəbilin başına bir belə müsibət gətirirlər, bunu hara yazaq?

Tərəkəmə başını buladı, dedi:

– Neçədən istəyirsən, apar. Allah bundan betərindən saxlasın...

Dağ keçisi dizlərini qatlayıb ağzını uzadaraq bitən kəklikotunu qırpmaq istəyəndə, diksindi, ayağa qalxmaq artıq gec idi. Ox alnındakı qaşqasına batmışdı. Sürüşüb qayadan aşağıya, mağaranın ağzındakı yastanaya düşdü. Oxu atan mağaranın ağzındakı mürid idi. Başındakı artıq didilmiş on iki dilimli çalmasından tanımaq olardı onu. Sevindiyindən bilmirdi neyləsin. Tez dağ keçisinin üzünü qibləyə çevirdi, kəmərinə keçirdiyi sapı keçi buynuzundan olan bıçağı çıxartdı və onun başına çəkdi. Qan fışqırıb axdı, keçi bircə dəfə ayaqlarını çəkdi. Bundan sonra o içəridəkiləri səslədi.

– Səfər, gəl baxtımız varmış, Allah ruzimizi göndərib.

Dağ keçisini mağaraya çəkdilər və orada bıçaqla, xəncərlə soymağa başladılar. Oxu atan mürid dedi:

– Necədi yaralının halı?

– Yaxşı deyil, qızdırması var.

Şəmasə müsibətində Murad Sultanəlinin suya yıxıldığını görüb atını sürüb aradan çıxanda, dalınca çoxlu ox atmışdılar. Və onlardan biri onun kürəyinə sancılmışdı. Yəhərin qaşına yatıb yaralı-yaralı döyüş meydanından uzaqlaşmış, sonra da yəhərdəcə huşunu itirmişdi. At sakit heyvan idi, meşə talasında yavaş-yavaş otlayır, onu da belində gəzdirirdi. Belə bir vaxtda döyüş meydanından qaçıb çıxan bir dəstə mürid ata rast gəlmişdi. Xoşbəxtlikdən Cibo Səfər də onların arasındaydı.

– Ay canım, bu ki, Muraddır.

– Murad kimdi? Mənə də tanış gəlir sir-sifəti.

– Rustəm Mirzənin sahib xəbəri.

– Rüstəm Mirzənin? İndi onun qanını şüşəyə tutaram.

– Özündən çıxma. Bizim adamdı. Əbih Sultanın xəbərini o gətirmədi? Kömək eləyin, atdan düşürək.

Yerə qoyub kürəyindəki oxu çıxarmış, yaranın yerinə əski yandırıb basmışdılar. Sonra da bu mağaraya gətirmişdilər. Amma özünə gəlmirdi. İstiliyi enmir, hərdən bir sayıqlayır, iri, enli dodaqları qaysaq bağlayırdı. Cibo Səfər onun yanından uzağa getməsə də, əlacsız idi. Onu sağaltmaq əlindən gəlmir, ağrısını yüngülləşdirmək üçün heç bir tədbir tökə bilmirdi. Ovla başlarını girləyən müridlər gecə bir yerə yığışanda onlara yalvarmışdı:

– Bu biçarə qərib ölüm ayağındadır. Təbib tanıyanınız varsa, ona bir əlac elətdirək.

Səfər kimi bir arığı, yaşlısı dedi:

– Heç Sultanəlinin dərdinə qala bilmədik, indi ağqoyunluların sahib xəbərindən ötəri təbib axtaracağıq? O, Şəmasə yanında ölənlərdən artıqdır?

– Elə danışma. Allaha xoş getməz. Çıxmayan cana hələ ümid çoxdur.

Lal-dinməz bir mürid dedi:

– Mən Ərdəbildə bir arvad tanıyıram. Yaxşı təbibdi. Otnan, ələfnən ölünü dirildir.

Səfər həmin müridin yaxasından əl çəkmədi. Gecənin birində Ərdəbilə gəlib qadını tapdılar, razılığını alıb, qayıdıb səhərki axşam Muradı onun evinə apardılar. Səfər Ərdəbili yaxşı tanıyırdı, ona görə də hər yerdə Ağqoyunluların gözündən yayınıb geri qayıtdılar.

Saçlarını qara yaylıqla çalan qadının yanağında iri bir ət xal vardı. Xalın üstündə uzun və kirpik kimi əyri tüklər bitmişdi. Arvadın bığı da vardı. Sifətinin dərisi çürümüş ağac qabığına oxşayırdı. Nə qədər çirkin olsa da, gözlərindəki mehribanlıq onu yapışıqlı göstərirdi. Onun beli əyilmişdi, saçları ağ yuna bənzəyirdi. Təkcə gözləri qocalmamışdı. Onunla yanaşı ağsifət, qartal burunlu, amma çox pis geyimli bir oğlan da dayanmışdı. Oğlanın sifətindəki ifadədən bilmək olardı ki, baxdığı adamı tanıyır.

Qadını da, oğlanı da bu cür görən Murad idi. Kürəyinə ox sancılandan bəri gözlərini ilk dəfə açırdı. Gözlərinin də qabağında bu iki sifət dayanmışdı. O, çöhrələrdən arxada heç nə ayırd eləyə bilmirdi. Axı bura haradı, yadındadır ki, ağ paltarlı, qızıl saçlı Sultanəli qıvrıldı, o isə qılıncını sağa-sola çapdı. At oradan çıxıb xeyli qaçdı. Amma birdən-birə gözləri qabağında meşə yuxarı qalxdı. O, çəngə-çəngə at tükü gördü. Bu onun gözləri qabağında dayanan at yalı idi. Bəs sonra? Neçə vaxtdır elə o sağa-sola aşan yalı görür. Bu yal nə qədər aşacaq, yırğalanacaq? Axırda, başı gicəldi, ürəyi bulandı. Amma gözlərini yumanda da eyni şey gördü. Və birdən-birə belə bir yer. Adamlar. Uşaq isə ona lap tanış gəlir.

– Mən hardayam?

– Yaxşı yerdəsən.

– Harda?

– Ərdəbildə.

– Ərdəbil indi kimin əlindədir?

– Ağqoyunluların, – deyə qarı kədərli-pıçıltılı səslə dedi. – Əbih Sultanın!

– Lə’nətullah. Mənə bu da azdı. Gərək heç dirilməyəydim. Onu neçə dəfə cəhənnəmə vasil eləyə bilərdim. Heyif...

Bəs sənin adın nədir?

– Adım Ubadı, oğul. Yaran ağrıtmır?

– Yaram?

– Xəbərin yoxdu? Ox lap kürəyinə sancılmışdı. Dava-dərman eləyirəm, məlhəm qoyuram, yavaş-yavaş sağalır. Murad yavaş səslə dedi.

– Allah balalarına kömək olsun. – Və indi ona agah oldu ki, niyə tez-tez elə bilirdi ki, kürəyində gicitkan bitib, hayana tərpənirsə, onu dalayır.

Qarı dinmədi. Onun bu dünyada heç kəsi qalmamışdı. Murad uşağın ağıllı gözlərinə baxdı. Birdən-birə tanıdı. Odur, özüdür. Əlini qaldırıb işarə elədi ki, Uba qarı qulağını ona yaxınlaşdırsın.

– Tanıdım uşağı. Şeyx Heydər oğlu İsmayıldı, elə deyilmi?

Qarı əlini onun dodaqlarına qoydu və diri gözlərini evin içində hərlədi.

– Yox, nəvəmdi.

– Mən onu yaxşı tanıyıram. Onları zindandan çıxarıb aparanda mənim də köməyim dəyib. Qardaşı rəhmətlik Sultanəlini nə qədər qılınc çaldımsa, qurtara bilmədim. Ox məndən tez çatdı ona. Qorxma, mən dost adamam, sirr saxlamağı da bacarıram. Ay Uba xala, axı bu dünya niyə zillət, zülm, göz yaşı, zorakılıq üstündə qurulub?

İsmayıl da yaxına gəldi. O da bığları qoç buynuzu kimi əyilib qulaqlarına çatan bu adamı tanımışdı. Bu evə gətirilən gündən. Amma adını bilmirdi. Ağrının şiddətindən sifəti həmişə qırış-qırış olurdu. İndi isə o qırışlar yoxdu.

– Mən səni tanıyıram, əmi.

– Çox sağ ol, əvvəlki kimi at üstündə olsaydım, daha yaxşı tanıyardın. Eybi yoxdu, sağalıb duraram, at belinə qalxaram, qılıncımı götürrəm, onda Əbih Sultanın atasına od vuraram.

– Mən də sənə kömək eləyəcəm.

– Sən qabaqda, sərkərdə kimi, Sultanəli kimi gedəcəksən, bu qoca Murad da sənin buyruqlarını yerinə yetirəcək. Onda biz birləşib bu torpaqda nə qədər pis adam varsa, hamısını yox eləyəcəyik. Yaxşılara yol açacağıq.

– Əmi, sən Hüseyn Lələnin yerini bilirsən?

Hüseyn Lələnin İsmayıl üçün dünyada ən əziz, ən yaxşı adam olduğundan xəbəri vardı. Amma onu Şəmasə yanında görmüşdü.

– Yox, ay gözəl və ağıllı oğlan. Bilmirəm. Sağalan kimi taparam. Sənə söz verirəm.

Tumanın uzun ətəkləri gücsüz ayaqlarına dolaşan Uba qarı da gəlib Muradın yanında çöməldi. İsmayılın sözlərini eşitmişdi. Onun başını sığalladı.

– Tapacağıq, darıxma. Lələ sağ-salamatdı. Düşmən əlinə keçməyib. Muradı bura gətirən müridlər xəbər verdilər ki, müridlərin çoxusu Bəqr dağındadı.

İsmayılı Uba arvadın yanına qazı Əhmədin özü gətirmişdi. Bir dəfə İsmayıl darvazadan küçəyə çıxmışdı. Qazı tez duyuq düşüb onun dalınca çıxmış, görmüşdü ki, bir adam arxasına dönüb baxa-baxa harasa tələsir. Qazı da hiss eləmişdi ki, onu tanıyıb və çuğullamağa qaçır. Götürüb çoxdan tanıdığı və inandığı Uba arvadın yanına gətirmişdi. Qayıdanda onu yaxalamışdılar. İsmayılı gətirəndə demişdi ki, Hüseyn Lələ bəyə xəbər göndərəcək, gəlib İsmayılı onun evindən aparsın. Amma buna macal tapmamışdı.

Birdən-birə Uba arvad susub dinləməyə başladı. Bir vəhşi, çılğın qadın səsi eşidilirdi və o get-gedə daha da aydınlaşdı. Bilmək olmurdu ağlayır, ya oxuyur.

– Burnuma İsmayılımın iyi gəlir. Qulağıma İsmayılımın səsi gəlir. Sifətimə İsmayılımın nəfəsi dəyir.

İsmayıl da bu səsi tanıdı. Səkinənin səsi idi. Durub küçəyə qaçmaq istədi.

– Səkinə xaladı, Səkinə xaladı. O məni anamın yanına aparacaq... Burax!.. Burax!..

Uba arvad onu qolları arasına alıb güclə saxladı.

– Hara, qurbanın olum? Düşmənlər sənin ovuna çıxıb. Görən kimi öldürərlər.

– Mən heç kimdən qorxmuram. Anamın, Sultanəlinin, İbrahimin yanına getmək istəyirəm.

Muradın iri gözlərindən iri gilələr qopub gözünün yanından qulağına tərəf axdı.
Səkinənnn səsi lap yaxından eşidilirdi:
– İsmayılımın iyi burnuma gəlir. Atam-anam, İsmayıl huyy...
Murad qəhərli səslə soruşdu:
– O arvad kimdi?
Dəlidi. Küçələrdə gəzir. Şəmasə davasında bir oğlu ölüb, adı İsmayıl. Onnan başına hava gəlib. Bütün gün küçələri gəzib başına kül ələyir, beləcə qışqırır.
– Yox, o məni axtarır, Səkinə xaladı. – Özünü saxlaya bilməyib ağladı. Yaş gözlərindən yaz yağışı kimi ələndi.

## LAHİCANDA MƏRASİM

Üç yüzə qədər Ağqoyunlu atlısı dəmirağaç meşəsindən çıxıb Biyəpiş mahalının kiçik Lahican şəhərinə girdi. Bu şəhərin daş döşənmiş dar küçələri vardı. Küçənin hər iki tərəfindəki iri pəncərəli dükanlarda sənətkarlar işləyirdi. Misgərlər kürədən təzəcə çıxardıqları köz rəngli misi zindan üstünə qoyub hər tərəfdən çəkiclə döyür, yeddi-səkkiz adamın çəkici qalxıb-ensə də, hamısı bir nöqtəyə vursa da, heç biri o birisinə mane olmurdu. Qapıdan qalaylanmış plov qazanları, güyümlər, ortasında Quran ayələri həkk olunmuş sinilər, atlıların başındakı dəbilqələrə oxşayan aş sərpuşları asılmışdı və müştərilərini gözləyirdi. Onların yanında dulusçular dəzgahı fırlayıb səhəng, küp düzəldirdilər. Bir az aralıda zərgərlər, necə deyərlər, iynə ilə gor qazırdılar. Bütün şəhər ağ, sal daşlardan tikilmişdi. Hörgülərin aralarına isə palıd tirlər atılmışdı. Darvazalar küçəyə açılsa da, bir dənə də olsun pəncərə küçəyə baxmırdı.

Qarğıdalıya bənzər daş küçədə at ayaqlarının səsi eşidiləndə hamı işini-gücünü buraxıb onlara tamaşa eləməyə başladı.

Qabaqda, gümüş yəhərdə lovğa-lovğa oturan, zər-ziba geymiş Qasım bəy Pərnək heç kimə fikir vermirdi. Elə bil heç şəhərə girmirdilər. Meşə yolu ilə gedirdilər. Bir-birinə bənzəyən ağaclara baxmaqdan yorulmuşdu. Ondan sonra gələn atlının yəhərinin qaşından asılmış dəri torbaya bayrağın ağacını keçirmişdilər. Bu bayraq xeyli hündür idi və onun ipək parçası üstündə vurağan ağ qoçun şəkli təsvir edilmişdi.

Biyəpiş mahalı Ağqoyunlu torpağına tabe olmasa da, kiçik, zəif bir mahal idi ki, istəyən vaxt icazəsiz, filansız Ağqoyunlu atlıları onun baş şəhəri Lahicana girə bilərdi. Burada gilanlılar yaşayırdı. Özləri də əkinlə, biçinlə, sənətkarlıqla məşğul olub güzəranlarını keçirirdilər.

Atlılar kiçik şəhərin biri-birinin yanında tikilmiş dörd məscid və dörd hamam olan meydanında dayandılar. Yaşı əllini haqlamış Qasım bəy bir ildən artıq idi ki, bütün ölkəni ələk-vələk eləmiş, Ərdəbildə "qeybə" çıxan Heydər oğlu İsmayılı tapa bilməmişdi. Bir dəfə onun sorağını Talış dağlarındakı Kirko kəndindən almışdı, dəstəsini aparmış, amma əlinə heç nə keçməmişdi. Günbatanda, Orta dənizin sahillərindəki Qaraman əmirliyindən xəbər çıxmışdı ki, İsmayıl ordadır. Xəfiyyələr, çuğullar, əyyarlar göndərmişdilər, amma xəbər yalan çıxmışdı. Bir sözlə, səkkiz yaşlı İsmayıl Ağqoyunlu səltənəti ilə gizlənpaç oynayırdı. Elə bil Rüstəm Mirzə, Əbih Sultan barədə dayanıb gözlərini yummuşdular, onun, "burdayam" kəlməsini eşitmək istəyirdilər və bu kəlmə eşidilirdi. Gözlərini açıb səs gələn tərəfə gedəndə, səs bu dəfə tamam başqa bir istiqamətdən gəlirdi. Bu müddətdə Qasım bəy Pərnəyin üç yüz atlısı da əldən-ayaqdan düşmüşdü.

Bu dəfə əyyarlar səhih mə'lumat gətirmişdilər. İsmayıl Biyəpişdədi, onu qoca, gününü ibadətdə keçirən mahalın hökmdarı Mirzə Əli Karqiya gizləyib saxlayır. Qızılözən çayının günbatanında Biyəpas mahalı idi ki, əhalisi sünnü mənsəb, gündoğan tərəfdə Biyəpiş idi ki, əhalisi şiə mənsəb idi. Əyyarlar, çuğullar xəbər gətirmişdilər ki, İsmayılı Hüseyn Lələ bəy çıxarıb Biyəpişə gətirib. Əvvəla, Lələnin özü də bu təraflərdəndi, ikincisi də Mirzə Əli Şeyx Heydərin, Səfəviyyə ocağının müridlərindən hesab olunurdu.

Qasım bəyə göstəriş vermişdilər. Əgər Mirzə Əli İsmayılı verməsə, onda Biyəpişi darmadağın eləsinlər, əkinlərə, meşələrə, evlərə od vursunlar.

Qasım bəy dəstəyə meydanda dayanmağı buyurub, özü bir neçə müridlə atını Mirzə Əlinin iqamətgahına sürdü. Onun iqamətgahı uzun, ağaclardan yonulub tikilmiş, yanlardan kərpiclə hörülüb, üstü kirəmidlə örtülmüş gilan və talış məscidlərinə bənzəyirdi. Atlılar binanın həyətində dayananda Mirzə Əli rəhilə qoyub vərəqlədiyi Qurandan yasin surəsini oxuyub qurtarmışdı. Səs-küy eşidib yanındakı çərçivədə yuxarıya-aşağıya hərəkət eləyən pəncərəni qaldırdı, altına çubuqdan dayaq vurdu və oradan həyətdə nökərlərin tutduğu gümüş yəhərli ata baxdı.

– Bu kimdi?

İçəri girən Qasım bəy baş əymədən, salam vermədən dedi:

– Mənəm. Ağqoyunlu taxtının minbaşısı Qasım bəy Pərnək.

– Xoş gəlmisən. Mənə görə Rüstəm Mirzənin qulluğu. – O, Quranı öpüb qızıl qabına qoydu, öpüb gözünün üstünə qoyandan sonra xidmətçiyə verdi.

– Xoş gəlməyimin bir səbəbi var. Aldığım tapşırıq belədi. Əgər Heydər oğlu İsmayılı mənə verməsən, onda Biyəpişin altı üstünə çevriləcək, onun yerinə sənin özünü Təbrizə aparacağıq.

Mirzə Əli görünür belə hədə-qorxuları çox eşitmişdi. Ona görə də halını pozmadı.

– Yenə deyirəm, xoş gəlmisən. Əvvəla, atlardan düşün, bir tikə Allah verən halal çörəyimizdən yeyin, sonra danışaq, yoxsa, belə iş getməz.

Qasım bəy ucaboy, iriburun, iriqulaq, yekəağız, heyvərənin biriydi və belə adamlar heç kimlə xoş, nəzakətlə danışmağı bacarmırlar. Onun bu dünyada bacardığı bir iş vardı. O da ən güclü dananın irtməyindən yapışıb, hərləyib-hərləyib irtməyi üzmək idi. Əbih Sultan da bilirdi kimə nə iş tapşırır. Yapışdımı, irtməyi üzməmiş əl çəkməyəcəkdi.

Mirzə Əli çox yaşlı, balacaboy, xırdagözlü, irialınlı, nazikçənəli bir adam idi. Hökmdardan daha çox əkinçiyə oxşayırdı. Taxılı səpməyi kəndlərdə əməli saleh, ən ürəyidüz, əlitəmiz və halal adamlara tapşırardılar. O da belə bir kişiydi. Balaca mahalı ağıl, məsləhət və məharətlə idarə eləyirdi.

– Yox, Mirzə Əli, yaxşısı budur İsmayılı xoşluqla ver, götürək gedək. Yəqin sənin də balaların var, onların da İsmayıl kimi didərgin düşməyinə razı olmazsan.

– İgid, əvvəla, mənim bu elin ağsaqqalı, başbiləni, hökmdarı olmağımı nəzərə alıb belə danışma. İkincisi də İsmayıl burada nə gəzir.

– Əlimizdə səhih xəbər var.

– Yəni o səhih xəbəri verən Biyəpişi məndən yaxşı tanıyır? Bu dünyada ara qarışdıran şeytan, böhtançı olmasaydı, nə olardı görəsən. Yox, əgər sənin hökmdarın bizi qovğaya, qalmaqala çəkirsə, bunu ayrı yolnan eləyə bilməzdimi? Yaxşı, adamlarına de, atlardan düşsünlər. Burada bir-birimizə qoşunkeşlik eləmirik, Allaha şükür. Bir tikə Allah verən ruzimizi yeyək, ac qarınla yox, tox qarınla söhbətimizi eləyək. Atlılarını götürüb mahalımızı talasan, bizi o qədər ağrıtmaz, nəinki çörəyimizi yeməyib getsən. Düşün. Sonra sənə o səhih xəbəri verəni salaq qabağımıza, mən də sizə qoşulum, o dediyi yerləri axtaraq. Taparıq, sizin baxtınıza, tapmarıq, daha mən nə deyim.

Qasım bəy yumşaldı, tapşırdı ki, atdan düşsünlər. Mirzə Əli göstəriş verdi, qəssablar işə başladılar. Qoyunları kəsdilər, qənarəyə keçirib soydular, aşbazlar manqalları, qazanları hazırladılar, aşbaz köməkçiləri su qızdırıb düyü seçdilər. Mehtərlər isə uzun axurlarda üç yüz atın qabağına arpa, beşinin qabağına kişmiş, xurma tökdülər.

Mirzə Əli özü bu işlərin hamısı ilə maraqlanırdı. O, həmişə qəssabların qoyun kəsməyinə baxanda ürəyində şükür eləyirdi.

– Allah, səndən çox razıyam. Neçə ildi burada hökmdaramsa, qəssablarım qoyun kəsib, cəlladım olmayıb, onlar bir adamın boynunu vurmayıb. Bəs indi necə olacaq? Bəlkə elə bu atlıların hamısını zəhərləsinlər. Yox, onun Biyəpişində heç üç siçanı öldürməyə də ağu tapılmazdı. Bu atlıların əlindən mahalı necə qurtaracaqdı bəs? Axı İsmayıl buradadı. Lələ bəylə lap dağların başında, dəmirağaclı Kirkan meşəsindəki xırda kənddə gizlənmişdi.

Beş-on evlik kiçik kənddə libaslarını dəyişib yaşayırdılar. Həmin kənd isə onların keşiyini çəkirdi. Lələ İsmayılı biçənəklərə, ova, gəzintiyə aparır, özləri ilə gətirdikləri iki at yükü kitabları oxuyur, ona savad verirdi.

Mirzə Əli müridi olduğu səciviyyə təriqətinin son ümüdini qoruyub saxlamaq üçün öz canını da verərdi. Bundan da başqa Biyəpiş camaatının bir xüsusiyyəti vardı, onlar hamısı qurban gedərdilər, amma qonağı güdaza verməzdilər. Bu qonaqlığı bəhanə eləyib o fikirləşir, tədbir tökürdü. Qasım bəyin ağzını necə xama verəcəyini bilmirdi.

O, qayıdıb Qasım bəylə bərabər oturdu, bardaş qurdu. Bu nəhəngə, heyvərəyə yol axtardı.

– Hörmətli Qasım bəy, bizim bu camaat çox sadədildi. Əvvəllər burada üç quldur camaatın mal-qarasını, var yoxunu soyub aparırmış. Bu hələ mənim babamın vaxtında olub. Babam da belə şeylərə dözən adam deyilmiş. Bir dəstə adam göndərir, quldurlar qaçıb böyürtkanlıqda gizlənir. Böyürtkan təzə yetişibmiş, bizim dildə böyürtkana bəğələ deyirlər. Nəsə quldurlardan birini oxla vururlar. Görürlər ki, bundan çox qara qan axır. Dəstə başçısı məəttəl qalır, deyir:

– Bunun qanı niyə belə qaradır?

O biri kolda gizlənən quldur səsini çıxarıb, bunlara qulluq göstərmək üçün deyir:

– Bə, bəğələ yeyib də.

Onu da vururlar. Vurmaqlarına da peşman olurlar. Dəstə başçısı deyir:

– Bədbəxt dinməsəydi, heç ölən də deyildi. Bu vaxt kolda gizlənən üçüncü quldur da səsini çıxardır:

– Gör heç mən dinirəm!

O da öz səfehliyinin yox, sadəliyinin güdazına gedir. Bir sözlə, bizim camaat belə ürəyi təmizdi. Əgər sən axtardığın adam burada olsaydı, onda çoxdan gəlib mənə xəbər verərdilər. Əgər mən bilməsəm, onu gedib Təbrizə çatdırmazlar. Görünür, bu sözü yayanın özü düz bəndə deyil ki, bu boyda adamlara zəhmət verib bura gətirib.

– Mirzə Əli, mən bura Rüstəm Mirzənin fərmanıynan gəlmişəm. Ya İsmayılı aparmalıyam, ya da...

– Tapmasaq necə?

– Mən bilmirəm. Padşah tapşırıb, mən də tapmalıyam.

Əbih Sultan şərt kəsmişdi ki, kim İsmayılı tapıb gətirsə ona əmirlik rütbəsi və ölkənin harasında istəsə beş kənddən ibarət syürqal veriləcək. Dananın irtməyini dartıb çıxardan Qasım bəy bu fürsəti əldən verərdi?

Ağsaqqal Mirzə Əli bu biədəb misaldan utandı, ağ saqqalının arasından görünən yanaqlarına qızartı çökdü. Hələ onun özündən bir yaş kiçiklər belə onunla aradan pərdəni götürüb belə açıq-saçıq söhbət eləməmişdi. Özünü ələ alıb söhbətin səmtini dəyişdi:

– Qasım bəy, bu üç yüz atlıyla axtardığın İsmayılın neçə yaşı var?

– Gərək ki, səkkiz yaşındadı.

– Səkkiz! – deyə Mirzə Əli gülümsədi. – Ağqoyunlu padşahlığı, maşallah, məqribdən məşriqə uzanır. Onun ordusunun qabağında dayana biləcək ordu yoxdu. İndi bu səkkiz yaşındakı uşaq nədi ki, onu belə əlimyandıyla axtarırsınız? O körpə tifilin qılınc vuran qolu yox, camaatı qaldırıb arxasınca aparası dili və cəsarəti yox.

Qasım bəy onun inamla dediyi bu sözləri fikirləşdi. Ağlına da batdı.Amma onun öz məqsədi vardı. O, əmirlik rütbəsindən keçə bilməzdi İsmayıla görə.

– Sən də düz deyirsən Mirzə Əli bəy. Axtarırlarsa, demək lazımdı. Bəlkə böyüyəndə bir iş qarışdıracaq. Düşməni gərək beləkdə boğasan.

– Bu da ağıllı sözdü, amma cavansan, mən qocanın bir məsləhətini də eşit. Deyirlər ki, uşaq sirdi, mö'cüzədi. Qeybə çəkilib. Onların ocaqlarına inanmayanlar sonradan peşman olub. Kim o nəslə sataşıbsa xeyir aparmayıb. Sultan Yaqub rəhmətlik onlara pislik elədi, anasının verdiyi zəhərdən öldü. Hansı ana oğluna zəhər içirdər? Heç biri. Bəs niyə içirtdi? Onu bu işə məcbur eləyən sirli bir qüvvə var da. İnanmayan kafirdi.

Qasım bəyi bu işdə Allahdan da, peyğəmbərdən də çox maraqlandıran rütbə və syürqal idi. Həm də belə söhbətlərdən də qorxurdu. Bir az da danışsa, onun ürəyində elə Allah xofu yaradardı ki, bu işdən tamam əl çəkərdi. Ona görə özündən çıxdı:

– Mirzə Əli, söbhəti ora-bura atma. İsmayılı tap ver. Aramızda narazılıq olmasın.

Mirzə Əli pərt oldu, həm də gördü ki, onu bu söz-söhbətlə aldada bilməyəcək.

– Yaxşı, Qasım bəy, Qur’ani-şərifə inamın var da?

Qasım bəy diksindi. Elə bil ona biz batırdılar. Səsinii yoğun yerinə saldı.

– Mənə bu sözü evində deməsəydin, onda cavabı qılıncla verərdim. Qura’ni-şərif yolunda balalarımın başını kəsərəm, “uf” da demərəm.

– Çox gözəl, çox pakizə. Qur’ana and içsəm ki, İsmayıl burada yoxdu, onda mənə inanarsan? Qasım bəy onun qarşısındakı rəhilə baxdı. Orada quran yox idi.

– Yaxşı, Qur’ani-şərifi gətir, and iç, inanım.

– Qur’ana and içmək belə yüngül, asan işdi? Oturub çörəyinizi yeyin, mən hamama gedim, yuyunub pak olum, kəfən geyim, bütün Lahican əhlini yığaq məscidə, axundların, üləmaların yanında sənə and içim, razısan?

Qasım bəy gördü ki, bu elə mərasimdi ki, orada kim yalan danışsa arabadan düşən boranı kimi parça-parça olar. Razılaşmalıdır.

– Mən razı.

– Belə olmaz. Sən də, yoldaşların da hamamda çimib pak olmalıdı. Namazımızı da qılmalıyıq.

– Yaxşı.

Onlar razılığa gəldilər. Mirzə Əli qalxıb otaqdan çıxdı. İndidən onun vücudunu titrəmə tutmuşdu. İsmayılı özü gizlədib saxladığı yerdə dünyada ən çox əyildiyi, öpdüyü, kəramətinə inandığı Qur’ani-şərifə necə and içəcəkdi. Bu and İsmayılı da, Biyəpişi də xilas edə bilərdi. Mirzə Əlinin də başqa heç nəyə gümanı gəlmirdi. Arxa otaqların birində oğlunu yanına çağırdı. Hündürboy, qollu-qanadlı böyük oğlu gəlib ayaq üstündə dayandı.

– Oğul, çox böyük bir imtahan qabağındayam. Əgər ondan çıxa bildim, bildim, çıxa bilməsəm mənim yerimdə oturub camaatımızı atan kimi ağıl və təmkinlə idarə eləyərsən. Heç kimi heç kimin ayağına verməzsən. Ədalət sənin birinci məsləhətçin olmalıdı.

Oğlu bu sözləri eşidəndə kövrəldi, qəhərləndi.

– Nə imtahandı, atayi mehriban. Mən ölmüşəm ki, sən özünü çətinliyə salasan?

– Yox, ay oğul. Mən Qasım bəyə Qur’ana and içməliyəm ki, İsmayıl burada yoxdur. Bilirsən ki, mən heç vaxt yalan danışmamışam. İndi o yalanı deməyə məcburam. Həm də Qur’ani kəbri də şahid gətirməliyəm. Bilirəm ki, o and içməkdən sonra çox yaşamayacağam.

– And içmə, atayi mehriban.

– Ayrı çıxış yolum yoxdur.

– Atayi mehriban, peyğəmbərin nökəri həzrəti Məhəmmədi bir çuvala qoyub atdı kürəyinə, gəlib darvazadan çıxanda keşikçilər soruşdu ki, o çuvalda apardığın nədi? Dedi, peyğəmbərdi. Keşikçilər inanmadılar, gülüşüb onu buraxdılar. Şəhərdən uzaqlaşanda, Peyğəmbər soruşdu, ya Salman, mənim yerimi keşikçilərə bildirdin? Dedi ki, ya peyğəmbər, səndən ötrü yalan danışmalıydım? İndi İsmayıl kimi körpə bir uşaqdan ötəri yalan danışmaq fikrindəsən?

– Bəli, oğul. İsmayıl elə bir pöhrədi ki, o böyüyüb qol-budaq atanda kölgəsi bütün ölkəni tutacaq.

Birdən Mirzə Əli çıxış yolu tapdı. Onun sifəti işıqlandı, gözləri nurladı. – Tapdım. Tez atını minib Lələ bəyin yanına.

O, fikrini oğluna başa salandan sonra rahatca hamama yollandı.

Bütün Lahican əhli cümə məscidinə yığışmışdı. Minbərin qabağında burada saxlanan ən qədim Qur’anı gətirib rəhilə qoydular. Mirzə Əli əyninə ağ kəfən geymişdi. Ayaq üstündə dayanıb dodaqları arasında nəsə oxuyur, zikr eləyirdi. Amma gözləri fərş üstündə bardaş quran adamların başı üstündən qapıya zillənmişdi. Oğlunun qayıdıb gəlməyini gözləyirdi. Hələ ki, böyük oğlu qayıdıb gəlməmişdi, ona görə də oxuduğu duanı dəfələrlə təkrar edir, mərasimi uzadırdı.

Qasım bəy bardaş qurub üləmaların arasında oturmuşdu. Lahican hamamından çıxandan sonra rəngi xeyli dəyişmişdi. Sifətindəki kir, pasaq təmizlənmişdi. Mirzə Əlinin gecikməyini oxuduğu dualarla əlaqədar bilib darıxırdı.

Birdən Mirzə Əli cana gəldi. Oğlu qapıda göründü və gözləri ilə işarəsini verdi ki, atasının tapşırığını yerinə yetirib. Mirzə Əlinin canını bayaqdan çulğayan titrətmə keçdi, o namaz

qılırmış kimi Quranın qabağında diz çökdü. Onu götürüb dodaqlarına yaxınlaşdırıb öpdü, sonra sağ əlinin beş barmağını da onun dəri cildinə basıb üzünü Qasım bəyə tutdu:

– Qasım bəy, and olsun bu Qurani kəbirə, Qurani-şərifə ki, Şeyx Heydər oğlu İsmayıl Biyəpiş torpağında yoxdur. Bundan sonra o Quranı bir daha öpüb yerinə qoydu və ayağa qalxdı. Bu vaxt Lələ bəyin dəmirağacdan asdığı beşikdə uzanan İsmayıl dərin və şirii bir yuxuya getmişdi.

## XUDAFƏRİN KÖRPÜSÜ

## II hissƏ

## UZUN HƏSƏN, GÖDƏK ƏHMƏD

Yolların toz-torpağı sifətində, bədənində tərə qarışıb əl qalınlığında palçıq əmələ gətirən çapar yaydan çıxan ox kimi Təbrizə tərəf süzürdü. Elə çapırdı ki, sanki arxadan onu canavar bölüyü qovurdu. Şad xəbər aparana oxşamırdı. İnsanın xilqəti belədir. Şad xəbəri tez çatdırmağa heç vaxt tələsmir, bəd xəbəri tez deməyə ürəyi atlanır. Ona görə də deyirlər: “Bəd xəbərin atı yüyrək olar”.

Təbrizin qala divarına çatanda atın dizləri qatlandı, çənəsi yerə dəydi, dal ayaqları göyə qalxdı, boynu altında qalıb xırçıltı ilə qırıldı. Çapar isə bir az kənarda üzü üstə yerə gəldi. Əlləri, sir-sifəti siyrildi. Ona bir şey olmasa da o qədər yorulmuşdu ki, heç yerindən qalxmaq istəmədi. Elə beləcə yatıb qalardı.

Qala divarından baxan fərraşlar qapını açıb ona tərəf gəldilər, biri onun qolundan tutub qaldırdı.

– Yaralanmamısan?

– Şükür Allaha, salamatam.

– Kimsən?

– Çaparam, məni saraya aparın, tez. Vacib xəbər var. At verin.

Baş fərraş qala divarının qapısının arxasındakı səkidə, tut ağacının kölgəsində oturub xumarlanırdı. Üz-gözünə xeyli milçək qonmuşdu. Fərraş çaparı içəri gətirib ona əhvalatı danışdı. O da gözünü açmadan əlini yellədi. Bilmək olmurdu milçəklərini qovur, ya da deyir ki, yola salın. Fərraş onu ikinci mə’nada başa düşdü. Çaparı başqa fərraşa tapşırıb darvazadan çölə çıxdı, boynu altında qalıb qırılmış çapar atının yəhər-yüyənini açmağa başladı. Lap köhnə yəhər idi. Deyəsən heç çaparın özününkü deyildi, hardasa öz atını çatladıb bunu alıb gəlmişdi. Elə bundan görünürdü ki, çox vacib və ağır xəbər gətirib. Turşumuş at iyini uda-uda tapqırları boşaldıb yəhəri götürdü, quşqunu atın quyruğundan çıxartdı. Atın tərkindəki köhnə xurcunu da götürüb ələk-vələk elədi. Orada qurumuş təndir çörəyinin arasında duzlu şordan başqa heç nə yox idi. Fərraş gördü ki, qəniməti elə gözə dəyən bir şey deyil, gözləri axtardı, atın göydə qalan ayaqlarında təptəzə nallar gördü. Xurcunu, yəhər-yüyəni götürüb içəri girdi. Tutun altında xumarlanan, üz-gözünə milçək qonan fərraşbaşı əli ilə işarə verdi ki, qənimətini gətirib onun yanına qoysun.

Fərraş da ürəyində deyinə-deyinə yəhər-yüyəni gətirib onun yanında yerə qoydu, kəlbətin götürüb nalları sökməyə getdi. “Neçə vaxtdı donluq vermirlər, ev-eşiyə bir xeyrimiz dəymir, dəyər ey, bu tiryəki köpəyoğlu qoysa. Bir dəfə gözünü də açmır, hər şeyi də görür. Qapıdan keçib bazara gedənlərdən az-çox alırıq, onu da bizə çox görür. Milçəklər bunu yeyib tərk eləsəydilər, canımız qurtarardı”.

Çapar artıq saraya çatmışdı. Onu sahib xəbər birbaş Əbih Sultanın yanına apardı. Çapar heç əl-üzünü də yumamışdı. Tər alnından axıb sifətindəki palçıqdan izlər açaraq aşağı gedirdi. Baş əydi. Sahib xəbər Əbih Sultana onun vacib xəbərlə gəldiyini demişdi.

– Hə, de görüm nə xəbərlə gəlmisən?!

Çaparın dodağı çatladı. Həmin çatdan al qırmızı qan axıb tərə, palçığa qarışdı. Bilirdi ki, Əbih Sultanın bəd xəbərdən xoşu gəlmir. Bir dəfə də çaparlardan birini belə bir xəbərin üstündə mal kimi şaqqalamışdı. Sahib xəbər əslində çaparın dediyini özü çatdırmalıydı, amma Əmir əl ümaranın bu xasiyyətinə görə öz yaxasını kənara çəkmək üçün çaparları dartıb saraya gətirirdi. Çünki son vaxtlar məmləkətin hər tərəfindən bəd xəbərlər alınırdı. Heç yaxşı xəbər gəlib çıxmırdı. Hər dəfə çapar gələndə, sahib xəbər elə bilirdi ki, o dünyaya gedib-gəlir.

Çaparın dili tutulmuşdu. Bir kəlmə danışa bilmirdi. Danışmaq istəyir, amma bacarmırdı. Desin, nə desin? Deməsə, aldatsa, onda işi lap pis olardı. Əmir əl ümara üzünü sahib xəbərə tutdu.

– Sənin bu çaparın laldı deyəsən.

– Yox, həzrəti əmir əl ümara, dili var, özünü itirib.

– Danış görək, nə xəbərlə gəlmisən?

Çapar özünü toplayıb danışdı, nə olar, olar:

– Mənə dedilər çatdırım ki, düşmən Təbrizin iki mənzilliyindədir.

– Düşmən? Hansı düşmən?

– Osmanlı qoşunu, əlahəzrət - çapar ikiqat əyildi.

– Çoxdu qoşun? Özün görmüsən?

– Bəli, əlahəzrət, qarışqanın sayı var, qoşunun sayı yoxdu.

– Sərkərdələri kimdi?

– Sərkərdələri, şahzadə Əhməd.

– Sən çaparxananın çaparısan?

Sahib xəbər nə qədər çapara baxıb işarə vermək istədi ki, “bəli” desin, amma çapar “yox” dedi. Mən Urmiyyə tərəfdə Səməndər xanın çaparıyam. O göndərdi - xəbər verim.

Əmir əl ümara Əbih Sultan əllərini əllərinə vurdu.

Silahlı fərraş içəri girdi.

– Sarayın fərraşbaşını buraya çağır.

O, “bəçeşm” deyib çıxdı. Bir azdan fərraşbaşı üç nəfər silahlı fərraşla içəri girdi. Əmir əl ümara Əbih Sultan xara kaftanını xışıldadaraq qolunu qaldırdı, şəhadət barmağını sahib xəbərə uzatdı.

– Zindana. Əllərinə qandal, ayaqlarına kündə vurun. Özüm gəlib haqqına divan çəkəcəyəm. Mənim sahib xəbərimə bax. Düşmən gəlib çıxıb Təbrizə, biz indi xəbər tuturuq. Satqın. Səni osmanlılar satın alıb. O aldığın qızılları əridib boğazına tökəcəyəm.

Sahib xəbər qılınca əl atmaq istədi, onun qollarını burub yerə yıxdılar. Qollarını arxada qatlayıb sarıyanda, o, sifətini yerdə xalçaya sürtə-sürtə birtəhər başını döndərdi və qışqırdı.

– Mən satılmamışam. Mənim heç nədən xəbərim yoxdu. Heç kimdən heç nə almamışam.

– Xəbərin yoxdu? Bəs necə sahib xəbərsən? Fərraş, bazardakı zərgərlərdən birini çağır, bütün dəmdəstgahını götürüb gəlsin.

Sahib xəbəri sürüyə-sürüyə apardılar. Çapar isə dodağının qanını nə qədər sildisə, quruda bilmədi.

Əmir əl ümara Əbih Sultan fikrə getmişdi. Ona Rüstəm Mirzə əmirlər əmiri rütbəsi vermişdi və sarayın bütün açar-kilidi onun əlindəydi, bütün məsələləri də özü həll eləyirdi. İndi qoşun gəlməyi xəbərini ona verməyə tələsmədi.

Osmanlı qoşunları heç vaxt Azərbaycan sərhədlərini keçib Təbrizə ayaq basmamışdı. Bəs birdən-birə bu nə yürüşdü?

Uzun Həsən vaxtilə Avropanın ən qüdrətli dövləti olan Venedikt cümhuriyyəti ilə sazişə girib Fateh Sultan Məhəmmədə meydan oxumağa başlamışdı. O, hətta yeznəsi Murad Mirzəni İstanbula elçi kimi göndərmiş, özünün Teymur xələfi olduğunu, yə’ni gündoğan türk padşahlarının hökmdarı kimi, osmanlıların Əmir Teymur oğlu Şahruxa verdikləri xəracı tələb etmişdi. Avropadakı fəthləri ilə məşğul olan fateh Sultan Məhəmməd daha bir çətinlik qarşısında qalmışdı. Münasibətlərin gərginləşməsi iki, qüdrətli türk dövləti arasında müharibəyə gətirib çıxarmışdı. Hərbi səfərə Uzun Həsən başlamışdı. O, Malatyada türk ordusunu məğlub etmişdi. Lakin ən böyük zəfər elə bununla da qurtarmışdı. O vaxt bütün Avropa dövlətlərini titrədən fateh

Sultan Məhəmmədin çox yaxşı tə'lim görmüş, top və tüfənglə silahlanmış ordusu vardı. Uzun Həsən isə özünün süvarilərinə arxalanırdı və ordusunda bir dənə də olsun odlu silah yox idi. Belə silahla vuruşmağı özünə ar bilirdi. Ərzincan və Tircan arasındakı Otluqbelli düzündəki meydan müharibəsində yüz doxsan minlik osmanlı ordusunu görəndə heyrətə düşüb demişdi. "Qəhbə osmanoğlu gör nə dərya yaradıb?!" və bu kəlam geniş yayılmışdı. Həmin döyüşün sonu da Uzun Həsənin faciə ifadə edən bir kəlamı ilə nəticələnmişdi. Qaramanlılara arxalanıb fatehin üstünə gələn Uzun Həsən məğlub olub ordunun çox hissəsini itirəndən sonra üzünü qaramanlı Piri Əhməd bəyə tutub demişdi: "Bihəya Qaramanoğlu, görüm sənin xanədanın xaraba qalsın, mənim bədnamlığımın səbəbi sənsən. Osmanlılarla mənim nə işim vardı, axı?".

Bu döyüşdən xeyli sonra Uzun Həsənin oğlu Uğurlu Məhəmməd atasının üzünə ağ olub Şirazda qiyam qaldırmışdı. Atası onun üstünə qoşun yeritmiş, hələ qoşunlar üz-üzə gəlməmiş o, xəcalətindən baş götürüb qaçmışdı. Sonra anasını və ölkənin ən hörmətli adamlarını atasına minnətçi salmışdısa da, Uzun Həsən oğlu ilə barışmamış, o da baş götürüb İstanbula gedərək, atasının düşməni fateh Sultan Məhəmmədə sığınmışdı. Fateh onu böyük dəbdəbə ilə qarşılayaraq yeganə qızı Gövhərxan sultanı ona ərə vermiş, onu əvvəl bəylərbəyi, sonra isə "paşa" rütbəsinə qədər yüksəltmişdi.

Atasının taxtına göz dikən Uğurlu Məhəmməd üçün bu rütbələr çox kiçik paylar idi. O, Azərbaycan torpaqlarına qayıdıb vaxtilə sərkərdəlik məharəti (atasının ordusunda sağ cinah sərkərdəsi idi), qılınc gücünə qoruduğu torpağa basqınlar eləyir, talayır, çapır, geri dönürdü.

Atası çox güdəndən sonra belə basqınların birində onu əsir aldı, Təbrizə gətirib hamının gözü qabağında asdırdı.

İstanbulda isə onun fatehin qızından bir oğlu qalmışdı: Gödək Əhməd.

İndi Təbrizin yaxınlığında dayanan qoşunu Gödək Əhməd gətirmişdi. Uzun Həsənin taxtına Gödək Əhməd sahib durmağa gəlmişdi.

Əmir əl ümara başını qaldırdı və qarşısında hələ də dodağından qan axan, palçıq heykələ bənzəyən çaparı gördü:

– Sən hələ burdasan?

– Əmrinizə müntəzirəm, əlahəzrət.

O, xidmətçilərə göstəriş verdi ki, onu hamama aparsınlar, sonra yedirib içirsinlər və onun yanına gətirsinlər. Əlini atıb sandıqdan bir kisə pul çıxarıb ona atdı.

– Götür, halalın olsun. Atın varmı?

– At çatdadı, əlahəzrət.

– Atın da olacaq, yanıma gələrsən, səninlə işim olacaq. Çaparı aparandan sonra xəbər gəldi ki, bəs onun tapşırdığı zərgər bütün dəmdəstgahıyla hazırdı.

– Aparın sahib xəbər salınan zindana, mən də gəlirəm. – O sandıqdakı pul kisələrindən birini götürüb çin xarasından tikilmiş kaftanının cibinə qoydu, qalxıb "Səkkiz behişt" sarayının divanxanasına getdi. Oradan aşağı endi. Zərgərə yer düzəltdirdi, torbanın ağzını açıb qızılın yarısını onun əritmə qabına tökdü, yarısını özünə verdi.

– Ərit, – dedi.

Zərgər kiçik kürəsini işə saldı. Bir azdan qızıl pullar əriyib su kimi bir-birinə qarışdı. Əbih Sultan fərraşlara buyurdu ki, sahib xəbəri gətirsinlər. Qolları bağlı, ayaqları kündəli sahib xəbəri onun qabağında oturtdular.

– Boynunu geri qanırın bu satqının.

Sahib xəbər mal kimi böyürürdü. Söz deməyə imkan vermirdilər desin. O bağırır, gələcək əzabın verəcəyi ağrının qışqırıqları əvvəldən zindana yayılırdı.

Fərraşlar onun başını geri qanırıb, elə tutdular ki, ağzı yuxarıda dayansın, ərinmiş qızılı onun boğazına tökmək asan olsun.

– Ver bura görüm, – o özünü itirmiş zərgərə qışqırdı. Zərgər qızıl ərinmiş çömçəyə oxşar qabın qulpunu ona verdi. O özü götürüb sahib xəbərə yaxınlaşdı. Amma bədbəxt sahib xəbər artıq səsini kəsmişdi, dişlərini kilidləyib dodaqlarını yummuşdu. Fərraşbaşı dedi:

– Ağzını açmır.

– Eybi yoxdu, indi açar.

O, qabı əyib qızılı örtülü dodaqların üstündən tökəndə, o birdən bağırdı və ərinmiş qızılın hamısı onun boğazının yoluna axdı və o, bir neçə an çabalayıb boşaldı.

Əmir əl ümara Əbih Sultan qızıl ərinən qabı zərgərə qaytardı və dedi:

– Qayıt işinə, bazarda bu gördüyünü danış.

– Mənim nə işimə. Sarayın sözünü bazarda niyə danışım axı.

– Yox, mənə qulaq as, danış, de ki, kim öz taxtına xain çıxır, onun boğazına qızıl əridib tökürlər. Bir də onu de ki, qızılı hər adamın boğazına tökmürlər. Qara camaatın boğazına qurğuşun tökdürəcəm, o ucuz başa gələr.

– Baş üstə!

Fərraşlar qandalları açanda Əbih Sultan da heç bir şey olmamış kimi qayıdıb öz otağına getdi. O, çox qətllər eləmiş, çox qanlar tökmüşdü. Amma yadında qalan, yuxusuna girən iki ölüm vardı. Biri Aləmşahbəyimin ölümü idi ki, bu ölüm Əbih Sultanı alçaldıb heçə endirmişdi. Sanki zəhər içib onun cəngindən qurtarmaqla ona ölüm hökmü kəsmişdi, ikinci ölüm isə "A...a...a" deyə canını tapşıran İbrahimin qətliydi. Bu ölüm ona görə tez-tez yuxusuna girib onu diksindirirdi ki, onun da İbrahimə bənzəyən oğlu vardı. Bəzən dəhşətli yuxular görürdü. Görürdü Şeyx Heydər əlində kaman onun oğlunun yatdığı otağa girir və kamanın kirişini oğlunun boğazına söykəyib sıxır, uşağın gözləri çevrilir, rəngi qaralır, sonra kirişi çəkir, oğlu özünə gəlir, kirişi bir də sıxır. Hər kərə onu üç dəfə öldürüb ölümdən qaytarır, durub gedəndə deyir:

– Sən nə qədər sağsansa mən hər gün səni üç dəfə boğacam. Atanın intiqamını bundan başqa heç nə ilə almaq mümkün deyil.

Qalan qətllər isə onun heç yadına da düşmürdü. Həm də indi bir sahib xəbərə görə fikrini dağıtmayacaqdı ki...

Otağına döndü və Hüseyn Əlixaninin dalınca adam göndərdi. İki mənzili Gödək Əhmədin ordusu ən çoxu iki günə gələcəkdi. İki gündə isə ordu toplamaq, onun qabağına çıxmaq heç cür mümkün deyildi. Belə müharibəyə aylarla, illərlə hazırlıq tələb olunurdu. Təbriz çox mühasirəyə dözərdi, on beş, iyirmi gün. Ya Təbrizdən çıxıb qaçmaq, paytaxtı düşmənin ixtiyarına vermək, ya da ayrı bir çıxış yolu tapmaq lazım gəlirdi.

Rüstəm Mirzə taxta çıxandan eyş-işrətlə məşğul idi. Tac Rüstəm Mirzənin başındaydı, hakimiyyət, xəzinə, ordu, açar-kilid Əbih Sultanın. Onun kəsdiyi başın sorğu-sualı yox idi.

Hakimiyyəti əldə möhkəm saxlamaq üçün iti qılınclar lazımdı. Bu qılınclar isə ömrünü at belində keçirən Türkəmən (tərəkəmə) elatlarındaydı. O köçəri tayfaları, onların başçılarını əldə möhkəm saxlamaq lazım gəlirdi. Bunun üçün Rüstəm Mirzə əmirlərə, tayfa başçılarına syürqallar bağışlayırdı. Syürqallar - dağda yaylaq, aranda qışlaq idi. Birini razı salmaq üçün o birisini aradan çıxarmaq lazım gəlirdi. Çünki neçə ildi ki, heç yerdən bir qarış torpaq tutmaq mümkün olmamışdı. Ən yaxın qonşuları osmanlılar idi. Uzun Həsən öləndə vəsiyyət eləmişdi. "Osman oğulları ilə bir daha müharibə eləməyin". Özü o müharibələrin acısını dadmış, başqalarının da özü kimi uduzmağını istəməmişdi, Ona görə də türklərdən torpaq qoparıb syürqal kimi bu əmirlərə paylamaq müşkül iş idi. Artıq tərəkəmə (türkəmən) əmirlərini syürqallar da razı salmırdı. Onlar kütləşən qılınclarını döyüşlərdə cilalamaq, loşlaşan atlarını diribaş eləmək, torpaqlar tutmaq, qənimətlər əldə etmək istəyirdilər.

Şəhər sənətkarlarının əksəriyyəti silah ustaları idi. Onların da bazarı bağlanmışdı. Bu kasadlıqdan can qurtarmaq üçün onlar da tərəkəmə əmirlərinin, bəylərinin səfərə çıxmaqlarına tərəfdar idi. Hamı ölkədə Rüstəm Mirzədən və onun əmirlər əmirindən narazı qalmışdı.

Çünki Rüstəm Mirzə Əbih Sultana hər şey – rütbə, ixtiyar, var-dövlət versə də, xalqa, tərəkəmə bəylərinə heç nə verməmişdi. Sarayın xərcləri də o qədər artmışdı ki, ölkədə yığılan qırx beş, qırx altı vergi belə onu ödəmirdi.

Əbih Sultan yenə "namaza" dayandı.

"Gödək Əhmədin qoşunu çoxdur, onun arxasında isə Bayazid dayanıb. O, Təbrizi çox asanlıqla alacaq, babasının səltənətində hökmdarlıq edəcək. Əvvəl Rüstəm Mirzənin başı vurulacaq, məni də ona qoşacaqlar. Bu çətin vəziyyətdən çıxış yolu tapmaq lazımdır.

Ey ulu tanrı, sən özün şahidsən ki, bu dünyada hər kəs öz canına dua eləyib, hərə hamıdan, lap öz övladlarından da qabaq öz dərdini çəkib. Mən də sənin köməyinlə özümə, nəslimə,

övladlarıma çıxış yolu tapmalıyam. Mən Rüstəm Mirzəyə yox, o mənə borcludur. Onu taxta sənin köməyinlə mən çıxartmışam. Yoxsa hökmranlıq görməmiş e’dam ediləcəkdi. İndi ölsə hökmdar kimi öləcək. İndi onunla bir yerdə dar ağacına getmək istəmirəm. Mən əgər canımı qurtarıramsa, bu işdə məni günahkar görmə”.

Onun ağlına gəldi ki, yəqin ki, “Səkkiz behişt” sarayında tək o bu barədə fikirləşmir. Vəzir, vüzara, əmir-lər və sərkərdələr hamısı, bəlkə də bu saat Gödək Əhmədin tərəfinə keçmək üçün tədbir tökür. Onların arasında Rüstəm Mirzədən savayı onun qohumları da ola bilər. Vaxtilə Uğurlu Məhəmmədin asılmağına ürəkdən “əhsən” deyənlər indi nə qədər göz yaşı axıtdıqları zindanda gizlincə onunla görüşüb ürək-dirək verdikləri Uzun Həsənin hökmünü dəyişmək üçün nə qədər cəhd göstərdikləri barədə “nağıllar, əfsanələr” uydururlar.

Əbih Sultanı soyuq tər basdı. Öz gördüyü işə nə qədər peşman oldu birdən-birə. Axı o heç vaxt belə səhv addım atmazdı. Nə üçün o bədbəxt sahib xəbəri belə qəddarlıqla üstünə satqınlıq adı qoyub boğazına qızılları əridib tökdürdü. Onun ki, rüşvət aldığını sübuta yetirə bilməmişdi. İkincisi də lap o rüşvət alıb, qoşunun irəliləməyini xəbər verməyibsə, bunun üstündə boğazına qızıl əridib töküblərsə, həmin xəbəri də zərgər bazarda yayırsa, bu əhvalat onun öz əleyhinə hazırladığı ən böyük ittihamdı. Gödək Əhməd Təbrizə girən kimi saray əhli bunu əllərində dəstəvuz eləyib, Əbih Sultanı məşhər ayağına çəkəcəklər.

Nə qədər ki, onlar hərəkət eləməyib iş görmək lazımdır.

Bu vaxt sifətində saqqal bitməyən, əyninə monqol xalatı geymiş yaşlı bir kişi içəri girdi və onun qarşısında diz çökərək dedi:

– Ağam mənə muştuluq verəcək.

– Nə muştuluqdu o elə?

– İki muştuluq. – Barmaqlarını açdı, – iki muştuluq. Biri oğluna görə. Şahbikə xatunun oğlu oldu. İkincisi də sənə bir qız gətiriblər, bir qız gətiriblər, on dörd yaşında, öz əlimlə hamamda çimizdirdim, döşləri qızıl gül qönçələri, əllərimi gətirdim belinə, barmaqlarım bir-birinə çatdı, hələ bir az da artıq qaldı. – Sonra o, elə bil ki, əllərini onun belindən aşağı sürüşdürürdü. Qövs kimi tutduğu barmaqları getdikcə biri-birindən aralanırdı. Aralandıqca Əbih Sultanın gözünün qarşısında nazik belli qızın sağrısı canlanırdı. – Ah, ağa bir baldırları, bir baldırları var, Venedikt şüşəsi kimi parıldayır. Elə tarım dayanıb ki, elə bil partlayacaq. Sağ budunun üstündə bir xal var ki, Bağdad gecəsindən qaradır.

Əbih Sultanın bədənində bütün qanı oynağa getdi, kü-rəklərində o qanın şiddətini hiss elədi və xoşhallıqla gərnəşdi.

– Xacə, tez ol get o qızı hazırla, mən gəlirəm. Vaxtım çox azdı.

– Oğluna görə muştuluq vermirsən, ağa?

– Xacə, çərənləmə, mən bilmirəm başımı hara qoyum ki, canım salamat qalsın, sən deyirsən oğlun!

Xacə sırtıq bir gülüşlə hırıldadı.

– Başını qoyarsan o gözəlin qönçə məmələrinin üstünə.

– Get, əgər o nazənin sənəm xoşuma gəlsə, muştuluğun ikiqat olacaq.

Xacə sevinə-sevinə getdi. Bilirdi ki, Əbih Sultanın hərəmxanasında belə gözəl yoxdur və onun muştuluğu bol olacaq.

Xacə geri-geri, nazlı qızın yerişi ilə çıxanda birdən Əbih Sultanın yadına bayaqkı çapar düşdü və tez onu çağırtdırdı.

Çapar gələndə əvvəl onu tanımadı. Sir-sifətinin palçığı getmiş, o gözəlləşib qara saqqallı, qaragözlü, ağsifət bir adam olmuşdu.

– Mənə danışdığını heç kimə deməmisən?

– Yox, ağa.

– Onda get, səni aparsınlar, gözlərinin çimirini al, qaranlıq düşəndə sən mənə lazımsan. Bu barədə bir adama bir söz desən özündən küs. – Baş üstə.

– Yolları yaxşı tanıyırsanmı?

– Hansı?

– Gəldiyin yolları.

– Tanıyıram.

– Get.

Çaparı apardılar. O, qalxdı. Xacənin tə'riflədiyi qız gözlərinin qabağındaydı, ona görə də fürsəti əldən vermək fikri yoxdu. "Bilmək olmaz dünyanın işini, əlinə keçdi ye, qalsa düşmənə qismət olar, at tapdın min, yüyəni özgəsinə yetişər, var-dövlət gördün yığışdır, səndən başqa da həvəskarı çoxdur. Gözəl gördünsə, kefinlə məşğul ol, kamını al, yoxsa əğyarın ağuşuna girər". Bu onun ömrü boyu izlədiyi, yerinə yetirdiyi məramı idi. "Bu həyat bir bazardı, orada ucuz alıb baha satmağı bacardınsa qazandın, bu dünya bir qadındır, onu sevməsən də ürəyini əlində saxlamalısan, o səni sevməli, o sənin dərdindən ölməlidir. Sən onun dalınca süründünsə, həmişə zəlil qalacaqsan". Əbih Sultanın sevimli kəlamlarıydı bu kəlamlar.

O, otağından çıxıb hərəmxanaya tələsdiyi bir vaxtda, özü boyda, özü biçimdə Əmir Hüseyn Əlixanı ilə qarşılaşdı.

Salamlaşdılar. Bir xeyli də bir-birilərinin üzünə baxdılar. Hər ikisi də eyni məqsədi güdürdü. Qarşıdakının fikrini başa düşmək, onu öyrənmək. Gözlər bir-birinə dikilmişdi. Amma ən çox baxan, dəyanətli çıxan Əbih Sultan oldu. Əmir Hüseyn Əlixanı gözlərini çəkəndən sonra Əbih Sultan soruşdu:

– Nədi, sözlü adama oxşayırsan?

– Sahib xəbərin boğazına ərinmiş qızıl tökülməyini eşitdim, onun səbəbini öyrənməyə gəldim.

– Səbəbini bilmirsənmi?

– Bilirəm. Dedim görüm əmirlər əmri daha nə tədbir görür?

– Səltənətin sərkərdəsini axtarırdım. Düşmən qabağına çıxmağa qoşunu hazırdımı?

– Niyə?

– Qoşun saxlamağa xəzinə lazımdı. İki günə on min qoşun toplaya bilərəm. Ondan artığına gücüm çatmaz.

– Yaxşı, get tədbirlərini tök, məsləhətləşək.

Bu boş söhbət onların hər ikisinin də bir-birilərindən canını qurtardı. Nə Əbih Sultan qoşun yığmaq həvəsindəydi, nə də Əmir Hüseyn Əlixanı. Əbih Sultan hərəmxanaya gedirdi. Əmir Əlixanı isə var-dövlətini yerləşdirmək, bundan başqa da rustaqlarda qoşun yığmaq adı ilə xəzinəni boşaldıb aparmaq fikrindəydi.

Hərəmxananın haylı-küylü, xanım gülüşü, qeybəti, söyüşü və nifrini ilə dolu xanələrindən əlavə elə otağı da vardı ki, oradan heç yerə səs çıxmazdı. Əbih Sultan da həmin otağa girdi. Onun gəlişindən xəbər tutan hərəmlər də hərəsi bir tərəfə dağıldı. Hər biri öz otağına girib onun yolunu gözləyə-gözləyə özünə əlavə bəzək-düzək verməyə başladı. Amma bu saat onun yadına o xatunların heç biri düşmürdü. Heç təzə dünyaya gələn oğlunu da yadına salmadı. Çünki buradakı xatunların çoxusu hamiləydi və qarınları burunlarında olanlar da vardı. Uşaqlar doğulurdu, böyüyürdü, ölürdü. Onların hamısını sevməyə, oxşamağa, onlarla vaxt keçirməyə də imkan və həvəs yox idi.

Xacə hərəmxanaya təzəcə gətirdikləri xumargözlü, xurmayısaçlı gözəli hovuzda təzədən çimizdirir, gülab-layırdı. Qız əvvəl ondan utanmışdı. Sonra yengələr onu başa salmışdılar ki, xacə kişi deyil, onların hər biri kimidi, utanmasın, çünki həmin işin sahibi xacədir.

Otaqda yataq hazırlamışdılar. Əbih Sultan soyundu. Xacə də onun gəldiyindən xəbər tutmuşdu. İsti sudan çıxarıb gülabladığı, saçlarını ətirlədiyi qızı ipək örpəyə bürüyüb qolları üstündə buğlana-buğlana ağasının hüzuruna gətirdi. Bəli, bu ağ, təravətli, gözəl bədəndən buxar qalxırdı, gözəllik saçılırdı, qızılgül ətrinin iyi yayılırdı.

– Buyur, mənim ağam.

Əbih Sultan qızı ondan alıb öz qolları üstünə götürdü: "Allah, necə gözəl məxluq yaratmısan, sənin qüdrətinə inanmayan kor olsun". Qollarını yuxarı qaldırdı, ürkək, ürkək baxan iri xumar gözlərindən öpdü. Xacə geri gedib qapıda dayandı. Qız səsi ilə dedi:

– Ağa, lazım olsam, məni çağırın.

– Xacə, getmə. Yaxına gəl və gör pələng öz ovunu necə parçalayır. Ey bədbəxt. Dayan, gör kişilik dünyada necə böyük ne'mətdir!

Həmişə üzündə gülüş donub qalan xacə bu dəfə də eyni təbəssümlə baxdı və gördü ki, əlləri üstündə gətirdiyi gül ləçəkləri kimi təravətli gözəlin başına nə oyun gəlir və o necə solur. Sifəti dəyişdi. Özünün bədbəxtliyi tam şəkildə gözləri önünə gəldi və hər şeyə, hamıya nifrət eləməyə başladı.

Əmir Əlixanını çadıra gətirdilər. O, tə'zim etmək üçün nə qədər əyildisə, yenə də Gödək Əhməddən hündürdə qaldı. Böyük bir qoşunun başında gələn, Uzun Həsən və fateh Sultan Məhəmməd kimi babası olan Gödək Əhməd boydan çox mağmun idi. Bər-bəzəkli, daş-qaşlı, libas geyib, belinə qara dəstəyi üstündə almaslar parıldayan xəncər taxmış şahzadə sifətdən yaşlı görünsə də, o yeddi-səkkiz yaşlı uşaq boyda idi.Onun şəvə kimi qara saqqalı, balaca qolları, lap xırda barmaqları vardı. Gödək Əhməd bu boy-buxunla çox təşəxxüslü dayanmışdı.

Əmir Əlixanı Əbih Sultandan ayrılandan sonra qaran-lığın düşməsini gözləmişdi. Çünki onun ordu toplamaq bəhanəsiylə əmir əl ümaradan xəzinədə qalan var-dövləti qoparmaq niyyəti baş tutmadığından o qaranlığın qovuş-masını görüb yaxın adamları ilə bərabər atını Gödək Əh-mədin düşərgəsinə sürmüşdü. Əmir Hüseyn Əlixanı Uğurlu Məhəmmədin Təbrizdəki qızı ilə evlənmişdi və qohumluq əlaqəsinə gələndə o təzə şahzadənin damadı-kürəkəni, Şahzadə isə onun qaynı düşürdü. Amma ilk görüşdən sonra o bir az sarsıldı. Çünki Gödək Əhməd Uzun Həsənin heç bir ayağı boyda deyildi. Bəs onun Təbriz sarayındakı taxtına, o taxta ki, ondan sonra gələn üç hökmdarın üçü də oturmuşdu, o necə əyləşəcəkdi. Ya gərək onun ayağı altına nəsə qoyub hündürə qaldıraydılar, ya da taxtın ayaqların kəsəydilər. Lap o taxtda otursa belə körpə uşaq kimi ayaqları sallanacaqdı və saraydakıların hamısını gülmək tutacaqdı.

Gödək Əhmədin təkcə başı böyük idi. Əmir Əlixanıya elə gəldi ki, başına qoyduğu çalma-tac belə göstərir.

– Əlahəzrət, sənin bu gəlişin hamımızın ürəyindəndi. Atan Uğurlu Məhəmmədin qohumları Allahdan çox razı qalıb. Çox şükür bu günə.

– Sen nesin?

– Mən atan Uğurlu Məhəmmədin qızının, bacının əri, Ağqoyunlu qoşununun sərkərdəsi Əmir Hüseyn Əlixanı! Axı biz qohumuq. Sənin gəlməyin bizim üçün çox xoşdu. Rüstəm Mirzədən hökmdar, sultan olmaz.

– Rüstəm Mirzədən sultan bulmaz. Nasıl onu benim hüzuruma neql etmedin.

Əmir Əlixanı, bu "nəql etmədin" sözünü başa düşmədi və ona elə gəldi ki, Rüstəm Mirzənin vəziyyətini nə üçün danışmayıb, ona nağıl eləməyib.

– Rüstəm Mirzə, əlahəzrət, Təbrizdə yoxdu. Uçan yaylasındadır. Sənin gəlməyindən də xəbər tutmayıb.

Bu vaxt pişxidmət çadıra girib xəbər verdi ki, bəs Təbriz taxtının əmirlər əmiri Əbih Sultan Gödək Əhmədin ayağının torpağını öpməyə gəlib".

"Ay tülkü köpəyoğlu, hamıya özünü elə göstərir ki, guya bu Rüstəm Mirzənin ən yaxın adamıdı, heç kimə satılmaz. Məndən də qabaq özünü yetirib, torpaq öpməyə gəlib.

Pişxidmət çıxan kimi Əmir Əlixanı Gödək Əhmədə üz çevirdi:

– Əlahəzrət əmir və ümara Əbih Sultan təhlükəli və qorxulu adamdı. Onun xoş dilinə aldanmayın. O neçə hökmdarın qılığına girib, hamısını da yıxıb. Öz canının hayına qalıb, səni də öz tərəfinə çəkmək istəyir.

Onun danışığı Gödək Əhmədin xoşuna gəlmədi. Bərkdən ona qışqırdı.

– Yahu, bənə ağılmı öyrədirsən, qafasız pəzəvəng.

Əmir Əlixanı başa düşdü ki, Gödək Əhməd atasının qohumlarını heç adam hesab eləmir, onun əsl babası Uzun Həsən yox, fateh Məhəmməddir. Başqa cür ola da bilməzdi. Fateh Məhəmmədin qızı İstanbul sarayındakı oğlunu yalnız öz əqidəsinin mücəssəməsi kimi böyütmüş, onda ana babasına məhəbbət, ata babasına nifrət oyatmışdı. Doğma atasını dar ağacından asan babası Uzun Həsən onun üçün qohum yox, düşmən idi. Bəlkə də nifrət onu ana bətnində belə kiçik eləmişdi ki, heç boy-buxunda da ata babasına oxşamasın. İndi Əmir Əlixanının ağlına gəldi ki, o buraya dost kimi yox, düşmən kimi gəlib. Bəlkə də gəlib ki, intiqam alsın, atasının heyfini çıxsın. Bu fikirdən sonra o süstləşdi.

Gödək Əhməd göstəriş verdi ki, onu aparsınlar və xüsusi göstəriş olana qədər saxlasınlar.

Çadıra çatanda üzündən rübəndini götürən adam əmir əl ümara Əbih Sultan idi. O, gecənin qaranlığına bürünüb gəlmişdi ki, heç kimin xəbəri olmasın. Çadıra girən kimi çil-çıraqlarda yanan şamların işığında gözləri axtarıb Gödək Əhmədi tapdı. Görən kimi gözü onu aldı, ona elə gəldi ki, bu uşağı barmağına sap kimi sağa da dolayar, sola da. Amma hələlik onun e'timadını qazanmaq lazımdır. Çadırın ağzında dizləri üstə düşdü. Sürünə-sürünə getdi. Gödək Əhməd geri çəkildi və Əbih Sultan indicə onun dayandığı yerdə xalçanın xovunu, gündüz xacənin gətirdiyi qızın yanaqları və dodaqları kimi öpməyə başladı.

– Ey ulu fateh Sultan Məhəmmədin üstümüzə düşən əql kölgəsi. Ey Həsən padşahın viran qalmış yurdunun sahibi. Böyük hökmdar. Allahın gərdişinə görə gün məşriqdən doğur. Mənim təzə günəşim məğribdən parlayıb. Ağqoyunlu taxtına sənin kimi həşəmətli, müdrik, kamal dəryası lazım idi. Ölkə dağılıb əldən gedirdi. Axır ki, əsl sahib gəlib çıxdı.

O boyda bədən bu balaca məxluqun qarşısında heçə çevrilmiş, kiçilib siçan boyda olmuşdu.

Gödək Əhməd onu dinlədi, dinmədi və kiçik əllərini bir-birinə vurdu. Çap! Pişxidmətlər hazır oldular.

– Cəllad! – deyə Gödək Əhməd qışqırdı.

Əbih Sultan bu sözləri eşidəndə onun dizləri və əlləri yerdə idi. Birdən onun çiynini, başını göydə saxlayan qolları boşaldı. Onun sifəti xalçanın üstünə gəldi. Tez-tez nəfəs aldı, boğazına toz doldu və onu öskürək tutdu. Yumruğunu dodağına söykədi.

Bir anda cəllad hazır oldu. Bu cəllad qırmızı libas geyinmiş, qara tüklü qolları açıq, nəhəng, iri bir məxluq idi. Belində qılınc yox idi. Silahı kordadan ibarətdi ki, qaldırıb çiyninə qoymuşdu.

Gödək Əhməd ayağını gətirib Əbih Sultanın papağı düşmüş daz başına basdı. Cəllada işarə verdi ki, kordanı onun damarları səyriyən boynuna söykəsin. Kordanın ağzı onun boynunun dərisində, fəqərə sümüyü üstündə hiss olunandan sonra Gödək Əhməd dedi:

– Bana Rüstəm Mirzənin kafasını gətiriyorsanmı? Boş klemeler çerenlemeyin heç bir faydası yok. Bana Rüstəm Mirzənin kafası gerekdir.

– Mən elə bundan ötəri gəlmişəm, əlahəzrət.

Gödək Əhməd cəllada işarə verdi, əvvəl kordanın ağır və soyuq ağzı onun boynundan qalxdı. Gələcək hökmdarın qara xəncəri qında şaqqıldadı, addım səsləri uzaqlaşdı, çadırın qapısı xışıldadı. Demək cəllad çıxıb getdi. Əbih Sultanın üstündən yük götürüldü, onu basan soyuq ölüm təri də deyəsən qurudu, alnında, gicgahlarında isti tər damlaları əmələ gəldi və ondan elə tər açıldı ki, qaşlarından axıb burnunun ucundan xalçanın üstünə damcılamağa başladı. Ölümün nə olduğunu indi başa düşdü və öldürdüklərinin bu hissləri keçirdiyi bir an fikrindən ötdü. Heyfsilənmədi. Yox, əksinə qürur hissi keçirdi. Fikirləşdi: "Mən bir dəfə ölüm hissi keçirmişəm, amma gör onun əvəzində neçələrini belə vəziyyətə salmışam. Demək, hələ ölməmiş intiqamımı yüz qat almışam".

– Kalx, kafasız.

Bu söz ona ən xoş, mahəbbətlə söylənən söz tə'siri bağışladı. Qalxdı. Diz üstə dayanıb Allaha əllərini uzadırmış kimi dedi:

– Əlahəzrət, tanrı sənə istədiyin qədər ömür versin. Biz daha bezmişik. Sənin kimi zabitəli hökmdardan ötəri darıxmışıq. Ömrümün axırına qədər qarşında beləcə qul olacağam. Sənin mübarək qədəmlərinin Təbriz civarına toxunmağından Rüstəm Mirzəni bixəbər qoymaq üçün çox çalışmışam. Amma ona xəbər çatdırsalar da, mən onu sənə təslim eləyərəm.

– Özünü yox, yavrum, kafasını.

Əbih Sultan əlini gözləri üstə qoydu.

– Başım, bir də bu gözlərim üstə.

İsmayıl mamırlı bir qayanın üstündə oturub baxırdı. Aşağıda çay zümzümə ilə axırdı. Yuxarıdakı dağların başını isə duman örtmüşdü. Bu çay o zirvələrdən başlayırdı. Dərin dərələrdən keçir, burada aydınlığa çıxır, bir az o tərəfdə yenə də dumana qarışırdı. Qəribədir, onun başı üstündə aydınlıq idi. Ətrafına boylandı, hər tərəf eyni məsafədə görünürdü. İsmayıl dəyirmi aydınlığın içərisində idi. Onun keçmişinə və taleyinə yaman oxşayırdı bu aydınlıq.

Çayın zümzüməsi yadına bədbəxt Səkinənin çaldığı sazı salırdı. O da bu çay səsi kimi duru və aydın idi. Düzdü, saz eyni havanı yox, onlarla havanı çalırdı. Amma çayın çaldığı bir hava olsa da, günləri burada keçən İsmayılı yormurdu. Bir də onun yadında Səkinənin söylədiyi şe'r qalmışdı:

Getdin gördün quzu,
Neyləyirsən istiot, duzu
Ye, qalsın quru buynuzu.
Getdin gördün qoyun
Neynəyirsən oyun-moyun,
Ye, qalsın quruca boyun.

"Bu canavar şe'ridir. Özü deyir ki, səni aldadırlarsa, bir daha elə sözlərə inanma. Yırtıcı canavarı quzu da aldadıb, qoyun da. Deməк vəhşilərin özündə də zəiflərə, zəriflərə inanmaq olub. Belə olmasa, nə quzu yaşayardı, nə də qurd. Bu nağılı, bu şe'ri düşünən, qoşan da hamıya inanıb. İnanıb ki, onun da dediklərinə inanacaqlar, bu sözlərdən xoşları gələcək".

Birdən İsmayılın da ağlına gəldi ki, elə buna oxşar şe'r yazsın. Elə şe'r ki, ona da inansınlar, bu şe'r kimi yadlarında saxlasınlar.

Biyəpişə düşəndən Lələ, Mirzə Əli ona kamil savad verməyə çalışır və onun bu sahədəki bacarığına heyran qalırdılar. Əvvəlcə ona Qur'anı oxutmaq istədilər. O isə Qur'andan sonra, Qur'anın izahı üçün yazılmış qalaq-qalaq kitablar oxudu. Ona sufiliyi başa saldılar, o, hürufiliyi də öyrəndi. Həlac Mənsurun, Nəsiminin üsyankar şe'rlərini də tapdırıb oxudu. İsmayıla səfəvilərin tarixini danışdılar, o Adəmdən bəri yaranan tarixlərə baş vurdu. Vaxtilə Sə'di "Gülüstan"ı onun babasına hədiyyə kimi bağışlayanda götürməmişdi. İndi o, "Gülüstan"ı və "Bustan"ı oxudu. Nizaminin "Xəmsə"sinə heyran qaldı. Firdovsinin "Şahnamə"sini su kimi içdi.

Bir gün Lələ ilə onun belə bir söhbəti oldu:

– Bir qarın çörəyə möhtac olan şair xəzinələr üstündə oturan hökmdarlardan çox yaşayır. Bunun sirri nədədir?

Lələ görürdü ki, onun elmə, şe'rə, sənətə həvəsi o qədər böyükdür ki, səfəvilərin hakimiyyət, səltənət qurmaq əqidəsinə xor baxa bilər, ona görə də həmişə onu bu fikirlərdən uzaqlaşdırmağa çalışırdı.

– Hökmdarlar tarixin özünü yaradır, şairlər isə onların gördüyü işləri qələmə alır. Görürsən bir var hökmdar, bir də onun mirzələri. Onun dilindən çıxan sözləri yazanlar. Onların hansı daha şərafətlidir?

– Yox, Lələ, – deyə o razılaşmayıb bu fikrini izah eləməyə başlamışdı. – Nizami mirzə deyil. O hökmdarlardan çox vaxt yüksəkdə dayanır. Onlara ağıl verir. Soltan Səncər yadındadır? Bəs bu hökmdarlar nə üçün belə daşürəkli olurlar? Özləri kef içində yaşayır, ətrafdakı adamların dərdini görmürlər. Demək yenə də şair o hökmdardan insaflıdır. Dərdliyə kömək eləmək üçün heç nəyə gümanı gəlmir, heç olmasa yazdıqlarında bunu göstərir.

Lələ təslim olurdu. Bircə söz deyirdi:

– Sən hökmdar olanda hamının dərdinə yanarsan, şair kimi.

İsmayıl boyda böyümüşdü. Artıq on üç yaşına qədəm qoysa da nisbətən yaşlı görünürdü. Görənləri onun gözləri heyrətdə qoyurdu. Bu gözlərdəki ağıl, itilik, parlaqlıq. Hər baxan elə bil onun beləcə duru və saf uşaq ürəyini görürdü.

Mirzə Əli həmişə Lələyə deyirdi:

– İsmayılın gözlərindən muğayat olun. O gözlər mürşüdümüzün böyük gələcəyindəən xəbər verir.

Gözlər də ağıllı, idraklı adamlara, varislərə, vəliəhdlərə bir bəla olmuşdu. Oğul atanın, qardaş qardaşın gözlərinə odda qızardılmış mil çəkirdi, dünya işığına həsrət qoyurdu. Göz yoxdursa, artıq hər şey bitirdi. Qarşıdakının səsindən artıq onun qəlbini oxuya bilmirdi. Həyatın bu gözəl ne'mətindən məhrum olan ən insanpərvər hökmdar isə paxıllıq hissinə qapılıb kimə acığı tuturdusa, onun gözlərinə mil çəkdirirdi.

Lələ nəinki İsmayılın gözlərini, onun özünü öz bəbəklərindən də möhkəm, e'tibarla qoruyub saxlayırdı. Cibo Səfər onların ev işlərini görür, odun yarır, su gətirir, Salmanla başqa beş mürid silahlanıb beş-on evlik kəndin ətrafında keşik çəkir, İsmayılı bir an olsun, gözdən qoymurdular. Mirzə Əli də vaxt tapan kimi atına minib onlarla görüşməyə gəlirdi. Günlərlə o Lələ ilə, İsmayılla oturub söhbət eləyirdi.

İsmayılın iti gözləri indi təbiətin gözəlliyinə dikilmişdi. Bu gözəllik onu hər dərddən, kədərdən ayırmışdı. İndi isə onun ürəyi yaman dolmuşdu. Ya ağlayıb ürəyini boşaltmalı, ya da bu dolmuş ürəyi nə iləsə sərinlətməliydi. Birdən-birə onun dilində misralar yaranmağa başladı.

Gövhərin getməyən yerdə
Satma qardaş, kərəm eylə.
Ləl daşını çay daşına
Qatma qardaş, kərəm eylə

Bir neçə dəfə çox asanlıqla yaranmış bu bəndi oxudu, təkrar elədi ki, yadından çıxmasın. Çünki bu onun ilk şe'riydi. Təbiətə, dünyaya, insanlara münasibətiydi. O, hətta çay daşını lə'lə qarışdıranları kərəm eləməyə çağırırdı:

Gördün bir yerdə aşina,
Hər nə dersən, öz başına.
Yol daşını yol quşuna,
Atma qardaş, kərəm eylə.

Görəsən bu misraları fikirləşəndə kimi nəzərində tutmuşdu, kimə ithaf eləyirdi. Yox, heç onun özünə də mə'lum deyildi. Elə belə, adamlara. Biri-birini asan, satan, zəhərləyən, ölkələrin yolunu kəsən, minlərlə adamın əllərinə silah verib biri-birinin üstünə salışdıran, insan qanını su kimi axıdanlaramı deyirdi. Yox, hələlik bir o idi, bir də təbiət. Təbiət ona təmiz hisslər aşılamışdı, o da həmin hissləri şe'r şəklində geri qaytarırdı.

Lələ qayalıqlardan xeyli kəklikotu yığmışdı. Ətri adamı məst edən kəklikotu kolları arasında çoxlu kəklik yuvaları və xırda-xırda, rəngli, daşlara oxşayan çil kəklik yumurtaları vardı. Qayalıqlarda isə kəkliklər oxuyurdu: "Qaqqba, qaqqba..."

O hansı kola yaxınlaşırdısa, elə dayanırdı ki, oradan İsmayılı görsün. Bu dəfə isə onu çox qəribə bir halda, sevinən, şad gördü. Son vaxtlara qədər onu sevinib-gülən görməmişdi. Torbanı qayanın üstündə qoyub, ayağını daşların çatına ilişdirərək yuxarı qalxdı və İsmayılın yanında oturdu. Ovuclarında ilişib qalan daşxınasını çırpıb tökdü.

– Şükür, kefini kök, damağını çağ görürəm.

– Lələ, yaxşı ki, gəldin. Mənə həmişə deyirsən ki, hökmdarlığa gedən yolu tut. İndi mən bir sənətin açarını ələ keçirməyə başlamışam.

– O hansı ölkədi, mürşüdüm? – Lələ təəccüblə soruşdu.

– Şe'r ölkəsinin, Lələ. Qulaq as, gör necə şe'rdi.

Gördün bir yerdə aşina,
Hər nə dersən, öz başına.
Yol daşını yol quşuna,
Atma qardaş, Kərəm eylə.

– Çox lətif şe'rdi, mürşüdüm. Şairlik iste'dadına söz ola bilməz. Bu Allah vergisidi. Hər şəxsə qismət olan xoşbəxtlik deyil. – Lələ artıq görürdü ki, İsmayılı bu yoldan döndərmək olmaz. Burada da özünün düz saldığı yola istiqamətləndirməyə çalışdı. Onun qayğılarından biri də artmışdı. – Amma bizim şairlərimizin çoxusu ərəb və fars dillərində yazıb. Türk dilində də şe'r...

– Bəs Nəsimi? – deyə İsmayıl Lələnin sözlərinə üsyanla cavab verdi. – Babam Şeyx Səfiyyəddinin qoyduğu yol-ərkan bu türk tayfalarını birləşdirib bir eləmək üçün deyilmi? Nə

üçün onların dilində şe’r yazılmasın? Tale üzümüzə gülsə əcəl imkan versə, “əcəl imkan versə” kəlməsi bu körpə uşağın dilindən çıxırdı. Bəli, on üç yaşında yeniyetmə də, bu gündən sabaha çıxmağa ümid eləmir.

Lələ dedi:

– Mürşüdüm, səltənətə gedən yol cinlər, şəyatinlər, divlərlə doludur. Onların hamısı qılıncdan keçirilməsə, heç yerə gedib çıxmaq olmaz. İndi mən bilmək istəyirəm ki, şe’rlə qılınc bir ürəyə sığışacaqmı? Yol daşını yol quşuna atmaq istəməyən şəxs o yolu necə təmizləyə bilər?

İsmayıl bu sözün dərinliyinə getdi. Onun üçün ən müqəddəs vəzifə doğrudan da atasının, babalarının yolunu davam etdirmək, onların məqsədlərini həyata keçirmək idi. Necə ki, bu yolda Sultanəli getdi, İbrahim getdi. Anası, dünyalardan çox sevdiyi Aləmşahbəyim getdi. Əgər o, öz yaxasını kənara çəksə, bu yoldan qorxsa, bütün müridlərin də gözündən düşər. Nəsildə ən qorxaq adama çevrilər. Yox, o bu yoldan çəkinməyəcək və nəslin istəklərini həyata keçirəcək. Bu yolda bütün yaxın qohum-qardaşları kimi ölmək də onun üçün çox xoşdur. Bu fikir, əqidə onun qəlbində elə möhkəm kök salmışdı ki, onu oradan heç nə çıxara bilməzdi. Bütün bunlarla bərabər ona şairlik də vergi kimi verilibsə nə üçün tanrının bu hədiyyəsini də məhəbbətlə qəbul etməsin. Düzdür, Səfiyyəddin nəslində şair yetişməmişdi və onun özü böyük Sədi ilə dostluq eləmək belə istəməmişdi. Dini işləri dünyəvi işlərdən yüksək tutmuşdu. O ki qaldı qılıncla şe’rin birliyinə... “Şahnamə”də yüzlərlə başlar kəsilmirmi? Rüstəmi Zal nə qədər qanlar axıdır. Şair isə onu əfv eləyir. Çünki Rüstəm öz doğma torpağının azadlığı üçün vuruşurdu.

– Lələ, atamın qatili Fərrux Yasarla, anamın, qardaşlarımın qatili Əbih Sultanla qılıncdan başqa daha nə ilə danışmaq olar?!

– Düzdür. Amma Fərrux Yasar tək deyil, onun ordusu var. Bu ordunun döyüşçüləri atanın qətlində iştirak etməyib. Ona görə də qarşında günahları yoxdur. Bəs onlarla necə?

– Deməк düşmənimin tərəfindədilər.

– Doğrudur. Amma yenə deyirəm ki, şe’r ürək yumşaldır. Amma yumşaq ürəklə bu qədər böyük, möhkəm divarları yıxa bilmərik.

– Nizami yaxşı deyir:

Əlində yumşalsa dəmir, bunu bil.
Hörmətlə yumşalar, nifrətlə deyil.

Gödək Əhmədin çadırından çıxandan sonra Əbih Sultan atının başını buraxmışdı. Fikirləri də atı kimi baş götürüb gedirdi. Bu balacaboy Əhməddə nə boyda hikkə varmış. Belə hikkənin sahibi padşah da olar, o yana da keçər. Deyir balacaboy adamın könlündən gündə üç dəfə Allahlıq iddiası keçir. O nəinki şah, sultan, belə getsə Teymurləng kimi dünyanın yarısına sahib çıxacaq. Mənim ki başıma o oyunu açdı, gör indi özgələrini nə hala salır. Beləsinin itaətindən çıxmaq da çox müşgül işdi. Hamını qoz qabığında saxlayacaq. İstədiyimizi, ürəyimizdən keçəni eləyə bilməyəcəyik. Eləyərik – deyə o özünə ürək-dirək verdi və fikirləşdi ki, ona inansın, e’tibar eləsin. Həmin e’tibarın da bir nişanəsi vardı. Həmin nişanə də Rüstəm Mirzənin o gözəl sifətli, iri gözlü, qırmızı peysərli, amma ağılsız başıdır ki, heç Əbih Sultan üçün bu an bir qara qəpik qədər də qiyməti yoxdu. Vaxtilə Rüstəm Mirzə onun dəniz üstündə dayanması üçün saman çöpü vəzifəsini görmüşdü, sonra onu saman çöpündən sala, saldan gəmiyə çevirmişdi. Külək hardan əsirdisə həmin gəminin yelkənlərini həmin istiqamətə döndərirdi. Həmin gəmini özü sürürdü. Hazırda gəmi qayalığa yaxınlaşıb daşlara toxunacaq və ondan heç nə qalmayacaq. O isə yenə də yaşamalı, saman çöpü tapmalı, onu qayığa, sala, gəmiyə çevirməlidir. Belə tezlikdə o can versəydi, nə Əbih Sultan olardı, nə də Əmir İbrahim. Bəli, onun üç adı vardı. Üç adla min cildə girməyi bacardığına görə heç nədən, heç kimdən, heç bir vəziyyətdən qorxmurdu. İndi imtahanını verib ən çətin vəziyyətdən çıxmışdı. Gələcəyi üçün verəcəyi başlığın dalınca gedirdi. Rüstəm Mirzənin hələlik bədən üstündə gəzən, baxan, danışan, gülən, öz səltənəti üçün qayğı çəkən, ən yaxın adamlarından e’tibar, kömək, sədaqət gözləyən başının dalınca.

O, ulduzlara baxdı. Qaranlıq gecə idi, ay doğmamışdı. Ulduzlar isə elə parlaq, elə aydın, yerə elə yaxın görünürdü ki, o, özünə bir ulduz seçmişdi. Ona münəccimlər Mərrix1 ulduzu

www.kitabxana.net

deyirdilər. Bu ulduz soyuq deyildi, onda qırmızı rəng vardı və bütün münəccimlər ondan qorxurdular. Hökmdarlara hərbi səfər üçün gün seçəndə çalışırdılar elə gün seçsinlər ki, həmin gün Mərrix ulduzu göy qübbəsində görünməsin. Görünəndə də elə zəif, elə uzaq görünsün ki, yerdəki hadisələrə, buradakı adamların, müharibələrin, xoşbəxtlik və səadətin işinə qarışmağa gücü çatmasın. Amma Əbih Sultanın ən çox xoşu gəldiyi ulduz, səyyarə o idi və onu özünə ulduz seçmişdi. Axı hamı elə bilirdi ki, göydə onun bir ulduzu var. O ulduz sönəndə həmin adam da yox olur, yaxud insan öləndə onun ulduzu da sönür. Əbih Sultan bilirdi ki, nə qədər insan yaşayıbsa, Mərrix ulduzu da işıq saçıb. O özü də bu fikirdəydi ki, Mərrix ulduzu elə onun öz ulduzudur. Onun kimi, həmin ulduzda bütün vəziyyətlərdən baş çıxarır, heç vaxt sönmür, süzüb göy üzündə odlu ox kimi iz salmır. O pislik, bədniyyətlik, müharibə, qan-qada gətirdiyi üçün ömrü belə uzundur. Yaxşı işlər görsəydi, insanlara xoşbəxtlik, səadət, əmin-amanlıq gətirsəydi ömrü uzun olmazdı, tez sönüb gedərdi. Əbih Sultana görə pisliyin, qan tökməyin, ev yıxmağın, hökmdar taxtını başına çevirmək kimi keyfiyyətləri özündə əks etdirənlərin də ömrü uzun olur.

Yaxşı adamlar kimdi? Heç kəsə pislik eləməyən, ümidsizə ümid verən, hamıya xoşbəxtlik gətirməyə çalışan. Axı bütün bunlar bir adamın gücündən kənardadır. Tutaq ki, belələri özlərini də yaddan çıxardılar. Nə olsun, onların əlindən nə gələcək ki. Başqaları üçün ağlayanın gözü kor olacaq. Belələri aciz olur, qılınıc çalmağa qolları qalxmır. Ona görə də qılınc həmişəlik onların öz başına enir. Belələrinin ulduzu tez sönür, həmişə də işığı az olur.

---

1. Mərrix– Mars – Müharibə, qan timsalı olan planet.

Əbih Sultan ulduzlar arasında özünün parlaq, qırmızı ulduzunu görürdu. O lap yuxarı qalxmışdı və bütün ulduzlardan parlaq və gözəl görünürdü. O, bir an atını saxladı, başını qaldırıb ulduzuna baxdı. Sonra fikirləşdi. Təbrizəmi qayıtmalıdır? Yox. Təbrizdəki işlərini görüb. Birbaşa Rüstəm Mirzənin yanına, Uçan yaylasına getməlidir. Amma tək getməməlidir. Burada onun yolunun üstündə Qasım bəy Pərnakın kəndi, torpağı vardı. Yaxşısı budur onun yanına dönsün. Onu özünə qoşsun.

Bu Həmin Qasım bəy idi ki, dartıb dananın irtməyini çıxarırdı və bunu özünə ən böyük şərəf sanırdı. Əbih Sultanın belə adamlardan xoşu gəlirdi. Ona görə ki, belə səfeh adamları istədiyi yerə ölümə göndərə bilirdi. Bir dəfə onun rütbəsini də artırmaq istəmişdi. Buna görə Biyəpişə – İsmayılın dalınca göndərmişdi, o isə yarıda bilməmişdi, əmirlik rütbəsini da qazanmağı bacarmamışdı. İndi bəlkə onu bu şərəfə çatdırmağa cəhd göstərə və öz əsas məqsədinə çata.

O, atını döndərib Qasım bəy Pərnakın malikanəsi olan kəndə sürdü. Əbih Sultan burada bir neçə dəfə olmuşdu, hamısında da ova gəlmişdi. Ovdan qabaq Qasım bəyin igidliklərinə baxmışdı.

Malikanədə onun gəlişini xəbər verəndə Qasım bəy on iki hərəmindən axşamdan bəri altısının yanında olmuşdu və səhərə qədər hamısının könlünü xoş eləmək niyyətindəydi, O, gecələri yatmır, gündüzlər isə o qədər yatırdı ki, gözlərinin altı tuluqlayırdı. Bir növ gecə onun üçün gündüzə, gündüz isə gecəyə çevrilmişdi. O, Əbih Sultanı öz qapısında görəndə sevindiyindən nə edəcəyini bilmədi. Elə qışqırdı ki, bütün nökər-naiblər ayağa qalxdı.

– Mənim Əbih Sultandan artıq qonağım gəlməyəcək, bu gecə yatdı yoxdu.

Onsuz da o, xidmətçilərinə gecə səhərə qədər yatmağa imkan vermirdi, onlar da Qasım bəylə yatıb, onunla bərabər oyanmağa öyrəşmişdilər.

– Bu gün haradan doğub gecənin belə bir aləmində. Mən özüm dəfələrnən yalvaranda bir dəfə ancaq gəlirdin. İndi özün gəlmisən, bəs sənin yoldaşların hanı? Ay uşaq, əmir əlmömünün...

Qasım bəy heç əmir əl ümara deyə bilmirdi, əmir-əlmömin deyirdi. Hər dəfə də Əbih Sultan onun səhvini düzəldirdi:

– Qasım bəy, əmirəlmömün xəlifəyə deyirlər.

– Nə olsun. Yə’ni sən xəlifədən əskik adamsan! Xəlifə də xütbəsində kimin adını çəkirsə, həmin adama ölüm yoxdur, sən də. Sənin xoşuna gələn adam xoşbəxtliyi, cənnəti gözlərilə görür. Yaxşı bəs doğrudan, yoldaşların hanı?

– Tək gəlmişəm.

– Tək? – Qasım bəyi dəhşət bürüdü. Əvvəla yollar qaçaq quldurla doluydu. Tək adamı onlar soymamış buraxmazdı. Bəlkə da onun atlılarını öldürüblər, özü qaçıb. Ya da Təbrizdə nəsə olub. – Rüstəm Mirzəyə bir şey olmayıb?

– Yox. Amma deyəsən başımızın üstündə ildırımlar çaxır.

Qasım bəy qulağının ucundan tutub dartdı və muşqurdu.

– Allah eləməsin, Allah eləməsin, qulaqlara qurğuşun.

– Sən fil qulağında yatmısan, Qasım bəy. Osmanlı qoşunu qulağının dibindədi, Heç nədən xəbərin yoxdu...

– Xəbərim var. Bizim çobanlar xəbər gətirmişdi ki, düzdə bir ordu dayanıb. Dedim işiniz olmasın, yəqin Əbih

Sultan harasa gedir.

Əbih Sultanı gülmək tutdu.

– Necə yə'ni işiniz olmasın? Sənin çobanların o ordunu batıracaqdı ki?

– Dedim də, yə'ni dillərini dinc qoysunlar.

Əslində, Qasım bəyə ordu dayandığını deyəndə bu sözü işlətmişdi. Ona görə işlətmişdi ki, yaxşı ki, Qasım bəyi belə yerdə yada salmayıblar. Xəta ondan xilas olub.

Əbih Sultan vəziyyəti ona danışdı. Qasım bəy indi təhlükənin nə yerdə olduğunu bildi. Bu boyda, qol qabırğada adam çox qorxaq idi, həmişə döyüşlərdən kənarda dayanmışdı. İndi isə görünür xəta ötüşməyəcəkdi.

– Deyirəm, ay əmirəlmömün, bu qədər adamı qabaq-qabağa gətirib qırdırınca, elə sərkərdələr ikisi çıxsın ortalığa vuruşsunlar, kim zor gələr gələr. Yıxan qalib olsun, yıxılan məğlub. Necə sözdü?

– Yaxşı sözdü. Hazırlaş, gedirik Rüstəm Mirzənin yanına.

– Nə deyirəm ki, gedək. Elə indi?

– Vaxt bizi gözləmir. O üç yüz atlını götür, karımıza gələr.

Aşbazlar yemək hazırlayana qədər nökərlər atlanıb kəndi ayağa qaldırdılar, kişilər silahlanıb Qasım bəyin malikanəsi qabağında hazır dayandılar.

Onlar da evdən çıxıb atlarını minəndə Qasım bəy Əbih Sultana dedi:

– O Gödək Əhmədlə mərcə girərəm, bir dananın irtməyindən o tutsun, birindən mən. Görək kim o irtməyi dartıb çıxaracaq. Onu bu işdə xəcalətli qoymasam, adımı dəyişərəm.

– Gödək Əhməd dana yox, heç buzovun da quyruğundan tutub onu yıxa bilməz.

– Bax, belədi də. Allaha qurban olum, gücü, boy-buxunu, cəsarəti birinə verir, hökmü, ixtiyarı, taxt-tacı o birisinə. O bərkdən danışırdı ki, onun adamları eşitsin.

Əbih Sultan yəhərə qalxa-qalxa dedi:

– Yadında saxla ki, ixtiyar pişiyi şirə, quzunu canavara, milçəyi filə döndərir. O ixtiyar bu səfərdən sonra Qasım bəyi çoxdan gözlədiyimiz yüksək rütbəyə də çatdıra bilər.

– Allah ağzınnan eşitsin.

Amma Qasım bəyi fikir götürüb gedirdi. Osmanlı qoşunu Təbrizin qapısındadırsa, onda nə əmir rütbəsi olacaq, nə də başqa rütbə. Çünki hələ Əbih Sultan qoşunu yığasına, tə'lim keçəsinə, osmanlı qoşununa qalib gələsinə. Hamısı Qasım bəyə xam xəyal kimi görünürdü. Əbih Sultan qaranlıqda onu görməsə də bilirdi ki, axırda bu nəticəyə gələcək. Ona görə də dedi:

– Vəziyyətimiz çox ağırdı. Bunu yəqin ki, başa düşürsən. Amma sənin bu dəstən Rüstəm Mirzəni və məni qorumalıdır. Artıq ən yaxın adamlar satqın çıxıb. Düşmən tərəfə qaçıb. Sən olursan hökmdarın candarı. Bütün xəzinəni də sən qoruyacaqsan.

“Xəzinə” kəlməsini Əbih Sultan nahaq yerə çəkmədi. Həmin kəlmə öz işini gördü. Qasım bəyin ağzı sulandı. “Hökmdar getsə də, xəzinə ki, mənə qalacaq”-deyə fikirləşdi.

Rüstəm Mirzə göyün yeddinci qatından hamama enib qüsl eləyib çıxanda ona xəbər verdilər ki, əmir əl ümara Əbih Sultan üç yüz atlı ilə gəlib. Çağırmaqlarını tapşırdı. Əbih Sultan içəri girəndə o gülürdü.

– Eşitmisənmi, əmir əl ümara, Səmərqənd şahzadəsi Ömər şah quşxananın damından yıxılıb, canını tapşırıb. Əmir Teymur nəslindəki şahzadənin ölümünün gülünclüyünə bir bax.

Rüstəm Mirzənin qarşısında bütün ədəb qaydalarına əməl eləyib, tə'zimdən, duadan sonra onun söhbətinə qulaq asan Əbih Sultan zümrüd və firuzə ilə işlənmiş qızılı paltarının yaxasına baxdı. Bu dəqiqə ona lazım olan, o paltarın yaxalığından başlayan, danışdıqca tərpənən hülqumundan, vuran damarlardan yuxarıdakı baş idi.

– A
llah ona rəhmət eləsin. Xoşbəxtdir. Bir var qılıncla öləsən, bir var babası Miranşah kimi atdan yıxılıb dəli olub öləsən, bir də var quşlara tamaşa eləyəndə yıxılasan, Allahın qara camaata bəxş elədiyi əcəlnən öləsən. Bu doğrudan böyük xoşbəxtlikdi.

Rüstəm Mirzə özünü adil hökmdar sayırdı. Ona görə özündən belə müştəbeh idi ki, taxtda oturduğu beş ildə əmin-amanlıq hökm sürürdü. Bir-iki kiçik müharibə nəzərə-alınmasa o heç kimlə vuruşmamışdı. Bir qarış torpaq almamış, bir qarış torpaq verməmişdi. Bir bunu yaxşı bilirdi ki, onun taxtı tərəkəmə əmirlərin qılıncı üstündə dayanır və səltənətin ən böyük dirəyi Əbih Sultandır. Ona görə də onu həmişə gülə-gülə, şadşalayın qarşılayırdı. Amma bu dəfə onun sifətindəki ifadədən xoşu gəlmədi. Gözlərində təlaş, nəsə qeyri-müəyyən mənalar oxudu.

– Olmaya bəd xəbərlə gəlmisən?

– O xəbəri deməyə dilim gəlmir.

– De görüm. Bəd də olsa mən bilməliyəm, xoş da.

Əbih Sultan əlini döşünə qoyub geri basdı, başı qabağa əyildi. Elə bil Rüstəm Mirzə qarşısında baş əyməyə özü-özünü məcbur eləyirdi.

– Uğurlu Məhəmmədin osmanlı qancığından dünyaya gələn yetim küçüyü, Rum köpəyi Gödək Əhməd qoşun yığıb, üstümüzə gəlib!

– Necə?!

– Bəli, mənim şahım!

Rüstəm Mirzənin qırmızı yanaqlı çöhrəsi ağardı. Vəziyyətinin necə çıxılmaz olduğunu tez başa düşdü.

– Qoşunu haradadı? – O, ayağa qalxıb qılıncını qurşayırdı və qılıncı tutan əli əsirdi.

– Təbriz yaxınlığında.

– Tez olun, yığın əmirləri. Əlixanını yanıma çağırın.

– Əlixanı yoxdur. – Əbih Sultan çox arxayın, sakit səslə dedi.

– Necə yoxdu? Hansı cəhənnəmdədi?

– Qaçıb.

– Hara? – Rüstəm Mirzə təəccüblə soruşdu.

– Hara qaçacaq, qaynının yanına. Gödək Əhməd onun qaynı düşür də. Axı o, Uğurlu Məhəmmədin Təbrizdə qalan qızıyla evlənib. Əgər yadında varsa, mən o vaxt çox dedim onu yüksəltmək bizə xeyir gətirməyəcək. Bu da nəticəsi.

– Ax, əclaf! Yaxşı, o mənim əlimə düşər, onda bilərəm nə eləyərəm. Yığın əmirləri, indiyə kimi əmirlər məndən rəncidə düşüblər ki, niyə bizi müharibələrə aparmırsan. Bu da müharibə. İndi görüm nə eləyəcəklər. Tez ol çaparlar göndər, hər tərəfdən qoşun gəlsin. – O, dəlicəsinə nə qışqırırdısa, Əbih Sultan "baş üstə" deyirdi. Özü də elə sakit, elə arxayın deyirdi ki, sanki bununla qeyd eləmək istədiyi bir fikir idi: "Sən saydığını say, gör hələ Əbih Sultan nə sayacaq".

– Böyük hökmdar, mən onların heç birinə inanmıram. Özümlə Qasım bəy Pərnakı gətirmişəm. Hökmdarı, xəzinəni, hərəmxananı qorumağı ona e'tibar eləməyi məsləhət görürəm. Yoxsa, bu vaxt hamının üzü bizdən dönüb. Elə bilirlər ki, Gödək Əhməd onlara xoşbəxtlik gətirib, Təbrizə girən kimi bir-bir çağırıb ən'am verəcək. Əvvəlcə sarayda satılan sahib xəbər olub. Osmanlı qoşunu Təbrizin iki-üç mənzilliyinə çatana qədər xəbər verməyib.

– O satqın necə oldu?

– Boğazına qızıl əridib özüm öz əlimlə tökdüm.

– Əhsən sənə. Yaxşı, Qasım bəyin belə sədaqətli olduğunu bilmirdim. Elə indi ona əmir rütbəsi verib, sahib xəbərin syurqalını ona bağışlamalıyıq.

Rüstəm Mirzə danışdıqca Əbih Sultanın gözləri onun boynundaydı. Gur qara saçları tökülmüş əzələli boynunda. O əzələlərə qılınc toxunmağına, o gözəl başı bu nəhəng bədəndən ayırmağa çox qalmayıb. Əynindəki yaxası və ətəkləri firuzə və zümrüdlə işlənmiş, qızıl saplarla

www.kitabxana.net

toxunan xalatdan heyif, qanı onların üstünə töküləcək. Yox, əvvəlcə o xalatı soyundurmaq lazımdır, heyifdir, onun bir ilxı qiyməti var.

Qılıncının qəbzəsindəki almazlar nəyə desən dəyər. Bu daş-qaşları da itirmək heyifdi. Əvvəl onu xəzinəyə vermək lazımdır. Xəzinəni isə indidən gizlətmək lazımdır. Yoxsa, Gödək Əhmədin əlinə düşər.

Əbih Sultan Hülaki xanın Bağdadı almağını Fəzlüllah Rəşidəddinin "Cəmi ət təvarix" kitabından oxumuşdu. Hülaki xan monqol qoşunlarının başında Bağdadı alıb Abbasilərin axırıncı xəlifəsi Əl-Mühtəsimin sarayında oturub şərab içirdi. Məcburən özünə saqiyə çevirdiyi xəlifədən xəzinəsinin yerini soruşmuşdu. Xəlifə özünü itirir və cibindəki açarları çıxarır. Bu açarlar oturduqları otaqdakı iki böyük, yaxdan sandığın açarları imiş, o sandıqlarda da cəmi-cümlətanı on min dirhəm varmış.

Hülaki xan bir daha xəlifəyə təpinəndə o lap qorxuya düşür və onu sarayın həyətindəki böyük hovuza aparır. Gizlin bir yerdəki açarlarla açıb hovuzun suyunu qurudandan sonra Abbasilərin 550 il ərzində topladığı qızıllar monqolların əlinə keçir. Bu qızıl kərpicləri arabalara yığıb, bir ordunun müşayiəti ilə Azərbaycana gətirirlər. Amma üstündən əlli il də keçməmiş bu qızıllar yoxa çıxır. Hülakilərin xəzinəsində siçanlar oynayır.

Görünür, belə çətin vaxtlarda həmin qızılları veriblər, xəzinədarlar aradan çıxarıb. İndi Əbih Sultan da, xəzinədə nə varsa hamısını əkmək, gizlətmək, hesab kitablarını yandırmaq fikrinə düşmüşdü. Yoxsa Gödək Əhməd ayağını onun başına qoyub xəzinəni soruşacaq. Onda yalan danışacaq. Yalanı çıxmasın deyə, o kitablar ələ keçməməlidir, xəzinədar salamat qalmamalıdır, vəzir məhv olmalıdır.

O, xəzinəni tezliklə Diyarbəkrdə yaşayan böyük qardaşı Nurəlinin yanına göndərməlidir. Ən çətini odur ki, yolları Gödək Əhmədin qoşunları və Bitlis qalalarındakı kürdlər kəsib. Gödək Əhməddən xəzinəni keçirsə də, kürdlərdən keçirmək çətindir. Eh, təki xəzinə olsun, onu lap ağzındakı dili kimi salamat aparıb çıxarar.

Kənardan baxanlar elə bilirdi ki, Əbih Sultan qardaşı Nurəli bəylə düşməndir. Hətta Süleyman Bicanoğlu qaçıb canını qurtarmaq fikrinə düşəndə özünə ən təhlükəsiz yer Nurəli bəyin yanını bilmişdi. Nurəli bəy də əvvəl onu təntənə ilə qarşılamış, sonra da Əbih Sultanla aralarındakı əhvalatları bildiyinə görə yıxıb yerə qoyun kimi bu qoca sərkərdənin başını kəsib, qanını itlərə yalatmışdı.

Belə bir çətin vaxtda böyük qardaşı ilə əlaqə yarada bilsəydi işləri lap yaxşı gedərdi.

– Nə oldu, əmir əl ümara, niyə özünü itirdin? Fikrin hardadır?

Rüstəm Mirzə bayaqdan danışırdı. Bir də gördü ki, Əbih Sultan ona qulaq asmır. Elə yalan yerə başını yırğalayır, onun dediklərini təsdiq eləyir. O sussa da, Əbih Sultan yenə də başını tərpədir, bə’zən dodaqaltı "baş üstə!" deyirdi. Bu sözlərdən sonra diksinib sanki yuxudan ayıldı.

– Nə, necə? Nə olub ki?

– Bu gün heç xoşuma gəlmirsən. Elə bil ki, beynindən qara fikirlər keçir.

Əbih Sultan özünü yığışdırdı.

– Qibleyi aləm sağ olsun, fikir məni aparıb. Tədbirlər tökürdüm öz aləmimdə, necə eləyək ki, Gödək Əhmədin başını əzək. Yoxsa başımıza böyük bəla olacaq.

– Yox, Əbih Sultan, səni heç vaxt mənə qarşı bu cür laqeyd görməmişdim. Sənin də fikrində düşmən tərəfə addamaq meyli varsa, de, mən bilim. Başıma çarə qılım.

– Nə danışırsan, böyük hökmdar. Mən bundan da çətin vaxtlarda sənin tərəfində dayanmışam. Heç bir hökmdar da mənə sənin qədər hörmət qoymayıb. Bunun əvəzində mənim ürəyimdən xəyanət keçər? Onda əlimi salıb qabırğalarımın arasından o ürəyi çıxarıb yerə atar, ayaqlarımla tapdalayıb torpaqlara qarışdıraram.

Rüstəm Mirzə çadırındakı taxtında oturub dirsəyini dizinə, çənəsini əlinə söykəyib fikrə getmişdi.

– Əclaflar, alçaqlar, satqınlar... Mənim səxavətim qudurtdu onları. İndi mənə ver Sultanəlini? Mənə ver onun sərkərdələri və müridlərini? Bilmirəm, yerin altından çıxart ver. Sənin fitvana uydum. Belə gündə o mənim sağ əlim olacaqdı. İki odu-ocağı bir gündə söndürdülər. Sənin Əmir Hüseyn Əlixanin nə iş görmüşdü. Səninlə birləşib beş min nəfəri yeddi

www.kitabxana.net

yüz nəfərin üstünə apardı. Onun dörd minini qırğına verib sağ əlimi kökündən kəsdiniz. Hamınız xəyanətkarsınız.

O, gəlib Əbih Sultanla üz-üzə dayandı.

– Kim o Rum küçüyünün yalağından yal içmək istəyirsə, indidən getsin. Qalanların da kişiliyi, mənliyi olsun.

Bu sözlər ona zəhərli oxlar kimi sancılsa da, üz-gözünü turşutmur, acısını, ağrısını gizlədib saxlamağa çalışır, onu daha çox arxayın salmaq istəyirdi.

– Qibleyi aləm, burada əsassız şübhələrə düşməyin yeri deyil və qoşunu yığıb tərpənmək üçün işə başlamaq lazımdır.

Rüstəm Mirzə bir az özünə gəldi, taxtın hər iki tərəfində dayanan keşikçilərdən su istədi. Onlardan biri qılınc-qalxanını dınqıldada-dınqıldada gedib su gətirdi. Rüstəm Mirzə gümüş dolçadakı suyu başına çəkib, əlinin dalı ilə dodaqlarını siləndən sonra dedi:

– Qasım bəy burdadısa, ona əmirlik rütbəsi verək. Qapı dalında çox dayansa gedib Gödək Əhmədə qoşulacaq.

## BOŞ ORDUGAH

Gödək Əhməd Rüstəm Mirzə ilə vuruşmamış Təbrizə girmək istəmirdi. O, Ağqoyunlu taxtının gələcək sahibi kimi xalqın yanında özünün ləyaqətini saxlamaq üçün belə bir qərar vermişdi. Bununla da öz gücünü göstərmək, o taxta ləyaqəti olduğunu sübuta yetirmək istəyirdi.

Əmir Əlixanı artıq onun qılığına girmiş, qaçıb Gödək Əhmədin ordugahına pənah gətirənlər də buna kömək göstərmişdi. Artıq şahzadə ona e'tibar eləyir, bir çox məsələlərdə məsləhətləşirdi də. Amma Əmir Hüseyn Əlixanının açıq qalan yolla birbaşa Təbriz taxtına irəliləməsi fikrini bəyənmirdi.

– Yahu, ben oğru deyilim. Tebriz şehrinin açarlarını, bir də Rüstəm Mirzənin kafasını hüzuruma getirmeseler, ben o şehara girmem, – deyib dururdu.

– Şahzadə, Əbih Sultan bizim başımızın altına yastıq qoyub. Ona inanmısan, o isə aldatdı. Onun dilindən çıxan sözə yox, heç dilinin özünə də inanmaq lazım deyil.

Bir neçə dəfə çaparlar göndərib Rüstəm Mirzəni döyüşə çağırmışdılar. Və onun bir fikri də vardı.Özü ilə çoxlu top, tüfəng, barıt gətirsə də, bu döyüşdə onlardan istifadə eləmək istəmirdi. Düzdür, güc göstərib əhalidə öz qüdrətinə inam yaratmaq naminə bu bəlkə də lazım idi. Lakin Rüstəm Mirzəni onun öz silahı ilə məğlub eləməyə qərar vermişdi. Bu döyüşdə özünün qələbəsinə zərrə qədər də şübhəsi yoxdu.

Bir səhər Gödək Əhməd çadırından çıxanda qarşı təpələrin üstündə saysız-hesabsız alabəzək çadır gördü. Onun əhvalı dəyişdi. İnandı ki, onu aldadıblar. Bir belə qoşunu üç-dörd günə toplayan Rüstəm Mirzə ona asanca təslim olmayacaq. Bu işdən məğlubiyyət iyi də gələ bilər. O, Əlixanını yanına çağırtdırdı.

– Yahu, Rüstəm Mirzəni bene aciz söylüyürdünüz. Bəs bu ne? Əmir Hüseyn Əlixanı də özünü itirdi.

– Ola bilməz. Mən onun sərkərdəsi olmuşamsa, bir belə qoşun yığa bilməmişəm. Yəqin bütün Təbriz silah götürüb. Əgər təbrizliləri silahlandırıb gətiriblərsə də, bunun onlara heç bir xeyri yoxdu. Ağqoyunluların əsas qüvvəsi həmişə tərəkəmə atlıları olub.

Gödək Əhməd əsəbiləşmişdi. Dağların başını da duman almışdı. Günəş duman arxasında haləlenmiş aya bənzəyirdi. Küləyin qovduğu boz buludlar aşağıdan ötüb gedirdi. Şahzadə münəccimbaşını çağırdı. Uzun, üstü ulduzlu əbasının ətəkləri, burnu yuxarıya qalxıb qənarə kimi əyilmiş başmaqlarının üstünə çatan münəccimbaşı gəldi. Ondan uğurlu günmü seçdiyini soruşdular. O da and-aman elədi ki, ən uğurlu gün seçib.

Bundan sonra şahzadə Gödək Əhməd işarə verdi, döyüşə çağırış nidaları səsləndi. O tərəfdən də qara zurnalarda oynaq oyun havaları çalındı. Ən maraqlısı sancaqlar (bayraqlar) idi. Hər iki ordugahda ağ rəngli, üstündə qoç başı çəkilmiş sancaqlar qaldırılmışdı ("Sancaq" kəlməsi "qələbə" kəlməsi ilə həmahənk səslənirdi. Çünki ordunun sancaqları onu düşmən

çadırının yerində sancmalı idi). Deməli, Ağqoyunlu qoşunu Ağqoyunlu qoşununa qarşı dayanmışdı. Eyni bayraqlar üz-üzə gəlmişdi.

Şahzadə Gödək Əhməd atını minib xəncər boyda qılıncını çıxarıb döyüşə getmək istəyirdi, amma onu qoymadılar. Elə ilk süvari onu iki yerə bölərdi. Atın üstündə oturub döyüşə başlamağa işarə verdi. Süvari axını Rüstəm Mirzənin ordugahına doğru axına başladı.

Qarşı tərəfdə isə Rüstəm Mirzənin özü at belinə qalxıb qılıncını siyirdi, atını meydana vurdu. Bir azdan at ayaqlarının səsi polad cingiltisinə qarışdı. Süvarilərin: "Vur ha! Vur ha!" nidaları təpələrin arasındakı düzdə bütün səsləri batırdı.

Rüstəm Mirzənin sağında Əbih Sultan, solunda Qasım bəy Pərnak vuruşmalıydı. Qoşunlar biri-birinə qarışanda onların heç birini görmədi. Sağ və sol cinah yox idi. Rüstəm Mirzə məngənəyə düşmüşdü. Əbih Sultan geri qayıdıb onun ətrafındakı, ona sədaqətli olanları arxadan, Əhməd şahzadənin süvariləri isə qabaqdan doğrayırdı. Rüstəm Mirzə nə qədər qılınc çalırdısa, xeyri yox idi. Arxadan kimsə qışqırırdı:

– Qibleyi aləm, meydandan çıx, xəyanət.

Meydandan çıxmaq isə mümkün deyildi. Hər tərəf at, insan cəsədi, qılınc, qalxan, nizə idi. Nə özününkünü tanımaq mümkün idi, nə düşməni. Sağa, sola qılınc çalıb özünə darısqal bir yol açmışdı ki, qolu birdən qalxmadı. Kəmənd qollarını bədəninə sarımışdı. Əbih Sultan kəməndi çox ustalıqla atmışdı və atını sürüb Rüstəm Mirzəni yəhərdən saldı, dalınca sürüyüb apardı. O düz Gödək Əhmədin çadırına tərəf sürürdü. Çadıra çatmamış pişik cəldliyi ilə düşüb hələ özünə gəlməmiş Rüstəm Mirzənin sinəsinə çökdü. Gözlərinin içinə baxmağa cəsarət eləməyib çənəsini yuxarı qaldıraraq iti qəməsini onun hülqumuna çəkdi. Bədən yerdə çabalaya-çabalaya qaldı. Xırıldayan, dodaqları hələ də tərpənən başı gətirib Gödək Əhmədin ayaqları altına atdı.

– Buyur, həşəmətli hökmdar, Rüstəm Mirzənin başını gətirmişəm. Əbih Sultan verdiyi sözə əməl eləyən adamdı.

Hökmdarın aparıldığını görənlər təslim olur, bə'ziləri qaçırdı. Təpələrdəki ordugahın alabəzək çadırlarına isə heç kəs toxunmurdu. Rüstəm Mirzə bu yüzlərlə boş çadırları bir gecədə qurdurmuşdu ki, düşmənini qorxutsun. Amma onun hiyləsi baş tutmamışdı.

## "MÖ'CÜZƏ"

Lahicanda, Mirzə Əlinin geniş, üstü kirəmidli, pəncərələri şəbəkəli evində üç nəfər iri mitəkkələrə dirsəklənib oturmuşdu: – Mirzə Əli, Lələ, bir də İsmayıl. Hər üçü pərt idi. Gödək Əhmədin Təbriz taxtına çıxması xəbərini təzəcə almışdılar. Amma heç biri dinib danışmırdı.

Mirzə Əli titrəyən barmaqları ilə Qur'anın vərəqlərini çevirib dodaqaltı oxuyurdu. Onun əlləri də, dodaqları da, bədəni də, barmağı ilə bir tərəfindən tutub qaldırdığı vərəq kimi əsirdi. Onun oxumağından hiss olunurdu ki, özünü ələ almaq, səbrini basmaq üçün vird eləyir, amma heç cür sakitləşə bilmir. Axırda özünü saxlaya bilməyib vərəqi ehtiyatsızlıq, bir az da özünə xas olmayan kobudluqla qatlayıb dilləndi:

– Satdılar səltənəti, hərraca qoydular. Ölkə neçə vaxtdı düşmən ixtiyarındaydı, indi lap yağıların əlinə keçdi. Uzun Həsənə olan acıqlarını bütün ölkədən çıxacaqlar.

– Əbih Sultandan bundan artıq heç nə gözləmək olmazdı, – deyə Hüseyn Lələ söhbətə qarışdı. – Həsən padşahın Rum sultanı ilə vuruşub qan tökməyinin demək olar ki, bir qara quruş da qiyməti yoxmuş. Satqınlar ölkənin açarını öz əllərilə aparıb verdilər Rum sultanına. Bu gündən şiələrin ən çətin günləri başlayır.

İsmayıl bu söhbətlərə qulaq asırdı. Onları dinlədikdən sonra diz üstə oturub öz fikirlərini izah eləməyə başladı:

– Sizin fikirlərinizlə mən də razıyam. Düzdür, məmləkəti satdılar. Ancaq qızılbaşlar üçün bundan yaxşı fürsət olmaz. Məmləkət əhlinin onları – rumluları görməyə gözü yoxdu. Həm də Ağqoyunlu əmirləri özlərini hamının gözündən saldılar. İndi hərc-mərclik başlayacaq. Məmləkətdə ağız deyəni qulaq eşitməyəcək. Bizim işə başlayacağımız gün yetişib. Müridləri toplayıb silahlandırmaq məqamıdır.

Mirzə Əli İsmayılın yetkin söhbətinə, yaşına yaraşmayan ağlına, dərrakəsinə, onun məntiqinə heyran qaldı.

– Şeyx, sən bəlkə də çox doğru buyurursan. Ancaq bir şeyi yadında saxla ki, Gödək Əhmədin arxasında Bəyazid dayanıb. – Sonra o üzünü Lələyə çevirdi. – Ay hələ on üç günlükdür. Qoy heç olmasa on dörd günlük olsun, işığı bir az da artsın, bədrlənsin.

İsmayıl on üç yaşın içindəydi və başa düşdü ki, Mirzə Əli ay söhbətində bunu nəzərdə tutur, Lələni gözləməyib özü cavab verdi:

– On dörd günlük olmamış bəlkə də o ayın üzünü buludlar aldı, onda necə? On üç günlük ay işıq saça bilirsə, demək aydı. Bir gün tələsmək, bəlkə də bir gün gecikməkdən daha xeyirlidir. Dövran qarışıqdı, günahkarlar günahsızlardan qat-qat çoxdur. Qatillər, müftəxorlar taxtda oturub, torpaq becərənin isə təknədə çörəyi yoxdu. Eşitdiyimə görə yollar, şəhərlər, bazarlar dilənçilərlə doludur. Bu zəmanəyə bir sahib çıxmalıdır.

Mirzə Əli İsmayılın bu sözlərindən sonra başını qaldırıb ona bu dəfə heyrət yox, təəccüblə baxdı. On üç yaşlı uşağın ağlı onu qorxuya saldı. Bu görünməmiş bir yetkinlik, ağıl, idrak idi.

– Ya Şeyx, sənin şirin dəhanından qopan sözlər, on üç günlük ayın günəş kimi parlaqlığından xəbər verir. Amma bir işdə mənim məsləhətimə də qulaq assan pis olmaz. Yollardakı, şəhər və bazarlardakı dilənçilərdən heç kimə arxa olmaz. Əlini açıb sədəqə istəyən dilənçiyə imkan versən tamah ucundan hər şeyi satar, ən müqəddəs amalı da. Yer əkən rəncbərlə də işin olmasın. Onun taleyini Allah-təala belə yaradıb. O, arı kimi şirə toplamalıdır. Həmin şirənin hamısını arıya hazır versən cırlaşar, dönüb it arısı olar və yoldan ötənin hamısını çalar. Sən ətrafına öz adına, nəcabətinə uyğun adamları topla.

Mirzə Əlinin sözləri ilə İsmayıl razılaşmadı.

– Atam Şeyx Heydərin qoşunundakı müridlərin çoxusu rəncbər deyildimi? Onun hər buyruğunu can-başla yerinə yetirirdilər. Əmirlər, naiblər, vəzirlər isə Rüstəm Mirzəni satıb Gödək Əhmədin tərəfinə keçdilər. Lələ, zühur etmək məqamı yetişib. Carçılar göndərək, müridləri yığaq.

Lələ İsmayılın gətirdiyi dəlillərlə qəlbində razılaşmışdı. Görürdü ki, bu uşaq vəziyyəti onların ikisindən də daha düzgün qiymətləndirir. Bütün ölkənin başı indi Gödək Əhmədə qarışıb. Rumlulardan narazı şiələr də, bu istiladan razı qalmayanlar da mütləq onların tərəfinə keçəcək.

Onlar razılaşdılar ki, ən e'tibarlı dostlarının dalınca adamlar göndərsinlər.

Bir neçə gündən sonra Dədə bəy gəlib çıxdı. Yanında özü kimi qollu-qabırğalı, qızılı bığları sallanıb çənəsinə çatan pəhləvan görkəmli bir adam vardı.

– Xadim bəy Xulafa, – deyə İsmayıla təqdim elədi. İsmayılın ovcu onun ovcunda itdi. İri, qara barmaqlar qarmaq kimi əyildi. Dədə bəyin gəlib çıxması onların hamısının ürəyindən olmuşdu. Beş il ərzində onun saçları xeyli ağarmışdı. İsmayıl onu qucaqladı.

– Dədə bəy, gəl, təzədən sərkərdəlik məharətini göstər.

– Baş üstə, canımı bu yolda qurban demişəm.

Həmin gün çeşt vaxtı Bayram bəy Qaramanlı qardaşı Rüstəm bəylə gəlib çıxdı. Qaraman elinin çox hissəsi Qaradağa və Qarabağa, Xudafərin körpüsünün hər iki tərəfinə köçmüşdü. Bayram bəy də oradan gəlirdi. İsmayılla görüşdü, onun əlindən öpdü.

– Camaat deyir ki, "Söndü Qaramanın çırağı". Düzdü, Qaraman torpağının çırağı söndü, amma Qaraman camaatının başıpapaqlıları Səfiyyəddin ocağının çırağından çıraqlarını yandırıb yaşayırlar. Mürşüdümüzün hər bir fərmanına müntəzirik.

Axşam Qara Piri bəy də özünü yetirdi. Hərəsi kiçik, yaxşı silahlanmış, e'tibarlı adamlardan ibarət dəstələrlə gəlmişdi.

Yaşlı, ağsaqqal, başbilən qızılbaşlar gecə Mirzə Əlinin evinə yığıldılar. Bir çox məsələlər vardı ki, onları ölçüb-biçməliydilər. Sözə başda oturan İsmayıl başladı.

– Ey igid, başı bəlalı qızılbaş ağsaqqalları, gizləndiyimiz, laməkan olduğumuz bəsdir. Çıxırıq gün işığına. Zəfər sancaqlarını, ələmlərini, bayraqlarını qaldırarıq. Kimin ürəyində əqidəmizə məhəbbət qalıbsa yığılsın bu sancaqların altına, Şirvan üstünə yeriyəcəyik.

Lələ əlini xalçanın qoç buynuzuna oxşar naxışlarına sürtürdü. Sanki orada döyüşən qoçları yola gətirmək istəyirdi. Özü də yumşaq, mülayim səslə, bir az da günahkar ahənglə dilləndi:

– Ya Şeyx, biz hələ azıq. İndidən hay-küy salsaq, düşmənləri üstümüzə qaldırarıq. Hələ işə başlamamış məhv olarıq.

O, gözlərini qaldırıb oturanların sifətinə baxdı. Gördü ki, oturanların hamısı onun fikri ilə şərikdi. Amma bu fikrə şərik çıxmayan İsmayıl oldu.

– Biz gizləndiyimiz yerdən çıxmasaq heç kim bizə inanmaz. Qorxaq adamın tərəfində isə heç kim dayanmaz. Biz çağırış tə'bili çalıb, sancağımızı qaldırmalıyıq. Bizi cəsarətli bilməsələr, dostlarımız da bizə qoşulmazlar. Mən təklif eləyirəm ki, buradan birbaşa Ərdəbilə gedək. Babam Şeyx Səfiyyəddini yuxumda görmüşəm. O mənə yuxuda xeyir-dua verib, başıma qızılbaş çalması qoyub. Onun qəbrini ziyarət eləyib bir daha xeyir-dua alandan sonra qışlamaq üçün bir yer seçməliyik. Yaza qədər həmin düşərgədə öz qoşunlarımızı toplamalıyıq.

Dədə bəyin gözləri dolmuşdu. İsmayılın belə dilavərliyi, hökmü, cəsarəti onu kövrəltmişdi. Mirzə Əlinin isə gözlərindən sevinc yaşları axırdı.

– Bu işin öhdəsindən gələ biləcəksənmi? Özünə xəta toxunmayacaq ki?..

İsmayıl ayağa qalxdı. 0 yas libası geymişdi. Başındakı Qızılbaş tacından başqa hər şey qara rəngdəydi.

– Mirzə Əli, mən anadan olandan dünyaya yox, xətalar içinə düşmüşəm. Bunu hamı bilir. Amma həmişə mənə bir hikmətli səs deyir ki, bu xətaların hamısından çıxacaqsan. O xəta sözü taleyimdə yox, gələcək ləqəbimdə qalacaq. İndiyə qədər çəkdiyim əzabların, düşdüyüm xətaların əvəzində tanrım mənə bundan sonra gözəl tale bəxş eləyib. Şairlik də o ilahi bəxşişlərdən biridir. Elə bilirsiniz ki, məni tanıyırsınız. Yox, tanımırsınız. İndi qulaq asın, görün mən kiməm.

İsmayıl aramla, aydın, inamlı səslə oxumağa başladı:

Yer yox ikən, göy yox ikən, ta əzəldən var idim, Gövhərin yekdanəsindən irəli pərgar idim.

Gövhəri ab eylədim, tutdu cahanı sərbəsər,
Yeri-göyü, ərşi-kürşü yaradan Səttar idim.

Gah Hüseynlən belə pustumu soydu qazilər,
Gah o Mənsur donuna girdim, "ənəlhəqdar" idim

Girdim Adəm cisminə, kimsənə bilməz sirrimi,
Mən bu beytullah içində ta əzəldən var idim.

On səkkiz min aləmə mən gərdiş ilə gəlmişəm,
Ol səbəbdən haqq ilə sirdar idim, sərdar idim.

Dünyasından mən onun sirrin bilirdim, ol mənim,
Dəryanın altındakı sac qızdıran əngar idim.

Mən Xətaiəm haqqı haqq tanımışam bigüman,
Onun üçün ol yaratdı, mən ona dərgar idim.

– İndi bildiniz mən kiməm?

Otağa elə heyrətli bir sükut çökmüşdü ki, İsmayılı ta körpəlikdən tanıyan Lələnin də dili-dodağı qurumuşdu. "Yox, bu tanıdığımız İsmayıl deyil. Allah elə bil onu dəyişib. Bu ilahi bir varlıqdı. Bəlkə də onu göydən mələklər göndərib".

Mirzə Əli qollarını göyə qaldırdı və elə bil o qollar bir az da uzandı və sanki o qollar baca olsa, o bacadan çölə çıxacaqdı.

– Ey ilahi, sənin kərəminə min şükür. Məni bu gün, bu dünyada da cənnətə çatdırdın, daha o dünyamdan bədgüman deyiləm. Biz bilirdik ki, sənin kəramətinlə zamananın sahibi gələcək. Nə vaxt gələcək, necə gələcək, hara gələcək, bilmirdik. Onu mənim məmləkətimə, mənim evimə göndərib bu fəqir bəndəni şərafətli etdiyinə görə qulunam, qulunam, qulunam, qulunam. – O

salavat çevirdi, nəsə oxudu, diz üstə sürünüb İsmayılın ətəyindən öpdü. O, ətəyi gözlərinin üstünə qoydu. Sonra üzünü heyrətdən özünü itirənlərə tutub dedi:

– Nə xoşbəxt adamlarsınız. Bu gül camallı şəxs zamanın sahibidi, bizim gözlərimiz qabağında zühur elədi. Qalibiyyət sizindi. Bu müqəddəs şəxsin yolunda qan tökmək, candan keçmək ən böyük savab və xoşbəxtlikdir.

O, bir daha İsmayılın ətəyindən öpdü.

– Canım sənə fəda olsun. Kaş mən də cavan olaydım, silah götürüb qoşulaydım sənin müridlərinə.

Dədə bəy də, Bayram bəy və Rüstəm bəy qaramanlılar da, Xulafa bəy, Qara Piri bəy də, Lələ də ona səcdəyə başladılar.

İsmayıl onların səcdəsinin sonunu gözləyib üzünü Mirzə Əliyə tutdu:

– İndi mənim dediklərimə şərik olursanmı?

– Sənə şəkk gətirən kafirdi. Sən hələ uşaq olanda mən səni gizlətmək üçün Qur’ani-şərifə and içməli oldum. Bilirdim ki, böyük günaha batıram. Amma qəlbimdə bir səs qalxmışdı ki, sən and iç, Qur’ana əl bas, bu günah deyil, savabdı. O vaxt Allahın müqəddəs kəlamı sənin köməyində dayandı. Demək dünya elə belə deyilmiş. Dünyaya zamanın sahibi gələcəkmiş.

İsmayıl keçib yerində oturanda onların hamısı aşağı tərəfə keçdilər və gözlərini onun dodaqlarına dikdilər. İsmayıl da məmnun-məmnun qızılbaş ağsaqqallarına baxdı. Vəziyyətin belə dəyişməyi onun keyfini durultdu və inandı ki, doğrudan da zamana sahiblik edə biləcək və onun qarşısında heç kim dayana bilməyəcək.

– Taromda müridlərimizin dəstələrinə baxış keçirdərik.

İstər-istəməz Dədə bəyin dilindən çıxdı:

– Tarom Hüsaməddinin ixtiyarındadır, o isə bizim qatı düşmənimizdir.

İsmayıl ona mə’nalı-mə’nalı baxdı.

– Düşmənin bizə gücü çatmayacaq. İşimizi Hüsaməddinin gözü qabağında görəcəyik, o isə bizə heç nə edə bilməyəcək. Oradan keçəcəyik Ərdəbilə, Şeyxin qəbrini ziyarət eləyəcəyik. Sonra oradan qayıdacağıq dəniz kənarındakı Ərcivan kəndinə. Ərcivanda babamın yaxın dostu və qayınatası Zahid Gilaninin türbəsi var, onu yad eləmək bizim borcumuzdur. Həm da qış vaxtı ocaqlığımız olacaq Ərcivan kəndi. Lələ, Şirvana dərvişlər göndərmək lazımdı. Qoy onlar Şamaxıda zamanın sahibinin peyda olduğunu danışsınlar. Lələ dilləndi:

– Bizimlə vuruşmaq üçün hazırlığa başlamazmı?

İsmayıl artıq dediyi sözün dəyərini bilirdi və onu müdafiə eləməyə əvvəldən hazır idi.

– Çingiz xanın, Əmir Teymurun gəlişini biləndə vuruşa hazırlaşardılar. Lap onun gücünə bələd olsalar da belə. Amma Sahibi əz Zaman Mehdi peyda olubsa, bilirlər ki, ona qarşı heç bir silah işlətmək olmaz. Onda əlləri-ayaqları soyuyacaq. Günahlarını özləri yaxşı bilirlər. O günahlar bağışlanılmaz günahlardır. Elə bilirdilər həmin günahları özləri ilə gora aparacaqlar, orada necə olar, olar. Amma indi görəcəklər ki, yox, həmin günahlara görə bu dünyada da cəza var.

Dədə bəy ayağa qalxdı, üzünü oturanlara tutub dedi:

– And içirəm Qur’ani kəbirə, and içirəm Türk pirinin müqəddəs qəbrinə, and içirəm dostumuz Şeyx Heydərin üz qoyduğu torpağa, zamanın sahibinin bir sözü bizim yanımızda iki olmayacaq, onun bütün dediklərini canımız bahasına olsa da yerinə yetirəcəyik.

İsmayıl onlara baxdı və gördü ki, atasının yaxın dostları olan bu qoca qızılbaşlar necə sidq ürəklə, təmiz qəlblə Dədə bəyin dediklərini təkrar edirlər. Yaşı az olsa da çox oxumuş və çox görmüşdü. Tez bir zamanda biri-birini əvəz edən dərd və sevinc onu böyütmüşdü, yetişdirmişdi.

O, dərk eləmişdi ki, zəif şəxsiyyətlər tarixdə heç bir iş görə bilməyib, başqasının kölgəsində gəlib, kölgədə yaşayıb, qəbir daşının kölgəsində əbədi yatıb. O kölgədən çıxmayan, öz kölgəsini bir adamın, bir tayfanın, bir ölkənin üstünə salmağı bacaranlar isə həmişə yaşayıb. Onlarda da günəşə bənzəyən bir xüsusiyyət var, beləlɘri tək qol, qılınc yox, həm də ağılın, idrakın gücünə arxalanıb.

Düzdür, Şeyx Heydərin dostları çoxdur, sağlığında da daha çox olub. Bəs onda niyə yenilib, həlak olub. İstəyinə çata bilməyib. Babək kimi hamını bir gözdə görüb, toxum əkən

www.kitabxana.net

rəncbəri, yollardakı dilənçiləri əmirlərlə, əsilzadələr, bəylərlə eyni gözdə görüb. Həmin adamlar da canlarından keçib, lakin yenə də məğlubiyyətə rast gəlib, qalibiyyətə yox. Baxmayaraq ki, o, babasının əqidəsini xürrəmilik ilə qarışdırıb bir yerə yoğurmuşdu.

Bəs haqqın yolu hardadır?

Çingiz xanın orduları ölkəni elə xarabazara çevirdi ki, əlli il sonra da kəndləri, şəhərləri bərpa eləmək mümkün olmadı. Arxlar uçurulduğundan əkinlər, bağ-bağçalar qanqallığa, səhraya çevrildi.

Müharibələr, ölkə daxilindəki qiyamlar, çəkişmələr, quraqlıq, aclıq, vəba xəstəlikləri, əhalidən yığılan 45– 46 cür vergi hamını cana gətirmişdi. Xışı bir tərəfə atıb yolları kəsən əkinçi, özündən azacıq imkanı olanı soyurdu. Ölkəyə əmin-amanlıq, var dövlət və'd eləyən vəzirlər və şahlar rüşvət toplayırdılar.Ona görə də vicdansızlıq, zülm, vəhşilik, yalan mücəssiməsinə çevrilən taxtlara və orada oturmaq üçün biri-birini al qana boyayan hökmdarlara heç kim ümidini bağlamırdı. İl-ildən, gün-gündən, ruzgardan, şah şahdan daha pis gəlirdi.

Aclıq çəkən, evində-eşiyində sakit otura bilməyən adamların əlləri göydə qalmışdı. Amma o minlər və milyonlarla əllər də göydən onlara lazım olanı – Allahın rəhm və mürvətini, ədalətini torpağa endirə bilmirdi. Ədalət göydə Allahda, yerdə əjdahanın, şirin ağzındaydı, nə ona əl yetirdi, nə buna güc çatırdı.

Allahdan da əllər üzüləndən sonra ümidlərini nə vaxtsa qeybə çəkilmiş on ikinci imam Mehdi sahib zamana tikmişdilər. İnanırdılar ki, gələcək, mütləq peyda olacaq və məşhər ayağına, öz ölümünə yaxınlaşan insanlığı xilas eləyəcək, yer üzündəki zorakılığı, hərc-mərcliyi, zülmü ərşə qaldıranları bir qılınc qüvvəsi ilə məhv eləyəcək.

Müsəlmanın bədbəxtliyi ondadır ki, öz gücündən çox qeybdən, yoxdan "gələcək" qüvvəyə inanıb ki, onun arxasınca getsin və bütün iqtidarını göstərsin. Yoxsa şəxsiyyətini tanıdıqları, gördükləri adamdan heç nə gözləmirlər. Belələrini çox qaldırıb gətirib başları üstündəki taxtda oturdublar, o da qayıdıb onu qaldıranları at kimi minib, istədiyi səmtə sürüb, keyfi istəyəndə qamçılayıb, keyfi istəyəndə arpa samanını kəsib, keyfi istəyəndə də bazara çəkib, kim daha baha qiymət deyibsə, ona satıb.

Artıq hamının bir ümidgahı var. O da Mehdi sahibi zamandır. Onun zühuru hər şeyi həll eləyə bilər. Adamlar onun gəlişinə o qədər inanırdılar ki, kəndlərdə həmişə bəslənmiş yəhərli-yüyənli ağ at saxlayırdılar. Yalnız ağ at. Çünki ağ at ağ günün timsalıdır. Bazarlarda ağ atın qiyməti də buna görə qalxmışdı. Artıq ümidgahlarının da adından istifadə eləyib pul qazanmağa başlamışdılar.

Ərdəbil qazısı Əhməd Kakulinin İsmayılı sahibi zaman adlandırdığını eşitmişdilər. Bu söz-söhbət camaat arasında yayılmışdı. Amma həmin hadisədən beş il keçmişdi və ümidlər də yavaş-yavaş itmişdi, inamlar qırılmışdı. İnsanların iztirablardan xilas olmaq üçün beş il gözləməyə taqətləri hardaydı. Onlar İsmayılın da Mehdi sahibi zaman kimi yoxa çıxdığını görüb əllərini birdəfəlik üzmüşdülər.

Zamanın sahibi nəinki taxtın, ölkənin, xəzinənin və qoşunun sahibi olmalıydı, o, həm də zamana sahib çıxıb onu dəyişməyi bacarmalıydı.

İsmayıl bu barədə çox fikirləşir, həmin adla üzə çıxmağı çox götür-qoy eləyir, bu sirri heç Ləléyə də açmırdı. Onu narahat eləyən bir fikir vardı. O da ondan ibarət idi ki, insanlar ona inanmalıdır. İnanmasalar hər şey təzədən alt-üst olardı. Birdən-birə ona təbi, ilhamı köməyə gəlmişdi. Şe'r onu daha da yüksəklərə qaldırmışdı. Budur, həmin şe'rdən sonra qızılbaş ağsaqqalları belə əfsunlanıb. Gözləri qabağında böyüyən İsmayılda ilahi bir qüvvənin cəm olduğuna şəkk gətirmədilər. Demək heç kəs şəkk gətirməyəcək.

Yaxşı, tutaq ki, ona hamı bu gözlə baxacaq. O da insanları öz arxasınca apardı, düşmənləri basdı, ölkəni aldı, taxta çıxdı. Bəs ondan sonra? Yer üzündəki haqsızlıqları aradan götürə biləcəkmi? Zamanı dəyişməyi bacaracaqmı?

O, dərin fikrə getdi.

Amma artıq ilk addım atılmışdı.

KÖHNƏ BAZAR, TƏZƏ NIRX

Gödək Əhməd Təbrizdə ata babasının taxtında oturmuşdu. Bu məcazi mə'nada belə idi.Əslində isə o taxtın yerini bir az da hündürə qaldırmış, oraya Gödək Əhmədin özü üçün uşaq kürsüsünə oxşar, amma bərli-bəzəkli, daş-qaşlı bir taxt qoymuşdular. İlk gündən də işə başlamışdı. Dövlət işləri aparmağı lap kiçik yaşlarından İstanbulda öyrənmişdi.

O bilirdi ki, Yunanıstanı, Valaxiyanı, Macarıstanı, Əflakı, Serbiyanı, bir sözlə Avropanın çox yerini tutan osmanlı qoşununun arxasındakı ölkədə arxayınçılıqdı. Sultan yalnız ən böyük və mühüm saydığı işlərlə məşğuldur. Xırda tayfa davaları, ölkə içindəki hərc-mərcliklə maraqlanmır. Doğrusu heç belə məsələlər də yoxdur. Paşalar, bəylərbəyilər, Sancaqbəylər Sultanın üzünə ağ olmur. Orada hamı öz yerini bilir, başqasının yerinə göz dikmir. Amma bu ölkədə hökmdar qoşun götürüb ölkənin o biri başına gedəndə, bu birisi başında bir özgəsi taxta oturur. Taxta nə qədər göz dikən var. Belə bir məkanda hökmdar kimi yerində möhkəm oturmaq çox çətin işdi. Ölkədə sakitlik yaratmaq üçün əvvəl özlərini yarımallah, yarımpadşah sayanları sakitləşdirmək lazımdır. Onları sakitləşdirməyin bir yolu var. Qılınc, kötük və aşağı əyilmiş baş. Həmin başlar kötüyün yanına düşməyənə qədər o kəllədəki gözlər hərisliklə taxt-tac axtaracaq. Bəs o başlar niyə qalxıb?

Gödək Əhməd başa düşmüşdü ki, hər gələn öz tayfasını qalanların başına çıxardır. Öz qurbağasını o biri tayfaların marallarına başbilən, gözəllik dərsi verən qoyur. Öz dişi təzə çıxan küçüklərinə əlində ixtiyarı olmayan tayfaların ən adlı-sanlı köpəklərini boğdurur. Öz pisini o birilərin ən yaxşılarından daha şərafətli tutur. Ona görə də bu tayfalar arasında qəribə bir intiqam hissi var. Onlar da çalışır başa keçsin və heyfini alsın. Yenə də öz qurbağasına gözəllər gözəli, öz madyanına köhlən, ayğır, öz ayranına yağ desin. Bunlardan başqa bir bəla da vardı. Ölkə əhalisi iki yerə bölünürdü. Ta qədimdən burada məskən salan, şəhərlər tikən, sənətkarlıqla məşğul olan və səlcuqlar dövründə gələn köçərilər, türkmənlər (tərəkəmələr). Köçərilər sürülərini dağdan arana, arandan dağa qovur, at belində böyüyür, at belində ölür. Uşaqlıqdan qılınc oynadır, ox atır, silahla yatıb, silahla durur. Oturaq camaatın saray yanında heç bir hörməti yox idi. O,öküz idi,əkməliydi, biçməliydi; buğda becərib saman yeməliydi. Belələri həmişə piyadadı: evində də, işində də, hərbi səfərdə də. At belində gedən tərəkəmə əmri isə dinc vaxtı onun ağası, döyüş vaxtı sərkərdəsidi. Padşah da, divandərə də atlını qoyub piyadaya havadar çıxmayacaqdı ki. Taxt-tacı qoruyan o sərkərdə də onun atlısıdır. Ordunu toplayan da, vergini yığan da, səltənətdə tarazlığı pozan da.

Gödək Əhmədin o atlılardan xoşu gəlmirdi. Sultan II Bəyazid onu başa salmışdı ki, yerini möhkəm eləmək istəyirsənsə atlını atdan sal.

İkinci tərəfdən həmin əmirlər ölkədəki torpaqların çoxunu öz əllərində saxlayırdılar. Syürqal şəklində bütün yaxşı, məhsuldar torpaqlar, bağ-bağçalar, kəndlər onlara bağışlanmışdı. Bu syürqallardakı rəiyyətlərdən yığılan vergilər Təbriz xəzinəsinə deyil, həmən əmirlərin anbarlarına gedirdi. Beləliklə bir səltənət içində neçə səltənət yaranmışdı. Hər əyalətdə bir hökmdar vardı ki, onların da öhdəsindən gəlmək hər padşahın gücü daxilində deyildi. Bu, sərçənin yuvasında özündən üç-dörd dəfə böyük arıquşunu öz balası bilib, yemləyib saxlamağına oxşayırdı. Ya da ona bənzəyirdi ki, sürünü qorumaq üçün südü yalağa töküb küçükləri yedirdəsən, böyüdəsən, onlar dönüb canavar ola və bütün sürünü yeyib çobanı quru yurdda qoya.

Rum elində əgər bütün əyalətlər sultan sarayından asılı idisə, burada Təbriz sarayı əhalət, astan və rustaqlardan əlavə, həm də ayrı-ayrı əmirlərdən asılı vəziyyətdəydi. Hər əmirin öz xəzinəsi, öz qoşunu, öz niyyəti vardı.

O, bütün bu quruluşu dağıtmalı, hamını özünə tabe etməlidir. Qoşun da, xəzinə də, niyyət də bir olmalıdır.

Gödək Əhməd daha bir mühüm məsələni başa düşürdü. Onun taxta çıxdığı Təbrizdə vaxtilə atası Uğurlu Məhəmmədi bu ölkənin, bu məmləkətin düşməni kimi, satqın kimi dar ağacına qaldırıblar. Onun özünə necə baxacaqdılar?

Dünənə qədər ayağının altındakı torpağı öpdükləri şahlarının başını ona ərməğan kimi gətirən əmirlər Uğurlu Məhəmmədi də gülə-gülə, sevinə-sevinə asıblar. Burada heç kim öz satqınlığını, günahını görmür. Bu naqislikləri başqalarında axtarırlar.

Qara camaat onun atasının asılmağını görüb. O rəiyyətin əli yox, yaddaşı qana bulanıb. Bu rəiyyət onun atasının qatilləri olan əmirlər kimi onun pişvazına çıxmayıb. Çünki onlar yadda saxlayıblar ki, bu təzə hökmdar ən böyük satqının oğludur, bu ölkənii ən böyük düşməninin kürəkənidir, onun əlindəki alətdir. Qara camaatın bu dəhşətli yaddaşı qorxuludur. O yaddaşı beyinlərdan silib atmaq lazımdır. Düzdür, bunu eləmək çox çətindir, amma çox vacıbdir. Çünki o rəiyyətsiz, qara camaatsız heç nə eləmək mümkün deyil. Onlarsız səltənət də yoxdur.

Təbriz bazarında birdən-birə hay-küy düşdü. Silahlı fərraşlar elə düzüldülər ki, bazardakı malların da, tacirlərin də, sənətkarların da gözlərinin qabağını kəsdilər. Bir neçə atlı Təbrizin Məğribdən Məşriqə qədər məşhur bazarına girdi. Qabaqda qızıl yüyənli, qızıl yəhərli, qəmər atın belində yaqut işləməli mavi kaftan geyən, başına sağ tərəfində almaslarla işlənib ləléktaxılı çalma qoyan, körpə uşağa oxşayan Gödək Əhməd oturmuşdu. Üzəngini onun ayaqlarına görə gödək və xırda düzəltmişdilər və bu üzəngi tərlikdən yuxarıda dayanırdı. Gün vurduqca yaqutlar, kaftanın qızıl düymələri, atın üzəngisi, yüyəni, balaca-balaca qalxanlara oxşar döşlükdəki, quşqundakı qızıl naxışlar bərq vurub yanırdı. Mavi kaftanın özündə də qızıl saplarla işlənmiş naxışlar çox idi, onlar parıldayırdı və elə bil bunlar onun bədəninə sancılan minlərlə qızıl iynələr idi.

Gödək Əhməd Təbriz bazarını gəzməyə çıxmışdı. Budur, bir tərəfdə ağ paltarlı, qəribə çalmalı, paxır atmış misə oxşar ayaqyalın hindlilər bardaş qurub həsir üstündə oturublar. Onlar zəncəfil, darçın, hil, mixək, fil sümüyündən və misdən bəzək əşyaları satırlar. Uzun saqqallı, dik, məxmər papaqlı rus tacirləri samur, qunduz, daha nə qədər adı bilinməyən parıltılı qu tükü kimi yumşaq xəz asıb alıcı gözləyirlər.

Gödək Əhməd atını sürüb baxa-baxa gedirdi. Budur, corabları ayaqlarına tarım yapışan, baldırlarında ala-bəzək, içərisinə yel dolmuş kimi şiş dayanan paltar geymiş firəng və Venedikt tacirləri. Onların ən qiymətli malları güzgüdü. Bu güzgülərin qızıldan və bürüncdən çərçivələri var. Güzgü Təbrizdə ən baha gedən matahdı. Güzgülərdən əlavə hər rəngdə top-top zərif mahud parçalar yığılıb qalıb. Venedikt şüşəsinin isə heç yerdə tayı-bərabəri yoxdur.

Amma ən çox alınan güzgüdür. Qızını gəlin köçürən xalça-palazını, heyvanlarını satır, güzgü alıb gəlinə qoşur. Çünki bu həyatda güzgüdən başqa duru, aydın bir şey qalmayıb.

Bir tərəfdə isə ağ libaslı, qara, yalın ayaqlı, ağ çalmaları ilə sifətlərinin hər tərəfini örtüb göz və burunlarını, bir də damarları qayış kimi gərilən baldır-bacaqlarını açıq qoyan hürmüzd tacirləri ağ, çəhrayı, hətta mavi rəngə çalan mirvariləri düzüm-düzüm asmışdılar. Yerdə isə iri sədəf balıqqulaqları qoyulmuşdu.

Təbriz bazarında nə yox idi ki... Bursa məxməri, Hələb sürməsi, yun parçası, Dəməşq poladından qılınclar və xəncərlər, bütün dünyada məşhur olan Təbriz culfalarının toxuduğu əlvan parçalar, Təbriz zərgərlərinin əlindən çıxmış bilərziklər, ciyciyələr, bazubəndlər, xalxallar, üzüklər və sırğalar.

Bir sırada üstündə əjdahalar rəsm olunmuş Çin çini qabları. Onların nə qədər gözəl rəngləri vardı, mavisi, göyü, abısı, sürməyisi, qırmızısı, qızılısı. Hamısının da üstündə şəkillər, naxışlar, gül-çiçəklər.

Bütün dünya elə bil Təbriz bazarına cəm olmuşdu. Üç yüz mindən çox əhalisi olan şəhərin bazarında bundan iki dəfə çox əhali olurdu. Amma bu bazar İstanbul bazarının yanında xeyli kasıb görünürdü. Belə ki, Sultan Bəyazid Avropaya Türkiyədən keçib gedən yollar üstündə elə baha gömrük haqqı qoymuşdu ki, onları ödəyəndən sonra tacirlərə qalırdı, necə deyərlər, alıb satdığı qozun şax-şaxı, yol yorğunluğu, quldurların qorxusu, ölüm təhlükəsi. Belə ki, Aralıq dənizindən yol olmadığından bütün tacirlər Rusiyadan keçir, İtil çayı ilə Həştərxana qədər üzür, oradan gəmi ilə ya Dərbəndə, ya da Ənzəliyə gəlirdilər. Sonra da yüklər dəvələrə yüklənib Təbrizə qədər gətirilirdi. Ona görə də bazarda bahalıq həddini aşmışdı. Yəqin ki, Gödək Əhməd padşahlığa keçəndən sonra işlər bir az düzələ bilərdi.

Padşah atını bazar meydanına sürdü. Burada dayandı, əvvəldən burada dargalar minbər düzəltmişdilər. Arıq atın üstündə gələn arıq, əmmaməli üləma atdan düşdü, minbərə çıxıb üzünü camaata tutdu.

www.kitabxana.net

Bazarda alver dayanmışdı. Hamının gözü Əhməd padşahda idi. Onun da sözünü, fikrini minbərə çıxan qoca, arıqüləma deyəcəkdi. Bazar əhli isə bir-birinə sataşırdı.

– Deyəsən padşahın özü laldı.

– Danışma, mən karam, heç nə eşitmədim.

– Yox, lal deyil, hələ utanır. Bir azdan o qədər danışsın ki, burunlardan qan açılsın.

– Kimin burnundan?

– Həm onun, həm də bizim.

Üləma əlini qaldırıb camaatı sakitləşdirdi. Əvvəlcə Əhməd padşahın adına xütbə oxumağa başladı. Həmin xütbədə əvvəlcə Sultan Bəyazidi yad elədi. Bu isə uğultuya səbəb oldu. Sonra Əhməd padşahın adını çəkdi, sonra üzünü bazar əhlinə tutub dedi:

– Ey məmləkət əhli, bu sözləri sizə məscidlərdə də deyəcəklər. Amma bu bazarda dünyanın bütün ölkələrindən gələn tacirlər var, qoy onlar padşahımızın ədalətini görüb, gedib hər yerdə danışsınlar. Allah Əhməd şahı bizim üstümüzdən əskik eləməsin. O, öz mübarək barmaqları ilə fərman imzalayıb. O fərmanla rəiyyətlərini bir çox ağır vergilərdən azad eləyib. Hansıdı o vergilər? O verginin biri biyardı ki, məccani yerə rəiyyəti işlədib qalalar, saraylar tikdirir, yük daşıdır, yol çəkdirirdilər. Canınız indi oldu azad. Gedin padşahımızın canına qəni-qəni dualar oxuyun. O vergilər ki, siz verirdiniz, hansı ki, ixracatdı, iştağatdı, sərnədi nə bilim nədi, onları padşah sizin ömrünüzə bağışlayır.

Bazarda bir hay-küy düşdü ki, ağız deyəni qulaq eşitmədi. Fərraşların arasından keçən ac-yalavac adamlar hökmdarın atının dırnaqlarından, quyruğundan, ən xoşbəxtləri isə onun ayağından öpə bildi. Candarlar onları güc-bəla ilə ayıra bildilər. Bundan ötəri yumruq-təpiklərini də işə saldılar. Zərbədən ağzı qanamış biri yerindən çıxmış dişini tüpürüb dedi:

– Hökmdar, canım sənə fəda olsun, vergini götürmüsən, atan rəhmətlik, buna görə atının ayağından öpməyə gəlirəm, atın da tərpənmir, ona da canım qurban, bəs bu alqışa görə vurub dişimi salan eşşəyinə nə deyim?

Adamları sakitləşdirib Əhməd padşahın dayandığı meydanı təmizləyəndən sonra üləma minbərdən moizəsini davam etdirdi:

– Ya əhli Təbriz, yaxşı-yaxşı eşidin və eşitməyənlərə deyin, rəiyyətin verdiyi otuz beş cür verginin iyirmisi bu gündən başlayaraq Əhməd padşahın və onun övladlarının vaxtında alınmayacaq. Hansı vergilər ləğv olunmur? O vergilər ləğv olunmur ki, Qur’ani şərifdə deyilib, onu peyğəmbər buyurub. Onlar xumdu, zəkatdı, cizyədi, üşrdü və ilaxır. – Bu vergilərin adlarını o çox səliqə-sahman və aramla, bir az da qürurla dedi. Çünki bu vergilərin birbaşa ona və digər ruhanilərə xeyri vardı.

Səs-küy yenə də artdı. O, bu dəfə də onları sakitləşdirdi:

– Niyə dayanmısınız, ey əhli Təbriz? Gedin məscidlərə, dualar edin. Üç gün bayramdı.

Əhməd padşah üləmaya bir işarə də verdi. O axırıncı sözünü deməliydi.

– Hələ dayanın. Padşahın bir sözü də var. O da bundan ibarətdi ki, il xanilərdən, cəlayirlərdən, çobanilərdən, qaraqoyunlulardan, Həsən padşahdan, Sultan Yaqub Mirzədən, Bəysunqur Mirzədən, Rüstəm Mirzədən kimdə padşah fərmanı, yarlıq varsa, saraya gətirsin. O fərmanları ki, onlarla kiməsə syürqal bağışlayıblar, torpaq, kənd əta eləyiblər, həmin fərmanları padşahımız təzədən öz mübarək möhürü ilə təsdiq eləyəcək.

Əhməd padşahın bazarda görünməyi, vergiləri azaldıb e’lan eləməyi qara camaat arasında hay-küyə səbəb olmuşdu, indi hər evdə, hər küçədə, hamamda, dükanda, karvansarada söhbət yalnız ondan gedirdi.

Taxta gündə biri çıxsa da, heç kəs onların üzünü görə bilmirdi. Hər dəfə hökmdar şəhərə çıxanda fərraşlar adamları qovub evlərə doldurur, qapıları bağlayır, ya da onları üzü divara çevirirdilər ki, qibleyi aləmin mübarək sifətini görməsinlər.

İndi Əhməd padşah özü gəlmişdi bazara, rəiyyətin yükünü yüngülləşdirmiş, onu fil yükündən ağır vergilərdən azad etmişdi. Həmişə duranda da, oturanda da Uğurlu Məhəmmədə lə’nət, nifrin yağdıran camaat bir günün içində dönmüşdü və o qədər ona alqış demişdi ki, bəlkə də həmin nifrinlərdən min dəfələrlə çox. Uğurlu Məhəmmədin dar ağacından asıldığı yerdə qurbanlar kəsilməyə başladı və meydan qanlı gölə döndü.

www.kitabxana.net

Hovuzun suyunun şəfəqi tağlı səqfin kaşılarında oynayan hamamda başı araqçınlı, qırmızı hənalı saqqalı ağ köynəyinin üstünə tökülən dəllək bardaş qurub oturmuş müştərinin saqqalına həna yaxırdı və bütün dəlləklər kimi o da çoxdanışan idi.

– Ağa, bu təzə padşahın canına tanrı qıymasın. Boydan balaca olsa da, babası Uzun Həsəndən böyük işlər görür. Rəiyyətin, əsnafın tərəfdarıdır. Daha buna heç kimin dişi batmaz.

Müştəri iri gözlərini dəlləyə dolandırdı. Dəllək bu baxışdan üşəndi.

– Ağa, düz demirəm bəyəm?

– İşini gör.

– Ağa, vallah yaxşı padşahdı, kasıb-kusubun tərəfindədi.

– Allahnan allahlıq eləmək olar? – Müştəri qızışdı.

– Əstəğfürulla, əstəğfürulla! – Dəlləyin çirməkli qolları biləkdən aşağı yaşıl həna horrasının içindəydi, əlini ağ fitəsinə də çəkmişdi və orada barmaq yerləri qalmışdı.

– Allah bilməsəydi varlını varlı, yoxsulu yoxsul yaratmazdı. İndi o kişinin işinə əl uzatmaqmı olar?

Dəllək fikrə getdi. Müştərinin sözündə də həqiqət vardı. Dəlləyin beyninə yerimiş həqiqət.

– Deməli ağa, Əhməd padşah Allahın yolundan çıxıb?

– Onu mən demirəm, sən deyirsən.

Dəllək lap xataya keçmişdi.

– Ağa, deyirsən bəyəm o qədər vergini belimizə palan kimi Allah özü qoymuşdu?

Müştəri Əbih Sultan idi. Hamama gəlib camaatın danışıqlarına qulaq asmaq istəyirdi. Əhməd padşah yaman onun xətrinə dəymişdi. Rüstəm Mirzənin başını gətirəndən sonra ondan böyük ənam, yüksək vəzifə gözləyirdi. Amma Əhməd padşah o başa baxmış, dönüb Əbih Sultana demişdi.

– Bu padşahla kaç il arkadaşlıqda bulmusan?

– Beş il, qibleyi aləm.

– Beni beş gün də görmedin, beş yılın arkadaşının kafasını benə gətirdin. Benim kafamı da beləcə düşmenime bağışlarsan. Haydı, gözümdən çəkil, senin enamın budur ki, sene el bulamıyorum, – demişdi.

Beləliklə onun əli saraydan, ixtiyardan, əmir əl ümaralıqdan çıxmışdı. Sarayın qapısından tutmuş bütün adamlarına qədər Gödək Əhməd İstanbuldan gətirmişdi.

Bu tezlikdə təslim olsa ona Əbih Sultan deməzlar. Hamama gəlib camaatın fikrini öyrənmək istəyirdi. Düzdü, camaatın fikrini bilirdi, kiməsə cavab qaytarmaq, şübhə toxumu səpmək də lazım idi. O, dəlləyə dedi:

– Hökmdar yerdə Allahın kölgəsidir. Bu təzə kölgədi. Qara camaatı öz tərəfinə çəkmək istəyir. Axırını gözləyək, görək nə olacaq. İndi başlayıb özündən qabaqkı hökmdarların, Həsən padşahın fərmanlarını yığır. Təzədən möhür basmaq adıyla. O syürqalları alıb Rum elindən gələnlərə paylayacaq, bizim əmirlər, bəylərbəyilər qalacaqlar quru yurdda. Hamımız olacağıq Fateh Məhəmmədin qulları, qaravaşları. Siz də səhərdən axşama ona dua oxuyur, qurban kəsirsiniz. Elə ki, yerini bərkitdi, onda deyəcək, bura bax, gətir o vergilərin hamısını. Onda hər şey gec olacaq.

Bu vaxt hamamda kirli saqqalı, cır-cındır geyimi, əlində kəşkülü və təbərzini olan bir dərviş oxumağa başladı.

Yer yox ikən, göy yox ikən, ta əzəldən var idim.
Gövhərin yekdanəsindən irəli pərgar idim.

Gövhəri ab eylədim, tutdu aləmi sərbəsər,
Yeri-göyü, ərşi-kürşü yaradan Səttar idim.

Girdim adəm cisminə, kimsənə bilməz sirrimi,
Mən bu beytullah içində ta əzəldən var idim.

Gah Hüseynlən belə pustumu soydu qazilər
Gah o Mənsur donuna girdim, "ənəlhəqdar" idim.

Dərviş şe'ri oxuyub qurtarandan sonra təbərzini qaldırıb yerə vurdu.

– Oyanın ey insanlar, ey dünyanın zülmünə dözüb, qabaqlarına it kimi bir tikə sümük atanda dünyada özünü xoşbəxt bilən məzlumlar. Yer üzünə zamanın sahibi qayıdıb.

– Kimdi zamanın sahibi, Əhməd padşah? – deyə dəllək maraqla soruşdu.

– Zamanın sahibi birdi. Vaxtilə qeyb olmuşdu, indi qayıdıb. Bu şe'r də onun sizə müraciətidi.

Dərvişin kəşkülünü pulla doldurdular, onu sorğu-suala tutdular. Zamanın sahibinin kim olduğunu soruşdular, demədi. Harada peyda olduğunu soruşanda, bircə kəlmə dedi:

– Ərdəbildə!

Əbih Sultan barmağını dişləri arasına aparıb sıxdı.

– Bu İsmayıldı. O vaxt da əlimdən çıxdı. Onun gözlərindən mən qorxmuşdum. O gözlərdə çox şey oxunurdu və ona görə də bütün ölkəni ələk-vələk elədim, tapa bilmədim. Ərdəbil qazisi də dedi ki,axı o zamanın sahibidir, o qeyb olub, təzədən peyda olacaq və səni harada gizlənsən də tapacaq. İndi o peyda olub. Mən niyə axır günü yox, elə yaşadığım günü fikirləşmişəm.

Onun bədənində soyuq tər damcıları əmələ gəldi. Alnında, kürəyinin arasında elə bil damcılı buz bulaq axmağa başladı və onu üşütmə tutdu. Dərvişin oxuduğu o qəzəl heç kimin yox, zamanın sahibinin, hər şeyə üsyan edən, dünyadan əvvəl yarandığını təsdiq edən şəxsin, həm də çox qüdrətli, mö'cüzəli bir şəxsin dilindən çıxıb. Bu onun şe'ri yox, dünyaya, insanlara ittihamıdır və özünü Allahla bərabər tutur, bir az ondan kiçilir. Yox, bu İsmayıl doğrudan da möcüzələr törədəcək və onda Əhməd padşahın da ölümünə bir şey qalmayıb.

Əbih Sultana ölüm soyuğu, şaxtası keçmişdi və dəllək də onun rənginin ağardığını, soyuduğunu hiss elədi. Qışqırdı:

– Camadar!

Belinə qırmızı fitə bağlanmış arıq, damardan, dəridən və sümükdən ibarət olan, ağzında damaqdan və dildən başqa heç nə qalmayan camadar qaçıb gəldi.

– Bu müştərini isti suyun altında yaxşı-yaxşı ovxala. Yoxsa, ölüb əldən gedəcək.

– Nə olub?

– Zamanın sahibinin gəldiyini eşidən kimi belə oldu. Görünür bu dünyada günahları o qədər çoxdu ki, hələ məşhər ayağında dayanmış canını tapşırmağa tələsir.

Əbih Sultanın danışmağa dili yox idi. Dəlləklə camadar onu buxardan göz-gözü görməyən hamama gətirdilər...

## ƏRCİVAN SƏFƏRİ

Ölkənin əhalisi iki tərəfə ümidlə baxmağa başlamışdı. O tərəflərdən biri Təbriz idi, Əhməd idi ki, vergiləri azaltmışdı, bu görünməmiş iş idi, kasıb-küsüb üzünü tutmuşdu Təbrizə və ona dualar tökürdü. Amma bu qanun Təbrizdən kənara çıxmamışdı. Çünki, Əhməd padşahın ətrafındakı osmanlı qoşunlarının əsas vəzifəsi Təbrizi əldə saxlamaq, cavan şahı qorumaq idi. Əyalətlərə göndərilən fərmanlar isə yenə də əmirlərin əlinə düşürdü. Təbriz sarayında o əmirlərə verilən syürqal yarlıqları, fərmanları e'tibarsızdır deyə yandırılan kimi, əyalətdəki əmirlər də şahın fərmanlarını boş kağız parçası kimi yandırır, qara camaatdan istədikləri vergiləri toplayır, bir az da qüvvətlənirdilər. Çünki onları topvergiyığanlar birbaşa əslində ixtiyardan salınmış əmirlərin anbarlarına yığırdı. Qara camaat şahın fərmanını eşitmişdi, ona görə də axın-axın kəndlərini, el-obalarını atıb Təbrizə axışırdılar. Birdən-birə Gün doğandan – Ərdəbildən bir səs ucaldı:

– Yer yox ikən, göy yox ikən, ta əzəldən var idim.

“Zamanın sahibi peyda oldu” xəbəri də hamıya çatdı. Əvvəl onları bir ümid yarıdırdısa, indi artıq ikinci ümid ortaya çıxmışdı. İndi hara üz tuqacaqlarını da bilmirdilər.

Ədalət gətirib onları ağır yükdən xilas eləməyə çalışan padşahın yanına, yoxsa yer üzündəki bütün ədalətsizlikləri məhv eləməyi, zülmkarları məşhər ayağına çəkməyi özünün əsas məqsədi e’lan eləyən zamanın sahibinin yanına... Hamı başını itirmişdi. Belə qarışıq, iki ümid arasında dayanıb çaş qalan vaxtda ən fərasətlilər, özlərinin bir məqsədi olanlar daha çox qazanc götürə bilərdi.

Camadarla dəllək Əbih Sultanın soyuq tərini isti buxarla müalicə edəndən sonra özünə gəlmiş, təzədən ondan isti tər açılmış və fikirləşmişdi ki, üçüncü soyuq tərə qədər onun ömrü var və bu müddətdə bildiyini etməlidir.

O, bu iki ümidin heç birindən yaxşılıq, xeyir gözləmirdi və onların hər ikisini məhv eləməyin planlarını tökməyə başladı. Yenə də “namaza” dayandı.

– Ya tanrı, məni heç vaxt naümid qoymamısan. İndi də mənə ağıl göndər. Elə bir ağıl ki, Əhməd padşahı da, zamanın sahibini də aradan götürməyə çatsın. Bilirəm ki, onların ikisi də güclüdür. Heç birinə qarşı qoşun çıxarmaq olmaz. Əvvəla mənim qoşunum yoxdur. Rüstəm Mirzənin xəzinəsindən başqa məndə heç nə qalmayıb. Əhməd padşahı qoşunla heç vaxt məğlub eləmək olmaz. Onun arxasında elə qüdrətli bir hökmdar dayanıb ki! Zamanın sahibinə qarşı da gedə bilmərəm. Bəs necə eləyim? Bu iki qüvvəni biri-birinə salmaq necə? Yox, o da alınmayacaq. Əhməd padşah Ərdəbil tərəfə qızılbaşların üstünə qoşun göndərməyəcək, çünki İsmayılı o güclü qüvvə hesab eləmir. Əyalət hakimlərinə tapşıracaq, onlar da qorxularından ona qarşı güc göstərməyəcək. Bəs kimə arxalanmaq olar? Ey ulu tanrım, mən səndən nə qədər də razıyam. Sənin köməyinlə tapdım. Şirvanşah Fərrux Yasar. Bu məqamda onnan başqa ikinci bir qüvvə bu iki axının qabağını almağa qadir deyil. Birincisi Fərrux Yasar Rum sultanının Təbrizi tutmağına yəqin ki, tez bir zamanda Şirvanın istilası və şirvanşahların aradan götürülməsi kimi baxır. İkinci tərəfdən Təbriz taxtı onun yaxın qohumlarının əlindən çıxıb. Təzədən Ağqoyunluların qanı yad qana qarışmamış şahzadələri, ya Əlvənd, ya Murad Mirzəni taxta çıxarmaq üçün əlindən gələni eləyə bilər. Bu işdə ona kömək lazımdır. Çünki onun yanında mənim qədər ağıllı siyasətçi yoxdur. Axı o bilir ki, Bəysunquru taxtdan mən salmışam, döyüşdə mən məğlub eləmişəm. Bunun əvəzini mənə qaytarmazmı? Yox, inanmıram. Nə Bəysunquru qaytarmaq olar, nə də Sultan Yaqubu. Bundan sonrakı işlərdə isə onun ən yaxın köməkçisi olan Əbih Sultan, onun qohumlarını Təbriz taxtına qaytarır. O, dünya görmüş qocadı.

O ki qaldı qızılbaşlara, onlar Fərrux Yasarın ən qəddar düşmənləridir. İsmayılın öldürülməyi üçün bütün xəzinəsindən keçər.

– Tapdım çıxış yolunu yenə. Ey ulu tanrı, sən mənim ağlımı həmişə belə kəsərli, qılıncımı iti, atımı yüyrək elə.

Payız yağışlarla başlamışdı. Pirsaat çayının iki tərəfində ovulmuş, min illərlə sellər-sularla yuyulmuş, yayılmış, o dənəvər torpağa çevrilmiş təpələrdə təzədən göy otlar cücərirdi. Yağış təzəcə dayanmış, qara yun əlçimi kimi uzanmış buludlar keçib aşağıya, Kür üstünə getmişdi. Bu təpələrdən indi yuyulmuş, təmizlənmiş, toz altından çıxmış yovşanın ətri gəlirdi. Atlı cilovu buraxıb sonsuz-bitkisiz təpələrin arasındakı cığırlardan aşağıya– Pirsaat çayının vadisinə enirdi.Baba dağından başlayıb Şamaxı yanından keçən çay burada torpağı neçə yerdən qılınc kimi kəsmiş, özünə yol açmışdı. Atlı dayandı, qarşısında, vadilə çayın sol sahilində uca minarə görünürdü. Əlini sifətinə çəkib salavat çevirdi. Bura Pirhüseyn Xanəgahı idi. Gün aşağılara əyilmişdi. Günün qızıl xəncərlərə oxşayan şüaları buludların arasından keçib yerə sancılmışdı. Qalan hər tərəf bulud idi və belə görünürdü ki, bu buludlar tezliklə çəkilib gedəcək.

Kürün Cavad bərəsindən adlayan atlı yolda narın yağışa düşüb sümüklərinə qədər islanmışdı və Xanəgahı görəndən sonra sevindi. Üst-başını qurudacaq, gecələyəcəkdi. Özü də möhkəm acmışdı.

At da elə bil yaşayış məskəni gördü və addımlarını yeyinlətdi. Yol kənarlarında cücərən yaşıl otlar o qədər kiçik idi ki, onları qırpa bilməmişdi.

Atlı xanəgahın həyatinə girəndə burada çoxlu dərviş, tacir, cürbəcür yol adamları gördü. Yəhərdən düşdü. O, rübənd salmışdı və gözlərindən başqa onun sifəti görünmürdü. Atı yedəyinə alıb hər iki tərəfi mavi kaşılarla bəzənmiş darvazadan içəri girdi, xanəgahın içərisinə girən kimi sağ tərəfdəki qapı minarəyə qalxırdı, sol tərəfdə hovuz vardı və onun yanında bir neçə at bağlanmışdı. O da atını bağladı, tərpənişlərindən xanəgah xidmətçilərinə oxşayanlara tapşırdı ki, atın qabağına arpa töksünlər. Özü də yemək üçün hara getməyi öyrəndi. Karvansaranın yanındakı hücrələrdə adamlar yeməklə məşğul idi. O da oturdu. Piti, plov yedi, sonra isə xanəgahın ibadətgahına girib buradakı qəbirləri ziyarət elədi. Ondan qabaqda dayanıb ibadət eləyən, eyni vaxtda namaz qılan ona tanış gəldi. Ancaq harada gördüyünü fikrinə gətirə bilmədi. Qara örtük çəkilmiş qəbrin üstündə yanan şamların titrək işığında bu adamın kürəyini və boynunun ardını görürdü. Bir də ki, bu dünyada o qədər adam görmüşdü ki, onlarla üz-üzə, göz-gözə gəlməmək üçün sifətini örtmüşdü.

Elə oldu ki, qabaqdakı adam namazını və ibadətini qılıb qurtarandan sonra çıxdı, o isə hələ də fikirləşirdi.

Tanıya bilməmişdi.

– Necə eləyim? Buradan çıxıb Şamaxıya yol alımmı? Gecədir, yolları da tanımıram. Qaçaq-quldura rast düşərəm birdən.

O, ibadətxanadan çıxanda gördü ki, qarşısında həmin adam dayanıb.

– Axşamın xeyir, Əbih Sultan.

Bu Cibo Səfər idi və Əbih Sultanı gözlərindən tanımışdı. Əbih Sultan onu indi tanıdı və əvvəl boynundan atmaq istədi.

– Məni kiminləsə səhv salırsan.

– Yox. Neçə dəfə mənə pul vermisən. Demisən ki at al, libas al. Cibo Səfərəm də, Murad bəy gətirmişdi ha "Səkkiz behişt" sarayına.

– Hə, hə, indi tanıdım. Amma mənim kim olduğum barədə bir kəsə də bir kəlmə demə, oldu?

– Bu nə sözdü? Mən çox ağzıbütöv adamam. Soruşmaq ayıb olmasın, hara belə?

– Heç özüm də bilmirəm. Bəs sən hara?

– Mən də neçə illər yad ölkədə dolandım, indi görürəm, yox. "Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı". Daha qocalmışam, istəyirəm qohum-əqrabanın yanında ölüm, onların çiynində gora gedim. Görürəm ki, yad danası tutanın axırda çatısı əlində qalır.

Əbih Sultan onun dediklərinə, yanmış, qaralmış sifətindəki xırda göy gözlərinə inandı. İnandı ki, onun qəlbi artıq qızılbaşlardan qırılıb,ümidlərini itirib, geri dönür.

Amma Cibo Səfər məqsədini ondan gizlədirdi. Hamıdan gizli saxlamalıydı o məramı. Çünki onu Şamaxıya Lələ göndərmişdi. Oradakı dərvişlərə qızılbaşların sözlərini çatdırmalıydı, "Zamanın sahibinin" gəlməyi xəbərini yaymalıydı. Budur, yenə də Əbih Sultanla qarşı-qarşıya gəldi. Onlar gəlib hücrədə oturdular. – İndi haradan gəlirsən?

– Haralarda olmadım ki? İsfahanda, Şirazda. Gördüm yox, əl vermir. Heç kimi tanımıram, heç kim də məni tanımır. Bir gün küçədə öləcəm, it kimi sürüyüb atacaqlar bir dərəyə, üstümü torpaqlayacaqlar.

Əbih Sultan cibindən bir kisə də pul çıxarıb onun cibinə qoydu.

– Götür. Mən sənə demişdim ki, qızılbaşlara uyma, onlar şiə, sən sünnü. Sənə sahib durmayacaqlar. Arada bir sözümdən çıxdın. İndi gəlirsən də mən deyənə.

– Düz deyirsən, başına dönüm.

– Onda mənə Şamaxıya qədər yoldaşlıq eləyərsən?

– Niyə eləmirəm. Elə mən də yoldaş axtarırdım. –Cibo Səfər məmnuniyyətlə razı oldu.

– Mən İsfahan körpüsünü çox xoşlayıram.

– Hansı körpünü?

Əbih Sultan indi başa düşdü ki, Cibo Səfər ona yalan deyir. Nə İsfahanda olub, nə də Şirazda. Üstünü vurmadı. Deməli onu qızılbaşlar göndərib.

– Səfər, eşitmisən, sahibi zaman zühur eləyib.

Səfərin rəngi bir az dəyişdi.

– Rəngin niyə qaçdı?

– Sahibi zaman zühur eliyəndə adamın gərək qanı qaçsın. Rənginə nə var ki. Harada zühur eləyib?

– Ərdəbildə. İsmayıl zamanın sahibi kimi ortalığa çıxıb. Xəbərin var?

– Yox, eşitməmişəm. Sən onlara elə sitəm çəkdin ki, bir də özlərinə gələlər?!

Onların söhbəti xeyli çəkdi. İkisi də biri-birilərini başa düşdülər, amma üstünü vurmadılar və özlərini elə göstərdilər ki, guya heç nədən şübhələnmirlər. Sonra Səfər əsnədi, yatmaq bəhanəsilə çıxdı və onunla gələn, ancaq guya onu tanımayan dərvişlərdən birini darvazadan çölə çıxarıb başa saldı ki, o geriyə qayıdıb Əbih Sultanın Şamaxıya getdiyini xəbər versin.

Həmin gecə Əbih Sultan da yatmadı. Obaşdan yuxudan oyanan Cibo Səfər onu tapa bilmədi.

Qızılbaşların min beş yüz nəfərlik dəstəsi Ərdəbilin yanında düşərgə salmışdı. Lələ təzədən şəhər valisi Əli bəy Cəyirlinin yanına adam göndərdi, qızılbaşları şəhərə buraxmağı tələb elədi.

Əli bəy Cəyirli Rüstəm Mirzədən sonra yüksəlmişdi, Ərdəbil valisi olmuşdu. Onun bacarığına, çevikliyinə, igidliyinə görə arxayın olmuşdular. Həm də Ərdəbil elə bir yer idi ki, orada hər adam baş çıxara bilməzdi. Çünki Şeyx Səfiyyəddin piri ölkə içində ölkəydi və bu ölkə Ərdəbilin içərisinə düşmüşdü. Müridlər Rüstəm padşahın vaxtında da bura axışırdı. O müridlərin isə öhdəsindən gəlsə Əli bəy Cəyirli gələ bilərdi. Əli bəy bir tərəfdən də Ağqoyunlu şahzadəsi Əlvənd Mirzə ilə qohum olduğuna görə Əbih Sultanı saraydan uzaqlaşdırmışdı. Əlvənd Mirzəni Rüstəm Mirzənin yerinə keçirəcəyindən şübhələnmişdi. Ərdəbilə göndərməklə onun başını qarışdırmışdı.

Əli bəy də Əlvənd Mirzəni yanında saxlayır, məqam gözləyirdi. Rüstəm Mirzə öldürülüb yerinə Gödək Əhməd paşa keçəndən sonra onlar hər an fürsət axtarırdılar. Əlvənd Mirzə taxta çıxmalıydı. Onun bircə rəqibi var idi: Murad Mirzə. İndi kim tez tərpənsə, həmin şahzadə taxta oturacaqdı. Əhməd padşah isə hələlik taxtda oturmuşdu və öz islahatları ilə məşğul idi. Birdən-birə bu müridlər çıxdı meydana. Əli bəy məsələdən xəbər tutan kimi şəhərin darvazalarını bağladı. Onun kifayət qədər qoşunu da vardı, İsmayılın kiçik dəstəsinin üstünə gedə bilərdi. Qorxurdu. Bir ondan qorxurdu ki, sahib zamanın mö'cüzəsi onu daşa döndərər, ya başına başqa oyunlar açar, ikincisi də qorxurdu ki, döyüşçüləri şəhərdən çıxan kimi İsmayılın tərəfinə keçərlər, o isə Əlvənd Mirzə ilə tək-tənha qalar. Onları şəhərə buraxmağa da qorxurdu. Onu tutub yerində öz adamlarını oturdarlar, bütün var-yoxunu talan eləyərlər, Əlvənd Mirzənin burada olduğunu bilsələr onların hər ikisini götürüb aparарlar.

Qapılar bağlanandan sonra şəhərin camaatı küçə və meydanlara, qala bürclərinin üstünə qalxıb uzaqdan da olsa, İsmayılı görmək istəyirlər. Əli bəy Cəyirlinin hərəkəti onların hamısını pərt eləmişdi. Şeyx Səfiyyəddin türbəsində gündə üç dəfə ehsan yeyən adamların heç biri şəhər hakimindən acgözlükdən başqa bir şey görməmişdi, istər-istəməz İsmayılın tərəfində idilər. Şəhərdə uğultu artırdı. Fərraşlar da görürdü ki, bu adamların qabağında heç bir qapı dayanmayacaq.

Bu vaxt dağın üstündəki çadırların yanında yüyəni və yəhəri alışıb-yanan bir ağ at göründü və bərkdən kişnədi. Bunu görən şəhər əhlindən bir "vaveyla", "şaxsey-vaxsey" nidası qopdu ki, gəl görəsən. Hamı bilirdi ki, zamanın sahibi ağ atın belində "peyda" olacaq.

Amma Mehdi sahibi zaman üçün heç bir hasar, darvaza, sədd olmamalı idi. O hamısını keçməlidir. Bu isə elə atın üstündə dayanıb baxır.

– Canım sənə qurban, ey xilaskarımız.

– Çox özündən çıxma, sahib zaman hələ bir şəhərə sahib dura bilmir, - deyə kimsə dilləndi və yüz yerdən onun başına qapaz endi. Bir də gördülər ki, o sözü deyən ayaq altında pamal olub.

Əlvənd Mirzə Əli bəy Cəyirliyə dedi:

– Bəlkə qoşunu çıxarıb onları şil-küt eləyək?

– İnanmıram. Onlar o tərəfdən, qara camaat da bu tərəfdən başlasa işlər fəna olar.

Camaat darvazalara tərəf axışdı. Keşikçilər axını görüb qaçıb gizləndilər. Və qapıların arxasına keçirilən tirləri çıxarıb onları taybatay açdılar. Axın dağa tərəf getdi, yoxuşu çıxana qədər xeyli çəkdi. İsmayıl ağ atın üstündə oturub onlara baxırdı və birdən-birə Lələ başa düşdü ki, bu adamlar ehtirasdan atı da, İsmayılı da tikə-tikə eləyə bilər, özü qabağa çıxdı, əllərini yuxarı qaldırdı:

– Xamuş! -deyə qışqırdı.

Axın yoxuşu çıxanda yorulmuş, təngnəfəs olmuşdu. Hamı dayandı. Lələ onlara müraciətlə başladı.

– Ey əhli Ərdəbil, üzünüzə gün doğan gündür. Şeyx Səfiyyəddinin ocağından dünyaya gələn sahibi əz zamanı ilk dəfə siz görmüsünüz. O, sizin bütün günahlarınızı, o günahlar ki, o dünyada inkir-minkir dindirib hamısına görə sizdən cavab tələb edəcəkdi, onları bağışlayır. Özünüz gördünüz ki, sahibi zaman qarşısında qapılar özü-özünə taybatay açılır. Necə ki, Ərdəbil qapıları açıldı. İndi biz hamımız Şeyxin türbəsində namaz qılmağa gedirik və xoşbəxtlikdən pişnamazımız zamanın sahibi olacaq.

Minlərlə adam göz yaşını leysan kimi tökür, hönkürtü səsi qayalarda əks-səda verirdi.

– Xamuş, – deyə Lələ yenə onları sakitliyə də’vət elədi. Səslər kəsiləndən sonra o sözünü dedi. – Zamanın sahibi ilahinin bizə göndərdiyi paydı. O, o qədər pak və təmizdir ki, biz dünyanın bütün günahlarına batmış əllərimizi ona toxundursaq, o yenə də qeybə çəkilər və bütün ümidlərimiz alt-üst olar. Ona görə də hamını xəbərdar edirəm, heç kim üç qulacdan artıq sahibi zamana, onun atına yaxın gəlməsin.

Ey camaat, sahibi zamanın peyda olmasının şahidi mən olmuşam. Qarşınızda dayanan qızılbaş bəyləri olub. O bəylər ki, indi burada dayanıblar. – Lələdən arxada Dədə bəy, Bayram bəy və Rüstəm bəy Qaramanlılar, Xadim bəy Xulafa, Qara Piri bəy Qacar siyirmə qılıncla dayanmışdılar və indi onların hamısı qırmızıgöz Həzrət Abbas cildindəydilər. Onların arxa tərəfində ayaqlarını götürüb qoyan atın yəhərində oturan, Sultanəli kimi ağ libaslı, qızılbaş çalmalı və sifətinə rübənd salınmış İsmayılı tərpədirdi.

– Göydən vəh gəldi. O şe’r şəklində gələn vəhi eşitmisiniz.

Yer yox ikən, göy yox ikən ta əzəldən var idim,
Gövhərin yekdanəsindən irəli pərgar idim.

Gövhəri ab eylədim, tutdu aləmi sərbəst,
Yeri, göyü, ərşi-kürşü yaradan Səttar idim.

Adamlar dərvişlərin dilindən eşitdikləri bu şe’ri dinlədikdən sonra təzədən “şaxsey-vaxsey”, “ya Hüseyn, va Hüseyn”-deyə qışqırır, əllərini dizlərinə və başlarına vururdular. Bu qapazların ritmik səsi dağı-daşı titrədirdi. Lələ əlini qaldırdı, hamı sakitləşdi.

– Sizə zamanın sahibinin peyda olmağından danışıram. Elə ki, bu vəh şe’r şəklində zamanın sahibinin dilindən qopdu, məni də, qızılbaş ağsaqqallarını da titrətmə tutdu. Başımızda tüklər qalxdı. Amma bu harasıdı. Bir də gördük ki, bir at kişnəyir. Elə bir dəli kişnərti var ki, olmayan kimi. Hamımız məəttəl qaldıq. Zamanın sahibi gülümsədi və bizi öz arxasınca evdən eyvana çıxartdı. Hardansa peyda olan ağ at ki, indi onu görürsünüz, çapa-çapa bizə tərəf gəldi. Zamanın sahibini görən kimi sağ qolunu qatlayıb yeri eşdi, başını əyib qul kimi dayandı. Hamıya mə’lumdur ki, sahibi zamanı gözləyən millətimiz hər yerdə ağ atlar alıb yəhərli-yüyənli saxlayırdılar. Bunu görən dünya malına hərislər cəhənnəmin qır qazanında bişəcək. Vicdanını itirmiş vücudlar o atların qiymətini də qaldırmışdılar. Amma zamanın sahibinə bazardan alınan at lazım olmadı. Bu qızıl yəhərli, qızıl yüyənli köhlənin özünü xəlqüaləm göndərib. Harda yerə endiyi də mə’lumdur. Lahicanda qayalar var ki, orada heç keçi də gəzə bilmir. Kim getsə, o qayaların başında bu müqəddəs köhlənin ayaqlarının izini görər. İndi o qayalıqlar ziyarətgaha çevrilib.

Lələnin sözlərindən sonra şaxsey-vaxsey təzədən başladı. Haradansa bir dəstə ağ kəfənli peyda oldu. Deyəsən bunları Lələ özü ayırmışdı. Müridlər idi, ağ kəfən geymişdilər. Əllərindəki

qılıncları yavaş-yavaş alınlarına endirdilər. Elə vururdular ki, o qılınc dərini kəsirdi, amma kəllə sümüyünə çatmırdı. Bir anda onların əyinlərindəki ağ kəfənlər qana bulandı.

İsmayıl Lələnin danışdıqlarına qulaq asır, onun məharətinə məəttəl və heyran qalırdı. Bu məharət sərkərdə hünərinə oxşayırdı. Qalaları, şəhərləri almaq istəyən sərkərdə öz əməlini həyata keçirmək üçün hər cür hiyləyə, yalana da əl atır. Amma istədiyinə çatır. Lələ də bu atın peyda olmasını elə danışır ki, bu an İsmayıl da ona inanmağa başlayırdı. Yəqin ki, nə vaxtsa özü də belə danışacaq. Yoxsa bu ümidi yığılan insanlara inandırmaq olmaz. Əgər desə ki, atı Lahicanda Mirzə Əlinin ilxısından seçib, özünə də xeyli tə'lim keçmişik, onda kimin qəlbində ümid qalar? O qığılcım sönüb gedər. Qara camaatın da, qızılbaşların da ümidləri alt-üst olar.

– Biz qeybdən gəlmiş köhlənə Qızılqanad adı vermişik. O, ayaqlarını yerə döydü. Bir anda bütün qızılbaşlar atlandı. Amma hara gedəcəyimizi bilmirdik. Çünki zamanın sahibinin divan edəcəyi-məzlumların haqqını tapdalayan, halalı harama çevirən, dünyanı cəhənnəmə döndərən məxluqlar hər yerdə var. Amma Qızılqanad bizi gözümüzü açıb yumana qədər Ərdəbilə çatdırdı. Bu üç-dörd mənzillik yol idi.

Zamanın sahibi buyurdu ki, onun böyük səfəri, ölkədə xeyiri şərdən, işığı zülmətdən, yaxşını pisdən, acını şirindən ayırmaq üçün başlayacağı səfər Ərdəbildən, Şeyx Səfi türbəsindən başlayacaq, ona görə də Qızılqanad oraya tələsir. Xamuş, sakit olun, zamanın sahibinin mübarək səsini eşidin.

Başlara dəyən qılınclar, sinəyə dəyən ağır zəncirlər, ağızlardan, burunlardan çıxan nəfəslər dayandı. Bütün güc qulaqlara keçdi. Onun hər sözünü eşitmək istəyirdilər. İsmayıl rübəndini qaldırmadı.Tülün arxasından dumanlı gördüyü insanlara üzünü tutdu.

– Ey aciz və fəqir insanlar!

Hamı onun sinəsində məlahət hiss elədi. O səsdəki məlahətdən də qat-qat artıq, əldə imkanları olsa bir-bir bu sözləri tutub sapa düzər, ürəklərinin başında gəzdirərdilər.

– Allah təala hamını eyni gözdə görüb. Hamıya iki göz verib görsün, iki qulaq verib eşitsin, hamıya iki əl verib işləsin, amma hamıya bir ürək verib, bir ağız verib yesin. Bunun əvəzində insanlar nə eləyir? O gözlər ki, görmək üçündü, onları döndəriblər mə'dəyə, o mə'də isə həmişə acdı. Acgözlük bir insanı başqasının varına, dövlətinə, canına qəsdə sövq eləyir. Qulaqlar eşidir. Amma o qulaqlar xoş xəbəri yox, pis xəbəri ürəklərə daha tez çatdırmağa öyrəşib. O əllər ki, Allah təalanın hədiyyəsidi, onunla yer əkmək, ağac bitirmək, dünyanı cənnətə çevirmək üçün ə'ta olunub, o qılınc götürür, qanlar tökür ki, həmişə göydə olmalı, göylərdən xoşbəxtlik və kərəm diləməlidir, haram mala uzanır, oğurluq eləyir, özgəsinin malına və canına qəsd eləyir. O ürək ki, özgəsinin dərdini duymağa görə verilib, məzlumun göz yaşından, yer üzünü tutan bədbəxtlikdən sıxılmır. Kif bağlayıb o ürəklər. Təmizləyin o ürəkləri.

Yuxuda babam Həzrət Əli gözlərimdən öpdü, mənə dedi ki, tanrı səni zamanın sahibi kimi yer üzünə göndərir, birinci o ürəkləri təmizlə. Əgər o ürəklərdə xılt, natəmizlik varsa, yenə də insanlar Allah göndərdiyi rüzunu yox, qurd kimi bir-birilərini yeyəcəklər.

Mən gəlmişəm o ürəklərdəki kifi, xıltı təmizləyəm. Hansı ürəkdə xəbislik, kin-küdurət, ləkə, naqislik var, o insanlar özlərindən küssünlər.

Neçə nəfərin ürəyi gedib yıxılmışdı. Birinin ağzından köpük daşlanır, ağzı-gözü əyilirdi və heç kim ona fikir vermirdi. Çünki əvvəla ona fikir verməyə heç kimin vaxtı və imkanı yox idi, ikincisi də onu belə görənlər daş-qalaq eləyirdilər. Demək ürəyi naqisdir ki, zamanın sahibinin sözlərinə dözməyib, ürəyi keçib.

Əli bəy Cəyirli camaat çıxandan sonra darvazaları bağlatdırmışdı. Arvadlara da hay indi çatmışdı, onlar da qala bürclərinin üstündəydi, oradan enib "şaxsey-vaxsey" deyə-deyə darvazalara hücum çəkirdilər. Keşikçilər nə qədər qılınclarını şaqqıldatdısa da bir şey çıxmadı.

Ağ atın ətrafında o qədər adam vardı ki, nə ot, nə kol, nə daş, nə torpaq görünürdü. Birdən bu təpələr elə bil hərəkətə gəldi. Axın şəhərə tərəf tərpəndi və sonra onların arasından bir yol açıldı, həmin yolla üstündə İsmayıl oturmuş Qızılqanad Ərdəbilə tərəf gəlməyə başladı.

Rəngi kəfənə dönmüş Əli bəy nə edəcəyini bilmirdi. Nə darvazalar, nə silah, nə şəhər hakiminin hökmü kömək eləmirdi. O görürdü ki, bu elə qüvvədir ki, doğrudan da zamana sahiblik eləyə bilər. Qarşısında heç bir səd-filan dayanmır.

Əlvənd Mirzə də onunla bərabər qorxu içində canlarını hara qoyacaqlarını bilmirdilər. Bir azdan bu axın yerisə nəinki onları, sığındıqları bu evləri, eyvanları tikə-tikə, kərpic-kərpic qoparıb toza döndərərdi. Onlar bayaqdan eyvandan baxırdılar, adamlar tərpənəndə artıq dayana bilmədilər və geri çəkildilər. Əlvənd Əli bəyə dedi:

– Yaxşı ox atanların varsa çağır. Zamanın sahibini vursun.

– Zamanın sahibinə ox batar?

– İnsan deyil?

– Bilmirəm.

Adamlar qala qapısına çatanda qıyya çəkən arvadlar fərraşların üz-gözlərini dırnaqları ilə al qana boyayıb darvazaları açdırdılar. Çöldəkilər də necə cumdularsa, bu ağır, dəmir, yoğun cəftəli qapıları dartıb cəftədən çıxartdılar, hay-küy, qışqırıq qopdu. Qapının altında qalıb əzilən, qol-qıçı sınan, ölən də vardı. Amma onlara heç kəs baxmırdı.

İsmayıl Qızılqanadın yüyənini çəkdi. Hamı dayandı.

– Qaldırın o qapıları, o fağırlara kömək eləyin, şəhidləri Darül İrşada gətirib imam övladları kimi dəfn eləyin.

Qapıları qaldırdılar. Ölənləri götürdülər. Çiyinlərində açıq qalmış qapıdan Darül İrşada tərəf aparmağa başladılar.

Artıq Əli bəy Cəyirlinin fərraşları da işi belə görüb camaata qoşuldular.

İnsanların fəryadları, fəci nidaları damlardan içəriyə torpaq tökürdü. Amma bu fəryadlar imam tə'ziyyəsindəki tük ürpədən ağlaşma deyildi. İndi hamı sevindiyindən ağlayırdı, sevincindən başını yarır, sevincindən yanaqlarını cırır, sevincindən saçlarını yolur, əyinlərindəki paltarlarını cırırdılar.

Birdən bu yüksəkliyin, ekstazın, müqəddəsliyin təzahürünün yanında xoşa gəlməyən bir iş oldu ki, o hər şeyi korlaya bilərdi. Lələnin dediyi kimi, qeybdən keçi çıxa bilməyən qayalara düşən, orada ayaq izləri qoyan, həmin ayaq izləri ziyarətə çevrilən Qızılqanad bütün atlar kimi yolda təsləməyə başladı.

Bütün müsəlman aləmində müqəddəsləri özgö cür tanıyıblar. Onların hətta çörək yeməyinə də inanmayıblar. Zamanın sahibinin mindiyi atın təsləməyi bu adamları onlara qarşı çevirsə, qızılbaşların birində bir salamat tikə qalmaz. Deməli, qızılbaşlar onları aldadıb, müqəddəs hisslərilə oynayıb.

Yaxşı ki, İsmayılı atla bərabər qızılbaş müridləri dövrəyə almışdı, hamının da fikri öz canının hayındaydı. Lələ bunu gördü, bir an fikirləşdi və tez kaftanının üstündən geydiyi əbanı çıxarıb atın tərkinə atdı. Nə üçün belə elədiyini də bəlkə heç kim bilmədi.

Əli bəy Cəyirlinin çağırdığı sərrast oxatan kamanı, oxu, oxqabı ilə gəlib çıxdı. Ucaboy, heyvərə bir adam idi. İri, uzanıb altına qapqara çirk dolmuş dırnaqlı əlini döşünə qoydu.

– Mən qulluğunuzda hazır, Əli bəy.

– Nədi sənin adın, igid?

– İsmim Nurquludu.

– Nuru qulu, necə ox atırsan?

O, dönüb eyvandan baxdı, oradan meydan, adamlar, Şeyx Səfinin dəfn olunduğu Darül İrşad görünürdü. Darül İrşadın günbəzinə bir ağ göyərçin qonmuşdu.

– Ağa, o pirin üstündəki göyərçini görürsən?

Əli bəy əlini qaşına qoyub xeyli baxdı. Darül İrşadın günbəzi ona kölgə kimi görünürdü. Amma öz qəbahətini Nurquluya açmadı.

– Görürəm. Ağ göyərçindi , qara da gözləri var.

– Çox düzdü. Dimdiyinin üstündə buruna oxşayan deşiyi də görürsən?

– Görürəm.

– Mən oxu onun burnunun deşiyindən də keçirərəm, gözündən də. Hansını istəyirsən?

Əli bəy gördü ki, o doğrudan da öz işinin ustasıdır. Şübhə yeri qalmadı. Ona bircə ox lazım idi. Haradan atıldığı da bilinməsin. Yoxsa o adamlar onun tikəsini qulağından da kiçik eləyərlər.

– Zəhərli oxun varmı?

Nurqulu hırıldadı.

– Zəhərli oxu o adam gəzdirir ki, onun öz gözünə, əllərinə e'tibarı yoxdu. Haradan dəydi, dəydi. Ölümcül olmasa da oxdan yaralansa da, zəhərdən ölsün. Mən hələ o qədər qocalmamışam. Gözlərim görür,əllərim də əsmir.

– Çox yaxşı. Onda mənə de görüm günbəzdən aşağıda - yerdə nə görürsən?

– Çoxlu adam görürəm. Bütün Ərdəbil oradadı, nə yaxşı sən getməmisən, Əli bəy?

– O sənin işin deyil. Daha nə görürsən?

– Ağ at görürəm.

– Üstündəki ağ paltarlı adamı necə?

– Görürəm.

– O kimdi?

– Əli bəy, o bizim kimi adam deyil, zamanın sahibidi. Kaş onun dediklərini eşidəydin. Mən görürəm ki, dünyanı düzəltməyə gəlib.

– Daha nə görürsən?

– Zamanın sahibinin başında qırmızı dilimləri olan çalma görürəm. Bir, iki, üç... Bu tərəfdən altı dilimi var. Deyirlər qızılbaş çalmasıdı. On iki imama görə on iki dilimnən tikiblər.

– Oxun ora çata bilər?

– Çatar. Niyə çatmır. Mənim oxum yarım mənzil yol gedir. Mən göydə durnanı vururam. And olsun ağam Əbülfəzl Abbasın qələm olmuş qollarına durna qatarının başçısına ox atmışam, arxada uçana atmışam, o düşüb, o birilər heç bilməyib, uçub gediblər.

– Sən ki, belə ox atansan, bəs indiyə qədər niyə səni mənə nişan verməyiblər.

Nurqulu çiyinlərini çəkdi.

– Nə qədər alırsan?

– Heç nə qədər. Az. Böyüyümüz deyir sən ovnan əhli-əyalını dolandıra bilərsən.

– Bu çox pis, sənin o onbaşına bir cəza verim ki, heç vaxt özünə gəlməsin. Deməli, sənin donluğunu özünə götürür.

Nurqulunun sifətində qəribə bir uşaq təbəssümü yarandı.

– Yox, başına dönüm. Bilmədim, dilimnən çıxdı. Qələt eləmişəm.

– Donluğunu da artıracam, indi də sənə iki yüz axça verəcəm. Bunun əvəzində bircə ox atacaqsan.

Nurqulu pul söhbəti eşidib sevindi. Amma ox söhbətinə gələndə sir-sifəti tutuldu. Başa düşdü ki, onun atacağı ox çox bahalıdır, vuracağı adam Əli bəyin qəddar düşmənidir.

– Əli bəy, başına dönüm. Sənin düşməninə ox atmaq mənim üçün böyük şərəfdi. Pul-filan da lazım deyil. Nə böyük işdi ki, oxu qoy kamana, nişan al, kirişini dart burax. Vəssalam. Bu yer əkmək deyil, daş daşımaq deyil.

İsmayılın Qızılqanadının yüyənindən Dədə bəy yapışdı. Xadim bəy onun qolundan tutub yerə düşməyinə kömək elədi. Darül İrşada girdi. Bundan sonra adamların "şaxsey-vaxsey"i göyə ucaldı. Elə bil Ərdəbil şəhərinin bütün evləri, küçələri, daşları, ağacları, quşları birlikdə nalə çəkirdi.

İsmayıl içəri girib ziyarət eləyəndən sonra Lələ ilə bərabər çölə çıxdı. Adamların qarşısında düzəltdikləri minbərə qalxdı. Oradan danışmağa başladı:

– Ey Ərdəbil əhli, bura gələnə kimi əgər mənim gücüm bir idisə, indi min oldu. Babam Şeyx Səfinin ruhu, atam Heydərin ruhu mənə zamanın sahibi olmaqda zamin durdular, bu mənə yeni güc verdi. Mən gedirəm. Səyahətimə də bu müqəddəs yerdən başlayıram.

Onun dayanıb danışdığı minbər Əli bəy Cəyirlinin eyvanından çox yaxşı görünürdü və buradan onu oxla Nurqulu çox məharətlə vura bilərdi. Əlvənd Mirzə ilə o birlikdə fikirləşmişdilər ki, Əhməd padşah İsmayıldan böyük düşmən olsa da, zamanın sahibi gələcəkdə onun üçün çox böyük qorxuya çevriləcək. Ona görə də indidən aradan götürmək lazımdır.

– Nurqulu, oxunu çıxart, qoy kamana, o minbərdə danışan adamı vur. – Bu sözü İsmayıl yaşda, sifətinin cizgilərində hardasa onu xatırladan Əlvənd Mirzə deyirdi. Çünki Əli bəy İsmayılı görmürdü.

– Necə? – deyə Nurqulu dəhşətlə soruşdu. – Mən zamanın sahibinə əl qaldırım? Heç ona əl qaldırmaqmı olar? Ona oxmu batar? Ox atmaq fikrinə düşsəm, quruyub daşa dönərəm.

– Deyirsən zamanın sahibinə ox batmaz?

– Yox, ay ağa. Heç bilirsən o kimdi? Bilirsən göydən ona necə vəh gəlib?

Yer yox ikən, göy yox ikən, ta əzəldən var idim,
Gövhərin yekdanəsindən irəli pərgar idim.

– Sən də inanırsan?

– Niyə inanmayım.Bu boyda yalan olar, bəs? Altındakı o at ki var, Qızılqanad, o atı göydən göndəriblər. Ayaqlarının izi də Lahicandakı qayadadı. İndi ora kor gedənin gözü açılır, övladsıza qurban olduğum övlad verir. Sizdən də utanmazlıq eləyirəm, bir lal qızım var, sabah götürüb aparacam, qurban kəsim, yalvarım, bəlkə dili açıla. İndi ona mən əl qaldırım? Ox atım? Bu oxşadı Fironun gündüz özünə Allah deyib, gecə də təpəsi üstə asılıb Allaha yalvarmağına.

Əli bəy Cəyirli də qorxuya düşmüşdü və ona elə gəlirdi ki, ürəyi üşüyür. Nə qədər baxırdısa, İsmayılı görə bilmirdi, buna görə də ona elə gəlirdi qəlbindəki nifrətə görə zamanın sahibi onun gözünə görünmür. Əlvənd isə onu qızışdırırdı.

– Sənin günahını biz öz boynumuza götürürük. Nişan al oxu at. Sənə əmr eləyiblər, sən də atmalısan.

Xilafətin doqquzuncu ilində, Ömər xəlifə olanda, islamı dünyaya yayan ərəb ordusu Azərbaycanda Xəzər dənizinin sahilinə qədər gəlib çıxmışdı və onlar Bilənçər qalasını mühasirə eləmişdi. Hər yerdə də xəbər yayılmışdı ki, Ərəb atlısına, ərəb əsgərinə ox batmır. Bir gün Bilənçərdə yaşayan türklər pusquda dayanırlar, bu xəbərin doğruluğunu öyrənmək istəyirlər. Ərəb əsgəri atı dənizdə yumağa aparır. Bu vaxt kamandan çıxan ox onun kürəyindən dəyib ürəyindən çıxır. Yıxılıb suda ölür. Bundan sonra söz çıxarırlar ki, bu xəbər yalandır.Əlvənd Mirzə isə əhvalatı bilirdi. Bilirdi ki, şiələrin ən çox inandıqları Həzrət Əlini də qılıncla yaralayıb öldürüblər. İndi Nurqulu ox atsa İsmayılı yaralaya bilər, onu lap öldürər də. Amma bu qanmazı başa salmaq çox çətindir. O bilmir ki, ölməyən təkcə allahlardı, onların göndərdiyi Qur’andır. Əstəğfürulla, peyğəmbər özü də ölüb. Bütün insanlar kimi xəstələnib və ölüb.

– Durub ona oxu atmasan, o oxu ürəyinə sancmasan sənin özünü tikə-tikə doğratdıracağam.

– Qurban olum, ay ağa, əgər mən ox ata bilirəmsə, mənim günahım nədir? Niyə məni məcbur eləyirsiniz ki, günah işlədim.

Əlvənd Mirzə bər-bəzəkli xəncərini çəkib qından çıxardı.

– Atırsan at, atmırsan, özün öləcəksən. – Bu sözdən sonra xəncəri onun kürəyinə dirədi. Nurqulu yalvarıcı baxışla özünə kömək, arxa axtarmaq üçün dönüb Əli bəy Cəyirliyə baxdı. Bu baxış elə bil onu ayıltdı, o da xəncəri çəkib bir tərəfdən Nurqulunun böyrünə söykədi:

– At, deyirlər sənə!

Nurqulu kamanını götürdü. Xəncərlərin iti ucu onu eyvana itələdi. Burada bir an dayandı. Ox qabından oxu götürüb kamana qoydu. Kamanı üzünə qaldırdı. O, əvvəl İsmayılı gördü və birdən hər şey itdi, gördükləri əriyib bir-birinə qarışdı. Gözlərindəki yaş ona nişan almağa imkan vermədi.

– Görmürəm, – deyə kövrək səslə yalvardı.

– Necə görmürsən?

– Görmürəm, yaş qoymur.

Əli bəy Cəyirli dəsmalla onun gözlərini sildi.

– İndi necə, görürsən?

– Hə... – Yaş yenə onu boğdu. Birdən-birə kamanı tullayıb üzü üstə eyvana yıxıldı, hönkür-hönkür ağlamağa başladı...

İsmayıl nitqini qurtarıb aşağı düşdü və üzünü qibləyə tutub namaz qılmağa başladı. Bütün Ərdəbil əhli, minlərlə adam onun arxasında dayanıb onun hərəkətini təkrar eləyirdi. İş burasındaydı ki, indiyə qədər məsciddə belə bir-birindən ayrılan qadınlarla kişilər burada birlikdə əyilir, torpağı öpür, qalxır, ibadət eləyirdilər.

Zamanın sahibilə bir yerdə namaz qılmaq ən böyük səadət və xoşbəxtlik idi. Bu xoşbəxtlik hətta qadınları kişilərə məhrəm eləmişdi.

Namaz qurtardıqdan sonra İsmayıl ağ atına mindi. Atın üzünü döndərdi və ucadan dedi:

– Ey Ərdəbil əhli, mən ata yurduma qayıdacam və sizə xoşbəxtlik gətirəcəm.

Şirvanşah Fərrux Yasar babalarının oturduğu, qoltuqları şir şəkilli qızıl taxtda əyləşmişdi və onun hər iki tərəfində oğulları qızıl kürsülərdə oturmuşdular. O, otuz səkkizinci il idi ki, şahlıq edirdi və bu böyük ildönümünü, culus gününü böyük toy-bayramla keçirmək üçün tədbirlər gördürürdü. Amma həmişə rahat keçən şahlığı artıq elə bir məqama gəlib yetişmişdi ki, özü o culus gününü açıq ürəklə keçirəcəyinə inanmırdı. Çünki Sultan Bəyazid Gödək Əhmədi onun ən yaxın dostları olan Ağqoyunlular taxtına çıxartmışdı. Gödək Əhməd Fateh Sultan Məhəmmədin yeganə qızından olmuş, həm də dayısı Sultan Bəyazidin qızı Aynaşah sultanla evlənmişdi. Əhməd padşah isə gələcəkdə 440 ildən çox bir vaxtda Şirvanda hökmranlıq edən şirvanşahlar sülaləsi üçün çox böyük təhlükə idi. Dünyanın yarısını tutan Osmanlı sultanları yəqin ki, Şirvanı da öz hakimiyyətlərinə alacaqdılar. Bu təhlükə qarşısında dayanmağa onun heç bir gücü və qüvvəsi yox idi.

Bu vaxt onun yanına gəlib sirli bir adamın şahla çox vacib işi olduğunu pıçıldayan eşik ağasına tapşırdı ki, gətirsinlər. Üzü niqablı, qara paltarlı adamın içəri girməyi və hərəkətindən hiss olundu ki, o belə sarayları çox görüb, beləsindən daha zənginində oturub. Görməmiş deyil, şah və hökmdar hüzurunda çox olub. O, çox yüngülcə baş əydi və yaxınlaşıb göstərilən yerdə oturdu. Amma üzündəki niqabı qaldırmadı.

– Eşidirəm, ey namə'lum şəxs!

Bu gələn Əbih Sultan idi, Şamaxıya çatan kimi də, şahın hüzuruna düşə bilmişdi.

– Qibleyi aləm məni tanıyır. Onun yanında günahım da var. Amma Şirvan üçün yaxşı işlər də görmüşəm. İndi Şirvana kömək eləməyə gəlmişəm. Bu sözlərdən sonra o, sifətini gizlədən niqabı götürdü. – Mən Əbih Sultanam.

Fərrux Yasar yetmiş yaşı haqlamışdı. Sifətində isə elə dərin bir qocalıq yazılmışdı ki, sanki onun yüz yaşı vardı. O insan qocalıqdan çox, min illər dayanmış, bütün pöhrələrini itirmiş, şirəsi, şəhdi qurtarmış kötüyə oxşayırdı. Sifəti ağac rəngindəydi. Qabıqları da çürümüş, qurudulmuş qəhvə rəngi almış ağac rəngində. Enli dodaqları ağarmış yun kimi yumşaq bığı və gödək saqqalının arasında qara qoz rəngindəydi, qupquru görünürdü. İri gözləri parlaqlığını itirmişdi. Üzündən niqabı götürəndən sonra Əbih Sultana elə gəldi ki, o, doğrudan da ya ağacdan yonulub, ya da mumdan düzəldilib. Lap pambıq içində yaşayan qocalara oxşayır.

– Yaxşı gəlmisən! Səni göydə axtarırdım, yerdə əlimə düşmüsən. Sən mənə elə dağ çəkmisən, ki, yanğısı yüz ilə də getməz.

O, Bəysunquru çox istəyirdi. Onun ölümü şah kimi yox, dayı kimi onun belini əymiş, xeyli qocaltmışdı.

Əbih Sultan qulaqlarına inanmadı. "Yə'ni mənim fikrim düz çıxmadı? Onu inandıra bilməyəcək? Yox səbrli ol, Əbih Sultan, sən hələ öz fikirlərini izah eləməlisən".

– Qibleyi aləm, öz ayağımla gəlib çıxmışam. Nə cəza versəniz, mən hazıram. Bayaq dedim ki, yanınızda günahım çoxdu. Özüm də bilirdim ki, məni ancaq belə qarşılaya bilərdiniz. Bəs məni buraya çəkib gətirən nədir? Deyir keçinin əcəli çatanda gəlib çobanın çomağına sürtünür. Axı mən keçi deyiləm. Hələ əcəlimin çatmağını da hiss eləməmişəm.

– Sən çox danışacaqsan?

– Bəli, icazənizlə gəlməyimin səbəbini deyim.

– De, de. Onsuz da əlimdəsən. Bu qoca vaxtımda mənim də baxtım varmış. Düşmənlərimdən intiqam almaq üçün xudaya məni heç vaxt məəttəl qoymayıb.

Əbih Sultanın ürəyindəki ümid bir az da artdı. O, ölçüb-biçdi. "Əhməd padşahın boynuma qoyduğu kordanın altından çıxmışam. Bunun təhdidindən, hədəsindən qurtarmağa nə var ki..."

O fikirləşdikcə Fərrux Yasar da onun Şirvana qarşı elədiyi cinayətləri fikirləşirdi: "Süleyman Bicanoğlu bizim ən yaxın dostumuz idi. Bir dəfə dost demişdi, axıra qədər də dost oldu. Şeyx Heydərin şərindən məni xilas elədi. Bəysunqur Mirzəylə də axır günə kimi ayrılmadı. O cür insanı, eşitdiyimə görə bunun qardaşı yıxıb yerə qoyun kimi başını kəsib, üzünü də qibləyə

www.kitabxana.net

çevirməyib. Bunun da cəzası Süleyman Bicanoğlunun cəzası kimi olmalıdır. Amma çox ağıllı tülküdür”.

Əbih Sultan onun tac-çalmasının arxasından çıxan gur saçlarına baxıb düşünürdü: “Şirə oxşayır. O heç vaxt cavanlığında ovunu əldən verməyib, qanının bir damcısını yerə düşməyə qoymayıb. İndi isə qocalıb, caynaqları kütləşib, dişləri tökülüb. Özünün ov üstünə tullanmağa gücü çatmır, qoca canavar kimi balalarını ova çıxarıb, onları qan iyinə öyrədir. Dişləri qana batandan sonra özləri ova çıxacaqlar. Odur, hər iki tərəfdə oturan oğlanlarının gözləri işıldayır. Gecə yol üstünə çıxan adamcıl canavar gözü kimi. Aşağı başdan oturan uzun, keçisaqqal, ciddi görkəmli, oturuşlarından, duruşlarından peyğəmbərlik tökülən bu vəzirlər, vəkillər və üləmalar onların ovuna baxıb razılıqla başlarını yırğalayacaqlar. Bəyəndiklərini bildirəcəklər. Cavan şahzadənin dişlərində qan görən kimi ona mədhnamələr yazacaqlar. Onların heç biri quzunun tərəfində dayanmayıblar. Elə qurdu tə’rifləyiblər. Çünki heç vaxt həyatda karlarına quzu gəlməyib, acgöz canavar doyandan sonra qabağından qalan artıqla yemləniblər”.

Əbih Sultanın özünün də xoşuna həmişə hökmdarlar gəlmişdi. Saraydakı qeyri adamlardan, bəli-bəli deyən, özlərini peyğəmbər kimi göstərənlərdən zəhləsi getmişdi. İndi də aşağı tərəfdə oturanların heç birini insan saymırdı və sanki onların varlığından heç xəbəri yox idi. Hökmdarlar da ona hökmdar kimi yox, uşağın xoşladığı oyuncaq kimi onu əyləndirmişdi. Bir oyuncaqla oynayıb doyandan sonra, onu yenisiylə əvəz eləmişdi. Düzdür, Fərrux Yasara gücü çatmayacaqdı. Əksinə, özünü gətirib onun cənginə keçirmişdi. İndi möhkəm dayanmalıydı.

– Nə oldu, dilin qurudu. Bəysunquru taxtdan salanda, onu öldürəndən sonra o murdar ayağını onun mübarək başına qoyub həzz alanda... – Fərrux Yasar burada özünü saxlaya bilməyib ağladı, səsi titrədi, özünü toxtatmaq üçün bir an dayandı, sonra yavaş səslə dilləndi. – Süleyman Bicanoğlunun başını qardaşın Nurəli nəstərani qibləsinə çevirib qoyun kimi kəsəndə, mənim sənə nifrətimi bilmirdin? Sənin o fitnələr yuvası olan başına mən qiymət qoymaq istərdim. Yox, sağ başına yox, kəsik başına. Sağ başına qiymət qoysaydım onda sənə böyük qiymət vermiş olardım.

Əbih Sultan onun bu sözlərindən qorxmadı. Əksinə, bu uzun nitqdə o ümid gördü. Öldürmək istəyən bircə söz deyərdi: “Cəllad” O, cəsarətlə cavab verdi:

– Şirvanşaha mənim salamat başım lazımdı. Elə ona görə də qorxmayıb gəlmişəm. Bilirəm ki, bu qarışıq vaxtda mən sizə lazımam. Bir də onu deyim ki, mən tək ziyanlar eləməmişəm, böyük xeyirlər də vermişəm. Şeyx Heydərin oğlu Sultanəlini kim öldürdü, o birisi oğlu İbrahimi kim doğradı? Mən. Onun... – O, Aləmşahbəyimi də demək istədi, amma başa düşdü ki, o əhvalatı, o cinayəti, namussuzluğu özü qeyrətinə sığışdırsa da, burada öz mənliyinə sığışdıra bilməyənlər də olar. Ona görə demədi. – Ətrafda Şirvanşahların ən qorxulu bir düşməni varsa, o da qızılbaşlardı. Onların kökünü mən yaxşı kəsmişdim, olmadı.

Fərrux Yasar bu sözdən diksindi.

– İndi kim çıxdı?

– İndi ortalığa çıxan ən dəhşətli və qorxulusudur. Onlar çayır otu kimi bir şeydi. Nə qədər dərindən qazırsan, çıxarırsan, yandırırsan, əgər bir xırda kök qalıbsa göyərib, yenə hər yeri alırlar. Yeni bir tağ peyda olub. Onda mən çox çalışdım, çox axtardım, beş il ölkəni kənd-kənd, şəhər-şəhər yoxlatdım. Elə bil yerin altına girmişdi. Yox idi. İndi birdən-birə çıxıb ortaya ki, Sahib əz zaman Mehdi mənəm, gəlmişəm, yer üzündə məhşər ayağı açıb yaxşını pisdən ayıracam.

Fərrux Yasar birdən-birə bu qüvvənin gələcək inkişafını gördü. Gördü ki, kəndlər, şəhərlər hamısı onun atının ayağı altında səcdə qılır. Bir zaman dönür ki, vəzir-vəkilləri də yoxdu. Hamısı keçib zamanın sahibinin tərəfinə. Bəli, bu qorxulu düşməndi. Atası Heydər belə deyildi. O yeddi-səkkiz min qoşunla gəlirdi. Onu əzməyə, məhv eləməyə nə vardı ki. İndi o insanları öz mö’cüzələrinə inandırsa, hamı onun qoşunu olacaq.

– O Şeyx Heydərin hansı oğludu?

– Lap kiçiyi İsmayıl. On üç yaşı var cəmisi.

On üç yaş deyəndə Fərrux Yasar bir az sakitləşdi. “Onun elə dərin ağlı və dərrakəsi olmaz ki, bu boyda işin öhdəsindən gəlsin”.

– Yox, Əbih Sultan on üç yaşında uşaqdan biz qorxası deyilik. Onun hələ burnunu silib təmizləyən lazımdı.

Əbih Sultan doğrudan da gördü ki, Fərrux Yasar ona inanmadı və ilk dəfə eşidəndə keçirdiyi qorxu artıq onun vücudunu tərk eləyib, – dedi:

– Mən bu canımın hayında olsaydım, qardaşım Nurəlinin yanına qaçardım. Qızılbaşların yanında mən olmuşam, onların ilkin fikirlərini də bilirəm. Onlar Təbriz taxtına oturmamışdan qabaq, intiqamı Şirvanşahdan almaq istəyirlər. Bunu da qan düşmənliyi kimi izah eləyirlər. Onu da deyim ki, qızılbaşlar fədailikdə ələmut ismayililərindən geri qalmırlar ha. Hələ də Şeyx Heydərin dostları onun tək qalmış kiçik oğlunun ətrafındadılar. Onu gizləyib saxladılar, indi bir şey bilməsələr baş qaldırmazdılar. – Bu yerdə o, sözünü mə'nalı şəkildə kəsdi. Amma gördü ki, sözləri Şirvanşahı maraqlandırıb.

Fərrux Yasar dedi:

– Davam elə.

– Şah sağ olsun, bundan sonra gələn mətləbləri qibleyi aləmimizin hüzuruna, oğlanlarınıza - Allah onları min budaq eləsin, istəsəniz, bir də vəzirə aça bilərəm.

– Mənim saray adamlarımdan gizlin sözüm yoxdur. Bir də ki, bu ən qəddar düşmənim üçün böyük şərəf olardı.

Əbih Sultan özünü itirmədi. O, artıq istəyinə yetişmək üzrə idi.

– Düşməndən yarımağın özü də xoşbəxtlikdi. Əgər düşmən gəlib düşməninə kömək eləmək istəyirsə, daha buna düşmən deməzlər ki. Bir də mən heç vaxt Şirvan şahlığının düşməni olmamışam. Beş il ərzində ona heç bir ziyan vurmamışam. Ayrı-ayrı adamların ölümü isə səltənət mənafeyindən yüksəkdə dayana bilməz.

– Yaxşı, mənə nə kömək eləmək istəyirsən?

Əbih Sultan dediyinin üstündə dayandı.

– Dediyim adamların yanında açmalıyam o sirri. Şirvan torpağını böyük bəla gözləyir və o bəladan bu torpağı qorumağa gəlmişəm.

Fərrux Yasar dünyanı yorub yola salmışdı. Belə fürsətləri heç vaxt əldən verməzdi. Onsuz da Əbih Sultan heç yerə qaçası deyildi. Əvvəl onu dinləsin. Doğrudan da bu ağıllı düşməniymiş, onunla məsləhətləşmək pis olmaz. O işarə verdi, taxt otağındakı əyan-əşrəfin hamısı çıxdı. Burada Fərrux Yasar və oğlanları qaldı.

– Hə, buyur!

– İsmayıl özünü Sahibi zaman e'lan eləyib. Bu gün Ərdəbildən gələnlərlə söhbət elədim. Əli bəy Cəyirli qızılbaşların düşmənidir. Ona görə də onu Ərdəbilə hakim mən tə'yin eləmişdim. İsmayıl kiçik bir dəstə ilə Ərdəbilə gəlib. Cəyirlinin gücü də, qüvvəsi də bundan çox. Camaat qapıları açıb, fərraşlar da qoşulub onlara. Əli bəy Cəyirli tək qalıb. İsmayıl qılıncsız, oxsuz şəhəri alıb. Sonra da qalmayıb, deyib mən çıxıb gedirəm. Səfərim Şirvanadı. İkinci bir tərəfdən bura gələndə Pirsaat xanəgahında bir şamaxılıya rast oldum. Adı Səfərdi. Yeddi-səkkiz ildi Şamaxıdan çıxıb. Özü dulusçudu. Ərdəbildə qızılbaşlara qoşulmuşdu. Şeyx Heydərin ev qulluqçusuna dönmüşdü. İndi o Şamaxıya yəqin ki, ciddi bir tapşırıqla gəlir.

– Çox təəccüblüdür. İsmayıl az qoşunla Şirvanda nə eləyə bilər. Şamaxıda qızılbaşlar yoxdu; kim onun sözünü tutacaq?

– Orası düzdür şiə azdır. Amma Mehdi sahibi zaman rəvayətə görə tək şiələrə deyil, sünnülərə də nicat verməyə gəlməliydi. Yəqin ki, dərvişlər başlayacaqlar təbliğə. İsmayılın çox qəribə, qüdrətli bir şe'rini oxuyurlar. Onu eşidəni titrətmə tutur.

– Sən onunla necə haqq-hesab çəkərdin?

– Çox ucuz, həm də asan yolla. Qəsdçilər göndərib ya oğurlamaq, ya zəhərləmək, ya da başqa bir yolla öldürmək lazımdır. Yox, əgər onun qabağına qoşun çıxartsan, uduzarsan.

Fərrux Yasar fikrə getdi və Əbih Sultanın dedikləri onun ağlına batdı. Amma özünü elə göstərmək istədi ki, yə'ni sənin bu qulluğun, bu yaxşılığın o qədər də qiymətli, əhəmiyyətli deyil. Onu özüm də düşünə bilərdim. Amma doğrudan bu fikir onun çox xoşuna gəldi. Bir var qoşun toplayasan, xəzinəni boşaldasan, anbardakı ərzağı onlara yedirəsən, sonra da hamısı puça

www.kitabxana.net

çıxa. Bir də var ki, qoca bir adamı tapıb göndərəsən. Durna qatarının başçısı öləndə bütün qatar pozulur.

– Daha nə məsləhətin var?

Əbih Sultan bazara mal çıxaran xəsis tacirlər kimiydi. Malı dəyər-dəymazinə yox, bahasına satmaq istərdi həmişə.

– O, gedib özünə bu qışı ocaqlıq düzəltməyə. Yazda Şirvana gələcək. Mən o ocaqlıq, oradakı adamları da tanıyıram. E’tibar eləsən, mən o İsmayılın başını sənə gətirdərəm.

Fərrux Yasar hər şeyi tərəziyə qoyub ölçüb biçdi. Bəysunquru da, Süleyman Bicanoğlunun da qana bulaşmış ağ saçlarını qoydu tərəzinin bir gözünə, o birisi gözünə isə İsmayılı qoydu. Yox, deyəsən İsmayıl daha ağırdı. Onlar onsuz da ölüb gediblər. Bu isə salamatdı. Sabah gəlsə, Şirvanda qan su yerinə axacaq. Fərrux Yasar gördü ki, öz ölülərinə ağlasa sərfəli deyil.

– Danışdıq, İsmayılın başını gətirsən, mən sənin bütün günahlarından keçərəm.

– Yaxşı, – deyə Əbih Sultan mızıldadı. – Qalır ikinci ən böyük məsələ.

– O nədi?

– O Təbriz taxtının məsələsidir.

– Təbriz taxtı. Onu da osmanlı sultanına sən verdin. Yoxsa Əhməd padşah Təbrizə girə bilməzdi. Mən hər şeyi bilirəm, Əbih Sultan. Rüstəm Mirzəyə kəmənd atıb Əhməd padşahın qabağına sürüyən, başına bıçaq çəkən kim olub? Sən olmusan. – Elə bil qoca şir qabaq qolunu qaldırdı, korşalmış caynağını ovuna tuşlayıb balalarına göstərdi.

Əbih Sultanı yenə qorxu burüdü. Bu qoca tülkü gör nə qədər çox bilir ey. Bunları ona kim xəbər verir?

– Sultan Bəyazidin qabağında kim dayana bilərdi. Rüstəm Mirzə eyş-işrətdə, öz kefində, xəzinə boş. Qoşunu haradan yığaydım? O cür silahlanmış ordunun qabağına nəynən çıxmaq olardı? Onlarda top adlı bir silah var, uzunluğu üç addım, barıt adlı bir şey doldururlar, üstünnən də yumru dəmir qoyurlar. Fitili var, yandırırlar. Bir də baxırsan elə partladı ki, adamın qulaqları tutuldu. Üç yüz addımlıqdakı atlıların hamısını pamal elədi. Bu şeytan əməlinin qabağında nə eləmək olar axı?!

Bu odlu silah söhbəti Fərrux Yasarı maraqlandırdı.

– Gözünlə görmüsən?

– Görmüsən nədi, əlimi də vurmuşam. Çox əndirabadi bir şeydi. Deyirəm balam şeytan bunun içində oturub? Deyillər hə, ordan püskürür. Gör nə zəmanəyə gəlib çıxdıq. Şah sağ olsun!

– Daha demə. – Silah söhbəti Fərrux Yasarı tərk-silah eləmişdi.– Biz yaşamışıq, bundan sonra gələnlərin vay halına. Bir var kişi kimi qılıncını çəkib qabaqdakı ilə vuruşasan, bir də var ki, şeytanla əlbir olub onu uzaqdan vurub yıxasan.

– Hələ bu harasıdı? Onlarda tüfəng adlı da bir silah var. Çomaq kimi uzundu. Qaldırır sinəsinə, ox kimi tuşlayır, nə kirişi var, nə yayı. Çaxmağı var, çaxanda orda qov alışır, bir də görürsən bunun da lüləsinin içində nəsə partladı, güllə adlı bir dəmir o lülədən çıxdı getdi. Üç yüz, dörd yüz addım kənardakına bu tərəfdən dəydi, o tərəfdən keçdi. Rum Sultanı belə bicliklərin anasıdı. Ona görə də onun qabağında biz dayana bilmərik. İndi də bütün padşahlarımızın verdiyi fərmanları yığıb yandırır.

– Onun əlacını nədə görürsən?

– Xəncərdə. Bir oğul lazımdı, gecə girsin otağına, xəncəri saplasın ürəyinə. Onun yerinə keçəsi osmanlılarda adam yoxdu. Yenə də ağqoyunlular çıxacaq taxta.

Fərrux Yasar təəccüblə ondan soruşdu:

– Bəs niyə öldürtmədin?

– Asandı?! Amma gərək bir müdrik adamla məsləhətləşəydim. O müdrik də şirvanşah Fərrux Yasardı. Əhməd padşahı öldürəndən sonra onun yerinə kimi keçirmək lazımdı? Bu bir çətinlik, o ölən kimi hazır qüvvələr olmalıdı ki, onların əyan-əşrəfini qılıncdan keçirtsin, hər işə hazır olan ordu toplasın.

Fərrux Yasarın Əbih Sultandan xoşu gəldi. Onu bir az da yaxına çağırdı ki, ikilikdə pıçıldaşsınlar.

Atlılar çapa-çapa dərin dərəyə girdilər. Oradan burulan yolla yuxarı qalxıb yastanaya çıxdılar. Yastanayla uçurumun kənarına gəldilər. Ayın işığında aşağıda, qayaların arasında gümbəz görünürdü. Gümbəzin yanında isə yol qaralır, aşağıya pillələr enirdi.

İkimərtəbəli bu məqbərə qaranquş yuvası kimi qayalardan asılmışdı. Adına "Diri baba" deyirdilər. Atlılardan biri qabağa düşdü və əlindəki neftə batırılmış lopanı yandırdı. Üç-dörd dilimli alov qalxdı, alovun ucunda isə qara his yırğalandı. O, ayaqlarını ehtiyatla qoyub düşdükcə belindəki qılınc sanki pillələri sayırdı. Taq, taq, taq... Pillələr qurtardı. O dayanıb qulaq verdi. Aşağıdan səs gəlmirdi. Əlinin işarəsiylə yoldaşlarını da çağırdı. Özü bu ikimərtəbəli məqbərəyə gündüz girməyə qorxurdu. Gecə lap üşəndi. "Diri baba" məqbərəsində qəbir yoxdu. Belə əfsanə vardı ki, guya müqəddəslərdən hansısa heç kimin gözünə görünmür və onun ruhu gecələr burada dincəlir. Gündüzlər qurbanlar kəsilir, nəzirlər gətirilir, axşamlar isə burada dərvişlər gecələyirdi.

Bu gələnlər Şirvanşahın fərraşları idi. Ərdəbildən gəlmiş Səfəri, onun dərviş yoldaşlarını axtarırdılar. Soraqlarını da burada almışdılar. Bu dərvişlər kəndbəkənd gəzir, zamanın sahibinin peyda olduğundan danışır, onu qarşılamağa hazır olmağı məsləhət görürdülər.

Şirvanşah zindanda yox, Gülüstan qalasının otaqlarından birində dustaq saxladığı Əbih Sultanın dediklərinin doğru çıxdığını görürdü və o fərraşları hər yerə göndərib Cibo Səfəri axtartdırırdı, dərvişləri göydə gəzirdi. Xəbər vermişdilər ki, onlar "Diri baba" pirində gecələyirlər.

Pillələr döndü və fərraşbaşı bir neçə daş pilləkəni endi. Bura darısqal bir hücrəydi, dibdə qayadakı mağaraya yol vardı. Bir küncdə, ensiz, uzun pəncərənin yanında qab-qacaq, səhənk, güyüm görünürdü. Yox, heç kim yoxdur. Bir tərəfdəki mitil yorğan-döşək heç açılmamışdı.

Məş'əlin işığında qapı göründü və həmin qapıdan aşağıya gedən pillələrə işıq düşdü. Fərraşbaşı darısqal yola girib aşağıya getdi. Bu dəfə onun qılıncı pillələri saymırdı. Qorxusundan yuxarı qaldırmışdı. Sanki bu səslə müqəddəs Həzrət Babanı oyadıb onun qəzəbinə gəlməkdən qorxurdu. Pillələr qurtardı. Hələ hücrəyə işığın özü düşməmiş divardakı əksi qaranlığı azacıq işıqlandırmışdı. Qaranlıqda hücrənin ortasında işıqböcəyinə oxşayan yaşıl işıq göründü. Həm də bu işıq bir deyildi, bir cüt idi. Fərraşbaşı üşəndi. Başının, qollarının tükləri dik dayandı və canından soyuq giziltilər keçdi. O giziltilərin hamısı qalxıb başının ortasında - əmgəyində birləşdi və dilinin üstündə dadsızlıq hiss elədi. Dilində də gizilti vardı. Bir cüt yaşıl işıq elə bil ki, hücrədə yırğalanırdı. Fərraşbaşı quruyub qalmışdı. Əlindəki məş'əli nə hücrəyə tərəf tutmaq yadına düşür, nə geri çəkilə, nə irəli gedə bilirdi. Məş'əldə yanan əskinin qara qırıqları artıq onun üstünə düşürdü. His isə başının üstündəki hörgünü qapqara qaraltmışdı. Arxadan onu səslədilər.

– Niyə dayandın, Həmid bəy?

Pillələr elə dik tikilmişdi ki, aşağıdakı pillədəki adamın başı yuxarıdakı pillələrlə enənin ayağına toxuna bilərdi.

Səsdən fərraşbaşı bir az ürəkləndi, məş'əli qabağa uzatdı və gördü ki, boş hücrənin ortasında quyruğu üstünə qalxmış iri bir ilan dil çalır. Fərraşbaşı ilandan qorxduğu kimi heç Allahından da qorxmurdu. Bircə onu qışqıra bildi: "Vay ana".

İlan isə xəncər qınından sıyrılan kimi sürüşüb harasa getdi.

Pillələrə oturmuş fərraşbaşını yuxarıdakılar dümsüklədilər.

– Nə olub, Həmid bəy?

– İlan.

– Çaldı səni?

– Yox qaçdı.

– Dərvişlər yoxdu?

– Dərvişi əkənin də, doğanın da ənkə böyüyününənginə...

O, özünə gələn kimi qalxdı. Geri qayıtdılar. Yuxarıdakı yastanada onları gözləyən təzə xəbər ilandan da betər idi. Onlar dörd nəfər idilər. Atların yanında fərraşlardan birini qoymuşdular ki, canavar toxunmasın. Qayıdıb atları tapmadılar. Fərraş isə yerə uzanmışdı. Onu möhkəmcə sarıyıb, ağzına əski tıxamışdılar.

Ay işığında görünürdü ki, atlılar dağdibi yolla Şamaxıya tərəf çapırlar. Həmid bəy onların dalınca qışqırdı.

– Əlimə düşərsiniz, onda sizin ananızı ağladaram.

Səs atlılara çatdı, ya çatmadı, mə'lum deyildi. Onlar yollarından qalmadılar. Fərraşın ağzından əskini çıxartdılar, sarğısını açdılar.

– Kimiydi onlar? Tanımadın?

– Yox. Başıma yapıncı atdılar əvvəl. Səsim çıxmasın. Ağzıma əskini tıxayandan sonra yapıncını götürdülər. Qaranlıqda sifətlərini görmədim.

– Bir söz demədilər?

– Biri məni öldürmək istədi. O birisi dedi ki, zamanın sahibi gələn yerdə günah işlətmə. Əgər öz günahları varsa, zamanın sahibi verəcək.

Həmid bəy əlini dizinə çırpdı.

– Mən köpək oğlunun zamanın sahibiynən, Diri babaynan nə işim vardı axı. Hələ başıma çox iş gələcək. Bu harasıdı. Yox, mənim kitabım bağlandı. Görmədiniz ey siz o ilanı. Bilirsiniz də Diri baba xoşu gəlməyən adamlara ilan şəklində görünür.

– Biz görmədik, vallah, bizim gözümüzə görünmədi.

– Yaxşı, yaltaq köpəy uşağı, demək məndən əməli salehsiniz, mənim gözümə görünür, sizin yox!

Az qüvvə ilə heç bir iş görmək olmazdı. Ona görə də Lələ bəyin təklifi ilə qızılbaşlar Zahid Gilaninin Ərcivandakı türbəsini özlərinə ocaqlıq eləmişdilər. Türbə dəniz kənarındakı Ərcivan kəndindən dağlara tərəf, keçilməz dəmirağac və palıd meşələrinin içindəydi. Yoldan bir neçə addım kənara çıxanda bataqlıqlar başlayırdı. İçərisində kötüklərini mamır basmış ağacların bitdiyi bataqlığın üzündə o qədər xəzəl vardı ki,sanki ora da quru yer idi. Amma hərdənbir bataqlıq xoruldayırdı.

Bələdçilər onları yolla keçirib pirin yanına gətirdilər. İsmayıl Qızılqanaddan düşdü. Qızılbaş ağsaqqalları da onun dalınca yeridilər. Pirin qapısında İsmayıl dua oxudu. Əvvəldən hazırladıqları qoçu qurban kəsdilər.

Onun qanından İsmayılın da alnına yaxdılar. Bunu Lələ bəy elədi. Sonra İsmayıl namaza dayandı və atlardan düşən müridlərin hamısı onun arxasında dayanıb namaz qıldılar.

İsmayıl bilirdi ki, babası Şeyx Səfiyyəddin vaxtilə Zahid Gilaniyə biyət eləmiş, ondan dərs almış, sonra da onun qızı ilə evlənmişdir. Şeyx Səfiyyəddin kimi Zahid Gilani də onun babası sayılırdı. Ömrünün sonlarında Şirazdan vətənə - Ərcivana dönən Zahid Gilani burada vəfat etmiş, qəbri üstündə bu gümbəzi ucaltmışdılar.

Qızılbaşların Ərcivanı özlərinə ocaqlıq seçməyinin bir səbəbi bu idisə, ikinci səbəbi də o idi ki, Talışda əhalinin hamısı şiə idi və Ərdəbil şeyxlərini özlərinin ruhani rəhbəri saydıqları kimi qohumu da sayırdı. Qızılbaşlar qışı burada qalıb yaza kimi özlərinə çoxlu mürid toplaya bilərdilər.

Onlar səssizcə namaz qılanda meşədə balta səsi eşitdilər və bir nəfər oxuyurdu.

Bura gəlsələr də, Lələ yaxşı bilirdi ki, Talış hökmdarı Mirzə Məhəmməd xanla görüşüb onun icazəsini də almaq lazımdır. Yoxsa bu hökmdarlara inanmaq çətin idi. Birdən fikirlərindən dönər, qoşun çəkib onları burada, hər tərəfi bataqlıq olan meşədə qıra bilərlər. Bu iş üçün o Biyəpiş hökmdarı Mirzə Əlini də gətirmişdi. Bu dindar, balacaboy kişi işlərini oğluna tapşırıb, özü axirət gününü qazanmaq naminə İsmayılla Ərcivana gəlmişdi. Buradan da Lələ, Qara Piri bəylə Lənkərana Mirzə Məhəmməd xanı görməyə getdilər.

Amma xan sarayında yox idi, Qızılağaca ova çıxmışdı. Onlar da gözləmədilər, xanın nökər-naibindən götürüb xanı axtarmağa getdilər.

Yollar kənarında yayda biçilən çəltik zəmiləri bozarırdı. Dəniz kənarında isə minlərlə quş vardı. Bu quşların çoxusunu onlar görməmişdi. Dalğalara qonub nazlı-nazlı yırğalanan qu quşları, dayaz yerdə gəzinən narıncı qızıl qazlar, alabəzək sultantoyuqları, yaşılbaşlar, qəhvəyi, boz qara və alabazək ördəklər atlılara heç fikir vermirdi. Hələ göydə bulud kimi uçan quşlar nə qədərdi. Lələ atını Mirzə Əli ilə yanaşı sürüb dedi:

– Elə bil bura da quşların ziyarətgahıdı. Bir belə quş hardan yığılır bura.

– Nə bilim, Allahın işinə əl uzatmaqmı olar? İnsanların bir ziyarətgahı var, quşların da ayrı.

Onların yolu dənizin kənarından düşmüşdü. Dəniz də quzu kimi sakit dayanmışdı. Yalnız dalğaların quma toxunduğu yerdə ağ bir xətt uzanırdı. Qumların üstündə ləpənin vurub kənara çıxardığı balıqlar iyimişdi və havadan balıq iyi gəlirdi.

Onlar yaxınlaşanda bir sürü quş uçdu və qumun üstündə uzunluğu dörd-beş addım olan balıq gördülər. Bu nə’rə balığı idi. Görünür keçən gecə fırtına sahilə atmışdı.

– Mirzə Əli, bu nə balığıdı?

– Buna nə’rə də deyirlər, uzunburun balıq da. Qur’an buyurub ki, qılçıqsız balıq haramdı. Onun da səbəbi budur ki, bu balıqlar zəhərli olurlar. Əvvəllər ondan çox adam ölüb. Gör, Peyğəmbər salavatullanın hər şeydən xəbəri olmağını ki, Ərəbistanda oturub, buradakı balıqları da tanıyıb. Bir də ki, axı vəh ona Allahdan gəlirdi.

– Ərəbistanda bu balıqlardan yoxdu?

– Ərəbistanda su var ki, balıq da olsun?!

Quş səslərindən onlar çox vaxt biri-birini eşitmirdi. Qara Piri bəy də bu gözəlliyə baxır, ürəyində Talış xanına bəxtəvərlik verirdi.

Onları aparan nökərlər aradabir talış dilində danışırdılar. Bu dili Mirzə Əli başa düşsə də, Lələ ilə, Qara Piri bəy bilmirdi.

Lələ soruşdu:

– Hələ çox gedəcəyik?

– Bəli, – daz alnına dəsmal bağlamış yaşlı nökər dedi:

– Xanın uv yerinə hələ çux qalıb.

– Adın nədi?

Ağəddin.

– Ay Ağəddin, – deyə Qara Piri bəy söhbətə başladı. –

Quşların hamısı buradadı, xan elə burada ov eləyə bilməzmi?

– Necə iləməz, iliyər. Unun xuşuna da ura gəlir.

Günortadan xeyli keçəndə onlar qamışların arasında xanın keşikdə dayanan candarlarına rast gəldilər. Məqsədlərini dedilər. Xəbərçi gedib-gələndən sonra onları xanın yanına buraxdılar.

Dəniz kənarında çadırlar qurulmuşdu. Burada quru elə bil dənizin kiçik bir parçasını qucağına almışdı. Bu yerdə quş daha çox idi. Qu quşları qatarla üzür, heç kimdən çəkinmirdilər. Onların sudan uçub qalxmağının özü ayrı bir tamaşa idi. Xanın adamları isə tor çəkirdilər. Qonaqlar yaxınlaşıb çadırdan beş-on addım kənarda dayanan xana kəmali ədəblə baş əydilər. Bundan sonra ortayaşlı, dolu– bədənli, irialınlı xanla görüşdülər. Mirzə Məhəmməd xan onların kefini-əhvalını xəbər alandan sonra tor çəkənlərin yanına də’vət elədi.

– Görək qismətimizə nə çıxır. Lələ dedi:

– Mirzə Məhəmməd xan, Süleyman peyğəmbər kimi deyəsən quşların dilini bilirsən. Hamısı uçub sənin başına yığışır.

Söz xanın xoşuna gəldi. Gözləri güldü. Başı ilə razılığını bildirdi.

– Dillərini bilmirəm, xasiyyətlərini bilirəm.

Onlar söhbət eləyə-eləyə ləpədöyənə yaxınlaşdılar. Ayaqlarını çirmələyən balıqçılar toru çəkib gətirdilər. Tor çox ağır idi. Görünür onların qismətində nəsə varmış. Bu əlaməti Lələ bəy işlərinin düzəlməyi kimi qiymətləndirdi. Tor sahilə çıxana qədər neçə balıq torun üstündən suya tullanıb üzüb getdi.

Balıqçılar toru lap qumun üstünə çıxartdılar. Burada çoxlu uzunburun, nə’rə, ağ balıq, şahmayı, xəşəm vardı. Amma elə bil onların heç birini görmürdülər. Partlaşdıqca günəşdən pulları parıldayan balıqları o tərəf – bu tərəfə ataraq, ən böyük balığı iki balıqçı zorla qaldırdı.

– Qızıl balıqdır, – deyə xan dilləndi.

– Bu ki, ölüdü, – deyə Qara Piri bəy özünü saxlaya bilmədi.

– Onu diri tutmaq hələ heç kimə qismət olmayıb. O qədər hirsli balıqdı ki, burnu tora dəyir, gördü ki, çıxa bilmir, ürəyi partlayır. Düşmənin əlində ölmək istəmir.– O, xidmətçilərinə dedi: – Bu qızıl balığı tez götürün, ləvəngi, qonaqlarımız yoldan gəlib.

Onlar Mirzə Məhəmməd xanın də'vəti ilə çadıra girdilər. Oturdular, söhbət qızışdı. Mirzə Əli xana Ərdəbil şeyxlərindən, sonra İsmayıldan onun Sahibi zaman kimi zühurundan danışdı, söhbəti mətləb üstünə gətirdi, sözü Lələyə verdi ki, axırını o tamamlasın.

– Zahid Gilani də İsmayılın yeddinci arxada babasıdır. Onun məqbərəsini özümüzə bu qış ocaqlıq seçmişik, inşallah, yazda Sahibi zaman səfərinə başlayacaq. Gəldik torpaq, yer sahibindən razılıq, halallıq alaq.

– Zamanın sahibinə bizim canımızı da qurban eləsək azdı, o da ola evimizi-eşiyimizi. Əgər zamanın sahibi Talış ellərinə dost kimi gəlibsə, o da bizim başımızın ucalığıdı.

– Dost kimi, Mirzə Məhəmməd xan. – Lələ onun sözünə qüvvət verdi. – Ərdəbilə getmişdi. Əli bəy Cəyirli şəhərə qoymaq istəmirdi. Nə oldu? Qapılar taybatay açıldı.

Lələ İsmayılın işlərinin hamısına möcüzəli bir don geydirməyə çalışırdı. O bilirdi ki, harda bu ən'ənə pozulsa, orada artıq onun zamanın sahibi olmağına inanmayacaqlar. Yə'qin ki, talış xanın da fikrində belə bir sual dolanır: "Zamanın sahibinə fəsil nə lazımdı? Onun üzünə bütün qapılar açıqdı. Niyə qışı burada qalır ki?" Ona görə də onlar bu sualı verməmiş, özü onu üstələməyə çalışdı.

– Zamanın sahibi hər gecə yuxusunda Həzrət Əlini görür. Onun məsləhətləri ilə hərəkət eləyir. Bir mübarək məsləhət də bundan ibarətdi ki, babalarının ruhları ilə bu qışı söhbət eləsin. Allah qoysa, novruzda səfərə çıxar. Haqqı nahaqdan ayırar. Axı Şeyx Səfiyyəddin Həzrət Əlinin qanından dünyaya gəlib, Zahid Gilani də onun qayınatasıdır, böyük alim olub. Onların ruhları ilə danışmaq Sahibi zamana çox şeylər öyrədəcək. Əsl düşmənləri, əsl naqisləri ona daha düzgün tanıdacaq. Bu müddətdə isə bütün ölkənin əhalisi onun zühurundan xəbər tutacaq, düzgün yola qayıtmağa çalışacaq. Çoxları günahlarını yuyacaq. Belə ki, zamanın sahibinin səbri genişdi.

Mirzə Məhəmməd xanın bircə məsələdən nigarançılığı vardı. Fikrində də dolaşan bu idi, açıb deməyi isə özünə sığışdırmırdı. Dedilər ki, əzrayıl bala paylayır, eşidənlərdən biri qayıtdı ki, mənim balama dəyməsin, onun verdiyi bala mənə lazım deyil. İndi xanlığın içərisinə qızılbaşlar gəlib birdən fikirlərini dəyişib dedilər ki, Mirzə Məhəmməd xandan xoşumuz gəlmir. Onda necə olsun? Bəlkə sahibi zamanın da fikrindən bu quş səltənəti keçdi, dedi ki, buranın hökmdarı oluram, onda necə? İstəsə olar. İstəməsə olmaz. Ona görə də onunla ehmalca, üsulluca danışmaq lazımdır. Qoy qış birtəhər keçsin, yazda baxarıq.

– Mən zamanın sahibini ziyarət eləmək istəyirəm. Bu ziyarətimi qəbul eləyərmi?

Mirzə Əli Lələnin sifətinə baxdı.

– Yəqin ki. Amma bizim heç birimizdən asılı iş deyil. Ona mürid olmaq özü böyük xoşbəxtlikdi.

Mürid söhbətini eşidəndə Mirzə Məhəmməd xanın iri alnında qırışlar çoxaldı, qaşlarının arası düyünləndi.

– Mürüd? Mən axı...

– Zamanın sahibinə mürid olmaq dünyanın ən böyük savabıdı. Həm də bu elə bir məqamdır ki, hökmdarlıqdan, şahlıqdan, sultanlıqdan yüksəkdə dayanır. – Bu sözləri Mirzə Əli dedi – mən də müridəm.

Sənin xanlığın o boydadı ki, iki siçan oynasa, biri təndirə düşər, – Mirzə Məhəmmədin fikrindən keçdi. – Bu da özünü gətirib mənə tay qoyur.

Mirzə Əli onun fikrini oxudu. Çox təmkinlə sözə başladı:

– Ərdəbil şeyxlərinin müridi olmaq o qədər böyük savabdı ki, onu qəbul eləməyi gör kimlər özlərinə şərəf sayıb. Elxanilər dövründə Əmir Çoban, vəzir Qiyasəddin Qazan xanın vəziri Fəzlüllah Rəşidəddinin oğlu. Hökmdar Əbu Səid Bahadur xan, bir də Məhəmməd Xudabəndə şeyxin məclisində oturmağı özlərinə şərəf biliblər. Amma hələ Şeyx Seyfəddin zamanın sahibi deyildi. Ona bu cür Allah vergisi verilməmişdi. Sonradan peşman olmaqdansa, bu gündən hazır olmaq daha yaxşıdı.

Lənkəran xanı onun dediklərini bilmirdi. Bundan sonra bir az da yola yaxınlaşdı.

Ortalıqda süfrə açdılar. Ortaya qızıl balığın ləvəngisini qoydular. Onun qarnına ədviyyə ilə hazırlanmış qoz doldurmuşdular. Xörəklərin ətrindən elə bil ki, hamı məst olmuşdu. Qızıl balığın yanında isə qızardılmış, ləvəngisi hazırlanmış qu quşu qoyulmuşdu. Xana çiriyə bənzər, amma

alt tərəfi saxsıya oxşar qab, qalanlara isə cürbəcür naxışları olan rəngarəng, saxsı qablar verilmişdi.

Qara Piri bəy özünü saxlaya bilməyib xandan soruşdu:

– Möhtərəm Mirzə Məhəmməd xan, bu qabdan mən heç görməmişəm, onu harada düzəldirlər?

– Bu qabımı? O çox bahadı, bəy. Bir ilxı qiymətinə almışam.

Xan hələ xörək qoyulmamış qabı götürüb çırtma vurdu. Qab mis səsi verdi.

– Belə baha?

– Bəs necə? Onu Çindən gətiriblər. Buna mərtəbeyi deyirlər. Bunun üstünlüyü haradadı? Əgər xörəyin içində zəhər olsa bu üstdəki şüşəyə oxşar qat rəngini dəyişəcək. Onda çağırarsan aşbazı, onun özünə yedizdirərsən.

– Bəh, bəh, bəh - deyə Qara Piri bəy heyrətləndi.

Bu fani dünyada hökmdar taxtına yetişənləri aradan götürmək üçün ən sınanmış silahlardan biri də zəhər idi. Ondan canlarını qurtarmaq üçün Çindən gələn mərtəbeyi adlı bu qaba ilxı nədi, xəzinənin yarısını verərdilər. Lələ bəy də bu barədə düşündü. O qabdan tapıb almaq lazım idi. İsmayılı nə cür bəlalardan çıxarmışdılar. İndi onun qabına zəhər tökməyə də çalışacaqdılar.

Mirzə Məhəmməd xan onlarla bərabər Lənkərana gəldi, yola salanda Lələ bəyə çin xarasına bükülmüş bir şey verdi.

– Bu zamanın sahibinə mənim hədiyyəm. Bilirəm ki, onun qabına heç kim zəhər tökə bilməz, bu zəhər ona kar eləməz, necə ki, Əmir Teymurun şərbətdə içirtdiyi zəhər onun babasına kar eləməmişdi. Amma tanrının ona bəxş etdiyi bu böyük işdə onun ovqatı təlx olub zəhərlənməsin.

Bundan əlavə Mirzə Məhəmməd xan bildirdi ki, zamanın sahibinin müridlərinə qış üçün nə qədər azuqə lazımdırsa göndərəcəkdir...

Ölkənin çox yerində Əhməd padşahın canına rəiyyətlər, əsnaflar dua oxuduğu bir gündə səhər onun xidmətçisi şahın yataq otağına girdi ki, onun tapşırığı ilə gün doğmamış, onu oyatsın. Qapının ağzında dayanıb bir-iki dəfə səslədi, amma heç bir səs eşitmədi. Onu yuxudan qaldırmağa getsə də, xalçanın üstündə ayaqlarının ucunda elə yeriyirdi ki, hökmdarı narahat eləməsin. Başı bərbəzəkli taxtın yanına gələndə o quruyub qaldı. Hökmdar üzü üstə yatmışdı və onun kürəyində qara dəstəkli xəncərin qaşındakı daş-qaşlar parıldayırdı. Əhməd padşahın sağ əli uşaq qolu kimi taxtdan aşağı sallanmışdı.

Xidmətçi qışqırdı, səsi çıxmadı, əl atıb başının tükünü yoldu, əllərinə ağ tüklər çəngə-çəngə gəldi, barmaqlarını açıb tükü yerə çırpandan sonra yenə də əlini başına atdı, yenə də yoldu. Nə yolunan saçlarının ağrısını hiss eləyirdi, nə də nəfəsinin çıxmamağını. Boğazında nəsə düyünləndi və onun nəfəsi çıxmadı.

Bu anda o hökmdarı yox, özünü düşünürdü. Əhməd padşahı öldürüblər, bu ona aydındır. Burada onun heç bir günahı yoxdur, onu günahkar sayıb dərisini boğazından çıxaracaqlar. Niyə bilməyib, niyə xəbər tutmayıb. Elə o qorxu yazığı bu hala saldı.

Əllərini boğazına atdı. Yox, özünü boğmaq istəmirdi. Onu boğan qəhəri rədd eləməyə çalışırdı. Artıq ciyərləri, ürəyi partlamaq dərəcəsinə gəlmişdi və göz bəbəkləri o qədər böyümüşdü ki, o heç nə görmürdü. Yerə çökdü, yavaş-yavaş onun nəfəsi gedib-gəlməyə başladı. Özünə gələn kimi əlini yerə dayaq verib qalxdı. Ürəyinə elə bil istiot səpmişdilər və alışıb yanırdı. Səndələyə-səndələyə qapıdan çölə çıxdı, qışqırmaq istədi, səsi çıxmadı. Ürəyi bulandı. Başı hərləndi və üzü üstə yerə yıxıldı, ağarmış rəngi kömür kimi qaraldı.

Qorxusundan ürəyi partlamış xidmətçi görə bilmədi ki, sarayda İstanbuldan gəlmiş əyan-əşrəfi necə doğrayırlar. Beləliklə də Əhməd padşahın Təbriz taxtındakı yeddi aylıq hökmranlığı sona çatdı.

Bir neçə gündən sonra Osmanlı sultanının göndərdiyi qoşunlardan qalan tör-töküntüləri fitə, daşa basıb yola salırdılar. Onları fitə basan nə əsnafıydı, nə rəiyyət. Bunlar əmirlər idi. Əbih Sultanla Fərrux Yasarın birgə hazırladıqları qəsd baş tutmuşdu. Əhməd padşah aradan qalxmışdı.

Qoşunun tör-töküntüləri özləri ilə bərabər arabaya qoyulmuş cənazəni də aparırdılar. İki kəl qoşulmuş araba cırıldaya-cırıldaya getdikcə onun arxasında kiminsə bağladığı süpürgə yerdə sürünürdü.

Əhməd padşahın arvadı Aynaşahsultanı da oğlu Zeynal bütün kəniz və qaravaşları, bütün əşyaları ilə bərabər hörmətlə yola salırdılar. Ona kəcavə ayırmışdılar. Rum Sultanının qızını ayrı cür də yola salmaq olmazdı. Qoşunlar yola düşəndə Təbriz qalasının üstündə dayanan adamlar oxuyurdu:

Yazda əkdik şitili,
Böyüyə, kələm ola.
Payız kəsdik başını.
Göndərdik İstanbula.
Ay dili dili, dili dili dilavər,
Yar dili dili, dili dili dilavər.

Əhməd padşahdan sonra Təbriz taxtına iki namizəd qalmışdı. Əlvənd Mirzə, bir də Murad Mirzə. Onların ikisinin taxta çıxacağı arxalarında dayanan gücdən, qüvvədən asılı idi. Bir də belə bir adət vardı. Əgər hökmdar ölürsə, onun övladlarına eyni vaxtda çaparlar göndərirdilər. Hansı özünü tez çatdırsa, o da taxtda otururdu. İndi onlara heç kim taxta çıxmağa sifariş göndərməmişdi. Amma taxt onları çağırırdı. Arxasında Fərrux Yasar dayanan Əlvənd Mirzə taxta çıxdı. Amma Murad da özünə çoxlu tərəfdar yığmışdı. Ona görə də onların arasında sülh yaratmağa çalışdılar. Çünki bir-birilərilə vuruşsalar, Gödək Əhmədin kiçik oğlu Zeynal fürsətdən istifadə eləyib təzədən taxta çıxa bilərdi.

Hakimiyyət eşqi ilə alışıb yanan, lakin bunun üçün heç bir müdriklikləri, təcrübələri olmayan şahzadələr biri-birilərinə güzəştə getmək istəmirdilər.

Qızılözən çayının hər iki sahilində dayanan qoşunlar döyüşə hazır idi. Amma Fərrux Yasar burada ağsaqqallıq elədi. Şahzadələri barışdırdı, Qızılözən çayını sərhəd qoyub Ağqoyunlu səltənətini iki yerə böldü. Elə bil ki, iki uşaq bir almadan ötəri dalaşırdı, onları barışdırmaq üçün almanı onlardan aldı, silib təmizlədi, müştəri gözü ilə baxdı, sonra o almanı qocalıb çürümüş dişlərilə iki yerə böldü. Hər parçasını bir uşağa verdi ki, ağlamasınlar, dalaşmasınlar. Əlvənd Mirzənin payına Azərbaycan, Diyarbəkr və Qarabağ, Murad Mirzənin payına isə İraqi Ərəb, İraqi Əcəm, Fars və Kirman düşdü. Bayaqdan dalaşan və ağlayan uşaqlar səslərini kəsib gözlərinin yaşını sildilər. Bir torpaq isə gör neçə yerə parçalandı.

Bu, Fərrux Yasarın çoxdankı arzusu idi. Çünki Şirvan həmişə Qaraqoyunlulara və Ağqoyunlulara xərac vermişdi, onlardan asılı olmuşdu. İndi isə bu pay bölgüsündə çox asanlıqla o gücləndi və Ağqoyunlu səltənəti gücdən düşdü. Artıq o fikirləşirdi ki, gələcəkdə Arrana - Qarabağa basqınlar eləyib, oranı da Şirvan torpağına qatar, Şirvanşahlığın sərhədlərini Araz çayına qədər uzadar.

Geri qayıdanda o atını Araz üstündə salınmış qırmızı kərpicdən tikilmiş Xudafərin körpüsünün üstündə saxlayıb, gözlərini qayalıqlara səs salan coşğun Araza dikdi. Bir az yuxarıda uçub-dağılsa da üç-dörd tağı salamat qalmış körpüyə baxıb öz-özünə dedi:

– Çox keçməz Əlvənd Mirzənin qoşunlarını bu körpüdə qarşılayarıq. Onda bu körpünü tikənə yox, mənə xuda afərin deyər.

Bundan artıq onun heç bir arzusu yox idi. Həmin arzu da səltənəti böləndə ağlına girmişdi. Övladlarına da bunu vəsiyyət edəcəkdi. Qoy onun sərhədləri Kürdən deyil, Arazdan başlasın.

Elə dövrdü ki, kimin gücü varsa, gücsüzün papağını başından götürüb qaçır. Fərrux Yasar indiyə qədər papağını başında möhkəm saxlamağa çalışmışdı. Amma indi görürdü ki, artıq onun da başdan papaq götürüb qaçmaq vaxtıdı. O niyə qaçırmasın axı?

O, atını körpünün ortasında saxlamışdı, fikrə getmişdi. Qabaqda Qarabağ idi, arxada Qaradağ. Bu körpünü Qaradağdan Qarabağa tərəf tikiblər. Sonra onun üstündən keçib Şirvana gəliblər, onun üstündən yəqin ki, Hülaki xanın qoşunları keçib, Əmir Teymurun orduları adlayıb, atını minən bizim üstümüzə gəlib. Mən də Qarabağı ələ keçirəndən sonra bu xudanın afərin

dediyi körpünü söküb tökəcəyəm. Qoy görüm necə keçəcəklər. Mənə Qarabağ lazımdı, cəhənnəm olsun Qaradağ, cəhənnəm olsun Təbriz, cəhənnəm olsun Ərdəbil, Əhər, Mişkin, Marağa, Xoy, Mərənd.

İndi onun bir dərdi qalıb. Ərcivanda məskən salan İsmayılla haqq-hesab çəkmək. Şeyx Heydərin nəslinin axırıncı nişanəsini də yox eləyə bilsə, onda canı rahatlığa çıxar. Bir daha Ərdəbil müridləri Şirvan torpağına girməz. Əhməd padşahın işini bitirməkdə Əbih Sultan ona çox kömək eləmişdi. Verdiyi sözün üstündə dayanmışdı. İsmayılı da aradan götürmək üçün əlindən gələni eləyəcəkdi. Ona görə də Əbih Sultanı əldən verməmişdi. Özü Şamaxıya aparırdı. Əlvənd Mirzənin ən yaxın məsləhətçisi isə Əli bəy Cəyirli olmuşdu. Bu da Fərrux Yasarın ürəyindən idi. O, Əli bəylə xeyli söhbət etmiş, görmüşdü ki, çox dayazdır. Dərinliklərə baş vura bilmir. Təbrizdə Şirvanın işləri korlana bilər. Çünki o əsl tülküxasiyyətdir, hər bicliyi bilir, lazım gələndə isə dönüb canavar olur,pələngə çevrilir, ovunun üstünə atılır. Tuta bilməyəndə yenə tülküyə dönür, yollar axtarır, fürsət gəzir. Öz məqsədinə görə qardaşının meyitinin üstündən keçər. Belə bir adam ona lazımdı... Bir şərtlə ki, ona heç bir ixtiyar verməsin. Göz dustağı eləsin, lazım gələndə məsləhətə çağırsın.

Fərrux Yasarın əlində imkan olsaydı ona nağıldakı kimi dua oxuyub almaya çevirər, cibində gəzdirərdi. İşi düşəndə yenə Əbih Sultana döndərər, dinləyəndən sonra yenə almaya, döndərərdi. Bilirdi ki, o elə bir bəladır ki, heç cür onu başına buraxmaq olmaz.

Əbih Sultan atını ondan xeyli arxada sürürdü. Əvvəl fikirləşmişdi bir aradan çıxsın, qardaşı Nurəlinin yanına, Diyarbəkrə qaçsın. Sonra bu fikirdən vaz keçmişdi. Nə qədər uzaqdadırlarsa, qardaşdılar, yaxın olsalar mehribanlıqları itəcək. Bir əyalətdə iki qoçun başı bir qazana sığışmayacaq. Yaxşısı budur getməsin. Təbrizdə qalmağa da ürək eləmədi. Onu əmirlər əmiri çağırmayacaqdılar. Əlvənd Mirzə Əli bəy Cəyirlinin fitvasıyla onu aradan götürəcəkdi. Yaxşısı budur hələlik Fərrux Yasara sığınsın. Ona qulluq göstərsin. Bəlkə sonradan bir qapı açıla. Əhməd padşah öldürüləndən sonra özünə aydın bir yol təsəvvür eləyə bilmirdi. Qalır İsmayıl. Onu da aradan götürəndən sonra, o artıq Fərrux Yasara da lazım olmayacaq, başlayacaq köhnə düşmənçilik yada düşməyə, onu gürzələrin içinə atacaq. Qobustan gürzələrini o görmüşdü. Uzaqdan baxanda adamın əti ürpəşir. O da ola qarışqa kimi qaynaşan gürzələrin içinə onu lüt-üryan atalar. Yox, İsmayılın işi bitənə qədər o qaçıb canını bir yana çıxarmalıdır.

Təbrizdə Fərrux Yasar Əbih Sultanla görüşmüşdü. Söhbətləri də İsmayıldan düşmüşdü. Birləşib iki tərəfdən onu sıxmağa qərar vermişdilər. Biyəpas mahalının hökmdarı Hüsaməddinin əvvəldən də Ərdəbil şeyxlərindən xoşu gəlmirdi. Amma Əlvənd Mirzənin yanına elçilər göndərib bildirmişdi ki, onu əsl hökmdar bilir. Onun kölgəsində yaşamağı özünə şərəf sayır. Əlvənd Mirzə Hüsaməddin vasitəsilə İsmayıla təzə xəta toru toxumağa başlamışdı. Şirvanşah isə Talış xanı Mirzə Məhəmmədi öz boynuna götürmüşdü.

Onların arasında hətta qohumluq əlaqələri də var idi. İnanırdı ki, Mirzə Məhəmməd İsmayılı əsir alıb ərməğan kimi ona göndərəcək. Bunun üçün onu hədələmək də lazım idi. İki güclü hökmdar birləşəndən sonra xırda, gücsüz xanlıqlar onların qarşısında nə eləyə bilərdi. İsmayılın da ətrafında o qədər qüvvə yox idi ki, onu müdafiə eləyə bilsin.

Onun dəstəsi Qumlaq kəndindən keçib Soltanlı kəndinə tərəf gedirdi.

Kür qırağındakı Mahmudabad şəhərinə axşam düşürdü. Günəş palçıqdan, çiy kərpicdən tikilmiş şəhər evlərini narıncı rənglərə boyamışdı. Küçələrin çoxusu Kür qırağına çıxırdı və otlaqdan qayıdan inəklər toz qaldıraraq Kürə enirdi. Bu toz da narıncı rəngdə idi və qırmızı inəkləri görünməz eləyirdi. Kür isə enli axınla görünür, ətrafındakı qara meşələrin fonunda bulama rənginə çalırdı və bu bulamanın üstündə narıncı parıltılarla yanaşı, pullu balıqlara oxşayan gümüşü parıltılar da bərq vururdu. Küçələrin birinin qurtaracağında dikdir vardı, həmin dikdirin üstündə bir nəfər əllərini qoynuna qoyub yorğun-yorğun, qüssəli-qüssəli sulara baxırdı. Elə baxırdı, elə baxırdı ki, sanki onun gözləri qabağında yeddi oğlunu birdən öldürmüşdülər.

Ondan bir az aralı geyimindən imkanlı adama oxşayan qoca daş üstündə oturub ayaqlarını ayaqları üstünə aşırıb təsbeh çevirirdi. Rəngi qapqara, barmaqları çox cəld və çevik, sümük və dəridən ibarət olan qocanın əlindəki təsbehin iri mərcan dənələri donmuş qan damlalarına bənzəyirdi. Amma heç biri danışmırdı. Sükutu pozan o qan dənəli təsbehin şaqqıltısı, bir də

www.kitabxana.net

uzaqdan gələn şəhər səsləri idi. O səslər kənd səslərinə bənzəyirdi. Qoyun mələyirdi, it hürürdü, inək böyürürdü. Kimsə kimi səsləyirdi. Uzaqda qayış qoydu oynayan uşaqların qışqırıqları güclə eşidilirdi. Amma bu səs-küy Kürə, qızaran buludlara baxan adamın qulağına çatmırdı.

Hər axşam bu vaxtlar o buraya gəlir, çox vaxt əllərini qoynuna qoyub qüruba tamaşa eləyirdi və onun qüssəsi bu qürubla çox ciddi bir ahəng təşkil eləyirdi. Onu müşayiət eləyən bu adamlar heç cür onu sakitləşdirə bilmirdilər. Elə bil o səssiz-səssiz ağlayır, heç kim isə onu kiritməyə söz tapmırdı. Ağısız, bayatısız, hıçqırtısız və göz yaşlarsız ağlamaq isə davam eləyirdi.

Onun dərdi çox böyük idi. Elə bil gözəl bir yuxu görürdü. Yaxud ələmut ismayilliləri kimi, onu da hökmdar çağırmışdı. Oturub yeyib içdikləri yerdə onu bihuşdarı ilə yuxuya verib, hamıdan gizlin saxlanan qalanın cənnət bağına atmışdılar. Ayılanda görmüşdü ki, bulaqlardan bal axır, ağaclardan cənnət almaları sallanıb. Mələklər onun qulluğunda dayanıb. Bu şirin yuxu çox çəkmişdi. Lap çox. Birdən ayılıb görmüşdü ki, bunlar hamısı yalanmış. Onu aldadıblar. Gözlərini bağlayıb cəhənnəm içində ona cənnət göstərib ağrılarını, acılarını daha da artırıblar.

Zəkəriyyə Keçəçi uzun illər Təbriz sarayının vəziri olmuşdu. Uzun Həsənin, Sultan Yaqubun, Bəysunqurun vaxtında bu vəzifəni daşımış, Uzun Həsənin “Qanunnamə”sinin yazılışında yaxından iştirak etmişdi. Ölkənin qüdrətinin artmasında böyük xidmətlərinə görə ona “Ömdəti əd dövlə” - dövlətin dirəyi ləqəbi verilmişdi. Rüstəm padşah da onun xidmətindən istifadə eləmiş, amma Əbih Sultan hər quruşun qədrini bilən, idarə işlərini qüsursuz, təmiz, düz aparan bu vəziri hər an Rüstəm Mirzənin gözündən salmışdı. O torpaqların, mülklərin əmirlər arasında paylanmasının əleyhinə çıxmışdı. Amma o əmirləri özünə arxa seçməyə çalışan Əbih Sultan Rüstəm Mirzənin səxavətini tə’rifləyə-tə’rifləyə mülklərin hamısını onlara bağışlatdırmış, xəzinəni boş qoymuş, haqq-hesabı dolaşıq salmış, ölkədə hərc-mərclik yaratmışdı.

Öz səriştəsi ilə Ağqoyunlu səltənətini möhkəmləndirmiş vəzir görürdü ki, artıq hər şey dağılır, hər şey çürüyür, hər şey qaynamış ət kimi əpriyib tökülür, baş götürüb Təbrizdən ata yurduna, Muğanın istisindəki tozlu-torpaqlı, balıq iyi verən bu şəhərə qayıtmışdı. Uşaqlıqdan çıxdığı bu şəhər heç vaxt onun köməyini görməsə də, qollarını açıb onu qarşılamışdı. İndi o həm də möhkəm peşmançılıq keçirirdi. Öz doğma şəhərində heç olmasa bir məscid, bir mədrəsə, bir hamam tikdirib, yol çəkdirə bilərdi. Amma onun əsas dərdi bu idi ki, ömrünü sərf elədiyi illər hədər getmiş, zəhməti boşa çıxmış, qurduqları gözləri qabağında uçub dağılmışdı. Onun özünü isə lazımsız bir əşya kimi kənara atmışdılar. O görürdü ki, Ağqoyunlu səltənəti elə ölümcül yaralanıb ki, onu bir daha ayağa qaldırmaq mümkün deyil. O yaralını sağaltmaq üçün Uzun Həsənlə Sara xatun lazımdır. Onlar isə lap çoxdan torpaqlara qarışıb.

Donmuş qan damlalarına bənzəyən mərcan təsbehi çevirən qoca ayağa qalxıb bir an dayandı. Dizlərindəki ağrının keçməyin gözlədi, Zəkəriyyə Keçəçiyə deməyə xoş söz axtardı. Tapa bilmədi. Bu ağsaqqal onun dərdini hamıdan çox çəkirdi. Qorxurdu ki, bu xiffət, bu dərd onu vaxtından qabaq gora aparsın. Ona görə də ondan əl çəkmir, keçmiş vəzirin könlünü açanda xoş söhbətlərinə qulaq asır, ondan çox şeylər öyrənirdi. Bilirdi ki, Zəkəriyyə Keçəçi ölsə, o da öləcək, qırxı, bəlkə də yeddisi onun yeddisinə qarışacaq, O, vəziri keçmiş rütbəsi ilə çağırmağa alışmışdı.

– Ya, Ömdəti əd dövlə!

Vəzir döndü:

– Bilirsən onun mə’nasını?

– Yox, bilmirəm, – deyə ağsaqqal boynuna aldı.

– Bilməsən yaxşıdı.

– Nədi mə’nası. Deyir yetmişində öyrənən gorunda çalar. Mən də ömrümün bu axır çağında öyrənim ki, bəlkə inkir-minkirə bir cavab verə bildim.

– O adı mənə rəhmətlik, cənnətməkan Uzun Həsən özü vermişdi. – Ömdəti əd dövlə, yə’ni ölkənin, dövlətin, səltənətin dirəyi. İndi uçan o dövlətin dirəyinin mükafatı odur ki, baltayla doğrayıb atasan ocağa.

– Sənin burda nə günahın var axı.

– Ən böyük günah mənimdi? Ağacan kişi. Biclik bilmədim, fırıldaq, əliəyrilik bilmədim. Hamını öz ürəyimdə gördüm. Axır dirəyin saxladığı dam uçdu onun öz başına.

– İnşallah düzələr, fikir çəkmə, keçib, yadından çıxar getsin. Maşallah, nəsilbənəsil yeməyə var-dövlətin, salamat canın, övladların.

– İş varda, dövlətdədirmi?

Ağacan kişi söhbətin istiqamətini dəyişdi. Onların arasında bu barədə razılıq olmasa da Ağacan kişi ona ən təzə xəbərləri çatdırırdı.

– Şirvanşahın adamları gəliblər. Bizim gədə, sənin nökərin onları qayıqnan bəri üzə keçirib. Üç nəfərdilər.

– Hara gedirlər?

– Deyirmişlər Talış xanının yanına. Nəsə vacib bir işdən ötəri yollayıb Şirvanşah onları. Zəkəriyyə Keçəçi birdən dəli kimi döndü:

– Nə işdi ki?

– Bilməyib vallah. Çox korazehin uşaqdı. Danışırmışlar ki, zamanın sahibi peyda olub. Adı İsmayıl. Gedirik onun haqqına divan çəkməyə. Görsün zamanın sahibi odu, yoxsa bizik.

– Necə? Zamanın sahibi? İsmayıl? Odu, özüdü.

– Kim?– Ağacan kişi təəccüblə soruşdu.

– İsmayıl.

Birdən birə Zəkəriyyə Keçəçinin keyfi elə duruldu ki, şadlığından nə edəcəyini bilmirdi.

– O adamlar hardadı?

– Darğanın evində.

– Necə adamlardı?

– Adamdı da, Şamaxıdan gəlib Talışa gedirlər.

Mahmudabad Şirvan şahlığının tərkibində olsa da, sərhəd şəhəri olduğuna görə burada həm Şirvana, həm talışa, həm də Ərdəbilə meyl vardı. Xarici vergiləri Şirvanşah alırdı. Amma onu qorumağa heç kim fikir vermirdi. Bir də baxırdın Muğan tərəfdən alarlılar, Ərdəbil tərəfdən xələçlilər, tərəkəmələr hücum çəkib camaatın mal-heyvanını yığıb apardılar. Hamıya itaət elədiyinə görə dərvişlər də bu yerə ayaq basmaz, gələndə də qəsidələrini oxuyub, pul yığardılar. Ona görə də İsmayıl barəsində buraya səhih bir mə’lumat gəlib çıxmamışdı.

Bu şəhəri deyilənə görə Elxani hökmdarı Mahmud Qazan xan tikdirmişdi. Bu yerlərdə Kürün sol sahilində otaracaq bol olduğundan Elxani hökmdarı Keyxatu Qaraçala düzünü özünə paytaxt seçib ölkəni buradan idarə eləyirdi. Tez-tez Kürü keçib Təbrizə, ölkənin başqa vilayətlərinə getdiklərinə görə Kürdə bərə düzəltmişdilər və həmin bərənin yanında kiçik bir kənd salınmışdı. Sonradan Qazan xan həmin kəndi böyütdürüb şəhərə çevirdi. Amma evlər çiy kərpicdən, qamışdan tikilib üstü suvandığından burada gözəgəlimli bir bina da tikilməmişdi. Əhali də buraya hər tərəfdən gəlib yığılmışdı, heç kimin sözü o birisinə xoş gəlmirdi. Biri-birilərini acılayır, xəncərlə doğrayır, varını-yoxunu oğurlayırdı. Şəhərin üstünə quldur dəstələri gələndə qaçıb təndirlərdə, axurlarda, ot tayalarında gizlənirdilər.

Zəkəriyyə Keçəçi gəncliyində təhsil dalınca gedəndə insanları belə görməmişdi. Uzun illərdən sonra qayıdanda gördüklərinə inanmamışdı. Həyat qəribə məktəbdi - poza da bilir, düzə də bilir. O görürdü ki, hər yerdə belədi. Təbrizdə, sarayda həyat qaydasında olanda burada da, elə bütün şəhərlərdə, kəndlərdə də əmin-amanlıqdı. Qurd qoyunla otlayır. Elə ki, orada hərc mərclik başladı, bunun əks-sədası bütün kəndlərə, şəhərlərə yayılır. Balıq əvvəl başdan iylənir. Bu adi həqiqəti o özü burada, balıqçılıqla məşğul olan adamların arasında görmüşdü. Amma adi həqiqətlər çox vaxt böyük həqiqətlərin kiçik əksi olur. Bu xırda, darıxdırıcı, tozlu və çirkli, yayı isti, qışı palçıqlı şəhərdəki işləri də yalnız orada, sarayda düzəltmək olar.

Rüstəm Mirzədən sonra Gödək Əhməd padşahlığa gələndə, onu da qətlə yetirib Əlvənd Mirzə ilə Murad Mirzəni taxta çıxarıb ölkəni iki ayrı-ayrı paylara böləndə Zəkəriyyə Keçəçi dözə bilmirdi. Görürdü ki, insanlar daha da pozulur, cılızlaşır, acgözləşir, xırdalaşır.

Demək Şeyx Səfi nəsli yenə də baş qaldırdı. O, Şeyx Heydər uşaqlarının həbsxanaya salınmasının, Sultanəlinin öldürülməsinin əleyhinə olmuşdu. Onsuz da Ərdəbil həmişə o seyidlərin tə’siri altında olmuş, ayrıca bir xanlıq, ölkə kimi yaşamışdı. Sultanəli də belə yaşayacaqdı. Onu öldürdülər, guya Ərdəbili padşahlığa qatırlar. Amma budur, onu parça-parça elədilər.

Təbrizdən qayıdandan sonra Şirvanşah adam göndərib Zəkəriyyə Keçəçini Şamaxıya qulluğa çağırmışdı. Amma o qalan günlərini ibadətlə keçirəcəyini bəhanə eləyərək getməmişdi. Böyük sarayın vəfasını görməyəndən sonra o kiçik saraya getmək istəmirdi. Bununla o özünü daha da ucuzlaşdırardı.

Mahmudabada ustalar çağırtdırıb məscid, mədrəsə tikdirməyə başlamışdı. Bununla da ömrünün sonunda savab, rəhmət qazanmaq fikrinə düşmüşdü. Hərdən bir də qələm-davatını götürüb sarayda gördüklərini qaralayırdı. Amma axşam düşən kimi buraya - Kürün sahilinə gəlir, əllərini qoynuna qoyub qüruba, onun özü kimi bağrı qana dönmüş günəşə baxır, hava qaralıb göydə gecə quşları uçandan, qamışlıqlardan, bataqlardan mığmığalar qalxıb hər tərəfi çulğalayandan sonra qayıdıb evə gedirdi. Onun dalınca da qohumu Ağacan kişi, onun xidmətçiləri yeriyirdilər. İndi isə o günəş hələ uzaqda, Muğanın üstündə sanki yerin altına girməmiş qayıtmaq istədi.

– Deyirsən darğanın evindədilər?

– Bəli.

– Aydındı.

– Nə aydındı?

– Aydın olan.

Ağacan kişi ən çətin məsələlərdə Zəkəriyyə Keçəçinin “aydındır” deməyinə heyrət eləyirdi. – ”Bu kişi yerin altını da bilir, üstünü də. Elə bir iş yoxdur, xəbəri olmasın. Belə baş sahibini də bu günə salarlar?”. Bundan sonra artıq barmaqlarındakı donmuş iri qan dənəli təsbehini oynatmağa başlayırdı. Onun öz aləmində, Allahla arasında söhbəti başlayırdı.

– Ey yerin, göyün sahibi, niyə ən ağıllı bəndən olan, Zəkəriyyə Keçəçiyə əzab verirsən?

– O səndən ağıllıdı, məndən yox, Ağacan kişi. – Göylərdən cavab gəlirdi.

– Əstəğfürullah, əstəğfürüllah, mən sənin işlərinə qarışmıram. Onu bilmək istəyirəm ki, axı o məndən çox ağıllıdı, niyə gətirib mənə yoldaş eləmisən?

– Qoy bir az da sənin ağlını artırsın. O, həmişə padşahlara öyüd-nəsihət verirdi .Ağıllı adama ağıl öyrətmək, ağılsız adama ağıl öyrətməkdən daha xeyirlidi. Son padşahlar ağıldan kasıb olduqlarından onun məsləhətlərini bəyənmədilər. Ona görə də bu günə düşdülər. Onu da ayırıb Mahmudabada göndərdim ki, o hökmdarların günahı Zəkəriyyə Keçəçinin adına yazılmasın.

– Sən nə ədalətlisən, ey yerin-göyün sahibi?

Bu yerdə Ağacan kişinin Allahla söhbəti qurtardı.

– Yaxşı, aydın olan nədi?

– Heç, – deyə Zəkəriyyə Keçəçi ona cavab vermirdi. Bilirdi ki, onsuz da başa sala bilməyəcək, onsuz da lazım deyil.

Bu aydınlıq nədir? Demək İsmayıl Talış tərəfdədir və Şirvanşah bu adamları Mirzə Məhəmmədin yanına göndərib onu orada öldürtmək istəyir. Buna yol vermək olmaz, qəti olmaz!

Şirvanşahın elçisi Talış xanı Mirzə Məhəmmədə Fərrux Yassarın məktubunu təqdim eləmişdi. Mirzə Məhəmməd xan onu vəzirə oxutdururdu. Məktubun əvvəli səmimi başlasa da, onların dostluğuna işarə olunsa da, getdikcə boyalar tündləşir, axırda o dostluğun düşmənçiliyə çevriləcəyi ilə hədələnirdi. Məktubda deyilirdi:

“Mirzə Məhəmməd xan bilmədi ki, dostun düşmənlərini qanadı altına almaq düşmənçilikdən betərdi və bunun ağırlığını hiss eləməlidi. Şeyx Heydərin oğlu İsmayılın nəyindən qorxmusan. Sənin hərəkətindən belə çıxır ki, öz yanında mənim qanıma susayan adamları saxlayıb onlarla bərabər Şirvanşaha qəsd hazırlayırsan. Bil və sənə agah olsun ki, Şirvan qoşunu Kürü keçsə səni heç qanadı altına almayacaq. Yaxşısı budur, İsmayılı öz əlinlə tutub mənim hüzuruma göndər”.

Bir çox təhdidedici sözlərdən sonra Fərrux Yasarın möhürü basılmışdı.

Mirzə Məhəmmədin qanı sifətinə vurmuşdu və onun tükü tökülmüş başında tər tumurcuqlanmışdı. Gözləri şüşədənmiş kimi parıldayırdı. Amma heç nə demirdi. Məktubu oxuyan vəzir tərs-tərs Şirvan nümayəndələrinə baxır, gözlərini döndərib xana baxanda onlar təəccüb ifadə eləyirdi. Vəzir belə fikirləşirdi: “Şirvanşah olanda nə olar. Biz axı onun əlaltıları

deyilik. Heç Təbriz sarayına tabe olmamışıq, bu niyə bizi hədələyir?" Amma xan ayrı cür düşünürdü: Vəziyyət yenə də mürəkkəbləşib. Fərrux Yasar indi hamıdan qüvvətlidi. İstədiyini eləyə bilər. Talış xanının ona heç gücü çatar? Çox da ki, Ağqoyunlulara xərac verir. Əlvənd Mirzə Fərrux Yasarı qoyub onun sözünü deyəcək? Onsuz da heç Əlvənd Mirzənin də İsmayıldan xoşu gəlmir. Sabah o da Talış xanından İsmayılı istəyəcək.

Yaxşı, mən niyə ağlımı uduzdum? Mirzə Əliyə niyə uydum? Bir körpə uşağa görə özümə iki hökmdarı ləc salıram. Düşmənlərimin sayını artırıram. Bu fani dünyada mənim kimi hökmdarlar suyu da püfləyə-püfləyə içirlər ki, sonra söz deyən olar? Bu xatadan qurtarsın. Yox, elə özünü zamanın sahibi e'lan eləməklə, hamının gözündən pərdə asır. Mənim qanadıma, kölgəmə sığınıb yaza kimi özünə qüvvə yığmaq istəyir.

Nə qədər qüvvə toplayacaq? Ən çox, ən çox dörd-beş min. Onun atası iyirmi minlik qoşunla Fərrux Yasara heç bir şey eləyə bilmədi, özü tarimar oldu. İndi bu uşaq beş minlə nə eləyə biləcək? Arada mənim yerimə, yurduma su calanır. Talışın üstünə qoşun gəlsə, gərək vuruşam. Vuruşmada da gör nə qədər adamımız qırğına gedəcək. Yaxşısı budur keçi ölsün, qoturluğu da kəsilsin. İsmayılı yox eləsək, Əlvənd Mirzə də, Fərrux Yasar da, mən də qulağı dinc oturarıq. Ancaq necə? O mənim qonağımdı. Qonağı öldürmək, yaxud onu ələ vermək mənim nə şanıma, nə şöhrətimə yaraşan iş deyil. Belə eləsəm, gərək onda özüm boğazımı aparıb keçirəm kəndirə. Adım qalacaq qonaq öldürən, qonaq satan. Ölkənin adı bədnam olacaq, Allah bu qədər ne'məti verib ki, onlardan qonaqlar da yesin. Həm də bu qonaq məni hamıdan güclü bilib, mənə pənah gətirib, indi onu necə ələ verim? Mirzə Məhəmməd xan fikirdən ayrıla bilmirdi.

Əyninə məxmərdan arxalıq geyib, başına quzu dərisindən papaq qoyan Şirvan elçisi isə ona aman vermək istəmədi.

– Nə oldu, xan? Şirvanşahın məktubuna e'tinasız yanaşmaq yaxşı düşməz ha!

Vəzir ona dedi:

– Sən kimlə danışdığını bilirsənmi?

– Niyə bilmirəm? Bu qədər at sürmüşəm, bilmirəm hara gedirəm?

Vəzir ona yaxınlaşıb pıçıldadı:

– Xanın qəzəbinə gələrsən, bir az özünü yığışdır.

Elçi dil boğaza qoymurdu.

– Mən xanın qəzəbinə gələrəmsə, xan da Şirvanşahın qəzəbinə gələr.

Bu sözləri bərkdən dedi, xan da eşitdi. Vəzir xanın acizliyinə məəttəl qalmışdı. Tədbirsizliyinə də heyrətlənirdi. Biyəpiş hakimi Mirzə Əli özünü itirməyib İsmayılı gizlətmək üçün Qur'ana da and içmişdi. İndi bu boyda xan cavab tapa bilmir.

Mirzə Məhəmməd xan soruşdu:

– Elçinin vəzifəsi nədi?

– Elçinin vəzifəsi gətirdiyi məktuba cavab aparmaq, həm də doğru-dürüst cavab, xeyirli cavab.

– Onu soruşmuram. Şirvanşah sarayında nə iş görürsən?

Mən Şirvanşahın əmiraxuruyam.

Mirzə Məhəmməd əllərilə başını tutdu. "Gör mən nə günə qalmışam ki, Şirvanşah üstümə mehtərini göndərir. Demək məni mehtərinə bərabər hesab eləyib. Yaxşı, nə olar, tənəzzülün tərəqqisi də gələr".

– Deyirəm axı, niyə belə at kimi üzümə dayanırsan. Bunu qandallayıb tövləyə salın. O birisi elçiləri yerbəyer eləyib qulluqlarında dayanın.

Qapıda dayanan keşikçilər yetirib əl-ayaq tərpədən əmiraxurun qollarını burub, apardılar. O birisi elçilərdən biri ayağa qalxıb baş əydi.

– Xan sağ olsun, o elə belə danışığını bilməyəndi, onu bizə bağışla.

– Hə, belədi ha. Deyir adın nədi, Daşdəmir, yumşalısan, yumşalı. Elçiyə zaval yoxdu, dilin dinc qoya bilsə. Gedin, dincəlin, yoldan gəlmisiniz. Mən cavabı hazır eləyəcəyəm. – "Öz mehtərimlə də göndərəcəyəm Şamaxıya".– demək istədi, sözü dilinin ucunda saxladı.

Elçilər gedəndə, onlardan ən yaşlısı, bayaqkı sözləri deyən geri qayıtdı, xana yaxınlaşıb sirr sözü olduğunu başa saldı. Xan razılıq verəndən sonra yaxınlaşdı.

– Şirvanşah tapşırdı ki, dilcavabı deyim. İsmayıla görə beş yüz tümən də verəcək. Bu böyük puldu.

Bəli, beş yüz tümən çox böyük pul idi. Mirzə Məhəmmədə də belə bir vaxtda çox lazım idi. Amma yenə, heç nə demədi.

– Gedin, sonra danışarıq.

– Xan sağ olsun, bizim əmiraxuru mənim bu ağ saqqalıma bağışlayın. Danışığını bilmir, ürəyi elə deyil.

– Yox, tövlədən ötəri darıxıb. Qoy axurda bir az yatsın, ağlı başına gəlsin.

Xan üzünü kənara çevirdi. Bununla da bildirdi ki, onların arasındakı söhbət qurtarıb. Şirvanşahın elçiləri çıxanda xanın iqamətgahı qabağında bir dəstə elçi də atdan düşürdü.

Bunlar Biyəpişin günbatanındakı Biyəpas hökmdarı Hüsaməddinin elçiləri idi. Bir Gilan iki yerə parçalanmışdı. Bir tərəfi İsmayılın dostu, bir tərəfi onun düşməniydi. Bu gələnlər də düşmənlərin elçiləriydi.

Mirzə Məhəmməd xan hələ Şirvan elçilərinin hədəsindən qurtarmamış, özünə gəlməmiş bunlar özlərini– yetirdilər. Məcbur qalıb onları da qəbul elədi. Hüsaməddinin kiçik qardaşı Sədrəddin gəlməklərinin səbəbini belə izah elədi:

– Biz təkcə Biyəpasın yox, eyni vaxtda Ağqoyunlu hökmdarı Əlvənd Mirzənin də elçiləriyik. Bilirik ki, Şeyx Heydər oğlu İsmayıl Talışda, Ərcivanda ocaqlıq salıb, qoşun toplayır. Əgər onu bizə verməsən, biz özümüz xəbərsiz-ətərsiz Astara çayını keçib Ərcivanı yerlə yeksan eləyəcəyik. Onda yaxşı düşməyəcək. Əlvənd Mirzə də, Hüsaməddin xan da sənə böyük ehtiram köstərirlər. Hörmət qarşılıqlı olur. Yaxşısı budur ki, onları həmişə dost gözündə görəsən.

“Demək artıq Əlvənd Mirzə Hüsaməddini də qudurtdu. Onun zəncirini açıb buraxıb. Beləsinin qabağından qaçmasan, səni parça-parça eləyər. Deyir arxalı köpək qurd basar. Onun qabağından qaçsan da işlərin günü-gündən pisləşəcək. Dişi şirəyə batacaq”. Mirzə Məhəmməd xan düşündü, əlini qaldırıb onun sözünü yarımçıq kəsdi.

– Yaxşı, sən dedin, mən eşitdim. İkincisi də nə vaxtdan Hüsaməddin Əlvənd Mirzənin adından danışır? Kim onu vəkil eləyib. Əlvənd Mirzə bütün ölkənin padşahıdı, özünün mirzələri, çaparları, elçiləri var, lazım gəlsə məktub da yazar, elçi də göndərər. Onun adından danışıb mənə qara-qorxu gəlməyin heç bir xeyri yoxdu. Kişi gərək öz adından danışsın, özündən güclünün adından yox. Çünki belə şeyləri çox görmüşük. Şükür xudanın kəraminə, hərə öz evinin sahibidi, öz evində ağalıq da eləyir, nökərlik də. Evində oturub başqasına nökərçilik eləmək isə kişiyə yaraşan sifət deyil. O ki qaldı Əlvənd Mirzə ilə mənim münasibətimə, onu özümüz bilərik. Yə’ni qaşıq qazana çömçədən yaxın oldu? Qardaşın Hüsaməddinə de ki, ətlə dırnağın arasına girməsin. Çünki ətlə dırnağın arasına girən tikanı çıxarıb atarlar, yara bir gün, iki gün ağrıyar, sonra sağalar. Yenə yamanlıq da, pislik də tikanın özünə qalır. Əziyyəti də sonradan çəkən, çürüyüb gedən elə tikan olur.

Sədrəddin özünü itirdi. Qardaşına qarşı Mirzə Məhəmməd xanın ittihamlarını gözləmədiyinə görə pörtüb-qızardı.

– Bəli, düz deyirəm. Adam gördüyü pis iş üçün sonra lap qızarınca, əvvəldən xəcalətdən qızarsa daha yaxşı olar.

– Demək İsmayılı vermək istəmirsən?

– Hüsaməddinin yanında uzaqdan gəlmiş hörmətli adam var?

Sədrəddin elə bildi ki, Mirzə Məhəmməd xan onları ələ salır. Demək istəyir ki, sizin qonaqlarınız da olmur. O, cavab verməyə tələsdi.

– Niyə yoxdu, Əli bəy Cəyirli gəlmişdi, özünün bütün əsabələriynən. Bu sözləri deməyi də mənə o tapşırdı.

– Əli bəy Cəyirli. Başa düşdük. Onda Əli bəy Cəyirlini gətirəydin, əvəzində İsmayılı aparaydın.

– Necə? Xan sağ olsun, o əvvəla sədr əzəmdi, sonra da qonağımızdı?

www.kitabxana.net

– Bəs onda necə bilmisən? İsmayıl Sahib zaman mənim nökərimdi? O da mənim qonağımdı da. Belə çıxır ki, Hüsaməddin kişidi, qonağını vermir, Mirzə Məhəmməd xan nakişidi qonağını pay verir? Heç fikirləşib iş tutursunuz?

Xanın sözləri qarşısında Sədrəddin yenə də söz tapmadı. Başqa bir səmtdən yanaşmağa çalışdı.

– Bu ona bənzəyir ki, biri canavar balasını gətirib saxlayır, böyüdür. Elə bilir ki, insan əlindən yemək alandan sonra canavar xasiyyətini yerə qoyacaq. Onun dişləri bərkiyənə qədər qalır, gücü-qüvvəsi artanda yaxşılıq eləyənin bütün qoyun-quzusunu boğub qaçıb gedir. İsmayıl da belə bir qurd balasıdı. Hələ qoltuqdadı, amma onun əlindən Astaradan keçib buraya gəlmək olmur. Yolumuzu Qazan köşkündan salmışıq. Biz elə bilirdik Talışın bir xanı var, deməyəsən ikiymiş.

– Arxayın ola bilərsiniz, üçüncü xan olmayacaq. İsmayıl hələ heç kimin torpağını basmayıb, Talış torpağından başqa. Buna görə də məndən icazə alıb. O, gəlib babası Zahid Gilaninin türbəsini ziyarət eləməyə.

O fikirləşmişdi ki, iki od arasına düşüb. Amma Hüsaməddin də bu yandan çıxmışdı. Onun işləri pis gətirə bilərdi. Təkcə bir ümidi vardı. Havalar soyuyurdu. Qış yaxınlaşırdı. Qar düşəndən, çöllərdə ot qar altında qalandan sonra heç bir ağıllı hökmdar qoşun çəkib vuruşmağa getməz. Yazda isə İsmayıl Ərcivandan çıxıb gedəcək. İsmayıl uğursuzluğa düşsə, onda bu üç düşmən Talışı tikə-parça eləməyəcəkmi? Fərrux Yasar da, Hüsaməddin də çox kinli adamdılar. Heç nəyi yaddan çıxarmırlar. Onların kini dəvənin kinindən də betərdi. Uğur qazanandan sonra necə, Mirzə Məhəmməd xanın qədrini biləcəkmi? İnsan övladı çiy süd əmib. Nə qədər ki, işi düşür, köməksizdir, məhəbbətini əskik eləmir. Elə ki, genişliyə çıxdı, əli hər yerə çatdı, o çətinlik də, ağır günlərdə kömək duranlar da yaddan çıxır. Elə bilir elə öz gücünə qalxıb, yüksəlib. Yəqin ki, İsmayıl da belə olacaq. O, indidən lovğalanır. Uşaq olsa da xanın görüşünə gəlmədi və onu öz yanına çağırmadı. Belə eləyər də, əli Allahın ətəyindədir. Gözü rəiyyətləri görmür.

Yox, bu işlərin heç biri Mirzə Məhəmmədi açmır, onu elə bil çarmıxa çəkib tarım saxlayırdı. Nə qədər bu gərginliyə dözmək olar?

Hökmdarlıq da bir köpəyoğluluq deyil. Öz ürəyin istədiyini eləyirsən, başqalarına ziyan olur, başqalarının xeyrini güdürsən, özünə ziyandı. O, hökmdar kimi bu elçilərin hamısını boğazından asardı. Amma sabahı var bu günün. Gərək buna görə nə qədər qırğın verə. Bilmək də mümkün deyil, özü salamat qalacaq, ya yox.

Bu elçiləri də dincəlməyə göndərəndən sonra vəziri çağırdı məsləhətə.

– Nə deyirsən, ay dünya görmüş qoca? Nə eləyək? Fərrux Yasar ordan, Əlvənd Mirzə o tərəfdən, Hüsaməddin də bu yandan. Nə eləyək?

– Çətin sualdı, Məhəmməd xan. İsmayıla icazə verdin, yaxşı da elədin. Sahibi zamandı, bizim də axirət günümüz var. Ancaq bu günümüz də var axı. Hər işimizi axirətə bağlasaq, onda gərək elə əlimizi-ayağımızı uzadıb ölək.

– Hə, eşidirəm məsləhətini.

– Şirvanşahın elçisi qiyməti qaldırıb min tümənə. Hüsaməddinin elçisi isə o barədə heç söhbət də salmır.

Mirzə Məhəmməd qızardı.

– Deyəsən, qonağımızı bazara çıxartmışıq axı.

– Yox, qonaq qalır qonaq yerində.

– Bəs necə? Hamısı istəyir ki, bizdən razı qalsın. Əvvəla mən qonağı vermərəm, ikincisi də verməli olsaydıq belə, o tək, müştəri üç. Üç yerə bölməyəcəkdik ki?!

– Yox, biz onu verə bilmərik. Bütün Talış camaatı onun yanındadır. Hamı ziyarətə gedir. Gündə yüzlərnən qurban kəsilir. Hər gedən neçə qoyun, cöngə, düyə aparıb bağlayır İsmayılın düşərgəsinə. Ziyarətçi onun müridlərindən çoxdu. Onu bu adamların əlindən almaq qeyri-mümkündür. Deyillər onda bir zəhm var ki, heç kim həndəvərinə də düşə bilmir. Gecə-gündüz yüzlərlə adam onu qoruyur. Heç kimin ona əli çatmayacaq. Biz Şirvanşahın, Əlvənd Mirzənin və Hüsaməddinin yanında yaxşı olmaq üçün onlara deyək ki, icazə veririk, adamlarınızı göndərin,

oğurlatdırıb aparsınlar. Göndərsinlər də adamlarını. Onsuz da zamanın sahibinin hər işdən xəbəri olur,– deyə vəzir çox mə’nalı-mə’nalı gülümsədi. Həm min tüməni alarıq, həm də yaxşı adam olarıq.

Mirzə Məhəmmədin kefi duruldu.

Kəməndə sarınan atlı yəhərdən çıxdı və tappıltı ilə yerə dəyib süründü. Ayaqları başından aşıb yerə dəydi, o arabadan düşən un çuvalı kimi yastılanıb qaldı. Sonra kəndiri dartdılar, atlını sürüyüb apardılar. At da uzağa getmədi. Yüyənindən tutub gətirdilər.

Kəməndə sarınmış adamı ayağa durğuzdular. O, bir ayağını çəkə-çəkə yeriyirdi və üz-gözünü turşutmuşdu. Meşənin içi ilə keçən cığırla dağa çıxartdılar. Burada köhnə, bir tərəfi uçmuş qala vardı. Oraya gətirdilər. Həyətdən keçirib içərisindən tüstü çıxan binaya apardılar.

– ”Yeri”, “özünü əzib büzmə”, “tələs” kəlmələrindən başqa heç nə söhbət olmamışdı. Nə kəməndlə qolları bədəninə sarılan bilirdi onu kim aparır, nə də aparanlar bilirdilər ki o kimdir.

Qalada qoyunlar mələşirdi, bir tərəfə bir dəvə bağlanmışdı. Yerdə yüklər yan-yana düzülmüşdü. Bürclərdə adamlar görünürdü.

İki silahlı adam qolları bədəninə sarılmış adamı iri otaqdan keçirib xırda bir hücrəyə gətirdilər. Burada yerə qoyun dəriləri döşənmişdi. Yerdə bir xalça da vardı və əllərini başının arxasında çarpazlayan adam uzanıb fikrə getmişdi. Onun iri bığları görünürdü. Qapıda səs eşidiləndə o qalxıb dirsəkləndi. Bu Murad idi. Gözlərinə sataşan sifət onu heyrətləndirdi və təəccübləndirdi. Qolları bədəninə sarınan adam Əbih Sultan idi. Muradı görən Əbih Sultan da qorxudanmı, heyrətdənmi gözləri irildi.

Onlar axırıncı dəfə bir-birini Şəmasə kəndi yanında görmüşdülər. Onda üz-üzə gəlmişdilər, bir-birilərinə qılınc çalmışdılar. Düşməni çox görən Murad aradan çıxmış, kürəyinə sancılan oxdan sonra ağır yaralanmış, Uba arvad onu sağaltmışdı. Zəmanənin qarışdığını görüb o təzədən köhnə işinə qayıtmışdı. Çünki onunla mağarada yaşayan müridlərin çoxu üzə çıxa bilmirdi. Məcbur olub bu qalaya sığınmışdılar. Yolla keçən karvanları, tacirləri soyurdular. Təbrizlə Ərdəbil arasındakı bu qalanı özlərinə məskən seçmişdilər. Murad dəstənin başçısı olmuşdu.

Əbih Sultan dedi:

– Sən salamatsan?

– Salamatam. Görürsən ki, hələ ölməmişəm. Sənin adamlarının atdığı ox da məni öldürə bilmədi. İndi növbə mənimdi.

Əbih Sultanın kürəyinin arasından soyuq tər damcıları birləşib onurğa sümüyünün üstündəki çökəklə aşağıya axmağa başladı. O görmüşdü ki, Fərrux Yasar artıq Talış xanı ilə əlaqə yaradıb. Artıq Əbih Sultan ona lazım deyil və onun gürzələrin arasına atılacağı gün yaxınlaşır. Ona görə də bir dəfə Fərrux Yasarla ova gedəndə atını cüyür dalınca salıb uzaqlaşmış, onu izləyən fərraşları azdırmış, qaçıb aradan çıxmışdı. Yolda başına çox müsibətlər gəlmişdi. Amma o bütün düyünlərdən qurtarmış, özünü Xudafərin körpüsünə çatdırmışdı. Buradan birbaşa Diyarbəkrə, qardaşı Nurəlinin yanına getmək istəyirdi. Budur artıq qaçaq Murada rast gəlib.

Murad qalxıb dizlərini qatladı, iri əllərini dizlərinin qabağında biri-birinin üstünə qoydu. Onu gətirənlərdən soruşdu:

– Bunu harada tutubsunuz?

– Təbriz yolunda.

– Tək gedirdi?

– Bəli.

– Bir şeyi yoxdur?

– Heç nəyi. Cibində bir axça pulu da yoxdu. Bir atı var, bir xəncəri, vəssalam.

– Yox, siz bilmirsiniz. Bu adamı mən yaxşı tanıyıram. O, Rüstəm Mirzənin əmir əl ümarası Əbih Sultandı. Mən də onun sahibi xəbəriydim.

Əbih Sultanı tutub gətirənlər nə edəcəklərini bilmədilər. Yaxşımı, pismi iş gördükləri onlara bəlli deyildi. Biri başını aşağı saldı, o birisi günahkar-günahkar Murada baxıb gözlərini döydü.

– Qəbahət iş görmüşük, deyəsən.

– Yox, buna görə hər ikinizə böyük ənam düşür.

O, əl atıb yastığın altından bir kisə pul çıxartdı.

– Gəl götür. Aparın bölün. Əmirin atı da sizindi. Onlar təəccüblə Əbih Sultana və Murada baxıb çıxıb getdilər.

– Yenə qayıtmısan yol kəsməyə? – Əbih Sultan onu acıladı.

– Bəli, Əbih Sultan. Yol kəsmək sənin saraydakı işlərindən daha abırlı sənətdi. Sən hamını ucdantutma soyursan, xoşuna gəlmirsə, canını alırsan, gözünü çıxarırsan, ən yaxın dostunun düşməninin qabağında başını kəsirsən. Amma mən sənin əlindən dağa-daşa düşən adamlarla keçən tacirlərdən çörəyimizin haqqını alıb yolda vəhşi quldur-qaçaqdan qoruyuruq. Bu adamların evlərindən-eşiklərindən didərgin düşməyinin səbəbi sənsən, mən deyiləm. Hələ gör Ərdəbildə nə qədər cinayətlər elədin, qanlar axıtdın, uşaqları yetim qoydun. Elə bilirdin onların başı üstündə Allah yoxdu? Onların ahını heç kim eşitməyəcək? Budur, yola tək çıxırsan, səni həmişə əhatə eləyən əyan-əşrəf də üz çevirib. Cibində bir axça pulun da yoxdur. Allah barmağını uzadıb adamın gözünü çıxartmır ki, belə eləyir. Hamının gözündən salır. Yəqin ki, həm də acsan. Görürəm, gözlərinin ağı da saralıb. Yox, mən əclaf adam deyiləm. Sənə doyunca yemək də verəcəklər. Meylindən nə keçirsə də hazırlatdırım.

Bu eyhamların arxasında nə gizləndiyini Əbih Sultan yaxşı başa düşürdü. Artıq Muradın əlindən qurtarmağa heç bir imkan yox idi. Görünür artıq onun öz sonu da gəlib yetişib.

– Bir şərtlə, Murad bəy, yeməyi sənnən bir yerdə yeyəcəm.

– Yox!

– Ölüm cəzasına məhkum olanın axırıncı arzusunu soruşurlar və yerinə yetirirlər. – Əbih Sultan gülümsədi də.

– Bilirsən, mən daha o Murad deyiləm. Sənin elədiklərini görəndən sonra daha mənim heç kimə inamım qalmayıb.

– Yaxşı, gəl necə deyərlər, əyri oturaq, düz danışaq. Mən sənə nə pislik eləmişəm? Rastlaşmışıq, Rüstəm Mirzəni taxta çıxarandan sonra səni eləmişəm sahib xəbər. Sən də mənim sirrimi qızılbaşlara çatdırmısan. Belədi, belə deyil?

– Bəli, elədi.

– Bəs onda niyə məni günahlandırırsan?

Murad fikrə getdi. “Əbih Sultan düz deyir, onun mənə heç bir pisliyi keçməyib. Amma...”

– Əbih Sultan, dediklərin düzdür. Mənnən kəsdiyin çörəkdən sonra mənim özümə xəyanət eləməmisən. Amma Murad tək özünü fikirləşsəydi, indi onun xanimanları vardı. Mən sənin ikiüzlülüyünü görmüşəm. Sən Sultanəlini öldürdün, balaca qardaşını öldürdün, analarını öldürdün, Ərdəbil qazısını asdırdın, nə qədər müridlərin boğazına kəndir keçirdin. Nəyə görə? Rüstəm Mirzəyə görə. Rüstəm Mirzəni neylədin? Gödək Əhmədin qabağında quzu kimi qurban kəsdin. Bunlar elə adamlardı ki, mən onların heç birinin dırnağı da deyildim. Əgər mən də sənə mane olsaydım belə eləyərdin. Bütün bunları görəndən sonra demişəm, ey çörək, sənə deyirik Qur’andan irəlisən, yox, sənin heç gücün yoxmuş. Yox, indi görürəm ki, çörək çox güclüymüş. Elə bilirdin o qədər günahı soruşan olmayacaqdı. Allah məni göndərib sənin kimi adamları da mən cəzalandıram. Bilirsən bunun nə qədər savabı var?!

– Min savabdan bir torba qızıl irəlidi.

– Sənnən ötəri hə, mənnən ötəri yox.

– Murad bəy...

Murad onun sözünü kəsdi.

– Mən bəy deyiləm, qaçaq Muradam. Mənə sənin verdiyin bəylik də lazım deyil. Əgər məni taxta çıxarıb başıma tac qoysaydın, səni tanıyandan sonra o tacı ayaqlarımın altına salıb əzik-əzik eləyərdim.

– Ay uşaq! – Muradın səsi çox gur idi. Çağıran kimi ağacdan yonub düzəltdikləri təzə qapı açıldı, bayaqkı adamlar içəri girdi.

– Açın bunun sarığını. Biriniz də aşbaza deyin yaxşı bir şüyütlü plov bişirsin. Çünki əmir əl ümara şüyütdü plovu bütün plovlardan çox xoşlayır.

Onlardan biri Əbih Sultanın sarğısını açdı.

– Otur görüm.

Əbih Sultanın sifəti siyrilmişdi. Sağ ayağı da möhkəm ağrıyırdı. Birtəhər aşağı tərəfdən oturdu.

– Danış görüm hardan gəlib hara gedirsən?

– Diyarbəkrə gedirəm.

– Hardan gəlirsən?

Əbih Sultan Fərrux Yasarın yanında olmağını danışmadı. Bu da Muradın əlində təzə bir dəstəvuz olardı.

– Qarabağdan. Bir dostumun yanındaydım.

– Dostun səni niyə pulsuz-parasız, adamsız yola salıb?

– Murad bəy, tərəqqinin tənəzzülü də olur. Vaxt vardı yuxarı qalxırdım, indi də aşağı enirəm. Kim bu dünyanı tutub durub axı? Heç kim. Onsuz da bundan sonra mən bir də saray üzü görməyəcəm. Qayıdıb gedirəm öz mülkümə, qardaşımın yanına. Gəl sən də məni yolumdan qoyma.

– Bircə bunu eləyə bilməyəcəm.

– Mən insafsızam. Sən insaflı ol. Havayı demirəm. Rüstəm Mirzənin xəzinəsi mənim əlimdədi. Yarısını sənə bağışlayaram.

– Yox!

– Hamısı sənin olsun. Tutaq ki, məni öldürdün. Buna görə heç kim sənə sağ ol deyib, o qədər ən'am verməyəcək. Götür xəzinəni, bu adamları da burax, qayıt get öz elinin içinə, şah kimi yaşa ömrünün axırına kimi. Evlən, hələ qocalmamısan. Axır günündə sənə sahib duran olsun. Beş il, üç il dağlarda yuva qurub yol kəsəcəksən, sonra da Əlvənd Mirzə güclü qoşun göndərib hamınızı quş kimi ovlatdıracaq. Meyitinizi dağda-daşda çaqqal, canavar dağıdacaq. İndi özün bil. Mən dünyada bir adama ürəkdən yaxşılıq eləmişəm, o da sənsən. İndi o adamın əlində ölmək məni ağrıdır. Qoy heç olmasa düşmənlərim məndən intiqam alsınlar.

Murad dediyinin üstündə dayanmışdı:

– Nə olar, ölümünü özün seçərsən. Düşmənlərini tapmaq məndə.

Qapı açıldı, otağa iri məcməyidə şüyütlü plov gətirdilər.

– Otur ye. Mən toxam. – Səninlə bir daha duz-çörək kəsəsi deyiləm.

Talış dağlarının başına buludlar toplanmışdı. O buludlar Xəzər dənizinin üstündən sıralanıb buraya axışırdı. Ağır tutqun buludlar Kirkan meşəsinin dəmirağaclarına ilişib dayanır, ya dağı dərdli görüb əylənirdilərsə, ya nədi, buludlar bir yerə toplaşırdı. Onlardan yağışla bərabər qar ələnirdi. Yerə çatan kimi qar əriyir, yağış isə həmişə yağdığı bu qara torpağı horraya döndərirdi.

Ərcivan meşəsində yağış ağaclardan çox yerdəki xəzəllərə yağırdı. Ağacların nəhəng gövdələri islanıb qaralmışdı. Neçə gündən bəri yağan yağış onları elə islatmışdı ki, o nəmi, o suyu ağacların canından ancaq yay günəşi çıxara bilərdi.

Zahid Gilaninin məqbərəsi ətrafında qurulan çadırların üstünə yağış düşdükcə sacda qovrulan qarğıdalının səsini verirdi. Ağ çadırın içərisinə isə bu yağış un kimi, toz şəklində tökülürdü, İsmayıla elə gəlirdi bu nurdu, işıqdı. Amma gecə-gündüz onun çadırı ətrafında keşik çəkən müridlər yağışın əlindən cana gəlmişdilər. Onlar da ağac kötükləri kimi islanmış, su, soyuq iliklərinə işləmişdi. Onlardan biri lap cana gəlmişdi. Ürəyində bircə fikir dolandırırdı.

– Allah kömək olmuş, bir başını qaldırıb tanrıdan iltimas eləyə bilməz ki, bu yağışı kəs. Axı onu zamanın sahibi eləyən qurban olduğumdu da. Yə'ni desə sözü yerə düşər?

Mürid yoldaşları heç kimə baxmaz, onun dilini kəsərdilər.

Bu günlər Lələnin də işi çox idi. Lap çox. Gecə qurtarırdı, o isə bir çimir eləməyə vaxt tapmırdı.

Talışdan, Muğandan, Gilandan, Ərdəbildən, Mazandarandan belə korlar, şillər, xəstələr sürünə-sürünə axışıb bura gəlir, öz dərdlərinə əlacı İsmayılda görürdülər. Amma Lələ İsmayılı heç kimlə görüşməyə qoymurdu. Çadırda, adamların arasında o laməkan olmuşdu. Görünsə, adamların arasına çıxsa, Lələyə elə gəlirdi ki, sehr itər. Bu xəstələri isə birtəhər geri qaytarırdı. Onu düşündürən bu xəstələrin taleyi deyil, silah götürə bilən müridlərin sayı idi.

Şam şəhəri yanında məskən salmış şamlı tayfasına, Ərzincan ətrafındakı rumlu tayfalarına, Vaysaq, Boyat, Ustaclı, Qacar və Əfşar tayfalarına o, carçılar göndərmişdi. Elə bil ki, dünyanın ən hündür yerində dayanan carçı əlini qulağının dibinə qoyub ucadan səsləyirdi.

– Zamanın sahibi peyda olub. Kimin günahı yoxdursa, yığılıb gəlsin. Onunla bərabər bütün günahları yer üzündən süpürüb atsın. Eşidirsinizmi, eheyy...

Bu carçının səsini isə hər yerdə eşidirdilər. Ona hay verirdilər.

Artıq ilk carçı qayıtmışdı. Lələyə danışırdı:

– Əbdi bəyin yanında oldum. Sevindiyindən çiçəyi çıtladı. Dedi mənim elim hamısı yazda at belində olacaq.

– Necədi Əbdi bəy?

– Sazdı. Əjdaha kimi. Saçı-saqqalı bir az çallaşıb. Lələ özü şamlı tayfasından idi. Neçə illər bundan əvvəl gəlmişdi və bir daha o tərəflərə ayağı düşməmişdi, Əmir Teymur şamlı qəbiləsini Səmərqənd tərəfə aparanda Lələnin babası Şeyx Səfi türbəsinin mücövürü, Şeyx Əlinin yanına gəlmiş, onu Əmir Teymura minnətçi salmışdı. Xacə Əlinin xahişini eşidən Əmir Teymur Şamlı tayfasının geriyə, öz torpaqlarına qayıtmağına icazə vermişdi. O vaxtdan da bu tayfa Ərdəbil şeyxlərinə, onların əqidə və təriqətinə bağlanmışdı. Lələnin atası isə oğlunu bu ocağa nəzir demişdi. Böyüyəndə onu Şeyx Heydərə tapşırmışdı.

– Bunu pirimizə nəzir demişəm. Nökərindi, qulundu.

Amma onlar dost olmuşdu. Şamlı qəbiləsi onlara indiyə qədər sədaqətliydi, ona görə də ilk çaparı elə ora göndərmişdilər.

Tək-tək gələn müridləri birləşdirmək, onları nizamlı qoşun halına salmaq da çətin iş idi. Böyük tayfalar öz silah götürən oğullarını bir yerdə gətirməsə, gələcək döyüşlərdə uğur qazanmağa da ümid az idi. Düzdür, özünə mürid adı götürən indidən bilir ki, ölüm-dirimə gedir və bu döyüşlərdə öz canından keçməlidir. Bununla belə mütəşəkkillik daha vacib, məsələlərdəndi. Həm də müridlərin arasında düşmənlər də gələ bilər. İşin başlanğıcında onlara elə bir xəta yetirə bilərdi ki, onu heç nə ilə düzəltmək olmazdı.

Artıq Talış xanı ona xəbər çatdırmışdı. Fərrux Yasarın və Hüsaməddinin müridlər arasına sui-qəsdçilər göndərəcəyindən xəbərdardılar. Amma o sui-qəsdçilər kim ola bilərdi? Yüzlərlə adam gəlir, hamısı da sahibi zamanın tərəfində ölümə hazır olduğunu deyir. Heç birinin də alnında düşmən olduğu yazılmayıb.

Lələ bircə iş görə bilmişdi. Təzə gələnlərə düşərgədən xeyli aralı çadırlar qurulur, onlar İsmayılın düşərgəsinə buraxılmırdı. Bəs necə? Onlar gizlincə yaxınlaşıb çadırda yatan İsmayılı öldürə bilməzdimi? Çadırın ətrafında ən inanılmış adamlardan keşikçi qoyulurdu. Bir də İsmayılın yeri tez-tez dəyişdirilirdi. İkinci gecə bir yerdə yatmırdı.

Lələ başqa bir tədbir də görmüşdü. Bu sirri isə ondan və ən yaxın iki-üç adamdan başqa heç kəs bilmirdi. Ərdəbil müridlərindən birinin İsmayıl yaşda, İsmayılla bir üz almaya oxşayan Xızır adlı oğlu vardı. Lələ Xızıra da eyniylə İsmayılın paltarından tikdirmişdi. Hər gün hər ikisinə eyni libas geydirilirdi. Amma bundan onların heç birinin xəbəri yoxdu. Bunu iki məqsəd üçün eləmişdilər. Birincisi ona görə ki, əgər düşmən düşərgəyə yol tapsa çaşıb qalsın. İkincisi də bir-iki dəfə eyni vaxtda onları düşərgənin ayrı-ayrı səmtlərində adamlara uzaqdan göstərmişdi. Hər ikisi də namaza dayanmışdı. Bu da ziyarətə gələnlərdə qəribə bir mö’cüzə tə’siri yaratmışdı. Sözü-sovu hər tərəfə yayılmışdı. İsmayılın eyni vaxtda iki yerdə görünməyi ən böyük mö’cüzə tə’siri bağışlamışdı.

Onlar insanları yalnız bu cür mö’cüzə pərdəsi altında öz arxalarınca apara bilərdilər.

Bir gün düşərgəyə qulaqları eşitməyən, gözləri çəp, qozbel bir adam oğlunun əlindən tutub gəlmişdi. Ona nə qədər demişdilərsə, başa sala bilməmişdilər ki, İsmayılın yanına heç kəsi buraxmırlar. O, öz dediyinin üstündə dayanıb durmuşdu. Nəhayət, İsmayılın həmişə namaz qıldığı yerə gətirmişdilər. O, zamanın sahibinin dayanıb namaz qıldığı Yeri öpmüş, yalamış, sonra ona inamsızlıqla baxan adamların yanında cibindən bıçağını çıxarıb itiləmiş, çəp gözlərindən yaş axa-axa, on-on iki yaşındakı oğlunu yerə yıxıb qibləyə döndərmiş, bıçağı onun boğazına çəkmək istəyəndə, qolundan tutub güclə saxlamışdılar.

Qorxudan nitqi qurumuş uşağı alıb buraxmış, onu isə Lələnin yanına gətirmişdilər. Əhvalatı da olduğu kimi ona danışmışdılar.

– Sən kimsən? Hardan gəlmisən?

Əlini qulağına aparıb kar olduğunu, eşitmədiyini bildirmişdi. Bir də sözləri bərkdən təkrar eləyəndən sonra demişdi.

– Biləsuvar tərəfdənəm, qadan alım.

– Bəs bu nə işdi, sən tutursan? O körpə uşağın nə günahı var?

– O uşaq mənim belimdən gəlib, qadan alım. Sahibi zamana qurban demişəm.

– Nəyə görə?

– Necə yə'ni nəyə görə? Zülm ərşə dayanıb. Onnan evdə onu da var. Hamısı da acından ölür. Ən gözə gələnini qurban deyib gətirdim. Qoy biri qurban getsin, o biri uşaqlar heç olmasa zamanın sahibinin kəramətindən çörək tapsınlar.

– Bir qoç gətirin, – deyə Lələ göstəriş vermişdi.

Qoçu gətirmiş, Lələ məcbur etmişdi ki, atası uşağını qurban kəsdiyi yerdə qoçu qurban kəssin. Bundan sonra ona pul da vermişdi.

İndi get uşaqlarını dolandır, zamanın sahibinin kəraməti onların ruzusunu yetirər.

– Yox, qadan alım. Heç yerə gedən deyiləm. Bu lap İsmayıl qurbanına oxşadı. Bundan sonra mən onun qurbanıyam. Özümü qurban verməsəm gözümə yuxu getməz.

Həmin kişini düşərgənin aşpazlarına qəssab vermişdilər. Qoyunları kəsir, soyur, doğrayırdı. Hamı bu fikirdəydi ki, onun kimi sadiq ürəklə Ərcivana gələn olmayıb. Öz işindən əlavə, odun yarır, qazanların altını yandırır, su daşıyır, xırım-xırda işləri də cani-dildən görürdü. Təmizliyinə, səliqə-səhmanına görə ona yeməkləri daşımağı da ümid eləmişdilər.

Bu yağışlı gündə aşpaz çardağın altında dəm almış plovu ocaqdan düşürüb, o birisi nimçələrdən fərqlənən çini qaba aş çəkdi. Başı nəyəsə qarışdı. Amma o qabın yanından kiminsə qaraltısının keçməyinə əhəmiyyət vermədi. Amma qayıdanda özündə nəsə bir narahatlıq duydu. Ürəyi nədənsə döyünməyə başladı. Başını qaldırıb odun doğrayan kişini gördü. Deyəsən o da nədənsə narahat idi və gözucu aşpaza baxırdı. Aşpaz onu əlinin hərəkəti ilə yanına çağırıb, çini qabı aparmağı ona tapşırdı. Kişi bir an tərəddüd elədi, sonra aş çəkilmiş qabı götürdü. Plovun istisi keçəndə əlləri əsdi. Bir an duruxdu və yeridi. Amma elə bil hər ayağına bir putluq daş bağlanmışdı. Gedə bilmirdi. Aşpaz da bunu hiss eləmişdi. Ocağın yanından ucu qırğı burnu kimi qabağa əyilmiş dəhrəni götürüb yavaş-yavaş onun dalınca getdi. Çadıra çatmamış birdən-birə dedi:

– Dayan!

Kişi dayandı. Aşpaz qabın rənginə fikir verdi. Bu, Mirzə Məhəmməd xanın İsmayıla bağışladığı mərtəbeyi idi və onun rəngi açıq yaşıldan dönmüş, qaralmışdı. Aşpaz özünü saxlaya bilməyib qışqırdı:

– Lələ, özünü çatdır!

Bir anda Lələ çöldə idi. Aşpaz başı üstünə qaldırdığı dəhrəyə və qozbel, çəp kişinin əlində əsən qaba baxdı. Qozbel Lələni görəndə əlindəki qab düşüb çilik-çilik oldu və plov palçığa qarışdı.

Lələ, məsələnin nə yerdə olduğunu başa düşüb qılıncını siyirdi. Xadim bəy Xulafanı da çağırtdırıb elə oradaca məhkəmə qurdu:

– Bu kimin günahıdı? – O, əvvəl aşpazdan soruşdu.

– Onun, – deyə aşpaz çəpgöz qozbeli göstərdi. O, çəpgözə baxdı.

– O plova zəhəri kim qatıb?

İldırım vurmuş kimi yerində quruyub qalmış çəpgöz başı ilə aşpazı göstərdi. Amma birdən diz üstə düşüb palçığın içindən plovu ovuclayıb ovurduna təpməyə başladı.

– Dayan, səni bura kim göndərib?

– Şirvanşah. Bu gün mənə min tümən verdilər, bir də bu zəhəri. Dedilər ədviyyə kimi səp.

– Kim verdi?

– Tanımıram.

– Bizim müridlərdəndi?

– Hə.
– Görsən tanıyarsan?
– Hə. – O artıq hər sözü eşidirdi. Karlığı yox idi.
Beli isə qozbel idi. Əlini atıb plovu palçıqqarışıq götürüb ağzına təpirdi. – Allah, itin olum, Allah, pişiyin olum. Gör mən nə günah işlətmişəm. Tez öldür məni, elə bildim heç kəs başa düşməz. Yox, İsmayıl zamanın sahibidi. Ona şəkk eləyənə min arxa lə'nət. Heç kəs görməmişdi. Qab satdı məni. Allahın qabı da dil bilirmiş, ona qulluq göstərirmiş.
Getdikcə onun səsi kallaşırdı. Lələ bir şeyi də dürüstləşdirmək istəyirdi. Aşpazın bu işdə günahı olub-olmadığını bilməliydi.
– Aşpazın bu işdən xəbəri var? Ölüm ayağında düzünü de.
– Yox, – o başını buladı.
– Bəs sən İsmayılın ayağı altında oğlunu qurban kəsirdin?
– Mənim oğlum deyildi. Oğurlamışdım.
Lələ qılıncın iti ucuyla onu dümsüklədi.
– O mürid hardadır, adı nədir?
– Adını bilmirəm. Sağ gözündə titə var. – Artıq o plovu yeyə bilmirdi. Bayaqdan palçığın içində iməkləyən uşaq kimi dayanmışdı, ayaqları arxaya, əlləri qabağa sürüşdü, o üzü üstə yerə gəldi. Beli qırılmış ilan kimi qıvrıldı. Sifətini palçığa sürtdü. Zarıdı, öyüdü və birdən-birə çarmıxdakı adam kimi dartıldı və quruyub qaldı. Lələnin bir işi də artmışdı. Gözü titəli adamı tapmalıydı. Hələlik isə başını qaldırıb aşpaza baxdı. Amma aşpaz oturub uşaq kimi ağlayırdı.
– Sən necə oldu ki, belə adama inandın?
– Bilmirəm. Ona hamı inanmışdı. Nə yaxşı ki, şübhələndim. Elə bil ki, mənə kimsə dedi, agah oldu.
Lələ zamanın sahibinə zəhər vermək istəyən adamın bu hala düşməyini də yaymaq, hamıya bildirmək istəyirdi. "Mö'cüzə"nin biri də artırdı.

## ÇUXUR SƏƏD1 SƏFƏRİ

Başındakı sədəf rəngli buzlaqlar parlayan dağların əhatəsinə kainatın ən böyük zümrüdü düşmüşdü. Bu zümrüd yaz günəşinin altında parıldayırdı, qırçınlanırdı. O, zümrüd üzüklərdəki, taclardakı, qolbağ və bilərziklərdəki, xalxal və bazubəndlərdəki zümrüddən daha zərif rəngdəydi. Onun közəlliyini heç bir şeylə müqayisə eləmək mümkün deyildi. İsmayıl çadırın qabağında da-
yanıb bu gözəlliyə baxırdı. Ayağı altına isə təbiətin elə bir xalçası salınmışdı ki, onu ayaqlamağa insanın ürəyi gəlmirdi. Züm-
-----------------------
1. Orta əsrlərdə İrəvanın və Ararat vadisinin adı.
rüddən daha yaşıl otların arasında sarı çiçəklər bitmişdi. Beş ləçəkli bu qaymaq çiçəklərinin ləçəklərini təbiət-zərgər ən son həddə qədər cilalamışdı. Çox xırda, barmaqlar arasına götürmək mümkün olmayan, rəngi göylərdən mavi çiçəklər açmışdı.
Ağ çadırdan bir az yuxarıda qar xarlayıb qalmışdı. Və rəngi elə bu çadır kimi, İsmayılın mindiyi Qızıl qanad kimi ağappaq idi, ayrı-ayrı dənələri parıldayırdı. O qar topasının aşağısında sarımtıl rəng vardı. Qar əridikcə damcı-damcı sular torpağa hopurdu və elə buradaca novruzgülü iki nov yarpağının arasından qalxıb boylanırdı.
Onun ürəyində misralar dolanmağa başladı.
Qış getdi, yenə bahar gəldi,
Gül bitdivü laləzar gəldi.
Elə gözəl bir gün, elə gözəl təbiət, elə gözəl əhvali-ruhiyyə vardı ki, insanın qəlbinə zərrə qədər də pis fikir gəlmirdi. Tale də yaddan çıxmışdı, düşdüyü xətalar da, başına gələn müsibətlər də, irəlidə onu gözləyən işlər də.
Həyatda, dünyada hər şey niyə belə gözəl və həmahənk deyil. Dünyanın bir tərəfinə belə gözəllik, o birisi tərəfinə səmum yelinin göylərə qaldırdığı qum tufanları düşür.

www.kitabxana.net

Lələ isə bu gözəlliyi görmürdü. Bu yaşıllıqdan, çiçəklərdən, bahardan xəbər tutmamış kimi qırmızı, üstündə mamır da bitməmiş qayanın dibindəki buğlanan, isti gölməçənin kənarında oturub fikrə getmişdi və hərdən bir yerdəki ağ, kövrək daşları suya salır, onların qaynamağına baxıb tullayırdı.

Yaz gələn kimi o məsləhət görmüşdü ki, Ərcivandan tərpənsinlər. Orada düşərgənin yerini hamı bilirdi və hər gün sui-qəsd gözləyirdilər. Həm də üz-üzdən utanır. Rumlu və şamlı tayfalarına özləri dəyib müridlərin sayını artırmalıydılar.

Ölkənin, səltənətin iki yerə bölünməsi nə qədər ağır və acı olsa da, onların məqsədə çatmağını asanlaşdırırdı. Əlvənd Mirzə güclü deyildi. Fərrux Yasar da təklənmişdi. Yenə də onların fikri ilk dəfə Şirvan üstünə yerimək idi. Bunun üçün də şərait yetişmişdi.

Ərcivandan tərpənməmişdən əvvəl o, müridlərin arasında sağ gözü titəlini axtarmış, bu nəm-nişanda səkkiz nəfər tapmışdı. Onların arasında isə Şirvanşahın göndərdiyini ayıra bilməmiş, əvvəl hamısını e’dam elətdirmək istəmiş, amma İsmayıl onların hamısına aman vermiş, müridlikdən çıxarmaqla kifayətlənmişdi.

Çox da böyük olmayan dəstələri artıq Göyçə gölünün kənarındaydı. Qarabağı adlamış, Tərtər çayının vadisi ilə isti sular qaynayan Dəlidağa gəlmiş, Sarı yer yaylağından Göyçə gölünün sahilinə çıxmışdılar. Buradan isə Cığın vadisi ilə Çüxur Səədə enəcək, Arazı keçib Ərzincana gedəcəkdilər.

Artıq Əyricə yaylağına köçlər düşmüş, alaçıqlar qurulmuşdu.

Lələ birdən bir məsələyə məəttəl qaldı. Onun suya saldığı yüngül, kövrək, ağ daşlar qayaya dəyəndə yapışıb orada qalırdı. Bu ki, mö’cüzədi. O, yenə də daşı isladıb baxdı. İsti su dəyən kimi ağ daşda köpük əmələ gəlirdi. Daşı qayaya tulladı. Bu da yapışıb qaldı. Daşı suya batırmamış atdı, qayaya yapışmadı.

Geri qayıdıb İsmayılın yanına gəldi. Onun yenə də şe’r aləminə cumduğunu görüb dinmədi. Arxada dayanıb qollarını qoynuna qoydu. Əyricə yaylaqlarına tərəf baxdı. Yaşıl təpələrin üstündən göyümtül dağ görünürdü və o dağın yamaclarında qar şırımları yuxarıya getdikcə nazilən ağ, iti dişlər kimi dayanmışdı. Aşağıdakı təpələrdə sürülər, ilxılar görünürdü. Düzənlikdə isə yaz yerdə işaran bulaqların qarışıb artırdığı ilan kimi əyri, gümüş kimi parıltılı bir çay axırdı, həmin çayın da hər iki tərəfində baldırğanlıqlar görünürdü. Buraya axşam çatmışdılar. Düşərgə qurmuş, yatıb dincəlmişdilər. Bu gün də atlarını yemləyib, dinclərini alandan sonra səhər yola düşəcəkdilər.

İsmayıl dönüb Lələni gördü.

– Lələ,

Qış getdi, yenə bahar gəldi,
Gül bitdivü laləzar gəldi.

– bəli, mürşüdüm. Təbiətin bahar, günahsız vaxtıdır. Dünyanın ən acizi olan gül-çiçəklərin belə xətrinə toxunmur təbiət.

– Gözəl yerlərdi. Bu hansı dəryadı?

– Bu Göyçə gölüdür. Suyunu bulaqlardan alır. Bu isə bal kimi şirindi. Onun Tirrix1 balığı kimi dünyada dadlı balıq yoxdu. On-

dan xeyli tutdurmuşam. Amma daha bir mö’cüzə də var.

– Nədir o mö’cüzə?

--------------------

1. Tirrix– (qızıl xamı balıq-ərəbcə)

Lələ İsmayılı isti gölün kənarına gətirib daşın qayaya yapışmağını danışdı, göstərdi.

– Doğrudan da mö’cüzədir.

– Bu mö’cüzəni isə zamanın sahibinə Allah təala əta eləyib.

O, bu mö’cüzədən istifadə eləməyin yolunu öyrənmişdi. Uzun yolda yorulub deyinənlər, Şirvana yox, yolu özgə səmtə çevirəndə narazı qalanlar vardı ki, onları inandırmaq lazım gəlirdi. Bu fikrini İsmayıla danışandan sonra geri qayıtdılar. O, müridlərin arasında olan Dədə bəyi,

Qara Piri bəy, Xadim bəy Xulafanı, Bayram bəy Qaramanlını çağırtdırdı. Hər on müriddən birini ayırmağı tapşırdı. Mö'cüzə baş verəcəyini dedi. Amma sirri onlara da açmadı.

Hər on nəfərdən biri ayrılıb isti gölün kənarına gələndən sonra, o üzünü bu adamlara tutub soruşdu:

– Daş-daşa yapışar?

– Yox, – deyə Dədə bəy cavab verdi.

– Düzdür, bir-birindan ayrılan daşların hələ yapışdığını heç kəs görməyib. Amma zamanın sahibi burada sizə möcüzə göstərmək istəyir. Daş qayaya yapışacaq. Mən ürəyimdə bir niyyət tutmuşam. Bu niyyət də ondan ibarətdir ki, əgər mənim götürüb o qayaya atdığım daş dəydiyi yerə yapışıb qalsa, onda bizim getdiyimiz niyyət baş tutacaq və bizim zəfər sancağımız hər yerdə dalğalanacaq.

Hamı təəccüblə ona baxırdı. Lələ əyilib yerdən bir ağ daş götürdü. Burada ağ daşdan qeyrisi də yox idi. Dua oxudu, onu suya salıb nələrsə dedi, sonra çıxaran kimi qayaya atdı və o daş yapışıb qayada qaldı. Heyrət nidaları eşidildi.

– İndi o daşdan birini Dədə bəy atsın. Dədə bəyin atdığı daş da yapışdı.

Lələ dedi:

– O qayaya yapışanlar isə zamanın sahibinin atdığı daşlardı. Qara Piri bəy də, Xadim bəy də, Bayram bəy də daşlarını atsınlar, gedin hamıya danışın. Gətirib hamıya göstərin. Nəbadə ora daş atasınız.

– Baş üstə, baş üstə, – deyə səslər eşidildi. Müridlərdən biri dedi:

– Niyə atmayaq?

– Zamanın sahibi belə buyurub.

Onu yoldaşları dürtmələyib susdurdular. Hamısının kefi duruldu. Qızılbaş ağsaqqalları isə İsmayılın yanına qayıtdılar. Bu mö'cüzənin tə'sirindən danışdılar. Ona dualar elədilər.

Bu vaxt müridlər bir nəfəri sürüyə-sürüyə gətirdilər. Lələ soruşdu:

– Deyir ilxıları buraxıb otlaqlarımızı otarırsınız. Bilmir ki, bu kimin atlarıdı.

Lələ bəy əmr etdi ki, onunla işləri olmasın, onu mehribanlıqla dilə tutdu:

– Sən kimin adamısan?

– Mən?

– Bəli.

– Sultan Hüseyni tanıyırsan?

– Yox tanımıram. – Lələ doğrudan belə adam tanımırdı.

– Necə? Göydən-zaddan gəlmisən? O kişi bu yerlərin ağasıdır.

– Elə göydən gələn kimiyik. Bu Sultan Hüseyn kimlərdəndi?

Qaraqoyunlu hökmdarı Cahan şah Həqiqi vardı ha, Allah ona min rəhmət eləsin, onun dost-doğma nəvəsidi.

– Biz də qonağıq, torpaq basdı haqqını verərik.

– Onun heç nəyə ehtiyacı yoxdu. Çəmənlərini tapdamısınız. Belə şeydən xoşu gəlmir.

Lələ məsələnin ciddiliyini başa düşürdü. Cahan şahın nəvəsi indiyə qədər Ağqoyunluların əlindən qurtarıb qalıbsa güclü adamdır. Yəqin ki, köhnə kin-küdurət hələ də onun ürəyində qalıb. İndi də əlinə imkan düşəcək, düşmənçiliyini eləyəcək. Axı Şeyx Heydər də Cahan şah öldürüləndə iştirakçı olub. Bunu da bilməmiş deyil. Ona görə də buradan tez uzaqlaşmaq məqsədəuyğun olar. Lələ Sultan Hüseynin adamlarına pul verdi. Özünə də dedi:

– Gedərsən ağanın yanına, deyərsən burada köç salan zamanın sahibidi. Allah onu yer üzünə göndərib. Heç bir qüvvə onun qarşısında dayana bilmir. Vaxtı varsa onun ziyarətinə gəlsin. Yoxsa gec olar. Yaxşı, de görüm Sultan hüseynin mülkləri hardan haradı?

– Mülkləri çoxdu. Bu Cığın dərəsinin başında onun ata-baba kəndi var, Qaraqoyunlu. Oradan da o yana Çuxur Səədə qədər nə qədər kəndləri var, bu qədər də yaylaqları.

– Yaxşı, indi get, mən deyəni çatdır.

– Baş üstə.

www.kitabxana.net

Demək onların keçəcəkləri yollar onun mülkləridir. Buna görə də işlər çətinləşirdi. Amma bilmək olmaz. Bəlkə də İsmayılın Ağqoyunlular əleyhinə olduğunu bilsə, fikrini dəyişər, ona kömək eləyər. Hər halda qazdan ayıq olmaq lazımdır.

– Ya mürşüdüm, mö'cüzə göstərdiyin yerə ad qoymalıyıq.

– Ad. Tut niyyəti, at daşı.

– At daşı!

Onların qayaya daş atdıqları yerin adı "At daşı"* qaldı.

Gün əyiləndə Sultan Hüseynin adamları gəldi. Onlar uzaqda atdan düşdülər. Piyada gəlib Lələnin qabağında baş əydilər.

– Biz Sultan Hüseynin adamlarıyıq. Onun yazdığı naməni sahibi əz zamana gətirmişik.

– Özü gələ bilmədimi?

– Özü tədarük görür.

Lələ naməni almışdı. Diqqətlə onların sifətinə baxdı.

– Nə tədarük?

– Onun mülklərinə bu cür müqəddəs qonaq gəlib. Bir sürü qoç kəsdirir. Xörək hazırlatdırır. Axşama hamınızı qonaq çağırır. Bayram eləmək istəyir. Sultan Hüseynin bu gün qaşqabağı açılan gündür. Xəbəri eşidən kimi gülümsədi. Hələ onun gülümsəməyini heç kim görməyib.

"Onun qaşqabağı niyə tutqundu? Nə üçün qaraqabaqdı? Bunun səbəbi nədir?" Həyat Lələni elə imtahanlara çəkmişdi, elə sınaqlardan keçirmişdi ki, o artıq heç kimə, heç nəyə inanmırdı. Çox vaxt xoş təbəssümdən, ürəkdən qopan gülüşdən belə şübhələnirdi. Hələ sifətini görmədiyi Qaraqoyunlu hökmdarlarının qohumlarından da şübhələnməyə başlamışdı, qaraqabaq adamın gülməyi onu heç açmırdı.

O, elçiləri İsmayılın yanına aparmadı. Çadırın ağzında, keşikçilərin yanında gözlətdi. Özü girib naməni İsmayıla oxudu. Yavaş səslə oxuyurdu eşitməsinlər.

Sultan Hüseyn Pərani naməsində İsmayıla öz itaətini bildirir, onu zamanın sahibi kimi, əsl Təbriz taxtının padşahı kimi tanıdı-

------------------------

* Ermənistan SSR, Martuni rayonunda qəsəbə.

ğını yazırdı. Çox böyük nəzakətlə onu öz obasına-Sultan yurduna* də'vət eləyirdi.

– Sənin məsləhətin nədir, – İsmayıl Lələdən soruşdu.

– Nə dostun, nə düşmənin al dilinə aldanmaq olmaz.

Qonaqlığa Piri bəylə, Bayram bəy getsinlər. Dədə bəy qalsın, mən də qalacam, Xadim bəy qalsın. Üzr istəyib deyərlər zamanın sahibi soyuqlayıb. Gələ bilmədi.

Belə də elədilər. Çeşt vaxtı Piri bəy Qacarla Bayram bəy Qaramanlı yüzə qədər mürid götürüb Sultan Hüseyn Pəraniyə qonaq getdilər.

Onların atlarını tutdular. Özlərini bu qonaqlıq üçün tikilmiş iri mağar evinə çağırdılar. Süfrədə quş südü də tapmaq mümkün idi. Baş tərəfdə sol ayağını qatlayıb, sağ dizini qaldıran, iri gözlərindən nə desən oxunan Sultan Hüseyn oturmuşdu. Deyəsən bu gözlər kimi isə hərisliklə axtarırdı. Amma istədiyini tapmadığına görə heç kimə marağı qalmamışdı. Laqeydliklə "xoş gəlmisiniz" dedi. Qonaqlar oturdu. Piri bəyi isə onun yanında oturtdular.

– Bəs mən zamanın sahibini görmürəm axı.

– Zamanın sahibi laməkandı. O həm burdadı, həm də burda deyil. O eyni vaxtda iki yerdə görünə bilir.

– Necə, necə?

– Bəli, bunu bütün ölkə bilir. Nə yaxşı xəbər tutmamısan? – Kötük kimi möhkəm, gur səsli Qara Piri bəy cavab verdi.

– Xəbər indi tutmuşam, indi də bizi saymadı.

– Ay Sultan Hüseyn, onun pişvazına hökmdarlar gəlib, görməyib geri qayıdırlar. Bu gün bir mö'cüzə göstərib. Bundan sonra o heç kəsə görünmür.

– Nə mö'cüzə?

– Daşı atır daşa, yapışır biri-birinə.

– Elə şey olmaz.

– Şahidi bizik, – müridlər də bir yerdə səslərini qaldırdılar.

– Yə'ni bu İsmayıl Şeyx Heydərin oğlu deyil?

– Bəli – deyə Bayram bəy başladı – Məhəmməd Əleyhəsalam

peyğəmbəriydi, atası peyğəmbər deyildi ha. Özünə də peyğəmbərlik nə az, nə çox, qırx yaşında əta olunmuşdu. Düzdü, ya düz-

-----------------------

* Bu ad indiyə qədər yaşayır.

deyil?

– Düzdü, – Sultan Hüseyni də belə tezlikdə inandırmaq çox çətin iş idi. O belə bir günü çoxdan axtarırdı. Babasını öldürmüş Uzun Həsənin nəvəsi gəlib onun torpağına çıxmışdı. Köhnə qan intiqamını almaq onun ən müqəddəs arzusu idi. Amma heç vaxt fikirləşməzdi ki, belə bir imkan düşəcək. Belə fürsəti isə heç cür əldən verməк fikrində deyildi.

– Yaxşı, indi zamanın sahibinin məqsədi nədi?

Qara Piri bəyin gur səsi eşidildi.

– Onu biz bilmərik. Ona vəh yuxuda gəlir. O vəhdə nə buyurulubsa, o da elə hərəkət eləyir. Bircə onu bilirəm ki, üzünə bağlı qapı yoxdur.

– Yaxşı, bismillah eləyin.

Hamı “bismillah” deyib yeməyə girişdi. Sultan Hüseyn Pərani də uzun, iri, kök barmaqlarını sinidə təpə kimi qalanmış, qarlı dağa oxşar plova endirib bir tərəfini uçurdu, iri-iri tikələri əli qabdan ayrılmamış açılan yekə ağzına apardı. Bu yeməyi o İsmayılın ehsanı kimi ürəkdən, cani dildən və iştahla yeyirdi. “Eybi yoxdu, qoy o gəlməsin, səhərə yaxın onu öz çadırına büküb gətirmək mənə borc olsun. Qurban olum tanrının işlərinə heç kimi heç kimə borclu qoymur. Səbri çox genişdi. Hərləyir, fırlayır, gətirib məqamı yetişdirir”.

Onun ata babasını qaraqoyunlu sultanı Cahan şah öldürüb. Uzun Həsən taxta çıxanda o, Əmir Teymurun nəvəsi Sultan Əbu Səidin sayəsində taxta çıxmağa çalışsa da bacarmamış, nəhayət, onun yolu kəsilib əsgərləri xəstəlikdən və aclıqdan öləndə adamlarını yığıb aradan çıxmış, var-dövləti, xəzinəni yığıb Çuxur Səəd tərəfə qaçmışdı.

Göyçə gölü yaylaqlarından Ağrı dağının vadisinə enən çayın lap başlandığı yerdə kiçik bir kənd salıb adını da Qaraqoyunlu qoymuşdu. Vedidən buraya ensiz bir cığır qalxırdı. Kəndin ətrafında qala, istehkam qurulmamışdı. Nəhəng bir qayanın kölgəsinə sığınan kənd elə qala kimi möhkəm idi. Kənddən yuxarıya qalxanda isə dağların piyaləsində gözəl bir göl insanı heyran qoyurdu. Bu göl isə onların qətl yeriydi. Düşmənlərini diri-diri bu gölə atardı. Ona görə də gölün adı “Qanlı göl” qalmışdı.

Vedi çayının başlanğıcında Kolanlı tayfasına yer vermişdi, onlar kənd salmışdılar. Burada oturaq həyat keçirən köçəri tayfası Ağqoyunlulardan qaçaq düşən qoluydu. Yayda heyvanlarını yarım mənzillik yoldakı Əyircə yaylaqlarına qaldırar, qışda buraya endirərdilər.

Aşağılarda isə Camışbasan, Məngük, Dəhnəz, Qarabağlar adlı kiçik kəndlər vardı. Atla bir günorta yol sürəndə Ağrı dağının ətəyindəki Çuxur Səəd düzənliyi başlayırdı ki, burada da Vedi kəndi vardı. Amma onun ixtiyarı bu yerlərə çatmırdı. Vaxtilə Şərqin yarısını tutan Əmir Teymurla baş-başa gələn Qaraqoyunluların son nəsli kiçik bir çay vadisinə sığınmışdı.

Bütün bunları fikirləşəndən sonra Sultan Hüseyn öz-özünə dedi:

Fil ən böyük heyvandı. Siçan da dünyanın ən gücsüz məxluğudu. Ancaq fil onun əlində acizdi. Qulağına girib onun beynini didib dağıdır. Bu gün bayram günümüzdü. Babam Cahan şahın heyfini nəvəsi onun düşməni Uzun Həsənin nəvəsindən alacaq. O zamanın sahibini qanlı gölə atıb boğmaq mənim boynuma.

Gecə düşmüşdü. Qonaqlıq qurtaranda o qızılbaşları çıxıb özü yola saldı. Təpənin üstündən uzaqda iri tonqallar qalanmış İsmayılın düşərgəsinə baxdı.

“Eybi yoxdu, işığının sönməyinə çox qalmayıb”-dedi.

O bütün obalardakı əli silah tutan adamlarını yığmış, dərənin birində hazır olmağı tapşırmışdı. Səhərə yaxın, yuxunun şirin vaxtı atları çapıb çadırlarda yatanları qılıncdan keçirəcək, İsmayılı diri tutacaqdı.

– Həmin gecə Sultan Hüseyn yatmadı. Tonqalların sönməsini gözlədi. Tonqallar isə sönmək, öləzimək bilmirdi. Dan yeri sökülməyə başlayanda o atına süvar oldu.

– Ya Allah, səndən mədəd, – deyib atını sürdü.

Çadırlara çatanda onun adamları qıyya çəkə-çəkə çadırların tənəflərini doğramağa başladı. Tənəf kəsiləndə çadır yatır, içəridəkilər oradan çıxmağa macal tapmır. Özü isə İsmayılın ağ çadırına cumdu. Qılıncla çadırı doğrayıb özünə yol açdı. İçəriyə düşən tonqal işığında heç nə görmədi. Qurulu çadırların heç birində bir ins, bir cins yox idi.

Lələ hazırlığını çoxdan görmüşdü. Qonaq gedənlər qayıdan kimi çadırlar boyda qaladığı tonqallara təzədən odun atdırıb bələdçinin dalınca sakitcə Vedi çayının vadisinə enib sür'ətlərini artıraraq Çuxur Səədə tərəf çapmışdılar. Aldandığını görən Sultan Hüseyn bığlarını çeynəyir, qılıncla çadırın dirəyini doğrayırdı.

Çadırın qapısı açıq idi. Keşikçilərin arasından qəribə bir mənzərə görünürdü. Böyük bir çiçəklik idi. Elə çiçəklik ki, heç Göyçə gölü kənarından geri qalmırdı. Amma orada hər şey zümrüd rəngindəydi. Burada isə bütün düzənlik və təpələr qırmızı rəngdə lalədən başqa heç nə görünmürdü. Bu laləlikdə bir cəhlim düşmüşdü. Kimsə o laləliyi pozub onun dərinliyinə getmişdi.

Lələ görürdü ki, İsmayıl təbiətin gözəlliyindən cuşa gəlir. Ona görə də onun çadırını elə qurdururdu ki, yalnız təbiət gözəlliyi görünsün.

Kağızmandan, Ərzincandan keçib Sarıqaya yaylaqlarına gəlmişdilər. Bura elə bir yerdi ki, bütün Rum elinin qızılbaşları buraya yığılırdı. Artıq xeyli vaxtdı burada məskən salmışdılar. Bütün qızılbaşlar toy-bayram eləyirdilər. Tayfa başçıları onların yanına gəlir, qoşun toplayır, səfərə hazırlaşırdılar. Çadırın qabağındakı laləliyə isə heç kim toxunmamışdı. Bu gözəlliyi İsmayıl üçün qoruyub saxlayırdılar. Laləlik qurtaran yerdə isə haça qaya qalxmışdı, o qayanın haçasından isə şəlalə tökülürdü.

Bəs birdən-birə bu cəhlimi-laləlik arasında bu cığırı kim açdı? İsmayıl özünü saxlaya bilməyib çadırdan bayıra çıxdı. Lələ bəy onun yanında yox idi. Keşikçilər isə heç nə demədilər. İsmayıl laləliyin arasındakı cəhlimlə xeyli getdi. İri laləliyin qırçınlanan ləçəkləri arasında şeh piyalədəki bulaq suyu kimi dayanmışdı. Ləçəkləri düşən lalələrin iri xaşxaşları görünürdü. Lalələr o qədər hündür idi ki, onlar İsmayılın qırmızı qızılbaş çalması ilə bərabər dayanmışdı. O, yeriyir, cəhlimdə heç kimi görmürdü. Bu cəhlim çayın kənarına çatanda şəlalənin çaya dönüb axdığı dərə göründü! O dərəyə neçə yerdən bulaqlar qarışırdı. Bulağın birinin başında isə lalə içində itmiş bir məxluq oturmuşdu və İsmayıl onun kim olduğunu ayıra bilmədi. Yavaş-yavaş yaxınlaşdı.

Bulaq yerdən qaynayırdı. Suyun axını qum boyda qızıl dənələrinin qumu, çınqılı qaldırıb onlarla oynayır, göllənir, axıb nilufərlərin arası ilə gedirdi. O suda lalədən libas geyinənin şəkli görünürdü. İsmayıl onun sifətini elə suda gördü. Ona iri qara gözlər baxırdı. O gözlərin üstündə qara qaşlar çatılmışdı. Yanaqlarına isə elə bil lalə yarpağı yapışdırmışdılar.

– Sən kimsən ay qız?

Qız başını qaldırıb suda əksini gördüyü gözəl oğlana baxdı və gülümsədi. Amma heç nə demədi.

– Mən sənin adını soruşuram. Eşitmirsən məni?

– Zamanın sahibi adımı bilmir?

Bu qız da elə İsmayıl yaşda idi.

– Mən zamanın sahibiyəm. Sənin adının sahibi deyiləm.

– Adım, Bəhruzədi.

– Kimin qızısan?

– Əbdi bəyin.

İsmayıl ona ağır söz demək üçün gəlmişdi. Amma onu görən kimi fikri dəyişdi. Belə qıza sözmü demək olar? Həm də o heç vaxt öz yaşıdı qızlarla söhbət eləməmişdi.

– Bəhruzə bəyim. Bəs bilmirsən bu laləliyə heç kim girmir?

– Bilirəm. Mənim xoşum gəldi, girib o lalələri dərdim. Onsuz da üç-dörd günə xaşam olub töküləcək. Laləni saxlamaqmı olar?

İsmayıl ona deməyə söz tapmadı.

– Sənə icazə verirəm. Bu laləlik sənin. Nə qədər dərirsən, dər.

Lələ arxada dayanıb onların söhbətinə qulaq asırdı. Özü də gülümsəyirdi. Əbdi bəy də gəlib onunla yanaşı dayananda Lələ öskürdü. İsmayıl dönüb onlara baxdı. Başı ilə hər ikisini salamladı. Əbdi bəy qızını bulağın başında, lalə çələngləri arasında görüb dedi:

– Ay şeytan, səni bayaqdan axtarmırıq?!

– Zamanın sahibi indicə laləliyə girməyə özü icazə verdi. Heç yerdə lalə qalmayıb. Bura isə məni buraxmır.

– Olmaz!

– Olar, qoy nə qədər istəyir toplasın, – deyə İsmayıl Əbdi bəyə baxdı. – Tək Bəhruzə bəyim, başqa heç kim.

Bu söhbətlərdən Lələ də, Əbdi bəy də xeyli eyhamlar oxudular. Hər ikisi də görürdü ki, yeniyetmə İsmayılın qəlbində ilk cəhlim salan Bəhruzə bəyimdi.

Geri – çadıra qayıtdılar. Lələ İsmayıla xəbər verdi ki, şamlı, rumlu, tərəkəmə, əfşar, qacar, varsaq tayfalarından, bir də Qaradağ sufilərindən ibarət yeddi min mürid toplanıb və səfər təbilinin çalınmasını gözləyirlər.

– Nəhayət ki, bütün tayfalarımız bir yerə yığıldı. Çox şükür. Onlara mürid yox, qazi adı verərəm. Əqidə, inam, məqsəd yolunda ölümə gedən qazi. Daha bizi vaxt gözləmir. Fərrux Yasarın üstünə yerimək məqamı yetişib.

Çadıra bütün qızılbaş ağsaqqalları toplanmışdı. Əbdi bəylə yanaşı burada Ustaclı tayfasının başbiləni Məhəmməd bəy Ustaclı da oturmuşdu. Bu, ilan boğazından keçən cəld, odlu baxışlı, ucaboy və zərif bir gəncdi. Lələ bəy ona baxıb gözləriylə nəyəsə işarə verdi O, danışmağa başladı.

– Mürşüdümüz izn versə bir kəlmə deyərdim.

– Buyurun.

– Əli qılınc tutanlarımız süvar olub. Bu müqəddəs iş üçün öz canlarından keçməyə hazırdı. Elatlarda qalır qocalar, uşaqlar, bir də arvadlar. Bir basqın olsa, onlar kimsəsiz qalacaq. El-elatla da gedə bilmərik. Buna bir əncam çəkmək lazımdır.

Əbdi bəy də o deyəni təsdiq elədi. Amma eyni vaxtda İsmayıla da toxunan söz deməmək üçün onun tərəfinə keçdi. – Bu səfər çox çəkməz. Bir ayda Şirvanşahı çığnayıb geri dönərik, inşallah.

– Məhəmməd bəyin dediyində həqiqət var. Onları başsız qoyub getmək də kişilikdən deyil. Mənim bir təklifim var. – Bundan sonra o, İsmayılın qulağına tərəf əyilib xeyli pıçıldadı, onun razılığını alandan sonra dedi: – Rum Sultanı Bəyazid Ağqoyunlulardan çox çəkib. İndi onların başını qatan belə bir qüvvəyə arxa durmağa hazır olar. Odur ki, əgər zamanın sahibi ona namə yazıb bu elatları qanadları altına almağı rica buyursa, o çox güman ki, razı olar. Hamı bu fikirlə razılaşdı.

## ŞİRVAN SƏFƏRİ

Qızılbaş qoşunu qayaların arasından çıxanda qarşılarında Araz çayı göründü. Payızın durulmuş, mavi suları üstündən qırmızı, qurumuş qan rəngində bişmiş kərpicdən körpü bu taydan o birisi taya uzanırdı. İsmayıl körpünü görəndə üzündəki niqabı qaldırdı. Onun gözlərinin giləsinə diqqətlə baxan olsaydı, orada Xudafərin körpüsünün yüz dəfələrlə kiçildilmiş əksini görə bilərdi. O, körpünün tağlarını saydı.

– Bir, iki, üç... On üç.

Bəli, onun öz yaşı da on üç idi. Amma heç kim ona bu yaşı verməzdi. O, xeyli böyük görünürdü. Əlləri də irəlmişdi, sifətindəki ifadə də yaşlanmışdı.

Bu tağlar mənim yaşım qədərdi. Görünür bu yaxşı əlamətdi. Qoy bu körpünün ustadına afərin deyən xuda da mənə afərin desin. Həmişə başımın üstündə dayansın. Məni ömrüm bu çaya oxşayan burulğanlardan sağ-salamat keçirsin. İlk dəfədir ki, Xudafərindən keçirəm. Bu yol

həmişə açıq olsun. Qaradağ Qarabağa, Qarabağ Şirvana qarışsın. Mən bütün qapıları açmağı özümə məqsəd seçmişəmsə, Xudafərin körpüsü də açıq olar, inşallah. Onun üstündən keçən dəvə karvanları Gəncəyə, Şamaxıya, Dərbəndə, oradan isə uzaq-uzaq ölkələrə gedər.

Məndən qərinə-qərinə böyük olan körpü, allah sənə bundan sonra da qərinələrlə ömür versin, qonaqlı-qaralı olasan. Üstündən keçənlər əskik olmasın".

O soruşub öyrənmişdi ki, Arazdan da böyük Kür çayında körpü yoxdur. Şirvanşahlar onu həmişə özlərinə keçilməz sədd seçiblər. Üstündən körpü sallayıblar. Muğanda, Cavad kəndində bir bərə varmış. Gəlib-gedənlər həmin bərəylə keçirmiş. İndi o bərəni də söküb atıblar. "Heçim ayrı, köçüm ayrı" deyiblar. Hərə üzünü bir tərəfə tutub. Oğuz eli gör neçə yerə bölünüb. Hərə bir dərədə bəydi. Qaradağlının qarabağlıdan, gəncəlinin şirvanlıdan, şamaxılının təbrizlidən xoşu gəlmir. Axı tarix başlayanda onlar bir ata-ananın övladları olublar. Sonra hər dərənin bəyi özünü hamıdan üstün tutub. Bir ocaqdan çıxan qardaşlar düşmən kəsilib, hərə evinin üzünü bir səmtə tikib. İndi o qardaşları yenə ata evinə yığmaq lazımdır. Bu çox çətin işdir. Ağır məramdı. Neçə dərə bəyini aradan götürmək, neçə-neçə tayfaları sakitləşdirmək, nə qədər qanlar tökmək lazım gələcək. Buna görə qar-daş qardaşın qanını tökməli olacaq. Amma bütün bunlara baxmadan kimsə belə bir müqəddəs işə girişməlidir. Oğlanları düşmən, asi kəsilən ata evdən çölə çıxmağa xəcalət çəkir. Bəs evləri dağılan başbilənlər nə fikirləşiblər? Axı bu ən böyük şərəfsizlik, namussuzluqdur. Çingiz xan gəlib buranı öz ölkəsinə qatıb. Əmir Teymur gəlib belə eləyib.Təkcə Uzun Həsən o birliyə çalışıb. Ondan sonra gələnlər isə dağıdıb töküb, ölkəni mahal-mahal, şəhər-şəhər, kənd-kənd, ev-ev, adamları bir-birinə düşmən eləyib. Hamısı da İran-İran deyib. Bəs mənim doğulduğum, dilində danışdığım, şe'r söylədiyim millət necə olub? O birdimi? Yox, o yox kimidi. Hələ ki, tayfalardı. Ustaclıdı, qacardı, əfşardı, bəydillidi, nə bilim nə qədər dili bir, qanı bir tayfa var. Hələ ki, bir adımız da yoxdu. Onların hamısı birləşib bir olmalıdı. Azərbaycan olmalıdı. Düzdür, bu tayfabazlıq hələ çox çəkəcək. Amma o birliyin başlanğıcını bu gün qoyuram. Mən başlayıram. Bu Xudafərin körpüsündən, bu Araz çayından. Bacararam, dünyanın ən xoşbəxt bəndəsiyəm. Bacarmaram, heç. Ya allah, səndən mədəd.

O, atını birinci olaraq körpüyə sürdü. Yəhərdən sulara baxırdı. Dalğalar onun baxışlarını alıb özü ilə aparır, o yenə baxışlarını bir az yuxarıya qaldırırdı. Elə bil suyun axınına qarşı axan üzgüçüydü. Su ondan güclüydü, o sudan. Araz onun baxışlarını axıtmağa nə qədər can atsa da təslim olmurdu. Onun başı yüngülcə hərlənirdi və o özündə sərməstlik hiss eləyirdi. Arxadan səs eşitdi. Lələ dedi:

– Suya çox baxma, mürşüdüm.

İsmayıl başını qaldırdı və Xudafərindən bir az yuxarıda uçuqları qalmış möhtəşəm körpüyə baxdı. Onu görünür bundan da xeyli əvvəl tikmişdilər. Bu çay üstündən demək əvvəllər də körpü salanlar olub. Amma zaman da, çərxi-fələk də dəhşətlidir. Heç bir şeylə hesablaşmır. Sökür, dağıdır, götürüb aparır. Ən yaxşı niyyətlər, işlər də körpü kimi kərpic-kərpic daş-daş uçurulub. Tikən, quran, davam elətdirən isə olmayıb.

Yox, zaman dağıdırsa, təzə nəsillər də gəlir. O nəsillər dağılanları düzəltməli, yenilərini tikməli, bərpa eləməli, işə elə başlamalıdı ki, çərxi-fələk özü aciz qalsın. Bir adama, bir nəslə, bir tayfaya gücü çatar. Bütün insanlığa isə çətin. Bir şərtlə ki, o insanlıq getdikcə kamilləşsin, nurlaşsın, öz nuru ilə zülmətdən yarananları belə işığa çevirsin.

İndi Şirvanşah Fərrux Yasarın üstünə gedirik. Bu yeddi minlik süvari qazilərin fikrində bir şey var. Hamısı elə bilir mən atamın qanını almağa gedirəm. Bunun üçün canlarını verməyə hazırdı. Onların çoxusu bir daha bu körpüdən geriyə keçməyəcək. Babam Cüneyd kimi doğulduğu yerdən uzaqlarda dəfn olunacaq. Nə olar, vətən hamımızın beşiyi və hamımızın da məzarıdır. Onu qanımızla sulayıb, sümüyümüzlə bərkitməsək heç vaxt möhkəm və barlı-bəhərli olmaz. Amma bu adamlara desəm yox, mən atamın qan intiqamını almaq yox, hamını bir yerə yığmaq istəyirəm, onda çoxusu könüldən düşəcək, yarı yoldan geri qayıdacaq. İnsan xilqəti belədir də. Xırda, kiçik məqsəd yolunda ölümə gedir, böyük məqsədi isə başa düşmür.

Mən babam Şeyx Səfiyyəddinin batin əqidəsini açsam bu özünü ölümə verənlər məni daşqalaq eləyər, hamısı üz döndərər. Baxmayaraq o əqidə daha gözəl, insanlar üçün daha vacibdi. Bu qədər tayfaların fikrini bir eləmək naminə gərək onları bir təriqətdə birləşdirək. Ya

hamı şiə olmalıdı, ya da sünnü. Sünnü olmağa mən heç cür razılaşa bilmərəm. Günbatanda Bəyazid onda bizi öz içində əridər. Əksər əhali şiə olduğuna görə sünnüləri də şiəliyə çağırmalıyam. Özgə heç bir yol görmürəm. Şirvan isə sünnülərdi. Onlar da bu təriqətdən əl çəkməyəcəklər. Bir evdə isə bir adət, bir ən'ənə olmalıdır. Olmasa onda ağız deyəni qulaq eşitməyəcək.

Qızılbaş qoşunu Qarabağa keçəndən sonra onlar bələdçilərin məsləhəti ilə Araz qırağı ilə Kürün Arazla qovuşduğu yerə tərəf irəlilədilər. Kürü yalnız burada keçmək mümkün idi. Quraqlıq keçən yaydan sonra payızda su azalmalıydı. Kürdə isə Qoyun ölümü adlı yer vardı. Nə vaxtsa sürünü buradan keçirmək istəmiş, lal axan Kür onların hamısını aparmışdı. Amma buradan atlı qoşunlar çox keçmişdi. İndi də ən əlverişli yer elə bura idi.

Bayram bəy Qaramanlını Şeyx İsmayıl əvvəlcə göndərmişdi. Tapşırmışdı ki, çayı keçib düşərgə salsınlar. Yəqin ki, onun Şirvan üstünə getməyindən Fərrux Yasarın xəbəri vardı və Kürün sahilinə qoşun göndərmişdi. Geciksə də, tezliklə göndərə bilərdi. Kürü keçəndən sonra onların gəlməyi o qədər də təhlükəli deyildi.

İsmayıl ətrafındakılarla bərabər Qoyun ölümünə yetişdi. Qazilər namaza dayanmışdı, Bayram bəy isə atını Kürün sahilində saxlayıb sulara baxırdı. Gömgöy payız suları sakit bir axınla elə axırdı ki, onun axdığını da hiss eləmək mümkün deyildi.

"Suyun lal axanı, adamın yerə baxanı"-deyə o fikrindən keçirir, atını sulara vurmaq istəmirdi. Qazilər isə buraya çatandan namaz qılırdılar. Allahdan, onun yerdəki rəsulundan bu sudan, Kürdən keçməkdə kömək istəyirdilər. Bayram bəyi xəcalət təri basmışdı. O, Mürşüdün tapşırığını yerinə yetirməmişdi. Qorxmuşdu. Öz canından qorxmuşdu.

İsmayıl çatdı, ağ Qızılqanadını onun yanında saxladı. Niqabın altından onun səsi eşidildi:

– Bayram bəy, sən bir qaşıq qanından ötəri bir qaşıq sudan qorxdun. Bəs daş qalaları necə alacaqsan?

– Günahkaram, mürşüdüm.

– Eyb eləməz, sənin günahını mən yuyaram.

O, heç kimlə məsləhətləşmədi. Bir az sulara baxdı. Baxdı görsün burulğanlar yoxdurmu? Düzdür, o burulğanlardan çox çıxmışdı. İndi odun içindən salamat çıxan suda boğulmayacaqdı ki... "Kürün bu yerindən babam Cüneyd də adlayıb, atam Heydər də dəfələrlə keçib. Mən də keçməliyəm. Mən keçməsəm, heç kim keçməyəcək".

O, Qızılqanadın yalını tumarladı. Ürəyində dedi: "Qoy bu çayın üstündən salınacaq gələcək "Xudafərin körpüsü" əvvəl sən ol. O körpüdən isə əvvəl mən keçim. Ya Allah, səndən mədəd".

İsmayıl Qızılqanadı Kürə sürdü. Bütün qoşun dayanıb ona baxırdı. Lələ də nə edəcəyini bilmirdi. Nə onu geri qaytarmağa, nə də onunla getməyə ürəyi gəlirdi. Lələ ilk dəfə qorxub çəkinirdi. O, qışqırsa, İsmayılı dayandırmaq istəsə qazilərin ürəyindəki inama xal düşərdi. Özü isə hələ belə dərin çaylar keçməmişdi. O, fikirdə ikən Qara Piri bəy, Dədə bəy də atlarını İsmayılın dalınca sürdülər. Lələ də atını tərpətməli oldu və özünü elə danladı ki, "nədən qorxdun, niyə çəkildin, niyə özünü itirdin? Axı sən qılıncdan, nizədən, zəhərdən, qurulan torlardan qorxmamısan".

Qızılqanadın təkcə yəhəri və yəhərdə möhkəm və inamla oturmuş İsmayıl görünürdü. Atın yuxarıya qaldırdığı başı suyu yarıb keçir, burun pərələrindən çıxan hava suyu ətrafa çiləyirdi.

Lələ də atını suya vurdu. O görürdü ki, Qara Piri bəyin atı Qızılqanaddan aşağıda, Dədə bəyin Alapaçası isə yuxarıda üzür. Onun da kəhəri çaya girdi və Lələ hiss elədi ki, atının ayaqları torpaqdan üzüldü, amma heyvan özünü itirmədi, suda üzməyə başladı. O, çayın ortasına çatanda artıq Qızılqanad qarşı sahildə dayanmışdı. İsmayıl üzünü Kürün o biri sahilindəki qoşuna tərəf tutub əli ilə işarə verirdi ki, qorxmasınlar, özlərini suya vursunlar.

İsmayılın bu qorxmaz hərəkəti bütün qoşunu Arandan Şirvana keçirdi. Qoşunun dalınca gələn kəl qoşulmuş arabaları da, içindəki sursatı da keçirmək lazım idi.

Bir anda yovşan iyi bürümüş Kür qırağı düzənlikdə, Kür qırağındakı Toğay meşəliyində çadırlar quruldu. Zamanın sahibi sərkərdələrini ətrafına yığıb məsləhətə başladı. Onun bədənində yüngül bir titrəyiş vardı. İlk dəfə Şirvan torpağına ayaq basmışdı. Bütün tale burada həll

olunmalıydı. Bu titrətmə qorxu deyildi, namə'lumluqla qarşılaşmaq idi. Atasının qanı tökülən bu torpaqla ilk görüş idi.

– Sursatı keçirmək üçün Mahmudabada bir dəstə göndərmək lazımdı. Qoy gəmiçilərin hamısını bura gətirsinlər. Ağqoyunlu sarayının keçmiş vəziri Zəkəriyyə Keçəçini də mənim hüzuruma.

– O, bizə vaxtında yaxşı qulluq göstərib, – deyə Lələ dilləndi.

– Ərcivanda olarkən Şirvanşahın adamlarının Talış xanının yanına getməyi xəbərini o göndərmişdi.

Zamanın sahibinin isə öz fikirləri, öz ölçü-biçisi vardı. Əvvəla, Şirvanda məğlub olmayacağına tam əmindi. Yəqin eləmişdi ki, onun cəsədi də burada, ata və babalarının gömüldüyü torpağa basdırılmayacaq. Bundan ötəri onun dəlili vardı – Təbrizdən Fərrux Yasara heç bir kömək göndərilməyəcəkdi. Artıq Süleyman Bicanoğlu yoxdu. Əlvənd Mirzə özünü – laxlayan taxtını qorumağa çalışır, həm də atalar üçəcən deyib. Bu isə üçüncü yürüşdü. Əgər o Şirvanşahı məğlub eləsə Təbriz üstünə yeriyə biləcək. Zamana sahib olmaq üçün bundan yaxşı imkan ola bilməz. Ona görə də indidən dövlət işlərini qaydaya salmaq üçün bacarıqlı, bilikli, təcrübəli adamlar lazımdı. Onun ətrafındakıların heç biri isə vəzirliyə yaramır.

– Lələ, mən belə başa düşürəm ki, Şirvanın sünnüməzhəb camaatını şiəliyə də'vət eləyib, razı olmasalar qan tökmək, bu Fərrux Yasarın qüvvələrini artırar. Biz hələ dözməliyik. Necə baxırsan bu işə?

– Mürşüdümüz çox düz buyurur. Şamaxı böyük şəhərdi. Oraya adamlarımızı göndərib başa salmalıyıq. Deməliyik bizim düşmənimiz camaat yox, Şirvanşahdı. Belə bir təklif onların çoxunu bizim tərəfə keçirər.

Axşam buludlar qızaranda, günəş qırmızı kürə kimi Muğan düzünün üstündə üfüqdə solğunlaşanda bir dəstə atlı düşərgəyə qayıtdı. Bunlar Şirvan düzündə yolları yoxlayan, kəşfiyyat aparan atlılar idi və onlar başında təsək, əyni cır-cındır içində dərvişə oxşayan bir adam tutub gətirmişdilər. Onun əlində iri bir torba vardı. Onu Lələnin yanına apardılar.

– Sən kimsən?

– Mən Şirvanşahın ilan tutanıyam.

– İlantutanı?

– Bəli.

– Neynirsən ilanı?

– Satıram, hörmətli ali zat.

– Neçəyə satırsan?

– İndiyə qədər ucuz satırdım. İndi baha satacağam. İllərdən bəri gəzdiyim əjdahalaşmış gürzəni tutmuşam. – İlantutanın əllərində, ayaqlarında neçə çapıq vardı.

Lələ təəççüb elədi:

– Şirvanşah özü ilan ola-ola, o ilanları neynəyir?

– Əstəğfürulla, əstəğfürulla. Yavaş de bu sözü, səni də o ilanın yanına atar.

Lələnin qanı qurudu, əlinin üstündəki tüklər dümdüz dayandı. İlanla qarşı qarşıya gəlmək həmişə onun bədəninə üşütmə gətirirdi.

– Hanı bəs o əjdahalaşan gürzə?

– Bu torbadadı. – O torbanın ağzını açmaq istədi.

– Dayan. Bəs o gürzə səni çalmaz?

– Məni o qədər çalıblar ha, indi çalanda ləzzət alıram. Tiryək çəkmiş kimi sərxoş oluram. Sonra da hər ləzzət ötüb keçir.

Lələnin ondan zəhləsi getdi. Elə bu da ilan kimi bir şey idi.

– İlan səni çalsa elə ilanın özü ölər. Şirvanşah bu ilanı nə eləyir, məni bir əməlli-başlı başa sal.

Rəngi hindlilər kimi qara olan bu seyrəksaqqal adam kirli barmaqlarını uzadıb təsəyin altında keçəl, təzə tüklənən ördək balası dərisinə oxşayan başını qaşıdı.

– Şirvanşah ən qatı düşmənlərini belə ilanların yanına saldırır. Bundan yaxşı cəza? Bu gürzənin sorağını ona çatdırmışdım. Deyirdi onu tutub gətirsən sənə yüz tümən verəcəm. Deyir

bu yanda, Ərdəbil tərəfdə onun çox qatı bir düşməni var. Ondan ötəri axtarırdı bu əjdahalaşan gürzəni. Bilirsən necə gözəl heyvandı, bu gürzə?

– Lap ceyran kimi, hə? – deyə Lələ kinayə ilə soruşdu.

– Ceyran nədi, canım. Bu ceyrandan min dəfə gözəldi. Bu da o qədər qalıb buynuz çıxardıb, o buynuzların arasında qapqara tük əmələ gəlib. Beləsinin dişi çatmağı ilə dəvənin süd kimi çürüməyi bir olur. Dəvənin əti, dərisi piltə-piltə olub tökülür. Belə zəhəri heç yerdə tapmaq olmaz.

– Aparın, bunu rədd eləyin. İlantutanı dartıb apardılar.

Lələ torbaya baxdı. Orada yatan ilanın iriliyi elə torbadan bilinirdi.

– Bunu isə torbadan çıxarmamış yer qazıb basdırın.

Bütün bunlardan sonra o, Fərrux Yasarın İsmayıla hazırladığı ölümün dəhşətini dərk elədi, bədəninə soyuq tər gəldi.

Gecə Mahmudabaddan qayıdan dəstə ilə gəlmiş Zəkəriyyə Keçəçini səhər tezdən İsmayılın yanına apardılar. O, sarayda olan vaxt geydiyi paltarını geymiş, başına çalma bağlamışdı. Çadırdan girən kimi gənc İsmayılın qarşısında əyilib torpağı öpdü. Namaz qıldığı möhürü öpən kimi.

– Qalx, ey müdrik insan. Ağqoyunlular sənə nə deyirdilər, desinlər, mən sənə bir ad verəcəm: Azərbaycanın açarı.

Sonra onlar xeyli söhbət elədilər. Dövlətin quruluşundan, vergilərdən, maliyyədən, xəzinədən, qoşunun saxlanmasından, ölkənin abadlaşdırılmasından. Axırda Zəkəriyyə Keçəçi dedi:

– Ağacı içindən o qədər qurd yeyib ha, üfürsən yıxılar. Onun yerində təzə tingi əkilməsə bardan-bəhərdən əlinizi üzün. O ting isə zamanın sahibidir. And içirəm Allah təalanın birliyinə, o daş qoyduğu yerə, mən baş qoyacam.

Günortaya yaxın gəmiçilər, qayıqçılar da gəlib yetişdi. Sursatı daşımağa başladılar.

Alınan xəbərlərə görə Fərrux Yasar Şamaxıda yox idi, qoşun toplamaq üçün Qəbələ qalasına getmişdi. Onun qayıdacağı günə qədər elə bir döyüş meydanı seçmək lazım idi ki, orada yeddi min qazi Şirvanşahın yəqin onlardan qat-qat çox olan qüvvələrinin qabağında dayana bilsin, onu əzib pərən-pərən salsın. Pirsaat çayının yanı ilə gah dağlara, gah çay sahilinə enən yolla Şamaxıya qədər gəlib çatdı. Əvvəlcə şəhərə göndərilən dəstə adamları sakitləşdirmək istəmiş, amma burada çox az adam tapmışdı. Qızılbaş qoşunu bir qılınc çalmadan, bir ox atmadan, qədim Şamaxı şəhərinə girdi. İsmayıl atını bir-başa Cümə məscidinə sürdü və burda ilk dəfə namazda Həzrət Əlinin adını çəkdi. Namaz qurtarandan sonra o, sərkərdələrinin müşayiəti ilə şəhəri gəzməyə çıxdı. Bazarda bir inni-cinni yox idi. Arakəsmələr üstündə iri qırmızı qabıq gülöyşə narlar qalaqlanıb qalmış, bazar küp sınıqları, qab-qacaq, tərəzi gözləri, çəki daşları, mer-meyvə ilə dolmuşdu. Görünür camaat onların gəlişini eşidəndə hər şeyi atıb dağlara qaçmışdı. Təkcə karvansarayda qapıları bağlayıb qorxularından tir-tir əsən slavyan, Xarzəm, hind, ərəb və Təbriz tacirləri qalmışdı. İsmayıl onlara “aman” e’lan elədi, mallarını almaq üçün göstəriş verdi.

Onlardan biri qorxa-qorxa irəli yeriyib vacib bir məsələni demək istədiyini bildirdi.

– Buyurun, – deyə Lələ onu dinlədi.

– Bu karvansaraya yaxın yerdə bir zindan var, orada dustaqları saxlayırdılar, apara bilməyiblər. Üç gündü onlara mer-meyvəni, yeməyi bacadan mən atıram.

Onun göstərdiyi yerdəki zindanın qapılarını sındırıb məhbusları çıxartdılar. Bu vaxt seyrək saqqalının uzanan təkəm-seyrək tükləri sinəsinə çatan bir arıq adam özünü Lələnin üstünə atıb onun ayaqlarını qucaqladı.

– Qurbanın olum, ay Lələ. Nə yerdə dadıma çatmısan. Lələ xeyli baxandan sonra Səfəri tanıdı.

– Bu sənsən?

– Mənəm, başına dönüm.

Lələ də onu qucaqladı.

– Səni bəs kim tutub bura salıb?

– Əbih Sultan. Məni tutdurandan sonra özü qaçdı.

Dərvişlər də buradadı. Biri ömrünü sənə bağışladı. Qalanları da budu.

Lələ də Cibo Səfərin tapılmağına sevindi. Həm canı qurtarmışdı, həm də onların Şamaxını yaxşı tanıyan öz adamları vardı.

Qarşıda iki dağ dayanmışdı. Hər ikisi qızılı rəngdə idi. Otlar, kollar... Ağaclar saralmışdı. Bu dağlardan biri qala divarının bürcündə dayanan İsmayıla daha yaxın idi. Ona Pirdirəyi deyirdilər. Döşündən dolanan cığır yuxarıya, üstündə ağ bir tikili görünən yerə qalxırdı, həm də düyünlənə-düyünlənə, əyilə-əyilə qalxırdı. O cığır nəhəng, bədheybət pəhləvanın atdığı kəmənd kimi ağ tikiliyə-pirə ilişmişdi və aşağı sallanmışdı. Pəhləvanın o kəməndi çəkməyə artıq taqəti qalmamışdı.

Pirdirəyinin günbatan tərəfində isə onun yarısı enində, onunla bir hündürlükdə Qız qalası dağı yüksəlmişdi. Onları biri-birindən dar bir dərə ayırırdı. Dərənin başı üstündə qayalar qartal dimdiyi kimi yaxınlaşmışdı, amma toxunmamışdı. Qız qalası dağının zirvəsində əzəmətli qala ucalırdı. O, Şirvanşahların indiyə qədər heç bir düşmən tərəfindən alınmayan Gülüstan qalası idi. İsmayıla elə gəldi ki, o ağ bürclər kinayə ilə güldüyündən Fərrux Yasarın açıq qalmış dişləridir.

Ona bir əfsanə də danışmışdılar. Həmin əfsanəyə görə Gülüstan qalasından Şirvanşahlardan hansınınsa oğlu kəmənd atıb, gecələr o kəmənddən tuta-tuta Pirdirəyinə keçir və orada vəzirin qızı ilə görüşürmüş. İndi Pirdirəyindən qalaya kəmənd atıb qoşunu ora keçirmək olmazmı? Yox, bu mümkün deyil. Gülüstan doğrudan da alınmaz qaladır. Yaxşı ki, Fərrux Yasar orada yoxdur. Qoşunu da Pirqulu dağındakı Nağaraxanada, bir də Qız meydanındadır. Onları açıq döyüşə çağırmaq lazımdır. Yoxsa heç bir şey hasil olmayacaq. Fərrux Yasar orada gizlənsə onu heç cür o daş yuvadan çıxarmaq mümkün olmayacaq.

İsmayıl döndü və gördü ki... Yox, gördüklərinə inanmadı. Bu ola bilməzdi. O birisi bürcdə, ondan on beş, iyirmi addım kənarda onun elə özü dayanmışdı. İkinci bir İsmayıl. Bu nədir? Onu qaramı basır? Hamını sehrlədiyi yerdə özü sehrəmi düşüb? Əynindəki paltar da, üzündəki niqab da, belindəki kəmər də eynidir. Olmaya bu ruhdur, qaraçuxadır, nədir? İsmayıl yaxınlaşdı. Öz əksinə yaxınlaşdı. Elə bil güzgüdə görürdü. Yox, bu boyda güzgü ola bilməzdi. Bir də axı güzgüdəki əks adamın düz gözlərinin içinə baxır. Bu isə üzünü döndərib.

– Ey şəxs, sən kimsən?

O dönüb baxdı və heç nə demədi.

– Səninləyəm, mənə cavab ver.

– Mən İsmayılam.

Bu ola bilməz. O yuxuda deyil və hər şeyi aydın görür. Odur, qala divarının qotur daşı ilə bir balaca kərtənkələ qaçdı. Gülüstan qalasının üstündə isə, dağlarda topa, ağ buludlar görünür. Bir dəstə göyərçin uçub Cümə məscidinə tərəf keçdi. Bunlar hamısı həqiqətdi, hamısı ayıqlıqdı. Yuxu ola bilməz, heç ola bilməz.

– Bəs mən kiməm?

– Sən də İsmayılsan. Biz ikimiz də bir adamıq. Heydər oğlu İsmayıl.

– Bu necə ola bilər?

– Elə belə. Burada təəccüblü heç nə yoxdur.

Lələ İsmayıla bir üz alma kimi oxşayan Xızıra elə dərs vermişdi, onu elə öyrətmişdi, elə təlqin etmişdi ki, o artıq öz adını unutmuşdu və özünə İsmayıl demişdi. Düzdür, onda hökmdarlıq, şeyxlik ruhunu, əqidəsini qüvvətləndirməmişdi. Bunun ziyanı xeyrindən çox ola bilərdi.

Lələ bu oxşarlıqdan daha bir məqsəd üçün istifadə etməyi lazım bilirdi. Şair İsmayılın qəlbində kin və küdurət yox idi. O, ölüm hökmlərini verməyəcəkdi. O hökmlər lazım olan yerdə Lələ ikinci İsmayıldan-Xızırdan istifadə edəcəkdi. Lələ İsmayılın dalınca qala divarının üstünə çıxanda onları yanaşı gördü və sirrin açılmağı onu çıxılmaz vəziyyətdə qoydu. Artıq İsmayılla Xızır üz-üzə dayanıb söhbət edirdilər. Lələdən başqa onları biri-birindən çox az adam ayıra bilirdi. O, tez Xızırın qolundan tutub çadıra apardı.

– Soyun bu libası. Sənə kim icazə verib ki, çadırdan çıxasan?

– Özüm istədim.

– Özün çox şey istəyirsən. Bizi elə pis günə salarsan ki, sonra özümüzü düzəldə bilmərik. Mən dediyim kimi.

Geri qayıdıb əsl İsmayılla üz-üzə dayandı. Heydər oğlu İsmayıl Lələdən soruşdu:

– Bu nə mö’cüzədi, Lələ?

– Soruşma, mürşüdüm.

– Yox, mən bilməliyəm.

Lələ ona sirri açmağa məcbur oldu. O, İsmayılın qəzəblənəcəyini gözləyirdi, amma qəzəb yox, onda mülayim bir əhvali-ruhiyyə əmələ gəldi.

– Sən nə tədbirlisən, Lələ? – dedi.

– Ayrı əlacımız yoxdu.

Bu vaxt bir mürid içəri girdi və Lələyə dedi:

– Lələ bəy, Şirvanşah Qəbələdən qayıdıb, Qaleyi Buğurdla Gülüstanın arasında – Cəngi meşəsindədi.

– Qoşunu çoxdu?

– Bəli, bizdən çoxdu.

– Qorxma, şir ürəkli müridimiz. Hər müridin qəlbində aslan yatıb, o aslan əqidəmizdi. Bu söhbəti də heç yerdə yayma.

– Oldu!

– Sən mürəxxəssən.

O, İsmayılla bir fikrə gəlməliydi. Şamaxı onların əlindəydi. Şəhərdə qalıb Fərrux Yasarın hücumunu, mühasirəsini gözləmək onlar üçün ölüm demək idi. Şəhərdə heç bir azuqə yox idi. Suyun yolunu da onlardan yaxşı bilirdilər. Çatan kimi o suyu qurudacaqdılar. Tezliklə Şamaxıdan çıxmalı, döyüş üçün əlverişli yer seçməliydilər. Bu yeri isə o tapmışdı. Pirsaat çayının sağ sahilində, Pirquludan başlayıb uzanan dağ silsiləsi Cəbani kəndi yanında qurtarır, təpəliyə çevrilirdi. Cəbaninin üstündə geniş düzənlik vardı. Oradan Nağaraxanaya, Qız meydanına, aşağıdakı Şamaxıya yol vardı. Haradan qoşun gəlsə bu düzə qalxmaq üçün dağa dırmaşmalıydı. Belə bir vəziyyətdə onlar üstünlük əldə edəcəkdilər. O, bu fikirlərini İsmayıla danışdı və onun gözəl sifətindəki ifadə razı olduğunu söyləyirdi.

– Yaxşı fikirləşmisən. Bəs Fərrux Yasar qalada gizlənməyəcəkmi?

– Bu qədər qoşunu o qalada gizlətmək üçünmü gətirib? Gizlənməz. O bizim də qüvvəmizdən xəbərdardır yəqin. Ona görə meydan müharibəsinə çıxacaq. Qalada gizlənsə, Şirvan əhlinin gözündən düşər.

– Bu da düzgün fikirdi. Nə vaxt tərpənməliyik?

– Qaranlıq düşən kimi.

Qızılbaş sərkərdələri – Dədə bəy də, Qara Piri bəy də, Bayram bəy də, İlyas bəy də, Xadim bəy də, Əbdi bəy də onun fikri ilə razılaşdılar, hava qaralan kimi, qızılbaş qoşunu şəhərin gündoğan darvazalarından çıxıb Cəbaniyə yol aldı.

Cəbani düzündə payızın qızılı rənglərini yazda olduğu kimi yenə də qırmızı rəng əvəz elədi. Elə bil lalələr açmışdı. Qızılbaş qoşununun on iki ləçəkli atlas çalmaları lalələrə bənzəyirdi və bir azdan bu lalələrin çoxusu solacaqdı, amma qırmızı rəng daha da artacaq, taxılı biçilmiş bu düz al qırmızı boyanacaqdı və yəqin ki, hələ neçə illər bundan sonra da orada xışla torpağı çevirib dən səpməyəcəkdilər.

Qədim qəbiristanlıqla üz-üzə dayanan təpədə ağ çadır qurulmuşdu və orada qırmızı qızılbaş bayrağı dalğalanırdı. İsmayıl burada idi. Aşağıdakı düzdə isə qoşunun ehtiyat hissələri düzülmüşdü. Yuxarıda isə ön dəstələr səf çəkmişdi. Lələ bəy sərkərdələrlə yanaşı dayanmışdı. Onlar sağ tərəfdəki Qız meydanında göründülər. Ora Şirvan qoşunlarının məşq yeri idi. Qarşıda Pirqulu dağı görünürdü, oradakı Nağaraxanada Şirvanşahın qoşunu cəm olmuşdu və hərdən bir əsən meh o qoşunun yanında çalınan qara zurna və nağaranın sədalarını gətirib çıxarırdı. Bu sədalar döyüşə çağırış demək idi.

Cəbani düzündə qızılbaş qoşunu dayanmışdı. Ortada Dədə bəyin varsağı tayfası, sağ cinahda Qara Piri bəyin sərkərdəliyi ilə qacar tayfası, Solda Əbdi bəyin Ərzincandan, Ağbabadan gətirdiyi rumlu, şamlı, Ağbaba igidləri düzülmüşdü. Bayram bəy Qaramanlının

Qaraman igidləri ikinci cərgədə, Məhəmməd bəy Ustaclının tərəkəmələri ilə yanaşıydı. Bir sözlə bütün yeddi tayfa ilk dəfə burada birləşib eyni məqsəd ilə qanlarını tökməyə hazır idi.

Xadim bəy Xulafanın Talış və Biyəpiş atlıları təpənin arxasında pusquda dayanmışdı.

Döyüşdən qabaq söz aşıqların idi. Qopuzlarını, sazlarını sinələrinə sıxan aşıqlar qoşunun qabağında gəzişib oxuyurdular. Onlardan birinin səsi daha gur, zənguləli idi. O varsaq igidləri qarşısında varsağı oxuyurdu.

Qaibdən dəlil göründün,
Dədəm xoş gəldin, xoş gəldin!
Bizi sevib sevindirdin.
Dədəm, xoş gəldin, xoş gəldin!

İki can idik, birləşdik,
Məhəbbət qapısın aşdıq,
Şükür, didara irişdik,
Dədəm, xoş gəldin, xoş gəldin!

Üstümüzə yol uğratdın,
Gövhər aldın, gövhər satdın.
Ərliyini isbat etdin,
Dədəm xoş gəldin, xoş gəldin!

Aşıqlar da qazilər, müridlər kimi geyinmişdi, onlara da aşıq yox, elə qazi deyirdilər. Çünki onların oxuyub qoşunu cuşa gətirməyi elə müridlik, qazilik idi. Bundan sonra onlar qobuzlarını çiyinlərinə keçirib at belinə süvar olacaq, qılınclarını siyirəcəkdilər.

Cavan bir aşıq onu əvəz elədi. Bunun səsi əvvəlkindən də zil idi. O, bütün Qızılbaş qoşununun eşidəcəyi bir səslə zamanın sahibinin təzə şe’rini oxumağa başladı:

Allah, allah, deyin, qazilər,
Qazilər, deyin, şah mənəm.
Qarşu gəlin, səcdə qılın,
Qazilər, deyin, şah mənəm.

Qoşun “Qazilər, deyin, şah mənəm” sözlərinin mə’nasını yaxşı başa düşürdü. Bu döyüş İsmayılı şah da eləyə bilərdi, qul da. Şah olmaq üçün bu döyüşdə yeddi tayfanın birləşən igidləri qalib gəlməliydi. Şeyx İsmayıl da dünən yazdığı şe’ri bu gün döyüşdən qabaq aşıqlara oxutdururdu.

Uçmaqda tuti quşuyam,
Ağır ləşgər ər başıyam,
Mən sufilər yoldaşıyam.
Qazilər, deyin, şah mənəm.

Oynağa gedən atların belində oturan igidlər bir ağızdan qışqırdı:

– Qurban olduğum, sadağa olduğum, pirim, mürşüdüm, şah Xətaim! – Bu nidanı iki dəfə təkrar edən güclü səsdən sonra aşığın xoş avazı yenidən eşidildi:

Nə yerdə əksən bitərəm,
Handa çağırsan yetərəm,
Sufilər əlin tutaram,
Qazilər, deyin, şah mənəm.

Mənsur ilə darda idim,

Xəlil ilə narda idim,
Musa ilə Turda idim,
Qazilər, deyin, şah mənəm.

Diri-diri dərisi soyulan həllac Mənsurla dara düşən, İbrahim Xəlil peyğəmbərlə oddan keçən, tövratı yazan Musayla bərabər Allah təala ilə danışmaq üçün Turi-Sə’na dağına qalxan zamanın sahibinin bu sözlərindən sonra hər bir qazi, hər bir mürid təkbaşına Fərrux Yasar qoşununa qalib gələcəyinə əmin idi. Yenə də nidalar ucaldı və bu nidalar Nağaraxanada eşidiləndə zurnaçılar da, nağara çalanlar da əllərini bir anlıq saxladılar. Aşıq şe’rin arxasını oxudu:

Qırmızı tağlı ağ atlı,
Ağır ləşkər nisbətli,
Yusif peyğəmbər sifətli,
Qazilər, deyin, şah mənəm.

Xətaiyəm, ağ atlıyam, Sözü şəkərdən dadlıyam. Mürtəza Əli zatlıyam, Qazilər, deyin, şah mənəm.

– Qurban olduğum, sadağa olduğum, pirim, mürşüdüm, şah Xətaim!

Döyüşün başlanmağına bir xeyli qalmış Səfər gördü ki, Cəbani kəndinin yanından bir dəstə atlı yuxarı qalxır. O, toz arasındakı adamları saydı. Beş nəfər idi. Tez xəbər verdi və on atlı ilə onlar bu beş atlını yolun düzə qalxdığı yerdə gözlədilər. Bu beş nəfər qoşunun arxasından göndərilən düşmən qatilləri də ola bilərdi, düşmən casusları da.

Oxlar kamana qoyuldu, qılınclar qından siyrildi. Amma Səfər qabaqdakı atlının qoç buynuzuna oxşayan, çallaşmış bığlarını görəndə sevincindən bərkdən qışqırdı.

– Murad bəy, sən sağsan?

Murad Səfəri qızılbaş libasında görəndə əvvəl tanımadı, sonra göy gözlərini, seyrək dişlərini görüb onun Səfər olduğunu yəqinləşdirib tullanıb atdan düşdü.

– Mənəm, Səfər, mənəm.

– Sən hara, bura hara! Quş gəlsə qanad salar, qatır gəlsə dırnaq salar.

– Ay zalım, mənim qanadım, dırnağım səninkindən boşdu, niyə? Onlar qucaqlaşdılar. Oxlar kirişdən götürüldü, qılınclar qına girdi.

– Köməyə gəlmisən?

– Əgər buna kömək demək mümkündüsə. Ayrı bir işim də var. Məni Lələnin yanına apara bilərsənmi?

– İndi dava başlayacaq, Lələnin başı qarışıqdı.

– Mən onu döyüşdən qabaq görməliyəm. – Murad onun qulağına pıçıldadı:

– Əbih Sultanı gətirmişəm.

Səfər başını döndərib qarnı üstündə yəhərə bağlanmış adamı gördü.

– Onda məni gözlə, – deyə atına mindi, çapıb üzüyuxarı getdi. Bir azdan Lələ bəyin özü gəldi. Muradla görüşdü, atın üstünə sarınmış Əbih Sultanın başını qaldırdı. Tozdan onun sir-sifətini tanıya bilmədi.

– Elə bildin qaçacaqsan. Yox. Zamanın sahibinin heç kimdə heyfi qalmayacaq.

– Mənim alnıma da belə yazılıbmış, – deyəsən zəif səs eşidildi və o öskürdü.

Lələ Əbih Sultanın gətirilməyindən də istifadə eləmək fikrinə düşdü. Onları İsmayılın çadırının yanına gətirdi, özü çadıra girib əhvalatı danışdı, məsləhətləşəndən sonra çıxdı, keşikçilərə nəsə dedi, Səfəri də, Muradı da yanına çağırıb Əbih Sultanı əli-qolu bağlı saxlamağı onlara tapşırdı.

– Allah bu döyüşün taleyini bizə tapşırıb. İşdi tanrı bizdən üz döndərsə, onu haqqına yetirməyi sənə tapşırıram, – deyə Murada baxdı. Özü isə atına süvar olub qoşunun qabağına çapdı. Aşığa dayanmağı tapşırıb, özü atını dikdirə sürdü.

– Ya qazilər, Allah bizim tərəfimizdədir. O, özü elə indicə Şeyx Heydər ocağının Fərrux Yasar kimi qəddar bir düşmənini, Sultanəlinin, İbrahimin qatili Əbih Sultanı əli bağlı, qolu bağlı Zamanın sahibinin hüzuruna göndərir. Döyüşdən sonra atasının qatili də hüzura gətiriləcək. İki qatı düşmən bir zamanda e'dam olunacaq.

Bu xəbər də qoşunun heyrətini, inamını bir pillə daha artırdı.

Zamanın sahibi xəbər göndərdi ki, aşıqların heç biri döyüşə girməsin. Onların hər biri neçə müridin əvəzidir. Onları təhlükəsiz yerə göndərsinlər.

Onlar oxuyanda İsmayılın yadına Səkinə düşmüşdü. Onun cürə sazı, çaldığı “Misri”, “Dübeyti”, “Ruhanı” düşmüşdü və o elə kövrəlmişdi, elə kövrəlmişdi ki, dindirən olsa bəlkə də ağlaya bilərdi. Onu qəhərləndirən, kövrəldən təkcə aşıqların oxumağı deyildi. Səkinənin Borçalı ellərinə gedən bağlı, kilidli yolları açmaq onu kövrəldirdi. Birinci kilid burada qırılacaqdı. Lap Tiflis yanındakı Borçalı çökəyinə qədər yollar açılsa o bundan da betər kövrələrdi. Yollar açılacaqdı, Səkinə xala isə artıq yoxdur. Onun sazı da, çalğısı da yoxa çıxıb. Təkcə İsmayılın qəlbində aşığa, sözə-saza məhəbbət qalmışdı.

O çadırın qarşısından qızılı təpədə açılan lalələrə bənzəyən qızılbaş qoşununu görürdü. Bir azdan onların özləri başlarındakı çalma kimi qıpqırmızı olacaqlar. Lap elə onun özünə də qılınc endirə bilərlər. Amma o yolları açmaq üçün oğullar özlərini qurban verməlidir. Buna görə kövrəlmişdi.

Günəş Qobustan tərəfdəki dağların üstündə doğub bir nizə, kəmənd boyu qalxanda Şirvanşah qoşunu qızılbaş qoşununa hücuma keçdi. Onlar döyüş meydanını elə seçmişdilər ki, Şirvanşah qoşununun cinahlarına yer qalmamışdı. Cəbani düzü geniş olsa da, onun Nağaraxanaya tərəf uzanan hissəsi darısqal idi. İlk hücumda Dədə bəyin səfləri geri çəkildi. Amma bu qorxub qaçmağa oxşamırdı. Mütəşəkkil surətdə geriləyirdi. Bunu görən Şirvanşah Fərrux Yasar yeni-yeni dəstələri irəli göndərirdi. Elə bu da onun qoşununun aqibətini həll elədi. Piri bəy Qacarla Əbdi bəyin dəstələri onları araya aldılar. Şirvanşah qoşununun yarıdan çoxu bu məngənəyə düşdü. Qılınclar paralayır, əmudlar qalxanlara dəyib parçalayır, təpərlər atların başını iki yerə ayırırdı.

Fərrux Yasar səhvə yol verdiyini görüb qalan qüvvələrini, əsas qoşunu xilas etmək istəyəndə Məhəmməd bəy Ustaclı ilə Bayram bəy Qaramanlının igidləri onlara aman vermədən şil-küt eləməyə başladılar. – Qurban olduğum, sadağa olduğum, pirim, mürşüdüm, şah Xətaim! – nidalarına nə'rələr, iniltilər, bağırtılar qarışmışdı. Günortadan keçəndə Cəbani düzündən Cəbani kəndinin günbatan tərəfinə enən çökəklikdəki bulağın suyu qana dönmüşdü.

Cəbani düzündən aşağıya ilk süvarilər, atlarını itirən, silahlarını atan atlas şalvarlı fərraşlar qaçanda hiss olundu ki, artıq Şirvanşahın qoşunu özündən çox-çox az olan qızılbaşların qabağında dözməyib məğlub olub öz evində basılıb, indi qaçhaqaç başlayıb. Qoca hökmdar bunu görəndə tüpürdü, ürəyində söydü. Amma qaçanları geri qaytarmaq mümkün olan iş deyildi.

Gün əyiləndə əli-ayağı bağlı Əbih Sultan da başa düşürdü artıq bu dəfə ölümdən yaxasını qurtara bilməyəcək. Qızılbaş qoşunlarının sevinc nidaları daha güclü eşidilirdi. Başının üstündə dayanan Səfərə yalvarırdı:

– İnsafın olsun, heç olmasa qoy namazımı qılım. Heç vaxt namazımı qəzaya qoymamışam. – Onun son ümidi namaza çatırdı. Onu namaz qılmağa qoysaydılar, bəlkə də özünə çıxış yolu tapardı. Amma buna imkan vermirdilər.

– Sənin namazın da dinimizə, məzhəbimizə böhtandı, Əbih Sultan! Dinsiz kimi ölməyin məsləhətdi.

Murad burada oturub qala bilməmişdi. Atına minib özünü döyüşün qızğın yerinə vurub qılınc çalırdı. Birdən o geri qatlandı, sulanmış gözlərini çevirib Dədə bəyi gördü.

– Mənim nə günahım vardı, Dədə bəy? – deyə bildi.

Dədə bəy onu indicə tanıdı. Başında qızılbaş çalması görməyib nizəsini endirmişdi. O, peşman-peşman nizəsini onun fəqərə sütunundan çıxardı. Murad atdan yıxılıb arxası üstə düşdü, gözləri açıq qaldı. Artıq peşmançılığa heç bir yer qalmamışdı. Onun gözlərini qapamağa da imkan yox idi. Vuruşanların atlarının dırnaqları onun ruhdan xilas olmuş bədənini didib-tökürdü.

Fərrux Yasar gördü ki, döyüşdə uduzub, özü də ələ keçə bilər, atın başını döndərib geriyə çapmaq üçün hazırlaşdı. Onun ağarmış kirpikləri arasında yaş damlaları göründü. Qoca vaxtı belə bir döyüşdə, evin içində, qoşunundan çox-çox az qoşuna məğlub olmağı onun ürəyini kövrəltmişdi. Oğlanları yadına düşdü. Onlardan heç biri yanında yox idi.

Atını Nağaraxana tərəfə çapmağa başladı. Oradan Ağsu çayının kənarındakı möhkəm Buğurd qalasına sığınmaq üçün qaçırdı. Gülüstana qalxmağa heç bir ümidi yox idi. Yolları qızılbaşlar kəsə bilərdilər. Amma çox çapa bilmədi. Qarşıdan üç qızılbaş çıxdı. O, atı döndərə bilmədi. Qılıncını çıxardıb vuruşmaqdan başqa çarəsi qalmadı. Amma o qocalmışdı, qarşısındakılar isə cavan müridlər idi. Onlardan biri gürzü atın başına necə endirdisə, atın dizləri qatlandı, Fərrux Yasar atla birgə aşıb düşdü, ikinci mürid onun qalxmağına imkan vermədi. Yəhərdən bir başa onun üstünə tullandı, xəncərlə başını kəsdi. Qalxıb atına tərəf gedəndə dönüb baxdı. Dəbilqəsi düşüb ağ saçları açılan Fərrux Yasarın bədənsiz başına baxıb fikirləşdi: “Mən niyə belə ixtiyara əl qaldırdım. Belə hərəkət heç bir cavana şöhrət gətirmir”. Bu vaxt iki qızılbaş onların yanından beş-altı Şirvanşah döyüşçüsünü atdöşü eləyib aparırdı. Bu yerə çatanda onlardan biri hönkür-hönkür ağlayıb, o birilər də fəryad qopardılar. Cavan mürid onların bu hərəkətinə baxıb soruşdu:

– Bunlara nə olub?

– Nə oldu sizə? – deyə onları saxladı. Onlardan biri əlinin dalı ilə gözlərinin yaşını silib Şirvanşahın gözləri böyümüş atını göstərdi:

– Şirvanın çırağı söndü?

– Bu kimin atıdı?

– Qibleyi aləmin, Şirvanşah Fərrux Yasarın.

– Bu onun meyitidi? Onlardan dördü meyiti tanımadı.

– Özünün sifətini görməmişdik. Atını tanıyırdıq. Beşincisi daha bərkdən hönkürdü.

– Odur, odur!

Cavan mürid dedi:

– Ağla, ağlıyan günündü.

Hava qaralanda, insanlar qaraltılara çevriləndə, havada hələ də qızartı qalmışdı. Yerdəki qırğının qanı səmaya da yaxılmışdı. Döyüş artıq qurtarmışdı. Təkcə iniltilər, bir də öz dəstəsinin müridlərini səsləyən onbaşıların, yüzbaşıların səsi eşidilirdi. Zamanın sahibinin qərargahında toplanış təbili çalındı. Sərkərdələr çadırın yanına gəldilər. Onların hamısı salamat idi. Lələ bəy də, Qara Piri bəy də, Dədə bəy də, Bayram bəy də, Qaramanlı da, Xadim bəy Xulafa da. Təkcə İlyas bəyin sol əli yaralanmışdı. Hamı yorulsa da sevinc içindəydi. Dədə bəy isə dilxor olmuşdu. Muradı səhvən öldürməyi onu sarsıtmışdı, amma bunu heç kimə deməyi lazım bilmirdi.

Çadıra girib Şeyx İsmayılı təbrik etdilər, ona daha böyük qələbələr arzuladılar.

– Şirvanşah necə oldu? – deyə zamanın sahibi soruşdu.

– Gördüm deyən yoxdu, görünür qorxusundan vuruşma meydanına gəlməyib.

– Yerin altında da olsa belə tapılmalıdır.

Yalnız səhərisi gün müridlər Fərrux Yasarın öldürüldüyünü deyib onun meyitini zamanın sahibinə göstərdilər.

– Dəfn eləyin. Mənim daha heç bir arzum qalmadı.

– Ey mürşüdümüz, bəs Əbih Sultanı nə eləyək?

İsmayıl təpənin üstündə dayanıb döyüş meydanına baxırdı. İnsan meyitləri üst-üstə qalanmışdı. Düzəngah başdan-başa qan içindəydi. O, hələ belə qanlı döyüş görməmişdi və bu gördükləri onu sarsıtdı.

– Bu qədər qan bəs deyilmi, Lələ?

– Axı o böyük günah sahibidi.

– Düzdür, amma Cəbanini şəhidlərin qanı suvarıb. Onun murdar qanı bura tökülməyəcək. Həmin gün Cəbaniyə daha bir şəhidin qanı axdı.

Səfər ölənlərin arasında Muradın meyitini axtarırdı. Bir qızılbaşla bir şirvan döyüşçüsü qardaş kimi qucaqlaşıb ölmüşdü. Görünür ağrı onları biri-birinə mehribanlaşdırmışdı. Üst-üstə qalanan meyitlərin arasından keçdi. Birdən inilti eşitdi. Neçə meyiti kənara atdı, səs aydın

eşidiləndə o üzü üstə onların üstünə düşdü. Yaralı bir Şirvan əsgəri axırıncı gücünü toplayıb xəncərini onun böyrünə sapladı, özü də yıxılıb bir daha tərpənmədi. Səfər Muradı tapmamış özü də meyitə çevrildi və qanı axıb Şirvan torpağına hopdu. İsmayıl Xətai üç gün Cəbanidə qaldı. Şirvanlıları qızılbaşlardan ayırtdırmadı. Hamısını bir qəbiristanda, bütün adət-ən'ənə ilə dəfn elətdirib cənazə namazlarını özü qıldı.

Artıq Şamaxı əhalisi dağlardan, kəndlərdən evlərinə qayıtmışdı. Üçüncü gün yetmiş nəfər Şamaxı ağsaqqalı əllərində Qur'an ona iltimasa gəlib Şirvan camaatına aman diləyəndən sonra o, şəhərə varid oldu:

Mülayim bir qış gəlib keçdi. Həmin qışı İsmayıl Mahmudabadda keçirtdi. Qoşunun bir hissəsi isə bütün bu vaxtda Bakı qalasını mühasirəyə almışdı. Xəbərlərdən mə'lum olurdu ki, Qazi bəyin arvadı, Fərrux Yasarın gəlini qalanı təslim eləmək istəmir. Nəhayət o, İlyas bəyə kömək olaraq Xadim bəy Xulafanı göndərdi, özü də tab gətirməyib Bakı qalasına gəldi.

Boz, quru təpələrin arasındakı qala dənizə sığınmışdı. Möhkəm bürcləri vardı. Uzaqdan baxanda möhtəşəm Qız qalası görünürdü və o qalanın üstündə həmişə adam görmək mümkün idi. Ona danışdılar ki, həmin o adı bilinməyən şir ürəkli qadın Qız qalasının üstündə dayanıb baxır, bürcləri gəzir, hamını ürəkli olmağa çağırır. Qadının igidliyi neçə aydan bəri mühasirədə olan kişiləri də qeyrətə gətirir.

Zamanın sahibinin gəlməyi qızılbaş qoşununu da həvəsləndirdi. Neçə vaxtdan bəri qazdıqları lağıma barıt doldurub quzey tərəfdəki bürclərdən birini partlatdılar. Amma üç gün bu uçuqdan şəhərə girə bilmədilər. Şəhər əhli həmin yerə keçə tutmuşdu. Yaxına gedənlərin üstünə qaynar qır tökür, bardaqlara doldurulan neftə od vurub aşağı tullayırdılar.

Döyüşə baxan Şeyx İsmayıl Xətai Lələ bəyə dedi:

– Bura oddu-alovdu. Bu gəlin qayınatasından igid və cəsarətlidir. İndidən ona aman verirəm. Şəhər alınanda onun ləyaqətinə toxunan bir hərəkəti kim eləsə başı bədənindən ayrılmalıdır.

– Bəs?!!

İsmayıl tərs-tərs Lələyə baxdı.

– Gəlindəki bu qəhrəmanlıq əsl sərkərdələrə layiqdir. Düzdür, o mənim elçimi də öldürüb. Amma o cəzaya yox, ənam verilməyə layiqdir. Əhsən onu doğan anaya.

– Belədirsə onda bu bir qalaya görə niyə bu qədər qoşunu güdaza veririk?

– Şirvanın möhkəm qalası Bakı alınmalıdı. Fərrux Yasarın əsas xəzinəsi də buradadır. Onu ələ keçirməsək sonrakı işlərimiz fəna olar.

Üçüncü gün günortadan sonra qızılbaş qoşunu qalaya girdi və axşama yaxın Şirvanşahlar sarayı da, Qız qalası da onların əlində idi. Xəzinə də ələ keçmişdi. Qala qapıları taybatay açıldı. İsmayıl Qızılqanadın üstündə şəhərə girdi. Burada da onu şəhər ağsaqqalları qarşıladı. Duz-çörək gətirdilər. Damlardan onun atının ayaqları altına neçə örpək, çadra atdılar. O, Şirvanşahlar sarayını gəzdi, sarayın yanındakı məsciddə namaz qıldı. İlk dəfə bu məsciddə Bakı üləmalarının yanında "Məhəmmədin Rəsul illah, Əliyən Vəliyullah" nidaları eşidildi.

Bu vaxt Bakı axundu yerindən qalxdı, özünü saxlaya bilməyib əllərini yuxarı qaldırıb qışqırdı.

– Dinimizə toxunmayın, Əli Məhəmmədin valisi deyil.

– Bu, Bakı axundu Mirzə Xəlilullah idi.

Namaz, ibadət pozulmuşdu. Lələ bəy göstəriş verdi, həmin üləmanı məsciddən çıxarıb divanxanaya apardılar. Sanki bütöv bir daşdan tökülmüş divanxananın hər tərəfə açıq eyvanları vardı və aşağıda dayanan qızılbaşlar, Bakı əyani-əşrəfləri burada baş verənləri görürdü. Axundun başı divanxananın zirzəmisindəki deşikdən çıxarılmışdı. Lələ bəyin, qızılbaş ruhanilərinin ayaqları altında görünən bu ağ saç-saqqallı axundun ağarmış dodaqları tərpənir, o Qur'andan surələr oxuyurdu. Lahicanda olarkən İsmayıla şəriət dərslərini keçən Qazi Şəmsəddin Gilani onu istintaq eləyirdi. Onların ikisi də bir yaşda idilər, saç-saqqalları da bir-birinə bənzəyirdi. Amma birinin başı çox hündürdəydi, o birinin başı çox aşağıda.

– Qayıt Allah yoluna, Əlini vali bil, şiəliyi qəbul elə, Yezidə, Müaviyəyə lə'nət oxu, yenə də Bakı qazisi ol. Yoxsa...

www.kitabxana.net

– Saqqalımın bu vədəsində dinimi, yolumu, ərkanımı dəyişən deyiləm.
– Bir də deyirəm, qayıt yola.
– Yox. Sünnü doğulmuşam, sünnü kimi də öləcəm.
– Onda öl! Cəllad, işini gör!

Cəllad işini görəndə hamı üzünü döndərdi, ağlayanlar, sıtqayanlar oldu.

Elə həmin gün günahlarını bağışlamaq üçün Bakı əhli min tümən pul toplayıb verdi, həm də şiəliyi qəbul elədi.

İsmayılın qəlbində bir arzu vardı. Şəhəri ərinin yerinə idarə eləyən, mühasirədə mərdi-mərdanə dayanan gəlini uzaqdan da olsa görmək istəyirdi. Amma onun yerini xəbər verən yox idi. Şirvanşah sarayının əndərun hissəsindən də xəbər gəlmişdi ki, orada da yoxdur.

“Onda yəqin ki, Qız qalasındadır”.

Bu qəribə biçimli qalanı o görmək istəyirdi. Sərkərdələri ilə bərabər qalaya getdi. Divarın içindəki daş pillələrlə yuxarıya qalxırdılar. Hər mərtəbədə qurulu evlər, yüklər, qab-qacaq, silah, pal-paltar vardı. O qalanın lap üstünə çatanda bir dəstə göyərçin uçdu. O dönüb dənizə baxdı. Qalanın dəyirmi gövdəsindən ayrılan divar dənizə tərəf uzanmışdı və onun dibində dənizin ləpələri oynayırdı. Orada, divarın lap kənarında bir cəngavər dayanmışdı. Əlindəki qılıncın yarısı qırılmışdı.

Dəbilqənin altından çıxan qara saçları isə çiyinlərinə tökülmüşdü. İsmayıl döşünə çatan divara yaxınlaşıb dedi:

– Ey cəngavər, pəhləvan ürəkli qadın, yaxına gəl. Sən amandasan. Heç kimin kipriklərini qaldırıb sənə baxmağa belə haqqı yoxdur. Bu qədər igidliyin qarşısında nə istəyin varsa, ona yetirəcəyəm.

Onun sifətində qəribə bir kədər və nifrət vardı. Dinmədi.

– And içirəm bir Allaha, babam peyğəmbərin ruhuna və on iki imama. Sən azadsan. Qazi bəyin yanına səni göndərərəm, nə istəyin varsa...

– Mənim bir istəyim var, cavan oğlan. O istək də bax budur. O bu sözləri deyərək, əllərini yuxarı qaldırıb sanki qanad açdı. İsmayıla elə gəldi ki, Ərcivandan onunla başlayan, sür’ətlə keçən zaman dayandı. Ürəklər də döyüntüdən qaldı. Gözlər də bir nöqtəyə həddən artıq çox baxdı, külək kəsdi, qalanın məhvərinə dəyib göyə qalxaraq parçalanan iri dalğalar mirvari kimi xırdalandı, yumrulandı və bir daha qayaların üstünə, sulara tökülmədi. Hamısı öz yerində donub qaldı. Bu dayanmış zaman içində hərəkətdə olan təkcə zirehli geyimdə olan bu cəngavər gəlin oldu. Əlindəki zamanın sındırdığı qılıncla bərabər aşağıya, donub qalmış, mirvariləşmiş dalğalara tərəf qartal uçuşu ilə, xanım hərəkəti, xanım gözəlliyi ilə ehmallıca uçdu, uçdu, sulara çatdı. Onun düşdüyü yerdən yüzlərlə qızıl balığın ağzından çıxan qabarcıqlar qalxandan sonra əvvəlki dalğalar yenə başladı, göydə donub qalmış mirvari damlaları ucuz bir şey kimi səpələndi.

Onun bu mərdanə hərəkəti İsmayıldan ötrü zamanı dayandırıb saxladı. İgidliyini, cəngavərliyini yadigar qoyub getdi. Təkcə adını özü ilə apardı. Onun adını İsmayıl tarixçilərə qızıl suyu ilə yazdırardı. Amma heç kəs onun adını demədi. “Qadının adı yad kişilərin dilində çəkilsə, qəbahət olar, binamusluq olar. Deməyin mənim adımı”. Hamıya belə göstəriş vermişdi. Bir də ki, o ərinin zirehini geyirdi, dəbilqəsini başına qoyurdu, onun adından danışırdı.

“Necə də anama oxşadı. Onun kimi düşmən əlinə keçməmək, abır-ismətini qoruyub saxlamaqdan ötəri belə yol seçdi. Əhsən, bərəkallah belə yurd qızına, qadınına”.

İsmayıl oturub başını əlləri arasına qoyub xeyli fikrə getdi.

## ŞƏRUR SƏFƏRİ

Qızılbaşlar Cəbanidə Şirvan qoşununu darmadağın etsə də, Bakı qalasını alsa da, nə Şamaxının üstündəki Gülüstan qalası, nə də Ağsu çayı vadisindəki Buğurd qalası təslim olmamışdı. Bakıdan qoşun yenidən Şamaxıya qayıtdı və Xınıslı kəndində düşərgə salıb Qız qalası və Pirdirəyi dağları arasındakı dərəni kəsdi, bir də Qız qalası dağı üstündən Gülüstanı mühasirəyə aldı.

Günlər ötür, həftələr keçir, amma Gülüstan qalasının təslim olacağı gün görünmürdü. Onun divarlarının yanına qalxmaq belə mümkün deyildi. Oradakıları yalnız və yalnız aclıq hesabına təslim eləmək olardı, o da hələlik mümkün deyildi. Hər səhər, hər günorta, hər axşam qala bürcünə qalxan carçı gur səslə qızılbaşları söyür, bürclərdən qala müdafiəçilərinin süfrələrindən artıq qalan yeməkləri aşağı tökürdülər.

İsmayıl da ümidini üzmüşdü. Bir gün o vəziri - "Azərbaycanın açarı" Zəkəriyyə Keçəçini və Lələ bəyi götürüb ova çıxdı. Kəklikotu ətri bürümüş qayalıqlarda kəklik ovlamaq həvəsinə düşmüşdü. Onlar hündür qayanın üstünə qalxdılar. Yaxında haradasa kəklik oxuyurdu. Amma İsmayıl onu vurmaq üçün tələsmədi. Göstəriş verdi, süfrə saldılar. Hər üçü süfrə başında oturdu. İndi Zəkəriyyə Keçəçi də, Lələ də gördü ki, onun fikri özgədir. Ova yox, onlarla məsləhətə gəlib. Çörək kəsdi, dürmək eləmək istədi, amma dayanıb birdən-birə Keçəçinin sifətinə baxdı.

– Sənə "Azərbaycanın açarı" ləqəbini vermişəm. Göstər öz ləqəbinə layiq olduğunu, Azərbaycan bağlı kiliddi. Onu necə açım?

Keçəçi sağ əlini saqqalında gəzdirib dedi:

– Mənim fikrim hazırdı.

– Buyur görüm.

– Əlvənd Mirzə ən yaxın dostunu, həmkarını itirdi. Ona Murad kömək durmayacaq. Şirvanı fəth eləmisən.

– Hanı fəth eləmişəm. Bu Gülüstan bizə cəhənnəm zəbanəsi verir. Paslanıb qalmışıq burada.

– Düzdür. İndi bizə Gülüstan qalası lazımdırmı? Şirvanşahmı olmaq istəyir böyük mürşüdümüz? Əlvəndin üstünə yeriməliyik. Vaxtı, fürsəti düşmənə veririk. Əlvənd çürük qozdur. Onu dişimizə salsaq, dişimiz yox, o sınacaq.

Lələ bəy dedi:

– Mürşüdüm, bura gəlməmişdən qabaq xəbər gəldi, Əlvənd Naxçıvanda qoşun toplayır.

– Bəs niyə mənə demədin?

– Ovdan qabaq mübarək fikrini yayındırmaq istəmədim.

– Sərkərdəsi kimdi?

– Məhəmməd Qorçu bəy.

– Yengəsi Gülüm olanın gözünə külüm olar. – İsmayıl güldü. Amma Zəkəriyyə Keçəçi gülmədi.

– Qorçu bəy igid sərkərdədi. Onun gücünü gözümüzdən qaçırmayaq gərək.

Onlar xeyli məsləhətləşəndən sonra geri qayıtdılar. Axşamı yatdılar, səhər açılan kimi İsmayıl sərkərdələrini yanına çağırdı. Sərkərdələr gəlib bir-bir oturdular. İsmayıl bir-bir onlara baxdı. Nazik tül pərdənin arxasından o çox yaxşı görürdü. Onu isə görmürdülər. İki qalibiyyət onları daha da qürurlu eləmişdi. Hamısı da yanıb qaralmışdı. Daha da yaşlaşmış, müdrikləşmişdilər. Hamısı sevincli, gülərüz idi, təkcə Dədə bəydən başqa.

– Dədə bəy çox fikirlidir, görünür elatın fikrini çəkir.

– Yox, şahım, mürşidim. Heyfimizi aldıq, dostum Şeyx Heydərin intiqamını aldıq. Amma əlimdən bir xəta çıxıb.

– O nə xətadır?

– Murad bəyi tanıyırdınız? Şəmasə müsibətindən qabaq bizə xəbər çatdıran Murad bəyi deyirəm. Tanımayıb nizəni kürəyinə sancdım!

– Əbih Sultanı gətirən?

– Bəli.

– Allah rəhmət eləsin, goru nurla dolsun. Xəta, bəli, böyük xətadı.

Bir an fikrə getdilər.

– Hər il ona ehsan verəcəm, heç kimi yox idi.

– Yaxşı, bu boyda qələbə qurbansız olmazdı, ruhu şad olsun. Mən sizi buraya bir məqsəd üçün çağırmışam. Gecə babam cənabi Əmir yuxuma girmişdi.

Onlar hamısı salavat çevirdi.

– Mübarək olsun, mübarək olsun.

– Həzrət Mürtəza Əli, yaranmışların ən gözəli dedi ki, ya zamanın sahibi, niyə oturub bu Gülüstan qalasının yanında qalmısan. Təbriz taxtı səni gözləyir. İndi mən sizdən soruşuram: bizə hara lazımdı? Gülüstan, ya Azərbaycan?

– Azərbaycan, – deyə hamı bir ağızdan dilləndi.

Şamaxıdan çıxanda Qızılbaş qoşunu tək bir əsir aparırdı. – Əbih Sultanı. Zamanın sahibi əsir düşən şirvanlıları pulla alıb azad eləmişdi. Bu qədim adət idi. Döyüşdə əsir düşənləri kənar adamlar da savab qazanmaq üçün alıb buraxırdılar. Amma bu dəfə İsmayıl heç kimə bu icazəni verməmiş, hamını özü azad etmişdi. Pullar isə qızılbaş qoşunlarına çatmışdı. Azad edilən qulların xeyir-duasından əlavə camaat arasında hörmət qazanmaq üçün bu böyük xeyirxahlıq sayılırdı. Əbih Sultanı isə hələ də aparırdılar. Vaxtında yemək-içməyini verir, amma əllərindən, ayaqlarından kündələri açmırdılar.

Qoşun Naxçıvana çatmışdı. Şəhərə daxil olmadılar. Əlvənd Mirzənin ordugahının günbatan tərəfdə, Şərur düzündə, Arpa çayın kənarında salındığı xəbərini alan kimi sür’ətlə buraya yola düşdülər. Bütün yol boyu qoşundan qabaq Qara Piri bəyin atlıları gedir, onların qaldırdığı toz qızılbaşlara nişangah olurdu. Ona görə də İsmayıl Qara Piri bəyə “Tozqoparan” ləqəbi vermişdi.

Qızılqanadın yəhərində oturan İsmayıl qəribə fikirlərə dalmışdı. “Elə bilirdim bəs Şirvanşahı bassam, atamın intiqamını alsam, məndən xoşbəxt adam yoxdur. İndi elə bil heç nə etməmişəm. İstəyirəm Təbrizi tutam, taxtı ələ keçirəm. Bundan sonra nə olacaq? Acgözlük eləmirəm görəsən? Yox, bu acgözlük deyil, tayfaları birləşdirmək, möhkəm ölkə yaratmaq üçün hələ nə qədər işlər görmək lazım gələcək”.

Onlar dərədən qalxdılar. Dikin üstünə çıxanda başı qarlı, nəhəng, bir az da qozbel görünən Ağrı dağı onun gözləri qarşısında dayandı. Göyçə gölünün yanından enəndə görməmişdi, qayıdanda Ağrı dağı dumanda olmuşdu. İndi onu apaydın görürdü. Zirvədən yuxarıda bir dilim ay, başı üstündə günəş vardı.

– Lələ, bu əlamətlərə fikir verirsənmi? Günəş mənim başımın üstündə dayanıb, ay isə Əlvənd Mirzədən də o tərəfdə.

– Bəli. Bu gözəl əlamətdi. Əlvənd Mirzə də heç özünə yaxşı yer seçməyib. O görünən Ağrı dağıdı, bu yerə Şərurdan başqa Şəril də deyirlər. Yəqin ki, Şər el deməkdi. Quzeydəki dağlar Əyircə yaylaqlarıdı. Ağrı, şər, əyricə...

– Hələ Arpa çayını demirsən. Arpanın aşan-daşan, qan-qan deyən vaxtları keçib. Qızılbaş qoşunu Əlvəndi süpürüb Araza tökəcək.

Qabaqda bir-birinə söykənən səkkiz dairədən ibarət türbə, türbənin qarşısındakı iki uca minarə göründü. Türbənin kaşı naxışları uzaqdan oxunurdu. Orada “Allah” yazılmışdı. Minarələrin birinin üstündə isə leyləklər yuva qurmuşdu. O quşlar qoşunu da görüb uçub getmədilər. Biri dimdiyini şaqqıldadırdı.

– Bu hansı kənddir?

– Qarabağlar. Görünür bu türbədə yatan kimdisə onun ruhunu əziz tutub kənd əhli həmişə qara geyinib, qara bağlayıb. Kəndin də adı belə qalıb.

Uzaqdan toz qalxdı. Atlılar çapa-çapa gəlirdilər.

– Tozqoparan gəlir.

Doğrudan da gələn Qara Piri bəyin özü idi.

– Şahım, mürşüdüm, gürcü bəyləri öz qoşunları ilə Çuxur Səəddə dayanıb, sənin mübarək qədəmlərini Şərur torpağına basmağını gözləyirlər.

İsmayıl Şirvandan tərpənəndə Axalsxa knyazı Gorquram bəyə (Kvarkvareyə), Axalkala knyazı İsgəndər bəyə (Aleksandr bəyə), bir də Mirzə bəyə məktub göndərib yazmışdı ki, əgər Əlvəndlə vuruşmada mənim tərəfimdə olsanız, onda padşah keçəndən sonra sizi vergilərdən azad edəcəyəm.

O, hələ Ərzincandan qayıdanda o knyazlara öz gücünü göstərmişdi, amma köməyə gələcəklərinə ümidi yox idi. Budur gəliblər. Demək bu knyazlar Əlvənd Mirzədən çox onun uğuruna inanırlar.

– Qüvvələri nə qədərdir?

www.kitabxana.net

– Hər biri üç min atlı ilə gəlib.

– Lələ bəy, eşidirsənmi?

Lələ bəy bütün məsələlərə ehtiyatla yanaşırdı. Bu doqquz min atlı döyüşdə böyük bir qüvvəyə çevriləcəkdir. Amma bilmək olmaz. Hazırda hakimiyyət Əlvənd Mirzənin əlindədir. Əgər o, bu knyazlara məktub göndərib İsmayıl kimi təklif etsə, vergiləri almayacağını desə, onlar öz fikirlərindən dönməzlərmi? Bəlkə də artıq Əlvənd Mirzə öz işini görüb, bu bir hiylədir. Doqquz min atlı yeddi mindən az qızılbaş müridinə qarışandan sonra onları qılıncdan keçirməzmi. Alınan mə'lumata görə Əlvənd Mirzənin yaxşı silahlanmış otuz minə yaxın qoşunu vardı. Ona qalib gəlmək bir o qədər də asan iş deyildi. Lələ bəy o qoşunun içərisinə əvvəldən öz adamlarını göndərmişdi. Silahlı müridlər qoşun arasında İsmayılın Allah tərəfindən göndərilməsindən, onun mö'cüzələrindən danışır, çoxlarının ürəyinə qorxu salırdılar.

Əlvənd Mirzə isə Əli bəy Cəyirlinin məsləhətlərinə qulaq asıb Məhəmməd Qorçu bəydən şübhələnmişdi. Onun İsmayıl tərəfinə keçməsindən qorxurdu. Ona görə də bu igid sərkərdəyə əl-qol açmağa imkan vermirdi. Qoşunla bərabər buraya yüzlərlə dəvə gətirmişdilər. Bütün Şərurdakı dəvələri də toplamış, qoşunun gündoğan tərəfindən bu dəvələri düzdürüb onları zəncirlə bir-birinə bənd etdirmişdi. Qoşunun günbatan tərəfində Arpa çayının hündür sahili, arxasında isə Araz çayı dayanmışdı.

Döyüşdən əvvəl Qorçu bəy Əlvənd Mirzəyə yalvarırdı:

– Mənə inan hökmdar. Qəfəsə salınan qoşundan qalibiyyət gözləmə. Düşmən yuxarıdan gəlir, biz isə aşağıdayıq. İzin ver qoşunu öz bildiyim kimi düzüm.

– Öz bildiyini evində, hərəmxananda eləyərsən. Burada mən deyən olacaq. Yeddi min Ərdəbil səfili nədir ki, ondan qorxasan. Elə buradaca işlərini bitirərik.

– Onlar da ağılsız adamlar deyillər. Süvarilərin tərpənməyinə yer qalmayıb. Dəvələri götürək.

– Dəvələri götürsəm, sənin satqın süvarilərin hərəsi bir tərəfə qaçacaqlar.

Qorçu bəy onun sözündən çıxa bilmədi, döyüşün də taleyini bu sıxlıq, qoşunun qəfəsə salınması həll etdi.

Tozqoparan Piri bəy Qacar dağ seli kimi igidlərini yerindən tərpənməyən qoşuna çatdıranda Əlvənd Mirzənin qəfəsə salınmış ordusu can verən əjdaha kimi çabalamağa başladı. Qılınclar qalxanlara dəyəndə dəvələr anqırır, yanlarındakı adamlara, atlara ağız atırdı. Qorxuya düşən qoşun özünü dəvələrin arasına vurub zəncirləri yarıb keçmək istədi. Bir piyada zəncirə dolaşdı. Ürkən dəvələr dartıb onu zəncir arasında əzdilər. Bir sözlə, qoşuna bir çaxnaşma düşdü ki, onun qabağını heç nə ilə almaq mümkün olmadı. Əlvənd Mirzə otuz minlik qoşununu pərən-pərən düşən görüb Əli bəy Cəyirli ilə bərabər atlarına minib aradan çıxdılar.

Təbrizin Nəsriyyə məscidinin hündür minarəsində əzançı işini qurtarıb yerini carçıya verdi. Carçı aşağıdakı meydana yığılanlara üzünü tutub uca səslə deyirdi:

– Səfəvilərin ən qəddar düşməni, zamanın sahibi, cənnətməkan Şah İsmayıl Xətainin qardaşlarının qatili, atasının ölümünə fitva verən, ölkəni qurd kimi parçalayan, dağıdan Əbih Sultan indi e'dam olunacaq. Bu e'damı ölkənin əhalisi çoxdan gözləyir. Onun dağ çəkmədiyi sinə qalmayıb. Şah İsmayıl Xətai həzrətləri buyurub ki, cəzası bu müqəddəs, yüksək minarədən günahkar torpağa atılmaqdır. Ona bundan yaxşı cəza tapmaq mümkün deyil.

Carçı səsini kəsdi. İki mürid əl-ayağı bağlı Əbih Sultanı minarənin eyvanına çıxartdılar. Onu soyuq tər basmışdı və görürdü ki, bu daha onun sonudur. Buradan onu heç bir qüvvə xilas eləyə bilməz. "Namərd dünya, məni belə namərdliklə öldürürsən, nə olar, bu heyif yerdə qalmaz". Bu sözlər onun sayıqlamaları idi. Bilirdi ki, ölkədə bir nəfər də onun tərəfdarı qalmayıb. Hamı ona nifrət eləyir. Odur, buradan düşəcəyi yerə adamlar daş diyirləyib gətirib. "Mən də çox daş düzmüşəm. İntiqamımı sağlığımda almışam..."

Müridlərdən biri onun çiynindən, o birisi ayaqlarından tutub yellədilər, minarədən aşağı atdılar. Ömrünün son anlarını o bağırdı, bədəni daşlara dəyib yastılanandan sonra birdəfəlik səsi kəsildi.

Səhərisi gün Şah İsmayıl Xətai taxta çıxacaq. Artıq zərbxanalarda onun adı ilə pullar kəsilir, məscidlərdə ona xütbələr oxunurdu.